MƏHƏBBƏT PAŞAYEVA



# AZƏRBAYCANIN QƏDİM DÖVLƏTLƏRİ

"İQTİSAD UNİVERSİTETİ" NƏŞRİYYATI

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

**MƏHƏBBƏT TOFİQ QIZI PAŞAYEVA**

# AZƏRBAYCANIN QƏDİM DÖVLƏTLƏRİ

**(E.ə.III minillik - III əsrin əvvəlləri)**

***Dərs vəsaiti***

Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi-Metodiki Şurasının 06 iyul 2018-ci il tarixli 05 saylı protokolunun qərarı ilə çapa tövsiyə edilib.

**BAKI – 2018**

**Elmi redaktor:** tarix üzrə elmlər doktoru, professor
**Vəkil Həsənov**

**Rəyçilər:** tarix üzrə elmlər doktoru
**N.Müseyibli**

tarix üzrə elmlər doktoru, professor
**A.Seyidov**

Paşayeva M.T. Azərbaycanın qədim dövlətləri. (e.ə. III minillik - III əsrin əvvəlləri). Dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı - 2018. - 288 səh.

Dərs vəsaiti Azərbaycan tarixinin ən qədim zamanlardan başlayaraq, eramızın III əsrinədək olan böyük bir dövrünü əhatə edir. Vəsaitdə qədim Azərbaycan ərazisində e. ə. III minilliyin əvvəllərindən mövcud olmuş Kuti, Lullube, Turukki kimi qədim Tayfa İttifaqları, həmçinin e.ə. I minillikdən etibarən meydana gələn Manna, Midiya, Atropatena və Albaniya kimi qədim Azərbaycan dövlətlərinin tarixi, onların taleyi, yadelli işğalçılarla mübarizəsi, iqtisadi həyatı, mənəvi mədəniyyəti, dini dünyagörüşləri, şəhərsalma ənənələri, eyni zamanda qədim Azərbaycanda gedən etnik proseslər kimi bir sıra problemlər arxeoloji mənbələr və yazılı abidələr əsasında ətraflı şərh edilir. Dərs vəsaiti ali məktəb müəllimləri, tələbələr və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

© Paşayeva M.T. - 2018
© "İqtisad Universiteti" Nəşriyyatı (UNEC) - 2018

# GİRİŞ

Azərbaycan dünyanın ən qədim mədəniyyət mərkəzlərindən biridir. Azərbaycan xalqı bu torpaqlarda çox qədim dövrlərdən etibarən öz zəngin mədəniyyətilə yanaşı dövlətçilik ənənələrini də yaşatmışdır. Azərbaycanın e.ə. III minillikdən başlayaraq eramizin III əsrinə qədərki tarixi bu torpaqlarda ən qədim tayfa birlikləri, erkən dövlət qurumları və dövlətçilik ənənələrinin əsasının formalaşdığı dövrdür. Bu dövrdə Azərbaycan ərazisində bir-birini əvəz edən Aratta, Kuti, Lullubi, Turukki kimi ən qədim tayfa birlikləri, Manna, Atropatena, Albaniya kimi qədim dövlətlər mövcud olmuşlar.

Azərbaycanın qədim dövlətçilik tarixinin, dövlətçilik ənənələrimizin, tarixi köklərinin ali məktəblərdə ətraflı şəkildə tədrisi gənc mütəxəssislərdə yüksək intellekt səviyyəsinin, humanitar və siyasi hazırlıqların yüksəldilməsi, tələbələrdə vətənpərvərlik ruhunun tərbiyə edilməsi, onlara milli şüurun və milli özünüdərk hisslərinin aşılanması baxımından mühüm əhəmiyyət kəsb edir. Ümummilli liderimiz Heydər Əliyevin tövsiyə etdiyi kimi: **"Azərbaycan xalqının tarixinin tədrisinə çox ciddi fikir vermək lazımdır... Gənclərimiz öz tarixini, öz tarixi keçmişini gərək yaxşı bilsinlər. Çünki mənəviyyatımız, gənclərin bugünkü və gələcək mənəviyyatı bununla bağlıdır".**[1]

Məqsədimiz tarixi olduğu kimi tələbələrə çatdırmaqdır. Ümummilli liderimizin: "**Xalq gərək daim öz kökünü xatırlasın. Tariximiz bizim üçün dərs olmalıdır. Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır. Tariximizin hər səhifəsi bizim üçün əzizdir."**[2] kimi müdrik fikirləri tariximizin öyrənilməsində və öyrədilməsində bir istiqamət olmalıdır. Təqdim olunan dərs vəsaiti qeyd olunan prinsiplər əsasında tərtib edilmiş və Azərbaycanın qədim dövlətləri haqqındakı biliklərin zənginləşdirilməsinə xidmət edir.

Dərs vəsaitində Azərbaycanın qədim dövlətləri olan Manna, Atropatena, Midiya, Albaniya kimi dövlətlərin sosial-iqtisadi, siyasi və mədəni tarixi, e.ə. III minillikdən etibarən Azərbaycan ərazisində baş verən tarixi proseslər, dövlətlərin siyasi quruluşu, hökmdar sülalələrinin fəaliyyəti, idarəetmə sistemi, Azərbaycanın Əhəməni,

---

[1] http://www.anl.az/down/meqale/az_muellimi/2013/may/309703.htm

[2] http://heydar-aliyev-foundation.org/az/content/index/85/

Sasani kimi imperiyaları ilə siyasi-iqtisadi münasibətləri, dövrün ictimai, iqtisadi, mədəni və maddi həyatı geniş şərh edilmişdir. Qədim Azərbaycanın beynəlxalq əlaqələri, mədəniyyət tarixi problemləri də dərs vəsaitinin əsas mövzularındandır. Vəsaitdə Azərbaycanın erkən dövlətlərinin siyasi-iqtisadi, mədəni təşəkkül tarixi ilə yanaşı onun qədim əhalisinin etnik tərkibi, mənəvi mədəniyyət məsələləri də ətraflı işıqlandırılmışdır.

Müxtəlif sivilizasiyalar, mədəniyyətlər və dinlərin qovuşduğu bir ərazidə formalaşan Azərbaycan xalqı zəngin tarixi yaddaşın və özünəməxsus mədəni irsin varisidir və ən qədim türk məskənlərindən biridir. Qədim dövrlərdən bəri müxtəlif tayfalar bu zəngin torpaqlara axışaraq yerli türk tayfaları ilə qaynayıb - qarışaraq müasir Azərbaycan xalqının formalaşmasında özünəməxsus rol oynamışlar. Tarixi zaman çərçivəsində etnoslararası inteqrasiya nəticəsində bu gün "azərbaycanlılar" adı altında qəbul etdiyimiz vahid birliyin özülü qoyulmuş və onun tərkibinə aparıcı türk amili ilə yanaşı Azərbaycanda məskunlaşmış qafqazdilli və irandilli xalqlar da daxil olmuşdur. E.ə. I minillikdən etibarən yaranmış Manna, Midiya, Atropatena, Albaniya kimi dövlətlərin hər biri Azərbaycanın etnik-siyasi tarixində, ölkə ərazisində vahid xalqın təşəkkülü prosesində mühüm rol oynamışlar. Kuti, Lullubi, Turukki kimi qədim Azərbaycan tayfalarının varisləri olan mannalılar, atropatenlilər, həmçinin Azərbaycanın antik və orta əsr mədəniyyətinin əsas yaradıcılarından biri olmuş albanlar Azərbaycan xalqının etnogenezində mühüm rol oynamışlar. E.ə.I minillikdə Qafqaz Albaniyasında məskun olan alban tayfalarının Alban Tayfa İttifaqında birləşməsi ilə vahid alban mədəniyyətini formalaşmışdı. Aparıcı rola malik olan alban etnonimi Albaniyada yaşayan çoxsaylı bir etnosun adı olmaqla bərabər, həm də Albaniyada yaşayan bir çox tayfaların ümumiləşdirici adı idi. Müasir dövrdə də Azərbaycan xalqı tarixi ənənələrə sadiq qalmış, tariximizin qədim mərhələsində Alban Tayfa İttifaqında birləşdikləri kimi bu gün də alban tayfalarının varisləri olaraq azərbaycançılıq ideologiyası ətrafında birləşmişlər. Bu etnosların hər biri öz etnik adlarını da qoruyub saxlamaqla bərabər Azərbaycan torpağında məskun olduqları üçün özlərini, həm də azərbaycanlı adlandırırlar.

Azərbaycanın cənubunda və şimalında dövlətçilk ənənələrinin formalaşması müxtəlif tarixi dövrlərə təsadüf edir. Azərbaycanın cənubunda dövlət qurumu daha erkən dövrdə təşəkkül tapmışdır. E.ə. III minilliyin I yarısında Azərbaycanın cənubunda, qaynaqlarda

Aratta adlandırılan ölkənin adı çəkilir. E.ə. III-II minillikdə bu ərazilərdə Urmiya gölü ətrafında lullubi, kuti, su, turukki kimi tayfalar yaşamışlar. Azərbaycanın bu qədim tayfaları hələ e.ə. IV minilliyin sonu III minilliyin əvvəllərində Kuti, Lullubi, Turukki kimi güclü tayfa İttifaqlarında birləşərək qədim dünya tarixində özünəməxsus iz qoymuşlar. 100 ilə yaxın Mesopotamiyanı öz hakimiyyəti altında saxlayan Kuti Tayfa İttifaqının sərhədləri şimalda Urmiya gölünün qərbindən cənuba - İran körfəzinə qədər uzanırdı. Urmiya gölünün cənubunda məskun olmuş lullube və turukkilər də Qədim Şərqin güclü və cəsur tayfalarından biri olub öz güclü tayfa ittifaqlarını yaratmışdılar. E.ə. III minilliyin sonlarından (e.ə. XXII əsrin axırlarında) bu tayfa ittifaqları süquta uğrayaraq xırda vilayətlərə parçalansalar da e.ə. II minillik boyu bu tayfalar tarix səhnəsində öz mövcudluqlarını davam etdirməkdə və qaynaqlarda onların adları çəkilməkdə idi. Azərbaycanın cənubunda meydana gələn erkən dövlət qurumlarının Mesopotamiyanın şəhər dövlətləri ilə siyasi, iqtisadi və mədəni əlaqələri mövcud idi. Kuti, lullube, turukki kimi qədim Azərbaycan tayfalarının yaratdıqları ilk dövlət qurumları və ya etnik-siyasi birliklər qədim Şərqin hərbi-siyasi tarixində mühüm rol oynayaraq Dəclə - Fərat vadilərində yerləşən qədim Şumer, Akkad və Assur (Assuriya) dövlətləri ilə yanaşı regionda baş verən hərbi-siyasi hadisələrdə yaxından iştirak etmişlər.

E. ə. I minillikdə Azərbaycan torpaqlarında meydana gəlmiş Manna, Midiya, Skif (İskit) şahlığı, Atropatena və Albaniya kimi qədim Azərbaycan dövlətləri təkcə Azərbaycanın deyil, eləcə də dünyanın dövlətçilik mədəniyyəti tarixində mühüm yer tutur. Onlar Azərbaycanda dövlət idarəçiliyi mədəniyyətinin daha da yüksəlməsində, ölkənin iqtisadi-mədəni, etnik - siyasi tarixində, eləcə də vahid Azərbaycan xalqının təşəkkülü prosesində mühüm rol oynamışlar. E.ə. I minilliyin əvvəlində (e.ə. IX əsrdə) Azərbaycanın cənubunda-Urmiya gölü ətrafında meydana gəlmiş ilk dövlət Manna dövləti olmuşdur. Qədim Azərbaycan tayfalarının Assuriyanın işğalçılıq siyasətinə qarşı mübarizəsi bu tayfaların vahid dövlət halında birləşməsi zərurətini meydana gətirmişdi. E.ə. IX-VIII əsrlərdə Manna artıq güclü bir dövlətə çevrilmişdi. Mannanın ərazisi şimalda Araz çayına çatırdı, cənubda və cənub-şərqdə isə Parfiya və Midiya ilə həmsərhəd idi. E.ə. VIII əsrin sonunda Mannadan cənub şərqdə Midiya dövləti yaranmış, e.ə. VII əsrin əvvəllərindən başlayaraq, Ön Asiya ərazilərinə yayılan kimmer, skif - sak tayfaları Azərbaycanda-Urmiyadan

şimalda və qərbdə Skif padşahlığını yaratmışlar. Azərbaycanın şimalında ən qədim dövlət qurumu e.ə. IV əsrin sonu - III əsrin əvvəlində yaranan Albaniya dövləti olmuşdur. Qədim Azərbaycan dövləti Albaniya bütövlükdə Qafqazın erkən orta əsr tarixində mühüm yeri olan bir dövlət olmuş, regionun iqtisadi, siyasi və mədəni həyatında olduqca əhəmiyyətli rol oynamışdır. Qafqaz Albaniyasının tarixi və maddi mədəniyyəti Azərbaycan tarixinin mühüm və ayrılmaz bir parçasıdır. Müstəqil Azərbaycan Respublikasının mövcud olduğu Şimali Azərbaycan ərazisində e.ə. IV əsrdən eranın VIII əsrinin əvvəllərinədək mövcud olmuş Albaniyanın sərhədləri bütün bu dövrlərdə - 1000 il boyu, demək olar ki, sabit qalmışdır. IV əsrdən etibarən Sasanilərin tətbiq etdiyi siyasi-inzibati bölgüsü nəticəsində Azərbaycanın həm şimalı -Albaniya, həm də cənubu -Atropatena bir inzibati bölgüdə birləşdi. Bu dövrdən başlayaraq Şimali Azərbaycan ərazisi tədricən siyasi və coğrafi anlayış kimi Aturpatkan Adurbadaqan (Azərbaycan) adlanmağa başlayır.

Vəsaitdə Azərbaycanın qədim dövr tarixinin mənbəşünaslığı və tarixşünaslığı, həmçinin Manna, Midiya, Atropatena, Albaniya dövlətlərinin tarixi yazılı mənbələrin arxeoloji materiallarla müqayisəsi əsasında elmi əsaslarla izlənmişdir. Tariximizin öyrənilməsi üçün Şərqin ən qüdrətli dövlətlərinin mixi yazı kitabələrində Azərbaycan tayfaları, onların erkən siyasi qurumları, əraziləri, təsərrüfatı, yaşayış məntəqələri haqda qiymətli məlumatlar mövcuddur. Azərbaycan ərazilərində yaranmış qədim dövlətlər haqqında qədim yunan, bizans, alban, suryani, ərəb mənbələri də məlumat verir. Herodot, Strabon, Plini kimi antik müəlliflər Atropatena, Albaniya əraziləri, burada yaşayan xalqlar, bu xalqların yadelli işğalçılara qarşı mübarizəsi, onların ordusu, silahları haqda, bu ölkələrin təsərrüfatları, təbiəti, mədəniyyətləri, şəhərləri, ticarət əlaqələri haqda zəngin məlumatlar vermişlər. Albaniyaya dair ən mühüm və qiymətli mənbə VII əsrin sonu-VIII əsrin əvvəllərində yaşamış alban müəllifi Musa Kalankatlının qələmə aldığı "Albaniya tarixi" əsəridir. Albaniyanın Uti vilayətinin Kalankat kəndində anadan olmuş müəllifin bu əsəri ən qədim dövrlərdən bəri Albaniya, albanlar, onların mənşəyi, təbii-coğrafi mövqeyi, Albaniyada qədim dinlər və xristianlığın yayılması, albanların yadelli işğalçılara qarşı mübarizəsi, Alban hökmdar sülalələrinin tarixi kimi bir sıra mühüm məsələləri işıqlandırır. Antik mənbələrin Albaniya kimi qeyd etdiyi bu ölkə müxtəlif dilli mənbələrdə Arran (ərəb), Rani (gürcü), Aran( Suriya) şəklində əks olunub.

E.ə. III minillikdən eramızın ilk əsrlərinədək Azərbaycanda meydana gələn və formalaşan qədim dövlətçilik ənənələrinin tarixinin öyrənilməsinə xeyli əsər həsr edilmişdir. Sovet hakimiyyəti dövründə Azərbaycanın qədim tarixi üzrə tədqiqatlara birtərəfli yanaşılırdı. Bu tədqiqatlarda Azərbaycanın qədim dövlətləri olan Manna, Atropatena, Albaniya tarixi, ərazilərimizdə yaşayan qədim sakinlərin etnik tərkibi, etnogenezi, sosial-iqtisadi, siyasi və mədəni tarixi arxa plana çəkilir, lazımınca işıqlandırılmırdı. Lakin bütün qeyri-müəyyənliklərə, çətinliklərə baxmayaraq, Azərbaycanın qədim tarixi, Azərbaycan xalqının etnogenezi konsepsiyası tarixçilərimiz tərəfindən ümumiləşdirilərək tarix elmində yeni araşdırmaların ortaya çıxmasına səbəb olmuşdur. Xüsusilə də Azərbaycan müstəqillik əldə etdikdən sonra bəhs olunan dövrə aid xeyli sayda tədqiqat əsərləri və dərsliklər meydana gəlmişdir. Təqdim olunmuş dərs vəsaitində bu əsərlərdən ətraflı şəkildə istifadə edilmişdir.

# I FƏSİL

# AZƏRBAYCANDA QƏDİM TAYFA İTTİFAQLARI VƏ ERKƏN DÖVLƏT QURUMLARININ MEYDANA GƏLMƏSİ (e.ə.III-I minilliklər)

## *1.1. Azərbaycanda qədim tayfa ittifaqları və erkən dövlət qurumları ilə bagli mənbələr*

### *1.1.1. Yazılı mənbələr*

Azərbaycan xalqının və onun məskunlaşdığı ərazinin qədim tarixi şumer, assur-babil, elam, urartu, fars mənşəli mixi yazı mətnləri[1], həmçinin antik yunan müəlliflərinə aid qaynaqların yardımı ilə araşdırılır. Mövcud qaynaqlar Azərbaycanın qədim əhalisinin siyasi tarixi, iqtisadi durumu, mədəni səviyyəsi, dini dunyagoruşu, hətta qonşularla munasibətləri barədə təsəvvür yaratmağa imkan verir.

Mixi yazılardan ilk istifadə edən xalq şumerlər olmuşlar. İlk şumer kitabələri e.ə IV minilliyin sonuna aid edilir. Artıq e.ə III minillikdə mixi yazı üslubundan Şumerdən şimalda məskən salmış və tədricən onu assimilyasiyaya uğratmış akkadlar, assurlar, babillər və b. tərəfindən də istifadə olunmağa başlamışdı.

Yaxın Şərq ölkələrinin bir neçə minillik qədim tarixini işıqlandıran mixi yazılı mənbələrdə qədim Azərbaycan barədə də məlumatlara rast gəlinir. Bu mənbələr qədim Azərbaycan ərazisinin tarixi coğrafiyası, toponimikası, burada məskun olan tayfalar, onların məskunlaşma arealı, bu ərazidə yaranan erkən dövlət qurumları və dövlətlər, onların qonşu dövlətlərlə iqtisadi-mədəni, siyasi əlaqələri haqda məlumat verir. Məhz bu məlumatların sayəsində qədim Azər-

---

[1] **Mixi yazı növü** – Yumşaq gil lövhə üzərinə nazik çubuqla həkk olunan qədim yazı növü. Cənubi Mesopotamiyada yaşamış qədim şumer xalqı tərəfindən kəşf olunmuşdur. Bu yazı piktoqrafik yazıdan təşəkkül tapmışdır. Gil lövhə üzərinə həkk olunan şəkillər yazı prosesinin inkişafı ilə tədricən ayrı-ayrı işarələrə çevrilmişdir. Mixi yazı e.ə I minilliyin əvvəllinə kimi tədricən təkmilləşərək və şəklini dəyişərək, bir çox Qədim şərq ölkələrinin istifadə etdiyi formaya düşmüşdür. Gil lövhələrdən əlavə, saray tikililərini bəzəyən daş sütunlar, heykəllər və divarlar, eləcə də ölkələrin və məskənlərin yaxınlığında olan qayalar üzərində həkk edilmiş və müxtəlif dövrlərin hadisələrindən xəbər verən çoxsaylı mixi yazılı kitabələr məlumdur. Mixi yazı bizim eranın əvvəllərinə kimi mövcud olmuş, lakin sonralar tamamilə unudulmuşdur.

baycan ərazisində gedən siyasi-iqtisadi prosesləri, qədim dövlətçilik ənənələrinin tarixi kökləri kimi məsələləri izləmək mümkündür.

E.ə. III minilliyin II yarısından etibarən artıq Azərbaycanın həm cənubunda, həm də şimalında erkən tayfa ittifaqları mövcud olsa da, təəssüf ki, Azərbaycanın yalnız cənubundakı qədim tayfa ittifaqları, tayfa başçılarının adları, onların yazıları, məşğuliyyəti, əhali barədə yazılı mənbələr mövcuddur. Bu, Cənubi Azərbaycan ərazilərinin İkiçay ərazisinə (Mesopotamiya) daha yaxın olması və buradakı dövlətlərlə əlaqəsi ilə izah olunur.

Azərbaycanın cənub torpaqları, xüsusən də Urmiya ətrafı ərazilərinin qədim tarixi **Şumerlər** [1]**, Assuriya**[2]**, Babilistan**[3]**, Akkad**[4]**, Elam**[5]**, Urartu**[6] **kimi** Qədim Şərq ölkələrinin tarixi ilə sıx şəkildə əlaqəlidir. Bütövlükdə Qədim Şərqdə mədəni-iqtisadi inkişafın artması və hərbi yürüşlərin genişlənməsi İkicayarası (Mesopotamiya) ərazisindəki Şumer, Akkad, Assuriya, Babilistan kimi güclü dövlətlərin də Dəclə və Fəratın hududlarmdan cıxaraq, ərazilərini daha da

---

[1] **Şumerlər ölkəsi** e.ə.III minilliyin əvvəllərində Mesopotamiyanın geniş ərazisini tuturdu. E.ə. III minilliyin I yarısında burada Ur, Uruk, Nippur, Laqaş kimi şəhər dövlətləri meydana gəlmişdir .e.ə. XXI əsrdə Ur şəhərindəki Ay allahı məbədi şumerlərin memarlıq nümunəsidir. E. ə. III minilliyin ikinci yarısında Şumer şəhər dövlətləri süquta uğradı. İkiçayarası Mesopotamiya Akkad dövlətinin hakimiyyəti (e. ə. XXIV-XXII əsrlər) altında birləşdirildi. Lakin buna baxmayaraq *Laqaş* və *Ur* kimi bir sıra şumer şəhər dövlətləri müstəqil şəkildə mövcudluqlarını qorumagı bacarmışlar.

[2] **Assuriya dövləti** e.ə. XIV əsrdə Mesopotamiya ərazisində yaranmışdır. E.ə. VIII-VII əsrlərdən etibarən daha güclənən Assuriya şimalda yaranmış Assuriya tədricən daha da güclənərək Babilistan, Suriya, Fələstin ərazilərini işğal etmiş, o cümlədən Azərbaycan ərazisində yaşayan tayfaları da özündən asılı vəziyyətə salmışdı. Cənubda daimi rəqibi olan Babilistan ona tabe olandan sonra, Assuriya dövləti İran körfəzindən Aralıq dənizinə kimi geniş əraziləri idarə edirdi. Qeyd: Assur. E.ə. III minilliyin axırında II minilliyin əvvəlinədək müstəqil şəhər-dövlət kimi mövcud idi. E.ə. II minilliyin ortalarından Assuriya dövlətinin paytaxtı dağıdılmış, e.ə. 605-ci ildə bu dövrdə güclənən Babilistan və Midiya tərəfindən süquta yetirilmiş və torpaqları bu iki dövlət tərəfindən bölünmüşdür.

[3] **Babilistan** e.ə. II minilliyin əvvələrində Mesopotamiyada meydana gəlmiş, Dəclə və Fərat çaylarının qovşagında, şumerlərdən şimalda yerləşmiş şəhər dövlət. Babil şəhər-dövləti tədricən (e.ə. XIX əsrdə) Babilistan dövlətinə çevrildi.

[4] **Akkad dövləti** e.ə. III minillikdə Mesopotomiyada dövlət. e. ə. XXIV-XXII əsrlərdə Mesopotamiyada yaranmış Sarqon (e.ə. 2316-2261) tərəfindən əsası qoyulmuş güclü dövlət. Müasir Bağdad şəhəri yaxınlığında yerləşirdi.

[5] **Elam-** Müasir İran vilayətləri Xuzistan və Luristan ərazisində yerləşirdi.

[6] **Urartu** - Van gölü ətrafındakı ərazilərdə yaranmışdır.

genişləndirmək, daha cox qənimət əldə etmək üçün qonşu torpaqlara, o cümlədən Azərbaycanın cənub torpaqlarına, xüsusən də Urmiyaətrafı ərazilərə yürüşlərinə səbəb oldu. Bölgəyə olan maraq onun əlverişli coğrafi mövqeyi ilə bağlı idi. Qiymətli metallar, dəyərli minerallar və digər təbii sərvətlərlə zəngin yataqların olduğu Qafqaza və Orta Asiyaya aparan mühüm ticarət yolları məhz buradan keçirdi. Bu yollar artıq e.ə. XXVIII əsrdə Azərbaycanın qədim dövlətçilk ənənələrinin beşiyi sayılan **Aratta şəhər**-dövlətinin nəzarəti altında idi.

Cənubi Azərbaycanın qədim sakinləri barədə ilk yazılı məlumatlar e.ə. III minilliyin gil lövhələrində rast gəlinir. E.ə.III-II minilliklərdə Cənubi Azərbaycanda yaşayan tayfaların adları, yayıldıqları ərazilər, qonşu ölkələrlə siyasi-iqtisadi münasibətləri haqqında məlumatlar verən ən qədim qaynaqlar Şumer-Akkad mətnləridir. Assur çarlarının kitabələrində onların Azərbaycan vilayətlərinə coxsaylı yürüşləri, Azərbaycan tayfalarının siyasi və iqtisadi həyatına dair məlumatlar verilmişdir. Cənubi Azərbaycan vilayətləri haqqında Urartu kitabələrində də zəngin məlumatlar var.

Şumer-Akkad mənbələrində qədim Aratta ölkəsi haqqında məlumatlar olsa da, bu məlumatlar bir qədər yarı-əfsanəvi xarakter daşıyır. Belə ki, Aratta dövləti ilə əlaqədar (e.ə. III minilliyin I yarısı) hadisələr və məlumatlar bir neçə şumer dastanında əks olunmuşdur. Şumer-Aratta əlaqələri "En-Merkar və Aratta hökmdarı" dastanında nisbətən geniş əks olunmuşdur.

Cənubi Azərbaycanda və ona bitişik olan ərazilərdə e.ə. III-II minilliklərdə yaşamış kutilər, lullubilər, hurrilər, subi, turukki, kas və b. tayfalar haqqında ilkin yazılı mənbələr e.ə. XXIII əsrə aiddir. Qədim Şumer və Akkad dillərində tərtib olunmuş bu kitabələr e.ə. III minilliyə və II minilliyin başlanğıcına aiddir. Şumer–akkad mənbələrində Cənubi Azərbaycan ərazilərində yaşayan tayfalar e.ə III minilliyin sonundan etibarən - Mesopotamiya ərazisindəki bu dövlətlər üçün real təhlükəyə çevrildikləri zamandan xatırlanmağa başlanır. Bu mənbələrdə əsasən işğalçı ölkələrin Azərbaycana hərbi yürüşləri təsvir edildiyi üçün həmin ölkələrin hökmdarlarının qələbələri təsvir edilir, lakin onların məğlubiyyətləri haqda susulur. Mənbələr öz ölkələrinin uğursuzluqları barədə xəbər verməsələr də, həmişə öz qələbə və uğurlarını şişirtsələr də, onların təhlili, qarşılıqlı müqayisəsi baş vermiş hadisələrin real mənzərəsini bərpa etməyə imkan verir. Lakin birtərəfli və qərəzli olmasına baxmayaraq, bu yazılar e.ə.III–I

minilliklərədə Azərbaycanda yaşamış tayfaların adları, məşğuliyyətləri haqda məlumatlarla zəngindir.

Urmiya gölü ətrafındakı ərazilərə aid mixi yazılı mənbələrin məlumatının çoxu e.ə. I minilliyin birinci yarısına, yeni dövlət qurumlarının təmərküzləşdiyi və möhkəmləndiyi, onların müstəqilliyini saxlamaq məqsədilə işğalçılara müqavimət göstərdiyi dövrə aiddir.

Şumer-akkad mənşəli mənbələrdə Şumer və Akkad çarlarının Zaqros dağları ərazilərinə yürüşləri və kutilərinin Mesopotamiya ərazisindəki birəsrlik hökmranlığı dövrü də öz əksini tapıb. Bu mixi yazı parçalarında, həmçinin Şumer-Akkad qaynaqlarında **kuti** hakimlərinin siyahısı, şumerlərin Mesopotamiyadakı sonuncu kuti hökmdarı Tirikanla müharibəsi haqda mətnlər.

Lullubilər haqqında ilk məlumat Akkad hökmdarı Naram Suenin "Lullubum dağlılarındakı qələbəsini həkk etdirdiyi kitabəsində mövcuddur. Lullubi hakimlərinin özlərinin ilkin yazılı abidələri isə e.ə. XXIII əsrə aiddir. Sarıpulda (Zöhab şəhəri yaxınlığında) qayada həkk olunmuş "çar" Anubaniniyə məxsus olan relyefli kitabədə Anubaninin hakimiyyəti altında olan ərazilərin Urmiya gölündən İran körfəzinə qədər uzandığı barədə məlumat var. Yazılı qaynaqlar sırasında **lullubi hökmdarlarının** yerli kitabələri də mövcuddur.

**Manna ilə bağlı qaynaqlar.** E.ə. IX-VII yüzillərdə qədim Azərbaycanla bağlı yazılı sənədlər əsasən Assuriya və Urartu mixi yazılarında əsasən Urmiya gölü hövzəsindəki əraziləri əhatə edir. Qədim yazılı mənbələrdə adıçəkilən Azərbaycanın ən böyük erkən dövlət birləşməsi Manna olmuşdur. Urmiya gölü hövzəsində yerləşən bu dövlətin tarixinə aid yazılı mənbələr e.ə. IX-VII əsrlərə aid Assuriya və Urartu mixi yazılarıdır. Bu yazılarda Azərbaycanda ibtidai icmanın dağılması nəticəsində meydana gələn “ölkələr”, onların vahid dövlət ətrafında birləşməsi prosesi, bu dövlətdə yaşayan əhalinin etnik tərkibi, Manna tayfaları, onların məşğuliyyətləri haqda məlumatlarla mövcuddur. Urmiya ətrafındakı torpaqlarda tapılan hər bir mixi yazı Azərbaycanda mövcud olan “ölkələr”, onların hakimlərinin adları, yerli əhalinin məşğuliyyətləri, çoxsahəli təsərrüfat ənənələri ilə bizi tanış edir.

Manna haqda ən erkən məlumat Assuriya hökmdarı III Salmanasarın (e.ə.858-824) Assuriyanın Kalhu şəhərində (müasir İraqın Nimrud şəhəri) qeydə alınmış “Qara xatirə daşı” üzərindəki salnaməsidir. III Salmanasarın Mannaya e.ə.829-cu ildə yürüşü zamanı

həkk olunmuş bu mixi yazıda Manalı Udaki və ya Ualli adlı hökmdarın adı çəkilir. Bu Assuriya yazılarında adı çəkilən ilk Manna hökmdarının adıdır. Bu mənbədən ilk dəfə, həm də Mannanın paytaxtının Zirta və ya İzirta olduğunu da oyrənirik. Hazırda bu şəhərin xarabalıqları Cənubi Azərbaycanda Saqqız şəhərindən 40 km şərqdə Ziviyənin 5 km-də yerləşən Qaplantu təpəsindədir.

Mətnlərin əksəriyyəti Assuriya və Urartu ərazisindən tapılmış, bir neçəsi isə Urmiya gölü bölgəsində qeydə alınmışdır. Assuriya və Urartu dövlətlərinin hökmdarları öz fəaliyyətləri, müharibədə fəth etdikləri ölkələr haqda qayalarda, daşlarda, gil lövhələrdə yazılar yazırdılar. Azərbaycanla qonşu olan Assuriya və Urartu dövlətləri bu ərazilərə də tez-tez hücum etdikləri üçün bu mixi yazı parçalarında bu hökmdarların Azərbaycana olan yürüşləri barədə də məlumatlar verilmişdir. E.ə. IX-VII əsrlərə aid olan Assuriya və Urartu mixi yazılarında Manna və ona qonşu olan Assuriya və Urartu ölkələri, onların hökmdarlarının Manna ərazisinə hərbi yürüşləri ilə bağlı hadisələr təsvir edilib. E.ə. II minilliyin Elam və Assuriya, Urartu qaynaqları Azərbaycan tayfaları haqda çox az məlumat olsa da qədim Azərbaycanın tarixi coğrafiyası, toponimikası, erkən dövlət qurumları və onların hökmdarları haqda mətnlərlə zəngindir. Qeyd etmək lazımdır ki, Urartu mənbələrində Cənubi Qafqazın Arazətrafı əraziləri barədə də məlumatlara rast gəlinir. Akkad mixi yazı sisteminin təkmilləşdirilmiş “Elam variantı” əsasında tərtib olunan elam mətnlərində isə Cənubi Azərbaycanın ərazisində, Diyala və Aşağı Zab cayları hövzəsində yerləşən bir çox Azərbaycan məskəni xatırlanır.

E.ə. IX əsrə aid mənbələrdə *maday* - *matay* tayfalarının da adına rast gəlinir. E.ə.935-ci ilə aid assur mənbələrində Cənubi Azərbaycan ərazisində mannalılardan şərqdə və cənub-şərqdə Qızılüzən çayının hövzəsində matay və ya maday etnosunun yaşadığı qeyd olunur. **Maday tayfaları** elam mənbələrində “mata*pi*” (*pi* –qədim elam dillərində cəm şəkilçisi idi), e.ə. 519-cu ilə aid fars mənbələrində “mada”, VII əsr alban müəllifi M.Kalankatlının əsərində də həmçinin “mada” şəklində qeyd olunmuşdur.

E.ə. VI əsrdən etibarən Azərbaycanın sosial-siyasi tarixi ilə bağlı qaynaqlara Əhəməni hökmdarlarının (əsasən I Dara və Kserks) qədim fars dilində tərtib olunmuş mixi kitabələri, həmçinin Nəqşi Rüstəm və Suz yazıları, Avesta və antik (Yunan-Roma) muəlliflərin (Herodot, Ktesi, Plini, Strabon, Feofan və başqalan) qədim yunan və latın dillərindəki əsərləri daxildir.

**Bisütun kitabəsi.** Azərbaycan tarixinin Əhəməni dövrünə aid (e.ə. VI-IV əsrlər) tarixi, əsasən I Daranın uc dildə həkk olunmuş Bisütun kitabəsində öz əksini tapmışdır. Kitabədə Əhəməni hökmdarları, Əhəməni imperiyasına qatılmış Azərbaycan əraziləri və burada baş verən bir sıra sosial-iqtisadi hadisələr geniş təsvir edilmişdir. Bisütun kitabəsi I Dara tərəfindən Madanın paytaxtı Ekbatanadan (Aqbatan)[1] (müasir Həmədan rayonu yaxınlığında) cənub-şərqdə yerləşən Bisütun adlanan sıldırım qaya uzərində həkk olunub.

Eradan əvvəl 521-ci ildə taxta çıxan Əhəməni şahı I Dara bir çox ölkələri fəth edərək möhtəşəm bir imperatorluq qurmuşdu. Dara sahlığında özünə hakimiyyət uğrunda apardığı mübarizə, rəqibləri üzərində çaldığı qələbələrin öz təcəssümünü tapdığı abidə qoydurmaq qərarına gəlir. Abidə üçün Mada torpaqlarının Həmədan bölgəsində Kirmanşah vadisi boyunca uzanan Bisütun dağ silsiləsi seçilir. Bu ərazi Midiya torpaqlarından Mesopotamiyaya - Babilistana gedən qədim karvan yolunun başlanğıcında yerləşirdi. E.ə. 521-ci ildə Daranın əmrilə Bisütun qayasında onun qələbələrini tərənnüm edən kitabə artıq e.ə. 518-ci ildə hazır idi. Daranın zəfərlərindən bəhs edən kitabə üç dildə — qədim fars, akkad (babil) və elam dilində qayalara həkk edilir. Üc dildə Mixi kitabə 1306 sətirdən ibarət olub 515 sətri qədim fars, 141 sətri akkad (babil), 650 sətri isə elam dilində tərtib olunmuşdur. Kitabədə hökmdarın əmrilə onun məzmununun müxtəlif dillərə tərcümə olunaraq “bütün ölkələrə” göndərildiyi qeyd olunmuşdur.

Yüksəklikdə, qayanın sərt hissəsində daş üzərində həkk olunmuş barelyefdə mətndən öncə Ahuramazdanın himayəsi altında Əhəməni şahı I Daranın və onun məğlub etdiyi düşmənləri, o cümlədən midiyalı maq Qaumata da həkk edilmişdir. Bisütun barelyefinin sujet kompozisiyasında Əhəməni imperiyasına qarşı üsyançıların əsir alınması hadisəsi yer almışdır. Təsvirdə şah Dara əsir alınmış və zəncirlənmiş üsyan başçıları qarşısında dayanaraq sağ ayağı ilə yerə sərilmiş üsyan başçısını tapdalayır. Bu barelyefin bədii üslubu lullubi çarı Anubaninin (e.ə. XXIII əsr) Sanpulda aşkar edilmiş qayaüstü təsvrini xatırladır. Kitabədə öz əksini tapmış madalı maq Qaumatanın

---

[1] Qədim Akbatan (Ekbatan) adı Cənubi Azərbaycan ərazisindəki Həmədan toponiminin təhrif olunmuş forması olub *Akbatan, Haqmatan,* sonra *Həmədan* formasına düşmüşdür.

fars əsarətinə qarşı yönəlmiş çevrilişi və onun Dara tərəfindən öldürülməsi hadisəsi antik müəllif Herodot tərəfindən də qələmə alınmışdır.

Kitabədə Daranın skiflərlə bağlı qalibiyyətli yürüşünə də yer verilmişdir. Kitabənin həkk olunduğu dövrdə Daranın ən son zəfər skif çarı üzərindəki qələbəsi olur. Daranın döyüşdən qələbə ilə qayıtdığını eşidən heykəltəraşlar işi tamamlamış olmalarına baxmayaraq son olaraq Daranın məğlub etdiyi skif çarının təsvirini də daşa həkk edirlər.

Beləliklə, Bisütun kitabəsi, burada öz əksini tapmış madalılar, skiflər və saklar kimi qədim Şərq xalqları, eyni zamanda toponimik və onomastik materiallar Azərbaycanın qədim tarixinin öyrənilməsi, Azərbaycanın o dövrdə etnik mənzərəsinin araşdırılması üçün olduqca əhəmiyyətlidir. Bundan başqa, Bisütun kitabəsinin məlumatları Əhəmənilər dövründə Azərbaycanın siyasi tarixinin tədqiqində mühüm əhəmiyyət kəsb edir.

Bisütun qayalarında mixi yazılarla həkk olunmuş kitabə uzun illər səyyahlar üçün məchul olaraq qalmışdır. XIX əsrin əvvəllərindən etibarən bu yazıların qədim fars dilində olduğu müəyyənləşdirilir və Bisütun kitabəsinin mətni tərcümə edilir. Abidənin öyrənilməsi sonrakı dövrlərdə, 1950-ci illərədək — təxminən yüz il davam edir. 2500 yaşı olan abidə bu gün də öz möhtəşəmliyi ilə hər kəsi heyrətləndirməkdədir.

**Antik dövr qaynaqları.** Azərbaycanın Arazdan şimaldakı torpaqları və onun sakinləri haqqında isə ilk yazılı qaynaqlar əsasən antik müəlliflərin əsərlərindən ibarətdir. Antik müəlliflərin verdiyi məlumatlar həm Azərbaycanın cənubunda - Atropatenada, həm də şimalında –Albaniyada baş verən sosial, siyasi, etnomədəni prosesləri izləməyə imkan verir. Antik müəlliflərdən Strabon (e.ə. I-e.I), Böyük Plini (I-II), Klavdi Arrian (II), Dion Kassi (II-III), Ptolomey (II), Yuliy Solin, Pompey Troq (e.ə. I-e I əsri) Azərbaycanın antik dövrü, bu torpaqlarda mövcud olmuş Albaniya və Atropatena kimi dövlətlər, onların sərhədləri, etnik tərkibi, dini məbəd təsərrüfatı və maddi mədəniyyəti haqda məlumatlar vermişlər. Midiya haqqında ilk məlumat verən Herodot olmuşdur. Antik müəlliflərdən Diodor, Plutarx, Strabon, Ammion Martselin də Midiya haqda məlumat vermişlər. Antik yunan müəllifləri madayları "mido", Maday çarlığını isə Midiya adlandırırdılar. Bu mənbələrdə Azərbaycanın tarixi coğrafiyası, şəhərləri, tayfaları və etnik tarixi, hökmdarların adları, həmçinin hərbi gücü,

döyüşçüləri, inamları, məşğuliyyətləri, təbii zənginlikləri və s. barədə məlumatlar mövcuddur.

Yunan coğrafiyaşünası və tarixçisi Strabon (e.ə. 64-b.e. 24) Azərbaycanın qədim dövlətləri Albaniya və Atropatenanın dolğun şəkildə ilk təsvirini vermiş antik müəllifdir. O, özündən öncəki dövrə aid –IV-II yüzilliklərin müəlliflərinin əsərlərindən, o cümlədən Heraklid (e.ə. 323) və Patroklun (e.ə. 283) hesabatlarından, Eratosfen, Polibinin əsərlərindən, həmçinin Pompeyin müşayiətçilərinin, Kaspi dənizi ətraflarına Makedoniyalı İskəndərin və I Selevkin göndərdikləri ekspedisiyalarının başçılarının məlumatlarından qaynaq kimi istifadə edərək Azərbaycanın antik dövrü haqda dolğun məlumat vermişdir. Çoxcildlik "Coğrafiya" əsərinin XI kitabında Qafqaz haqqında, o cümlədən Azərbaycanın qədim dövlətləri Albaniya və Atropatena haqda tarixi-coğrafi arayışlar vermiş Strabon Roma sərkərdələri Lukull, Pompey, Antoninin Qafqaza yürüşlərini ətraflı təsvir etmişdir. Qafqaz Albaniyasının sərhədlərinin şimalda Sarmatiya (Cənubi Dağıstan), qərbdə İberiya, cənub və cənub-qərbdə Atropatena ilə həmsərhəd olduğunu qeyd etmişdir. Qafqaz Albaniyasının iqtisadi həyatı ilə də bağlı qiymətli məlumatlar verən Strabon albanların "münbit torpağa malik olduğunu və təsərrüfatını yaxşı inkişaf etdirə bildiyini", "bir dəfə toxum səpilən torpağın bəzən iki və ya üç dəfə məhsul verdiyini, ilk dəfədən, hətta əlli qat məhsul yığdıqlarını" yazırdı. Müəllif qeyd edirdi ki, "Albaniyada torpaq dincə qoyulmur, bərəkətlidir və adi ağacdan düzəldilmiş xış ilə şumlanır. Çayların suları və kəhriz suyu bütün düzənliyi Babil və Misirdən xeyli yaxşı suvarır, üstəlik, burada hava da oradakından yaxşıdır". Albaniyada maldarlıq təsərrüfatı barədə də məlumat vermiş Strabon Albaniyada "zəngin otlaqların olduğunu, otlayan sürülərin gözəl artım" verdiyini yazırdı. Strabon Araz vadisinin, habelə Sakasenanın istər yabanı, istərsə də becərilən meyvələrlə zəngin olduğunu, burada hətta zeytun da yetişdiyini yazırdı. Ölkədə meyvə bağlarının bolluğundan, Albaniyanın alma, üzüm yetişdirilməsi üçün əlverişli olduğundan bəhs edən Strabon Albaniyada, "üzüm tənəklərinin, hətta qulluq edilməsə belə uzunömürlu olduğunu, cavan tənəklərin artıq iki yaşında bar verdiyini yazırdı. Antik müəllif qeyd edirdi ki, "yetişmiş tənəklər isə o qədər üzüm verir ki, salxımlar dərilməmiş qalır". Antik müəlliflərdən Evstafi da kaspilərin torpağında tənəklərin bol üzüm verdiyini təsdiq edir.

Özünün “Coğrafiya” əsərində Atropat Midiyası və ya Atropatenanın böyük Madanın (Midiyanın) bir hissəsi olması və s. haqda da ətraflı məlumat vermiş Strabon Midiyanın 2 hissəyə bölünməsi, bir hissənin Böyük Midiya, digərinin isə Atropat Midiyası adlanması, bu adın hərbi rəis Atropatdan götürüldüyü barədə məlumatların da müəllifidir.

Antik müəlliflərdən Herodot (e.ə. V əsr) da madalılar və Mada haqqında, skiflər və onların Asiyaya yürüşləri, qədim Azərbaycan tayfaları olan muqlar, utilər, matienlər, kaspilər kimi qədim tayfalar haqda ətraflı məlumat vermişdir.

E. ə. I əsrdə Albaniya və albanlar haqqında məlumat verən antik müəlliflərdən biri də Böyük Plinidir. Qədim Albaniyanın sərhədləri, tarixi, şəhərləri və şəhərsalma tarixi kimi problemlərinin öyrənilməsi üçün Ptolemeyin verdiyi məlumatlar mühüm əhəmiyyət kəsb edir. Albaniyanın baş şəhəri paytaxt Qəbələ (Kabalaka) haqda ilk məlumat Pliniyə məxsusdur. O, ölkənin təbiəti, əhalisi, albanların məişəti haqqında maraqlı məlumatlar vermişdir. Azərbaycanda məskunlaşmış qədim tayfalar - matienlər, kadusilər, skiflər, Araz boyunda yaşayan muğlar, Kaspi sahilində yaşayan tayfalar haqqında Miletli Hekatay (e.ə. VI-V əsrlər), Ktesi (e.ə. V əsr), Ksenofont (e.ə.V-IV) kimi antik müəlliflər də məlumat vermişlər.

Eranın I əsrində Plutarx, II əsrdə isə Arrian Qafqaz Albaniyası və albanlar haqda qiymətli məlumatları vermişdir. Məhz Arrianın albanlar haqda verdiyi məlumat əsasında albanların e.ə.IV əsrin sonlarından tarix səhnəsində olduqlarını müəyyənləşdirmək mümkün olmuşdur. Arrian Roma ilə müharibə dövründə Qafqazın siyasi və sosial həyatı barədə də məlumat vermişdir. Bu dövrdə yaşamış digər yunan müəllifi Klavdi Ptolomey (II əsr) də Azərbaycanın bir çox vilayətləri, yaşayış məskənləri və şəhərləri, eyni zamanda bir çox tayfaları haqda məlumat verir.

II-IV əsr müəllifləri Dion Kassiy, Dionisi, Yuli Solin, Elian, Amman Marsellin, Bizanslı Stefan və digərlərinin əsərlərində də Atropatena və Albaniya haqda bir sıra mühüm məlumatlara rast gəlinir. Lukull və Pompeyin Şərqə yürüşlərini təsvir edən Dion Kassiy Albaniyanın Arşakilər sülaləsinin süqutu, Qafqazın tarixi coğrafiyası haqda məlumatlara yer vermişdir. Şərq (Suriya) müəlliflərindən Zaxar Ritor-Mitilenski (VI əsr) Qafqaz xalqları, o cümlədən albanlar haqda xeyli qiymətli məlumatlar vermişdir. Məhz o, ilk dəfə Albaniyanın adını Arran kimi qeyd edir və Arran xalqının öz dili

olduğunu yazır. Mənbədə alban kilsəsinin hunlar arasındakı təbliğat fəaliyyəti, xristianlığın türkdilli tayfalar arasında yayılması barədə də məlumatlar mövcuddur.

Klavdi Elian (II—III əsrlər) antik Azərbaycanın iqtisadi həyatı barədə maraqlı məlumatlar vermiş`. "Kaspilər ölkəsində" çoxlu öküz sürüləri və at ilxıları, dəvələr olduğu, burada keyfiyyətli dəvə yununun olmasını qeydə almışdır. Kaspiana ərazisində yun və yun paltar istehsalı haqqında məlumat verən Elian bu ölkədə çox zərif dəvə yununun olduğunu, onun yumşaqlıq cəhətdən hətta Milet yunundan belə geri qalmadığını yazırdı.

Antik qaynaqlardan qədim Azərbaycan əhalisinin təsərrüfat həyatında balıqçılıq sahəsinin də mühüm yer tutduğu məlum olur. Klavdi Elian yazır ki, "Kaspi torpağında" nəhəng bir göl var və bu göldə itiburun adlanan iri balıqlar üzür... Kaspilər onları tutur, duzlayır və qurudurdular...". Bu məlumat həm Albaniyaya, həm də Atropatenaya aiddir. Bu ərazilərdən balıqçılığın inkişafını arxeoloji materiallar da təsdiq edir.

İosif Flavinin "Yəhudilərin qədim tarixi", Pomponi Melanın "Yerin təsviri", Plutarxın "Müqayisəli tərcümeyi-hallar", Korneli Tatsitin "Annallar" və "Tarix", Dion Kassinin "Roma tarixi", Pompey Troqun "Ümumi tarix", Kvint Kursi Rufun "Böyük İskəndərin tarixi", Sekst Yuli Frontinin "Hərbi hiylələr", Musa Kalankatlının "Albaniya tarixi" əsərlərində də Azərbaycanın qədim dövləti Albaniya və onun əhalisi haqqında xeyli məlumat var.

Albaniya və onun əhalisi haqqında antik və erkən orta əsr mənbələr içərisində mənşəcə alban olan və qüdrətli alban hökmdarı Cavanşirin müasiri Musa Kakankatlının "Alban ölkəsinin tarixi" əsəri xüsusilə mühüm yer tutur. Bu əsər bütövlükdə Azərbaycan tarixinə dair mühüm bir mənbədir. Əsər alban hökmdarı Cavanşirin sifarişi ilə yazılmışdır. VII əsrin abidəsi olan "Albaniya tarixi" əsəri üç hissədən ibarətdir. VII əsrdə yaşayıb və bir çox hadisələrin canlı şahidi olmuş Musa Kalankatlı bu əsərində albanların tarix səhnəsinə çıxmasından başlamış VII əsrin sonuna kimi böyük və tarixi hadisələrlə zəngin bir dövrünü əhatə etmişdir. Mənbədə Albaniya çarlığının V əsrdən başlayaraq VII əsrə qədər, yəni Albaniya çarlığının süqutuna qədərki həm siyasi, həm sosial-iqtisadi, həm də ictimai tarixi öz əksini tapmışdır. Burada verilən məlumat, xüsusən Mehranilər sülaləsinin Albaniya çarlığında hakimiyyətə gəlməsindən başlayaraq, Albaniyanın görkəmli çarı Cavanşirin hakimiyyəti döv-

rünün tarixi, Cavanşirin çarlıq fəaliyyəti, onun həyatına qəsd edilməsinə qədər olan dövrü əhatə edir. Lakin əsərdə hadisələr X yüzilliyə qədər davam etdirilir. Əlbəttə, VII əsrdə yaşayıb- yaratmış müəllif X əsrə qədər, üç yüz il yaşaya bilməzdi. Kitaba sonradan III kitab da əlavə edilmiş və sonrakı dövrlərə aid tarixi hadisələr də əhatə edilmişdir. Kitabın I və II hissələri Kalankatlı tərəfindən yazılmışdır. Kitaba sonradan III kitab da əlavə edilmişdir. Albaniyanın sonrakı, X-XII əsrlər tarixini salnamə halında Gəncə şəhərində anadan olmuş və ömrünü orada keçirmiş Mxitar Qoş yazmışdır.

Musa Kakankatlının "Alban ölkəsinin tarixi" əsəri ilə yanaşı V əsrdə qəbul edilmiş "Aquen qanunnaməsi" də dövrümüzə qədər gəlib çatmış yerli alban ənənəsinə aid tarixi mənbələrdir. VII əsrdə yaşamış Azərbaycan (Qafqaz Albaniyası) şairi Dəvdəkin böyük alban hökmdarı Cavanşirin ölümünə həsr etdiyi elegiyası (ağısı), Nizami Gəncəvinin müasiri və həmyerlisi XII əsr müəllifi Mxitar Qoşun, Kirakos Gəncəlinin əsərləri (Alban salnamələri, Qanunnamə), həmçinin XIX əsr son alban nəsillərindən olan Makar Barxudaryansın Albaniya ilə bağlı əsərləri də Azərbaycanın Albaniya tarixi dövrünün öyrənilməsi üçün qiymətli mənbədir.

### *1.1.2. Arxeoloji materiallar*

Azərbaycan tarixinin qədim dövrləri yazılı qaynaqlarla paralel olaraq arxeoloji qazıntılardan əldə olunan maddi mədəniyyət nümunələri əsasında da öyrənilir. Arxeoloji abidələr qədim dövrlərdən başlamış son orta əsrlərədək Azərbaycan tarixini daha əsaslı şəkildə və daha dərindən işıqlandırmaq imkanı verir. Arxeoloqların əldə etdikləri maddi mədəniyyət nümunələrinin yaradıcılarının kimliyinin müəyyənləşdirilməsi üçün yazılı mənbələrə müraciət edilir.

E.ə. II minilliyin sonunda - I minilliyin əvvəlində Cənubi Azərbaycanda və qonşu vilayətlərdə yaşamış tayfaların tarixi haqqında başlıca olaraq mixi yazılara əsaslanan məlumatlar bölgənin Həsənli, Dingətəpə, Göytəpə, Marlık, həmçinin Naxçıvan bölgəsinin Oğlanqala, Vayxır kimi abidələrindən aşkar edilmiş bir çox arxeoloji materiallarla daha da zənginləşmişdir. Yazılı qaynaqlarda nisbətən yaxşı əks olunmuş Cənubi Azərbaycan vilayətlərinə Urartu yürüşləri son illərdə arxeoloji cəhətdən də qədim qalalar və digər obyektlərin qazıntıları ilə təsdiq olunmuşdur.

Qədim Azərbaycanın cənub bölgələrindən fərqli olaraq Şimali Azərbaycan ərazisində e.ə. III minillikdə tayfa birliklərinin mövcudluğunu yalnız arxeoloji materiallar təsdiq edir və təəssüf ki, yazı nümunələri, demək olar ki, aşkar edilməmişdir. Bu dövrdə Şimali Azərbaycanın ərazisi yazılı mənbələrin diqqətindən kənarda idi. Buna görə də burada məskunlaşmış tayfaların, tayfa birliklərinin adları haqqında yazılı məlumatlar demək olar ki, yoxdur. Bu baxımdan e.ə. III minillikdə Şimali Azərbaycan ərazisində tayfa birliklərinin mövcudluğu arxeoloji materiallarla təsdiq olunsa da, bu ərazidə yaşayan tayfaların adları, yayılma arealları, toponimləri və s. haqda məlumat almaq mümkün deyil.

Lakin arxeoloji materiallar Şimali Azərbaycan ərazisində də böyük tayfa ittifaqlarının artıq erkən tunc dövrünün sonlarında yaranmağa başladığını söyləməyə əsas verir. Bu dövrdə Azərbaycanın şimalında yaranan tayfa ittifaqları haqqında məlumat Naxçıvan, Gəncə, Şəki, Şəmkir, Oğuz, Qəbələ bölgələrindən aşkar edilmiş saysız-hesabsız kurqanlarında, qədim yaşayış məskənlərində aparılan arxeoloji araşdırmaların nəticələrinə, əldə olunan maddi mədəniyyət nümunələrinə əsaslanır.

E.ə. III-II minilliyin sonunda Azərbaycanın şimalında zəngin qəbir abidələrinin, həmçinin çoxsaylı kurqanların aşkar edilməsi, dövlətin ilk fərqləndirici cəhəti olan ərazi bölgüsünün meydana gəldiyini göstərən protoşəhər tipli Oğlanqala, Vayxırqala kimi abidələr onunla həmsərhəd olan bölgələrdə Urmiya ətrafı bölgələrdə olduğu kimi xırda siyasi vahidlərin mövcudluğunu təsdiq edir. Son tunc mərhələsində əhalinin xeyli dərəcədə çoxalması, iri tayfa ittifaqlarının meydana gəlməsini, tayfalar daxili münasibətlərin mürəkkəbləşməsini, hərbi toqquşmaların artmasını göstərir. Bu mərhələdə maldar tayfaların yeni ərazilərdə məskunlaşması ilə əlaqədar olaraq Şimali Azərbaycanın da demək olar ki, hər yerində yaşayış məskənlərinin, möhkəmləndirilmiş qalaların sayı artmağa başlamışdı. Bunu e.ə. II minilliyin sonunda və I minilliyin başlanğıcında Urmiya ətrafı bölgə və onunla həmsərhəd olan Naxçıvan, Dağlıq Qarabağ, Mingəçevir, Marlık, Həsənli kimi ərazilərdən tapılmış materiallar əsasında söyləmək mümkündür. Naxçıvan Muxtar Respublikası və Kiçik Qafqazın cənub-şərq ətəklərində -Qaraköpəktəpə, Günəştəpə, Leylatəpəsi, Ovçulartəpəsi kimi yerlərdəki qazıntılar erkən tunc dövründə Azərbaycan ərazisindəki qədim tayfaların mədəni-tarixi inkişafını müəyyənləşdirməyə, Qafqaz tayfalarının Qədim Şərqin həmsərhəd ölkələri

ilə əlaqələrini aşkara çıxarmağa imkan yaradan çox zəngin materiallar vermişdir. Üzərliktəpədə, Qaraköpəktəpədə, Qobustanda, Şəki rayonunun kurqanlarında da aşkara çıxarılmış orta tunc dövrü materialları bu baxımdan əhəmiyyətlidir.

Şimali Azərbaycan ərazisindən aparılan arxeoloji tədqiqatlar-xüsusilə də Naxçıvan, Oguz, Qəbələ, Göranboy, Şəki bölgələrindən aşkar edilən e.ə. III minilliyə aid zəngin kurqanlar bu ərazidə güclü tayfa birliklərinin olduğunu göstərir. Xüsusilə, son dövrdə (2008-ci ildən etibarən) Naxçıvanın Şərur bölgəsində Arpaçay sahilindəki Qaratəpə dağında yerləşən Oğlanqala abidəsindən tapılmış mixi yazı Azərbaycanın şimalında da iri tayfa birlikləri və erkən dövlət qurumları olduğunu söyləməyə əsas verir**.** Bu abidənin tarixi e.ə. II-I minilliklərə aid edilir. Əlverişli təbii-coğrafi və strateji mövqedə yerləşməsi Oğlanqaladan uzun müddət müdafiə istehkamı kimi istifadə olunduğunu göstərir. 2008-ci ildən xarici və yerli mütəxəssislərin birgə araşdırmaları Oğlanqaladakı sarayın e.ə. 800 və 750-ci illərdə tikildiyini təsdiq etmişdir. Oğlanqala abidəsindən qədim saray, gözətçi qülləsi, saxsı qablar və mixi yazı nümunəsi kimi bir çox qiymətli materiallar aşkar edilib. Bu materialllar Oğlanqala abidəsinin Şərur düzənliyini əhatə edən, özünəməxsus dili və mədəniyyəti olmuş kiçik, yerli müstəqil bir dövlətin mərkəzi və ya qala-şəhər olduğunu göstərir. Oğlanqaladan tapılan keramika və digər nümunələr Oğlanqalanın Urartu ilə, həmçinin İran və Gürcüstanla da ticarət əlaqələri saxladığını təsdiq edir. Oğlanqala yaşayış yerindən e. ə. VIII əsrə aid edilən üzərində "şəhər qurdum" mənasına gələn mixi yazı parçalarının olduğu müəyyən edilmiş iki saxsı qab qırıgı da aşkar edilmişdir. Bu yazı nümunəsinin Urartu və assuriyalılara deyil, yerli tayfalardan birinə, daha çox isə mannalılara məxsusluğu, yəni Azərbaycan ərazisində yaşamış tayfalara aid olması da təsdiqlənmidir. Bu Oğlanqala abidəsinin yerli tayfalara məxsusluğunu təsdiq edir.

Oğlanqala ərazisində e.ə. IV əsrdə - Əhəməni imperiyası və ya Makedoniyalı İskəndərin işğallarından sonra da yaşayış davam etmişdir. Ümumiyyətlə, eramızdan əvvəl V əsrdə yaşamış, yunan tarixçisi Herodotun Cənubi Qafqazın Əhəmənilər İmperiyasının tərkibinə daxil olması haqqında məlumatını bütün Cənubi Qafqaz ərazisində, xüsusilə də Mingəçevirdə dəfələrlə Əhəmənilər dövrü mədə-

niyyəti üçün səciyyəvi olan torevtika [1] predmetləri, möhürlər keramika məmulatının tapılması, xüsusilə də Qazax rayonu Sarıtəpə abidəsindən aşkar edilmiş saray sütunaltlıqları[2] müəyyən dərəcədə təsdiqləyir. Son illərdə Şəmkir rayonunun Qaracəmirli kəndi yaxınlığında saray sütunaltlıqlarının və 2500 il bundan əvvələ aid edilən şəhər tipli böyük yaşayış yerinin qalıqlarının tapılması isə bu məlumatın doğruluğunu tamamilə təsdiqlədi. Qaracəmirli ərazisində qalıqları aşkar edilmiş bu saray e.ə. V əsrin 1-ci yarısında tikilmişdir. Arxeoloji tədqiqatlar nəticəsində Qaracəmirli abidəsinin Cənubi Qafqazda aşkar edilən belə abidələrin ən böyüyü olması və təxminən e.ə. 550-330-cu illərdə (Əhəməni imperiyasının yaranmasından Makedoniyalı İskəndərin Şərqə yürüşünədək olan dövrdə) mövcud olması müəyyən edilmişdir. Qeyd etmək lazımdır ki, Qaracəmirli ərazisindən tapılmış bu abidə Əhəmənilər imperiyasının İran ərazisində yerləşən mərkəzi şəhərlərindən kənarda aşkar edilən ən böyük saray qalığıdır. Bu qədim saray yerinin Əhəmənilər imperiyasının bütün Cənubi Qafqazı idarə edən inzibati mərkəzi (Satrap iqamətgahı) olduğu müəyyən edilmişdir. Abidədən aşkar edilmiş zəngvarı, yanları palma yarpaqları şəkilli relyef naxışlı və dördbucaqlı pilləli daş saray sutunaltlıqları Əhəmənilər imperiyasının mərkəzi şəhərlərindən biri olan Persopol və Pasarqaddakı saray sütunları ilə eynilik təşkil edir. Əhəməni imperiyasının banisi II Kirin Pasarqaddakı sarayının sütunaltlıqları dövrdbucaqlı pilləli, Əhəmənilərin hökmdarı I Dara və onun oğlu Kserksin e.ə. V əsrin əvvəllərində Perspolda tikdirdikləri sarayın sütunaltlıqları isə zəngvari formadadır.

Azərbaycanın müxtəlif bölgələrindən aşkar edilmiş **arxeoloji** abidələr Əhəməni imperiyasının süqutundan sonrakı mərhələdə Azərbaycanda baş verən bir sıra siyasi-iqtisadi hadisələri əks etdirən materiallarla da zəngindir. Azərbaycanın müxtəlif rayonlarında: Qaraköbər (Ağcabədi rayonu), Qalatəpə (Beyləqan rayonu), Əmirvan, Seyidtala (Qəbələ rayonu), Vardanlı (Oğuz rayonu), Şəkili, Kürdüvan, Talıstan, Uzunboyalar (İsmayıllı rayonu), Canaxar, Xuçbala (Quba rayonu), Çıraqlı, Dağkolanı, Bağırlı, Qalacıq (Şamaxı rayonu), Kirzan (Qazax rayonu), Torpaqqala (Qax rayonu) ərazilərində,

[1] Bədii metalişləmə.
[2] 1958-ci ildə Sarıtə abidəsindın aşkar edilən bu sütunaltlıqları hazırda Milli Azərbaycan Tarixi muzeyində saxlanılır.

habelə Füzuli, Gəncə, Şəmkir rayonlarında, Alazan çayı hövzəsində və Kür ilə Araz arasındakı ərazidə Makedoniyalı İskəndərin Şərqdə yaratdığı imperiyasının tənəzzülündən sonra Şimali Azərbaycan ərazisində meydana gəlmiş Qafqaz Albaniyası dövləti ilə bağlı xeyli yaşayış məskənləri üzə çıxarılıb öyrənilmişdir. Arxeoloqlar Albaniyanın antik dövründə paytaxtı olmuş Qəbələ şəhərinin qalıqlarını[1], həmçinin Təzəkənd kompleksi[2],, Qaratəpə[3], Qaraköpəktəpə [4], Sarıtəpə[5] kimi bir sıra antik şəhər tipli məskənlər aşkar etmişlər.

Antik Azərbaycanın arxeoloji cəhətdən öyrənilməsi sahəsində, xüsusilə də qədim şəhər yerləri və qəbir abidələrinin tədqiqi ilə bağlı son dövrlərdə daha intensiv iş aparılmaqdadır. Son arxeoloji tədqiqatlar nəticəsində Ağcabədinin Salmanbəyli kəndinin 4 km-liyində, Qarqarçay və qədim Gavurarx kanalının qovşağında yerləşən Qalatəpə ərazisində qədim alban şəhəri Ayniananın yerləşdiyi bölgə müəyyən edilmişdir. Bu qədim alban şəhəri haqda məlumat verən həm yunan, həm də ərəb müəllifləri şəhərin Bərdə və Beyləqanın 42-49 km-liyində yerləşdiyini yazırlar. Qalatəpə yaşayış yeri antik və orta əsr müəlliflərinin Qafqaz Albaniyasının Uti vilayətinə daxil etdikləri Yunan şəhəri haqda məlumatları ilə üst-üstə düşür. Starbonun və IX-XIII əsr ərəb müəlliflərindən Küfi, İstəxri, İbn Haykal, Müqəddəsi, Yaqut Həməvini məlumatları, həmçinin Qalatapə ərazisindən aşkar edilmiş arxeoloji materiallar təsdiq edir ki, e.ə III əsrdə mövcud olmuş alban şəhəri Ayniana məhz bu ərazidə yerləşmişdi. Ayniana şəhəri haqda "Kitab əl Fütux" əsərində ilk məlumatı

---

[1] Qəbələnin xarabalıqları indiki Qəbələ rayonunda, Çuxur-Qəbələ kəndindən şərqdə, Qaraçay (Qəbələçay) ilə Courlucay (Qalaçay) arasındakı təpədə və bitişik ərazilərdə yerləşir.

[2] Təzəkənd abidəsi Beyləqan rayonunda eranın başlangıcına aid edilən şəhər tipli yaşayış məskəni. Mil düzündə son dərəcə mühüm bir abidədir və Örənqala (Beyləqan) xarabalığının 7-8 kilometrliyində yerləşən həmin məskən VI əsrdə qədim Paytakaranla eyniləşdirilən Örənqala xarabalığının ərazisində yerləşdiyi ehtimal olunur.

[3] Örənqala xarabalığından şimal-qərbdə yerləşən, eramızdan əvvəl I minilliyin ortalarında Mil düzündə meydana gələn məskəndir.

[4] Füzuli rayonunda Quruçay ilə Köndələnçay arasında antik təbəqəsi eramızdan əvvəl V-II əsrlərə aid edilən böyük bir məskən. Qaraköpəktəpədə üzərində Sasanilər dövrü damğa - möhürünün izlərinin aşkar edilməsi burada şəhər həyatının olmasından xəbər verir.

[5] Qazax rayonu yaxınlığında ən erkən təbəqəsinin e. ə. I minilliyin ilk əsrlərinə aid edilən, həmçinin Əhəmənilər təbəqəsinin də tapıldığı yaşayış məskəni.

verən ərəb müəllifi Kufi bu şəhəri Beyləqan və Bərdə arasında yerləşdirir.

Arxeoloji qazıntılar nəticəsində antik Albaniyanın mühüm beynəlxalq karvan yolları üzərində yerləşən vasitəçi ticarət mərkəzi olmuş qədim Mingəçevir ərazisindən, həmçinin Qazax (Sarıtəpə), İsmayıllı (Mollaisaqlı, Hacıhətəmli, Şıxdərə Kəlləsi, Qalagah, Gənzə Tircan, Pirəbilqasım, Talıstan), Qəbələ (Çuxur Qəbələ, Çaqqallı, Seyidtala, Uzuntala, Mollakənd), Qax (Torpaqqala), Ağsu (Nüydü k) və Şamaxı rayonları (Xinisli k.) ərazilərindən də bir sıra qədim alban yaşayış məskənlərinin qalıqları aşkar edilmişdir. Şəki yaxınlığındakı Böyük Dəhnə kəndi yaxınlığında I-II əsrlərə aid yunan kitabəsinin aşkar edilməsi eramızın hüdudunda və ilk əsrlərində müasir Şəki, Qax rayonlarında bir sıra antik dövr məskənlərinin mövcud olduğunu söyləməyən əsas versə də, təəssüf ki, burada yalnız antik dövrün sonlarında meydana gələn Torpaqqala qədim yaşayış məskənində qazıntı işləri aparılmışdır.

Antik dövrdə Qafqaz Albaniyasının mərkəzi olmuş Qəbələ bölgəsində aparılan arxeoloji tədqiqatlar nəticəsində Albaniyanın qədim paytaxtı Qəbələnin şəhər xarabalığı aşkar edilmişdir. Bura Şimal hissəsi Səlbir, cənub hissəsi Qala adlanan, "Qala-Səlbir", bə-zən də "Govurqala" adlandırılan ərazidən ibarətdir. Səlbir və Qala, görünür, Qəbələnin içqalası olmuşdur. Hazırda da davam etdirilən arxeoloji qazıntılar nəticəsində şəhərin xarabalıqlarından bir qədər cənub-şərqdə, Çaqqallı adlanan bölgədə qədim şəhərin Kamaltəpə, Bayır şəhər və sənətkarlar məhəlləsi kimi hissələri də üzə çıxarılmışdır. Qəbələ xarabalığının yaxınlığında öz qəbiristanları ilə birlikdə Seyidtala, Uzuntala, Qafarlı, Qaratəpə kimi qədim məskənlər də qeydə alınmışdır. Görünür, məhz bütün bu məskənlər birlikdə Qəbələ şəhəri kompleksini təşkil edirdi.

Buradan aşkar edilmiş zəngin məişət əşyaları e.ə. III-I əsrlərdə Qəbələdə dəbdəbəli həyatın olduğunu göstərir. Qalada antik dövrün mədəni təbəqəsinin aşkar edilməsi, həmin təbəqədə şərab anbarı, zadəgan təbəqəyə məxsus məqbərə, bulla tapılması, Bayır şəhərin yaxınlığında küp qəbirlərdən ibarət qəbiristanın, Çaqqallıda antik mədəni təbəqənin və qəbiristanın, Seyidtalada, Uzuntalada, Tərkəşdə, Qaratəpədə antik dövr məskənlərinin və qəbiristanlarının mövcud olması Qəbələdə və Qəbələ mahalında sosial-iqtisadi və mədəni həyat haqqında məlumat verir. Xüsusilə Qəbələ-Ağsu ərazilərindən Makedoniyalı İskəndərin və Selevkilərin sikkələrinə bənzədilən yerli sikkələrin də

olduğu dəfinələrin tapılması Albaniyanın mərkəzi vilayətinin yerləşdiyi bu bölgənin antik şəhər tipli, dövrünə görə iri ticarət-sənət və hərbi-siyasi mərkəz olduğunu göstərir..

Qalatəpə ərazisindən keramika, həmçinin şüşə məmulatı da aşkar edilmişdir. Eranın I əsrinə etibarən bellə şüşə qablara Romanın mütün əyalətlərində rast gəlinməkdə idi. Yazılı mənbələrdə Qafqaz Albaniyasında şüşə istehsalı barədə məlumat verilməsə də, arxeoloji tədqiqatlar zamanı Qəbələ, Şamaxı, Torpaqqala kimi yaşayış yerlərindən şüşə qab nümunələri aşkar edilmişdir Qalatəpə yaşayış yerindən Roma sikkəsi, yerli məmulat olmayan müxtəlif bəzək əşyalarıl da aşkar edilmişdir. Bu, Roma və onun əyalətləri ilə geniş ticarət əlaqələrinin mövcudluğunu göstərir.

Arxeoloji qazıntılar Albaniyanın təsərrüfat həyatı barədə də ətraflı məlumat verir. Qaratəpə, Mingəçevir, Yaloylutəpədə, Xınıslı kimi antik alban yaşayış məskənlərindən aşkar edilən müxtəlif kənd təsərrüfatı alətləri, kömürləşmiş buğda və arpa qalıqları, həmçinin e.ə. I minilliyin sonuna aid keramika məmulatındakı buğda və darı təsvirli qabartmalar, xüsusilə də, Xınıslı və Yaloylutəpədədən I minilliyin son əsrlərinə aid əl dəyirmanlarının tapılması Albaniyada Kənd təsərrüfatının yüksək səviyyədə olduğunu söyləməyə əsas verir. Ən qədim zamanlardan Azərbaycanda taxılı saxlamaq üçün quyulardan və iri gil küplərdən istifadə olunurdu. Mingəçevir ərazisindən yerə basdırılmış iri təsərrüfat küpləri, quyularda darı, arpa və buğda qalıqları ilə yanaşı, emal edilmiş kənd təsərrüfatı məhsulları da aşkar edilib.

Eyni zamanda Strabonun Albaniya ərazisindəki yüksəksəviyyəli irriqasiya sistemi haqqında verdiyi məlumat da arxeoloji materiallar vasitəsilə təsdiqlənir. Qafqaz Albaniyası ərazisində əhalinin becərilən torpaqlarda hələ qədim zamanlardn yüksəksəviyyəli süni suvarma sistemindən istifadə etməsini Gəncə yaxınlığında Şəmkir çayı bölgəsində qədim kəhriz sisteminin aşkar edilməsi təsdiq edir. İrriqasiya sisteminin - kəhrizlərin və suvarma kanallarından istifadə olduğunu göstərir. İrriqasiya məqsədləri üçün kanallardan və kəhrizlərdən istifadə edilməsi ənənəsi Azərbaycan kəndlərində bu günədək davam edir.

Arxeoloji qazıntılar antik müəlliflərin Albaniyada üzümçülük təsərrüfatının inkişafı haqqındakı məlumatlarını da təsdiqləyir. Ağdam yaxınlığındakı Üzərliktəpədə e. ə. III-I əsrlərə aid küp qəbirlərindən üzüm tumları olan bir qab, tənəkləri bu damaq üçün

işlədilən bıçaqlar və qayçılar, Qədim Albaniyada üzüm şirəsini çıxarmaq üçün istifadə olunnan girintili-çıxıntılı altlığı və içində hazır üzüm şirəsinin axması üçün novu olan daş vanna aşkar edilib. Bu cür üzümsıxma vannalarından biri də Xınıslıda aşkar edilmişdir. Burada üzümü emal etmək və şərab saxlamaq üçün istifadə edilən iri küplər də aşkar edilib. Bu materiallar Qədim Albaniyada üzümçülüklə yanaşı, şərabçılığın da inkişaf etdiyini təsdiq edir.

Albaniyada maldarlıq haqqında qədim müəlliflərin məlumatları da arxeoloji materialla - antik yaşayış məskənlərindən öküz, at kimi müxtəlif heyvan sümüklərinin və s. aşkar edilməsi təsdiq olunur. Arxeoloji qazıntılar zamanı, məsələn, Mingəçevir, Ağcabədi ərazilərindən Albaniyanın qədim əhalisi tərəfindən işlədilən, bəzisinin dibində südün yaxşı çalxalanması üçün barmaqvarı iki və ya dörd çıxıntının olduğu çoxlu gil nehrə aşkarlanmışdır. Qədim Albaniyada maldarlığın əhəmiyyətini təsərrüfat sahəsi olduğunu keramika məmulatında bir çox qabların üstündə buynuzlu qoyun başının təsvirləri, həmçinin gildən öküz başı, heyvan fiqurları da təsdiq edir.

Albaniya əhalisi əkinçiliklə yanaşı sənətkarlığın toxuculuq, dulusçuluq, dəmirçilik kimi müxtəlif sahələri ilə məşğul olurdu. Qazıntılar qədim Qafqaz Albaniyasında keramika istehsalının geniş yayıldığını göstərir. Dulus kürələrinin ölkənin bütün ərazisində tapılması kütləvi xarakter daşıması, xüsusilə də, Kür çayının sahilində, Alazan çayı ilə Əyriçayın qovuşduğu yerin yaxınlığında – Torpaqqalada çoxlu dulus kürələrinin tapılması bu bölgədə iri dulusçuluq mərkəzi olduğuna dəlalət edir. Çaqqallıda (Qəbələ), Xınıslıda qazıntı zamanı çoxlu bütöv kirəmit və külli miqdarda kirəmit qırıntıları tapılması qədim Qafqaz Albaniyasında keramika istehsalının geniş miqyas aldığını təsdiqləyir. Antik dövrün damüstü kirəmiti ilk dəfə Qəbələnin yaxınlığında - Çaqqallıda və Seyidtalada tapılmışdır və e.ə. II əsr - eramızın I əsrinə aid edilir. Albaniyada, xüsusən Qəbələdə ellinizm dövründən kirəmit istehsalının başlaması şəhər sənətkarlığının yüksək inkişafından xəbər verir. Burada daşyonanların, dülgərlərin və başqa sənətkarların emalatxanalarının olması ehtimal edilir.

Mingəçevirdə toxuculuq sahəsinin inkişafını Xınıslıda nazik kətan parça qalıqları Mingəçevir və Babadərvişin katakomba qəbirlərindən e.ə. I minilliyə aid sadə toxuculuq dəzgahlarının ayrı-ayrı hissələri aşkar edilməsi (Mingəçevirdə, Çuxur Qəbələ yaxınlığından Şamaxıdan, İsmayıllıdan, Ağdaş, Şamaxı, Gəncəçayın sahilində və başqa yerlərdən qədim alban silahlarının - Albaniya nizəçi döyüş-

çülərin istifadə etdikləri nizə ucluqları, dəmir qılınclar) antik Albaniya ərazisində toxuculuq, silah istehsalı kimi sənətkarlıq sahələrinin yüksək inkişaf səviyyəsindən xəbər verir. Qəbələnin yaxınlığında aşkar edilmiş antik qəbiristanlar, qədim Qəbələ əhalisinin ictimai-iqtisadi həyatını və mənəvi mədəniyyətini, xüsusən dini baxışlarını, dəfn mərasimlərini öyrənməyə imkan verir. Yaloylutəpə mədəniyyətinin materialları Albaniyada alban tayfalarının dəfn mərasimlərinin müxtəlifliyi, məsələn, quyu qəbirlərini, çiy kərpicdən hazırlanmış, təknə, taxta qutu və katakomba qəbirləri burada müxtəlif tayfaların yaşadığını göstərir.

Beləliklə, arxeoloji materiallar e.ə. III-II minilliklərdə Şimali Azərbaycan ərazisində və Cənubi Azərbaycanda Urmiya ətrafı bölgələrdə bir-birinə yaxın olan mədəniyyətlərin təşəkkül tapdığını və bəzi fərqlərə baxmayaraq, qədim Azərbaycanın hər iki hissəsinin – həm Cənubi Azərbaycan, həm də Şimali Azərbaycan ərazilərinin inkişaf səviyyəsinin təxminən eyni olduğunu söyləməyə əsas verir. E.ə. I minilliyin əvvəlində əsas fərqləndirici əlamət Urmiya bölgəsində nisbətən daha iri siyasi qurumların yaranması idi. Arxeoloji tapıntılar sübut edir ki, antik dövrdə Albaniya həmsərhəd Zaqros ətrafı bölgələrlə təxminən eyni sosial-iqtisadi və mədəni inkişaf səviyyəsində olmuşdur. Qonşu vilayətlərdə olduğu kimi, bu ərazilərdə də kifayət qədər inkişaf etmiş oturaq əkinçi-maldar təsərrüfatı mövcud olmuş, sənətkarlıq yüksək səviyyəyə çatmış, inkişaf etmiş iqtisadi həyata, ticarətə malik şəhərlər meydana çıxmışdır.

**Numizmatik materiallar**. Azərbaycan ərazisində aşkara çıxarılmış və artıq elmi dövriyyəyə daxil edilmiş numizmatik materiallar da tariximizin öyrənilməsi üçün böyük əhəmiyyətə malikdir. Qazıntılardan aşkar edilən sikkələr artıq e.ə. III əsrin sonlarından ərazimizdə pul zərbinin mövcudluğunu sübut edir. Antik Azərbaycan ərazisində mövcud olmuş Albaniya (Qafqaz Albaniyası) və Atropatena dövlətlərində zərb edilən yerli sikkələrin aşkar edilməsi Azərbaycanda qədim dövlətçilik ənənələrinin mövcudluğunu təsdiq edən amillərdən biridir.

Qəbələdə tapılan, üstündə möhür izləri və qaytan qırıqları olan onlarla bullalar[1], həmçinin Bərdə, Şamaxı, Ağsu kimi bölgələrdən aşkar edilmiş numizmatik materiallar ellinizm dövründən Albaniyanın iqtisadiyyatının yüksək inkişaf səviyyəsini göstərir. Külli

[1] Roma imparetorluğu dönəminə aid antik möhürlərə verilən ad.

miqdarda alban sikkələri ilk dəfə Şamaxı yaxınlığında Xınıslı kəndinin ətrafında aşkar edilmişdir. Bu ərazidə yerli alban sikkələri ilə bərabər albanların ellin dünya və Şərqlə geniş ticarət əlaqələri olduğuna dəlalət edən Roma denarisi, Afina, Frakiya, Vifiniya, Pont, Selevki tetradraxmaları, Arşaki draxmaları və yerli alban tetradraxmalarından ibarət 300-dən çox gümüş sikkədən ibarət dəfinə tapılmışdır. Xınıslı dəfinəsi hələ eramızdan əvvəl Azərbaycanda yerli sikkələr kəsildiyini, geniş pul əmtəə tədavülünün olduğunu göstərir. Dəfinədəki gümüş sikkələr arasında Afina, Frakiya, Pont çarlığına məxsus tetradraxmaları, e.ə. 175-ci ildən 83-cü ilədək hökmranlıq etmiş Selevki çarlarının tetradraxmaları, e.ə. 80-ci illərdə kəsilmiş Roma denarisi və nəhayət, 70-dən çox yerli sikkə vardır.

Albanların ellin ölkələrlə geniş ticarət əlaqələrini təsdiq edən dəfinələrin böyük hissəsi tarixi Albaniyanın Bərdə- Beyləqan bölgəsində aşkar edilib. Bərdə yaxınlığında e.ə.II əsrə aid Makedoniya və sələvki tetradraxmaları, Bərdə, həmçinin Orənqalada (Az Resp Beyləqan r) e.ə.I-e II əsrinə aid Roma sikkələri (həm respublika, həm də imperiya) də tapılıb. Bərdədə həmçinin həmin dövrə aid arşaki sikkələri də tapılıb. Azərbaycanda ellinizm dövrünə aid bir neçə pul dəfinəsi tapılmışdır. Bunlardan biri Makedoniyalı Aleksandrın, Selevki hökmdarlarının sikkələrindən ibarət olan Bərdə dəfinəsidir.

Ellinizm dövrünün ən zəngin dəfinəsi Azərbaycan Respublikasının Qəbələ rayonunda Qafqaz Albaniyasının paytaxtı Qəbələ şəhəri xarabalığının yaxınlığında tapılmış Makedoniyalı Aleksandrın draxmaları, Frakiya çarlığına məxsus tetradraxmalar və e.ə. 187-ci ildən 129-cu ilədək hakimiyyət başında olmuş bütün Selevki hökmdarlarının tetradraxmalarından ibarət 700-dən artıq gümüş sikkədır. Dəfinədə Parfiya sikkələri bir neçə draxma ilə təmsil olunmuşdur. Qəbələ dəfinəsində Makedoniyalı Aleksandrın sikkələrinə bənzər, üz tərəfində şir dərisi geymiş Heraklın başı, arxa tərəfində isə Zevs təsvir edildiyi yerli sikkələr - orta çəkisi 15,31 qramlıq tetradraxmalar da aşkar olunub. Bu sikkələr Makedoniyalı Aleksandrın sikkələrindən yalnız bir qədər kobudluqları ilə fərqlənir. Dəfinənin tərkibində beş ədəd yunan-Baktriya və Parfiya sikkələri də var. Azərbaycanda Ağsu rayonunun Nüydü kəndinin yaxınlığından da ellinizm dövrünə aid Makedoniyalı Aleksandrın draxmalarına bənzədilmiş yerli sikkələrdən ibarət dəfinə tapılmışdır. Bu tapıntılar, Albaniya ərazisində Makedoniyalı Aleksandrın zamanından daxili sosial-iqtisadi inkişaf, geniş beynəlxalq ticarət olduğunu göstərir.

Sikkə dəfinələri, bullalar, habelə Qəbələdən keçən karvan yollarının izləri göstərir ki, e.ə. III əsr - eramızın III əsri ərzində Qəbələ Qərb və Şərqin bir çox ölkələri ilə, xüsusən Roma, Parfiya və Sasani imperiyalarına daxil olan vilayətlərlə geniş ticarət əlaqələri saxlayırdı.

Qara dənizə çıxan ticarət yolu üzərində yerləşən Bərdə-Beyləqan bölgəsində aşkar edilmiş numizmatik materiallar da albanların ellin dünya və Şərqlə ticarət əlaqələrini təsdiq edir. Bərdə yaxınlığında e.ə.II əsrə aid Makedoniya və Selevki tetradraxmaları, həmçinin Beyləqan ərazilərindən e.ə. I-eramızın II əsrinə aid Roma sikkələri (həm respublika, həm də imperiya dövrünə aid) də tapılıb. Bərdədə həmçinn həmin dövrə aid arşaki sikkələri də tapılıb. Bu tapıntılar sübut edir ki, İpək yolunun qollarından biri də bu bölgədən keçirdi.

Arxeoloji materiallar təsdiq edir ki, E.ə. I əsrin ortalarından etibarən Albaniya bazarlarında Roma sikkələri də istifadə olunmağa başlandı, xüsusilə də e.ə. I əsrin sonu - eramızın I əsrinin əvvəllərində Avqust[1] denariləri geniş yayılmışdı. Roma sikkələri xüsusən Mingəçevirdə e.ə. I – eramızın III əsrinə aid qəbirlərdə, Bərdədə, Beyləqan rayonundakı Təzəkənd xarabalığında, Gəncə şəhərinin, Şamaxının yaxınlığında və Qəbələdə tapılmışdır. Avqustdan sonra hökmranlıq etmiş imperatorların kəsdirdiyi Roma sikkələrindən də Albaniya ərazisində tək-tək nümunələr tapılmışdır. Eramızdan əvvəl I əsrdə və eramızın ilk əsrlərində Albaniyanın pul tədavülündə Parfiya sikkələri, xüsusilə də Arşaki sikkələri üstün rolu oynayırdı. Arxeoloji qazıntılar zamanı Parfiyanın demək olar ki, bütün çarlarının sikkələrinə qədim Albaniya ərazisinin hər yerində rast gəlinir.

Beləliklə, yazılı mənbələrlə yanaşı arxeoloji qazıntılar da, öz növbəsində, Azərbaycanın qədim etnoslarının regionda yaranmış qədim mədəni mühitin, o cümlədən Şumer-Babil mədəniyyətinin formalaşmasında, həmçinin bütövlükdə Yaxın və Orta Şərqin hərbi-siyasi, mədəni, iqtisadi həyatında, qədim dövlətçilik tarixində çox mühüm rol oynadığını təsdiq edir.

---

[1] Oktavian Avqust (e.ə. 63 -  b.e 14-cü illəri) ilk Roma imperatoru.

## *1.2. E.ə. III minillikdə Cənubi Azərbaycan ərazisində qədim tayfa ittifaqları*

Azərbaycan ərazisində ilk dövlət qurumları və ya etnik-siyasi birliklər hələ eramızdan əvvəl IV minilliyin sonu - III minilliyin əvvəllərindən başlayaraq Urmiya hövzəsində yaranmaqda idı. Bu bölgədə gedən bir sıra ictimai- iqtisadi amillərlə şərtlənirdi. Bu dövrdə Azərbaycanda kənd təsərrüfatının və sənətkarlığın yüksək səviyyədə inkişaf etməsi, yeni-yeni təsərrüfat və sənətkarlıq sahələrinin meydana gəlməsi, cəmiyyətdə sosial təbəqələşməyə, tayfa başçılarının, varlı əyanların nüfuzunun güclənməsinə gətirib çıxarmışdı. Yerli tayfaların daxilində sosial təbəqələşmə artdıqca, mülkiyyət tədricən tayfa başçılarının əlində cəmləşdikcə onların nüfuzu və hakimiyyəti də güclənirdi. Cəmiyyətə təbəqələşmə gücləndikcə varlanma xatirinə aparılan soyğunçu müharibələrin də artması tayfa başçıları cəmiyyətdə başlıca siyasi qüvvəyə çevrilməsinə səbə olmuşdu. Beləliklə, Azərbaycan ərazisində eramızdan əvvəl IV minilliyin sonu—III minilliyin əvvəllərində ibtidai cəmiyyətdə artıq təbəqələşmə prosesi-sinifli cəmiyyətin yaranması başlamışdı. Arxeoloji materiallar bu dövrdə əhalinin xeyli dərəcədə çoxalmasını, tayfa daxili və tayfalar arası münasibətlərin mürəkkəbləşməsini, hərbi toqquşmaların artmasını göstərir. Belə bir vəziyyətdə Qədim Şərqin Akkad, Assuriya kimi güclü dövlətlərinin basqınlarına dayanmaq üçün qədim Azərbaycan ərazisində tayfaların birləşməsi, tayfa birliklərinin yaradılması zərurəti meydana gəlməyə başladı.

E.ə. III minilliyin son rübündə Azərbaycanın və ona həmsərhəd olan ölkələrin tarixində yeni mərhələ başlandı. Məhz həmin tarixi mərhələdən etibarən Şumer-Akkad kimi qonşu dövlətlər Cənubi Azərbaycan ərazisi və burada yaşayan tayfaların adları, bu tayfaların qonşu olkələrlə sosial-iqtisadi və siyasi münasibətləri, müharibələr və s. haqqında ilkin məlumatlar verməyə başlayır.

**Aratta ölkəsi və onun çoğrafi mövqeyi.** Qədim Şərq mənbələrində ilk olaraq Cənubi Azərbaycanda Aratta ölkəsinin və arattalıların adı çəkilir. Aratta qədim Azərbaycan ərazisinə verilən ilk məlum addır. Arattanın coğrafi mövqeyi və yerləşdiyi ərazi ilə bağlı bu ərazini uzaq Əfqanıstanda və oradan Qərbə doğru uzanan yollar üzərində yerləşdirilmək kimi müxtəlif fərziyyə və mülahizələr irəli sürülsə də, Şumer qaynaqlarından əldə edilən məlumatların təhlili Aratta toponiminin Cənubi Azərbaycanda Urmiya gölünün cənub və

cənub-şərq ərazilərinə verilən ad olduğunu təsdiq edir. Dastanda Aratta ölkəsinin Cənubi Azərbaycan torpaqları olduğunu müəyyən edən məlumatlar mövcuddur. Şumer dastanlarından məlum olur ki, Aratta dağlıq ölkə idi, burada qiymətli lacivərd daşı istehsal olunurdu. Bu daş Şumerə Arattadan gətirilirdi, Aratta ustaları Şumerə çağırılır, arattalılar Şumerlə mal mübadiləsi aparırdı. Bu məlumatlar Arattanın Şumerlə qonşu ərazi olduğunu göstərir. Aratta ölkəsinin Cənubi Azərbaycan torpaqları olduğunu Şumer dastanındakı "Qara dağı" keçdikdən sonra, beş, altı, yeddi dağı aşdı və Aratta ölkəsinə daxil oldu" ifadəsindən də müəyyən etmək mümkündur. Qaynaqda adı çəkilən Qara dağ toponimi İraqdan İrana keçidi təşkil edən indiki Süleymaniyyə ərazisində yerləşən Qaradağ ilə eyniyyət təşkil edir. Süleymaniyyədən isə yol Azərbaycanın cənub torpaqlarına çıxırdı. Süleymaniyyə keçidinın adı e.ə. VIII əsrdə Assur hökmdarı II Sarqonun (e.ə. 722-705) Mannaya yürüşü ilə bağlı qaynaqda da çəkilir, "...yeddi dağı çətinliklə aşdım, oradan axan Rappa və Aratta çaylarının gur vaxtını keçdim, Mannanın vilayəti Surikaşa endim" ifadəsində yad edilən yeddi dağ və Aratta dövlətinin adını saxlamış çay Şumer dastanındakı coğrafi mühitlə eyniyyət təşkl edir. Beləliklə, Şumer qaynaqlarında yad edilən Aratta, eyni adı saxlamış Aratta çayı Cənubi Azərbaycanda Urmiya gölünün cənub və cənub-şərq ərazilərinə aid toponimlərdir. Arattanın sərhədləri isə cənub-şərqdə Zəncana, cənub-qərbdə isə Sənəndəcin şimalına -Zəribər gölünə kimi çatırdı. Diyala çayının yuxarı axarı və müasir Zəncan-Qəzvin ərazisi Arattanın aşağı sərhəddini təşkil edirdi.

Qeyd etmək lazımdır ki, qədim mənbələrin bəzilərində Aratta ölkəsi "Dağlıq Alateya ölkəsi" kimi qeyd edilmişdir. Məsələn, Urartu yazılarında e.ə. VIII əsr Urartu hökmdarı I Argiştinin (e.ə. 786-764) Mannaya yürüşü zamanı Alateye vilayətinə qədər olan ərazini tutması barədə məlumat verilir, qaynaqda adı çəkilən Alateye Urmiya gölünün cənub və cənub-şərq ərazilərini əhatə edən vilayətə şamil edilirdi. E.ə.VIII əsrə aid şumer-akkad lüğətində Aratta dağ mənasını verir,eyni zamanda Alateya da qədim türk dillərində *ala* (böyük, yüksək) və *tau* (dag ) söz birləşməsi olub "dağ, dağlıq ərazi" mənasını ifadə edir. Göründüyü kimi, Aratta və Alateye eyni dağlıq ərazinin müxtəlif dialekt adlarıdır, hər iki adı əmələ gətirən söz "dağ" mənasını daşıyır. Ad ərazinin coğrafi mənzərəsinə də uyğundur. Türk

coğrafiyasına aid bir çox ərazilərdə Alatau oroniminin[1] müxtəlif formalarına rast gəlinməkdədir. Məsələn, Altayda Altay-Alatau, Azərbaycanda Alatava, Aladağ kimi oronimlər mövcuddur. Aratta, hazırda da Cənubi Azərbaycan ərazisində Urmiya gölünün cənub və cənub-şərqi dağlıq ərazisini əhatə edir və bu ərazidə eyni adı saxlamış Aratta çayı və Alateya toponimləri qalmaqdadır.

**Aratta ölkəsinin Şumerlə iqtisadi, siyasi, mədəni əlaqələri.** Aratta ölkəsinin İkiçayarası (Mesopotamiya) şəhər dövlətləri ilə, ilk növbədə, qədim Şumer dövləti ilə iqtisadi, siyasi və mədəni əlaqələri mövcud olmuşdur. Şumer dastanlarında Arattanın yerləşdiyi ərazi, buradakı sosial-ictimai qurumlar və s. haqda məlumatlar, e. ə. III minilliyin I yarısından etibarən Aratta ölkəsi ilə əlaqədar hadisələr öz əksini tapmışdır. İlk məlumatlara e. ə. XXVIII-XVII əsrlərdə Şumerin Uruk şəhər dövlətinin hökmdarı Merkara həsr olunmuş "En-Merkar və Aratta hökmdarı" adlı dastanda rast gəlinir. Dastanda Şumer qasidinin "Qara dağı" keçərək, beş, altı, yeddi dağı aşıb Aratta ölkəsinə daxil olması” barədəki məlumatı Arattanın coğrafi mövqeyini müəyyənləşdirməyə imkan verir. Göründüyü kimi, bu eposdan Arattaya gedən yolu müəyyənləşdirmək mümkün olmuşdur. Dastanlanlardan birində - “Luqalbanda Hurrum dağında” Uruk hökmdarı En-Merkar Şumeri qiymətli daşlarla təmin etməkdən boyun qaçıran Arattanı zəbt etmək üçün böyük ordu ilə hərbi yürüşə yollanması barədə də məlumat verilir. Dastandakı məlumatlar Aratta ölkəsi əhalisinin qızıl, gümüş, tikinti, mis, dağ daşı, laciverd və s. hasil etdiyini göstərir.

**Aratta əhalisinin məşğuliyyəti.** Zəngin yeraltı faydalı sərvətləri olan Aratta ölkəsinin əhalisi qızıl, gümüş, mis, dağ daşı, qiymətli laciverd daşı hasil edirdi. Qiymətli metallardan hazırlanmış əşyalar və laciverd daşı İkiçayarasına ixrac edilirdi. Aratta əhalisi əsasən sənətkarlığın müxtəlif sahələri ilə məşğul olurdu. Burada məbəd və saray tikən, divarlara qiymətli daşlardan naxışlar vuran mahir ustalar vardı. Arattalılar qiymətli metal və daşlardan nadir zinət əşyaları hazırlayırdılar. Qaynaqdan məlum olur ki, Aratta ustalarının sənətkarlığı İkiçayarasında yüksək qiymətləndirilir. Urukda saray və məbədlərin tikintisinə Aratta ustaları dəvət edilir. Tikintidə istifadə olunacaq laciverd, qızıl-gümüş Arattadan gətirilirdi.

[1] **Oronim** -Toponimlərin əks etdirdiyi görünüşünə görə növlərindən biridir (qədim yunanca *oros*— dağ sözündən olub dağ, dərə, təpə və s. adları bildirir).

Aratta əhalisi əkinçiliklə də məşğul olur, buğda, noxud becərirdi. Arattada dəmyə əkinçiliyi mövcud idi, yəni əkinçilik yağış sularından asılı idi. Qaynaqlarda bu məlumat belə təsvir edilir: "Tanrıların ali kahini İşkur göyü guruldadır, ildırım çaxdırır, dağlara lərzə saldırır və yağış yağdırır. Bu zaman buğda və noxud göyərir". .

**Arattada sosial-ictimai qurumlar.** Şumer dastanlarından həm də Arattadakı sosial-ictimai qurumların yüksək səviyyədə olduğu ortaya çıxır: Arattada mövcud olan siyasi və ideoloji qurumlar şumer məfhumları ilə ifadə olunurdu. Aratta ölkəsini *ensi* rütbəsi daşıyan hökmdar idarə edirdi. Şumerdə də *ensi* rütbəsi var idi. Lakin bu rütbə ali kahin – hökmdara şamil edilirdi. E. ə. III minilliyin I yarısında Arattada dövlət idarəetmə strukturunda *maşmaş* (kahin, vəzir), *sukkal* (elçi, kiçik hökmdar, əyalət hakimi), *uqula* ( rəis) kimi əsilzadə təbəqəsinə daxil edilən qulluqçular əsas yer tuturdu. Aratta dövlət idarələri şumer mixi işarələri və şumer dili ilə tanış idi. Şumer Arattada dövlət idarəsində mirzələr də çalışırdılar. Onlar həm Şumer hökmdarlarına cavab yazır, həm də Şumerdən göndərilən məktubları tərcümə edirdilər. Aratta arasında əlaqə qasid vasitəsi ilə həyata keçirilirdi.

**Arattada din.** Arattada çoxallahlılıq - yəni müxtəlif tanrı və tanrıçalara (ilahələrə) sitayiş mövcud olmuşdur. Qaynaqdan məlum olur ki, Tanrıların ali kahini İşkur adlanır və o, “göyü guruldadır, ildırım çaxdırır və yağış yağdırır”. Bərəkət və məhəbbət ilahəsi hesab edilən İnannaya sitayiş Arattada geniş yayılmışdı. Akkadlar bu ilahəni İştar adlandırırdılar. Şumer tanrısı Dumuzi də həmçinin Arattaya himayədarlıq edirdi. Qaynaqlarda Aratta ilə əlaqədar adı çəkilən digər bir ilahə Arattanın mühafizəkarı hesab edilən Lama ilahəsidir.

Arattada şəhər mədəniyyətinin süqutundan sonra İkicayarasındakı şəhər-dövlətlərin daxilində gedən iqtisadi-siyasi proseslər və qarşılıqlı ərazi iddiaları ilə bağlı hərbi münaqişələr üzündən Azərbaycanın cənubu uzun müddət maraq dairəsindən kənarda qalır. E.ə. XXIII əsrdə Akkad sülaləsinin və Akkad şəhər-dövlətinin banisi sayılan I Sarqon Şumer çarlıqlarının müstəqilliyinə son qoyaraq pərakəndə şəhər dövlətləri öz mərkəzi hakimiyyəti altında birləşdirərək dünya tarixində dərin iz qoymuş Akkad dövlətinin əsasını qoyur. Bu dövrdən etibarən Azərbaycan ərazilərinə yürüşlərin yenidən aktivləşdiyi üçün və bu yürüşlərin akkadlar tərəfindən olduğu üçün bu dəfə akkad mətnlərində Azərbaycanın Urmiya ətrafı yaşayış məskənləri və onların sakinləri yenidən xatırlanmağa başlayır.

**Azərbaycan ərazisində ilk etnik-siyasi birliklər.** Azərbaycan ərazisindəki Aratta ölkəsində erkən tunc dövrünün sonlarında Lullubi va Kuti tayfa ittifaqları kimi ilk böyük tayfa ittifaqları yaranmağa başlamışdır. E.ə. XXIII əsrdən etibarən Kuti və Lullubi tayfa birləşmələri regionun hərbi-siyasi tarixində mühüm rol oynamağa başladılar. Urmiya ətrafından başlayaraq, zaman-zaman Dəclə və Fərat vadiləri də daxil olmaqla, İran körfəzinə qədərki ərazilərdə hakimiyyət qurmagı bacarmış Lullubi və Kutilər təkcə Azərbaycanın deyil, ümumiyyətlə qədim Şərq dövlətçiliyinin tarixində də dərin iz qoymuş tayfa birlikləri olmuşlar. Lullubi və Kuti tayfa ittifaqları ilə Şumer, Akkard və Aşşur (Assuriya) dövlətləri arasında sıx qarşılıqlı əlaqələr vardı. Lakin bu qədim Azərbaycan tayfaları qonşu Mesopotamiyada bir-birini əvəz edən Şumer, Akkad daha sonra Assuriya kimi qədim Şərq dövlətləri ilə müəyyən iqtisadi və mədəni əlaqələr yaratsalar da onların arasında tez-tez siyasi münaqişələr də baş verirdi.

**Kuti Tayfa İttifaqı**. Azərbaycan ərazisində mövcud olmuş ilkin etno – siyasi birliklərdən biri olmuş Kuti (quti) tayfa birləşməsi Urmiya gölünün cənub və cənub – qərb hissəsində meydana gəlmişdi. E.ə. III minilliyin ikinci yarısında kutilərin tayfa ittifaqında birləşməsi başlanmışdı. E.ə. III minilliyin II yarısında Şumer şəhər dövlətlərinin süquta uğramasilə İkicayarası ərazilərdə də e.ə. XXIV-XXII əsrlərdə Akkad[1] dövlətinin hakimiyyəti altında birləşdirilmişdi. Akkad yazılarında hələ e.ə. XXIV-XXIII əsrlərdə Urmiya gölü hövzəsində, Zaqros dağının şimal və şimal-şərq ətəklərində kuti tayfalarının yaşadığı qeyd olunurdu. Qaynaqlarda onların məskunlaşdığı bu ərazi "Dağlıq Kutium ölkəsi" adlanırdı. Kutilər əsasən köçəri maldarlıqla, qismən də əkinçilik və sənətkarlıqla məşğul olurdular.

İkiçayarası ərazilərdən şimalda yerləşən kutilər güclü bir tayfa birliyi olsalar da tez-tez akkadların təcavüzünə məruz qalırdılar. Kutium ölkəsi e.ə.2316-226-ci illərdə Akkad çarı Sarqon tərəfindən tutulmuşdu. Sarqonun nəvəsi Naram-Suenin dövründə (e.ə.2236-2201) akkadların Azərbaycan ərazilərinə təcavüzünü daha da güclənmişdi. Kuti tayfa birliyi lullubelərlə birləşərək Naram-Suenə qarşı ittifaq təşkil etsələr də akkadlar tərəfindən məğlubiyyətə uğra-

[1] E.ə. III minillikdə Mesopotomiyada dövlət və şəhər adı olan Akkad şəhəri müasir Bağdad şəhəri yaxınlığında yerləşirdi.

mışdılar. Naram-Suen "Qələbə sütunu" adlanan abidəsində kuti(quti) və lullubi tayfalarının hərbi birləşməsini məğlubiyyətə uğratması barədə məlumatı hakk etdirmişdi. Bu abidəni e. ə. XII əsrdə Elam hökmdarı Şutruk-Nahhunti qənimət kimi Suz şəhərinə aparmışdı.

Naramsuenin hakimiyyətinin sonuna doğru Akkad dövləti böhran keçirməyə başladı. Hakimiyyətinin son illərində Naram-Suen apardığı müharibələr uğursuzluqla bitirdi. Aramsız müharibələr, suvarma şəbəkələrinin dağılması nəticəsində ölkədə aclıq hökm sürürdü. Belə vəziyyətdən istifadə edən Kuti (quti) və Lullubi tayfalarının siyasi və hərbi fəallığı artdı. Naram-Suenin Urmiya gölü hövzəsindəki tayfalara qarşı təcavüzkar siyasətinə qarşı, Urmiya gölü ətrafındakı etnoslar birləşərək Ummanmanda *ordusunu* yaratdılar. Naram-Suenin hakimiyyətinin son illərində, xüsusilə kutilərin Akkad dövlətinə yürüşləri artdı. Urmiya gölü ətrafındakı etnosların birləşərək yaratdıqları Ummanmanda *ordusunun* və kuti hərbi dəstələrinin başında kutu hökmdarı **Enridavazir (e.ə.2225 – 2205)** dayanmışdı. E. ə. XXIII əsrin sonlarında kutilər tayfa başçısı Enridavazirin rəhbərliyi altında akkad hökmdarı Naram-Suenin (e. ə. 2236-2200-cü illər) qüvvələrini darmadağın edib şumerlərin Nippur şəhərinədək irəliləmişdilər. Mənbələrdə Naram-Suenin Şumerin dini mərkəzi Nippur şəhərinə qarşı yürüşü barədə məlumat verilir. "Akkad şəhərinin lənətlənməsi" əsəri şumerlərin dini mərkəzi Nippurda[1] tanrı Enlilin[2] məbədinin Akkad hökmdarı Naram-Suen (e.э.2236-2200) tərəfindən dağıdılması barədə bəhs edilir. Naram-Suen Nippur şəhərinə ordu göndərir və buradakı Enlil məbədini dağıtmaq istəsə də buna nail ola bilmir. Nippur şəhərinin köməyinə gələn Kuti hərbi dəstələri Enridavazirin başçılığı altında Mesopotamiyaya hücum edərək Naram-Sueni öldürdülər. Naram-Sueni məğlub etmiş Enridavazir onun çarlıq tituluna da yiyələndi. Nippur şəhərində Kuti hökmdarı Enridavazirin şərəfinə abidə qoyuldu. Akkad dilində olan bu kitabədə Enridavazir *"qüdrətli, Kutium və dünyanın dörd səmtinin hökmdarı"* adlandırılmışdı.

Naram-Suenin ölümündən sonra öz qüdrətini itirmiş Akkad dövləti getdikcə daha da zəiflədi. Kuti hökmdarları İmta (e.ə.2204 – 2197) və İnqeşauşun (e.ə. 2198 – 2192) hakimiyyəti illərində kutilərin İkiçayarasına yürüşləri daha da artdı. Naram-Suenin varisi

---

[1] Müasir İraqda Niffar ərazisində yerləşmiş şumerlərin dini mərkəzi olmuş şəhər.

[2] Şumer panteonunda Nippurun himayədarı.

Şarkalişarri (e.ə. 2200-2175-ci illər) Kuti basqınlarının qarşısını almaq məqsədilə onlara qarşı yürüş təşkil edir. Bu dövrdə Akkadla ittifaqda olan Elam hökmdarı Kutik-İnşuşinak (e. ə. 2240-2220-ci illər) da Zarqos ətrafı ərazilərə hərbi yürüş edərək Kutiumu (kutilərin ölkəsini) zəbt etmişdi. Lakin bu müvəqqəti qələbə kutilərin İki-çayarasına axınının qarşısını ala bilmədi. Əksinə kuti tayfalarının Akkad dövlətinə yürüşləri daha da artdı. Akkad hökmdarı Şarkalişar-rinin hakimiyyətinin sonunda, təxminən e.ə. 2185-ci ildə kuti-lərin hökmdarı Sarlaqın (Sarlaqab) (e.ə. 2191 – 2185) başçılığı ilə İkiçayarasında kutilərlə akkadlar arasında baş verən döyüşdə kutilər məğlub olur və hökmdar Sarlaq əsir düşür. Lakin bu qələbə belə Akkad dövlətinin dağılmasının qarşısını ala bilmədi. Sarlaqın varisi Yarlaqaşın (e.ə. 2184 – 2178) dövründə də kutilərin Akkad dövlətinə təzyiqləri davam etməkdə idi. Akkad dövləti nəhayət kutilərin zərbələrinə daha davam gətirə bilməyərək tənəzzül etdi. Kuti hökm-darı Elulumeş (e.ə. 2177 – 2171) Akkad dövlətində davam edən daxili hərc mərclikdən də istifadə edərək e.ə. 2175-ci ildən etibarən İkiçayarasında kutilərin hakimiyyətini bərqərar etdi.

**Kutilərin ictimai quruluşu.** Şumerdə və Akkadda olan idarə sisteminə görə də ölkə canişinlər vasitəsilə idarə olunurdu. Lakin Şumerlərdən fərqli olaraq kuti hökmdarları ömürlük seçilmirdilər. Kuti hökmdarları İcma Şurası tərəfindən qısa müddətə seçilən tayfa başçılarından olurdu. Kuti hökmdarlarının tərtib etdirdiyi qısa mətnli mixi yazı kitabələrindən məlum olur ki, kuti çarları 3 ildən 7 ilədək olan müddətə seçilirdilər. Göründüyü kimi, kutilər daha demokratik dövlət qurumunun əsaslarını yaratmağa çalışırdılar. Qonşuluqdakı digər qədim Şərq dövlətlərindən fərqli olaraq kutilərdə hökmdarların seçilməsi qaydası vardı. Hakimiyyət irsi keçmirdi. Kutilər özlərindən asılı hala saldıqları Akkad və Şumerin dövlət idarəçiliyi qaydala-rından faydanlandıqları qədər qədim Azərbaycanın mütərəqqi idarə-çilik mədəniyyətini də həmin ölkələrə yaymışdılar. Görünür, bütün bunlar kutilərin Dəclə və Fərat vadiləri də daxil olmaqla İran körfəzinə qədərki geniş ərazilərdə uzun müddət hökmranlıq etmə-lərində az rol oynamamışdı.

Lakin Kuti tayfa ittifaqı e.ə. XXIII əsrdə (e.ə.2202\2201-ci ildən 2109-cu ilədək) Dəclə və Fərat çayları arası ərazidə o zaman mövcud olmuş Akkad ölkəsini zəbt etdikdən sonra İkiçayarasın-da mövcud olan idarə sistemini dəyişmədilər. Kuti hökmdarları ölkəni yerli canişinlər vasitəsilə idarə edirdilər. Canişinlər idarəçilik

sahəsində geniş müstəqilliyə malik idilər. Kutilər İkiçayarasında çoxlu hərbi qüvvə də saxlamırdılar. Kuti ordusunda Şumer və Akkad gəncləri xidmətə cəlb olunurdular. Göründüyü kimi, İkiçayarasında dövlətin idarə edilməsi yerli şumer və akkad zadəganlarına həvalə edilməklə kutilər öz mövqelərini tədricən zəifləd irdilər.

Şumer şəhər hakimləri *ens*i rütbəsi daşıyırdılar və müstəqil daxili siyasət yürüdürdülər. Kutilərin akkadlardan topladıqları vergilər əsasən ərzaq, sənətkarlıq məmulatı və qiymətli metallar idi. Kutilərin hakimiyyəti dövründə İkiçayarasında məbəd tikintisi və bərpası davam etməkdə idi. Ümumiyyətlə, kutilərin Mesopotamiya əhalisi ilə münasibətləri dinc və dostluq münasibətləri idi. İkiçayarası mədəniyyəti dairəsinə cəlb olunmuş kutilər də, Mesopotamiya əhalisi kimi aya, bərəkət və məhəbbət ilahəsinə sitayiş edirdilər.

Beləliklə, kutilər tam yüz il boyu Mesopotamiyada öz hakimiyyətlərini davam etdirdilər. Mesopotamiyadakı hakimiyyətlərinin 91 illik müddətində 20-dək kuti hökmdarı bir-birini əvəz etdi. İkicayarasının kutilər tərəfindən işğalı rəsmən qəbul edildiyi üçün yerli mirzələr Kuti hökmdarlarını da Şumerin hakim sülalələri siyahısına daxil etmişdilər.

Kutilərin hakimiyyəti bütün Ur şəhərini əhatə etmiş, Nippur, Sippar, Umma, Ur kimi şəhərlər isə onların dayaq məntəqələrinə çevrilmişdi. Kuti hökmdarı Laharabın (e.ə. 2135 – 2133) Sippar şəhərində akkad dilində yazısı aşkar edilmişdir. Kuti hökmdarları Yarlaqanda (e.ə.2120 – 2113) və Siumun (e.ə. 2112 – 2105) şərəfinə Umma şəhərində yazı tərtib olunmuşdur. Kuti hökmdarı Puzur-Suenin (e.ə. 2127 – 2120) möhürü üzərində Ur şəhərinin adı göstərilmişdir. On doqquzuncu kuti hökmdarı Siumun (e. ə. 2116-e. ə. 2110-cu illər) hakimiyyəti dövründə kutilərin Mesopotamiyanın cənubunda mövqeləri hələ güclü idi. Umma şəhərindən tapılmış kitabədə Kuti hökmdarı Sium özünü *"Ur məbədinin əbədi işçisi"* adlandırırdı. Lakin, hökmdar Tirikanın dövründə (e. ə. 2109-cu il) kutilərin Mesopotamiyadakı hökmranlığı sona çatdı. Son kuti hökmdarı Tirikanın (e.ə. 2104) İkiçayarasında hakimiyyəti cəmi 40 gün sürdü.

E.ə. 2104-cü ildə Mesopotamiyanın Uruk və Ur şəhərlərində kutilərə qarşı müxalifətçi qüvvələr möhkəmlənmişdi. Uruk ensisi Utuhenqalın (təqribon e. ə. 2116/2111—2109/2103) rəhbərliyi ilə Uruk şəhərində Tirikana qarşı qiyam təşkil olunur. Umma şəhəri yaxınlığında baş verən döyüşdə Tirikan məğlub olaraq ailəsi ilə birgə

əsir düşür. Kuti tayfa ittifaqı Mesopotamiyada idarəetmə işinə nəzarəti zəif olduğu üçün, həmçinin burada böyük hərbi qüvvə saxlamadığı üçün Uruk şəhərinin hakimi Utuhenqal e.ə.2104-cü ildə kutilərin İkiçayarasındakı hakimiyyətini asanlıqla ləğv edə bildi. Mənbələrdə yazılıdğı kimi, "O, padşahlığı Şumerə qaytardı."

Mesopotamiyada böyük hərbi qüvvə saxlamayan, hətta oradakı hərbi dəstələrə başçılığı belə şumer və akkadlara həvalə edən Kuti hakimiyyəti iflas etdi. E.ə. XXII əsrin sonunda kutilərin İkiçayarasında hakimiyyətinə son qoyulduqdan sonra Kuti Tayfa İttifaqı özü də bütövlükdə süquta uğrayır. Assur hökmdarı Assarxaddonun dövrünədək Urmiya hövzəsi ətrafındakı «kuti torpaqları» adı qorunub qalsa da, artıq bu ad etnik və ya dövlət qurumu adı kimi yox, ənənəvi coğrafi termin kimi qalmaqda idi. Bundan sonra kutilər öz torpaqlarının sərhədlərinə, Urmiya bölgəsinə doğru çəkilməli oldular. Lakin burada da onlar lulubilər tərəfindən sıxışdırılaraq ərazilərinin xeyli hissəsini itirdilər və cənub-şərqə, yəni Qafqaza doğru çəkilməli oldular. Lakin, şübhəsiz ki, kutilərin ayrı-ayrı qrupları bu ərazidə yaşamaqda davam edirdi. Artıq e.ə. II minilliyə doğru kutilər xeyli zəifləyərək əvvəlki nüfuzlarını itirsələr də qədim mixi yazılarda Kuti ölkəsi haqda e.ə. bütün II minillik boyu məlumat verilirdi. E.ə. I minillikdə isə onlar tədricən başqa tayfalarla qaynayıb-qarışaraq tarix səhnəsindən silindilər. E.ə. VIII əsrin sonlarındək öz hərbi-siyasi əhəmiyyətini saxlaya bilmiş kutiləriin məskun olduğu ərazilər artıq e. ə. IX əsrdən etibarən Manna və Midiya adları ilə tanınmağa başlayır.

Beləliklə, e.ə. III minillikdən I minilliyin sonlarına qədər mövcud olmuş qədim Azərbaycan tayfa birliyi olan Kutilər, özlərinin qüdrətli qonşuları olan Akkard dövlətini məğlub edərək, öz dövlətlərinin sərhədlərini İran körfəzinə qədər genişləndirməyi bacarmışdılar və bu ərazidə bir əsrə qədər hökmranlıq etmişdilər. Kutilərin uzunmüddətli hakimiyyət illərində İkiçayarasının iqtisadiyyatı yeni mərhələyə qədəm qoymuşdu. Kutilərin hakimiyyəti dövründə Urmiya gölündən Fars körfəzinə kimi uzanan ticarət yollarında əmin-amanlıq bərpa olunmuş, İkiçayarası ilə Urmiya gölü hövzəsi ilə sıx ticari əlaqələr yaradılmışdı. Kuti Tayfa İttifaqı süquta ugradıqdan sonra onların məskunlaşdığı Urmiya bolgəsi yenidən hərbi əməliyyatlar meydanına çevrilir, ələ keçirilən qənimət və əsirlər isə Babilistana, Assuriyaya, Elama aparılırdı.

**Lullube (Lullu) Tayfa İttifaqı.** Eramızdan əvvəl XXIII əsrdə Urmiya gölünün cənubunda kuti tayfaları ilə birlikdə lullube tayfaları güclənmişdi. Cənubi Azərbaycan ərazisində Kuti Tayfa İttifaqı ilə bərabər dövrünün nüfuzlu tayfalarından olmuş Lullubelər də Urmiya gölünün cənubunda, keçmiş Aratta dövlətinin qərb torpaqlarında güclü tayfa birliyi yaratmışdılar. Bu zaman Aratta bir dövlət kimi artıq siyasi səhnədən çıxmışdı. E.ə. XXIII əsrdə lullube (lullu) tayfaları Diyala çayının yuxarı axarında Urmiya gölünə və onun cənubuna doğru uzanan ərazilərdə yaşayırdılar. Lullubi tayfalarının məskunlaşdığı ərazi müasir Süleymaniyyədən şərqdə, Sənəndəclə Urmiya gölü arasındakı ərazi olmuşdur. E.ə. III minilliyin son əsrlərində, Diyala və Kiçik Zab çaylarının başlanğıcından şimal-şərqə doğru, Urmiya gölünə qədər ərazilərdə yaşayan çox güclü tayfalardan idilər. Lullubi tayfa ittifaqına su və turukki tayfaları da daxil idi. Lullubelər məskunlaşdıqları ərazilərin qərbində yerləşmiş vilayətləri də tutmuş, əvvəllər kutilərə məxsus olmuş ərazilərin böyük hissəsinə də sahib olmuşdular.

Assuriya çarları ilə daim mübarizə aparmış lullubelər artıq e.ə. III minilliyin II yarısında nəinki Azərbaycan və İranın, habelə Mesopotamiyanın tarixində əhəmiyyətli rol oynamağa başlamışdıar. Mesopotamiya hökmdarlarının zəifləməsindən istifadə edən lullubelər bu ərazidə öz hökmranlıqlarını bərqərar etmişdilər. Onlara tabe ərazilər Urmiya gölündən Fars körfəzinədək uzanırdı. E.ə. II minillikdə isə lullubelər Qədim Şərqdə geniş yayılmış və qədim dünyada əhəmiyyətli rolu olan tayfalardan birinə çevrilmişdilər. Hətta e.ə. II minilliyin əvvəllərində Assuriyada lullube sülaləsi hökmran olmuşdu.

E. ə. III minilliyin sonlarına aid akkad mənbələrində Urmiya gölündən cənub-şərqdə yerləşən lullube (Lullu) tayfasının adı çəkilir. İlk dəfə lulubelər Sidurru başda olmaqla Lullubumun dağlıları üzərindəki qələbədən xəbər verən Naram-Suenin kitabəsində xatırlanırlar. Lulube etnonimi hürritlərdə —lullu", urartulularda "lulu" kimi işlənirdi. Urartulular da onları "lullu" adlandırırdı. Akkad mənbələrində lullu tayfaları lullube kimi qeyd olunmuşdur. Buradakı "*be*" çəkilçisi cəm şəkilçisidir. Lullubilər Mesopotamiyada uzun müddət hökmranlıq etdikləri üçün bu bölgədə dərin iz buraxdıqları üçün, onların adı «lullu» və ya «nullu» formasında hətta düşməni bildirən ümumi bir söz kimi qonşu xalqların dillərinə daxil olmuşdur. Urartu mənbələrində *Luli-in-a* —düşmən ölkə anlamında, *lulu* isə düşmən mənasında işlənirdi.

Lullu etnonimi hazırda Cənubi Azərbaycanda Ərdəbil yaxınlığındakı Lul dağı Lalandağ (Urmu bölgəsi), Leyla dağı (Səhənd), Leylan və b. toponimlərdə qalmışdır. Diyala çayının bir qolu da Lullu adlanırdı. Maraqlıdır ki, Lullu adı bu gün Şimali Azərbaycanın Astara bölgəsində Hamoşam kəndi yaxınlığında "Lullim yeri" toponimində də qorunub qalmışdır. "Enmerkar və Lugalbanda" adlı şumer eposunda Aratta ölkəsinə gedən yollardan birinin Zamua "olkəsindəki" Lullube dağlarından keçdiyi barədə məlumat var. Lullube və ya lullume toponimi e.ə. VIII əsrə qədər işlənməkdə idi. E.ə. II minilliyin sonu - I minilliyin əvvələrindən Lullu torpaqları artıq Zamua ölkəsi kimi tanınırdı.

Mənbələrdə lulubelərin yalnız üç hökmdarı- Satuni, İmmaşqun və Anubanin haqqında məlumat qorunub saxlanmışdır. Akkad dövlətinə qarşı hərbi birləşmələrdə iştirak edən Lulube hökmdarı Satuni (e.ə. 2230-2200) Lulube torpaqlarının qərb sərhəddində - Süleymaniyyə keçidinin cənub-şərqində, müasir Qaradağ ərazisində müttəfiqlərlə birgə Akkad hökmdarı Naram-Suenə (e.ə.2236-2200) qarşı döyüşdə məğlub olmuşdu. Bu döyüşdəki hadisələr Naram-Suenin "Qələbə sütunu" adlandırılan daş piltə üzərində həkk edilmiş yazılarında öz əksini tapmışdır.

Bu dövrdə Lullube çarlığında pərakəndəlik hökm sürsə də, Lulube hökmdarı İmmaşqun (e.ə.2200-2170) xırda hakimləri mərkəzi Lulube dövlətinə tabe edə bilmişdi. O, qaynaqlarda "İmmaşqun Lullu (bum) ölkəsinin padşahlar padşahı" adlandırılır. Artıq e.ə. XXIII əsrdə Urmiya gölünün cənubunda Akkad dövləti ilə rəqabət apara bilən güclü dövlət qurumu yaranmışdı. Xüsusilə də bu dövlət qüdrəti hökmdar Anubaninin hakimiyyəti dövründə (e.ə. 2170-2150) daha da güclənir. Anubaninin hakimiyyəti cənubda Fars körfəzinə qədər olan ərazilərə, şimalda isə Urmiya gölünün ortalarına qədər çatırdı. Anubaninin hakimiyyəti dövründə Urmiya gölü hövzəsində olan digər ərazilərin də Lulube dövlətinə tabe olması ehtimal edilir. Vaxtilə kutilərə məxsus olmuş ərazinin xeyli hissəsi sonralar lullubelərin əlinə keçmişdi. Lullubelər e.ə. I minilliyin əvvəllərinə qədər Azərbaycan və ona qonşu olan ərazilərdə mühüm mövqelərini əsrlərlə saxlaya bilmişlər. Lakin Lullube Tayfa İttifaqı da Aratta zamanında olduğu kimi İkiçayarası mədəniyyətinin təsirinə məruz qalmışdı. E.ə. I minilIikdə yazılmış "Kuti əfsanəsi" eposunda bildirilir ki, Anubanini, Naram-Suenə (e.ə. 2236-2200) qarşı yaradılmış hərbi koalisiyada iştirak etmişdir.

Lullubelər ən qədim dövrlərdən etibarən Mesopotamiya ilə sıx əlaqədə olmuşlar. Lullube Tayfa İttifaqının İkiçayarası ilə geniş mədəni-iqtisadi əlaqələr mövcud idi. Lullubelər Mesopotamiya şəhərləri ilə iqtisadi münasibətlər saxlayır, mal mübadiləsi edirdilər. Aratta dövründə olduğu kimi lulubelər maldarlıqla yanaşı dəmyə əkinçiliyi ilə məşğul olurdular.

Mixi yazı sistemi buranın əhalisinə hələ Aratta dövləti zamanından məlum idi. Burada akkad dilini bilən mirzələr və akkad qələbə abidələri kimi abidələr yaradan ustalar vardı. Anubanini də Akkad hokmdarları kimi müvəffəqiyyətlərini mixi yazılarla tərtib etdirdiyi kitabələrə həkk etdirirdi. Diyala çayının orta axarında, Kirmanşaha gedən yol üzərində, Zohab şəhəri yaxınlığında Saripul adlanan ərazidə aşkar edilmiş Anubanininin "Daş sütunu" İkiçayarası abidələri əsasında lulube ustaları tərəfindən hazırlanmışdı. Anubaninin tərtib etdirdiyi kitabədə deyilir: "Anubanini, qüdrətli hökmdar, Lullube hökmdarı, öz təsvirini və İştar ilahəsinin təsvirini Batir dağına qoydum". Aşkar edilmiş bu abidə lullubelərin hakimiyyətinin cənubda Diyala çayının orta axarına qədər gəlib çatdığını göstərir.

Lullube hökmdarı Anubaninin qayaüstü kitabəsində mixi yazı ilə yanaşı ilahə İştarın önündə əsirləri tapdalayan hökmdarın özünün də təsviri verilmişdir. Kitabədən məlum olur ki, lullubelər də şumer-akkad allahlar panteonuna sitayiş etmişlər. Anubaninin daş sütununda səma, günəş, bərəkət və məhəbbət, ay tanrılarının Anum [1], İştar [2] Sin[3], Şamaş[4] kimi ilahələrin akkad dilində olan adları çəkilir. Bu məlumat lulubilərin səma, günəş, bərəkət və məhəbbət, ay və s. tanrılara sitayiş etdiyini göstərir. Lakin bu tanrıların lullube dilində adları dövrümüzə qədər gəlib çatmamışdır.

Naramsuenin və Anubaninin qaya üzərindəki təsvirlərindən lullubelərin qısa saç və saqqal saxladıqları, onların geyiminin köynək və qurşaqdan ibarət olub üzərindən dəri atıldığı məlum olur. Ümumiyyətlə, belə geyim tipi e.ə. I minillikdə Cənubi Azərbaycan sakinlərinə, həmçinin kaspilərə də məxsus idi.

---

[1] Səma tanrısı.

[2] Bərəkət və məhəbbət ilahəsi, bu ilahəyə İnanna adı ilə Aratta dövlətində də sitayiş olunurdu.

[3] Ay ilahəsi, bu ilahəyə sitayiş Selena adı ilə Qafqaz albanlarında da mövcud olmuşdur.

[4] Günəş tanrısı.

E.ə. II minillikdə vahid Lullube dövləti parçalanır və yerində yenidən xırda hakimiyyətlər yaranır. Qaynaqlar bu dövrün başlanğıcında "çoxlu lullube hökmdarları" ifadəsini işlətmişdi. E.ə. II-I minillikləri əhatə edən bu mənbələrdə lulluların urartu, assur, hürri, hett tayfaları ilə müharıbələri barədə məlumat verilir. Lullube sonuncu dəfə e.ə. 716-cı ildə Aşşur hökmdarı II Sarqonun Madaya hərbi yürüşü ilə bağlı xatırlanmışdır. E.ə.XIV-XIII əsrlərdə Assuriya və Babil çarları Lullu ölkəsini özlərinə tabe etmişdilər. Assuriya lullubilərin yaşadığı ərazini ələ keçirsə də, onun Azərbaycan ərazisində hökmranlığı müvəqqəti xarakter daşıyırdı. Mixi yazılarda Lullular haqqında verilən məlumatlar 1500 illik dövrü əhatə edir.

**Turukkilər.** Urmiya gölü hövzəsində - Urmiya gölünün cənubunda və cənub şərqində, indiki Zəncana qədərki torpaqlarda yaşayan turukki və su tayfalarının siyasi fəaliyyəti eramızdan əvvəl II miniliyin əvvəllərində başlayır. Ondan əvvəlki dövrlərdə isə turukkilər Aratta, sonra isə Kutium və Lullube Tayfa İttifaqının tərkibinə daxil idilər. Bu dövlət qurumları süquta uğradıqdan sonra turukki və su tayfaları güclü tayfa birliyi kimi müstəqil surətdə İkiçayarası ölkələrinə hərbi müdaxilələr edirdilər. Akkad gil kitabələrində turukkilərin tez-tez Assuriyaya hücum etməsi yazılırdı. Bu mənbələrdə turukkilər cəsur, döyüşkən bir xalq kimi təqdim olunurdu. Turukkilərin məskunlaşdığı Raniyə duzənliyi lullubelərin və kutilərin maraq dairəsinə daxil olduğundan ara-sıra onlar arasında hərbi ixtilaflar baş verirdi. E.ə. II minilliyin II yarısına aid olan mənbələrdə Assuriya hökmdarının "Turukki ölkəsini və kutilərın geniş torpaqlarını" fəth etməsi barədə məlumatlar var.

Turukkilərin hücumları Mesopotamiyanın şimalındakı Assuriya dövlətinin sərhədlərinə təhlükə yaradırdı. Assur hökmdarı I Şamşi-Adad (e.ə. 1813-1781) turukkilərə qarşı hərbi yürüş təşkil etsə də, turukki tayfalarının hərbi müdaxiləsinin qarşısını ala bilmir. Turukkilər assurların nəzarəti altında olan Şumer vilayətində yerləşirlər. Mənbələrdə "Turukki ölkəsinin adamları" kimi təqdim olunan bu tayfalar Mesopotamiya ilə bağlı baş verən siyasi hadisələrdə fəal iştirak edirdilər.

Cənubi Azərbaycanın 17 tayfa başçısının Mesopotamiyaya və onun hökmdarı Naram- Suenə qarşı yaratdığı Ummamanda[1] adı ilə

---

[1] **Ummamanda** - E.ə. VIII əsrin assur mətnlərində Assuriyadan şimalda və şimal-şərqdə mövcud olan düşmən mövqeli hərbi dəstələrə (yəni kuti, lullube, turukki və

bilinən birliyə turukkilər də qatılmışdı. Turukki, kuti, lullu tayfaları öz aralarında torpaq uğrunda müharibə aparsalar da yeri gəldikdə assuriyalılara qarşı birgə hərəkət edirdilər. Bu birliyin arasıkəsilməz təzyiqi nəticəsində Assuriya dövləti zəifləmişdi və bu tayfa ittifaqı ilə sülh bağlamağa çəhd göstərirdi.

Bu tayfaların birləşmiş qüvvələrinin fasiləsiz təzyiqi Assuriya dövlətinin zəifləməsinə və Babilistan hökmdarı Hammurapinin (e.ə. 1792-1750) Şimali İkiçayarası hadisələrinə müdaxilə etməsinə şərait yaratdı. O, turukki və kuti tayfalarının hücumlarını dəf etdi.

E.ə. XIV əsrin sonunda Assuriya qüvvətlənərək Ön Asiyada yenə də nüfuzlu güc sahibinə çevrilir. Hərbi qüdrəti yenidən artan Assuriya qədim Azərbaycan torpaqlarına hücumlarını genişləndirir. E.ə.XIV-XIII əsrlərə aid mənbələrdə turukkilərin adı çəkilməkdə davam edirdi. Lakin e.ə.XIII-XI əsrlərə aid mənbələrdə artıq turukkilərin adına rast gəlinmir.

Eramızdan əvvəl II miniliyin sonu - I minilliyin əvvəlində tarixi Azərbaycan torpaqlarında daha təkmil və daha geniş əraziləri əhatə edən yeni dövlətlər yaranmaqda idi. Eramızdan əvvəl I minillikdə - bizim eranın I minilliyinin əvvəllərində Azərbaycan torpaqlarında qədim tayfa ittifaqlarını Azərbaycanın iqtisadi-mədəni tarixində, eləcə də vahid xalqın təşəkkülü prosesində mühüm rol oynamış Manna, İskit (Skit, Skif) şahlığı, Atropatena və Albaniya kimi qüvvətli dövlətlərlər əvəz etdi.

### *1.3. E.ə. III-II minilliklərdə qədim Azərbaycan əhalisi*

E. ə. III-II minilliklərdə Cənubi Azərbaycan və ona bitişik olan ərazilərdə kuti (quti), lulube, subi (su), turukki, kassit (kaşşu, kaspi), tapir, hurri, kadusi kimi bir çox tayfalar yaşayırdılar. Kuti, lullube, subi, turukki, kas kimi Azərbaycan tayfaları İkiçayarası (Mesopotamiya-Dəclə-Fərat) ilə qonşuluqda yerləşən Urmiya gölünün ətraf ərazilərində və Zaqros dağlarında məskun idilər. Bu tayfalar haqqında ilkin yazılı mənbələr e.ə. XXIII əsrə aiddir. Urmiya

---

s Azərbaycan tayfalarına) assurlar tərəfindən verilən "Kimliyi məlum olmayan qoşun" mənasında ümumi ad. "Kuti əfsanəsi" adlanan eposda Akkad hökmdarı Naram-Suenin düşmən ordusu mənasında lullube mənşəli Anubaniniyə və onun ailə üzvlərinə də şamil edilmişdir.

ətrafında məskunlaşan tayfalar, əsasən, İkicayarasmda yerəşən şəhər-dövlətlər üçün təhlükə yaratdıqları zaman, yəni birbaşa hərbi münaqişələr zamanı xatırlanırlar. Bu baxımdan mənbələrdə e.ə. III minillikdən ilkin olaraq adları çəkilən tayfalar kutilər (qutilər) və lullubilərdir. Əsasən köçəri maldarlıqla, qismən də əkinçilik və sənətkarlıqla məşğul olan kutilər - e.ə. III-I minillikərdə Cənubi Azərbaycanda və Van gölündən cənub-şərqdə məskun olmuşlar. Akkad çarı I Salmanasarın (e.ə. XXIII əsr) kutilərlə bağlı — göydə ulduzlar qədər miqdarı bilinməyən kutilərin ifadəsini işlətməsindən məlum olur ki, kutilər sayca böyük etnos idilər. Qədim qaynaqlar kutiləri "dağ əjdahaları" da adlandırırdı. Akkad qaynaqlarında kuti və lullube tayfalarının vaxtaşırı İkicayarası şəhərlərinə qarət məqsədli yuruşlər etdiyi, əhalini daima qorxu və təzyiq altında olduğu barədəki məlumatlar bu etnosun bölgədə böyük gücü və nüfuzu olduğunu göstərir.

**Turukki tayfaları** da kuti və lullularla eyni dövrdə yaşamış Azərbaycan tayfaları idi. e.ə. XIV əsrə aid akkad mənbələrində bu qədim Azərbaycan tayfalarının adı çəkilir. Turukkilər Urmiya gölünün cənubunda və cənub şərqində, indiki Zəncana qədərki torpaqlarda, Kicik Zab çayının yuxarı axarında, Lullubilərin olkəsi Zamuadan qərbdə məskunlaşmışdılar. Turukkilər Aşşur-Babil kitabələrində 500 il ərzində xatırlanmışlar.

Urmiya gölü sahillərində yaşayan böyük tayfalardan biri də **hurrilər** idi. Şumer qaynaqlarından hurrilərin qədim dövrlərdən etibarən Şimali Zaqros bölgəsində, Zaqros dağlarının qərb ətəklərində, Urmiyanın qərb vilayətlərində və b. yerlərdə məskunlaşması məlum olur. Hələ e.ə. III minilliyin ikinci yarısında hurrilər yaşadıqları ərazilərlə kifayətlənməyib daha geniş ərazilərdə yayılmağa başlamışdılar. E. ə. III minilliyin sonlarından hürrilər Mesopotamiyanın şimalından Urmiya gölünədək Ön Asiyanın geniş ərazilərində yayılmışdılar. Artıq e.ə. II minillikdən etibarən hurrilər Urmiyaətrafı bölgələrdən başqa, Şimali Mesopotamiya, Fərat çayının yuxarı axarında, tədricən Tavr dağlarının ətəklərində, Kiçik Asiyada, Suriyada, Fələstində və digər ərazilərinə də məskunlaşmışdılar. Bu dövrdə hurri tayfalarının Qədim Şərq tarixində, xüsusilə də Ön Asiya tarixində rolu və əhəmiyyəti böyük idi. Onlar şumerlərlə, akkadlılarla və elamlılarla bərabər Ön Asiyanın aparıcı etnoslarından biri idilər. Manna dövründə də hurrilər üstünlüklərini qoruya bilmişlər. Hurrilər burada antik zamanlarda da yaşamaqda davam etdikləri məlumdur.

**Kas tayfaları.** Azərbaycanın qədim tayfalarından biri də kaslar, yaxud elmi ədəbiyyatda yazıldığı kimi kassilərdir. Kas tayfalarının bir qismi Urmiya gölü bölgəsində yaşamışdır. Onlar haqqında ilkin yazılı məlumatlar e.ə. II minilliyə aiddir. Er. əv.II minilliyinin ortalarından Assur mənbələrində *kaşşu* kimi qeyd olunan kaslar mənbələrdə *kassitlər* kimi də qeyd olunmuşlar. Onların adı ilk dəfə e.ə. XXVIII əsrə aid mənbələrdə çəkilir. Kassit tayfaları tarix səhnəsinə hələ e.ə. II minilliyin əvvəllərində çıxaraq Zaqros dağ vilayətlərindən sürətli axınla Babilistan üzərinə irəliləmiş, 500 ildən artıq müddət ərzində bu ölkəyə sahib olmuş, e.ə. 1595- 1155-ci illərdə hakimiyyətdə olmuşlar. E.ə. II minilliyin II yarısında artıq atdan nəqliyyat kimi istifadə edən kassitlər döyüşdə ilk dəfə cəng arabaları tətbiq etmişlər. Onlar Mesopotamiya ərazilərinə cəng arabaları ilə hücuma keçirdilər. Kassit tayfaları sənətkarlıq sahəsində, xüsusilə də, tunc əşyalar və əmək alətləri düzəldilməsində mahir sənətkarlar kimi tanınmışlar.

Aşşur-Babil mənbələrində kassu adalanan kassitləri daha sonrakı tarixi mərhələdə antik müəlliflər tərəfindən kaspilər adlandırılırdı və onların adı ilə də Kaspi dənizi (Xəzər) adlandırılırdı. Kaspilər madalılar və matienlərlə eyni ərazidə məskunlaşmışdılar və onların Kaspi keçidinin yaxınlığında və Zaqros vadilərində olduğu da qeyd edilir. Araşdırmalar Xəzər və onunla paralel işlədilən Kaspi adının əslində bir sözün iki müxtəlif dilə məxsus cəm şəkilçisi ilə formalaşmış variantı olduğu ortaya çıxarmışdır. Görkəmli dilçi - türkoloq Dəmirçizadə kaspi etnoniminin əslində *qas* (xas) formasında olub, - *pi* cəm, bəzi dillərdə isə *-ər* çəm şəkilçisi əlavə edildiyi qənaətinə gəlmişdir. Yəni Xəzər-Kaspi eyni mənanı ifadə edən bir kökdən lakin ayrı-ayrı dilə mənsub olan toponimdir. Beləliklə, kaspilər Azərbaycanın hər iki hissəsində, yəni Araz çayının həm şimalında, həm də cənubunda yaşamış qədim etnoslardan biridir.

**Su tayfaları.** E.ə. I minilliyin əvvəllərində Urmiya gölünün cənub-qərb bölgələrində su tayfaları yaşayırdılıar. Onların Subi vilayəti vaxtilə Lullu ölkəsi adlanan Zamuada yerləşirdi. Mənbələrdən məlum olur ki, Su ölkəsi e.ə. XXI əsrin II yarısında Mesopotamiyaya tabe idi. Lakin e.ə. 2003-cü ildə su tayfaları elamlılarla birləşərək şumer-akkad çarlığını darmadağın etmişdilər.

Mənbələrdən məlum olur ki, əslində Zaqroş dağları ətrafında– şərq və cənub şərq bölgələrində yaşayan bütün tayfalar-lullular, kutilər və s. artıq e.ə. I minillikdə su tayfaları adı altında ümu-

miləşdirilirdi. Bəzi mənbələrdə Aratta ölkəsinin adı da "Su ölkəsi" kimi qeyd olunmuşdur. Su və ya Subi əhalisini urartulular isə ir müddtdən sonra artıq mannalı adlandırırdılar. Beləlilkə, məlum olur ki, Azərbaycan ərazisində məskun olmuş ən qədim tayfa ittifaqları-Kuti, Lullu, Turukki, Su tayfaları e.ə.I minilliyin əvvəllərində Azərbaycanda ilk dövlət yaradan mannalıların əcdadı idilər. Aratta, Lullubi, Su adları isə əslində Urmiya gölünün hövzəsindəki geniş bir ərazinini müxtəlif adlarıdır və bir qədər sonra məhz bu ərazidə Manna dövləti meydana gəlmişdi.

Qədim Azərbaycan ərazisində, əsasən, Araz cayından cənubda yaşayan tayfalardan biri də kadusilər idi. Cənubi Azərbaycan ərazisində kadusilərlə qonşuluqda yaşayan tapir tayfaları da mövcud idi. Manna tayfalarından biri də kumirdilər olmuşlar. Qədim Azərbaycan tayfaları ilə qonşuluqda şumerlər, samilər, elamlar və s. yaşayırdılar.

Qeyd etmək lazımdır ki, qədim Azərbaycan tayfalarının etnik mənşəyi barədə e.ə.III minilliyə aid qədim şərq dillərindəki yer adları, ölkə başçılarının adlarını əks etdirən mixi yazılardan müəyyən təsəvvür yaranır. Son araşdırmalara görə bu qaynaqlarda adı keçən toponim və etnonimlər, şəxs adlarının əksəriyyəti qədim türk dilləri ilə izah edilməkdədir. Məsələn, mənbələrdə adı çəkilən qədim Azərbaycan ərazindəki **Aratta** ölkəsinin adı qədim türk dilləri ilə izah edilir və dağlıq ərazi anlamına gəldiyi müəyyən edilmişdir. Bir çox türk coğrafiyasına aid edilən ərazilərdə Aratta adının müxtəlif variantlarına rast gəlinməkdədəir. Məsələn, Altayda, Qazaxıstanda, Azərbaycanın istər cənubunda, istərsə şimalında Altay-Alatau, Alatava, Aladağ kimi oronimlər mövcuddur. Qədim mənbələrdə adı çəkilən Aratta kəlməsinin də Alatau adının fonetik dəyişikliyə uğramış forması olduğu məyyən edilmişdir. Qeyd etmək lazımdır ki, qədim mənbələrin bəzilərində, məsələn, Urartu yazılarında Aratta ölkəsi elə "**Dağlıq Alateya ölkəsi"** kimi qeyd edilmişdir. E.ə.VIII əsrə aid şumer-akkad mənbələrində Aratta kəlməsi *dağlıq ərazi* mənasını verir.

**Su** tayfalarının da adınını qədim türk tayfaları sabirlərlə eyni mənşədən olduğu təsbit edilmişdir. Qədim türk dilllərində *su-sub-suv* su mənasını daşıyır. Ər isə kişi-insan, tayfa mənasındadır. Kuti şəxs adlarının da bir çoxu türk və şumer dilləri ilə izah edilir. Məsələn, Kuti çarlarından Enridavazirin adının birinci hissəsi *Enri* –tanrı kəlməsi qədim türk-şumer dillərində ilahi-allah, yəni allahın qoru-

duğu mənasını verən teofor[1] addır. Kutilərin yayıldığı coğrafi ərazi də əsasən türkmənşəli xalqların məskun olduğu bölgələrdir. Kutilərin bir qisminin Cənubi Azərbaycan torpaqlarına Anadolunun şərqindən, həmçinin Orta Asiyadan gəldiyi ehtimal olunur.

### *1.4. Şərq dövlətləri ilə iqtisadi, siyasi və mədəni əlaqələr*

Qaynaqlardan məlum olur ki, artıq e.ə. III minilliyin birinci yarısında Azərbaycanın erkən dövlət qurumlarının İkiçayarası Şumer dövlətləri ilə istər siyasi, istərsə də iqtisadi-mədəni əlaqələri mövcud olmuşdur. Şumer Aratta münasibətləri haqqında "En Merkar və Aratta hökmdarı", "En Merkar və En-Sukuşsiranna", "En Merkar və Luqalbanda", "Luqalbanda və Hurrum dağ" bir çox Şumer dastanlarında məlumatlar öz əksini tapmışdır. Şumer, Akkard və Assur (Assuriya) dövlətləri ilə hərbi-siyasi, həmçinin qarşılıqlı iqtisadi-mədəni əlaqələri olan qədim Azərbaycan tayfaları Urmiya ətrafından başlayaraq, zaman-zaman Dəclə və Fərat vadiləri də daxil olmaqla, İran körfəzinə qədərki ərazilərə də nəzarət edərək bütün regionun hərbi-siyasi tarixində mühüm rol oynamışlar.

Şumer ilə Aratta arasında, xüsusilə də Uruk şəhər-dövlətinin yüksəlişi dövründə siyasi rəqabət güclənmişdi. Aratta ölkəsi, bu ölkənin sakinləri olan kuti, lullu, su tayfaları qonşu Mesopotamiyada bir-birini əvəz edən Şumer, Akkad, Assuriya kimi qədim Şərq dövlətləri ilə iqtisadi və mədəni əlaqələr yaratsalar da onların arasında tez-tez siyasi münaqişələr baş verirdi. Şumer dastanlarından məlum olur ki, Uruk ilə Aratta arasında münasibətlər gah ədavət, gah dinc, gah dostluq xüsusiyyəti daşıyırdı.

Şumer dastanlarında Aratta hökmdarı En-Sukuşsiranna ilə Şumer hökmdarı En-Merkar arasındakı siyasi rəqabətdən bəhs edilir. En-Merkar Arattanı özünə tabe etmək məqsədilə Aratta hökmdarı ilə yazışmalar aparır, qasidlər göndərir və hətta bu ölkəyə səfər edir. Qaynaqlara görə Aratta hökmdarı En-Sukuşsiranna Uruk hökmdarı En-Merkarı tabe etmək məqsədilə vəzirini bu ölkəyə göndərir və En-Merkarın onu ali hökmdar kimi tanımasını tələb edir. En-Merkar isə ona əks tələb göndərir. Belə olduqda En-Sukuşsiranna Şuranı toplayır.

[1] Advermədə tanrı adlarının öz əksini tapması, tanrı adlarının şəxs adlarının bir hissəsini təşkil etməsi teofor adlardır.Teofor adlar iki hissədən - tanrı adı və tanrıya təşəkkür, yalvarış, dua və s. ibarət olurdu.

Şura üzvləri ona En-Merkara tabe olmağı məsləhət görürlər. Aratta hökmdarı bu təklifi rədd edir və kahini Urqirnunanı Uruku tutmağa göndərir. Lakin son məqamda kahin həlak olur.

Lakin mənbələrdə verilən məlumatlar En-Merkarın tədricən Arattaya bir müttəfiq kimi baxdığını, həm Arattanın, həm də Urukun öz müstəqilliyini saxladığını söyləməyə əsas verir. Məsələn, mənbələrdən məlum olur ki, sami tayfaları Uruk şəhərini mühasirəyə aldığı zaman, Uruk hökmdarı En-Merkar ölkəni xarici müdaxilədən qorumaq üçün Arattadan hərbi yardım istəmək məqsədilə Arattaya Luqalbandanı göndərmişdi.

Beləliklə, fəal xarici siyasət yeridən qədim Azərbaycan tayfaları öz torpaqlarını xarici təcavüzlərdən uğurla qoruyurdular. Aratta ölkəsi öz müstəqilliyini qorumaqla yanaşı, həmçinin Şumer dövləti ilə iqtisadi əlaqələrini də davam etdirməyi bacarmışdı. Aratta dövlətinin mövcudluğu dövründə Mesopotamiya (İkiçayarası) ərazisindəki Şumer şəhər-dövlətləri ilə iqtisadi mədəni əlaqələri mövcud olmuşdur. Uruk hökmdar sülaləsinin nümayəndələri En-Merkar, Luqalbanda və Gilqameş, xüsusilə də ilk hökmdar En-Merkar şərqdə Aratta ölkəsi ilə münaqişələrə girsələr də, yenə də iqtisadi əlaqələrini davam etdirmişlər.

Aratta ilə İkiçayarasında iqtisadi münasibətlər, mal mübadiləsi çox erkən dövrdən mövcud olmuşdur. Arattadan İkicayarasına qızıl, gümüş, tikinti materialları, Şumerdən Arattaya isə əsasən taxıl və meyvə gətirilirdi Arattanın Şumerlə mal mübadiləsinə cəlb olunması Şumer dastanlarında öz əksini tapmışdı. Bu qaynaqlardan məlum olur ki, Arattadan İkiçayarasına qızıl, gümüş, lacivərd, qızıl və gümüş qarışığı, tikinti materialları gətirilirdi. Şumerlər Uruk şəhərindəki məbədləri bərpa etmək üçün Artatanın yeraltı sərvətlərinə - tikinti materialları, qiymətli metal və daşlara ehtiyac duyurdular. Zəngin yeraltı faydalı sərvətləri olan Aratta ölkəsinin əhalisinin qızıl, gümüş, qurğuşun, mis, lacivərd (lazurit)[1] hasil etməsi barədə mənbələrdə ətraflı məlumat var. Arattada hasil edilən bu zəngin yeraltı faydalı sərvətlər və inşaat daşı kimi başqa qiymətli daşlar Uruka gətirilirdi. Arattadan İkiçayarasına qiymətli metallardan hazırlanmış sənətkarlıq məmulatları da ixrac edilirdi. Uruk hökmdarı En-Merkar Şumer məbəd tikintisində istifadə ediləcək materialların Arattadan

---

[1] Tünd mavi rəngli qiymətli daş.

gətirilməsini istəyirdi. O, Aratta əhalisini, xüsusilə də sənətkarları Şumer məbəd tikintisində işlətmək niyyətində idi.

Şumerdən Arattaya isə mübadilə nəticəsində kənd təsərrüfatı məhsulları, əsasən taxıl və meyvə gətirilirdi. Şumer dastanlarından məlum olur ki, Uruk hökmdarı En-Merkar Aratta hökmdarından qiymətli metalların, əşyaların və lacivərdin alınması müqabilində Arattaya taxıl göndərəcəyini vəd edirdi. Mənbələrdən məlum olur ki, Aratta əhalisi də əkinçiliklə məşğul olur, əsasən buğda və noxud becərirdilər.

Arattalılar, kuti, lullubi və subi-su tayfalarının Şumer dövlətləri həm coğrafi, həm də iqlim baxımından yaxınlığı Azərbaycan əhalisinin Qədim Şərq ölkələri ilə ticarət əlaqələrinin güclənməsi ilə yanaşı, bu tayfaların eyni mədəniyyət və dünyagörüşünə sahib olmasına da gətirib çıxarmışdı. Arattada mövcud olan siyasi və ideoloji terminlər Şumer məfhumları vasitəsilə ifadə olunurdu. Məsələn, ölkəni idarə edən hökmdarın daşıdığı *ensi(*ali kahin) rütbəsi şumerlərdə də mövcud idi və hökmdara şamil edilirdi. Məlumdur ki, erkən Şumer dövlətləri *en* (dini hakim) adlanan ali kahin tərəfindən idarə olunurdu. *En* dövlət və məbəd işlərinə, suvarma kanallarının çəkilməsinə, ölkənin təsərrüfat həyatına, hərbi işlərə rəhbərlik edirdi. İbtidai demokratiya əlamətlərini qoruyub saxlamaqda olan Şumer dövlətlərində tədricən hökmdar hakimiyyəti formalaşdıqca dövlətin başında dayanan hökmdar həm də ali kahin rütbəsini daşımağa başlamışdı. Buna görə də ölkədə ali hakimiyyət *Ensi* ( xalqa rəhbərlik edən kahin) və ya *luqala* (böyük adam, hökmdar) məxsus idi. Adətən *luqal* daha böyük şəhər-dövlətlərinə başçılıq edirdi. Arattada *ensi* rütbəsi ilə yanaşı əsilzadə təbəqəsinə aid olan *maşmaş* (kahin vəzir), *sukkal* (elçi—kiçik hökmdar rütbəsi), *uğula* (rəis) kimi bir sıra dövlət rütbələri də olmuşdur. Arattada dövlət idarələri şəhərdə yerləşir, hökmdar sarayda oturur və dövləti idarə edirdi. Qaynaqlardan məlum olur ki, Aratta dövlət idarələrində çalışan mirzələr şumer mixi yazıları və şumer dili ilə tanış idilər. Onlar həm Şumer hökmdarları ilə yazışmaları həyata keçirir, cavab məktubu yazır, həm də En-Merkarın Şumer dilində yazdığı məktubları tərcümə edirdilər. Şumer ilə Aratta arasında əlaqə qasid vasitəsilə həyata keçirilirdi.

Aratta erkən İkiçayarası mədəniyyəti dairəsinə daxil olduğu üçün arattalılar kutilər və lullubelər şumerlərlə eyni dini inanclara sahib idilər. Dini panteonları eyni olan bu qədim tayfalar şumerlər kimi ilahə İnannaya sitayiş edirdilər. Qaynaqlarda "Saf ənənələr

ölkəsi" adlandırılan Arattada Şumerin bərəkət və məhəbbət ilahəsi hesab edilən İnannaya ibadət geniş yayılmışdı. İnannanın Arattadakı adı məlum deyil. Akkadlar isə bu ilahəni İştar adlandırırdılar. Arattada sitayiş olunan ilahələrdən biri də Lama ilahəsi olmuşdur. Qaynaqlardan məlum olur ki, ilahə Lama Arattanın himayədarı hesab edilirdi.

Qüdrətli qonşuları olan Akkad dövlətini məğlub etmiş və öz dövlətlərinin sərhədlərini İran körfəzinə qədər genişləndirərək bu ərazidə yüz ilə qədər hökmranlıq etmiş qədim Azərbaycan tayfa birliyi olan Kuti Tayfa İttifaqı asılı hala saldıqları Akkad və Şumerin dövlət idarəçiliyi qaydalarından faydalandıqları kimi qədim Azərbaycanın mütərəqqi idarəçilik mədəniyyətini də həmin ölkələrə yaymışdılar. Bir əsr boyu İkiçayarasını rahat və münaqişəyə rast gəlmədən idarə etmiş Kuti sülaləsi bu müddət ərzində İkiçayarası bölgədə sabitliyə nail olmuşdular. Kutilərın Mesopotamiyada qurduqları hakimiyyət illərində Azərbaycan və İkiçayarasında eyni dünyagörüşü formalaşmışdı. Kuti hökmdarlarının Akkad dilində yazdırdıqları mixi kitabələrdə Akkad ilahiləri İştar (Bərəkət, məhəbbət və müharibə ilahəsi) və Sin (Ay ilahəsi)-ə sitayiş etdikləri məlum olur. İştar Şumer ilahəsi İnannaya inamın davamı idi.

Beləliklə, e.ə. III minilliyin başlanğıcından Akkad-Babil, Assuriya dövlətləri ilə Aratta, Lullubi, Kuti tayfa İttifaqları arasındakı siyasi-iqtisadi münasibətlər mədəniyyətlərarası əlaqələrin də genişlənməsinə yol açmışdır. E.ə. I minilliyin əvvəllərində yaranmış Manna dövlətində də İkiçayarası mədəni ənənələri davam etmişdi. Mannalıların da əfsanə və dastanları, şifahi xalq yaradıcılığı qədim Şərq mifoloji qaynaqlarından və dünyagörüşündən qaynaqlanırdı.

## II FƏSİL

# QƏDİM AZƏRBAYCAN e.ə. I MİNİLLİYİN ƏVVƏLLƏRİNDƏ. MANNA DÖVLƏTİNİN YARANMASI

### *2.1. Manna dövlətinin yaranmasının iqtisadi-siyasi şərtləri*

**Manna ərazisində kiçik çarlıqlar.** E.ə.II minilliyin sonu - I minilliyin əvvəllərində Cənubi Azərbaycan ərazisində yüksək səviyyədə iqtisadi-mədəni yüksəliş bölgədə mərkəzləşmiş dövlətin formalaşması üçün əlverişli şərait yaratmışdı. Buna həm də qonşu Assuriya və Urartu kimi Qədim Şərqin güclü dövlətləri ilə iqtisadi-mədəni əlaqələr, eyni zamanda hərbi toqquşmaların da güclü təsiri olmuşdur. Hərbi təcavüzlərdən qorunmaq üçün güclü birliyə ehtiyac var idi.

E. ə. II minilliyin sonu - I minilliyin əvvəllərində Urmiya gölü ətrafında, eləcə də ondan cənuba və şərqə doğru ərazilərdə Assur və Urartu hökmdarlarının hərbi yürüşlərindən bəhs edən kitabələrdə "ölkə" adlandırılan Zamua, Gilzan, Allabria, Messi, Manna, Parsua, Uişdiş, Gizilbunda, Andia, Zikertu, Sanqibutu, Puluadi kimi bir sıra şəhər –dövlətlər mövcud idi. Cənubi Azərbaycan ərazisində e.ə.X əsrdə Urmiya gölündən cənubda olan əraziləri əhatə edən **Zamua-*Daxili Zamua***, Urmiya gölünün qərb sahili ərazilərini əhatə edən Gilzan, Qızılüzən (Sefidrud) çayının başlanğıcında, Taxt-i Bilgis dağları ərazisində **Gizilbunda**, Aşağı Zab çayının başlanğıcı Allabria, Aşağı Zab çayının yuxarı axarındakı vadilərindən birində Mannanın şərq qonşuluğunda yerləşən **Karalla**, Diyala çayının yuxarı axarı. Kermanşahdan qərbdə yerləşən **Buştu** [1]**,** Cıgatu çayının yuxarı axarında, Mannanın cənub ucqarında yerləşən **Missi** [2], Aşağı Zab çayının başlanğıcında **Surikaş** [3]**,** Urmiya gölünün cənubunda, Manna ilə Buştu arasında dağlıq ərazi**də yerləşən Alateya**, Manna ölkəsinin

---

[1] Bu ərazinin müasir Qaplantu yaxınlığında olduğu ehtimal edilir.

[2] Mənbələrdə Messi, Messu, Misi kimi də qeyd olunur. Meişta və ya Meşta şəhəri də assur mənbələrindəki Missi toponimi ilə də əlqələndirilir. Müasir Miandoab şəhərindən şimal-qərbdə yerləşdiyi ehtimal edilir. Assurların verdiyi məlumata görə, bu vilayətin ərazisi olduqca geniş idi.

[3] Müasir Sakkız ətrafındakı ərazilər.

Parfiya ilə hüdudunda yerləşən **Buştu,** Qızılüzən –Sefidrud çayının vadisindən Xəzəryanı ərazilərə kimi uzanan **Andia**, **Harrana və ya Harruna**, **Uişdiş** [1], **Zikertu** [2], Urmiya gölünün şimal-şərqində yerləşən **Subi**, Manna ilə Urartu sərhədləri hüdudunda, Urmiyanı hövzənin şimal-şərq hissəsində yerləşən **Sanqibutu**[3], müasir Culfa-ətrafı ərazilər daxil olmaqla, Əhər və Araz çaylarının arasındakı ərazilərdə yerləşən **Puluadi,** Aşağı Zab çayının yuxarı axarında **Şurdira**[4], Miandoabdan şimal-qərbdə və ya bir qədər cənubda yerləşən **Meişta** [5] kimi müxtəlif kiçik siyasi qurumlar və çarlıqlar mövcud idi. Bu kiçik çarlıqlar və ya siyasi qurumlar Qədim Şərqin Assuriya və Urartu kimi qüdrətli dövlətlərinin müntəzəm hücum hədəfinə çevrilmişdilər.

Ərazinin zənginliyi qonşu dövlətlərin daimi diqqətini cəlb etdiyi üçün bu siyasi qurumlar Qədim Şərq dövlətləri ilə, xüsusilə də dövrünün ən qüdrətli dövlətlərindən olan Assuriya qarşı daima mübarizə aparırdılar. Mənbələrdə Zamua, Gilzan, Gizilbunda, Karalla, Buştu, Missi, Surikaş, Alateya, Andia, Uişdiş, Puluadi, Allabria, Zikertu, Sanqibutu kimi Urmiya hövzəsində yerləşən vilayətlərin tez-tez assurların basqınlarına məruz qalması ilə bağlı məlumatlar var.

Qaynaqların verdiyi məlumata görə, e.ə. 881-ci ildə II Aşşurnasirapal (e.ə. 883-859) Zamuaya hücum edərkən zamualılar onların qarşısını almaq üçün Babit aşırımında müdafiə divarı hörsələr də basqının önünü kəsə bilməmişdilər. E.ə.X əsrdə Cənubi Azərbaycan ərazisində Urmiya gölünün qərb sahillərində yerləşən belə müstəqil siyasi qurumlardan biri olan Gilzan vilayətinin əhalisi də e.ə. 856-cı ildə Assuriya hökmdarı III Salmanasarın basqınlarına məruz qalmışdılar və ona vergi verməyə məçbur olmuşdular. Assuriya hökmdarları II Aşşurnasirpal və III Salmanasar Gilzan vilayətindən xərac olaraq qızıl, gümüş, qurğuşun, həmçinin mis qablar almışdı.

---

[1] Təqribən Marağa yaxınlığında.
[2] Müasir Miyanə və Ərdəbil şəhərləri ətrafındakı ərazilər Mənbələrdə Zakruti kimi də qeyd olunur., Zikirtu İlk dəfə III Tiqlatpalasarın mətnlərində Maday torpağı kimi qeydə alınıb.
[3] Bu ərazidə Subi və Bari əyalətləri yerləşirdi. II Sarqonun kitabəsindən məlum olur ki, mənbələrdə Tarun və Tarmakis adları ilə bilinən Təbriz qalaları Bari əyalətində yerləşirdi.
[4] Mənbələrdə Paddira, Şurda adı ilə də qeyd olunub.
[5] Aşşur mətnlərində Missi kimi də qeydə alınmışdır.

Cənubi Azərbaycan ərazisindəki Qizilbunda vilayəti də Assuriya hökmdarı V Şamşi-Adadın təcavüzünə məruz qalmışdı və assurlar qənimət kimi xeyli qızıl, mis, gümüş əşyalar ələ keçirmişdilər. Mənbələrdə adı Zamua, Gizilbunda kimi müstəqil siyasi qurumlar arasında adı çəkilən Messi vilayətinə də Assuriya hökmdarları - III Salmanasar, V Şamşi-Adad, II Adadnerari yürüşlər etmişdilər. Yerli əhali işğalçılara boyun əyməyərək e. ə. IX əsrin 80-ci illərində II Aşşurnasirpala qarşı müqavimət göstərmək üçün dağlara çəkilərək buradakı Mesun qalasında mübarizələrini davam etdirmişdilər.

E.ə. IX əsrin ortalarında Allabria və onun qala şəhəri Şurdirraya da III Salmanasar hücum etmiş, oradakı var-dövləti ələ keçirmişdi. Sanqibutu vilayətində düşmənin basqınından xəbərdar olmaq üçün xüsusi qülləli istehkamlar tikilməsinə baxmayaraq yerli əhali qeyri-bərabər döyüşdə məglubiyyətə düçar olmuşdu. Yerli əhalinin uçaltdığı belə qülləli istehkamlar barədə II Sarqona aid kitabədə məlumat verilir: "Müşahidə aparmaq üçün dağ zirvələrində burclər ucaltmışdılar... onlar gündüz və gecə düşmənin yaxınlaşmasını bildirən tonqalın yanmasını izləyirdilər. "

Beləliklə, e.ə. X əsr boyu Qədim Şərqin güclü dövlətlərinin davamlı basqınlarına qarşı dayanmaq üçün Urmiya bölgəsində mövcud olan kiçik siyasi qurumların birləşərək vahid dövlət qurmaq zərurəti yaranmışdı.

Cənubi Azərbaycan ərazisində Urmiya gölü ətrafında yaranmış bu siyasi qurumlar içərisində Zamua ölkəsi xüsusilə fərqlənirdi. E.ə. IX əsrin ortalarında Zamua ölkəsi bu ərazidəki qüvvətli siyasi qurumlardan birinə çevrilmişdi. Zamua Urmiya gölündən cənubdakı əraziləri, Aşağı Zab və Adəm çayının başlanğıcından şimalda Süleymaniyə ilə Sənəndəc arasındakı geniş ərazini əhatə edirdi**.** Zamua olkəsinin digər bir adı da, hələ qədim zamanlardan burada lullubilər məskunlaşdığına görə Lullume idi. Ümumiyyətlə, bu bölgə e.ə.VII əsr assur kitabələrində üç fərqli inzibati ərazi kimi xatırlanır; 1.Zamua; 2.Daxili və ya İç Zamua; 3.Mazamua. E.ə. IX əsrdə Zamuanın bir hissəsi assurlar tərəfindən zəbt edilib, "Mazamua" və ya "Zamua" adı altında bir vilayət kimi Assuriyaya birləşdirilmişdi.

İlk dəfə olaraq Zamua adına II Adadnerarinin (e.ə. 911-89-ci il) salnaməsində rast gəlinir. Şəhər-dövlət kimi isə Zamua ilk dəfə e.ə. 881-ci ildə qeydə alınmışdır. Bu zaman Zamua ölkəsinin çarı

*Daqara* vilayətinin[1] tayfa başçısı Nur-adad idi. E.ə. 881-ci ildə II Aşşurnasirapal (e. ə. 883-859) Zamuaya hücum edərkən zamualılar hücumu dəf etmək üçün Babit aşırımında müdafiə divarı hörmüşlər. Lakin basqının önünü kəsmək mümkün olmamlşdı. II Aşşurnasirapal Daqara vilayətinin Birutu, Uze və Laqalaqa qalalarını işğal etmişdi. Nur-Adad Assuriyanın qonşu vilayətlərə hücumundan istifadə edərək, öz mövqelərini möhkəmləndirməyə çalışsa da, buna nail ola bilmədi. Nəticədə assurlar yenə gələrək bu dəfə Birutu qalasını yandırdılar. E.ə. 880-ci ildə Zamua əhalisi bu dəfə artıq Amekanın rəhbərliyi ilə II Aşşurnasirapalın qoşunlarına qarşı mübarizəyə qalxır. Mənbələrdə Ameka "paytaxtı Zamri şəhəri olan Zamua ölkəsinin çarı" adlandırılır. Lakin istilaçılara inadla müqavimət göstərməyinə baxmayaraq Ameka da Assuriya çarı Aşşurnasirpalla qüvvələr nisbətinin qeyri-bərabər olması səbəbindən məğlubiyyətə uğrayır. Torpaqlarının bir hissəsinin assurlar tərəfindən işğal edilməsinə baxmayaq Ameka təslim olmaq istəmir, qoşunu ilə paytaxt Zamri şəhərini tərk edərək Etini dağlarına çəkilir. Assurlar Zamuanın paytaxtı Zamri ilə bərabər Arazitku, Ammaru, Parsindu, İritu, Suritu kimi qalalarla birgə 150 yaşayış məskənini ələ keçirsələr də Amekanı ram edə bilmədilər. Assurlar tərəfindən təqib olunmasına baxmayaraq Ameka Etini və Sabua dağları arasındakı böyük ərazidə möhkəmlənməyi bacardı və Sabua dağından Mesu şəhərinədək olan böyük bir ərazidə öz müdafiəsini təşkil edə bildi. Eyni xamanda Zamua əhalisi də Aziru və Simaki dağlarına çəkilərək assurlara qarşı mübarizəni inadla davam etdirirdi.

Beləliklə, Zamuanı bütövlükdə işğal edə bilməyən assurlar vilayətin zəbt olunmuş hissəsində möhkəmlənərək daimi nəzarət üçün burada Dur-Aşşur qalasını tikirlər və həmin hissəni Zamua və ya Mazamua adlandırırlar. Vilayətin yerli əhalidə qalan hissəsi isə Daxili və ya İç Zamua adlandırılmağa başladı. İç Zamua tədricən güclənərək bölgənin ən iri siyasi vahidlərdən birinə çevrilir. Mənbələrdə e.ə. 855-ci ildə Urmiya gölü sahilində İç Zamua rəhbərlik edən Nikdiara ilə III Salmanasarın döyüşü barədə məlumat verilir.

Mənbələrdə İç Zamuanın köklü əhalisinin lullular olduğu yazılırdı. Buna görə də Urmiya gölündən Kiçik Zab çayına qədər uzanan "Daxili və ya İç Zamua" əraziləri uzun müddət öz qədim

[1] Daqara vilayəti şimal-şərq və şərq ölkələrinin sərhəddində yerləşdiyi üçün assurlar onu işğal etməyə xüsusi maraq göstərirdilər.

Lullu adını da qorumaqda davam edirdi. Assuriya hökmdarı II Sarqona aid kitabədə "Zamua adlanan lullume ölkəsi" ifadəsi işlənir. Assur mənbələrində hələ e.ə. I minilliyin əvvəllərində Lullume, Zamua, Manna anlayışları arasındakı bu varisliyi izləmək mümkündür.

Beləliklə, Cənubi Azərbaycan ərazisindəki kiçik siyasi qurumlar ayrı-ayrılıqda inadla müdafiə olunmağa çalışsalar da, Assuriya təcavüzünə qarşı dura bilməyərək məğlubiyyətə uğrayırdılar. Lakin Assuriya mənbələri rəqiblərin qələbələri haqqında çox zaman susduğu üçün bəzi əyalətlərin birgə mübarizəsi, onların uzunmüddətli müdafiələri və s. haqda yazılı məlumatlara rast gəlinməsə də bu ərazidə e. ə. I minilliyin əvvəllərində bu vilayətlərin tədricən birləşməsi və güclənməsi prosesi gedirdi. Artıq e.ə. IX əsrdə Manna dövlətinin mövcudluğu Urmiya bölgəsindəki hərbi siyasi birliyi olduğunu göstərir.

### *2.2. Manna dövlətinin formalaşması, ərazisi və etnik tərkibi*

Urmiya gölü hövzəsi əhalisinin etnik cəhətdən formalaşmasında e. ə. III minilliyin ikinci yarısından etibarən qədim kuti, lullubi, turukki, su, hurri tayfaları mühüm rol oynamışlar. E. ə. I minilliyin əvvəllərindən etibarən isə Urmiya gölündən cənubda İç Zamuada yaşayan, tədricən Urmiya bölgəsindəki əraziləri və burada məskun olan müxtəlif tayfaları öz ətrafında birləşdirən mannalılar yüksəlişə keçir. IX əsrin 30-cu illərindən artıq İç Zamua “Mannalılar ölkəsi”adlanmağa başlamışdı. Qeyd etmək lazımdır ki, Zamua adı lullubi tayfalarından birinə mənsub yerli ad hesab edilir. Lakin, xeyli sonralar da, hətta Manna dövləti özünün yüksəliş dövrünə çatdıqda belə bu ərazi "Lullu" adını saxlamaqda idi. Tədqiqatçılar Manna dövlətinin Diyala çayının yuxarı axarınadək cənub əyalətlərinin əhalisini kuti-lullube etnik qrupuna, Diyala çayının yuxarı axarındakı əhalini isə kassi etnik qrupuna aid edir. Manna dövləti isə lullube-kuti dövlət qurumu olaraq qəbul edilir.

Beləliklə, e. ə. III minillikdən başlayaraq kuti və lullubelərin məskun olduqları ərazidə onların birbaşa varisləri sayılan mannalar (yaxud mannalılar) e.ə. IX əsrdə Manna dövlətinin əsasını qoydular. E.ə. IX əsrin 30-cu illərindən Azərbaycan ərazisində yaranan bu ilk dövlət Azərbaycanın dövlətçilik tarixində mühüm mərhələ oldu. Manna dövlətinin yaranması Azərbaycanda dövlətçilik ənənəsinin əsası qoyuldu.

E.ə. I minilliyin əvvəllərindən Cənubi Azərbaycan ərazisində **dövlətin formalaşması** - E.ə. X-IX əsrlər boyu Urmiya hövzəsindəki bütün kiçik siyasi qurumların, ayrı-ayrı vilayətlərin, şəhər - dövlətlərin tədricən birləşməsi prosesi gedir. E.ə.X əsrin sonu-IX əsrin I yarısında İç Zamua Gilzan, Zikertu, Puluadi, Allabria, Karalla kimi kiçik siyasi qurumlar Assuriya və Urartu talanlarından qorunmaq üçün birləşməyə başlamışdılar. İlk vaxtlar Zamua ərazisində güclənən mannalılar tədricən öz ərazilərini genişləndirdikcə Manna adının coğrafi hüdudları da böyüdü. Bu dövrdə Messi, Harruna, Şurdira, Aridu kimi kiçik dövlətlər də İç Zamuaya daxil oldu. Bu kiçik çarlıqların birləşməsi ilə Manna dövlətinin əsası qoyuldu. Tədricən bu ərazilər Zamua deyil Manna çarlığı adlanmağa başladı. Assur qaynaqlarında Manna "Manneylər olkəsi", "Mannaş", Urartu qaynaqlarında isə "Mana olkəsi" adlandırırdılar.

Mannanın adı və ilk hökmdarı Udakinin adı mixi yazılı mənbələrdə ilk dəfə e.ə. 843-cü ildə III Salmanasarın kitabəsində çəkilir. Bu qaynağın verdiyi məlumata görə, Daxili Zamua ərazisinə basqın edən III Salmanasar bölgənin bir sıra məskənlərini ələ keçirib Mannanın sərhəddinə kimi irəliləsə də, daha sonra yolunu dəyişərək qonşu Allarabia ölkəsinə yönəlmişdir. Lakin e. ə. 829-cu ildə isə Mannanın adı artıq talan edilmiş ölkələrin sırasında çəkilir. Assuriya kitabəsində: "Mən mannalı Udakinin məskənlərinə yaxınlaşdım. Mannalı Udaki öz çar şəhəri Zirtanı tərk etdi" yazılmışdır. Göründüyü kimi, Manna çarı Udaki assuriyalılara təslim olmayaraq paytaxtı Zirtu (İzirtu)[1] şəhərini tərk edib dağlara çəkilmişdi.

**Manna dövlətinin ərazisi, sərhədləri, əyalətləri.** Artıq e.ə. VIII-VII əsrlərdə Manna bütün regionda baş verən hərbi-siyasi hadisələrdə yaxından iştirak edən, qüvvətli qonşularına - Assuriya və Urartu dövlətlərinə qarşı uğurla mübarizə aparan, şimalda - Araz çayına (bəzən də ondan şimala doğru) və şimal-şərqdə - Xəzər dənizinə qədər olan əraziləri əhatə edən güclü dövlətə cevrilmişdi.

Manna ərazisi qərbdən Urartu, cənub qərbdən Assuriya, cənubdan Zaqroelam, cənub-şərqdən Midiya ilə sərhədlənirdi. Mannanın cənubi-şərq torpaqları və ona tabe əyalətləri madayların məskunlaşdığı ərazi ilə sərhəddə yerləşirdi. Mannanın şərq sərhədlərində

---

[1] E.ə. IX əsrin ortalarından Aşşur kitabələrində Manna dövlətinin paytaxtı İzirtu, İzertu, İzerte və Zirtu adlanırdı.

Qızılbunda vilayəti yerləşirdi. "Dağlıq diyar" adlanan Gızılbunda Mannanın ən ucqar vilayəti idi və Mannanı midiyalılardan ayırırdı. II Sarqonun kitabələrində gızılbundalılar "öz güclərinə güvənən, başının üstündə hökmranlıq tanımayan" adamlar adlandırılırdı.

Mannanın şərq sərhədlərindəki ucqar əyalətlərindən biri də Qızılüzən çayı hövzəsinin aşağı və orta axarını əhatə edən Andiya əyaləti idi. Manna dövləti özünün ən qüdrətli dövründə Andiyanı assurlardan geri alaraq öz təsir dairəsinə daxil etmişdi. Assur qaynaqlarında Andiyanın ərazilərinin "Günəşin batdığı böyük dənizə"dək uzandığı qeyd edilir. Qaynaqların "günəşin batdığı böyük dəniz" adlandırdıqları dəniz Xəzər dənizidir.

Mannanın cənub sərhədlərində Missi vilayəti yerləşirdi. Messinin adı Zamua, Maday, Gizilbunda və Parsua ilə bir çəkilir. Qaynaqlardan məlum olur ki, bu vilayət Mannanın ərazisinə qatılsa da Missi hökmdarları zaman-zaman müstəqilliyə can atmışlar. II Aşşurnasirapalın e. ə. IX əsrin 80-ci illərinə aid kitabəsindən məlum olur ki, Missi əhaisi dağ qalası Mesuya gizlənərək mübarizə aparırdılar. Missi əyaləti Manna hökmdarı Ullusunu dövründə Mannaya birləşdirilmiş, onun sərhədində Sirdakka (Zirdiakka) qalası inşa edilmişdi. Urartu kitabəsində adı çəkilən Meişta şəhəri Missi ərazisində yerləşmişdir və onun əhalisi etnik cəhətdən mannalılarla qohum tayfalar idi. Assur qaynaqlarından bu vilayətin ərazisi olduqca geniş olması və əhalisi atçılıq və dəvəçiliklə məşğul olub qaramal saxlaması baxımından zəngin bir bölgə oldugu, buna görə də vilayətə III Salmanasar, V Şamşi-Adad, II Adadnerari yürüşlər etməsi məlum olur. Urartu kitabəsində adı çəkilən Meişta şəhəri Missi ərazisində yerləşmişdir və onun əhalisi etnik cəhətdən mannalılarla qohum tayfalar idi.

Mannanın şimal sərhədlərində, Urmiya hövzəsinin şimali-şərqində Manna ilə Urartu sərhədləri hüdudunda Subi və Sanqibutu əyalətləri yerləşirdi. Bu əyalətlər də vaxtaşırı əldən-ələ keçirdi. II Sarqonun kitabələrində Sanqibutu əyalətində Tarun və Tarmakis ( müasir Təbriz) qalalarının adını çəkilir, bu qalaların yaxşı möhkəmləndirilmiş, at tövlələri, arpa dolu anbarlarla zəngin olduğu yazılırdı.

Mannaya tabe olan əyalətlərdən biri də Zikertu əyaləti idi. II Sarqonun verdiyi məlumata görə Zikertu əyaləti Manna tərəfindən təyin edilən canişinlə idarə edilirdi. Bu əyalət müasir Miyanə – Ərdəbil bölgələri ilə lokalizə edilir. Lakin Manna hökmdarı Aza dövründə Zikertu əyaləti Mannaya qarşı çıxmışdı. E. ə. 719, 716 və 715-

ci illərdə II Sarqon Azaya qarşı çıxmış Zikertuya hərbi yürüşlər edərək ətraf yaşayış məskənləri ilə birlikdə üç möhkəmləndirilmiş şəhəri ələ keçirməsi və Zikertu əyalətinin Parda adlanan paytaxtı - *"hökmdar şəhəri"ni* qarət etməsi haqqında məlumat verilir.

Mannaya tabe əyalətlər sırasında müasir Marağa rayonu ərazisində yerləşən Uişdiş əyalətinin də adı çəkilir. Uişdiş əyalətini də Manna dövlətinin təyin etdiyi canişin idarə edirdi. Mannalı Azaya qarşı çıxan əyalətlər sırasında Zikertu və Andiya əyalətləri ilə birlikdə Uişdiş əyaləti də var idi. Lakin, bu əyalət də, assurluların köməyilə yenidən Mannaya tabe edilmişdi.

Urmiya gölü hövzəsində Allabria çarlığının böyük əhəmiyyəti vardı. Allabrianın adı ilk dəfə e.ə.IX əsrin ortalarında çəkilir. III Salmanasarın kitabəsində Allabrianın qala şəhəri Şurdirranın və orada olan var-dövlətin ələ keçirilməsi haqqında məlumat verilir. Allabriya hakimi İtti Assuriya əleyhinə koalisiyada Manna hökmdarı Ullusunu da iştirak etməyə təhrik etmişdi. Koalisiya darmadagın edildikdən sonra Allabriya əyaləti çar Ahşeri zamanınadək Assuriyaya bac verirdi.

**Manna dövlətinin əhalisi.** Manna dövlətinin aparıcı etnosu mannalılar idi. Mannalılarla yanaşı tədricən Cənubi Azərbaycanda məskun olan teurla, kumurdi, hürri, dali, subi kimi bir çox tayfa birlikləri də manna adı altında birləşməyə başladı. Manna əhalisi ölkə daxilində tayfaların tədricən konsolidasiyası nəticəsində formalaşmışdı. Artıq e.ə.I minilliyin əvvəllərinə aid mənbələrdə Cənubi Azərbaycan əhalisi “mannalılar” adlandırılırdı. Beləliklə, e.ə.III-II minilliklərdə Cənubi Azərbaycan ərazisində kuti, lulubi, kas, hürri və digər tayfalar arasında gedən etnik proseslər nəticəsində e.ə.I minilliyin əvvəllərində mannalılar etnosu yarandı.

Mənşəcə yerli ad olan manna etnonimi əvvəlcə Urmiya ətrafında məskun olan tayfalardan birinə məxsus olmuşdur. Tədricən mannalılar güclənərək ətraf əraziləri və tayfaları öz ətrafında birləşdirilməklə onların məskun olduqları ərazi də Manna etnosunun adı ilə adlandırılmışdır. Beləliklə, Manna əvvəlcə konkret bir tayfanın, sonra tayfa birləşməsinin, daha sonra e. ə. IX əsrin 30-cu illərindən Azərbaycan ərazisində ilk dövlət qurumunun adı olmuşdur.

Lakin Manna və Mana adı bu etnonimin assur və urartu dillərində yazılış formalarıdır və bu adın yerli tələffüz forması, mannaların özlərini necə adlandırdıqları məlum deyil. Mənbələrdə bu etnosun fərqli adlarına rast gəlinir. E. ə. VII əsrin sonlarına qədər Asur

və Urartu mənbələrində bu etnos Manna və Mana kimi qeyd olunsa da bir qədər sonra e. ə. 519-cu ilə aid Bisütun kitabəsində, həmçinin e. ə. V əsr müəllifi Herodotun məlumatlarında Manna yaxud Mana etnoniminin adı çəkilmir. Qədim fars və yunan mənbələrində maq etnonimindən bəhs edilir. Mannalar haqqında məlumat verən assur və Urartu mənbələrində isə "maq" etnoniminin adı çəkilmir. Tədqiqatçıların gəldiyi nəticəyə görə, Manna etnonimi **manqa –manq-maq** etnoniminin assurca yazılmış formasıdır və assur və urartu mənbələrindəki Manna və Mana qədim fars və qədim yunan mənbələrindəki maq etnonimidir. Yəni Manna etnosunun adı əslində manq-maq olmuşdur. Bu etnonimin sonunu təşkil edən "nq" qovuşuq səsi danışıqda "q"səsinə keçmiş və manq etnonimi maq etnoniminə çevrilmişdir. Belə bir fonetik əvəzlənmə türk dilləri üçün səciyyəvidir. Manqa etnonimi Maq formasında ifadə edilmişdir. Elam və Midiya mənbələrində Manna etnonim elə maq kimi verilmişdir. Midiyalılar Mannanı Maqtay-Maqlar ölkəsi adlandırırdılar. Elamlılar isə mannalıları *maqpi* adlandırırdılar.

Beləliklə, manna (mana) etnonimi manqa etnoniminin fonetik formasıdır, onun ilkin forması Manqa ("nq"səsilə) olmuşdu Bu baxımdan tədqiqatçılar Manna etnonimi türkmənşəli hesab edir. Buradakı “nq” qovuşuq səsi yalnız Altay-türk dilləri üçün səciyyəvi idi. Maq-manq adının daşıyan bir sıra türkmənşəli etnoslar türk cografiyasının müxtəlif ərazilərində mövcuddur. Altayda Manqas, qırğızlar arasında Manquş, Tuvada Munqal, xakaslarda Munqet tayfaları var. Manna ərazisindəki qədim yer və şəxs adlarının da bir çoxu qədim türk dilləri ilə, məsələn, Durdukka-durak-dayanacaq; **İzirta-** İzir-aşırım; tau-dağ-ölkə, **İranzu** -ərən; zu (şumercə) müdrik **Ullusun**-ulla-hörmət olunan, sayılan; sun-kişi-nəzarətçi **Urmiya** gölü -“Ur” yüksəklik, “muya” su, göl kimi izah olunmaqdadır.

**İdaretmə sistemi. Dövlət strukturu.** Mannada hakimiyyət qeyri-məhdud irsi hakimiyyəti olmuşdur. Dövlətin başında vərəsəlik hüququna malik çar dururdu. Manna hökmdarları irsi və qeyri-məhdud hakimiyyətə malik idilər. Hakimiyyət irsi olaraq atadan oğula keçirdi. Məsələn, mənbələrdən məlum olur ki, Ahşeridən sonra varislik prinsipinə əsasən onun oğlu Ualli hakimiyyətə gəlir. İranzudan sonra da hakimiyyətə onun oğulları - ilk olaraq böyük oğlu Aza, Azanın ölümündən sonra isə kiçik oğul Ullusunu sahib olmuşlar.

E.ə. VIII əsrin II yarısında Manna mərkəzləşmiş dövlət idi, vilayətləri canişinlər idarə edirdi. Dövlət hökmdarın təyin etdiyi

canişinlər tərəfindən idarə olunan əyalətlərə bölünürdü. Bu canişinlərın də bəziləri irsi hakimiyyətə malik idi. İrsi və qeyri-məhdud hakimiyyətə malik olmasına baxmayaraq Manna hökmdarları ölkəni ağsaqqallar şurasının köməyi ilə idarə edirdilər. II Sarqonun məlumatından görünür ki, Ullusunu dövləti *"özünün böyükləri, ağsaqqalları, məsləhətçiləri, nəslinin nümayəndələri, canişinləri, ölkəsini idarə edən zadəganları"*—ilə birgə idarə edirdi, yəni hökmdar hakimiyyətini məhdudlaşdıran ağsaqqallar şurası mövcud idi.

### *3.3. Manna dövlətinin Assuriya və Urartu ilə münasibətləri*

Tədricən bölgənin mühüm hərbi-siyasi gücünə çevrilən Manna Assuriya və Urartu ilə mübarizədə gah zəifləyir, gah da güclənirdi. Bu mübarizələr Mannanı çox zəiflətsə də, bəzən Manna güclü qonşu dövlətlər arasında gedən çəkişmələrdən və onların daxili vəziyyətlərinin ağırlaşmasından faydalanaraq öz ərazisini yenidən bərpa edə və hətta genişləndirə bilmişdir. Manna çarlığının zəifləməsi və ya güclənməsi onu əhatə edən Assuriya, Urartu dövlətlərinin fəaliyyətindən asılı idi. Çox zaman Manna hökmdarları regionun ən güclü dövləti Assuriya meylli siyasətə üstünlük verirdi və bununla da ölkənin ərazi bütövlüyünü qorumağa çalışırdı.

E.ə.IX əsrin sonunda Assuriyanın zəifləməsindən istifadə edən Manna hökmdarları güclü birlik yaratmağa müvəffəq olmuşdular. Lakin bu dövrdə Manna dövlətinin qərb sərhədlərində Ön Asiyada Urartu dövləti güclənərək Mannanın ən təhlükəli düşməninə çevrilmişdi. Tədricən Urartu dövləti Qədim Şərqin ən güclü dövləti olan assurlulara müqavimət göstərməklə yanaşı özü də Assuriyaya qarşı hücuma keçərək assurları sıxışdırmağa başlamışdı.

Təqribən e.ə. 810-781-ci illərdən etibarən Urartu hökmdarları Manna ölkəsinə yürüşlərə başlayırlar. İlk vaxtlar Urartu yürüşləri basqınçılıq xarakterı daşıyırdı. Onlar assurlar kimi yaşayış məskənlərinə od vurur və qənimət ələ keçirməklə kifayətlənirdilər. Urartuluların Manna əyalətlərinə hərbi yürüşləri I Argişti (təqr. e. ə. 786-764-cü illər) və Argiştinin oğlu II Sarduri dövründə (təqr. e. ə. 760-730-cu illər) müntəzəm şəkil aldı. Məhz həmin dövrdən Urmiyaətrafı torpaqların işğalı urartuluların diqqət mərkəzində olmuşdur. Hökmdar I Argişti hər il Urmiya gölündən cənubdakı əyalətlərə hərbi yürüş edirdi, xüsusilə Buştu əyalətinin bəzi məskənlərini tutaraq zəngin qənimət ələ keçirmişdi. Sonralar Urartunun zəiflədiyi dövrdə Manna

bu əyaləti yenidən geri qaytarmışdı. Aşşurbanapalın kitabəsində Manna tərəfindən tutulmuş şəhərlər arasında Buştu qalasının da adı çəkilir.

E. ə. 774-cü ildən başlayaraq Manna və Urartu arasında mübarizə Urmiya gölündən şimala keçir. I Argiştinin Mannaya hərbi yürüşləri nəticəsində ölkə talan edildi, şəhərlər yandırıldı, Mannanın möhkəmləndirilmiş «hökmdar şəhəri» Şimerihadiri ələ keçirildi. Qaynaqlar II Sardurinin də Mannaya yürüşü, möhkəmləndirilmiş qalası olan Darba şəhərini tutması və orada Urartu canişini qoyması barədə məlumat verir. Darba qalasının Urmiya gölündən şimalda, Urartu ilə həmsərhəd ərazidə yerləşdiyi təxmin edilir. II Sardurinin salnaməsində Puluadi əyalətinə hərbi yürüşdən, Puluadi dağlıq ölkəsinin hökmdarı Kadiau üzərindəki qələbədən də bəhs olunur. Beləliklə, Urartu dövləti Manna dövlətinin bütün sərhədləri boyunca hücuma keçmişdi.

E.ə. VIII əsrin sonu, Qədim Şərqin iki güclü rəqib dövləti - Assuriya ilə Urartu arasındakı mübarizə Manna çarlığının güclənməsinə səbəb oldu. Buna baxmayaraq e.ə.774-dən artıq Manna Urartunun basqınlarına çavab verə bilirdi, hətta əks hücuma da keçirdi. E.ə. 743-cü ildə yenidən güclənən Assuriyanın da Urrtuya ağır zərbə endirməsi ilə Mannaya olan yürüşlər tamamilə kəsildi. Bundan sonra Manna hökmdarlarının əl-qolu açıldı.

Mannaya tez-tez yürüşlər edən Urartunun assurlar tərəfindən darmadağın edilməsi, Mannanın vəziyyətinə müsbət təsir göstərdi. Manna hökmdarı İranzu (ə.ə.740-719) yaranmış vəziyyətdən bacarıqla istifadə etdi. O, Assuriyanın Urartu ilə düçmənçiliyindən məharətlə istifadə edərək assur çarı ilə münasibətləri yaxşılaşdırdı və Urartunun tutduğu Manna vilayətlərini geri ala bildi. Assuriya da, öz növbəsində, Mannanı Urartuya qarşı mübarizədə artıq özünə müttəfiq sayırdı.

Manna **İranzunun hakimiyyət illərində (ə.ə.740-719)** özünün ən parlaq dövrünü yaşayır. Manna hökmdarı İranzunun adı III Tiqlatpalasarın və II Sarqonun e.ə. 738-ci və e.ə.737-ci illərə aid kitabələrində çəkilir. Lakin mənbələrdən məlum olur ki, İranzunun hakimiyyətindən daha oncə də Manna artıq güclü bir dövlətə cevrilmişdi. Cənubi Azərbaycan ərazilərinə basqınlar edən Qədim Şərq hökmdarları öz kitabələrində rəqiblərin qələbələrini deyil, yalnız öz qalibiyytli yürüşlərini təsvir etdiyi üçün, Udakidən İranzuya qədər olan Manna hökmdarları barədə mənbələr susur. Lakin mənbələrdə

Udakidən İranzuya qədər Manna hökmdarlarının adına rast gəlinməsə də, məlum olur ki, İranzunun hakimiyyətə gəldiyi dövrdə Manna artıq Urartu ərazilərinə hücum edərək qonşu vilayətləri özünə tabe etmiş güclü bir dövlət idi. Assuriyanın Mannada hərbi əməliyyatları dayandırması da ölkənin inkişafına təkan vermişdi. Bu dövrdə Assur hökmdarı III Tiqlatpalasarın başı Urartu dövləti və artıq xeyli güclənmiş maday tayfaları ilə mübarizəyə qarışmışdı. III Tiqlatpalasarın e. ə. 744-cü illər və e. ə. 737-ci illərdə midiyalılar əleyhinə apardığı hərbi yürüşlərin yolları Mannanın şərq sərhədləri boyunca keçsə də, onun Manna ərazilərinə toxunmaması, bir tərəfdən Mannanın bir hərbi qüvvə kimi varlığını, eləcə də onun Assuriya ilə dostluq münasibətlərinin yarandığını da göstərir. III Tiqlatpalasar həmin dövrdə Urartu ilə də mübarizə aparırdı və bu mübarizədə sonuncunun zəifləməsi də Mannanın yüksəlişinə müsbət təsir göstərmişdi.

Artıq güclü bir dövlətə çevrilmiş Manna hökmdar İranzunun hakimiyyəti illərində özünün çiçəklənmə dövrünü yaşayır. Bu dövrdə Mannada mərkəzi hakimiyyəti möhkəmkənmişdi, iqtisadiyyat inkişafı etmişdi. Manna Yaxın Şərqdə ən güclü dövlətlərdən birinə çevrilməkdə idi. Manna ilə qonşu olan vilayətlər ona tabe olmuş və ya asılı vəziyyətə düşmüşdülər. Mannanın sərhədləri cənubda Diyala və Kiçik Zab çaylarının yuxarı axarlarına, Parfiya və Midiya hüdudlarına çatırdı, şimalda isə təqribən Xəzər dənizinə və Araz çayından şimala (Hazırkı Naxçıvan Muxtar Respublikasının ərazilərinə kimi) uzanırdı. Ümumiyyətlə, İranzunun dövründə Cənubi Azərbaycanın demək olar ki, bütün əraziləri onun hakimiyyəti altında idi. Hətta Karalla, Allabriya, Andia, Zikertu kimi ucqar bölgələr də Mannanın canişinliyinə çevrilmişdilər. Lakin ölkədə mərkəzi hakimiyyət yaradaraq canişinlik sistemi formalaşdırmış İranzunun hakimiyyətinin sonunda Mannaın mövqeyi bir qədər zəifləyir. Zikertu, Durdukka kimi bir sıra əyalətlər ona qarşı çıxırlar.

Buna baxmayaraq Mannanın müttəfiqi olan Assur hökmdarı II Sarqonun köməkliyilə bu ərazilər yenidən Mannaya tabe edildi. Ümumiyyətlə, bu dövrdə Mannanın xarici siyasətində 2 meyl var idi: Bir tərəfdən İranzu və onun tərəfdarları Assuriyaya müttəfiq kimi baxır, bununla da Manna torpaqlarının bütövlyünü qoruyub-saxlamağa çalışırdılar; Digər tərəfdən isə İranzunun assurpərəst siyasətinə qarşı çıxan qrup isə Urartu ilə ittifaqa meyllənirdilər. Belə parçalanma Mannanın mərkəzləşmiş hakimiyyətini zəiflədirdi. Assuriya

ilə olan müttəfiqlik Manna dövlətini Urartu işğallarından xilas etmiş və ölkənin çiçəklənməsinə şərait yaratmışdı. Lakin İranzunun mərkəzləşdirmə siyasəti Mannaya tabe olub müstəqilliyə cəhd göstərən bəzi hakimlərin və canişinlərin xoşuna gəlmirdi. Bundan istifadə edən Urartu hökmdarı I Rusa narazı Manna canişinləri arasında özünə dayaq axtarmaq və bu yolla da Mannanı zəiflətmək üçün Zikirtu vilayəti kimi bir sıra şəhərlərin canişinləri sazişə girdi. Nəticədə e.ə. 719-cu ildə Mannanın Şuandahul və Durdukka şəhər əhalisi İranzuya qarşı üsyana qalxdı. Lakin Assuriya hökmdarı II Sarqon Manna ilə ittifaqa sadiq qalaraq üsyanı yatırtdı, həmin əyalətlər yenidən Mannaya tabe edildilər.

### *2.4. Mannanın süqutu*

Manna hökmdarı İranzunun ölümündən sonra onun oğulları arasında təqribən e. ə. 719 - 716-cı illər arasında hakimiyyət uğrunda mübarizə başlandı. Manna canişinlikləri arasında Assurpərəst qüvvələrlə Urartu meyilli qüvvələr arasındakı mübarizə gedirdi. Urartu yenə də bu çəkişmələrdən istifadə etməyə cəhd göstərir. Urartu dövləti bu çəkişmələrdən istifadə edərək hələ İranzunun hakimiyyəti dövründə Mannanın bütövlüyünü parçalamağa çalışaraq bəzi canişinlikləri İranzuya qarşı qaldırmağa müvəffəq olmuşdu. Lakin Assur çarının köməyilə bu üsyan yatırdılmışdı.

İranzunun vəfatından sonra hakimiyyətə gələn onun böyük oğlu Aza (e.ə.718-716) atası İranzunun Assuriya meylli siyasətini davam etdirir. Lakin Aza onun hakimiyyəti çox qısa sürdü. Onun qısa hakimiyyəti zamanı Mannada başlanan hakimiyyət uğrunda çəkişmələr parçalanmaları gücləndirdi. Azanın dövründə yenə də Zikertu, Uişdiş, Andia canişinlikləri Urartunun fitnəsinə uyaraq qiyam qaldırdılar. Urartu ilə ittifaq bağlamış Manna canişinləri uişdişli Baqdatti və zikertulu Metatti Azanın əleyhinə çıxdılar. Aza *"çıxılmaz Uauş dağı"*na (müasir Səhənd dagına) çəkilərək düşmənlərinə qarşı mübarizə aparmağa çalışsa da, məğlubiyyətə uğradi. Urartudan kömək alan qiyamçılar e.ə. 716-cı ildə Azanı öldürdülər.

Azanın ölümündən sonra Azanın qardaşı urartupərəst qüvvələr Ullusunu (e.ə.716-680) taxta çıxardılar. Mixi qaynaqların verdiyi məlumata görə, onun hakimiyyətə gəlməsinə Urartu hökmdarı I Rusa kömək etmişdi. Beləliklə, hakimiyyət Urartuya meyl edən qüvvələrin əlinə keçdi. Mannadakı daxili hərc-mərclikdən istifadə

edən Urartu hökmdarı I Rusa Ullusunun 22 qalasını tutdu və mannalı canişinləri, o cümlədən Messi əyalətinin hakimi Dayaukkunu ona qarşı qiyama qaldırdı. Ullusunu olduqca ağır vəziyyətə düşdü və Assuriya ilə müttəfiqliyi kəsərək Urartu ilə yaxınlaşmaq məcburiyyətində qaldı. Bu haqda II Sarqonun kitabəsində deyilir ki, *Mannalı Ullusunu Urartulu Ursaya arxalanaraq Karallalı və Allabriya hakimlərini Assuriya əleyhinə qaldırdı.* Lakin belə vəziyyət uzun sürmədi.

Hakimiyyətə Ullusunun gətirilməsi və onun urartupərəst tərəfdarlarla yaxınlaşması assurları narahat edirdi. Azanın öldürülməsindən hiddətlənən Assur hökmdarı II Sarqon e.ə. 716-cı ildə, mənbələrdə yazıldığı kimi" *Manna ölkəsinin intiqamını almaq və onu Assuriyanın tabeliyinə qaytarmaq üçün"* Mannaya yürüşə başlayır. Ullusunu dağlara qaçır. II Sarqon ilk növbədə Urartunun Mannadan ayırdığı Qızılbunda, Andia, Zakertu, Uişdiş, Subi, Sanqibutu vilayətlərini yenidən Mannaya qatdı**.** Daha sonra Mannanın paytaxtı İzirtunun üzərinə hücuma keçərək şəhəri yandırdı. Mannalılarla qanlı döyüş nəticəsində İzirtu yaxınlığında yerləşən Zibia və Armait qalalarını ələ keçirdi. Manna əhalisinin gözü qarşısında Azanın qatillərindən birini tutub dərisini soydurdu. Mənbələr yazır ki, o, "...Uauş dağında, Azanın meyidini atdıqları yerdə Baqdattinin dərisini soydurub mannalılara göstərdi". Ullusunuya məktub göndərən II Sarqon tələb edir ki, "öz hörmətli aqsaqqalları, qoşun başçıları, məsləhətçiləri, tayfasının özəyi olan adamlar, canişinləri və ölkəsini idarə edən digər rəhbərlərlə birliklə onun qarşısına çıxsın". Məktubda Ullusunudan "öz böyük oğlunu da qiymətli hədiyyələrlə" Sarqonun yanına göndərməsi tələb olunur. Ullusunu Asur hökmdarından əfv diləmək naminə II Sarqonun şərəfinə yazılmış bir daş sütun ucaldır. II Sarqon onu bağışlayır və taxtından məhrum etmir. II Sarqon qiyamçıları cəzalandıraraq Ullusunu isə atası İranzunun hökmdar taxtına əyləşdirir. Ullusunu Assuriyanın siyasi himayəsini tanımaq müqabilində Mannanın hökmdarı olaraq qalır. Bu görüş zamanı Assuriya çarı hətta Ullusununun şərəfinə ziyafət verir. Bu barədə Sarqonun salnaməçiləri onun dilindən yazırlar: "Mən onların ağasına, şahına, Ullusunuya süfrə açdım. Onu atası İranzunun taxtından da yuxarıda oturtdum, onu yüksəltdim. Bu qaynaqdan məlum olur ki, II Sarqon mannalılarla ittifaqa böyük əhəmiyyət verirdi. Ullusunu özündən əvvəlki Manna hökmdarlarına nisbətən Aşşurdan

daha çox imtiyazlar aldı. Artıq II Sarqon Mannanı müttəfiq dövlət adlandırır, Ullusun ilə görüşərkən ona hədiyyələr edirdi.

II Sarqon Ullusunu müdafiə edərək Urartu ilə mübarizədə ona yardım göstərdi. II Sarqonla Ullusunu arasında bağlanan müqaviləyə əsasən II Sarqon Urartunun əlinə keçmiş Manna torpaqlarını almağı Ullusunuya vəd verir. Mannalılar da əvəzində Assuriya qoşunlarını taxıl məhsulları, ot-ələf, at, iri və xırdabuynuzlu heyvanlarla təchiz edirlər. Ullusunu ilə ittifaqa sadiq qalaraq II Sarqon e. ə. 714-cü ildə Urartu üzərinə yürüşə başlayır. Yürüşə gedərkən Ullusunu da Sarqonu təmtəraqla qarşılayaraq hədiyyələr verir, qoşununu döyüş atları, mal-qara ilə təçhiz edir. II Sarqon urartulular tərəfindən zəbt edilən Dayaukkunun tabeliyindəki 22 qala və iki möhkəmləndirilmiş şəhəri Mannaya qaytardı. Uauş dağı yaxınlığındakı döyüşdə urartupərəst qüvvələrin məğlubiyyətindən sonra II Sarqon Urmiya gölünün şimal sahilləri boyu yürüşlər edərək Subi əyalətindəki bir çox qalaları, eləcə də Sanqibutu əyalətindəki zəngin Ulxu şəhərini də Mannaya qaytardı. Assuriya hökmdarı Mannanın Uişdiş vilayətinə gəldi. Məğlub olmuş I Rusa Urartuya qaçdı. Urartu qoşunlarını təqib edən II Sarqon Urartuya daxil oldu. Urartunun əyalətlərinə basqın edərək Urartunun bir çox şəhər və yaşayış məskənlərini dağıtdı, külli miqdarda qənimət ələ keçirdi. I Rusanı tamamilə məğlub edən II Sarqon Urartunun baş tanrısı Xaldinin şəhəri - Musasirdən xüsusilə zəngin qənimət əldə etdi. II Sarqon tərəfindən dagıdılan Həftəvan təpədəki qala e. ə. IV əsrədək dagılmış vəziyyətdə qaldı.

I Rusa bu məğlubiyyətə dözmədi və II Sarqona aid kitabədə yazıldığına görə özünü öldürdü. I Rusanın oğlu II Argiştinin dövründə Urartu şərq əyalətlərini ələ keçirmək üçün yenidən hərbi yürüşlərə başladı. Savalan dağının cənubunda aşkar edilmiş qayaüstü kitabələrdə Arxu əyalətinə hərbi yürüşdən, Uşulu və Buku ölkələrinin işğalından bəhs olunur. Ələ keçirilmiş qalalardan biri Argiştiirdu («Argiştnin canişini») adlandırılır. Lakin buna baxmayaraq artıq tənəzzül mərhələsində olan Urartu dövləti, artıq Manna üçün görünür bir müddət ciddi bir təhlükə təşkil etmədiyi üçün Manna dövləti yüksəliş mərhələsinə qədəm qoyur.

Beləliklə, e.ə.714-dən etibarən Manna dövləti yenidən güclənərək öz yüksəlişinin zirvəsinə çatır. Manna dövləti urartulular tərəfindən ələ keçirilmiş Uişdiş, Subi, Sanqibutu, həmçinin Zikertu, Andiya və Gizilbunda əyalətlərini və qalaları öz ərazisinin tərkibinə qataraq sərhədlərini genişləndirdi bilmişdi. Bundan sonra Urartu bir

daha Mannanın daxili işlərinə qarışa bilmədi. Həmin dövrdən manna-assur ittifaqı yenidən bərpa olundu. Assuriya ilə müttəfiq münasibətlər Mannaya ölkənin ərazi bütövlüyünü yenidən bərpa etməyə imkan verdi. Ölkə işğalçı hücumlardan qorundu.

Ullusununun hakimiyyəti dovründə Mannada böyük məbədləri, sarayları olan yeni qalalar və şəhərlər salınır, sənətkarlıq inkişaf edir. Ölkənin, xüsusilə də Urmiya ətrafında yerləşən şimal vilayətləri, yəni, gələcək Atropatena ərazisini əhatə edən vilayətləri özlərinin ən yüksək iqtisadi inkişaf səviyyəsinə çatmışdılar. E.ə.VII əsrdə Manna çarlığının ərazisi cənubda Diyala çayının yuxarı axarınadək, şimalda Urmiya gölünün şimalınadək uzanırdı. Bu dövrdə Manna o qədər gücləndi ki, hətta Aşşuriya üçün belə təhlükəyə çevrildi. Urartunun zəifləməsi və Assuriya ilə müttəfiqliq mərhələsini yaşayan Mannanın vəziyyəti elə möhkəmləndi ki, Ullusunu hətta Assuriyanın da bir sıra torpaqlarını ələ keçirir. Assuriya hökmdarı Sinaxxerib (e. ə. 705-681-ci illər) Mannaya hücum etsə də, yürüş görünür o qədər də müvəffəqiyyətli keçməmişdi, assurlar ancaq əsir ələ keçirməklə kifayətlənməli olmuşdular.

Beləliklə, Manna tədricən Assuriyanın siyasi üstünlüyünü tanımaqdan imtina etməyə başladı. Artıq II Sarqonun varisləri dövründə Ullusunu Assuriyadan tamamilə üz döndərdi. Manna çarı Urmiya gölünün cənub-şərqində yerləşən Missi vilayətini Mannaya birləşdirilir və onun sərhədlərində Sirdakka, Zirdiakka qalasını tikir.

Mannanın növbəti hökmdarı ***Ahşeri*** (e.ə. 675—650-ci illər) isə Assuriya ilə ənənəvi ittifaqı pozaraq Assuriya dövlətinin tabeliyindən çıxdı. Mannanın Assuriya dövləti ilə ittifaqı pozmagının səbəbi Mannanın e.ə. VII əsrin ortalarında Ön Asiyada yayılmış ***kimmer, iskit və sak*** tayfaları ilə yaxınlaşması oldu. Manna hökmdarı Ahşeri iskitlərlə ittifaqa girərək assuriyalılara qarşı mübarizəni daha da gücləndirdi.

Kimmer və skif tayfaları e.ə. VIII əsrin son rübü- e.ə. VII əsrin əvvəllərindən Qara dəniz sahillərindən hərəkət edərək Qafqaz ərazisindən Ön Asiyaya axın etmişdilər. Onların Manna ərazisində məskunlaşması ilə Assuriyanın sərhədlərinə təhlükə yaranmışdı. E.ə. VII əsrin 70-ci illərində skif hökmdarı İşpaka başda olmaqla skiflər Manna ilə müttəfiq münasibətlər qurmuşdular. «Mannalılar ölkəsinin əyalətlərində» yerləşən kimmerlərin və skiflərin yardımından istifadə edən Ahşeri (e.ə.675-650) Assuriyaya qarşı uğurlu mübarizə apararaq Assuriyanın bəzi ərazilərini ələ keçirdi. Ahşerinin hakimiy-

yəti dövründə mannaılar Assuriya əleyhinə üsyan qaldırmış madaylarla da birlikdə çıxış etdilər. Kaştaritinin başçılıq etdiyi midiyalıların, mannalıların və müttəfiq kimmerlərin qoşunları Assuriyaya qarşı mübarizədə qələbə çaldı

Beləliklə, Ahşerinin dövründə Manna xeyli güclənərək tam müstəqil xarici siyasət yeritmiş, skif– saktayfaları ilə ittifaqda Ön Asiyanın ən güclü dövlətlərindən birinə çevrilmişdi.

Assur çarı Asarhaddon (680-669) mannalıların qarşısını almaqda çətinlik çəkirdi. Onun dövründə Manna öz ərazisini Assuriya torpaqları hesabına genişləndirməkdə idi. Skiflərin Manna çarı Ahşeriyə kömək etməsi sayəsində, e.ə. 674-cü ildən etibarən Assiriya dövləti Mannanı bac-xərac verən bir ölkə kimi, müttəfiq kimi itirmiş oldu. Asarhaddon özünü *"Mannalılar ölkəsinin əhalisini, ram edilməyən kutiləri pərən-pərən salan, onları xilas edə bilməyən müttəfiq-skif İşpakanın qoşununu qılıncdan keçirən"* kimi qələmə versə də Manna ona tabe olmamışdı.

Lakin Mannanın çiçəklənmə mərhələsi uzun sürmədi. Assuriya öz torpaqlarında Mannanın qələbə çalması ilə barışa bilmirdi. Mannalıların hücumlarının artması əməliyyatlarının güclənməsi Asarhaddonun Mannaya qarşı yürüşə çıxmasına səbəb oldu. Lakin assurlar öz qüvvələrinə o qədər də əmin deyildilər. Assur hərbi başçılarından biri Asarhaddona məsləhət görür ki, ordunun hamısını birdən Manna ərazisinə yeritməsin. O, təklif edir ki, hər ehtimala qarşı geri çəkilmək hadisəsi baş verərsə qoşunun sığına bilməsi üçün hərbi əməliyyatlar bölgəsində qala tikilsin.

Asarhaddon iskit-manna ittifaqını pozmaq üçün öz düşmənləri ilə danışıqlar aparmaq qərarına gəlir, məqsəd onların birliyini parçalamaq idi. O, madayların və ehtimal ki, mannalıların da yanına qasid göndərərək onları öz tərəfinə çəkməyə cəhd göstərir. E.ə.672-ci ildə İskit çarı Partatuta ilə yaxınlaşıb siyasi ittifaqını daha da möhkəmlətmək üçün öz qızını da ona ərə verməyi təklif edir. Bundan sonra iskitlər Mannadan üz döndərdilər və Mannaya qarşı hücuma keçmək qərarına gəlir. Bu, Mannanın sonrakı siyasi vəziyyətinə ciddi təsir göstərdi.

Beləliklə, Manna kimmerlər, skiflər və madalılarla mövcud olan ittifaqı sayəsində xeyli dərəcədə gücə və qüdrətə malik olsa da, e.ə.VII əsrin 70-ci illərinin sonlarına doğru skiflərin bir qisminin xəyanəti nəticəsində bu ittifaq dağıldı. Assuriya iskit-manna ittifaqını pozmaq üçün skifləri parçalamağa nail olur. Skiflərin bir qismi

İşpakay başda olmaqla mannalılarla ittifaq münasibətlərini davam etdirsələr də, Partatutanın ardinca gedən skiflər assurluların tərəfinə keçərək Asarhaddona mannalılara zərbə endirməkdə yardım etdi.

**Aşşurbanipalın yürüşü**. Aşşurbanipalın hakimiyyəti dövründə (668-627-ci illər) Aşşurbanapal əvvəlcə sülh yolu ilə Manna tərəfindən zəbt edilmiş Assur qalalarının qaytarılmasına cəhd göstərir. Lakin Assuriya torpaqları sülh yolu ilə qaytarılmadı. Assuria hökmdarı Aşşurbanipal (e. ə. 669-627-ci illər) onu cəzalandırmaq üçün Mannaya qoşun yeritdi. E.ə. 650-ci ildə Ahşerinin və Aşşurbanipalın qoşunları arasında döyüş baş verdi və mannalılar çox ağır məğlubiyyətə uğradılar. Assuriya hökmdarı Mannanın Allabria əyalətini və Assuriya ilə qonşuluqda yerləşən bir sıra şəhər və qalalarını, paytaxt İzirtunu tutub dağıtdı. Aşşurbanipal məlumat verir ki, o Ahşerinin əyalətlərini talayıb dağıtdı, onun ölkəsini kiçiltdi, böyük qənimət və hədiyyələrlə Assuriyaya qayıtdı. Əhalini, mal-qaranı və at ilxılarını qənimət kimi apardı. Assur kitabələrində "Saysız-hesabsız kiçik yaşayış məskənləri ilə birlikdə səkkiz möhkəmləndirilmiş şəhər Su, Busutu, Aşdiaş, Urkiyamun, Sixua, Naziniri, o cümlədən Urmeyate, Uzbia qalalarını və paytaxt İzirtunu əhatə edən yaşayış məskənləri" *nin* qarət edilməsi və yandırılması barədə məlumat verilir.

**Ahşeriyə qarşı üsyan.** Bu məğlubiyyətdən sonra mannalılar, öz mülklərini itirən torpaq sahibləri, Manna əyanları qiyam qaldıraraq Ahşerinın əleyhinə çıxdılar. Bu üsyan Ahşerinin xarici siyasətinə qarşı idi. Ahşerinin əleyhdarları assurlarla yenidən ittifaq qurmaq tərəfdarları idilər. Çar Ahşeri paytaxtı tərk etməyə məcbur oldu və üsyançılar tərəfindən öldürüldü. Qaynaqlarda yazılır ki, "ölkə əhalisi onun cəsədini şəhər boyu sürütlədilər. Onun qardaşlarını, ailəsini, nəslini qılıncdan keçirdilər" .

Hakimiyyətə Ahşerinin oğlu **Ualli** (e.ə. 650-630) gəldi. Uallinin hakimiyyətə gəlməsilə Assuriya ilə ittifaq yenidən bərpa edildi. Assuriyanın himayəsini yenidən qəbul edən Ualli assurların tələb etdiyi bütün xəracları ödədi və əlavə olaraq daha 30 at bac olaraq verdi. Oğlu Erisinini və qızını Assuriya hökmdarına girov göndərdi. Buna cavab olaraq Aşşurbanipal Mannaya özünün sülh elçisini göndərir. Beləliklə, bu dövrdən etibarən mannalılar Assuriya ilə ittifaqda qalmağa məcbur oldular. Manna dövləti e.ə.VII əsrin sonunadək, yəni öz süqutuna qədər Assuriyaya -Nenəva hakimlərinə sadiq qaldı.

E.ə. VII ortalarında Ön Asiyanın qüdrətli dövləti olan Assuriya özünün süqut mərhələsinə qədəm qoydu. E.ə. 653-652-ci ildə də Babilistan Assuriyaya qarşı çıxdı. Assuriyaya qarşı mübarizədə babillərə bir sıra xalqlar, o cümlədən midiyalılar da qoşuldu. E.ə. 626-cı ildə Babilistan Assuriyanın əsarətindən qurtularaq Yeni Babilistan çarlığını qurdu. Babilistanla ittifaqa girən midiyalılar da Kiaksarın başçılığı altında öz dövlətlərini qurdular. Beləliklə, e.ə.VII əsrin axırıncı rübündən Midiya və Babilistan qədim dünyanın qüdrətli dövlətlərinə çevrilirlər.

Manna dövləti Assuriyanın Babilistanla son müharibəsinədək Assuriyanın müttəfiqi olaraq qalmaqda idi. E.ə.616-cı ildə Babilistan çarı Nabopalasar (e.ə.626-604) Fərat çayı yaxınlığında asur-manna qoşunlarını darmadağın etdi. Assuriyanı ağır məğlubiyyətə uğradan Babil hökmdarı Nabopalasar assur əyanlarını və onlara köməyə gələn mannalları əsir aldı. Bu döyüşdən sonra Mannanın taleyi haqda mənbələrdə məlumatlara rast gəlinmir.

E.ə. 614-612-ci illər boyu babillər və midiyalılar assurlara sarsıdıcı zərbələr endirməyə davam etdilər. Nəticədə imperiyanın mərkəzi şəhərləri olan Assur və Nineva şəhərlərini ələ keçirən babil-maday birliyi Assuriyanın varlığına son qoymağa müvəffəq oldu. Assuriyanın süqutundan sonra Qədim Şərqdə madaylar yeni qüdrətli dövlətin əsasını qoydular. Midiyadan asılı bir dövlət kimi də olsa Mannanın bir müddət öz müstəqilliyini saxladığı və təxminən e. ə. 615-610-cu illər arasında süqut etdiyi ehtimal edilir. Manna sonuncu dəfə mənbələrdə 593-cü ildə xatırlanmışdır. Mannanın adı çəkilən sonuncu yazılı mənbə Bibliyadır. Mənbədə Urartu dövləti, Manna və skiflər e. ə. 593-cü ildə midiyalılar və Babil əleyhinə çıxışa çağrılırlar. Təxminən e.ə. 590-cı ildə Manna İranın mərkəzində yaranmış Midiya dövlətinin tərkibinə daxil edildi.

### *2.5. Mannanın təsərrüfat həyatı*

Manna dövləti iqtisadi və mədəni cəhətdən qədim ənənələri olan bir ərazidə meydana gəlmişdi. Cənubi Azərbaycan ərazisinin Urmiya bölgəsi iqtisadi-mədəni baxımdan qonşu ərazilərdən daha üstün idi. bölgədə ibtidai icma cəmiyyətinin dağılması və erkən dövlətin yaranması prosesi daha tez baş vermişdi. Azərbaycanın təbii-coğrafi şəraiti qədim dövrlərdən burada əkinçilik mədəniyyətinin inkişaf etdirilməsi üçün əlverişli imkan yaratmışdır. Azərbay-

canın bütün ərazilərində olduğu kimi, Urmiya gölü ətrafında yaşayan qədim tayfaların da əsas peşəsi oturaq əkinçilik və maldarlıq olmuşdur. Torpağın münbit məhsuldar olması, su ehtiyatının çoxluğu, geniş otlaqlar mülayim iqlim burada əkinçilik və malqarlıq təsərrüfatının geniş miqyas almasına imkan vermişdir.

Yazılı mənbələr və Cənubi Azərbaycan ərazisində Həsənli, Ziviya, Göytəpə kimi abidələrdən aşkar edilmiş zəngin arxeoloji materiallar Mannanın iqtisadi cəhətdən yüksək inkişafını təsdiq edir. E. ə. I minilliyin əvvəllərində Cənubi Azərbaycanda Urmiya ətrafı bölgədə əsas təsərrüfat növləri əkinçilik və maldarlıq olaraq qalmaqda idi. Bölgənin əlvereişli iqlim şəraiti, bol su ehtiyatı qədim dövrlərdən bəri təsərrüfatın inkişafı üçün şərait yaratmışdı. Xüsusilə Urmiya gölünə tökülən Cağatu və Tatay çaylarının vadiləri çox münbitliyi ilə fərqlənirdi. Münbit və bol sulu dağətəyi ərazilərdə, yamaclarda əkinçilik, xüsusilə də dəmyə əkinçiliyi yayılmışdı. Burada suvarma əkinçiliyindən və su təchizatında kəhriz sularından da istifadə olunurdu.

### *2.5.1. Əkinçilk*

Manna iqtisadiyyatında əkinçilik çox mühüm yer tuturdu. Bölgədə aparılan arxeoloji qazıntılar, xüsusilə Həsənlidə aparılan arxeoloji qazıntıların nəticələri Manna dövlətinin iqtisadiyyatında əkinçiliyin çox mühüm yer tutduğunu söyləməyə əsas verir. Arxeoloji tədqiqatlardan məlum olmuşdur ki, burada iki və altı cərgə arpa, bir neçə növ buğda və darı yetişdirilirdi. Qazıntılar nəticəsində içərisində müxtəlif kənd təsərrüfatı məhsullarının qalığı olan anbarlar aşkar edilmişdir.

Qədim əhalinin əsas məşğuliyyət növü əkinçilik olduğuna görə bölgədə əkinçilik texnikası yüksək səviyyədə inkişaf etmişdi. Burada iki və altı cərgə arpa, bir neçə növ buğda və darı yetişdirilirdi. Xüsusilə dəmir dövründən sonra əkinçilik alətləri təkmilləşdirilməyə başlandı. Torpağın şumlanmasında xışdan, dəmir toxadan istifadə edilmişdi, taxıl dəmirdən hazırlanmış oraq və başqa istehsal alətləri ilə biçilirdi. Tarlalar ağac kotanla, dəmir toxa ilə şumlanırdı. Həsənlidə qazıntı zamanı dəmir toxalar və dəmir oraq tiyələri tapılmışdır. Taxılın daşınmasında isə ikitəkərli və dört təkərli arabalardan istifadə edilmişdir.

Mannanın təsərrüfat həyatı haqqında II Sarqonun e. ə. 714-cü ildə Urartuya qarşı yürüşünün təsvir edildiyi kitabədə daha çox məlumat verilir. Mənbədə Manna və onun tabeliyindəki vilayətlərdə arpa ilə dolu anbarların ələ keçirilməsindən, zəngin əkinçilik məskənlərinin var-yoxdan çıxarılıb xaraba qoyulmasından danışılır. Assur mənbələrində Urmiya gölü hövzəsindəki saysız-hesabsız arpa və buğda saxlanılan anbarlardan, taxıl zəmilərindən yazılırdı. Mannalıların buğda arpa, darı, vələmir və s. dənli bitkilər yetişdirmiş və onları xüsusi anbarlarda saxlamışlar.

İstilaçının keçdiyi bütün yol boyunca yürüş zamanı qoşunu dolandırmaq üçün mannalılar qoşunu ərzaqla təmin etməyə məcbur idilər. Məsələn, mənbədə deyilir ki, Manna çarı Ullusunu Zirdakka qalasında II Sarqonun qoşununu yedirib içirmək üçün anbarlara un və şərab doldurmuşdu. Zikirtu ilə döyüşə hazırlaşanda da II Sarqon Mannanın Panziş qalasına yağ, dən, şərab yığdırmışdı. Mannadan illik bac olaraq hər il başqa şeylərlə yanaşı taxıl da alınırdı. Uişdiş və Sanqibutu vilayətində müharibə ehtimalına qarşı və ya qıtlıq illəri üçün çoxlu taxıl ehtiyatı var idi. Mənbədə "ölkəni və camaatı dolandırmaq üçün" anbarlara yığılan arpa və buğda ehtiyatından bəhs edilir.

II Sarqonun kitabəsindən məlum olur ki, Mannada arpa ilə dolu anbarlar var idi. Mənbə yazır : *"... onun ölkəni və camaatı dolandırmaq üçün uzun müddət anbarlara vurduğu bərəkətli arpa və buğda ehtiyatını qoşunumun atları, qatırları, dəvələri və ulaqları ilə daşıtdırıb öz düşərgəmdə qalaq-qalaq yığdırdım"*. Assuriya çarları basqın etdikləri ərazidən bac olaraq hər il qiymətli metal əşyalarla yanaşı taxıl da alınırdı. Uişdiş və Sanqibutu vilayətində, görünür, müharibə ehtimalına qarşı və ya qıtlıq illəri üçün yaradılmış çoxlu taxıl ehtiyatı var idi. Manna çarı Ullusunun Zirdakka qalasında un və şərabla dolu anbarlardan və ya Mannanın Panziş qalasındakı yağ, dən, şərab ehtiyatından bəhs edilir. Şəhərlərdə belə böyük anbarlar olduğunu arxeoloji qazıntılar da sübut edir. Bu ərazilərin içərisində müxtəlif kənd təsərrüfatı məhsullarının qalığı olan anbarlar aşkar edilmişdir.

Azərbaycanda süni suvarma tələb etməyən, yüksək səviyyəli kotan əkinçiliyi mövcud idi. Azərbaycan ərazisində süni suvarma əkinçiliyi də qədim dövrlərdən etibarən geniş tətbiq edilirdi. Ölkədə yüksək texnikaya malik olan süni suvarma sistemi mövcud olmuşdur. Suvarma sistemində saxsıdan hazırlanmış xüsusi biçimli borulardan

istifadə edilirdi. Az yağıntılı ərazilərdə suvarma arxlarından da istifadə olunurdu.

Geniş süni suvarma şəbəkəsi bağçılıq və üzümçülüklə məşğul olmağa da şərait yaradırdı. Mannalılar üzümçülk, bağçılıq və bostançılıq təsərrüfatlarına, onların sirlərinə də bələd olmuşlar. II Sarqon Sanqibutu vilayətində «böyük, qamış kimi sıx bitən ağacların», meyvə bağlarının və üzümlüklərin olduğunu yazırdı. II Sarqon üzüm tənəklərini «dağların pöhrəlikləri» adlandırır.

Mannanın təsərrüfat həyatında **şərabçılıq** inkişaf etmiş sahə idi. Mənbələr Manna ərazisindəki şəhərlərin hər birində şərab anbarlarının olmasını xəbər verirlər. Şərab saxsı küblərdə saxlanılırdı. Burada şərabçılıq inkişaf etmiş sahə idi. Mənbələrdə Mannanın vilayətlərindəki şərab ehtiyatlarından, xüsusilə də Zirdakka və Panziş qalasındakı qalalarında *şərabla dolu anbarlardan,* Ulxu şəhərindəki şərab zirzəmilərimdəki *"irili-xırdalı tuluqlardakı ləzzətli şərabından" bəhs edilir*. Mənbələrdən məlum olur ki, II Sarqon Ulxu şəhərini alarkən onun qonşuları gizli şərab zirzəmilərinə girmiş və «irili-xırdalı tuluqlardan ləzzətli şərabı çay suyunu içən kimi içmişlər». Mannanın digər vilayətlərində də şərab ehtiyatları var idi. Həsənlidə qazıntı zamanı aşkara çıxarılan məskəndən bu cür şərab anbarları, onların içərisində isə torpaq döşəməyə basdırılan şərab küpləri tapılmışdı. Həsənli ərazisindən şərab çəkmək üçün olduğu ehtimal edilən üzümlə dolu qablar tapılmışdır.

### *2.5.2. Maldarlıq*

Azərbaycanın əlverişli iqlim və münasib təbii-coğrafi şəraiti burada çox qədim dövrlərdən bəri maldarlığın inkişafına əhəmiyyətli təsir göstərmişdi. Zaqros dağları ətrafında geniş təbii otlaqlar vardır və buradakı biçənəklərlə böyük mal-qara sürüləri saxlamaq mümkündür. Cənubi Azərbaycanın, xüsusilə şimal-qərb hissəsi - Qaradağ ilə Muğan düzü arası ərazilər otlaqlarla zəngindir.

Manna ərazisində əkinçilikdən sonra ikinçi təsərrüfat sahəsi maldarlıq olmuşdur. Mənbələrdə Manna ərazisindəki mal-qara sürüləri, at-dəvə ilxıları, məşhur cins atlar barədə məlumatlar var. Maldarlıq ölkədə təsərrüfatın ən mühüm sahələrindən biri idi. Assurların yürüşləri zamanı adətən çoxlu qaramal və davar da aparılardı. II Aşşurnasipal Daqara ölkəsindən və bütün Zamuanın çarlarından bac olaraq "at, qaramal və davar" almışdı. Mannalılar Assuriya ordusunu

taxıl məhsulları ilə, at, iri və xırda buynuzlu mal-qara ilə təmin edirdilər.

Manna ərazisində Azərbaycanın maldarlıq ənənələrinə uygun olaraq köçəri maldarlıq təsərrüfatı mövcud idi. Burada ilin müəyyən fəsillərində yaylaq və qışlaq yerlərinə köç edilən köçəri maldarlıq təsərrüfatı, yəni yaylaq maldarlığı inkişaf etmişdi. Mal-qara yazda dağlara sürülür, payızda vadilərə gətirilirdi. Mənbələrdə, assurların hücumu zamanı yerli əhalinin mal-qaranın heç olmazsa bir qismini qarətdən xilas etmək üçün, sürülərini dağlara ötürməsi, yəni yaylağa çıxarması haqda məlumatlar var. Lakin assur mənbələrində də yazıldığı kimi, assurlar dağlara sürülən mal-qaranı da bəzən ələ keçirib geriyə, düzənlik ərazilərə qaytarırdılar.

Urartu çarları yürüşlərinin vaxtını yaylaq maldarlığı dövrünə uyğun salardılar. Daha çox qənimət ələ keçirmək mümkün olsun deyə, yürüşlər ya mal-qara dağlara sürülənə qədər, ya da dağdan qaytarılandan sonra edilirdi. Həsənli ərazisindəki qədim qalanın dağıdılması da yayın sonuna təsadüf etmişdi. Düşmən qoşunları hücum edəndə yerli əhali var-yoxunun heç olmazsa bir qismini qarətdən xilas etmək üçün, adətən mal-qarasını dağlara ötürürdü. Assuriya mənbələrində dağlara sürülən mal-qaranın ələ keçirilib geriyə, yəni vadilərə qaytarılması barədə xeyli məlumat var. Assuriya istilaçıları yürüşlər zamanı daha çox mal-qara ələ keçirməkdə maraqlı olduqları üçün yürüşlərin təsvirinin sonunda adətən çoxlu qaramal və davar aparıldığı haqqında məlumat verilirdi. Assuriya hökmdarı Şamşi-Adad Messi vilayətində, Mannanın özündə və başqa vilayətlərdə qaramal, davar, qoşqu atları və dəvələr ələ keçirdiyini yazırdı. II Aşşurnasipal Daqara ölkəsindən və bütün Zamuanın çarlarından bac olaraq «at, qaramal və davar» tələb edirdi. III Salmanasar ilk dəfə Mannanın adını çəkəndə buradan «saysız-hesabsız qaramal və qoyun» ələ keçirdiyini söyləyir. I Argiştinin kitabəsində Mannadan külli miqdarda mal-qara- 2411 baş qaramal, 6140 baş davar, 170 at və 62 dəvə ələ keçirildiyi barədə məlumat verilir. I Argiştinin oğlu II Sardurinin kitabəsində bir neçə vilayətdən, o cümlədən Puluadidən ələ keçirilən mal-qara sadalanır. Puluadi ölkəsinə bir yürüş zamanı təqribən 1400 baş at, 1200 başdan çox qaramal və 18 min başdan çox davar, 115 baş dəvə ələ keçirmişdi. III Salmanasarın Manna haqda verdiyi ilk məlumatda Mannadan "saysız-hesabsız qaramal və qoyun" ələ keçirdiyi yazılır. I Argişti də Azanın hakimiyyəti dövründə Mannadan külli miqdarda mal-qara ələ keçirir.

I Argiştinin oğlu II Sardurinin kitabəsində də Mannanın bir neçə vilayətindən, o cümlədən Puluadidən mal-qara ələ keçirildiyi yazılır. V Şəmsi-Adad Messi vilayətində, Mannanın özündə və başqa vilayətlərdə qaramal, davar, qoşqu atları və dəvələr ələ keçirmişdi.

Mixi yazılardan məlum olur ki, Manna ərazisində dəvəçilk də çox inkişaf etmişdi. Mənbələrdə dəvə çox az xatırlansa da, onlardan, adətən, yük heyvanı kimi, xüsusilə də torpaq sədlərin düzəldilməsində və kanalların çəkilməsində istifadə olunduğu məlumdur. Urartu kitabələrində hökmdar I Rusanın torpaq sədlərin düzəldilməsində və kanalların çəkilməsində dəvələrdən istifadə etməsi barədə məlumat verilir.

Mixi yazılardan Manna ərazisində qaramal, davar saxlanılması ilə yanaşı atçılığın mühüm yer tutduğu məlum olur. Manna çarlığının vilayətlərində atçılığa çox böyük əhəmiyyət verilirdi. At Qafqazda və Ön Asiya vilayətlərində ən azı e. ə. III minillikdən məlum idi. Tədricən daha geniş yayılmağa başlayan atçılıq sahəsi, iqtisadiyyat və hərbi işdə aparıcı mövqe tutmağa başlayır, bəzi əyalətlər atçılığın inkişafı üzrə ixtisaslaşır. Mənbələrin verdiyi məlumata görə, Manna vilayəti Subinin əhalisi at yetişdirməkdə xüsusilə mahir idi. II Sarqonun kitabəsində yazılır ki, Subi *vilayətində yaşayan adamların süvari qoşun üçün at əhliləşdirməkdə tayı-bərabəri yoxdur.* Assuriya hökmdarı Subi vilayətinin Sanqibutu ilə həmsərhəd bölgəsi Uşkaya ilə Tarmakisa (indiki Təbriz) qalaları arasında yerləşən Aniaştaniya məskənini "ilxılar evi" adlandırır. Assuriya qaynaqlarından məlum olur ki, Urmiyaboyu vilayətlərinin bəzi vilayətlərdən bac olaraq ancaq at alınırdı. Mannaya yürüş etmiş bütün assur çarları *"Mannalılardan qoşqu atları bac aldığı"* barədə məlumat verirdi. Zamuadan, Gilzandan, Messidən, Gizilbundadan Assuriya çarına qoşqu atları göndərirdilər. II Sarqona Gizilbunda vilayətindən Mannanın Zirdiakka qalasına qoşqu atları, saysız-hesabsız qaramal və davar gətirirdilər. Manna hökmdarı Ullusun da II Sarqona *"qoşqu ləvazimatı ilə birlikdə qoşqu atları"* hədiyyə etmişdi.

Mannanın təsərrüfat həyatında atın əhəmiyyətinin güclənməsi köçəri maldarlığın inkişafı ilə bağlı idi. Mal-qaranın sayının çoxalması otlaqların genişlənməsinə, bu da, öz növbəsində, sürülərin yaşayış məskənlərindən daha uzaq otlaqlara sürülməsinə səbəb olurdu. Belə köçlər zamanı at köç yurdlarını yaşayış məskənləri ilə birləşdirən əsas nəqliyyat vasitəsinə çevrilirdi. Urmiya gölünün şimal-şərq əyalətlərinin təbii şəraiti – təbii otlaqlar olan alp çəmən-

likləri və münbit vadilər atçılığın inkişafına imkan yaradırdı. Atçılıq iqtisadiyyat və hərbi işdə tədricən aparıcı mövqe tuturdu.

E.ə. II-I minilliklərdə və xüsusilə I minilliyin əvvəllərində minik atından hərbi məqsədlər üçün istifadə edilməyə başlanmışdı. Arxeoloji materiallardan məlum olur ki, döyüşçülərin məzarları ilə yanaşı, atlar üçün də ayrıca dəfn kameraları qurulurdu. Həsənli abidəsindən e. ə. IX əsrə aid təbəqədən üzərində at və atlı təsviri olan ağac barelyef də tapılmışdır. Buradan kəm[1] və bər-bəzəkli qoşqu şeyləri ilə birlikdə dəfn edilən at da tapılmışdır. At dəfn etmək ümumiyyətlə, Azərbaycanda geniş yayılmış bir adət idi. Qədim qəbirlərində at skeletlərinə rast gəlinir. Mərlik bölgəsində ayrı-ayrı at qəbirləri aşkar edilmişdir. Döyüşçü məzarları ilə yanaşı, atlar ayrıca dəfn edilirdi. Bu ata xüsusi münasibət bəsləndiyini, hətta ona müəyyən dərəcədə sitayiş edildiyini göstərir.

Həsənli ərazisindəki arxeoloji qazıntılar zamanı tapılan qızıl və gümüş camların üzərindəki biratlı və ikiatlı arabalar olan təsvirlər Mannada təkərli nəqliyyat, at minmə nəqliyyatının geniş yayıldığını göstərir. Təsirlərdəki iki atlı arabaların təkərlərində Assuriya və Urartu arabalarında olduğu kimi altı dəndənə[2] vardı.

Beləliklə, Mannanın vilayətlərində əkinçiliklə yanaşı, maldarlıq və atçılıq da geniş surətdə inkişaf etmişdi Qəbirlərdən, adətən keçi və qoyun sümükləri də aşkar edilmişdir. Qazıntı zamanı aşkar edilmiş əşyalar arasında at, qoç və buzov başı formasında məharətlə hazırlanmış ritonlar[3] vardır.

### *2.5.3. Sənətkarlıq*

Manna ərazisində zəngin faydalı qazıntılar, qızıl, gümüş, mis, dəmir, qurğuşun yataqları olduğu barədə mənbələr məlumat verirlər. Mannanın bu təbii sərvətləri olkədə sənətkarlığın inkişafına geniş vüsət vermişdi. Yaxın Şərq əhalisinə metallar, onların istehsalı və emaletmə sənəti çox yaxşı məlum idi. Yerli sənətkarlar bütün material növlərindən istifadə edir, metal, ağac, sümük, gil və daşdan müxtəlif məmulatlar hazırlayırdılar. Qədim sənətkarlar əsasən, təbii ehtiyatların onlara verdiyi imkanlardan faydalanmışlar. Yüksək

---

[1] Yüyənin atın ağzına keçirilən dəmir hissəsi.

[2] Araba təkərinin əsas hissəsi - təkər çevrəsi ilə topu birləşdirən millər.

[3] Su içmək üçün qablar.

keyfiyyətli sənətkarlıq məhsulları ticarətin, o cümlədən beynəlxalq ticarətin inkişafına, eyni zamanda şəhərlərin yaranamasına və inkişafına səbəb olurdu. Mannanın ərazisindəki faydalı yeraltı və yürüstü sərvətlər, həmçinin qiymətli metallar və daşlar, daş və ağac tikinti materialları hələ qədim zamanlardan, Aratta dövründən etibarən İkiçayarası hökmdarlarının diqqətini cəlb edirdi. Kitabələrdə ələ keçirilmiş qənimətlər sırasında qızıl, gümüş, mis, qurğuşun və s. adı çəkilir. II Aşşurnasipal məlumat verirdi ki, basqınlar zamanı bu vilayətlərdən Assuriyaya sənətkarlar da aparırdı.

Urmiya gölü hövzəsində hələ e.ə.II minilliyin sonlarında dulusçuluq, toxuculuq, zərgərlik, silahqayırma, misgərlik, dəmirçilik, bənnalıq, həmçinin memarlıq, ağac işləmə, heykəltəraşlıq kimi incəsənət sahələri də yüksək səviyyədə inkişaf etmişdi. Arxeoloji qazıntılar zamanı aşkar edilmiş materiallardan məlum olur ki, Mannanın müxtəlif şəhərlərində sənətkarlıq emalatxanaları vardı.

Cənubi Azərbaycan ərazisində aparılan arxeoloji qazıntılar zamanı Həsənli, Marlıqtəpə, Ziviyə kimi yaşayış məskənlərindən aşkar edilmiş qızıl, gümüş, mis qab-qaçaq, bəzək əşyaları qədim Azərbaycan sənətkarlarının yüksək bədii zövqə malik olduğunu göstərir. Cənubi Azərbaycan ərazisindən e.ə. I minilliyin əvvəllərinə aid edilən tapıntılar bu ərazidə yaşamış əhalinin sənətkarlıq istehsalının yüksək səviyyəsi barədə məlumat verir. Aşkar edilmiş arxeoloji materiallar - tapılmış əşyaların bəzilərinin qeyri-adi incəliyi və zərifliyi də sənətkarların çox böyük zövqə malik olduqlarını göstərir.

**Metalişləm**ə. Mannada qiymətli metallardan müxtəlif əşyaların hazırlanması ənənəsinin kökü Aratta dövrünə gedib çıxır. Həsənli arxeoloji məskənində aşkar olunmuş müxtəlif metal əşyalar burada qızıl, gümüş, tunc və mis əşyaların hazırlanması sahəsində peşəkar sənətkarlar yetişdiyini söyləməyə əsas verir. Qazıntılar mannalıların metaləritmə və tökmə sənətini də mənimsədiyini göstərir. Manna ərazisindən aşkar edilmiş xəncər, tuncdan və dəmirdən ox ucları, tuncdan şiş və tunc daraqlı döyüşçü dəbilqələri xüsusilə də silahqayırma sahəsinin yüksək səviyyədə olduğunu göstərir. Qazıntılar zamanı Həsənli məskənindən bir sıra əkinçilik alətləri tunc və dəmir toxalar, dəmir tiyəli oraqlar, hətta tunc kotanlar da aşkar edilmişdir.

Marlıktəpə abidəsindən aşkar edilmiş materiallar bu bölgənin qədim əhalisinin metal məmulatı istehsalında yüksək sənətkarlığa nail olduqlarını göstərir. Xüsusilə də,Marlık yaxınlığında yerləşən

Puluadi[1] əyaləti metal və metal məmulatı istehsalı üzrə ixtisaslaşmışdı. Puluadi əyalətinin adını Ön Asiyanın bir çox dillərində mövcud olan pulad («polad») sözü ilə əlaqələndirilir. Bu söz metal və metal məmulatı istehsalı ilə məşğul olmuş tayfaların və ya yerlərin adından, burada isə məhz Urartu mənbələrində adı çəkilən Puluadi ölkəsinin adından yaranmışdır. Həqiqətən də bu ölkənin lokalizə edildiyi rayonda indi də mis, qurğuşun, dəmir də s. metallar çıxarılır. Qədim sənətkarlar əsasən, təbii ehtiyatların onlara verdiyi imkanlardan faydalanmışlar. Puluadi əyaləti ilə yaxın qonşuluqda yerləşən Marlık tapıntıları onların metal məmulatı istehsalında yüksək sənətkarlıq səviyyəsinə nail olduqlarını göstərir. Həsənlidən tapılmış qızıl və gümüş məmulatları, xüsusilə də, qurbanvermə mərasim ayininin təsvir edildiyi qızıl cam və üzərində qələbə səhnəsinin əks etdirildiyi qızıl və gümüş qatışığından düzəldilmiş reylefli təsvirlərin olduğu gümüş qədəh, həmçinin Marlıkdan tapılmış üzərində qrifonların və qanadlı öküzlərin təsvirləri olan qızıl əşyalar Manna sənətkarlarının yüksək məharətini göstərir.

Ziviyədə (qədim Zibiya)[2] aşkar edilmiş Manna sənətkarları tərəfindən hazırlanmlş zəngin zərgərlik əşyaları[3] (e.ə.VIII-VII əsrlər)isə Mannada zərgərlik sənətinin yerli ənənələrlə yanaşı və Yaxın Şərq ənənələrindən də təsirləndiyini göstərir. Manna ərazisindən aşkar edilən əşyaların bəzisində Assuriya, Urartu və ya skif sənətkarlıq ənənələrinin təsiri hiss olunur. Yaxın Şərq üçün səciyyəvi olan mürəkkəb süjetli təsvirlər sənətkarlıq məmulatları Manna sənətkarlıq nümunələri üçün də xarakterik idi. Həsənlidəki qədim qalan ərazisindən aşkar edilmiş sənətkar emalatxanası, emalatxananın tökmə üsulu ilə hazırlanmış tunc dirəkcikləri, baltalar, qəlib parçaları, habelə bəzək əşyaları hazırlamaq üçün olan qəliblər, məmulatların mükəmməlliyi və forma rəngarəngliyi yerli sənətkarlığın burada ən qədim vaxtlardan yüksək inkişaf səviyyəsini göstərir. Müxtəlif vilayətlər və dövlətlər arasında qədimdən mövcud olan

---

[1] Bu əyalətin adı Ön Asiyanın bir çox dillərində mövcud olan pulad ("polad") sözü ilə əlaqələndirir.

[2] Ziviyə (Zibiya) Manna qalalarından idi.

[3] Ziviyə dəfinəsindən qızıl tac, kəmər, mücrü, qalxan və qılınc dəstəyinə bəzək kimi çəkilən qabarıq qızıl üzük, dəmir qılınclar, qılınc qını və dəstəyi, at qoşqu ləvazimatının gümüş və tuncdan hissələri, qızıl gümüş məişət əşyaları, gümüşdən hazırlanmış ritonlar kimi qiymətli əşyalar aşkar edilmişdir. Ümumilikdə Ziviyə dəfinəsində qızıl, gümüş və fil sümüyündən hazırlanmış 341 əşya aşkar edilib.

qarşılıqlı əlaqələr sənətkarlıqda oxşarlıq və təqlidə də yol açmışdı. Mövcud quru yollarından başqa, Diyala və Habur çayları kimi su yolları da Assuriya ilə əmtəə mübadiləsinə kömək edirdi. Yaxın Şərqi Egey sahilləri ilə birləşdirən yollar arasında Azərbaycandan Trabzona, oradan da Qara dənizlə qərbə gedən yollar böyük əhəmiyyətə malik idi.

Yazılı qaynaqlar Assur hökmdarlarının bu ərazilərdən, xüsusilə də, Gilzan, Zamua vilayətlərindən qiymətli metallardan hazırlanan əşyaları qənimət kimi ələ keçirdiyini yazır. Mənbələrdən Assuriya hökmdarlarının, məsələn, III Salmanasarın Gilzandan bac kimi gümüş, qızıl, qurğuşun, həmçinin mis qablar aldığını, V Şamsi-Adadın Gizilbundada gümüş qablar, əla qızıl və misdən metal məmulatları ələ keçirməsi məlum olur. II Aşşurnasirapal hərbi yürüşlərinin birində, külli miqdarda mis əşyalarla yanaşı, yüz ədəd tunc qab ələ keçirməsi ilə bağlı məlumat verilir. II Sarqonun Misir məbədində ələ keçirdiyi qənimətlər isə saf gümüş, qızıl və misdən hazırlanmışdır.

Assuriya hökmdarları Manna ərazilərindən külçə halında metallarla yanaşı, onlardan hazırlanmış əşyaları da ələ keçirir va ya xərac kimi alırdılar. II Aşşurnasirapal Zamualı Amekanın «çoxlu əşyalarını, mis səhəngləri, mis kasaları, mis məcməyiləri, onun sarayının xəzinəsini, bütün varidatını ələ keçirməsi barədə məlumat verir .III Salmanasar Gilzandan bac kimi gümüş, qızıl, qurğuşun, həmçinin mis qablar alır. V Şamşi-Adad Gizilbunda da gümüş qablar, əla qızıl və mis ələ keçirir. Həsənli, Marlık, Ziviyə və Naxçıvan bölgələrində aparılan qazıntılar, həmçinin Cənubi Azərbaycan ərazisindən aşkar edilmiş e. ə. I minilliyin əvvəllərinə aid edilən təsadüfi tapıntılar bu ərazidə sənətkarlıq istehsalının yüksək səviyyəsini göstərir. Tapılmış əşyaların qeyri-adi incəliyi və zərifliyi yerli sənətkarların çox böyük zövqə malik olduqlarını göstərir. II Aşşurnasirapal məlumat verirdi ki, öz paytaxtı Kalxuya bu vilayətlərdən sənətkarlar aparırdı.

Qədim Şərq əhalisi artıq tuncla tanış olduğu dövrdə belə əşyaları daha çox zaman saf misdən hazırlayırdı. Məsələn, Ur şəhərindən tapılmış əşyaların tərkibini daha mis təşkil edir, tunc əşyalar isə olduqca azdır. II Sarqon külçə halında tunc ələ keçirdiyini qeyd edir. E. ə. 3500-3200-cü illərə aid edilən ən qədim tunc Urda aşkar edilmişdir. II Aşşurnasirapal tuncdan hazırlanmış balta ilə dağlarda özünə yol açması barədə məlumat var.

Mannanın metalişləmə sənətkarları tökmə işləri, naxışvurma, ştamplama və həkkaklıqla məşgul idilər. Həsənlidən qazıntı zamanı tökmə üsulu ilə tunc dirəkciklər, baltalar hazırlamaq üçün qəliblərin qırıqları, habelə bəzək şeyləri hazırlamaq üçün qəliblərin olduğu sənətkar emalatxanası tapılmışdır. Kənd təsərrüfatında həm tunc, həm də dəmir toxalardan, dəmir tiyəli oraqlardan istifadə edilirdi. Bunların bir neçə nümunəsi qazıntı zamanı Həsənlidən tapılmışdır. Marlık qəbirlərindən tunc kotanlar aşkar edilmişdir. Manna ərazisindən ştamplama, oyma, tökmə, deşmə üsulları ilə hazırlanmış mis, tunc, gümüş və qızıldan çeşidli boyunbağılar, sırğalar, biləriziklər, kəmərlər, qızıl, mis üzüklər, uzanmış şirlər formalı dəmir ilgəcli xeyli iri tunc sancaqlar, həmçinin serdolikdən, balıqqulağından düzəldilmiş çoxlu muncuqlar aşkar edilmişdir. Bu bəzək əşyalarının hazırlanmasında burulmuş tunc və qızıl məftildən istifadə olunurdu. Dəmir və tuncdan hazırlanan silahların, bəzən də xəncər dəstəklərin üstü adətən qızıl və gümüşlə naxışlanırdı.

**Silahqayırma.** Həsənli qalasında tunc və dəmirdən, bəzisi isə qızıl və gümüşlə bəzədilmiş, habelə zəngin inkrustasiya edilmiş çoxlu silah, həmçinin tuncdan və dəmirdən ensiz və yastı ox ucları, döyülmüş dəmirdən hazırlanan «açıq aypara» tipli iri xəncərlər və qılınclar da tapılmışdır. Məharətlə bəzədilən xəncərlərin qəbzələri metal məftillə köbələnmiş və ya sümük və ağacla naxışlanmış, müxtəlif ornamentlərlə bəzədilmiş olurdu. Həsənli xarabalıqlarından gözləri sümükdən, qabarıq insan başı ilə bəzədilmiş tunc toppuz, şiş və daraqlı tunc döyüşçü dəbilqələri, biri tuncdan, digəri dəmirdən olan iki yanaqlıq da tapılmışdır. Daraqlı dəbilqələrdən birinin darağında aydın həndəsi rəsm və papağında ilan təsvirləri var idi. Şiş, konusvarı dəbilqələr Assuriya qoşunu üçün səciyyəvi idi. E. ə. I minilliyin daraqlı dəbilqələr qoyan Urartu döyüşçüləri də artıq II Sarduri dövrünə yaxın Assuriya dəbilqələri tipində dəbilqələr qoymağa başlamışdılar. Marlıkdan hökmdara məxsus tuncdan, üstünə qızıl və gümüşdən çəkilmiş quramada şərab nəziri vermək ayinini icra edən saqqallı allah, əllərini qaldırıb ibadət edən ilahələr və onların başı üzərində qanadlarını açmış quş təsvir edilmiş gözəl dekorativ nadir bir dəbilqə tapılmışdır. Dəbilqənin arxa tərəfində lələkləri və ya tükdən olan daraqları sancmaq üçün lüləcik var idi.

Həsənlidə tapılmış zəngin qızıl və gümüş məmulatı, xüsusilə üzərində allahlara qurbanvermə mərasimi, miflərdən və ya görünür əhali arasında geniş yayılmış dastandan ayrı- ayrı səhnələrin təsvir

edildiyi e. ə. IX əsrdən xeyli əvvəl - e. ə. I minilliyin əvvəllərinə aid olan qızıl cam və üzərində qızılla gümüş qatışığından düzəldilmiş relyefli qələbə səhnəsini əks etdirən məğlubların cəng arabasının dalına düşüb getdiyi təsvirlər olduğu gümüş qədəh Manna sənətkarlarının yüksək məharətinin göstəricisidir. Marlık qızıl qablarının bəzisi üzərində dirilik ağacının yanlarında qrifon və qanadlı öküz təsvirləri var. Marlıkda gövdəsi gümüş, lüləsi qızıl qab da tapılmışdır Ziviyə dəfinəsinin əşyaları arasında qızıl işləməli gümüş boşqab vardır. Həsənli qazıntıları zamanı at başı formalı ritonlar[1], həmçinın qoyun başı formalı kiçik mis riton aşkar edilmişdir.

Həsənli abudəsindən Manna dövrünə aid çoxlu sayda zərgərlik məmulatı - mis, tunc, gümüş və qızıl boyunbağılar, sırğalar, bilərziklər, kəmərlər, qızıldan, serdolikdən, balıqqulağından düzəldilmiş çoxlu muncuq aşkar edilmişdir. Bu bəzək şeyləri müxtəlif üsullarla: ştamplama, oyma, tökmə, deşmə üsulları ilə hazırlanır, həmçinin, burulmuş tunc və qızıl məftildən istifadə olunmaqla hazırlanırdı. Həsənlidən mis üzüklər, şir formalı bəzilərinə mis zəncirlər bərkidilmiş xeyli iri tunc sancaqlar, boyunbağıların qızıl asmaları, Marlıkdan eşmə simlərdən hazırlanmış kəpənək formalı bəzəkləri olan qızıl boyunbağılar, Ziviyədən isə e ə. VIII-VII əsrlərə aid edilən şir başlıqlı bilərziklər, həmçinin yerli mannalı sənətkarların hazırladığı iki qızıl kəmərin fraqmentləri aşkar edilməsi Mannada zərgərlik sənətinin yuksək peşəkarlığından xəbər verir.

**Dulusçuluq.** E.ə. I minilliyin əvvəlində Urmiya hövzəsində sənətkarlar gil və saxsı məmulatı sahəsində də ixtisaslaşmışdılar. Arxeoloji qazıntılar zamanı Cənubi Azərbaycan ərazisindən istər qəbirlərdən, istərsə də yaşayış məskənlərindən tapılmış keramika - kobud düzəldilmiş mətbəx ləvazimatından tutmuş müxtəlif təyinatlı incə, zərif məmulatadək cürbəcür əşyalar sayca çox, forma və keyfiyyətcə rəngarəngdir. Həsənli, Göytəpə, Qızılvəng, Muncuqlu təpə, Mərdangöl kimi ərazilərdən yerli ustaların əlinin məhsulu olan şirlənmiş boz, sarımtıl-boz və göyümtül-ağ rəngli nadir saxsı məmulatları və divar kaşı nümunələri, hətta «sənətkar evi» adlandırılan tikilidə metal məmulat hazırlamaq üçün lazım olan alətlərdən başqa, həyətdən keramika bişirmək üçün soba, çoxlu keramika qırıntısı,

[1] Mərasim ayinlərində istifadə edilən və üzərində müxtəlif simvolik işarələrin olduğu, əsasən buynuz və ya heyvan başı formasında içki qabı.

lülələri uzunsov, dirsəkli, novşəkilli, quş dimdiyinə bənzər keramika da tapılmışdır.

**Daşişləmə sənəti** Həsənli, Göytəpə, Qızılvəng, Muncuqlu təpə, Mərdangöl kimi ərazilərdən bir qisminin üzərində ov səhnələri, diz çökmüş oxatanların və müxtəlif heyvanların fiqurları, həmçinin, dirilik ağacı və yanlarında keçilər təsvir edilən müxtəlif tip daşdan yonulmuş silindrşəkilli möhürlər aşkar olunub. Daşdan yonulmuş bu möhürlər incəliyi ilə fərqlənir. Daşişləmə sənəti üçayaqlı dövrə, mərmərdən yonulmuş əsa başı, alebastradan hazırlanmış gözəl qab nümunələri ilə də təmsil olunmuşdur.

**Ağacişləmə.** Mannada ağacişləmə sənəti də inkişaf etmişdi. Mannada ağac və sümük də gil kimi təsərrüfatda istifadə edilən əsas materiallardan idi. Ağacişləmə sənətində qovaq, sərv, qarağac, yemişan, alma və armud ağaclarının oduncağından istifadə edilirdi. Bərk oduncaq növlərindən yaşayış evləri tikintisində tir kimi istifadə olunur, nizə, toppuz və ox sapları qayırılırdı. Ağacdan müxtəlif əşyaların gövdəsi yonulur, sonra üstünə metaldan üz çəkilirdi. Həsənlidən ağacdan yonulmuş relyefli atlı heykəli, ağacdan düzəlmiş adam başı aşkar edilmişdir.

**Toxuculuq**. Manna toxucuları adətən geyim əşyaları hazırlanmasında müxtəlif rənglərə çalan qoyun yunundan və keçi qəzilindən istifadə edirdilər. Mannalılar yun və yun məmulatından vergi də verirdilər. Qaynaqlardan e. ə. IX əsrdə II Aşşurnasirapal Zamuadan bac olaraq yun və əlvan yun parçadan tikilmiş paltarlar aldığı məlumdur. Bu məlumat Mannada boyaqçılıq sənətinin də inkişaf etdiyini göstərir. Tədqiqat nəticəsində qoyun və ya keçi yunundan parçalar müəyyən edilmişdir. Bu parça əriş və ağac saplarını bir-birinə keçirmə metodu ilə toxunurdu. Parçaların bir qismi xovlu və saçaqları idi. Bəzən xovun uzunluğu üç santimetrə çatırdı.

**Geyim**. Yerli sənətkarlar tərəfindən hazırlanmış qablarda, silindrşəkilli möhürlərdə, bəzək şeylərində təsvir edilmiş şəkillərdən Manna sakinlərinin geyimi barədə məlumat almaq mümkündür. Yerlin əhalinin məşğuliyyət növündən və sosial vəziyyətdən asılı olaraq geyimi də müxtəlif olurdu. Adətən ətəyi topuğa çatan qısaqol paltar geyirdilər: paltarın ətəyi və qolları saçaqlı olurdu. Üstündən bellərinə enli kəmər bağlayırdılar. Döyüşçülərin də geyimi uzun idi, ətəyə doğru genəlirdi, parçadan və ya dəridən olurdu, üzərinə kiçik metal lövhəciklər tikilirdi. Uzun, qısa qol üst geyim paltarları olmuş-

dur. Manna döyüşçüləri, adətən, həm uzun, həm də dizə çatan gödək libasda təsvir edilmişdir.

### *2.5.4. Şəhərlər və şəhər* **həyatı**

E.ə. II minilliyin sonuna məxsus abidələr göstərir ki, mannalılar öz məskənlərini strateji cəhətdən əlverişli olan yerlərdə - düşmənin əli çatmayan, eyni zamanda rahat müdafiə edilən təbii yüksəkliklərdə salmağa başlayırlar. E.ə. I minilliyə yaxın bu məskənlər tədricən qala divarları ilə əhatə olunaraq şəhər-qalalara çevrilirdilər. Assuriya qaynaqlarına görə Mannanın paytaxtı İzirtu, Zibia və Armait kimi şəhər-qalalar giriş yolları müdafiə edilən çox böyük bir ərazini əhatə edən və əlverişli mövqedə yerləşən qalalar olmuşdur. Şəhər-qalaların bəzisi çarın, əyanların, vilayət rəislərinin yaşayış yeri (paytaxt) olub "çar şəhəri" adlanırdı. Bu şəhərlər həm də mədəniyyət, din və sənət mərkəzləri idi. Kiçik qalalar və onların ətrafında olan məskənlər dağıdılanda orada yalnız mal-qara zəbt edilirdisə, iri şəhərlərdən mal-qara sürülməklə yanaşı, anbarların ehtiyatda olan taxılı, gümüş, mis, qızıl, sənətkarlıq məmulatları da talan edilirdi. Buna görə mühüm müdafiə qalalarının ətrafında müdafiə məqsədilə dövrələmə xəndəklər qazır, torpaq bəndlər qururdular. Tarui və Tarmakisa (müasir Təbriz ) belə qalalardan idi.

Qədim Şərqlə ticarət əlaqələrinin qurulmasında mövcud quru yollarından başqa, su yolları da mühüm rol oynayırdı. Diyala su yolu Assuriya ilə əmtəə mübadiləsinə şərait yaradırdı. Yaxın Şərqi Egey dənizi ilə birləşdirən yollar arasında Azərbaycandan Trabzona, ordan da Qara dınizə çıxışın olması bu yolun əhəmiyyətini daha da artırırdı.

### *2.5.5. Memarlıq*

Hələ Aratta dövründə bu ərazidə müxtəlif ornamentlərlə işlənmiş məbəd və saray tikintisi mövcud olmuşdur. Əcdadlarının qədim memarlıq ənənəsini davam etdirən mannalılar artıq e.ə. IX- VIII əsrlərdə qala divarları ilə əhatə olunmuş İzirtu, Sirdakka, Uşkaya, İştatti (Atranu), Uraş, Panziş, Tarun, Tarmakisu, Zibia kimi xeyli qala tipli şəhərlər salmışdılar. Manna hökmdar saraylarının, məbədlərin, ibadət və yaşayış binalarının necə bəzədilməsi barədə məlumat qalmasa da, Həsənlidən aşkar edilmiş qızıl cam üzərindəki əfsanəvi səhnə, Marlıkda tapılmış böyük qızıl qədəh üzərindəki təsvirli kom-

pozisiya, Ziviyə dəfinəsindən tapılmış qızıl və gümüşdən buynuz şəklində hazırlanmış, riton adlandırılan içki qablarının üzərindəki heyvan fiqurları təsvirləri Mannada təsviri incəsənətin yüksək səviyyəsindən xəbər verir.

### *2.6. Mənəvi mədəniyyət. Dini dünyagörüşləri*

Qədim Şərqin müxtəlif xalqlarının mənəvi mədəniyyətində dini etiqadlar və ayinlər xüsusi yer tutur. Yerli əhalinin dini baxışları haqqında yazılı qaynaqların məlumatı son dərəcə məhduddur. Bu qaynaqlarda Urmiya gölü hövzəsinin qədim sakinlərinin sitayiş etdikləri ilahilərin, məbədlərin adları çəkilməsə də, qaynaqlar mannalıların şəhərlərində ayrı-ayrı məbədlərin olması və bu məbədlərdə allahların heykəllərinin qoyulması haqda xəbər verir. Manna əhalisinin dini dünyagörüşləri haqqında yazılı qaynaqlardan da məlum olur ki, Urmiya ətrafı vilayətlərdə əhali tanrılar panteonuna[1] sitayiş edirdi. Bütün tanrılara həsr olunmuş məbədlərdə ibadət olunur, qurbanlar kəsilir, dini ayinlər icra edilirdi. Həsənlidə qurbanların toplandığı yer olduğu ehtimal edilən ortasında kərpic meydança olan, divarlarından birinin dibində üçayaqlı dəmir çıraq qoyulmuş pilləkanlı səki olan, döşəməsinə daş lövhələr düzülmüş, altında isə suyun axması üçün tünglər yerləşən məbəd yeri aşkar edilmişdir.

Urmiya gölü hövzəsi əhalisinin özünəməxsus mənəvi mədəniyyəti dini dünyagörüşlərində müəyyən dərəcədə öz əksini tapmışdı. Mənbələrdən həmçinin məlum olur ki, Mannanın müxtəlif şəhərlərində müxtəlif tanrıların bütlərinin qoyulduğu məbədlər var idi. Məsələn, II Aşşurnasirpal Zamuada alınan qəniməti arasında Zamuanın paytaxtı Zamridən ələ keçirilən bütlərdən də xəbər verir. II Sarqonun kitabəsində isə mannalıların çar Ullusun ilə birlikdə öz tanrılarına təşəkkür duası oxumuşlar: *"Onlar mənim səltənətimə Aşşurun və yaşadıqları ölkənin tanrılarının hüzurunda xeyir-dua vermişlər"*.

Lakin Urmiya gölü hövzəsinin qədim sakinlərinin sitayiş etdikləri tanrıların və məbədlərin adı qaynaqlarda çəkilmir. Bu baxımdan yerli əhalinin dini görüşləri haqqında maddi mədəniyyət abidələri daha çox məlumat verir. Arxeoloqların Həsənlidə aşkar etdikləri məbəd qalıqlarındakı qızıl camın üstündəki təsvirlərdə tanrılara

[1] **Panteon** — hansısa bir ideologiyaya mənsub olan tanrılar qrupu.

sitayiş və qurbanlar verilməsi ayinin izlərini görmək mümkündür. Bu təsvirlər kompleksi bol məhsul əldə etmək üçün icra edilən ayinlərlə əlaqələndirilir. Mannalılar da bütün Qədim Şərq əhalisi kimi Göylərə, Günəşə və Aya sitayiş edirdilər. Bu üç astral cisim təbiətə sitayişin təcəssümü olan tanrılar üçlüyünü təşkil edirdi. Məlumdur ki, qədim xalqların demək olar ki, hamısında təbiət qüvvələrinə sitayiş geniş yayılmışdı, lakin bu qüvvələr hər dəfə yerli şəraitə və adətlərə müvafiq olaraq təsvir edilirdi.

Yerli əhalinin dini görüşləri, dəfn adətləri, mənəvi həyatının xüsusiyyətləri keramika və metal məmulatın, dəyirmi möhürlərin və digər əşyaların üzərindəki təsvirlər əhalinin mənəvi həyatının xüsusiyyətlərini əks etdirir. Həsənlidən tapılmış qızıl camın üzərindəki təsvirlər allahlara sitayiş və qurbanlar verilməsini, mərasim ayini icra etməsini və kahinlərin ibadətini göstərir. Bu təsvir kompleksi məhsulun bol, bərəkətli olması üçün icra edilən ayini əks etdirirdi. Qədim əhali vəhşi heyvanlara və ev heyvanların bəzilərini allahların rəmzi, müttəfiqi və ya əksinə, düşməni sayırdılar. Məlumdur ki, qədim xalqların demək olar hamısında təbiət qüvvələrinə sitayiş geniş yayılmışdır.

Mannalıların etiqadlarında, xüsusilə, təbiətin ölməsi və dirilməsi, axirətə inamı əks etdirən dirilik ağacına sitayiş böyük yer tuturdu. Manna ərazisindən tapılmış bir çox sənətkarlıq nümunələrində dirilik ağacı təsvirlərinə rast gəlinir. Bu Həsənli, Marlık, Ziviyə bölgəsinin qədim əhalisinin incəsənətində də öz əksini tapmışdır. Sənətkarların hazırladıqları bir çox metal və sümük əşyalarda, möhürlərdə dirilik ağacının ətrafında ayaq üstə durmuş və yaxud diz çökmüş heyvanlar təsvir olunur. Dirilik ağacı təbiətin ölməsi və dirilməsi ideyasını, qədim axirətə inamı əks etdirirdi. Ölünün yanına sağlığında istifadə etdiyi bütün əşyaların, silah, bəzək şeyləri, içində yemək-içmək olan çoxlu qab-qacaq qoyulması axirət dünyasına inamla baglı idi., Qəbirlərə hər zaman qoyulan əşyalardan biri də, görünür, dini mərasimlərdə işlədilən və içərisinə müqəddəs su doldurulan lüləyi uzunsov qablar idi. Ölünün baş tərəfində qurbanlıq heyvanlar basdırılırdı.

Bu dövrdə Manna əhalisinin həyatında at xüsusi yer tuturdu: görünür, o da ilahiləşdirilirdi. Nekropollardan aşkar edilən arxeoloji materiallardan məlum olur ki, atlar ayrıca qəbirlərdə dəfn olunurdu.

Beləliklə, Cənubi Azərbaycan ərazisində həm aparılmış arxeoloji qazıntıların materialları, həm də yazılı mənbələr e. ə. II minilliyin

sonlarından bu ərazilərdə dövlətin təşəkkülü prosesi getdiyini göstərir. Cənubi Azərbaycan ərazisində əvvəlcə kiçik siyasi qurumlar- şəhər- dövlətlər və tədricən bu kiçik siyasi qurumların birləşməsi nəticəsində Manna dövləti təşəkkül tapır. Bu birlik bölgənin zəngin təbii ehtiyatlara malik olması qonşu dövlətlərin Urmiya ətrafı əraziəri əl keçirməsinə qarşı yaradılmışdı. Nəticədə e. ə. I minilliyin əvvəllərində bu ərazidə "Mannalılar ölkəsi" adı ilə tanınan və uzun müddət Urmiyanın xırda və pərakəndə, mənbələrdə "ölkə" adlandırılan kiçik siyasi qurumlarını birləşdirə bilən sabit dövlət qurumu təşəkkül tapır. Manna dövləti əhalisinin əsas tərkibini kuti-lullubi, su, turukki, hürri və digər tayfalar təşkil etmişlər. Mannanın çiçəklənmə dövründə onun sərhədləri cənub-şərqə və qərbə dogru xeyli genişlənmşdir. Dövləti ağcaqqallar şurası tərəfindən qismən məhdudlaşdırılan irsi hakimiyyətə malik olan hökmdar idarə edirdi. Dövlətin ərazisi əyalətlərə bölünmüşdü və hökmdar tərəfindən təyin edilən canişinlər idarə edirdi. Hökmdarın sərəncamında ordu var idi. Yaşayış məskənlərinə hücum zamanı ölkənin müdafiəsində bütün əhali iştirak edirdi. Hərbi yürüşlər zamanı və sərhəd boyunca yaşayış məntəqələrinə giriş yollarını nəzarətdə saxlamaq üçün xüsusi olaraq möhkəmləndirilmiş qalalar tikilirdi. E.ə.VIII əsrin sonlarında Manna dövlətinin ən yüksək inkişaf səviyyəsinin olduğu çiçəklənmə mərhələsində zəngin saray binaları olan yaxşı möhkəmləndirilmiş iri şəhərlər salınır. Bu dövrdə Mannada yüksək iqtisadi səviyyə müşahidə olunurdu. Əhali əkinçilik, xüsusilə də bağçılıqla məşğul olmuşdur. Bu ərazidə maldarlıq da çox mühüm rol oynamışdır. Manna torpaqlarında sənətkarlıq yüksək səviyyədə inkişaf etmişdi. E. ə. I minilliyin birinci yarısında Manna Ön Asiyanın qabaqcıl dövlətləri səviyyəsində idi.

### *2.7. Kimmer və skif tayfalarının Ön Asiyaya yayılması. Skif (İskit) padşahlığı*

Ön Asiyada kimmerlər və skiflər, Herodotun (e.ə. V əsr) məlumatına görə, e. ə. VIII əsrin sonundan etibarən yayılmağa başlamışlar. Kimmer-skif tayfalarının bir hissəsi Manna vilayətlərinə və Madanın şimal-qərb hissəsinə üz tutmuşdu. Herodotun verdiyi məlumata görə, skiflər Madaya Dərbənd keçidindən axın etmişlər. Bu zaman Ön Asiyada Assuriya dövləti hegemon mövqedə, digər Şərq dövlətləri isə Assuriyaya qarşı mübarizə vəziyyətində idilər.

Kimmerlər və skiflər (iskitlər) e.ə. VIII əsrin sonu - VII əsrin əvvəllərindən başlayaraq qədim Azərbaycanın hərbi-siyasi tarixində mühüm rol oynamağa başladılar. Azərbaycan ərazilərində məskunlaşmağa başlamış iskitlər (skiflər) və kimmerlər manna və maday tayfalarının Assuriyaya qarşı mübarizəsində fəal iştirak edirdilər. Madayların Assuriyaya qarşı mübarizəsində kimmerlərin onlarla ittifaq qurması barədə Assuriya qaynaqları məlumat verir. Bu ittifaqa daha tezliklə mannalılar da qoşuldular. E.ə. VII əsrin sonlarında hökmdarları İşpakay başda olmaqla skiflər mannalıların müttəfiqi kimi çıxış edirlər. Artıq e.ə. VII əsrin 70-ci illərində skiflərin köməyinə arxalanan həm madalılar, həm də mannalılar assurlara qarşı mübarizədə fəallaşmışdılar. E.ə. VII əsrin sonlarında Midiya hökmadarı Kaştariti skiflərlə müttəfiqliklərinə arxalanaraq Assuriya ilə danışıqlar aparmaqdan boyun qaçırdı. Bu dövrdə assurlar Mada vilayətlərindən də tamamilə qovulmuşdular və burada Midiya (Maday) çarlığı meydana gəlmişdi. Lakin Asarhaddonun hiyləgər siyasəti nəticəsində Partatua başda olmaqla skiflərin bir hissəsi assurların tərəfinə keçmişdi və bununla da müttəfiqlər cəbhəsində parçalanma baş verdi.

**Skif (İskit) çarlığı**. E.ə. 674-cü ilin ortalarından etibarən assur mətnlərində Manna və Mada dövlətlərində baş verən hadisələrlə bağlı skiflərin adı çəkilməyə başlayır. Skiflər xüsusən hərbi iş sahəsində manna və maday tayfalarına müəyyən təsir göstərmişdilər. Herodot yazır ki, madalılar öz oğullarını atıcılıq təlimi keçmək üçün skiflərin yanında şagirdliyə qoyurdular. Çarlar bu sülalənin nümayəndələrini özlərinə bərabər tutur və onlarla hesablaşırdılar.

E.ə. VII əsrin 70- 60-cı illər Azərbaycanda Skif çarlığının təşəkkül dövrüdür. Skif çarlığının Manna və Mada torpaqlarının yaxınlığında, Kürdən başlayaraq Arazdan cənubda, Şimali Manna vilayətlərinədək uzanan əraziləri əhatə etdiyi ehtimal olunur. Herodot yazır ki, skiflər Asiyada iyirmi səkkiz il hökm sürmüşlər. E.ə. VII əsrdə adı Urartu, Manna və Mada ilə bir sırada çəkilən Skif çarlığı Ön Asiyanın hərbi-siyasi həyatında mühüm rol oynamışdır. Assuriya qaynaqlarında Skif çarlığı və onun hökmdarı Partatua, e.ə. 673-cü ilin axırlarında həlak olmuş skif sərkərdəsi İşpakay haqda məlumat verilmişdir. Skif çarı Partatua (e.ə. 675-645) assurlarla danışıqlara başlamış və Assuriya hökmdarı Assarhaddonun qızını almaq üçün elçi göndərmişdi. Bu vaxtdan Skif çarlığı Assuriyanın müttəfiqi olmuşdur.

Qədim Şərq mənbələrində "Skif çarlığı" haqqında son məlumatlar e.ə. 594-cü ilə təsadüf edir. E.ə. VII əsrdə Şərqdə qüdrətli bir dövlətə çevrilən Maday dövləti Manna ilə birlikdə Skif çarlığını da özlərinə tabe etdilər. E.ə. VII əsrin 20-ci illərinin sonlarında Ön Asiyada Skif çarlığı süquta uğradı.

Madayların Assuriya üzərində qələbəsi Midiyanı Qədim Şərqin böyük dövlətinə çevirdi. Herodotun verdiyi məlumata görə Skif çarlığına son qoyulması Mada hökmdarı Kiaksarın adı ilə bağlıdır. E.ə.624-cü ildə Kiaksar skif hökmdarını və əyanlarını hiylə ilə bir yerə toplayıb qılıncdan keçirərək atası Kaştaritinin intiqamını alır. Bununla da skif ağalığına son qoyulur. Beləliklə, Midiya hökmdarı Kiaksar e.ə.653-cü ildən 625-ci ilədək - 28 il ərzində midiyalıları əsarətinə almış Skif çarlığını məhv etdi.

# III FƏSİL

# AZƏRBAYCAN TARİXİNDƏ MİDİYA DÖVLƏTİNİN YERİ VƏ ROLU

## *3.1. Dövlətin yaranması, ərazisi, etnik tərkibi*

Tarix səhnəsinə e.ə. I minilliyin əvvəlində çıxmış maday (matay) tayfaları ən qədim və yerli Azərbaycan tayfalarından biri olmuşlar. Maday tayfaları Mannadan şərqdə və cənub-şərqdə yerləşən vilayətlərdə - əsasən Kizilbunda (Cənubi Azərbaycan ərazisində indiki Qızıl-Üzən çayı) çayının hövzələrində məskun idilər. Qədim və antik mənbələrdə mataylar, madalılar və ya midiyalılar kimi adlandırılmışlar**.**

Assur mənbələrində *maday* və *matay* kimi bu etnosun adı ilk dəfə e. ə. 843-cü ildə çəkilir. Assur mənbələri Cənubi Azərbaycan ərazisində mannalılardan şərqdə və cənub-şərqdə Qızılüzən çayının hövzəsində *maday* tayfalarının yaşadığını yazırlar. Maday tayfaları və onların ölkəsi barədə III Adadnerari (e.ə. 810 – 782), III Tiqlatpalasar ( e.ə. 745-727), II Sarqon (e.ə.721-705) kimi assur hökmdarlarının kitabələrində bəhs edilir. III Salmanasarın (860-825) kitabələrində Madayların ölkəsi Amaday kimi qeyd olunmuşdur. Elam mənbələrində isə Maday tayfaları *matapi* (*pi* –qədim elam dillərində cəm şəkilçisi idi) adı ilə qeyd olunmuşdur. E. ə. 519-cu ilə aid Bisütun qayasında həkk olunmuş mixi yazı mətnlərində isə bu tayfanın və tayfa adı ilə adlandırılan olkənin adı Mada kimi qeyd olunub. Qeyd etmək lazımdır ki, erkən orta əsr müəllifi olaraq alban tarixçisi Musa Kalankatlı da bu xalqın adını *mada* kimi yazmışdır. Beləliklə, qədim yerli mənbələrin, o cümlədən Kalankatlının bu tayfanı mada və ya maday adlanıldığı aydın olur.

Avropa tarixşunaslığında Maday adı təhrif olunaraq Midiya kimi qeyd olunmuşdur. Midiya (Maday) haqqında ilk məlumat verən antik yunan müəllifi Herodot olmuşdur. Antik müəlliflərdən Diodor, Plutarx, Strabon, Ammion Martselin də Midiya haqda məlumat vermişlər. Yunan mənbələri madayları *Mido*, Maday ölkəsini isə Midiya kimi yazırdı. Buna səbəb yunanların madayları "mido" adlandırması idi. Beləliklə, qədim yunanlar bu xalqın adını *Medo* və ya *Mido* kimi tələffüz etdiklərinə və belə də yazdıqlarına görə, Maday

etnosunun və Maday ölkəsinin adı tarixə təhrif olunmuş şəkildə – Midiya kimi daxil olmuşdur.

Madaylar yerli avtoxton xalq olub qədim Azərbaycan tayfalarından biridir. Sovet tarixşünaslığında madaylar irandilli etnos sayıldığı üçün Azərbaycan tarixində maday etnosuna müəyyən qədər ögey münasibət yaranmışdır. Madayların e.ə. I minilliyin əvvəllərində farslarla birlikdə Orta Asiyadan gəldiyi ehtimal olunurdu. Lakin son araşdırmalara görə maday etnik adını daşıyanlar Azərbaycanda həm etnik, həm də mədəni cəhətdən mannaların varisi hesab edilir. Tədqiqatlar Maday etnosunun hazırda Qazaxıstanda Matay, Tuvada hələ XIII əsrdə *Madı,* Sibirdə və Altayda *Maadı, Madar* adı ilə tanınan türkmənşəli tayfaların kökündən olduğunu söyləməyə əsas verir. Maday etnosunun izləri Cənubi Azərbaycan ərazisindəki Savalan bölgəsində Madya, Madabad, Madi, Mahnabad kimi bir sıra toponimlərdə günümüzədək qorunub qalmışdır. Midiya ərazisindəki Ekbatana-Ağbatan, Qızılbunda (Qızılüzən) kimi bir çox toponimlər türk dilləri ilə izah olunur. Eyni zamanda Midiya dövrünə aid Qaumata (*qam* – öncədən xəbər verən, yozucu və *ata* sözbirləşməsindən meydana gəlmişdir, Deyok (şumercə *Da* – Allahın qərarı ilə və qədim türkcə *Uk* – övlad, varis sözlərindən ibarət olub Allahın qərarı ilə doğulmuş övlad mənasındadır.) kimi bir sıra tarixi şəxsiyyətlərin adları da türk dilləri ilə izah olunur.

Maday əvvəlcə bir böyük tayfanın, sonra tayfa ittifaqının və e.ə.673-cü ildən etibarən isə dövlətin adı olmuşdur. İlk vaxtlar Mannadan şərqdə və cənub-şərqdə yerləşən vilayətlərdə - əsasən Qızıl-Üzən çayının hövzələrində məskun olan Maday tayfası Assuriya ilə bir neçə əsr qanlı toqquşmalardan sonra, e.ə. 673-cü ildə özünun müstəqil dövlətini yaratmagı bacarmışdı. Bundan sonra Maday etnonimi bu dövlətin əhatə etdiyi ərazidə həm madayların, həm də başqa dillərdə danışan digər tayfaların ümumiləşdirilmiş adına çevrilmişdir. Maday tayfaları mannalılardan sonra Azərbaycanda ikinci dövlət qurumunun əsasını qoymuşlar.

**Midiya (Maday) ərazisində kiçik çarlıqlar.** E.ə. IX-VIII əsrlərdə Midiya (Maday) ərazisi xırda vilayətlərə parçalanmış halda idi. Midiya özü də bu ərazidəki kiçik çarlıqlardan biri idi. Bu çarlıqlar şəhər dövlətlərdən ibarət olub tayfa başçıları tərəfindən idarə edilirdi. Buna görə də tez-tez assuriyalıların hücumuna məruz qalırdı. Qədim Şərq mənbələrində *"Mada çarı"* və *"çarlarından"* bəhs edilir.

İranzunun hakimiyyəti dövründə Maday ərazisi Mannanın nominal asılılığında idi.

E.ə. VII əsrdə skif tayfalarının Ön Asiyaya yayılması və eyni zamanda Maday ərazisində də məskunlaşması madayların assurlara qarşı mübarizəsinin fəallaşmasına səbəb oldu. Mannalılarla bərabər madaylar da iskitlərlə ittifaq bağlamışdılar. İskitlərin köməyilə madayların e.ə. 673-cü ildə Assuriyaya qarşı mübarizəsi sonunda müstəqil Maday dövlətinin yaranması ilə nəticələndi.

Mənbələrdə Midiya, Mada və ya Maday şəklində qeyd edilmiş bu qədim dövlət Azərbaycanın qədim dövlətçilk tarixinin ayrılmaz parçasıdır. Midiya tezliklə genişlənərək Ön Asiyanın ən güclü dövlətinə çevrilmiş, bölgə xalqlarının tarixində böyük iz qoyaraq, mədəniyyətinə güclü təsir etmişdir. Paytaxtı Ekbatan (indiki Həmədan ərazisi) şəhəri olmuşdur. Bu dövlət Yaxın Şərq ölkələrinin tarixində böyük rol oynamışdır. Midiya dövlətinin mövcudluğu e.ə. VII əsrin sonu - VI əsrin I yarısı boyu sürmüşdür.

### *3.2. İctimai quruluş, Maday hökmdar sülalələri*

Midiya dövlətinin təşəkkülü e.ə.VIII əsrin sonu - e. ə. VII əsrin əvvəlinə aid edilir. Herodotun məlumatına görə, bu dövlətin əsasını ilk hökmdar **Deyok** qoymuşdur. II Sarqonun (e.ə. VIII əsr) dövrünə aid Assur mixi kitabələrində *Dayaukku* olaraq xatırlanır. Mənbədə Deyokun adı Mannanın sərhəd vilayəti olan Midiya hakimi kimi çəkilir. VII əsrin 70-ci illərində maday tayfalarının əfsanəvi qəhrəmanı Deyok (e.ə.700- 647) rəhbərlik etdiyi üsyandan sonra Midiya vilayətini müstəqil elan edərək Midiyada hökmdar sülaləsinin əsasını qoymuşdur. Müstəqil Mada çarlığı Qızılüzən çayının hövzəsində meydana gəlir. Herodot qeyd edirdi ki, "Deyok pərən-pərən halda olan Midiya tayfalarını bir yerə toplayaraq onlar üzərində hökmranlıq qurdu. Herodot Midiya dövlətinin paytaxtı olmuş Ekbatan şəhərinin əsasının Deyok tərəfindən qoyulduğunu qeyd edir.

E.ə. VII əsrdən Midiya ərazilərində də məskunlaşan skiflər Assuriyaya qarşı mübarizədə madaylara kömək edirdilər. Herodot yazır ki, skiflər ilk dəfə Deyokun hakimiyyəti zaman Midiyaya gəlmişdilər. Deyok onları xoş niyyətlə qarşılayaraq öz torpaqlarında yerləşdirmiş, özünün və ailəsinin qorunmasını iskitlərə etibar etmişdi. Qaynaqlara görə, Deyok oğlanlarını yaxşı yay - ox atmağı öyrətmələri, döyüş təlimləri keçmələri üçün iskitlərə vermişdi.

İskitlərin maday tayfaları ilə ittifaqı sayəsində madaylar Assuriyaya qarşı mübarizədə fəallaşmışdı. Herodotun məlumatına görə, bu mübarizəyə Midiya hökmdar sülaləsinin Deyokdan sonrakı varisi və davamçısı, Deyokun oğlu Fraorta (e.ə. 675-653) rəhbərlik edirdi. Mixi yazılarda o, Kaştariti adlandırılır. Kaştariti atası Deyokun siyasətini davam etdirərək maday tayfalarının üsyanına rəhbərliyi öz əlinə almışdı. Herodotun da qeyd etdiyi kimi, kiçik hakimlikləri öz ətrafında toplayan Kaştaritinin rəhbərliyi ilə e.ə. VII əsrin sonlarında assurlara qarşı, mannalılar, kimmerlər və skiflər tərəfindən də müdafiə edilən güclü xalq hərəkatı başlandı. Herodotun verdiyi məlumata görə, Kaştaritinin başçılıq etdiyi üsyançı maday dəstələri müttəfiqləri ilə birlikdə Assuriya sərhədlərinə sürətlə yaxınlaşmaqda idi. Skiflərlə müttəfiqliklərinə arxalanan və qələbə çalacağına əmin olan Kaştariti Assuriya ilə danışıqlar aparmaqdan boyun qaçırdı. Madayların Assuriyaya qarşı mübarizəsi skiflərin də köməyilə e.ə. 673-də müstəqil Maday dövlətinin yaranması ilə nəticələndi. Lakin düşmənin hərbi üstünlüyünü görən Assuriya hökmdarı müttəfiqlərin düşərgəsinə ixtilaf salmağı bacarır. Asarhaddonun hiyləgər siyasəti nəticəsində iki skif sərkərdəsi- Partatua və İşpakay arasında ixtilaf baş verir. Skiflər arasında parçalanma baş verir. Nəticədə Partatua və onun ətrafı assurların cəbhəsinə keçir. Bundan sonra skiflərin bir dəstəsi, başda Madiy olmaqla assurların tərəfinə keçir. İşpakayın rəhbərlik etdiyi skiflərin digər hissəsi isə maday-skif ittifaqına sadiq qalır.[1] Skif ordusundakı bu parçalanma Kaştaritinin ordusunda da qarışıqlıq yarandı. Nəticədə skiflərin köməyinə arxalanıb assurların üzərinə hücuma keçən Kaştariti məğlub edilərək e.ə. 625-ci ildə öldürüldü. Beləliklə, 625–585-ci illərdə Midiya skiflərdən asılı vəziyyətə düşmüş və skiflərin sərkərdəsi Madiy Midiyada hakimiyyəti ələ keçirmişdi.

E.ə.653-625-ci illərdə skiflər 28 il boyu Madayda hökmranlıq etdilər. Lakin e.ə.VII əsrin 20-10-cu illərində maday tayfaları skiflərin Ön Asiyadakı hakim mövqeyinə son qoydular. Kaştaritinin oğlu Kiaksar (e.ə. 624-584) e.ə.624-cü ildə skif hökmdarını və əyanlarını hiylə ilə bir yerə yığaraq qılıncdan keçirdi. Bununla da atasının intiqamını alaraq Maday dövlətini skiflərin hakimiyyətindən azad etdi.

---

[1] Mənbələr skif sərkərdəsi İşpakayın təxminən e.ə. 673-cü ilin axırlarında həlak olduğunu yazır.

E.ə. VII əsrin sonlarında Midiyada hakimiyyətə Kiaksarın (e.ə.625-585) simasında çox güclü hökmdar gəldi. Herodotun verdiyi məlumata Kiaksar e. ə. 624-cü ildə skif ağalığına son qoyaraq hakimiyyəti maday sülaləsinə qaytarmışdı. Assuriya dövləti ilə mübarizəni davam etdirən Kiaksarın hakimyyət illəri Midiya tarixində dönüş nöqtəsi oldu. Kiaksar öz hakimiyyəti dövründə Assuriya dövlətini süquta uğradaraq Midiyanı kiçik bir çarlıqdan Şərqin ən güclü dövlətinə çevirməyi baçarmışdı. Onun səyi ilə bütün maday tayfaları vahid bir dövlətdə birləşdirildi. Herodotun verdiyi məlumata görə, Kiaksarın hakimiyyəti dövründə özlərini şah adlandıran xırda vilayət hakimləri mərkəzi hakimiyyətə tabe edildi və Kiaksar bundan sonra *"şahlar şahı"* rütbəsi daşımağa başladı. Paytaxt Ekbatan (Həmədan) oldu.

Ölkədə daxili sabitliyi bərpa etdikdən sonra Kiaksar torpaqlarını genişləndirmək məqsədlə ölkənin müxtəlif ərazilərində yaşayan tayfalardan döyüşçü toplayaraq Midiya ordusunu yenidən təşkil etdi. Hərb sənətində skif və assuriyalılardan xeyli təcrübə əldə etmiş Kiaksar qədim dünyanın ən güclü ordusunu qurmağı bacardı. Kiaksar nizamlı ordu yaradaraq ordunu silahlarına uyğun olaraq nizəçi, oxçu və süvari dəstələri kimi qruplaşdırdı. Bununla da Midiya tarixində ilk nizamı ordunun əsasını qoydu.

Beləliklə, e.ə. VII əsrin 20-ci illərindən Maday dövlətininn qarşısında yeni dövr - böyük işgalçı müharibələri dövrü açılır. Midiya ordusunu yenidən qurmuş və təkmilləşdirmiş Kiaksar tezliklə Midiyanın cənub-şərqində yerləşən Parfiyanı da özünə tabe edərək Midiyanın sərhədlərini Şərqi İran ərazilərinə qədər genişləndirir.

E.ə.VII əsrin 30-20-ci illərindəAssuriyanın zəifləməsindən istifadə edən Kiaksar ona qarşı müharibəyə hazırlaşır. Midiya hökmdarı Assuriya imperiyasını darmadağın etmək, eyni zamanda onunla ittifaqda olan Manna torpaqlarını da ələ keçirmək üçün öz hərbi gücünü Midiya kimi daima Assuriyanın dağıdıcı yürüşlərinə məruz qalan babillərlə birləşdirmək qərarına gəlir. Bu məqsədlə Midiya hökmdarı Kiaksar və Yeni Babilistan çarlığının hökmdarı Nabupalasar "dostluq və ittifaq" bağlayırlar. Bu ittifaq nikah diplomatiyası ilə daha da möhkəmləndirilir. Kiaksarın qızı Amitis Nabupalasarın oğlu II Navuxodonosorla evləndirilir. Hətta Babilistan şahzadəsi Navuxodonosor gözəl Midiya (Azərbaycan) dağları və təbiəti üçün darıxan xanımı Amitisin şərəfinə hazırda dünyanın yeddi möcüzəsindən biri sayılan Babilin asma bağlarını inşa etdirmişdir.

E.ə. 616- 612-ci illərdə birləşmiş Midiya və Babilistan qoşunları Assuriyanın Arbela, Kalat şəhərlərini talan etdilər, paytaxt Nenəvanı ələ keçirdilər. Beləliklə bu birliyin nəticəsi olaraq bir neçə il davam edən müharibədən sonra Assuriya dövləti özünün süqut mərhələsinə qədəm qoyur. Əsrlərlə qədim Şərq dövlətlərinin ən qorxulu düşməni olmuş geniş torpaqlara malik olan qüdrətli Assuriya dövləti e.ə. 604-cü ildə süqut etdi və onun torpaqları Midiya və Yeni Babilistan arasında bölüşdürüldü.

Assuriya üzərində qazanılmış qələbənin nəticəsində Midiya Ön Asiyanın güclü dövlətinə çevrildi. E. ə. 612-ci ildə Midiya çarı Kiaksar tarixdə ilk dəfə ikibaşlı qara qartal emblemini öz bayrağı üzərində həkk etdi. Assuriya dövlətinin süqutundan sonra işğalçılıq müharibələrinə başlayan Kiaksar Egey dənizi sahillərinə çıxa bilmək üçün ciddi hərbi əməliyyatlara başladı. İlk hədəf artıq tənəzzül dövrünü yaşamaqda olan qədim Urartu dövləti oldu. Çünki bu dövlət Kiçik Asiyaya gedən yolun üzərində yerləşirdi. E.ə. 609-cu ildə Kiaksar Urartu üzərinə hücuma başlayır. E.ə. 585-ci ildə Urartu torpaqları Midiyanın tərkibinə qatılır.

Lakin bu dövrdə Midiya ilə Urartu arasında yerləşən Manna dövlətinin aqibəti naməlum olaraq qalır. Manna müharibə meydanlarından kənarda yerləşdiyi üçün, görünür, rəsmən Midiyadan siyasi asılılığı qəbul etməklə daxili idarəetmədə müstəqilliyini saxlaya bilmişdir. Mənbələrdə yalnız e.ə.590-cı ildən Madayın tərkibində Mannanın adı çəkilməyə başlayır. Bu dövrdən etibarən keçmiş Manna torpaqları Kiçik Mada adlanmağa başlamışdı. İnkişaf etmiş kənd təsərrüfatına, sənətkarlığa və şəhər həyatına malik olan Manna ərazisi Mada dövlətinin iqtisadi və mədəni mərkəzinə çevrildi.

Beləliklə, Kiaksarın hakimiyyəti dövründə Maday dövləti qədim dünyanın ən güclü dövlətləri olan Assuriya və Urartu dövlətlərinə birdəfəlik son qoyaraq tədricən böyük bir imperiyaya çevrilir. E.ə. 590 - e.ə. 585-ci illərdə Kiaksar qərbdə Anadolu torpaqlarına sahib olmaq üçün Lidiya ilə müharibələr aparır. Beş il davam edən Midiya-Lidiya döyüşlərinin sonuncusu e.ə. 585–ci il 28 mayda Halis çayının sahilində[1] baş vermişdir. Tarixə Halis döyüşü adı ilə düşmüş bu döyüş zamanı baş verən günəş tutulması döyüşün taleyini

[1] Halis çayı - müasir Türkiyə Cümhuriyyəti ərazisində başlanğıcını Türkiyənin Şərqi Anadolu bölgəsindən götürərək Qara dənizə tökülən Qızılırmak çayı.

həll etmiş olur. Günəş tutulmasını tanrıların qəzəbi sayan Kiaksar[1] və Lidiya Hökmadrı II Aliat döyüşü dayandıraraq sülh bağlamaq qərarına gəlmişlər. Sülh müqaviləsinə görə döyüşün başlandığı Halis çayı Midiya və Lidiya arasında sərhəd qəbul edilmişdir. Baglanmış sülh müqaviləsi nikah diplomatiyası ilə daha da möhkəmləndirilmiş, II Aliattın qızı Aryenislə Kiaksarın oğlu Astiaq evləndirilmişdi. Bu hadisə ilə bağlı Herodot yazır ki, müharibənin altıncı ilində çay kənarındakı döyüşlərdən birində birdən-birə gündüz gecə oldu və hər yer qaranlığa qərq oldu. Müharibəyə son qoyan sülh qərarı qohumluq əlaqələri ilə də möhkəmləndirildikdən sonra tərəflər arasında hansısa bir toqquşma və ya anlaşmazlıq baş vermədi.

Beləliklə, antik yunan müəlliflərinin "Asiya üzərində hökmranlığın banisi" adlandırılmış Kiaksar hakimiyyətdə olduğu dövrdə kiçik Mada çarlığının ərazisini Mannadan başlayaq Urartu torpaqları, Hirkaniya, həmçinin vaxtilə Assuriyanın asılılığında olmuş Parfiya ilə birlikdə İranın bütün şərq torpaqlarını əhatə edən qüdrətli bir dövlətə çevirdi. Midiya dövlətinin sərhədləri Şərqdə Orta Asiyadan qərbdə Halis çayınadək uzanırdı. Şimali Azərbaycanın bəzi bölgələri də Midiya dövlətinin tərkibinə daxil idi.

### *3.3. Midiya dövlətinin süqutu*
### *3.3. 1. Midiya dövləti tənəzzül mərhələsinin başlanması*

Halis döyüşündən qısa müddət sonra Midiyanı Şərqin ən güclü dövlətinə çevirmiş qüdrətli hökmdar Kiaksar (e.ə. 625- e.ə. 585) vəfat etdi. Kiaksarın vəfatından sonra hakimiyyətə gələn oğlu Astiaq (e.ə.585-550) Midiya dövlətinın sonuncu hökmdarı oldu.

Kiaksardan oğluna nəhəng bir imperiya miras qalsa da, Astiaq (e.ə.584-550) hakimiyyətinin sonuna yaxın imperiyanın əvvəlki qüdrətini saxlamaq iqtidarında deyildi. Astiaqın hakimiyyətinin ilk dövründə ölkənin vəziyyəti stabil olsa da, bir müddət sonra dövlət işlərini bir tərəfə buraxıb vaxtını yalnız eyş-işrət məclislərində keçirən Astiaqın yüksək rütbəli saray əyanları və maday zadəganları ilə münasibətləri gərginləşdi. Bununla da o, hökmdar üçün çox vacib olan zadəganların dəstəyindən məhrum oldu. Məhz bu səbəbdən

---

[1] Azərbaycan tayfaları qədim inancları sırasında Günəşə sitayiş mühüm yer tuturdu. Azərbaycan qədim ənənələrinə görə Ay və Günəş tutulmaları pis əlamət sayılır. Bu ənənə bu gün də azərbaycanlılar arasında yaşamaqdadır.

Astiaqın hakimiyyətinin son illərində Midiyanın daxili və xarici vəziyyəti mürəkkəbləşməyə başladı. Herodotun verdiyi məlumata görə, Astiaq hakimiyyəti itirəcəyindən çox qorxurdu, xüsusilə də gördüyü bir yuxu bu qorxunu daha da artırmışdı. Rəvayətə görə, Astiaq qızı Mandanadan olan nəvəsinin ona qarşı çıxacağı və onun imperiyasını məhv edəcəyi haqqında yuxu görür. Bu qorxunc yuxudan sonra Astiaq qızını fars vilayətinin hakimi Əhəmənilər nəslindən olan I Kambizə ərə verir[1]. Ənənəyə görə maday sülaləsindən olmayan fars mənşəli şahzadə Midiya taxtına sahib ola bilməzdi. Ona görə də Astiaq qızını fars şahzadəsinə ərə vermişdi. Astiaq hətta Mandanadan olan nəvəsinin onu hakimiyyətdən devirəcəyi qorxusu ilə sərkərdəsi Harpaqı nəvəsini öldürmək üçün Parfiyaya göndərir. Lakin Harpaq hökmdar sülaləsindən olan birini oldürmək istəmədiyi üçün onu ölü doğulmuş bir çoban uşağı ilə dəyişdirir və Astiaqı uşağın öldürdüyünə inandırır. Astiaqın qızı Mandananın I Kambizdən doğulmuş körpəsini isə çobanın ailəsinə verir. Həmin uşaq gələcəkdə həqiqətən də Astiaqın hakimiyyətini devirəcək II Kir idi. Lakin Kir on yaşına çatdıqda, Astiaq nəvəsi Kirin yaşadığını öyrənir və onu əsl valdeynlərinin- qızı Mandana ilə fars əyanı I Kambizin yanına göndərir. Kirin sağ olmasından və Harpaqın onun əmrini yerinə yetirməməsindən qəzəblənərək Astiaq Harpaqı çox ağır cəzalandırır. Onun Harpaqa qarşı ədalətsiz münasibəti bu Midiya sərkərdəsinin Astiaqa qarşı çıxan Parfiya tərəfinə keçməsinə səbəb oldu.

### *3.3.2. II Kirin qiyamı və Midiyada hakimiyyəti ələ keçirməsi*

E.ə. 559-cu ildən Parfiya vilayətinin hakimi olan II Kir Astiaqa qarşı e.ə. 553-cü ildə üsyan qaldırır. Farsların madaylara qarşı qaldırdığı bu üsyan tarixə Fars qiyamı adı ilə düşmüşdür. II Kirin başlatdığı bu üsyan 3 il davam edir. İlk döyüşlərdə madaylar üsyançılara qalib gəlsələr də, tədricən II Kir çox qüvvətli ordu qurmağa nail olur. Eyni zamanda II Kir Midiya hökmdarından narazı olan bəzi maday sərkərdələrini də öz tərəfinə çəkməyi bacarır.

[1] Hələ I Kirin dövründə (e.ə.640-604) İran körfəzindəki bu fars əyaləti Assuriyanın asılılığını qəbul etmişdi. E.ə.VI əsrdə Maday dövlətinin güclənməsi ilə Parfiya əyaləti Maday dövlətinə qatılaraq onun canişinliyinə çevrilmişdi.

Astiaqın hakimiyyətdə olduğu illər ərzində buraxdığı səhvlər ucbatından Midiya zadəganlarının böyük bir hissəsi ondan üz döndərmişdi.

Beləliklə, farslar və madaylar arasında gedən müharibənin üçüncü ilində maday ordusu Pasarqard döyüşündə Asitiaqa qarşı çıxır və hökmdarın əmrlərinə tabe olmayaraq dağılır. Farslar Parfiyadan Midiyanın idarəetmə mərkəzinə – paytaxt Ekbatanaya doğru yürüş edirlər. Kir Astiaqı məğlub edərək Midiya dövlətinin paytaxtı Ekbatana şəhərini tutur. Bununla da Madayda hakimiyyət fars Əhəməni sülaləsinin əlinə keçdi. Maday sülaləsinin devrilməsilə Midiya dövlətinin varlığına son qoyulur.

Beləliklə, Əhəməni sülaləsindən olan Parfiya hakimi II Kir Maday dövlətinin yerində Əhəmənilər imperiyasının (e.ə.550-531) əsasını qoydu.

### *3.4 Midiyanın təsərrüfat həyatı, mədəniyyəti dini dünyagörüşləri*

**Midiyanın təsərrüfat həyatı.** Midiya əhalisinin əsas məşğuliyyəti əkinçilik və maldarlıq olmuşdur. Mənbələrdən Midiya ərazisində münbit məbəd torpaqlarının bəhs edilir. Ölkədə şərabçılıq inkişaf etmiş təsərrüfat sahələrindən biri olmuşdur. Mənbələrdə Midiya əhalisinin içki hazırlama ənənələri barədə maraqlı məlumatlara rast gəlinir. Antik müəlliflər Midiyanın təsərrüfat həyatında müxtəlif yabanı bitkilərdən hazırlanan içkilər və məlhəmlər haqda məlumat vermişlər. Strabon yazır ki, Mada sakinləri bəzi bitkilərin köklərindən şərab çəkirlər.

Mənbələrdən, həmçinin Midiya ərazisində bağçılıgın yüksək səviyyədə inkişaf etdiyi məlum olur. Antik qaynaqlar Midiya sakinlərinin meyvələrlə qidalanması, hətta qurudulmuş və döyülmüş almadan kökə, qovrulmuş badamdan isə çörək bişirməsi haqda məlumat verirlər. Midiya torpaqlarında üzüm və əncir, buğda yetişdirilir. Strabon Madiyada zeytun da yetişdirildiyini yazır. Antik müəllif Midiyada yetişən "xüsusi otdan" - yoncadan da bəhs etmişdir. O, yoncanın "atlar üçün ən yaxşı yem" olduğunu yazır və bu otu "Midiyada çox bitdiyi üçün Midiya otu" adlandırır.

Starobonun Midiya torpağında yetişən və ondan "Mada şirəsi" deyilən şirə çəkilən xüsusi bitkidən - yabanı yerkökündən də bəhs edir. Mada şirəsini tərifləyən antik müəllif onu uzun müddət saxla-

maq mümkün olduğunu yazır. Məlumdur ki, qədim təbabətdə bu yabanı bitkinin şirəsindən ədviyyat və dərman kimi də istifadə edirdilər.

Antik müəlliflərdən Ammian Marsellin məlumat verir ki, "bu ölkədə Midiya yağı hazırlanır". Ammian "Midiya yağı"nın hazırlanma üsulunu belə təsvir edir: "yağın içərisinə xüsusi bir ot tökür, sonra qatılaşmağa qoyurlar, yağ qatılaşdıqda ona qatı yağa bənzər təbii yanacaq əlavə edərək daha da qatılaşdırırdılar. Bu yağ yerli dildə *nafta* adlanırdı. "Midiya yağı" adlanan neftdən, əsasən, hərbi məqsədlər üçün istifadə edilirdi. Neftli parçanı oxlara bağlayıb od vuraraq düşmən üzərinə və yanğın törətmək üçün evlərin damına atırdılar. Bu yağla yağlanmış ox bir az gərilmiş kamandan qopub nəyə isə sancıldıqda bərk alovlanır. Çıxan atəşi su ilə söndürmək istədikdə alov daha da şiddətlənir və onu yalnız üstünə torpaq atmaqla söndürmək mümkündür.

"Midiya yağı" həm hərbi işdə, həm də təsərrüfatda istifadə edilirdi. "Midiya yağı" o dövrün gil və metal çıraqları üçün də yanacaq idi. Öz-özünə alışan yağın hazırlanması neft məhsulları istehsalının yüksək səviyyəsindən xəbər verir.

Midiyanın təbii sərvətləri içərisində duz gölləri də ölkənin təsərrüfat həyatında xüsusi yer tuturdu. Midiya ərazisindəki duz gölləri haqda məlumat verən antik məbələr orada xüsusi duzxanaların olması barədə məlumat vermişlər.

Midiya Qədim Şərqin ticarət yollarının qovşağında yerləşirdi. Midiya torpaqlarından keçən, Kaspi sahili boyunca şimala gedən yolun Qədim Şərq ticarətində böyük əhəmiyyəti vardı. Strabon yazır ki, Kaspi əhalisi dəvələrlə gedib madalılardan Babil və Hind malları alırdılar. Klavdi Elian Ekbatanaya balıq daşınması haqqında məlumat verir. Bu məlumat Kaspianadan Atropatenaya gedən ticarət yolunun mövcud olduğunu təsdiq edir.

Strabonun məlumatına görə, hündür dağlara malik olan Midiya ölkəsində atçılığa böyük yer verilir və ən məşhur atlar bu ərazidə bəslənilir. Burada ən çox at bəslənilən otlaqlar Babilistanla Kaspi darvazası arasında olan ərazidə yerləşir. "Nisa" cinsindən olan atlar barədə məlumat verən Strabon şah ilxısında 50 minə yaxın madyan bəsləndiyini yazırdı. Dövrünun ən məşhur atları olub dünya şöhrəti qazanmış "Nisa" cinsli atlar məhz burada yetişdirilirdi. "Nisa" atlarının əsas vətəni və bəslənilən yeri Səhənd dağının qərb yamacları və Urmiya gölünün ətraf rayonları olmuşdur.

Midiya ərazisində dulusçuluq, toxuculuq, metalişləmə kimi dekorativ tətbiqi sənətlər və heykəltəraşlıq yüksək səviyyədə inkişaf etmişdi. Midiya ərazisindən dəmir, qurğuşun, qızıl və s. kimi qiymətli metalların çıxarılması Metalişləmə sənətinin daha geniş yayılmasına gətirib çıxarmışdı. Arxeoloji materiallar əsasında aşkar edilmiş geyim və bəzək əşyaları, silah və nəqliyyat vasitələri, istehsal alətləri Midiya dövründə yüksək sənətkarlıq ənənələrinin mövcud olduğunu göstərir. Arxeoloqların aşkar etdikləri qədim sənət əsərləri Midiya incəsənəti haqqında müəyyən təsəvvürün yaranmasına imkan vermişdir. Midiya sənətkarları bir çox sahələrdə Manna ustalarının sənət ənənələrini davam və inkişaf etdirmişlər.

Midiya sənətkarları Şumer ənənələri ilə yetişmişdi. Midiya tayfaları mannalar, babil və assurlar vasitəsiylə qədim şumerlərin dini etiqadları, incəsənəti və mədəniyyəti ilə yaxından tanış olmuş və ondan bəhrələnmişlər. Bu yaxınlığa Midiyanın Şumer ölkəsi ilə qonşuluqda yerləşməsi və madayların şumerlərin mədəni varisləri olan babil və assurlarla iqtisadi, mədəni və hərbi əlaqələri imkan yaratmışdır. Midiya da eyni zamanda e.ə. VII–VI əsrlərdə öz dini etiqadları, incəsənəti və mədəniyyətləri ilə qonşu xalqlara təsir göstərə bilmişdir.

Mövcud materiallar əsasında qədim midiyalıların mədəniyyəti, əkinçi və döyüşçü, əyan və kahin (maq) geyimləri əsasında etnoqrafik ənənələrini də müəyyən etmək mümkündür. Xüsusilə də Təxti-Cəmşid qabartma əşyaları və təsvirli möhürlərində yerli əhalinin dini ayinləri və ənənələri aydın təsvir olunmuşdur. Nineva ərazisindən aşkar edilən e.ə. VII əsrə aid bir Assur qabartmasında midiyalıların zorla köçürülməsi səhnəsindəki təsvirdə Midya əhalisinin geyimləri, saçları və s. haqqında təsəvvür yaranır. Bu təsvirlərdəki paxlava formalı naxışlarla bəzədilmiş kişi geyimləri, uzun bağlı uzunboğaz çəkmələr – hazırda Azərbaycana xas olan milli ornament və elementlərin izlərini əks etdirir. Qeyd etmək lazımdır ki, üzərində at-xoruz, keçi-maral və başqa mifik heyvanların təsvir edildiyi Mada geyimləri və parçaları bütün Yaxın Şərqdə geniş yayılmışdı. Bu qabartılarda Midiya zadəganlarının geyim təsvirlərinə də rast gəlinir. Belə Midiya geyimli fiqurlara Təxti-Cəmşid qabartılarının bir çox yerində rast gəlmək mümkündür. Midiya din xadimlərinin, kahinləri–maqların da təsvirləri e.ə. V əsrə aid olan Təxti-Cəmşid qabartılarında öz əksini tapmışdır. Bu qabartılarda Midiya maqlarının geyim formaları və keçirmiş olduqları bir neçə dini ayin təsvir edilmişdir. Onlardan birində keçi

balasını qoltuğuna vuraraq qurban (nəzir) verməyə aparan gənc bir midiyalının- yığcam, dar və qısa geyimli, Avesta qanunlarına uyğun şəkildə ağzını bağlayan maqın təsviri verilmişdir.

Bu qabartmalarda müqəddəs haoma içkisi olan qabı aparan maq təsvirlərinə də rast gəlinir. Maqlar əynində uzun köynək, başında şiştəpəli başlıq və gen-bol, dəbdəbəli paltartarla, üzündə sarğı, əllərini irəliyə uzadıb dua oxuduğu vəziyyətdə təsvir edilmişlər. Maqların belə ayin mərasimi haqqında Avestada məlumat verilir. Maq geyimində olan kahinlər paltarın üstündən boş qolları sallanmış uzun əba, od məbəd kahinləri isə daha qısa paltarda olub yüngül ayaqqabılar (çarıq) geyərdilər. Maqın qarşısında üçpilləli od ibadətgahı görünür. Bu ibadətgahın sağ tərəfində dayanmış padşahın da ağzında sarğı vardır. Həm padşahın, həm də maqın əlində qələbə, hökmranlıq rəmzi olan kaman qurbangahın qarşısında qələbəyə həsr edilmiş ayin keçirildiyini söyləməyə əsas verir.

Bu təsvirdə maq əlində homa içkisi tutduğu üçün ağzı sarğılıdır. Maqlar homa içkisi, yaxud od qarşısında olarkən ağızlarını sarğı ilə sarıyırdılar ki, öz nəfəsləri ilə müqəddəs odu murdarlamasınlar. Maqın əlində tutduğu homa içkisinin qabı da qapaqlıdır. Homa içkisi adətən silindrik gil və ağzı qapaqlı qablarda saxlanırdı. Bu müqəddəs içkiyə bədxah, natəmiz ruhların daxil olub, onun paklığına, saflığına xələl gətirməməsi üçün qapaqlı qablarda saxlanırdı.

E.ə. VIII əsrin sonuna aid olan assur qabartmalarında ənənəvi Midiya geyimində olan nizə ilə silahlanmış Midiya döyüşçüləri, e.ə. V əsrə aid Təxti-Cəmşid qabartılarından birində isə madayların qoşa at qoşulmuş döyüş arabasının təsviri, madayların hərbi geyimləri, sursat, nəqliyyat və qoşqu vasitələri haqda məlumat verilir. E.ə. VII – IV əsrlərə aid silindrik formalı möhürlərlərdə Midiya döyüşçülərinin silahları, geyimləri və döyüş vərdişləri ilə bağlı maraqlı təsvirlər əks olunmuşdur. Məsələn, e.ə. VII-VI əsrlərə aid bir Elam möhüründə çapan atın üstündə ox və kamanla silahlanmış və nizə ilə zərbə endirməyə hazırlaşan atlı Midiya döyüşçüsü təsvir edilmişdir. Başqa bir möhürdə isə ox və kamanla silahlanmış, zirehli geyimdə olan Midiya döyüşçülərinin skiflərlə döyüş səhnəsi təsvir edilmişdir.. Herodot yazırdı ki, Əhəməni döyüşçüləri öz geyim formaları və silahlarını madaylardan götürmüşlər.

Midiya incəsənətinə qədim dini inanclarla yanaşı, Avesta ideyaları ciddi təsir göstərmişdir. Midiya dövrünə aid əsərlərin təsvir motivlərində, məsələn, Nəhavənddə tapılmış e.ə. II minilliyə aid gil

qabın üzərində şər tanrısı sayılan Əhrimanın simvolik təsviri olan qanadlı, təkbuynuzlu, ilan quyruqlu, şirəbənzər mifik bir heyvan təsvir edilmişdir. Əhrimanın bu tipli, lakin qanadsız təsvirinə Gədəbəy rayonundan tapılmış Midiya dövrünə aid tunc kəmərin üstündə də rast gəlinmişdir. Midiya sənətkarları – həm qiymətli metaldan, həm də gildən dini mərasimlərdə istifadə etmək üçün zoomorfik təsvirlərlə zəngin müxtəlif formalı camlar hazırlayırdılar. Xeyir və bərəkət ayinlərində istifadə edilən bu camların ağzı öküz, qoyun və maral başlarına bənzər fiqurlarla bəzədilirdi. Bəzən ilan, keçi, qoç, maral və s. təsvirli belə zoomorf motivlər camların üstünə və gövdəsinə də çəkilirdi, Camların gövdəsinə qoç və ya maral başı fiquru yapışdırılırdı. Bu magik fiqurların qabların içini və çölünü bədxah qüvvələrdən qoruduğuna inanılırdı. Ümumiyyətlə, Midiya dulusçuları dini əqidələrlə bağlı olan qoyun, quş, ördək fiqurları formasında çoxlu zoomorf qablar hazırlamışlar.

E.ə. I minilliyin əvvəlindən etibarən qədim dulusçuluq ənənələrinə sadiq qalan Midiya ustaları dini- magik mərasimlər üçün hazırlanan dulusçuluq məmulatlarının üzərini günəşin simvolik təsvirlərilə bəzəyirdilər. Bu qablarda əsasən at təsvirinə rast gəlindiyi üçün onların günəş tanrısı Mitranın şərəfinə olduğu ehtimal edilir. Belə qablardan birində atla birgə , onun başı üstündə günəş təsviri də mövcuddur. Avestada əsas sitayiş obyektlərindən biri olan Günəş allahı Mitra "geniş otlaqlara malik", "sürü və uşaq bəxş edən", "torpaqları və atları düşməndən qoruyan" ilahi kimi təsvir edilir.

**Metalişəmə.** Midiya sənətkarlarının zəngin bədii təsvirli metal əşyaları hazırlaması madayların bu sahədə yüksək inkişaf səviyyəsini göstərir. Təxti-Cəmşiddə tapılmış Daranın (e.ə. 522 – 486) saray əşyaları içərisində Midiya sərkərdəsinə məxsus qızıldan hazırlanmış zəngin bəzək tərtibatlı qılınc qını, Midiyanın paytaxtı Ekbatan (Həmədan) şəhərindən tapılmış e.ə. V əsrə aid olan, boğazında Əhəməni şahı Kserksin (e.ə. 485 – 465) adı olan qızıl cam Midiya sənətkarları haqda təsəvvür yaradır. Midiyanın paytaxtı Ekbatan şəhərinin yaxınlığında üzərində boyunduruğa qoşulmuş iki öküzlə yer şumlayan bir əkinçinin təsviri olan hökmdar əsasının tunc başlığı tapılmışdır. Belə əsanın ovsun mərasimləri zamanı istifadə edildiyi ehtimal olunur.

**Heykəltəraşlıq** Midiya heykəltəraşlıq sənəti daha qədim lullubi – kuti ənənələrinə əsaslanırdı. Midiya heykəltəraşlıq sənəti barədə ən mühüm mənbə Bisütun qayalarında çapılmış qabarıq təsvirlərdir.

Bisütun dağındakı təsvirlərin lullubi hökmdarı Anubaninin təsvirini təkrar etməsi Midiya ustalarının əslində bu bölgədəki qədim ənənələri davam etdirdiyini göstərir.

**Memarlıq** Midiyanın qüdrətli imperiyaya çevrilməsi burada möhtəşəm saray tikintilərinin aparılmasına şərait yaratmışdır. Antik müəlliflərdən Herodot və Polibi Midiyanın paytaxtı Ekbatanda *böyük saray olması barədə* məlumat verirlər. Antik müəlliflər Ekbatan saraylarının genişliyi, zənginliyini xüsusilə də, sidr ağaclarından düzəldilən, üstü gümüş və qızıl vərəqləri ilə örtülmüş sütunlardan bəhs etmişlər.

**Dini dünyagörüşləri.** Cənubi Azərbaycan sakinlərinin dini həyatında Mada maqlarının rolu xüsusilə böyük idi. Mada cəmiyyətində əyanlarla yanaşı maqlar(muğlar) - kahinlər mühüm yer tuturdular. Xalq arasında böyük nüfuza malik olan maqlar hökmdar yanında da xüsusi nüfuz sahibi idilər. E.ə. 521-ci ildə fars hakimiyyətinə qarşı Qaumata üsyanında maqlar mühüm rol oynamışlar.

Mənbələr hələ Deyokun hakimiyyəti dövründə Madada məbəd təsərrüfatının mövcud olduğunu təsdiqləyir. Avestada maqların qədimdən geniş torpaqlara malik olması barədə məlumat verilir. Antik müəlliflərin məlumat verdikləri kimi maqlar öz təsərrüfatlarında xüsusi üzüm növündən *haoma* adlı şirə hazırlayardılar. Hazırda belə üzüm növü Cəlilabad rayonunda indi də həməşirə (haumaşirə) adı ilə mövcuddur. Qeyd etmək lazımdır ki, ərəb işğallarına qədər maqlar Muğanda öz qədim dini əqidələrini yaşatmaqda idilər.

### *3.5.Azərbaycan Əhəmənilər imperiyasının tərkibində*

E.ə. VI əsrin ortalarından 550-ci ildən e.ə.330-cu ilədək mövcud olmuş Əhəməni imperiyası Yaxın və Orta Şərqin bir çox ölkəsinin hakimiyyəti altında birləşdirmişdi. Əhəməni İmperiyasının banisi II Kir (e.ə. 600 – e.ə. 529) cənub-qərbi Asiyanın tamamını fəth edərək, ərazisinə görə o zamanlara qədər dünyada görünməyən genişlikdə bir imperiya yaratmışdı. Əhəmənilər sülaləsinin nümayəndələri II Böyük Kir, II Kambiz, I Dara, I Kserks, I Artakserks, II Kserks, Soqdian və ya Sekudian, II Dara, III Artakserks, Arses, III Dara olmuşlar.

### *3.5.1. Midiya dövlətinin yerində Əhəməni imperiyasının yaranması*

Astiaqın hökmranlığının sonuna yaxın (e.ə. 585-550-ci illərdə) Midiya dövlətinin vəziyyəti çox mürəkkəb idi. Astiaq bir tərəfdən ölkə daxilindəki ixtilaflarla üzləşmişdi, mərkəzi hakimiyyətə qarşı cıxan nəsli əyanlar, həmçinin ölkədə mühüm nüfuzu olan kahinlər-maqlar hökmdardan narazı idilər. Digər tərəfdən də Astiaq Şimali Mesopotamiyada müharibə aparırdı. Ordu müharibələrdən yorğun düşmuşdu və ölkənin iqtisadi həyatı zəifləmişdi. Belə bir vaxtda e.ə. 553-cü ildə II Kirin başçılığı altında farslar üsyan etdilər. Üç il davam edən üsyan nəticəsində e.ə. 550-ci ildə Kir Astiaqı taxtdan salaraq Midiyaya yiyələndi, Madiya çarlarının rəsmi titullarını qəbul etdi. Midiya dövləti süqut etdi, paytaxt Ekbatana dağıldı, Ekbatan sarayının sərvətlərini Parfiyaya daşındı. Beləliklə, Midiya farsların hakimiyyəti altına düşdü.

Midiyalılara qalib gəldikdən sonra II Kir istila müharibələrinə başladı. On ildən artıq dövrdə nəhəng bir imperiya - Əhəməni dövləti yaradıldı.Əhəməni II Kir Maday üzərindəki qələbədən sonra işğalçı müharibələrinə başlayaraq Əhəməni dövlətini ən böyük imperiyalardan birinə çevirdi. II Kirin başçılığı altında Əhəməni İmperiyası cənub-qərbi Asiyanın tamamını fəth edərək, ərazisinə görə o zamanlara qədər dünyada görünməyən genişlikdə bir dövlətə çevrilmişdir. Onun sərhədləri qərbdə Aralıq və Egey dənizlərinə, şərqdə isə Orta Asiya torpaqlarına qədər uzanırdı.

Əhəməni hökmdarı II Kir Maday üzərindəki qələbədən sonra işğalçı müharibələrinə başlayaraq Əhəməni dövlətini ən böyük imperiyalardan birinə çevirdi. II Kirin 20 illik hakimiyyəti dövründə bir sıra ölkələrə qarşı hərbi əməliyyatları aparır. E. ə. 550-ci ildə Midiyada hakimiyyəti ələ keçirdikdən sonrakı üç ildə Midiya dövlətinin tərkibində olan ölkələr, e. ə. 546-ci ildə Kiçik Asiyadakı yunan şəhərləri tutulmuşdu. Kiçik Asiyanın xeyli hissəsi, Babilistan, Misir, Egey dənizi adaları, Frakiya, Makedoniya və Hindistanın şimal-qərb hissəsi işğal edilmişdi.

Məqsədi böyük imperiya yaratmaq olan II Kir tezliklə Babilistanı, Anadoludakı Lidiya dövlətini də özünə tabe edə bildi. Misirə qədər olan ərazilər də işğal olundu. Herodotun, Ktesinin, və Ksenofontun verdiyi məlumatlara görə, bu işğallardan sonra e.ə. 545-539-cu illər ərzində II Kir Orta Asiyanın Baktriya, Xarəzm kimi bir çox

mühüm siyasi mərkəzlərini də zəbt etmişdi. Əhəməni imperiyasının sərhədləri qərbdə Aralıq və Egey dənizlərinə, şərqdə isə Orta Asiya torpaqlarına qədər uzanırdı.

Midiya imperiyası, Lidiya, Babilistan kimi qüdrətli dövlətləri aradan qaldıraraq, Parfiya torpaqları da daxil olmaqla, Mərkəzi Asiyadan Misir hüdudlarına qədər çox geniş əraziləri ələ keçirmiş II Kirin yaratdığı Əhəmənilər dövlətində təsərrüfat həyatı, beynəlxalq ticarət çiçəkləndi. Əhəməni dövlətinin paytaxtı Persepol şəhəri oldu.

II Kir başda olmaqla (e.ə. 550-530-cu illər) Əhəməni hökmdarları, daha sonra onun oğlu II Kambiz (e.ə. 530-523-cü illər) və I Dara (e.ə. 522-486-cı illər) bir çox ölkələri işğal edərək nəhəng imperiya yaratdılar. Herodotun məlumatına görə Əhəmənilər imperiyasının şimal sərhədləri Böyük Qafqaz sıra dağlarına qədər çatırdı. Əhəmənilər İmperiyası qərbdə Misir daxil olmaqla şimal-şərqi Afrikadan, şərqdə Hindistanın Hind çayı vadisinə, cənubda İran körfəzi və Hind okeanından şimalda Böyük Qafqaz dağlarına qədər geniş ərazini əhatə edirdi. O vaxta qədər dünyada bu böyüklükdə imperiya yaranmamışdı. Əhəmənilər İmperiyası bu ərazilərdə yaşayan 70-ə qədər xalqın mədəniyyətlərinin ənənəvi xüsusiyyətlərini özündə əks etdirirdi.

### *3.5.2. Azərbaycan torpaqları Əhəmənilər hakimiyyəti altında*

Əhəməni II Kir Midiya üzərindəki qələbədən sonra Midiya torpaqlarını da digər işğal etdiyi ərazilər kimi satraplığa çevrirdi. Cənubi Azərbaycan torpaqlarının, demək olar ki, bütün ərazisi bu dövrdə Mada satraplığına daxil idi. Əhəmənilərin hakimiyyəti altına keçdikdən sonra, Midiya(Mada) iki hissəyə – madayların ana vətəni olan Kiçik Midiya (Azərbaycan) və Midiya dövlətinə tabe olmuş digər əraziləri əhatə edən Böyük Midiya ərazilərinə bölündü. Beləliklə, vaxtilə Midiyanın tərkibində olan Cənubi Azərbaycan torpaqları "Kiçik Midiya" (Kiçik Mada) adı ilə Əhəməni dövlətinin tərkibinə qatıldı.

Mərkəzi Asiyadan Misir hüdudlarına qədər çox geniş əraziləri ələ keçirmiş II Kir Azərbaycanın şimalını da öz dövlətinə qatmaq niyyətində idi. Lakin Şimali Azərbaycanda Dərbəndlə Gilgilçal arasındakı ərazilərdə yaranmış Massaget çarlığının qadın hökmdarı Tomris buna imkan vermədi. Massaget şahı öldükdən sonra tayfanın

başına onun xanımı Tomris keçmişdi. Massagetlər haqda məlumat verən Heredot onların çoxsaylı və cəsur bir tayfa olub Araz çayının o tayında yaşadığını qeyd edirdi. Qafqazda və Orta Asiyada yayılmış massaget tayfalarının Sak tayfalarından biri olduğu ehtimal edilir. Starbon qeyd edirdi ki, skiflərin bir hissəsi özlərini massagetlər və saklar adlandırıdı.

E.ə.530-cu ildə II Kir Şimali Azərbaycan ərazisində massagetlərə qarşı yürüş etsə də mənbələrdə cəsur bir tayfa kimi təsvir edilən massagetlərin hökmdarı Tomris tərəfindən məğlubiyyətə uğradılaraq öldürülmüşdü. Kir Massaget çarlığını ələ keçirmək üçün Tomrislə evlənmək istəsə də Tomris təklifi rədd edir. Əhəməni hökmdarı hiyləgərliklə öz istəyinə nail ola bilmədikdə Azərbaycan ərazisində hərbi əməliyyatlara başlamaq üçün öz ordusu ilə Araz çayını keçib, açıq hücuma keçmək qərarına gəlir. Bu məqsədlə II Kir e.ə.530-cu ildə ordunun Araz çayından keçməsi üçün körpülər salmağa, körpü əmələ gətirən sallar qurmağı əmr edir. Tomris II Kirə geri öz ölkəsinə dönməyi tövsiyə etsə də, Tomirisin sülh, barışıq, əmin-amanlıq təklifini Kir qəbul etmədi. Əksinə yeni hiylələr fikirləşən II Kir ilk döyüşdə fənd işlədərək Massagetlərin sərkərdəsi, Tomrisin oğlu Sparqapisi əsir almagı bacarır. Şah Tomirisə xəbər göndərir ki, biz sənin ölkənə keçmək istəyirik, geri çəkil. Tomiris də sözünə əməl edərək qoşununu geri çəkir. Belə olduqda Kir oğlu Kambizi geri ölkəsinə göndərib, özü qoşunla birgə çayı keçir. Bir günün içində Arazı keçən Kir sərkərdəsinin təklifi ilə düşərgəsində ən zəif dəstəsini qoyaraq, özü qoşunun güclü hissəsi ilə geri çəkilir. Massagetlər düşərgəyə hücum çəkib, zəif fars dəsətəsinə qalib gəlirlər. Lakin qələbəni qeyd edən massagetlər farsların qurduğu tələyə düşürlər: Onların özləri ilə gətirdikləri yeyib-içməyi və şərabları içirlər. Yeyib-içdikdən sonra massagetləri yuxu tutur. Onlar yuxuda farsların hücumuna məruz qalırlar, Tutulan əsirlərin içərisində Massagetlərin sərkərdəsi, Tomirisin oğlu Sparqapis də var idi. Tomirisin oğlu şərabın təsiri keçən kimi əsir düşdüyünü anlayır və əl-qolunun açılmasını xahiş edir. Əlləri açılan kimi II Kirin fəndlərinin qurbanı olmuş gənc sərkərdə-Tomirisin oğlu Sparqapis əsir düşməsinə və bu rüsvayçılığa dözməyərək şahzadə özünü öldürür. Qoşununun və oğlunun aqibətindən xəbər tutan Tomris Kirin onun oğlunu

qaytararaq ölkəni tərk etməsini tələb edir. Əks halda Kiri qan gölündə boğacağına Günəş allahına and içir.[1]

II Kirin onun tələbinə əhəmiyyət vermədiyini gördükdə Tomris Əhəməni ordusunun üzərinə hücuma keçir. Tomris, qoşununu həlledici döyüşə hazırlayır. Günəş allahına and içərək döyüşə atılmış massagetlər, özlərindən qat-qat güclü olan yadelli qoşunlarını e.ə. 530-cu ildə darmadağın etmişdilər. Bu qanlı döyüşdə massagetlər qələbə çaldılar və "məğlubedilməz" Kirin özü də bu döyüşdə öldürüldü. II Kirə tökdüyü qanlar qədər qan udduracağına and içmiş Massaget hökmdarı Tomisirin əmri ilə Kirin başı kəsilir, qanla doldurulmuş tuluğa salınır**.** Beləliklə də, II Kirin 29 illik hakimiyyətinə Massaget hökmdarı Tomisi son qoyur. Bütün işğallara görə "Böyük Kir" ləqəbi qazanmış II Kir üzərindəki bu qələbə Azərbaycan dövlətçiliyi tarixində ən şanlı səhifələrindən biri oldu.

II Kirin massagetlərlə döyüşdə öldürülməsi qısa müddətdə neçə-neçə ölkələr fəth edən Əhəməni imperiyasının nüfuzuna ağır zərbə vurdu. II Kirin ölümündən sonra onun varisləri arasında başlanan hakimiyyət uğrunda mübarizə vəziyyəti daha da kəskinləşdirdi. Onun yerinə böyük oğlu **II Kambiz (530-522-ci illər)** keçdi. Kambiz də atası kimi qonşu ölkələrə hücumları davam etdirirdi. Kambizin hakimiyyəti dövründə daxili iğtişaşlar bir qədər zəiflədi. Lakin onun e.ə. 526-cı ildə Misirə yürüşü zamanı ölkədə yenə narazılıq artdı.

II Kambiz Misirdə səfərdə olarkən Əhəməni imperiyasında dövlət çevrilişi baş verir. Mənbələrin verdiyi məlumata görə, Əhəməniərin hökmdarı Kambiz e.ə. 522-ci ildə Misir yürüşündə olarkən xəbər alır ki, kiçik qardaşı Bardiyanın adıyla bir maq (Qaumata) üsyan qaldırıb, saray çevrilişi edibdir.

Kambiz hakimiyyəti əldən verməkdən çox qorxduğu üçün hakimiyyəti dövründə taxt-taca göz dikən olmasın deyə, sui-qəsdlər təşkil edib yaxın qohumlarını qətlə yetirirdi. Kambiz Misirə yürüş edən zaman da o, kiçik qardaşını qətlə yetirilməsi üçün əmr verir. O, Kambiz tərəfindən e. ə. 526-cı ildə sui-qəsd nəticəsində öldürtdürülür. Padşah Misirə yola düşəndən bir az sonra onun kiçik qardaşının yoxa çıxması xəbəri yayıldı. Əhəməni sarayında olkəni Kambizin qardaşının deyil, "yalançı hökmdarın" idarə etdiyi xəbərləri yayıldı.

---

[1] Massagetlər Günəşə sitayiş edirdilər və ona at qurban kəsirdilər.

Midiyalı maq Qaumatanın şahzadənin otağında gizlənib öz yaxın adamları vasitəsi ilə Kambizin kiçik qardaşı Bardiyanın adından ölkəni idarə etməyə başlamışdı. Mənbələrin verdiyi məlumata görə, Qaumata şahzadə Bardiya adı ilə hakimiyyəti ələ keşirmişdi. Lakin Qaumata ilk öncə Bardiyanın adı ilə hakimiyyət çevrilişi etsə də, çevrilişdən sonra öz əsl adını, fars hakimiyyətinə qarşı mübarizə apardığını gizlətməmişdir.

Mada tayfasında olan maq-kahin Qaumatanın üsyan qaldırması xəbərini e.ə. 522-ci ildə Misir yürüşündə alan II Kambiz tələsik geri qayıdarkən yolda müəmmalı şəkildə ölür. Kahinlər padşaha öz ölümünü Ekbatan şəhərində tapacagını söylədikləri üçün Kambiz Misirdən qayıdarkən bu şəhərə enməmək qərarı alır. Lakin, bilmədən Ekbatana şəhəri yaxınlığında düşərgə salan Kambiz kahinlərin sözünü xatırlayaraq tez-tələsik yola düşərkən yaralanır və yoldaca dünyasını dəyişir. Herodot yazır ki, Qaumata üsyanını eşidən Kambiz ölümqabağı fars əyanlarını yanına çağırıb deyir ki, *taxtın madalılara keçməsinə yol verməyin.* Qaumata üsyanı madalıların farsların hakimiyyətinə - Əhəmənilərə qarşı üsyanı idi. Qaumatanın hakimiyyətə gəlməsi hakimiyyətin yenidən madalıların əlinə keçməsi demək idi.

### *3.5.3. Əhəmənilərə qarşı üsyanlar. Mada maqı Qaumatanın üsyanı*

Əhəməni imperiyasında çoxsaylı, keçmişdə qüdrətli olan müxtəlif xalqlar məskun idi. Silah gücünə Əhəmənilərə tabe olunmuş bu xalqlar inadla mübarizələrini davam edirdilər. Bir tərəfdən ölkədə ağır vergilər və çoxsaylı mükəlləfiyyətlər tətbiq olunurdu. Bir tərəfdən də Kambizin bacarıqsız idarəsi ucbatından ölkə üsyan əhval-ruhiyyəsində idi. Belə vəziyyət midiyalı maq Qaumatanın üsyan qaldırmasına səbəb olmuşdu.

E. ə. 522-ci ildə mada tayfasından olan maq-kahin Qaumata üsyan edib hakimyyəti ələ aldı. Bununla da hakimiyyət yenidın Mada sülaləsinə keçir. Mənbələrdə **Qaumata (e. ə.522-e.ə. 519-cu).** — kahin, üsyan rəhbəri, yalançı şahzadə, hökmdar kimi tanınır. Bisütun kitabəsində maq [1] adlandırılan Qaumata kahinlər təbəqəsinə mənsub idi. Mətndə Daranın əsas düşməni "Qaumata adlı madalı maq"

---

[1] Maqlar Midiya tayfalarından olan kahinlərə deyilirdi.

adlandırılır. O, hakimiyyətin yenidən farslardan madalılara keçməsi uğrunda mübarizə aparırdı.

E.ə. 522-ci ildə hakimiyyəti ələ alan Qaumata paytaxtı Madaya - Ekbatana köçürür. Qaumata taxta çıxdığı gündən imperiyada əmin-amanlıq yaranmışdı, amansız müharibə və çəkişmələrdən əziyyət çəkən əhalini hərbi çağrışdan və vergidən üç illik azad etmişdi. Qaumata imperiyanın hər bir vilayətinə qasidlər göndərdi, xalqların üç il müddətinə vergilərdən və orduda xidmətdən azad edildiyini bildirdi. Lakin onun hakimiyyəti cəmi yeddi ay sürdü. Hakimiyyəti qısa müddətli olsa da, Qaumata bir sıra islahatları keçirməyə müvəffəq olmuşdu. Qauamata dövlətin farsların deyil, madalıların başçılığı altında bərpa olunmasını istəyirdi. Buna görə də iqamətgahını da Parfiyadan Midiya ərazisinə Midiyanın qədim paytaxtı Ekbatana keçirmişdi və özünü etibarlı adamlarla əhatə etməyə çalışırdı.

Qaumatanın rəhbərlik etdiyi xalq hərəkatı əsasən nəsli əyanlara qarşı yönəldilmişdi. Buna görə də o, Əhəməni əsilzadələrinə qarşı inadlı mübarizə apararaq onların öz hakimiyyətlərini bərpa etmək cəhdlərinin qarşısını aldı. Nəsli əyanları bir sıra imtiyazlardan məhrum edərək onların əmlakını, qullarını əllərindən aldı. Buna görə də imperiyanın idarə olunmasından uzaqlaşdırılan fars zadəganları növbəti saray çevrilişi üçün fürsət axtarırdılar. Əhəməni sülaləsinin başqa qoluna mənsub soydan olan Dara bir neçə saray əyanları ilə birləşərək hakimiyyəti ələ keçirmək üçün plan hazırladı. Yeddi aydan sonra yeddi fars əyanı sui-qəsd hazırlayaraq, gecə ikən maqı öldürürlər. Sui-qəsdçi əyanlardan biri – Dara şah seçilir və hakimiyyət yenidən farslara keçir.

Bütün bu hadisələri Dara üç dildə (qədim fars, elam və akkad) Bisütun qayasına həkk etdirmişdir. Həmin hadisələri Herodot və digər tarixçilər də qələmə almışlar. Dara Bisütun qayasında xalqın Qaumatadan qorxduğunu yazsa da, Herodot xalqın Qaumatanı çox sevdiyini, o öləndə "farslardan başqa" bütün Asiyanın ağladığını yazırdı. Əslində Qaumata yoxsul təbəqənin himayədarı olduğu üçün və yalnız saray əyanlarının imtiyazını azaltdığı ücün geniş xalq kütləsi onu müdafiə edirdi. Təsadüfi deyildi ki, Qaumatadan sonra hakimiyyətə keçən Daraya qarşı imperiyanın əksər əyalətləri üsyana qalxmışdı. Tarixdə misli görünməmiş geniş xalq üsyanı bütün Ön Asiyanı bürümüşdü.

Qaumatının başçılıq etdiyi üsyan Əhmənilərin Midiyadakı hökmranlığına güclü zərbə vurdu və onun dayaqlarını zəiflətdi.

Qaumata hərəkatı mahiyyətinə görə, midiyalıların İran hökmranlığına qarşı azadlıq hərəkatı idi. Bu hərəkatda irandilli olmayan bütün tayfalar iştirak etmişdir.

Beləliklə də, Əhəməni imperiyasında hakimiyyətə dövlət çevrilişində iştirak edən əyanlardan biri I Dara gəlir. Qaumata üsyanını yatırmağa müvəffəq olmuş Dara saray əyanlarının ləgv edilmiş imtiyazlarını yenidən bərpa etmək istədikdə silahlanmış xalq yenidən ayaga qalxdı. Madada bir neçə ay davam etmiş böyük xalq üsyanı başlandı. Üsyanlar imperiyanın digər vilayətlərinə də sıçradı. Ön Asiya görünməmiş, izdihamlı xalq üsyanları ilə çalxalandı. Əhəməni dövlətinə daxil olan bütün ölkələr üsyan qaldırdılar. İlk növbədə Elam və Babilistan müstəqillik elan etdilər. I Dara Bisütun kitabəsində Elamda baş verən üsyanların yatırılması haqda məlumatları da həkk etdirmişdi. Babilistanda başlayan üsyannın yatırılmasında I Dara şəxsən iştirak etdi. Üsyançılar məğlub oldular. I Dara Babilistanda olarkən Fars (Parsa), Midiya, Marqiana, Parfiya, Misir, Sattaqidiya, Saqartiya, Saklar da üsyan qaldırdılar. Vəziyyətin bu gedişi Əhəməni dövlətinin dağılması təhlükəsi yaratmışdı. Lakin imperiyanın bütün qüvvələrinin çox böyük səyi nəticəsində Dara xalq kütlələrinin üsyanlarını yatıra bildi.

I Daranın (e.ə.522-486) hakimiyyəti dövründə Əhəməni imperiyası ən geniş sərhədlərə sahib oldu. Əhəməni hökmdarlarından II Kir öz hakimiyyəti dövründə, demək olar ki, bütün Asiyanı işğal etmiş, Asiyada gedə biləcəyi ən uc nöqtəyə çataraq orada ölmüşdü. II Kambiz Afrikada ən uc nöqtəyə qədər gedib çatmışdı. Dara isə imperiyanı Avropa istiqamətində genişləndirdi. Onun dövründə Əhəməni imperiyası dünyanın ən güclü dövlətinə çevrilir. Bu dövlətin sərhədləri Egey dənizindən Hind çayına qədər və Qafqaz dağlarından Həbəşistana qədər uzanan əraziləri əhatə edirdi.

Hakimiyyəti dövründə Daranın həyata keçirdiyi inzibati islahatlar işğal olunmuş ölkələrdə idarəçiliyi və nəzarəti daha təkmilləşdirdi. O, güclü mərkəzləşdirilmiş dövlət yaradıb ölkəni əyalətlərə - satraplıqlara bölmüşdü. Ona görə də Daraya şahlar şahı deyirdilər. Bu dövr imperiyanın qızıl əsri idi.

Yeni Əhəməni hökmdarı Daranın sabitliyin təmin etməsi ölkədə iqtisadi yüksəlişə səbəb oldu. II Kirin dövründən başlamış Aralıq dənizinin qərbinədək uzanan ticarət yollarının çəkilməsi başa çatdırıldı. Bu, iqtisadi əlaqələrin güclənməsinə səbəb oldu. Ölkə daxilindəki sabitlik sayəsində iqtisadi fəaliyyətlər daha təkmilləşdi.

Daranın dövründə dövlətin yeni mərkəzi şəhəri Persopolis inşa edildi. Persepolla, Babil, Suz və Ekbatana şəhərləri də Əhəmənilər dövlətinin paytaxtı olmuşdur.

### *3.5.4. Əhəmənilərin hakimiyyəti altında olan Azərbaycan tayfaları*

Əhəmənilər dövləti etnik cəhətdən cox müxtəlif idi. Daranın hakimiyyəti altında səksənə yaxın xalq yaşayırdı. I Dara zamanında (e.ə.522-486) Əhəmənilər Şimali Azərbaycan ərazisilərini də öz sərhədlərinə daxil edə bilmişdilər. Herodot yazırdı ki, bu dövrdə Əhəməni dövlətinin sərhəddi şimalda Böyük Qafqaz dağlarınadək uzanırdı. Bisütun yazılarında I Daranın alban torpaqlarını tutarkən "şişpapaqlı sakların" çiddi müqavimətinə rast gəldiyi yazılırdı.

Dara işğal etdiyi əraziləri 20 satraplığa bölmüşdü. Qədim Azərbaycan tayfaları (həm Cənubi, həm də Şimali Azərbaycan torpaqlarında), xüsusən kaspilər, utilər, müklər, parikanilər, matiyenlər, marlar və b. e.ə. V əsrin birinci yarısından gec olmayaraq artıq I Daranın zamanında Əhəmənilərə tabe idi. Əhəməni hökmranlığının müxtəlif dövrlərində Cənubi Azərbaycan ərazisinin ayrı-ayrı hissələri- kaspi, sak, uti, mük, matien və b. tayfaların yaşadığı Azərbaycan əraziləri ölkənin X, XI, XIV satraplıqlarının tərkibinə daxil idi. Cənubi Azərbaycanın əsas ərazisi hələ I Daranın hökmranlığının ilk dövrlərindən etibarən Herodotun məlumat verdiyi kimi X satraplığın tərkibində idi. XI satraplığa isə Kaspinin cənub-qərb sahilində yaşamış tayfaların ümumi adı kimi işlənən kaspilər daxil idilər. XIV satraplığa Şimali Azərbaycan tayfalarının bir hissəsi- Kür-Araz bölgəsində yaşayan utilər və müklər, həmçinin Cənubi Azərbaycan vilayətlərində və onlara bitişik torpaqlarda yaşayan saqartilər daxil idilər.

I Dara zamanında Əhəməni imperiyasının tərkibində birləşən müxtəlif xalqlar arasında müəyyən dərəcədə əmin-amanlıq təmin edildi. Xalqların dini inanclarını sərbəst icra etməsi üçün imkan yaradıldı. Məsələn, Misirdə məbəd inşa edildi, yunan kahinlərinə, yəhudilərə ibadətləri üçün şərait yaradıldı.

**Əhəmənilərin** hakimiyyəti dövründə xammal ehtiyatları ilə, sənətkarlıqla və mədəni ənənələrlə zəngin olan Cənubi Azərbaycan ərazisi aparıcı rola malik idi. Əhəməni dövlətinin müxtəlif satraplıqlarında məskun olan Azərbaycan tayfaları Əhəmənilərin bütün

yürüşlərində iştirak edirdilər. Əhəməni imperiyasının tənəzzülünə doğru, mərkəzi hakimiyyət zəiflədikcə ayrı-ayrı satraplar öz ərazilərini müstəqil idarə etməyə başlamışdılar. Bunlardan biri də Mada satrapı Atropat idi. Sakesinlər və albanlar Atropatın müttəfiqləri idilər.

## *3.6. Makedoniyalı İskəndərin yürüşləri və Əhəməni dövlətinin süqutu*

### *3.6.1. E.ə. VI əsrin son rübü - IV əsrin birinci yarısında Əhəməni imperiyasının tənəzzül mərhələsi*

I Dara üsyanları amansızlıqla yatırtdıqdan sonra Əhəmənilər dövlətinin güclənməsi üçün bir sıra inzibati, vergi, maliyyə və hərbi islahatlar keçirdi. Dövlətin daxili vəziyyətini möhkəmləndirdikdən sonra Əhəməni imperiyasını genişləndirmək üçün Hindistana, Orta Asiyaya yürüşlər etdi, Frakiyanı va Makedoniyanı ələ keçirdi. Lakin I Dara hökmranlığının son dövründə bir sıra müvəffəqiyyətsizliyə uğradı. E.ə. 500-490-cı illərdə Kiçik Asiyanın yunan şəhərlərində farslara qarşı başlanan üsyan Daranın tam məğlubiyyəti ilə başa çatdı. Tədricən mərkəzi hakimiyyət zəifləməyə başladı. I Daranın vəfatından sonra hakimiyyət uğrunda mübarizə, saray intriqaları daha da şiddətləndi. I Daranın oğlu Kserks (e.ə. 486-465-ci illər) sui-qəsd nəticəsində öldürüldü.

Hakimiyyət ugrunda mübarizə II Dara (e.ə. 423-404-cü illər) dövründə də davam etdi. Əhəməni dövlətinin tənəzzülü, mərkəzi hakimiyyətin zəifləməsi prosesi II Daranın dövründə daha da gücləndi. Mada satraplığında e.ə. 408-ci ildə üsyana qalxdı. Kadusilər, Misir və Suriya satrapları üsyan etdi. Bunun ardınca "satrapların böyük üsyanı" başlandı, nəticədə Əhəməni satraplıqlarının böyük bir hissəsi imperiyadan ayrıldı.

III Artakserks ölkədə üsyanları yatıraraq mərkəzi hakimiyyəti müəyyən dərəcədə möhkəmlətməyə müvəffəq olsa da, e.ə. 338-ci ildə Əhəmənilər sülaləsindən olan bu sonuncu hökmdar da zəhərlə oldürüldü. Əhəməni hökmdar sülaləsi sui-qəsdlər nəticəsində tamamilə məhv edildikdən sonra, e.ə. 336-cı ildə Əhəməni taxtına sülalənin yan şaxələrindən olan III Dara (e.ə. 336-30-cu illər) adını qəbul edən Kodoman çıxdı.

E.ə. 500-449-cu illərdə Əhəməni-Yunanıstan müharibələri İran ordusunun döyüş qabiliyyətinin zəiflədiyini göstərdi. Hərbi qüdrətinin zəifləməsilə Əhəmənilər dövləti tənəzzülə mərhələsinə qədəm qoydu. Əhəmənilər dövlətinin sabit iqtisadi bazası olmadığı üçün hərbi siyasi birlik olan Əhəməni imperiyası müxtəlif xalqları yalnız silah gücünə dövlətin tərkibində saxlaya bilirdi. E. ə. V əsrin sonundan etibarən hərbi qüdrəti zəifləyən imperiyada Misir, Babilistan, Midiya, Kiçik Asiya kimi vilayətlərdə bir-birinin ardınca üsyanlar baş verməkdə idi. Bir tərəfdən də satraplar arasındakı daimi münaqişələr Əhəmənilər dövlətinin tənəzzülünü daha da sürətləndirdi. E.ə.336-323-cü illərdə Makedoniyalı İskəndərin Şərqə yürüşlərindən sonra Əhəmənilər dövləti birdəfəlik süqut etdi.

### *3.6.2. İskəndərin Şərq yürüşləri və bu yürüşlərin Azərbaycan üçün nəticələri*

Yunan şəhər dövlətlərinin tənəzzülü nəticəsində e.ə. IV əsrin ortalarından Yunanıstanın şimal-şərqində - Balkanlarda yeni bir dövlət - Makedoniya dövləti yüksəlməyə başlayır. Yunanıstanın bir sıra şəhər dövlətləri Makedoniyaya qarşı birləşsələr də e.ə. 338-ci ildə Makedoniya dövlətinin banisi, güclü dövlət və nizami ordu təşkil etmiş II Filip (e.ə. 359-336) Afina üzərində qələbə çaldı. Bu döyüşdə II Filipin oğlu Aleksandr (İskəndər) də iştirak edirdi. 18 yaşlı İskəndər bu döyüşdə fərqlənərək öz sərkərdəlik məharətini göstərə bilmişdi. Beləliklə, e.ə. 338-ci il ildən Makedoniyalı Filip bütün Yunanıstanı özünə tabe etdi. Lakin o, Əhəməni imperiyası ilə müharibəyə hazırlıq ərəfəsində e.ə. 336-cı ildə öldürüldü.

Makedoniyalı II Filipin ölümündən sonra hakimiyyətə, gənc də olsa, güclü sərkərdəlik istedadına malik 20 yaşlı Aleksandr (İskəndər) (e.ə. 336-323) gəlir. Gənc Makedoniya padşahı atasının siyasətini davam etdirərək Aralıq dənizi və Kiçik Asiya bölgələrini ələ keçirmək üçün Əhəmənilərə qarşı müharibəyə hazırlandı. Qədim dövrün ən böyük sərkərdələrindən biri olan Makedoniyalı İskəndər Antipatr, Ptolemey, Parmenion, Filota, Perdikka və b. kimi bir çox görkəmli sərkərdələri öz ətrafına toplamışdı.

Makedoniyalı İskəndərin Şərq yürüşü ərəfəsində dərin böhran keçirən Əhəməni dövləti özünün tənəzzül dövründə idi. İmperiya zahirən güclü görünməyə davam etsə də, əslində saray çəkişmələri, sui-qəsdlər mərkəzi hakimiyyəti xeyli zəiflətmişdi E.ə 338-ci ildə

Əhəmənilərin sonuncu hökmdarlarından olan III Artakserksin vəfatından sonra varislər arasında hakimiyyət uğrunda uzunmüddətli mübarizə başlamışdı. Nəticədə e.ə 336-cı ildə III Dara hakimiyyətə gəlmişdi.

Hakimiyyət uğrundakı çəkişmələr, ümumi iqtisadi tənəzzül, müxtəlif tayfa və xalqlardan təşkil olunmuş Əhəməni ordusunda nizam-intizamı, hərbi hazırlıq səviyyəsini xeyli zəifltəmişdi. Artıq Əhəməni hökmdarının öz canişinlərinə gücü çatmırdı. Ayrı-ayrı satraplıqlar öz ərazilərini demək olar ki, müstəqil idarə edirdilər. Bir tərəfdən də xalq kütlələrinin Əhəməni zülmünə qarşı apardığı mübarizə, arası kəsilməyən üsyanlar bu nəhəng imperiyanı tamamilə çökdürmüşdü.

**Müharibənin başlanması**. Makedoniyalı İskəndər Əhəmənilərə qarşı müharibəni məhz belə bir şəraitdə başlatdı. O**,** e.ə 334-cü ildə ciddi hərbi hazırlıq keçmiş birləşmiş Yunan-Makedoniya ordusu ilə Hellespontdan (indiki Dardaneldən) keçib Kiçik Asiyaya girdi. Makedoniya qoşunlarının İran ordusuna qarşı **ilk döyüşü e.ə. 334-cü ilin** mayında Kiçik Asiyadakı Qranik çayı yaxınlığında baş vermişdi. Makedoniya ordusu hücumla Qranik cayını keçərək İran ordusunun ön cəbhəsini darmadağın etmişdi. Qranik döyüşündən sonra Milet və Halikarnas istisna olmaqla Kiçik Asiyanın yunan şəhərləri müqavimətsiz İskəndərə tabe oldular. E.ə 333-cü ildə Makedoniya ordusu Kappadokiyanı işğal etdi. Əhəməni ordusu isə heç bir müqavimət göstərmədən Mesopotamiya ərazilərinə geri çəkildi.

III Dara ilə Makedoniyalı İskəndər arasında **ikinci döyüş e.ə. 333-cü ildə** İssa (İss) şəhəri yaxınlığındakı, Şimali Suriya sərhədlərində dənizlə dağ silsilələri arasında ensiz vadidə baş verdi. Bu döyüşdə III Daranın özünün başçılıq etdiyi İran ordusu ilə birlikdə madalılar da iştirak edirdilər. Əhəməni ordusuna III Daranın özünün başçılıq etməsinə baxmayaraq bu döyüş də makedoniyalıların qələbəsi ilə nəticələndi. III Dara hərb meydanından rüsvayçılıqla qaçdı.

İss döyüşü İskəndərin Şərqə yürüşündə dönüş nöqtəsi oldu. Bu döyüş nəticəsində bütün Kiçik Asiya İskəndərin hakimiyyəti altına düşdü. Bu döyüşdən sonra Finikiyanın sahil şəhərlərinin əksəriyyəti müqavimət göstərmədən makedoniyalılara tabe olmuşdu. Makedoniya qoşunları yalnız Tir və Qəzza şəhərlərində ciddi müqavimətlə qarşılaşsalar da yeddi aylıq mühasirədən sonra e.ə. 332-ci ilin iyulunda Tir şəhəri də ələ keçirildi. Əhəməni imperoyasına daxil

olan, iqtisadi və mədəni cəhətdən xeyli inkişaf etmiş Aralıq dənizinin şərq sahillərindəki ölkələrdə Əhəməni zülmündən cana gəlmiş yerli əhali əksər hallarda İskəndəri xilaskar kimi qarşılayırdı. Bu isə İskəndərə böyük ictimai dayaq demək idi. E.ə. 332-ci ilin noyabrında Misir döyüşsüz təslim oldu. Misir əhalisi İskəndəri xilaskar kimi qarşıladılar. Hətta Misir kahinləri onu firon elan edərək Amon allahının oğlu kimi tanıtdılar. Makedoniyalı İskəndər Misirə daxil olarkən ölkənin fironlarının etdiyi kimi, Misirdə, Kiçik Asiyada və hətta Yunanıstanda da böyük nüfuzu olan məşhur Amon allahı orakulunu ziyarət etmişdi[1] və buna görə də Misir kahinləri İskəndəri «Amonu sevən», Ra allahının oğlu və ölkənin qanuni fironu elan etmişdilər.

E.ə 332-331-ci illərin qışını Misirdə keçirən İskəndər Nil çayı deltasında İskəndəriyyə adlı yeni şəhər saldırdı. İskəndəriyyənin coğrafi mövqeyi son dərəcə əlverişli idi. E.ə IV əsrin sonu III əsrin əvvəllərində bu şəhər yunan və şərq aləminin ən böyük ticarət, sənətkarlıq və mədəni mərkəzinə çevrilmişdi.[2]

Makedoniya hökmdarı e.ə 331-ci ilin baharında Misiri tərk edərək Finikiya və Suriya ərazisindən keçən qədim ticarət yolu ilə Şərqə doğru hərəkət edir. İskəndər Aralıq dənizinin Şərq sahillərindəki limanların hamısını tutaraq, farsların donanmasını bazalardan məhrum edərək, dənizdə hökmranlığı ələ keçirir. Beləliklə, öz gediş-gəliş yollarındakı təhlükəni dəf etmiş İskəndər Əhəməni imperiyasının Şərq torpaqları uğrunda mübarizəyə başlayır.

**Qavqamela döyüşü**. Aralıq dənizinin şərq sahillərindəki bütün limanları ələ keçirməyi bacarmış İskəndər **e.ə. 331-ci ilin** yazında yenidən Asiyaya yürüş etdi. Yunan-Makedoniya qoşunları Fərat və Dəclə çaylarını keçib Arbela yaxınlığında Qavqamela kəndinin ətrafında Qavqamel (Cancal) düzənliyində düşərgə saldılar. E.ə. 331-ci il oktyabrın 1-də burada İskəndərin qoşunları ilə III Daranın qoşunları arasında üçüncü həlledici döyüş oldu. Tarixi mənbələrdə adı ilk dəfə məhz bu döyüşlə baglı çəkilən albanlar, həmçinin kaspilər, sakaşinlər kimi Azərbaycan tayfaları da Əhəmənilərlə birgə Qavqamela döyüşündə iştirak edirdilər. Qavqamela döyüşü İskən-

---

[1] Yunanlar və makedoniyalılar Amon allahını Zevsə bərabər tuturdular.

[2] Ümumiyyətlə, İskəndər yürüşlər zamanı ələ keçirilmiş bir sıra ərazilərdə İskəndəriyyə adını almış şəhərlərin inşa etdirmişdir. Yaxın və Orta Şərqdə belə şəhər-qalaların sayı 70-ə yaxın idi. Makedoniyalılar məhsuldar Sır-Dərya vadisində -Soqdinada da İskəndəriyyə (Esxata) şəhərini salmışlar.

dərin qalibiyyəti ilə başa çatır. Qədim dünyanın ən böyük döyüşlərindən biri olan bu döyüşdə III Daranın orduları darmadağın edilsə də, yunan-makedoniyalılar özləri də bütün yürüş müddətində ağır tələfata uğradılar.

Beləliklə, E.ə.331-ci ildə Qavqamela düzənliyindəki həlledici döyüşdən sonra isə Əhəməni imperiyası tamamilə dağıldı. Əhəməni imperiyasının süqutü İskəndərin Şərqdə ən böyük qələbəsi idi. Qavqamela döyüşündəki qələbədən sonra Əhəməni dövlətinin bütün mühüm mərkəzlərinin yolu İskəndərin üzünə açıldı. İskəndər əvvəlcə Babil şəhərinə doğru irəlilədi və Babil əhalisi İskəndəri xilaskar kimi qarşıladı. Burada İskəndər qədim Mesopotamiya çarlarının titulunu («Babil və dünyanın dörd qitəsinin çarı») qəbul etmiş, oradan Suza yollanmışdı. Bundan sonra Parfiyaya girən İskəndər, farsların Pasarqad da, Persepol kimi hər iki paytaxt şəhərini də ələ keçirdi. Persepol şah sarayı yandırıldı. Ekbatan şəhəri işğal edildi. E.ə. 327-ci ildə İskəndər Mərkəzi Asiyada Baktiriya və Soqdiananı da ələ keçirdi. E.ə. 324-cü ildə İskəndər Qərbdə Balkan yarımadası və Misirdən, Şərqdə Hind çayına qədər ərazini əhatə edən imperiya yaratdı. Babil şəhəri paytaxt elan edildi.

Qavqamela döyüşündə hərb meydanından qaçan III Dara məğlubiyyəti ilə barışmaq istəmirdi. O, bir neçə satrapı və kiçik bir qoşun dəstəsi ilə Midiyanın paytaxtı Ekbatan şəhərinə çəkilmişdi. III Dara İskəndərlə mübarizəni davam etdirmək üçün məhz Madanı seçmişdi. Son dərəcə ağır tələfata baxmayaraq, hələ də qisas almaq ümidində olan III Dara kadusilər, madalılar, saklar kimi Azərbaycan tayfalarının köməyinə arxalanaraq Madada qoşun toplamağa başlamışdı. Qavqamela vuruşmasında iştirak etmiş Mada satrapı Atropat və onun müttəfiqləri olan kadusilər, albanlar, sakesinlər III Daranın tərəfində mübarizə aparırdılar. Bu barədə antik müəllif Arrianın verdiyi məlumata görə, bu döyüşdə Atropatın başçılığı ilə madalılar kadusilər, albanlar və sakesinlərlə birləşmişdilər. Bu məlumatdan görünür ki, Əhəməni sülaləsinində mərkəzi hakimiyyətin zəifləməsi dövründə Atropat XI və XIV satraplıqlara daxil olan torpaqların xeyli hissəsini müəyyən dərəcədə özünə tabe etdiyi üçün, Qavqamela vuruşmasında kadusilər və albanlar, sakesinlər madalılarla birləşmişdilər. Bu məlumat bütün Cənubi Azərbaycan və hətta Şimali Azərbaycan ərazisilərində yaşayan tayfaların da artıq bu dövrdən etibarən Mada satraplığında Atropatın ətrafında birləşdiyini göstərir.

Makedoniyalı İskəndər bu mübarizənin qarşısını almaq üçün Mada satraplığını təcrid edərək, Madaya yeni satrap təyin etdi. Digər tərəfdən də Atropatla ittifaqda olan kadusilər və skiflər, daha sonra Atropat özü də artıq III Daranın tərəfində döyüşmək istəmirdilər. Görünür, məhz bu səbəbdən e.ə. 330-cu ilin yazında İskəndər Persepoldan Midiyanın paytaxtı Ekbatana tərəf hərəkət etdiyi zaman III Dara bir neçə satrapla Ekbatananı tərk edib imperiyanın Şərq əyalətlərinə qaçdı.

İskəndər Xəzər dənizinin cənubundan keçən yollarla Orta Asiyaya qaçmaga çalışan III Daranı təqib edərək Xəzər dənizinin cənub-qərbindəki Kirkaniya vilayətində onlara yaxınlaşır. Əslində III Dara burada Baktriya satrapı Bessin başçılıq etdiyi bir dəstə İran zadəganının əsirinə çevrilmişdi. Makedoniya süvarilərinin onlara çatdığını görən satraplar III Daranı xəncərlə öldürərək təqibdən xilas ola bilirlər. İskəndər isə öldürülmüş III Daranı böyük təmtaraqla dəfn edərək, özünü İran şahlarının qanuni xələfi və bütün Asiyanın çarı elan edir.

Lakin Əhəməni dövlətini yenidən dirçəltməyə cəhd göstərən Baktriya satrapı Bess özünü IV Artaksersk adı altında şah elan edir. Şərqi İran və Orta Asiyada Makedoniyaya qarşı olan bütün qüvvələr Xəzər dənizinin şərqində Bessin ətrafında cəmləşməkdə idi. Əhəmənilər dövlətinə son qoymağı özünün başlıca məqsədi elan edən İskəndər Bessin Əhəməni dövlətini yenidən dirçəltmək cəhdinin qarşısını almaq üçün onu təqib edir. O, e.ə. 330-329-cu ildə Baktriyanı, sonra isə Hindikuşu tutaraq Oks (Amu-Dərya) vadisində Bessi ələ keçirir və edam etdirir. İskəndərin Orta Asiya yürüşü üç ildən yuxarı davam etmiş və e.ə. 327-ci ildə başa çatmışdı. Beləliklə, madaylardan e.ə.550-ci ildə hakimiyyəti zorla almış fars Əhəməni nəslinin hökmranlığı e.ə.330-cu ildə İskəndərin yürüşləri nəticəsində sona yetdi.

Yunan mənbələrində, xüsusilə Arrianın əsərlərində, həmçinin İskəndərin Qafqazda, Atropatenada olması, şəhər və qalalar saldırması, Şirvandan keçib Dərbəndə getməsi, "buynuzlu İskəndər" əhvalatı kimi xalqın yaddaşında, əfsanə və rəvayətlərində öz əksini tapan fikirlər zaman-zaman Şərq mənbələrində də xatırlanmışdı. Strabon da Makedoniyalı İskəndərin Asiyanın Girkaniya, yəni Kaspi vilayətində olması, vilayətin çayları, məhsuldar torpaqları və s. barədə maraqlı məlumatlar verir. Makedoniyalı İskəndərin qədim Azərbaycana səfərini təsdiq edən mənbələrdən biri və ən mötəbəri

olan Arrianın "İskəndərin hərbi yürüşləri" adlı əsərində İskəndərin bu ölkəyə hərbi səfəri, döyüşləri və s. barədə ətraflı məlumat verilir. II əsr yunan tarixçisi Flavi Arrianın yazdığına görə, Atropatena hökmdarı Atropatın komandanlığı altında iskit-sak, alban, girkan və kadusilər İskəndərə qarşı vuruşmuşlar. Nizami "İskəndərnamə"ni yazarkən, ən etibarlı mənbə kimi Flavi Arriana daha çox müraciət etmişdir. Arrianın verdiyi məlumata görə, İskəndər “Qafqaz üzərindən keçib Kaspi keçidinin o tayına adlamışdı."

İskəndərin (e.ə.334-324)10 illik hərbi yürüşləri Hindistanda bitdi. E.ə.327-ci ildə də məşhur Hindistan yürüşü zamanı İskəndər Hind çayı ilə cənuba doğru hərəkət edərək Pəncaba çatır. Burada iki şəhərin – Nikeya və Bukefal şəhərlərinin əsası qoyulur. Lakin e.ə. 326-cı ildə İskəndərin səfərdən əzab-əziyyət çəkən ordusu yürüşü davam etdirməkdən imtina edir və geri qayıtmağı tələb edir. Yaranmış şəraitdə İskəndər geriyə qayıtmaq əmrini verir və qoşunun bir qismi e.ə.325-ci ildə dəniz yolu, o biri hissəsi isə quru yolla Mesopotamiyaya doğru hərəkət etməyə başlayır. E.ə.324-cü ilin əvvəllərində hər iki qoşun Babil şəhərində birləşir. İskəndər e.ə. 323-cü ildə iyunun 13-də 33 yaşında qızdırma xəstəliyindən vəfat etdi və İskəndəriyyədə dəfn edildi.

İskəndərin ölümündən sonra taxta III Filipp adı ilə onun ögey qardaşı Arridey çıxdı. İskəndərin ölümündən sonra onun sərkərdələrinin başının hakimyyət uğrunda mübarizəyə qarışması İskəndərin qurduğu imperiyanın dagılmasına şərait yaratdı. Onun ölümündən sonra Makedoniyalı İskəndər imperiyası Misir, Makedoniya və Suriya dövlətlərinə parçalandı.

İskəndərin hökmranlığı dövründə, həm də onun ölümündən sonrakı ilk illərdə mövcud olan siyasi vəziyyət bütün Şərq ölkələrinin, o cümlədən Azərbaycanın tarixində mühüm rol oynadı. Məhz İskəndərin ölümündən sonra onun imperiyasının dağılması ilə Azərbaycanın tarixi torpaqlarında - cənubunda Atropatena, şimalında isə Albaniya dövləti kimi qədim Azərbaycan dövlətləri təşəkkül tapdı. Bu, Azərbaycan xalqının təşəkkülü prosesinin yeni mərhələsinin başlanğıcı oldu.

# IV FƏSİL

# ATROPATENA DÖVLƏTİ

## *4.1. Azərbaycan ərazisində müstəqil Atropatena dövlətinin təşəkkülü. Dövlətin ərazisi, siyasi strukturu*

Mənbələrdə qədim Azərbaycan dövləti Atropatenanın adına ilk dəfə e.ə. 331-ci ildən rast gəlinir. Antik yunan və latın dilli mənbələrdə bu qədim Azərbaycan dövlətinin adı əsasən "Atropatena", pəhləvi dilli mənbələrdə isə "Atur-patkan" şəklində qeyd edilir. Bu adın mənası "Aturpatın torpaqları" kimi izah edilir. Erkən orta əsrlərə aid latın və yunandilli mənbələrdə bu ölkə eyni zamanda "Atropat Midiyası" və ya "Kiçik Midiya" da adlandırılır. Antik müəlliflərdən Plutarx, Ammian Marselin də bu ölkəni "Atropat Midiyası" adlandırmışlar. Strabon isə Atropatena ərazisini Kiçik Midiya adlandırmış, Atropatın başçılığı ilə Kiçik Midiya ərazisində Atropatena dövlətinin təşkil edildiyini yazmışdır. Atropatena haqqında antik yunan, roma, bizans, suriya, fars, ərəb mənbələri məlumat verir. E.ə. IV əsrin 20-ci illərində yaranmış Atropatena dövlətin təsərrüfatı, mədəniyyəti, şəhər həyatı haqda antik yunan müəlliflərinin, o cümlədən Strabonun, Ptolomeyin, Plutarxın, Arrian, Dion Kassi, Plini və b. əsərlərində qiymətli məlumatlar var.

**Atropatena - Azərbaycan məfhumun yaranması və coğrafi hüdudları.** Sasani hakimiyyəti dövründə Atropatena Adərbadaqan, ərəblər tərəfindən fəth edildikdən sonra isə Atropatenanın adı erkən orta əsr ərəbdilli mənbələrdə "Adabarqan", "Azərbaycan", daha sonrakı dövrlərə aid ərəb tarixçilərin əsərlərində isə həmin ad ancaq "Azərbaycan" kimi göstərilmişdir. Azərbaycan adı tarix səhnəsində ilk öncə (e.ə. IV əsrdən) bu ərazidə Atropatena dövlətinin yaranması ilə Cənubi Azərbaycan torpaqlarına verilən qədim ad olsa da, eramızın IV əsrindən etibarən bu məfhumun coğrafi hüdudları genişlənərək Araz çayından şimaldakı (Şimali Azərbaycan) ərazilərə də şamil edilməyə başlamışdır. Həmin dövrdə Sasani hökmdarı I Xosrovun apardığı siyasi-inzibati islahatlar nəticəsində Cənubi və Şimali Azərbaycan əraziləri Atropatena –Azərbaycan adlanan 4-cü hissəyə aid edilməklə Azərbaycanın həm şimali, həm də cənubu Sasani imperiyasının tərkibinə qatılmışdı. Beləliklə, IV əsrdən siyasi-inzibati bölgüsü nəticəsində Azərbaycanın həm şimali - Albaniya,

həm də cənubi - Atropatena Aturpatkan Adurbadaqan (Azərbaycan) adı ilə bir inzibati bölgüyə aid edilmişdi. Bununla da Şimali Azərbaycan əraziləri də, xüsusilə də ərəblər tərəfindən fəth edildikdən sonra tədricən siyasi və çoğrafi anlayış kimi Azərbaycan adlanmağa başlayır.

**Atropatena dövlətinin yaranması. Mada Satrapı Atropat.** Atropatena dövlətinin adı onun ilk hökmdarı Atropatın adı ilə bağlıdır. Atropatın adı tarixi mənbələrdə ilk dəfə e.ə. 331-ci ildə baş verən Qavqamel döyüşündə çəkilir. Əhəmənilərin sonuncu hökmdarı III Daranın hakimiyyəti dövründə Atropat Midiya satrapı idi. Makedoniyalı İskəndərin yürüşü ərəfəsində Əhəmənilər imperiyasının tərkibində olan Midiya satraplığı imperiyanın iqtisadi-sosial cəhətdən inkişaf etmiş əyalətlərindən biri idi və bu əyalətə Atropat başçılıq edirdi. Bu dövrdə Əhəməni dövlətinin Midiya satraplığı Azərbaycanın cənub torpaqlarını təşkil edirdi.

E.ə. V-IV əsrlərdə Əhəməni imperiyasının zəifləməsi nəticəsində mərkəzi hakimiyyətə tabe olmaq istəməyən satraplardan biri də Mada satrapı Atropat idi. Əhəmənilərin sonuncu hökmdarı III Daranın hakimiyyəti dövründə Atropat bütün Cənubi Azərbaycan ərazisinin, həmçinin Şimali Azərbaycan torpaqlarının xeyli hissəsinə nəzarət edirdi. Qavqamela döyüşü ərəfəsində- Əhəməni imperiyasının zəiflədiyi bu dövrdə Mada satrapı müstəqil siyasət yeridirdi. Əhəməni imperiyasının X satraplıgı olan Mada satraplığı imperiyanın XI və XIV satraplıqlarəna daxil olan torpaqları da öz əlinə almışdı. Cənubi Azərbaycanın bütün ərazisi və Şimali Azərbaycan torpaqlarının xeyli hissəsi bu və ya digər dərəcədə Atropatın hakimiyyəti altında idi. Atropat bu satraplıqlarla müttəfiqlik münasibətləri yaratmışdı. Bu səbəbdən kadusilərin, albanlar və sakesinlərin Qavqamela döyüşündə İran imperiyasının təbəələri kimi deyil, Mada satrapının müttəfiqləri kimi çıxış edirdilər və mənbələrin də yazdığı kimi, ”madalılarla "birləşmişdilər”. Döyüşdə III Daranın süvari kəşfiyyat dəstəsinə başçılıq edən Atropatın dəstəsində kadusilər, qafqaz albanları və sisaklar da iştirak edirdi. Makedoniyalı İskəndərin zəfər yürüşlərini qələmə alan Arrianın yazırdı ki, Mada satrapı Atropat kadusilər və albanlar, sakesinləri və madalıları öz ətrafında birləşdirərək Qavqamela döyüşündə Makedoniya ordusuna qarşı döyüşmüşdü. Ancaq tezliklə vəziyyət dəyişir. Qavqamela döyüşündən sonra Əhəməni imperiyasının süqutunun labüd olduğunu anlayan Atropat və onun müttəfiqləri olan kadusilər və skiflər III Daranı

müdafiə etməkdən vaz keçirlər və Atropat öz siyasətini dəyişir. O, İskəndərin tərəfinə keçir. Nəticədə İskəndər tərəfindən Mada satrapı vəzifəsindən uzaqlaşdırılan Atropat (e.ə. 328-ci ildə) əvvəlki vəzifəsinə qaytarılsa da, ona bütün Madanı deyil, yalnız Kiçik Mada ərazisinin satraplığı verilir.

**Atropatın Makedoniyalı İskəndərlə münasibətləri.** Əhəməni imperiyasının artıq süqut etməsinə baxmayaraq Mada satrapı Atropat III Daranın tərəfində döyüşməyə davam edirək İskəndərə tabe olmaq istəmirdi. Hətta İskəndərin hakimiyyətini tanımadığı üçün İskəndər onu Mada satrapı vəzifəsindən uzaqlaşdırılmışdı və Madaya Oksadat adlı yeni satrap təyin edlmişdi. İlk vaxtlarda Atropat Makedonilyalı İskəndərlə sonadək mübarizə aparmaq niyyətində idi. Lakin İskəndər Şərqdə qalibiyyətli yürüşlər edərək möhkəmləndikcə Atropat İskəndərin qurduğu nəhəng imperiyaya qarşı çıxmagın mənasız olduğunu anlayaraq siyasətini dəyişir və İskəndərlə münasibətləri qaydaya salmağa çalışır. Artıq Atropat yaxşı başa düşürdü ki, Əhəməni imperiyasını dirçəltmək mümkün deyil. Ona görə də o, İskəndərlə loyal mövqedə dayanmağa üstünlük verir, danışıqlar yolunu, yunan–makedonlara yaxınlaşma yolunu seçir. Tezliklə makedoniyalılarla münasibətləri qaydaya salmagı bacaran Atropat Böyük Madaya səfəri zamanı İskəndərə sədaqətlə xidmət edəcəyini bildirir. Bundan sonra İskəndər e.ə.328-də ona satraplıq vəzifəsini yenidən geri qaytarsa da, lakin bütün Madanın deyil, yalnız Kiçik Mada ərazisinin satraplığını ona tapşırdı. Kiçik Mada Əhəmənilərin vaxtında da daxili özünüidarə hüququna malik bir əyalət idi. Atropatın satraplığı dövründən bu əyalət Atropatena adlanmağa başlamışdı.

Güclü siyasətçi, böyük dövlət xadimi olan Atropat ölkəsinin ərazisinə işğalçıların soxulmasına yol vermədi. İskəndər Atropatenanın sərhədlərinədək gəlsə də onun ərazisinə girməmişdi. İskəndərin Madaya gəlişi zamanı Atropat onu böyük təntənə ilə qarşıladı. Buna görə də Atropata münasibəti dəyişən İskəndər bu əraziyə qoşun çəkmədi, yalnız məşhur cins atların yetişdirildiyi Maday ərazisinə gəldi. İskəndər Madada məşhur Bisütun vilayətinə, daha sonra Niseya çöllərinə baş çəkdi. Burada ən qədim dövrlərdən "səma atları" adı verilmiş məşhur cins atlar yetişdirilirdi. İskəndəri öz satraplığının sərhəddində qarşılamaq məqsədilə Atropat da Niseya çöllərinə gəlmişdi. O, 50000 atı hökmdar ordusuna götürür. İskəndər Ekbatana gələrkən Atropat onu böyük təntənə ilə qarşılamış və Arrianın

məlumatına görə 100 atlı amazonkanı- silahlı və atlı döyüşçü qız dəstəsini onun hüzuruna çıxarmışdı. Strabona görə, amazonların məskəni "Albaniyadan yuxarıdakı dağlardır". O, amazonların Qafqaz dağlarında qarqarların qonşuluğunda (müasir Qarabağ -Zəngəzur bölgəsində) yaşadığını qeyd edir.

Dövrün siyasi nəbzini tuta bilən Atropat görkəmli diplomat olduğuna görə yaranmış ağır şəraitdən bacarıqla istifadə etdi və tədricən düşmən satrapdan etibarlı müttəfiqə çevrildi. Müdrik siyasətlə Atropat ölkəni makedonların itaəti altına düşməkdən qoruya bildi. Atropat yeganə Əhəməni satrapı idi ki, İskəndər onu vəzifədən kənar etmədi, əksinə tədricən bəzi qonşu vilayətlərin idarəsini də ona tapşırdı.

Atropata müsbət münasibət bəsləyən İskəndər bir müddət onu öz yanından buraxmadı İskəndər Midiyaya gəldikdə Atropat onun yaxın adamları ilə birlikdə qalibin şərəfinə verilən ziyafətdə iştirak edirdi. İskəndərin bir sıra siyasi tədbirlərində Atropat şəxsən iştirak edirdi.

Arrianın məlumatına görə, e.ə. 324-cü il yayın sonunda Midyada Bariaks adlı bir nəfər özünü İran və Midiyanın çarı elan edərək Makedoniya işğalçılarına qarşı mübarizəyə qalxır. Atropat öz qüvvəsi ilə üsyanı yatırır və Bariaksı tutaraq makedoniyalılara verir və onlar da onu edam edirlər. Bundan sonra Atropatın makedoniyalılarla münasibəti daha da yaxşılaşır.

Müstəqil bir dövlət yaratmağa çalışan Atropat İskəndərlə münasibətləri möhkəmləndirmək və makedoniyalılara daha da yaxınlaşmaq niyyətilə qızı Yutobanı da Qədim Şərqin yeni hökmdarının ən qüdrətli sərkərdələrindən birinə - makedoniyalıların süvari dəstələrinin başçısı Perdikkaya ərə verdi. Bu qohumluq əlaqələri Atropatın mövqeyini daha möhkəmləndirdi. Ümumiyyətlə, İskəndər yerli Şərq zədəganları ilə qohumluğa böyük əhəmiyyət verirdi. İskəndər yunan-makedoniyalıların yerli tayfalarla, xüsusilə Əhəmənilər imperiyasındakı xalqlarla qaynayıb qarışmaq siyasətini yeridir. Məhz bu məqsədlə İskəndər Əhəməni sülaləsindən olan şahzadə qızlarla evlənmiş -Orta Asiya satrapının, III Daranın və III Artakserkin qızlarını almışdı. İskəndərin ənənəsini onun ən yaxın silahdaşları da davam etdirmiş, məhşur Suz şənlikləri zamanı İskəndər ətrafındakı 80 nəfərin silahdaşını və 10 min yunan-Makedoniya əsgərini Əhəməni imperiyasındakı Asiyalı qızlarla evləndirmişdi.

Atropat istər Əhəməni dövründə, istərsə də Makedoniyalı İskəndərin hakimiyyəti illərində -e.ə. 328-ci ildə yenidən satraplığa təyin olunmasından İskəndərin e.ə.324-cü ilin əvvəlində Hindistan səfəri dövrünədək gələcəyin Atropatenası olacaq Kiçik Madanın rifahı və müstəqilliyi yolunda bir sıra mühüm addımlar atdı. E.ə. IV əsrin son rübü Atropatenanın daxili yüksəliş dövrü oldu.

E.ə. 323-cü ilin iyun ayında İskəndərin vaxtsız vəfatından sonra, e.ə. onun satrap və sərkərdələri Babildə onun imperiyasını bölüşdürmək üçün böyük toplantı keçirmişdilər. Bu zaman Atropatın kürəkəni Perdikka artıq dövlətin naibi idi. İskəndərin ölümündən sonra e.ə. 323-də onun imperiyası Babil toplantısında bölüşdürülərkən Kiçik Mada (Atropatena) ərazisinə Atropatın kürəkəni Perdikka himayəçi təyin edildi. Kiçik Madanı isə Perdikkanın qayınatası olan Atropat idarə edirdi. Bundan sonra Atropat ölkəsinin adı bu toplantıda çəkilmədi, mənbələrin də söylədiyi kimi, "bu çarlıq makedoliyalıların gözündən yayına bilmişdi. Beləliklə də, İskəndərin ölümündən sonra bu dövlət qurumu tam müstəqli siyasət yürüdən bir dövlətə çevrildi. Ölkəni müstəqil dövlətə çevirməyi bacaran Atropat, Strabonun məlumatına görə, hətta irsi hakimiyyət də əldə etmişdi. Atropatın qohumluq əlaqələri də bu işə təkan vermişdi. Eyni zamanda Atropatın şəxsi keyfiyyətlərinin böyük rolu olmuşdu. Atropat öz hakimiyyətini qoruyub saxlaya bilmiş, ömrü digər satrapların ömründən uzun olmuşdu.

E.ə. 321-ci ildə, Perdikka həlak olduqdan sonra, satraplıqlar ikinci dəfə bölüşdürüldü. Lakin Perdikkanın ölümündən sonra belə Kiçik Mada imperiyanın yeni bölgüsündən kənarda qala bilmişdi, bölgü bu dəfə də Atropatın satraplığına şamil edilmədi. Bu vaxt Kiçik Mada-Atropat Madası -Atropatena artıq güclənərək müsrəqil dövlət səviyyəsinə çatmışdı. İskəndərin vəfatından sonra başı onun mirasını bölməyə qarışan Makedoniya sərkərdələri hərbi əməliyyat meydanından kənarda yeni dövlətin yaranma prosesini, antik müəlliflərin qeyd etdiyi kimi, "gözdən qaçırmışdılar". Bu dövrdən etibarən kiçik Midiya - Atropatena müstəqil dövlət olur. Atropat öz uzaqgörənliyi, çevik siyasəti ilə hətta İskəndərin ölümündən sonra belə "Kiçik Midiya", "Atropat Midiyası" kimi adlarla tanınan ölkəsini makedoniyalıların nəzərindən yayındıra bilmişdi. Srabonunda yazdığı kimi, "Atropat ölkəsinin Böyük Mada kimi makedoniyalılara tabe olmasına yol vermədi. Təntənə ilə çar elan edilən Atropat öz

hökmü ilə bu ölkəni müstəqil elan etdi." Atropatena dövlətinin əsası məhz belə bir tarixi şəraitdə qoyuldu.

Beləliklə, keçmiş Əhəməni satrapı, əslən madalı olan Atropat e.ə. IV əsrin 20-ci illərin sonunda yeni dövlətin müstəqil hökmdarı olur; bu dövlət rəsmən Mada, sonralar isə özünün ilk hökmdarının adı ilə antik qaynaqlarda Atropatena adlandırılır. Midiya dövlətinin süqutundan sonra Azərbaycan ərazisində meydana gələn bu yeni müstəqil dövlət, Strabonun söylədiyinə görə, onun ilk çarının adı ilə Atropatena və ya Atropat Midiyası adlanırdı. Bu dövlət Manna və Madaydan sonra Cənubi Azərbaycan ərazisində yaranmış üçüncü dövlət qurumu idi.

**Atropatena dövlətinin siyasi strukturu.** Atropatena çarları faktiki və hüquqi hakimiyyətə sahib idilər. Siyasi strukturuna görə ölkədə monarxiya quruluşu hökm sürürdü. Strabon yazırdı ki, çar elan edilən Atropat doğrudan da bu ölkəni öz qərarı ilə müstəqil bir ölkəyə çevirmişdi və onun ailəsində varislik hələ də davam edir. Atropatena hökmdarlarının irsi hakimiyyət huquqları var idi. Zəngin güclü bir dövlətə çevrilən Atropatenanı e.ə. IV-e.I əsrləri boyu yerli hökmdarlar, Atropatın varisləri - Artabazan, Mitridat, Dara, I Ariobarzan, Artavasd, II Ariobarzan - idarə etmişlər. Atropatdan sonra yazılı qaynaqda Atropatenanın adı ilk dəfə e.ə. III əsrin iyirminci illərində çəkilir.

E.ə. III əsrin 20-ci illərində Atropatena taxt-tacına Artabazan keçir. O, yunan müəllifi Polibinin verdiyi məlumata görə, III əsrin 20-ci illərində Atropatenanın çarı idi və Arazın yalnız cənubunda deyil, şimalında da çox geniş əraziyə malik olan "ən qüdrətli və ən müdrik hökmdar", "atropatilər və onlarla həmsərhəd xalqlar üzərində" hökmran idi. Artabazanın dövründə Atropatenanın sərhədləri Kaspi dənizindən Rioni çayının yuxarılarınadək uzanırdı. Polibi bu ölkədə at belində vuruşan və müharibə etməyə kifayət qədər gücü olan qüdrətli bir xalqın yaşadığını yazırdı.

E. ə. I əsrin sonlarında Atropatena çarı Ariobarzan olmuşdur. Eramızın I-III əsrlərində yerli sülaləni fars Arşaki sülaləsi əvəz etdi. Atropatenanın birinci Arşakı hökmdarı III Artabanın qardaşı Vanon olmuşdur.

**Atropaten dövlətinin ərazisi.** Beləliklə, Kiçik Mıdiya - Atropatena Şərqdə Makedoniya əsarətindən azad olan ilk müstəqil dövlət oldu. Bu dövlət e.ə. IV-III əsrlər boyu movcud olmuşdur. Keçmiş Əhəməni satrapı, əslən madalı olan Atropat e.ə. IV əsrin 20-

ci illərinin sonunda yeni dövlətin müstəqil hökmdarı olur; bu dövlət rəsmən Mada, sonralar isə özünün ilk hökmdarının adı ilə tez-tez antik qaynaqlarda Atropatena adlandırılır. Midiyanın bir hissəsinin Böyük Midiya, o biri hissənin isə Atropat Midiyası adlandıran Strabon yazırdı ki, Atropatena öz adını sərkərdə Atropatdan götürmüşdür, o Atropatdan ki, Böyük Midiyanın bir hissəsi olan bu ölkənin də makedoniyalıların hakimiyyəti altına düşməsinə yol verməmişdi.

Makedoniyalı İskəndərin istilası zamanından etibarən Kiçik Mada əsas Madadan ayrılmışdır. Yunan-makedoniyalılar daha çox Böyük Madaya diqqət verirdilər, çünki Şərq vilayətləri ilə əlaqə məhz Mada vasitəsilə saxlanılırdı. Buna görə də məhz böyük Mada torpaqları yunan-makedoniyalıların bilavasitə hakimiyyəti altına düşür.

Bütün Cənubi Azərbaycan ərazisini əhatə edən Atropatenanın ərazisi şimalda Araz çayından cənubda Zəncana qədər (Zəncan da daxil olmaqla), şərqdə Deyləm, Tarm, Qilyanla sərhədlənirdi, qərbdə Ərzincana qədər uzanırdı. Polibi e.ə. III əsrin son rübünün hadisələrindən danışarkən məlumat verir ki, Atropatenanın bəzi hissələri "Fasisdən yuxarıdakı yerlərdə Pontun (Qara dəniz) üzərində yüksəlir, digər tərəfdən o, Hirkan (Kaspi) dənizinə qədər çatır, "həmin padşahlıq" (yəni Atropatena) hələ farsların (yəni Əhəmənilərin) zamanından mövcuddur. Mənbələrə görə, e.ə.III əsrin 20-ci illərində bu dövlətin sərhədləri Kaspi dənizindən Rioni çayının yuxarı axarınadək olan ərazini əhatə edirdi. Bu o demək idi ki, həmin dövrdə Qərbi Azərbaycan ərazisi və İberiya torpaqları da Atropatenanın hüdudlarına daxil idi. Paytaxt Qazaka idi. E.ə. II əsrdə isə Atropatenada Atropatena şahlarını qış iqamətgahına çevrilən iri şəhər-qala Fraaspa tikildi.

Atropatena böyük hərbi qüvvəyə malik idi. Strabonun məlumatına görə Atropatena 10 min süvari, 40 min piyada qoşunundan ibarət böyük orduya sahib idi. Atropatena hökmdarları hər zaman ölkənin müstəqilliyini qoruyub saxlamağa müvəffəq olmuşdular. Zaman-zaman onlar romalıları belə məğlubiyyətə uğradırdılar. Hətta onların bayraqlarını hərbi qənimət kimi ələ keçirmişdilər və Pont çarı Polemonu əsir götürməyə müvəffəq olmuşdular.

Atropatena hökmdarları qonşu dövlətlər böyük imperiyalarla dostluq və müttəfiq münasibətləri qurmağı bacarırdılar. Bu məqsədlə Atropatena çarları romalılarla, suriyalılarla, farslarla qohumluq

münasibətləri qurmuşdular. Bu ənənə Atropatın qızını makedoniyalı İskəndərin silahdaşı Perdikkaya ərə verməsi ilə başlamışdı. E.ə. 34-cü ildə isə Atropatena hökmdarı öz qızı İotapanı Antoni və Kleopatranın izdivacından doğulan oğlu Aleksandr Heliosla evləndirdi. Antoni Aleksandrı Midiyanın hökmdarı elan etməyə can atırdı. Atropatena hökmdarları parfiyalılarla romalılar arasında gedən çəkişmələrdən məharətlə istifadə edib, öz ölkələrinin iqtisadi-siyasi və mədəni müstəqilliyini qoruyub saxlaya bilmişdilər.

Beləliklə, Atropatena hökmdarları eramızın III əsrinə qədər Sasanilərin hakimiyyət başına gələndə onların sonuna qədər öz müstəqilliyini qoruyub saxlaya bilmişlər. Eramızın III əsrində Sasanilər Atropatena dövlətini ləğv edərək onu öz əyalətlərinə çevirdilər. Sasani hökmdarlarının irsi torpağına çevrilən Atropatena ərəb yürüşlərinədək bu vəziyyətdə qaldı.

### *4.2. Atropatena ellin dövlətlər əhatəsində*

Atropatena dövlətinin təşəkkülü və inkişafı ellinizm dövrünə təsadüf etmişdi.Yunan-makedoniyalıların geniş Şərq vilayətlərini istila etməsi nəticəsində, Makedoniyalı İskəndərin Hindistana qədər böyük bir ərazini öz imperiyasına daxil etməsilə Şərq mədəniyyəti ilə yunan mədəniyyətinin bir-birinə qarşılıqlı təsiri nəticəsində qədim dünya tarixində yeni, özünəməxsus bir mərhələ - ellinizm [1] dövrü başlandı. Tarixdə ellinizm adını almış bu mərhələ Makedoniyalı İskəndərin vəfatından sonra başlamış və Misirin Roma imperiyasına birləşməsinədək- Misir kraliçası Kleopatriyanın ölümünə, yəni e.ə. 31-llədək olan dövrü əhatə edir. Çox geniş bir ərazidə təqribən yüzillik tarix boyu Ellin mədəniyyəti ilə bir sıra Şərq mədəniyyətlərinin bir-birinə güclü nüfuzundan və vəhdətindən yaranmış ellinizm mərhələsi yunan mədəniyyəti və incəsənətinin Qədim Şərq ölkələrinə təsiri nəticəsində yeni sinkretik mədəniyyətin təşəkkülünə aparan sivilizasiya mərhələsi idi**.** Ellinizm dövrü e.ə. III-I əsrlərdə mövcud olmuş və ictimai inkişafın sonrakı gedişinə böyük təsir göstərmişdi.

---

[1] Ellinizm Makedoniyalı İskəndərin e.ə. 334-323-cü illərdə hərbi səfərlərindən tutmuş, həmin ölkələrin Roma imperiyası tərəfindən işğalına qədər olan dövrü əhatə edir.

Makedoniyalı İskəndərin on il ərzində qurmuş olduğu böyük imperiyanın sərhədləri Dunay çayı və Qara dənizdən tutmuş Pəncaba qədər olan geniş əraziləri əhatə edirdi. İmperiyanın baş şəhəri isə e.ə. IV əsrdə Makedoniyalı İskəndər tərəfindən istila olunmuş Babil elan edilmişdi.

Bu dövrdə yunan mədəniyyəti Qədim Şərq mədəniyyətini də qəbul edərək özünəməxsus xüsusiyyətlər qazanmışdı. Yunan və Şərq mədəniyyətləri ünsürlərinin qarşılıqlı təsirindən əks etdirən ellin mədəniyyəti formalaşmışdı. Makedoniyalı İskəndərin dövründə İran, Misir, Kiçik və Orta Asiya əraziləri ellin mədəniyyətin təsiri altına düşmüşdü.

E.ə. 323-cü ildə İskəndərin vəfatından az sonra, Mərkəzi hakimiyyətin zəifləməsi onun imperiyasının süqut prosesini sürətləndirdi. İmperiya daha kiçik və bəzən də yalnız sözdə asılı çarlıqlara parçalanmağa başladı. Kiçik Mada-Atropatena da əslində müstəqil olan belə çarlıqlardan idi. E.ə. IV əsrin sonunda öz qoşunu olan satraplardan hər biri öz torpaqlarını mümkün qədər genişləndirməyə çalışdığı üçün bir-birilə mübarizəyə başlamışıdı. İskəndər imperiyasının dağılması ilə Yaxın və Orta Şərqdə yaranan dövlətlər ellin dövlətlər adlanırdı. Atropatena da belə dövlətlərdən biri idi. Atropatena hökmdarı öz mövqeyini gücləndirmək üçün Selevki, Parfiya, Baktriya kimi ellin dövlətlərlə əlaqələr qurur, qohumluq münasibətləri yaradırdılar.

Antik müəlliflərdən Polibi bildirir ki, "Midiya hər tərəfdən ellin şəhərləri ilə əhatə edilmişdir". Atropatın varislərinin də çarlığın banisinin ənənəsini davam etdirərək, yunan-makedoniyalıların ölkəyə soxulmasına "yol verməməsinə" baxmayaraq ellinizm ənənələri Atropatenaya da nüfuz edirdi. Burada sinkretik ayinlər icra edilirdi, yunan allahlarının şərəfinə ibadətgahlar tikilirdi. Ellinizm dövründə, Atropatenada yunan dili geniş yayılmışdı. Kerefto dağlarından tapılan bir yunan kitabəsi yunan dilinin, yazısının və hüquq normalarının Atropatenada da geniş yayıldığını göstərir.

Ellinizm dövründə Atropaneda da ölkənin iqtisadi və mədəni inkişafını təmin etmək üçün şəhərsalmaya diqqət yetirirdi. Qonşu vilayətlərdəki yunan-makedoniyalılar kimi, atropatenalılar da ellin ənənələrinə uygun olaraq geniş şəhərsalma işlərinə başlamışdılar. Qazaka, Fanaspa, Fraaspa, Anqazana kimi şəhərlər antik ellin ənənə ilə salınan mühüm ticarət mərkəzlərinə çevrilmiş şəhərlər idi.

**Atropatenanın Selevki dövləti ilə münasibətləri.** Makedoniyalı İskəndərin ölümündən sonra, onun varisləri arasında çəkişmələr bütün III əsr boyu davam etdi. Hakimiyyət və torpaq uğrunda İskəndərin sərkərdələri arasında başalayan mübarizəni onların varisləri Kiçik Asiyada, Suriyada, Finikiyada, Yunanıstanda, Makedoniyada davam etdirirdilər.

Şərqdə İskəndərin imperiyasının parçalanması nəticəsində yaranan ən böyük ellin dövlət Kiçik Asiyadan Hindistanadək uzanan Selevki dövləti idi. Selevkin (302-281) 312-ci ildə Babilə gəlməsilə Ön Asiyada yeni bir dövr - Selevkilər dövrü başlandı. E.ə. IV əsrun - III əsrin əvvələrində I Selevk və I Antioxun dövründə Selevkilər uğurlu müharibələr apararaq güclənmişdilər. Xüsusilə e.ə. III əsrin sonu Selevkilər dövlətinin qüdrətli dövrü idi. Selevkilər Makedoniyalı İskəndərin imperiyasının dağılmasılə meydana gələn digər ellin dövlətlər kimi e.ə. bütün III əsr boyunca dağılmış imperiyanın siyasi xəritəsini öz xeyirlərinə dəyişmək uğrunda müharibələr aparırdılar. E.ə. 223-də Selevkilər dövlətində hakimiyyətə gələn III Antiox (e.ə.223-187) Roma, Hindistan və s. ilə müfəfəqiyyətli müharibə aparırdı. Selevkilərin e.ə. III əsrin sonu- II əsrin əvvəllərində Aralıq dənizinin şərqində meydana gəlmiş Roma ilə Selevkilərin ilk toqquşması da III Antioxun dövründə olmuşdur.

İran satraplıqları tədricən Selevkilərin əlinə keçməyə başladı. Bu dövrdə Böyük Midiya ərazisi Selevkilər sülaləsindən olan I Antioxun hakimiyyəti altına keçsə də, Kiçik Mada ərazisində formalaşan Atropatena dövləti öz müstəqilliyini qorumagı bacardı. I Selevkin hakimiyyəti dövründə (e.ə. 310) Atropat artıq Kiçik Madanın müstəqilliyini elan edərək nəhəng Midiya dövlətinin etnik və mədəni varisi olan, dövlətçilik ənənələrini davam etdirən Atropatena dövlətini qurmuşdu. Atropat hələ İskəndərin sərkərdələrinin hakimiyyət uğrunda mübarizə apardıqları illərdə imperiyanın torpaqlarının bölüşdürülməsindən Atropatenanı uzaq tutmağı bacarmışdı. İskəndərin ən nüfuzlu sərkərdələrindən biri olan və e.ə. IV əsrin son onilliyində köhnə İran satraplıqlarının bir çoxuna yiyələnən Selevkin qurduğu imperiya dövründə də dövlətinin müstəqilliyini qoruyub saxladı və Azərbaycan tayfalarını vahid hakimiyyət altında birləşdirə bildi.

E.ə 283-282-ci illərdə I Selevk və daha sonra onun oğlu Antiox Xəzəri və onun qərb sahillərini tədqiq etmək üçün ekspedisiya təşkil etmişdi. III Antiox 212-205-ci illərdə Selevkilərin əldən çıxmış

vilayətləri yenidən ələ keçirmək üçün Şərqə yürüşə başladı. Ekbatanada Anahita məbədi qarət edildi. III Antioxun Atrapatena hökmdarı Artabazanla müharibəsindən sonra Atropatena ondan asılı vəziyyətə düşdü və bir müddət Selevkilərin ali hakimyyətini tanımağa məcbur olur. Parfiyalılar, Yunan-Baktriya çarlığı da Selevkilərin ali hakimiyyətini tanıdılar. III Antiox Hindistana və İran körfəzinin Ərəbistan sahillərinə yürüş edərək böyük qənimətlər toplayarq Dəclə sahilindəki Selevkiyaya qayıtdı.

E.ə.190-cı ildə Selevkilər Romalılar tərərəfindən məğlub edildilər və e.ə. II əsrin ortalarında bu dövlət Parfiya və Yunan-Baktriya dövlətlərinə ayrıldı. Bundan sonra e.ə.II əsrin I iyarısından I əsrin I yarısınadək Parfiya və Roma arasında Ön Asiyada hökmranlıq uğrunda mübarizə başlandı. Bu ölkələrin hər biri Atropatenanı ələ keçirməyə çalışsa da, Atropatena Romanı özü üçün daha təhlükəli düşmən sayırdi. Buna görə də Atropatena Pomaya qarşı Parfiya ilə müttəfiq oldu. Lakin III Antiox Asiyanın hökmdarı kimi tanınsa da bu, çox çəkmədi. Şərqə yürüş Selevkilər dövlətinin parçalanmasını ləngitsə də, dövlətin süqutunun qarşısını ala bilmədi. E.ə.190-cı il ərəfəsində romalılarla Maqnessiya döyüşündə Antiox məğlub oldu. Maqnessiya ətrafındakı məğlubiyyətdən sonra Asiyada Selevkilər hakimiyyəti xeyli zəiflədi. Selevkilər şərq satraplıqlarının demək olar ki, hamısını itirmiş oldular. Mada, Parfiya ayrıldı. Atropatena da yenidən müstəqil bir dövlətə çevrilir.

Beləliklə, Selevk (e.ə.305-280) və onun oğlu Antioxun (e.ə. 280-261) səylərinə baxmayaraq e.ə. III əsrin sonlarından etibarən Selevkilər dövləti tənəzzül mərhələsinə qədəm qoydu. E.ə.190-cı ildə isə III Antiox romalılarla müharibədə məğlub olandan sonra Selevkilər dövləti tənəzzülə ugradı. Şərqdəki bütün satraplıqlarını itirdi. Selevkilərin tərkibinə daxil olan Baktriya, Soqdiana və Parfiya kimi bir sıra ərazilər ondan ayrılır və müstəqil dövlətə çevrilir. E.ə. II əsrin ortalarında Selevki dövləti Parfiya və Yunan-Baktriya dövlətlərinə parçalandı.

### *4.3. Atropatenanın Roma və Parfiya dövlətləri ilə münasibətləri*

### *4.3.1. Parfiya və Roma arasında Ön Asiyada hökmranlıq uğrunda mübarizə*

Selevkilərlə çoxdan mübarizə aparan parfiyalılar e.ə. II əsrin 50-ci illərinin ortalarına yaxın güclü siyasi qüvvəyə çevrilirlər. Tezliklə (148-147-ci illərdə) Parfiya çarı I Mitridat Madanı işğal edir. Madanın işğalından sonra parfiyalılar e.ə. 141-ci ildə Mesopotamiyanı tutdu. E.ə. II əsrin 40-cı illərinə yaxın Parfiya dövləti demək olar bütün İranı və bütün Mesopotamiyanı əhatə edirdi. 130-cü ilə yaxın Selevkilər İranda öz hökmranlıqlarını bərpa etmək üçün son dəfə daha bir cəhd göstərsə də Parfiya padşahı II Fraatın qoşunları bu cəhdin qarşısını aldı. Selevki ordusu tamamilə darmadağın edildi. VII Antiox da öldürüldü. Selevkilərin İranda hakimyyətinə son qoyulur. E.ə. 130-cu ildə Selevkilərin öz hakimiyyətlərini bərpa etmək çəhdləri məğlubiyyətə uğrayır. E. ə. II əsrin sonu I əsrin əvvəllərində Parfiya dövləti ən qüdrətli dövlətə çevrilir.

Parfiya dövlətinin Atropatenaya da təsiri güclənir. Ancaq Parfiyanın Atropatenanı işğal etməsi barədə mənbələrdə məlumat verilmir. II Mitridatın hökmranlığının əvvəlində Atropatenada parfiyalıların mövqeləri möhkəmlənməkdə idi. Parfiyalıları Atropatenaya tərəf çəkən amil dövlətin ərazisini genişləndirmək və strateji cəhətdən mühüm əməliyyat meydanı ələ keçirmək olsa da atropatenalıların parfiyalılarla yaxınlaşma məqsədi ellinlərə qarşı mübarizə idi.

Parfiyalıların Fərat sahillərinə gəlib çatması bu ərəfədə Kiçik Asiyada geniş əraziyə yiyələnmiş romalıları bərk narahat edirdi. Artıq e.ə. II əsrin ortalarına yaxın Roma da Aralıq dənizi hövzəsində güclü dövlətə çevrilmişdi. Roma imperatoru Antoni Şərqdə İskəndərin imperiyası kimi böyük Asiya dövləti yaratmaq arzusunda idi. Bunun üçün öncə Parfiyanı, sonra onun müttəfiqini əzmək niyyətində idi.

E.ə.II əsrin I yarısından I əsrin I yarısınadək Parfiya və Roma arasında Ön Asiyada hökmranlıq uğrunda mübarizə dövrü olmuşdur. Roma və Parfiya yeni torpaqlar işğal edərək bir-biri rəqabət edirdilər. Bir neçə əsr ərzində Roma ilə Parfiya arasında baş verən toqquşmalar, onların qarşılıqlı mübarizəsi nəticəsində Ön Asiya müharibə meydanına çevrildi. İki düşmən-Roma və Parfiya bir-biri ilə ölüm-

dirim döyüşünə atılmışdı. Roma sərkərdəsi Sulla 92-ci ildə Dəclə çayının sahilində Parfiya səfiri ilə görüşmüşdü. E.ə I əsrin ortalarında dünya xəritəsi Parfiya və Roma arasında bölünmüşdür.

### *4.3.2. Atropatena Parfiya münasibətləri*

Bu ölkələrin hər biri Atropatenanı ələ keçirməyə çalışsa da, Atropatena Romanı özü üçün daha təhlükəli düşmən sayırdi. Atropatenalılar parfiyalıları özlərinə daha yaxın sayırdılar. Buna görə də Atropatena Pomaya qarşı Parfiya ilə müttəfiq oldu. Parfiyalılar və atropatenalılar Atropatenada kökləri I minilliyin əvvəllərinə gedən qədim ənənələrini dirçəltmək niyyətində idilər.

### *4.3.3. Atropatenanın Roma ilə münasibətləri*

E. ə. I əsrdə Atropatena Roma işğalçılarına qarşı mübarizə aparmaqda idi. E.ə. 53-cü ildə Parfiya Romanı ciddi məğlubiyyətə uğradır. Bu döyüşdə Atropatena Parfiyalıların müttəfiqi olmuşdur. E.ə.36-da Atropatenanın Fraaspa şəhərinə hücum Antoninin də yürüşü məğlubiyyətlə başa çatır. Atropatena çarı Artabazd bu qələbəni təntənə ilə qeyd etdi. Lakin tezliklə Atropatena ilə Parfiya arasında narazılıq başlayır. Müharibədə ələ keçirdiyi Roma bayraqları və qənimətlərin üstündə Parfiya ilə Roma arasında münaqişə çıxdı. Əslində Parfiya bunu bəhanə edərək Atropatenanı özünə tabe etmək istəyirdi. Belə olduqda Artabazd Parfiya ilə müttəfiqliyi pozaraq e.ə.35-ci ildə Antoniyə sülh təklif etdi. O, Roma bayraqlarını Antoniyə qaytardı və qızını Antoninin Kleopatradan olan oğlu Aleksandr Heliosa verməyə razı oldu. Romalılar tərəfə keçmiş Atropatena tezliklə Roma qoşunlarının ölkədən çıxıb getməsi ilə əlaqədar olaraq Parfiya tərəfindən tutulsa da bu uzun çəkmir.

Beləliklə, Roma ilə münasibətlərini yaxşılaşdıran Atropatena III əsrədək müstəqilliyini saxlaya bildi, hətta qonşu əyalətlərın idarəsi də ona həvalə edildi. Lakin 224-261-ci illərdə Sasani imperiyasının Atropatenaya hücumları başladı. Beləliklə də, Atropatena 3 əsr yarım davam edən müstəqilliyini itirdi və Sasani imperiyasının mərzbanlığına (canişinlik) çevrildi.

### *4.4. Atropatenanın maddi və mənəvi mədəniyyəti*

Atropatena kənd təsərrüfatı, sənətkarlıq, şəhər həyatının yüksək səviyyədə inkişaf etdiyi bir ölkə olmuşdur. Burada ən məhsuldar torpaqlara sahib olan məbəd torpaq sahibliyi, quldarlıq inkişaf etmişdi. Belə torpaqlarda qul əməyindən geniş istifadə olunurdu. Antik müəlliflərin məlumatına görə, maqlara məxsus münbit torpaqlar var idi. Ölkə dağ yamaclarındakı bərəkətli, münbit və ən məhsuldar torpaqlarla, çaylar və bulaqlarla zəngin idi. Çay vadilərində, Urmiya gölü ətrafındakı məhsuldar torpaqlarda əhali əkinçilik, bağçılıq, üzümçülüklə məşğul olurdu. Strabon burada üzüm və əncir, habelə buğda yetişdirildiyini yazırdı. Qədim müəlliflər Atropatena ərazisində taxılçılıq təsərrüfatından da bəhs edirlər. Yerli əhali hələ o vaxtlarda zərərvericilərinə qarşı mübarizə aparırdı.

Atropatenada maldarlıq təsərrüfatı da inkişaf etmişdi. Ölkədə öküz, at, dəvə, keçi kimi çoxlu ev heyvanları yetişdirilirdi. Xüsusilə, atçılıq təsərrüfat həyatında mühüm yer tuturdu. Atropatenada, ölkənin həm hərbi, həm də təsərrüfat ehtiyaclarını ödəyən atçılıq təsərrüfatları vardı. Hələ Polibi Atropatena əhalisinin "atçılıq məharətindən" yazırıdı. Antik müəllif Strabonun məlumatlarından məlum olur ki, Atropatenada çoxsaylı ilxılar var idi. Elian ölkədəki dəvəçilik təsərrüfatı barədə məlumat vermişdir. Burada olduqca çox dəvələr olduğunu və onların gözəl və zərif yunları olduğunu yazırdı. Müəəlif buradakı dəvə yununun yumşaqlığına görə hətta Milet yunundan da geri qalmadığını qeyd ediridi.

Atropatenada **balıqçılıqla da** məşğul olurdular. Mənbələrdə bu ərazidə göldə yetişən şişburun adlanan uzunluğu hətta səkkiz qulaca[1] çatan balıq növü olduğunu, bu balıqların duzlanıb qurudulması, bundan başqa bu balıqların piyindən məlhəm hazırlandığı haqda məlumat verilir. Balıqların içalatından çox keyfiyyətli yapışqan düzəldirlər. Bu yapışqan o qədər bərk yapışdırır ki, hətta on gün suda saxlanılsa belə, nə boşalır, nə də qopur. Hətta fil sümüyündən əşyalar hazırlayan ustalar da bu yapışqandan işlədirlər. Strabon bu ərazidəki

---

[1] **Qulac**-xalq arasında geniş yayılmış və bu gün də işlədilən uzunluq ölçüsü vahididir və insanın açıq vəziyyətdə tutulmuş sağ və ya sol əlinin ən uzun barmağının ucundan burnunun ucuna qədər olan məsafədir ki, bu da orta hesabla 1 m-ə bərabərdir.

şor gollərdən və buradakı kristallaşma nəticəsində əmələ gələn duz çöküntülərindən bəhs edirdi.

Antik Atropatena ərazisindən əldə edilmiş arxeoloji materiallar Atropatena sakinlərinin maddi və mənəvi həyatı barədə daha dolgun təsəvvür əldə etməyə imkan yaradır. Atropatena ərazisində aparılan qazıntılar nəticəsində bir sıra memarlıq abidələrinin qalıqları, həmçinin Atropatena ərazisində şəhərsalma, habelə, müdafiə əhəmiyyəti kəsb edən qala divarlarının tikinti texnikasını aşkar edilmişdir. Atropatena sənətkarları yüksəkkeyfiyyətli metal, gil qablar, müxtəlif silah növləri, toxuculuq məmulatları, bəzək əşyaları və s. istehsal edirdilər. Keramika istehsalı ayrıca təsərrüfatın sahəsi idi. Arxeoloji qazıntılar zamanı tuncdan, dəmirdən, qızıldan və gümüşdən hazırlanmış çox sayda əşya atpılması dəmirçilik və zərgərliyin bu ərazidə yüksək inkişafından xəbər verir.

### *4.4.2. Şəhər həyatı. Ticarət. Pul*

Ellinizm dövründə Atropatenada şəhərsalma işinə böyük diqqət yetirilirdi. Atropatenada bir neçə şəhər, bir sıra böyük və kiçik məskənlər vardı. Qazaka, Fraaspa, Fanaspa, Anqazana ellin tipli şəhərlər idi. Ölkənin paytaxtı Qazaka idi. Mənbələr Atropatenanın iki - yay və qış paytaxtlarının olmasından xəbər verir. Dövlətin yay paytaxtı Vera - indiki Marağa şəhəri, qış paytaxtı isə farsdilli mənbələrin Qazaka, Qandzak, ərəbdilli mənbələrin isə Şiz adlandırdıqları Gəncək şəhəri olmuşdur. Gəncək şəhəri öz adını sak tayfalarından biri olan gəncəklərin adından almışdır. Sonralar ərəb qaynaqlarında Gənzə kimi adı çəkilən bu şəhər indi Urmiya gölünün cənub şərqində, Marağa şəhərinin yaxınlığında yerləşirdi. Arxeoloji qazıntılar aparması nəticəsində Qazaka şəhərinin xarabalıqları və möhtəşəm Azərgüşnasp məbədinin qalıqları aşkarlanmışdır. Astara- Ərdəbil bölgəsində, Zəncan, Maraga, Miyanə, Xoy kimi şəhərlərdə aparılan arxeoloji tədqiqatlar nəticəsində isə Atropatenanın Fraaspa (Təxti Süleyman), Fanaspa (Qaleyi Zohhak) şəhərlərinin yeri müəyyənləşmişdir.

Antik müəlliflər -Strabon, Plutarx, Ptolemey, Dion Kassi Atropatenada inkişaf etmiş şəhər həyatının olduğunu, Fraaspa, Qazaka, Fanaspa, Anqazana kimi şəhərlər haqda məlumat verirlər. Plutarx Atropatenada Fraata şəhərinin olduğunu qeyd edir. Antik müəlliflərdən Dion Kassi isə bu şəhəri Fraaspa kimi yazmışdır. Qədim Fraaspa

şəhəri Urmiya gölünə tökülən Sofiçayın kənarında yerləşirdi. Bu şəhərin Urmiya gölündən təxminən 160 kilometr cənub-şərqdə müasir Təxti Süleyman ərazisində, son dövrlərdə isə Fraaspanın müasir Marağa şəhərinin ətraflarında, Qazakanın isə Miyandob şəhərindən şərqdə olan Leylan kəndi ərazisində yerləşdiyi ehtimal edilir. Atropatenanın digər şəhəri - Anqazana isə indiki Zəncan şəhəri ilə eyniləşdirilir. Fanaspaya müasir Marağa və Miyanə şəhərləri arasındakı ərazidə, Miyanəyə daha yaxın olan Qaleye Zöhhak adlı qədim şəhər yeri olaraq müəyyən edilmişdir. Mil düzündə (Beyləqan bölgəsi) e.ə. IV əsrə - e. I əsrə aid Təzəkənd şəhər yeri qədim Paytakaranla eyniləşdirilir. Antik mənbələrdə Vera qalasının da adı çəkilir. Vera Marağadan təxminən 16 km yuxarıda Səhənd dağının ətəklərində lokallaşdırılır.

Ölkə ərazisindən beynəlxalq ticarət yollarının keçməsi daxili və xarici ticarətin inkişafına, şəhərsalma işinə müsbət təsir edirdi. Qədim şərq dövlətlərini birləşdirən mühüm ticarət yolları Atropatena ərazisindən keçirdi. Atropatena dünya ticarətinə cəlb edilmiş ilk ölkələrdən biri olmuşdur. Atropatena ərazisində Təbriz, Ərdəbil, Urmu, Marağa, Miyana, Zəncan, Naxçıvan, Maku, Sarab, Mərənd kimi şəhərlər mühüm sənətkarlıq və ticarət mərkəzinə çevrildilər. Atropatena şəhərləri quru, həm də su (dəniz) ticarət yolları vasitəsi ilə dünyanın müxtəlif ölkələri ilə ticarət və mədəni əlaqə saxlayırdı. Atropatena şəhərləri şimalda Qafqaz Albaniyası, İberiya, şərqdə məşhur ―İpək yolu vasitəsi ilə İran, Orta Asiya, Hindistan və Çin, qərbdə Kiçik Asiya ölkələri ilə iqtisadi əlaqəyə girirdi. Baktriya, Hindistan, Çin malları Aqbatana (Həmədan), buradan da Qazakaya (Marağa) gətirilir, buradan isə Pont (Qara dənizə), Kiçik Asiya vasitəsilə Aralıq dənizinə aparılırdı. Aqbatandan Qazakaya gedən ticarət yolunun bir qolu da Kaspi sahili ilə Alban ölkəsinə, oradan da şimal ölkələrinə gedirdi. Kaspi sahili boyunca şimala gedən yolun böyük ticari əhəmiyyəti vardı. Digər bir ticarət yolu isə Kaspianadan keçib Atropatenaya gedirdi. Klavdi Elianın Ekbatanaya balıq daşınması haqqında məlumat verir. Bu yolla dəvə karvanları Hindistan və Babilistana malları daşıyırdı.

Atropatenada Əhəmənilər dövründə yaradılmış pul sistemi, vergi sistemi mövcud idi. Ticarətdə puldan geniş istifadə olunurdu. Atropaten ərazisində tapılan ən qədim pullar Makedoniyalı İskəndərin adından kəsilmişdi. Burada Parfiya pullarından da istifadə olunurdu. Atropatena ərazisində Parfiya hökmdarlarının sikkələri,

əsasən draxmaları çox geniş yayılmışdı. Atropatena ərazisindən tapılmış sikkə dəfinələri, xüsusilə, Atropatena ərazisindən Əhərdə tapılmış təxminən 600 Parfiya draxmasından ibarət dəfinə bu dövlətin pul dövriyyəsinin səviyyəsi haqqında təsəvvür yaratmağa imkan verir. Ellinizm dövründə Atropatena ərazisində pul dövriyyəsində olan sikkələr arasında Makedoniyalı İskəndərin ölümündən sonra dövriyyəyə buraxılmış, Urmiya gölü yaxınlığındakı qəbirlərdən birində aşkar olunmuş draxmanı da (e.ə. III əsr) qeyd etmək olar.

Atropatenanın şəhərlərində həm əkinçilik, maldarlıq və sənətkarlıq təsərrüfatları var idi. Arxeoloji tədqiqatlarda zamanı əldə edilən artefaklar Atropatenanın antik və ilk orta əsrlər dövründə təsərrüfat mədəniyyətinin və dini etiqadlarının, dəfn adətlərinin öyrənilməsi üçün qiymətli mənbədir.

### *4.4.3. Atropatenanın etnik tərkibi və dini dünyagörüşləri*

**Atropatenanın əhalisi.** Hər bir xalqın təşəkkülü tarix boyu davam edən etnik proseslərin nəticəsidir. Cənubi Azərbaycan ərazisində və ona bitişik bölgələrdə e.ə.III minillikdən bəri kuti, lullubi, subi, e.ə. II minillikdən Kas (kaşşu) tayfaları yaşamışlar. Atropatena ərazisində e.ə. IV- e. I əsrlərində hurrilər, mannalılar- maqlar, gellər. kaspilər, mardlar, saqartlar, həmçinin matienlər, kadusilər, gellər, utilər, kaspılər və b. yaşayırdılar. Bu ərazidə tədricən Cənubi Azərbaycan tayfalarının - kuti, lullubi, hurri, mannalı və başqalarının madalılarla qaynayıb-qarışması nəticəsində yeni bir etnos - ellinizm dövründə madalıların üstünlük təşkil etdiyi atropatenalılar etnosu təşəkkül tapdı.

Beləliklə, e. ə. I minilliyin ortalarında indiki Cənubi Azərbaycan ərazisini əhatə edən Kiçik Mada adlanan ərazidə öncəki əsrlərdə getmiş etnik proseslərin nəticəsində - mannalılar, madaylar, kaslar kimi qədim etnoslar əsasında yeni etnos formalaşmışdı. Artıq e. ə. IV əsrdən etibarən Kiçik Mada ölkəsi Atropatena adlanırdı. VI əsrə aid Dərbənd qala divarında aşkar edilmiş epiqrafik abidədə Aturpatkan adı qeyd olunmuşdur. Bu məlumat ölkənin rəsmi adının Aturpatkan şəklində yazıldığını göstərir. Lakin yerli əhalinin bu adı necə tələffüz etdiyi məlum deyil. Artıq VII əsrdə ərəb müəllifləri bu adı -Azərbaycan kimi yazırdılar.

Qeyd etmək lazımdır ki, Azərbaycanın Kür çayının Arazla birləşdiyi yerdən Xəzərə qədərki hissəsindən cənubdakı inzibati rayonların (Saatlı, Sabirabad, Neftçala, Salyan, Biləsuvar, Cəlilabad, Masallı, Lənkəran, Lerik və Astara rayonları) ərazisi və Naxçıvan qədimdə Midiyaya, e. ə. IV əsrdən eranın VII əsrinə qədər Atropatenaya məxsus idi. Əhəməni dövründə bu ərazilərin daxil edildiyi XI satraplıqda Herodota görə, kaspilər, pavsiklər, pantimatlar va dareytlər, XIV satraplıqda isə Kür-Araz rayonlarında yaşayan utilər və müklər, həmçinin Cənubi Azərbaycan vilayətləri və onlara bitişik torpaqlarda məskun olan saqartilər məskun idilər.

Bölgədə gedən etnik və siyasi dəyişiklərə baxmayaraq, mannalılar antik dövrdə də Urmiyaətrafı bölgədə yaşamaqda idilər. Antik müəlliflər Urmiya gölü böləsində yerləşmiş mannalılar və Manna ölkəsi haqda məlumat verirdilər. Mada tərəfindən işğalından sonra Manna ərazisi antik müəlliflər tərəfindən Madanın tərkib hissəsi, "Kiçik Mada" kimi qəbul edilirdi və onu Mada-Atropatena, Atropat Madası, Kiçik Mada, Atropatena kimi qeyd edirdilər. Mənbələrin əksəriyyətində Atropatena Madanın bir qismi hesab olunur. Hətta Strabon, Tatsit Atropatenanı "Midiya" adlandırırdı. Strabon Atropatın da midiyalı olduğunu qeyd edirdi.

Atrapatenada yaşayan və Atropatenanın etnik tərkibində mühüm yer tutan tayfalardan biri də maqlar-müklər olmuşlar. Miletli Hekatey, onun ardınca isə Herodot müklər adlanan Arazboyu tayfalardan birini xatırlamışlar. Antik müəllifin məlumatından aydın olur ki, müklər e.ə. V əsrin siyasi hadisələrində iştirak etmişlər. Müklər saqartalılarla, utilərlə və başqa tayfalarla birgə XIV satraplığa daxil idilər və Mukan (indiki Muğan çölündə) ərazisində yaşayırdılar.

Erkən orta əsrlərdə Şimali Azərbaycanda ərazisində yaşamış alban, aran, qarqar, sirak, sadak, hun, savar, çul, peşeneq, xəzər və b. tayfalarının müəyyən hissəsi cənubda da yaşayırdı. Qədim Atropatenada məskun olan albanlar haqda antik müəllif Strabon məlumat vermişdir. Strabonun verdiyi məlumatdan aydın olur ki, albanları təkcə Azərbaycanın Arazdan şimaldakı ərazisində deyil, həm də Arazdan cənubdakı ərazilərində yaşamışlar. Antik müəllif albanların bir hissəsinin Midiya dağlarında yaşadığını yazmışdır. Strabon Midiya dağları dedikdə Atropatena dağları nəzərdə tutulurdu. Müəllif yazır ki, albanlar gellər, kaduslar, utilər və mardların qonşuluğunda

yaşayırlar. Utilər də müklər kimi, e.ə. V əsrin son rübündə Kserksin Yunanıstana yürüşündə iştirak etməklə tarix səhnəsinə çıxmışlar.

Alban tayfalarının Azərbaycanın cənubunda da məskun olduğunu bölgənin toponimləri təsdiq edir. Cənubi Azərbaycan ərazisində Peştasar dap silsiləsinin cənub – qərb yamacı indi də Alvana adlanır. Cənubi Azərbaycanda əhalisi azərbaycanlılardan ibarət Alvan və Alvanaq adlı yaşayış məntəqələri vardır. Yaqut Həməvi Bəzzin yaxınlığında dağlıq ərazinin adının Arşak olduğunu yazır. Bu toponim cənubda Qaradağ mahalında Savalan dağından şimalda Qaradağ silsiləsilə Talış dağları silsiləsinin birləşdiyi yerin adında - Ərşə formasında qalmışdır. XIX əsrdə Yardımlı rayonunda Albani adlı kənd vardı. Cənubi Azərbaycan ərazisində Qarqar, Qərqər – Nəsir, Baba Qarqar, Karkarak, Kərkərə, Kərkər, Alamdar – Qarqar adlı kəndlər vardır. Bu toponimlər Atropatenada yaşamış alban tayfalarından qarqarların adı ilə bağlıdır. Albaniyada erkən orta əsrlərdə yaşamış Aran adlı türk tayfasının da adı Cənubi Azərbaycanda Arançı, Aran , Aranlı kəndlərinin adlarında iz qoymuşdur.

Kaspilər haqqında erkən məlumatlar e.ə. V əsrə aiddir. Kaspilər siyasi meydana artıq e.ə. V əsrdə çıxmışdılar. Herodot Kserksin Elladaya yürüşündə onların iştirak etdiyi haqqında məlumat verir. Onlar həmçinin Makedoniyalı İskəndərin qoşunlarına qarşı döyüşmüşlər. Həm qədim Şərq mənbələrində, həm də antik mənbələrdə onlar haqqında məlumatlar mövcuddur. Kaspilər çox qədim və geniş yayılmış tayfalardan biri idilər. Əsasən Azərbaycanın, qismən şimal, qismən isə cənub vilayətlərinin sakinləri olmuşlar. Kaspi dənizinin adı, Qafqaz ərazisindəki bir neçə keçidin, həmçinin Orta Asiyada bir neçə şəhərin adı kaspi etnonimindən qaynaqlanır. Əhəmənilər dövründə ölkənin XI satraplığına daxil olmuş kaspilər öncə Kaspi ölkəsi, antik mənbələrdə Kaspiana (Paytakaran) adlanan Qafqaz Albaniyasının vilayətində utilərlə, xüsusilə Qafqaz Albaniyasının əsas əhalisi olan albanlarla qonşuluqda yaşayırdılar. Atropatena çarlığının qüdrətli dövründə Kaspiana Atropatenanın hakimiyyəti altında və ya ondan müəyyən asılılıqda olmuşdur. Strabonun məlumatına görə, sonralar Kaspiana Alban torpağının tərkibinə daxil idi.

Atropatenada irandilli etnoslar da yaşayırdı. Onlardan ən çox saylı kadusilər idi. Bu etnosu ilk dəfə Herodot qeyd etmişdir. Sonrakı antik müəlliflər də kadusilər haqqında məlumat verirlər və onların dağlıq ərazilərdə çox döyüşkən xalq olduqlarını qeyd edirlər. Kadusilərin dəniz kənarında yaşadığını yazan Strabon kadusların

ərazisinin Xəzər dənizinin sahili boyu (təxminən 190 km) uzandığını yazır. Kadusilər Kaspi dənizinin cənub-qərbindən Matiena torpaqlarınadək olan geniş ərazidə yaşayırdılar. Antik müəlliflər kadusilərin qonşuları olaraq madalıları, matianalıları, albanları, anariakları, kaspiləri, amardları, sakları, tapirləri, hirkanları və b. xatırladırlar. Atropatenada yəhudilər, gurganlar, parslar və mardlar da yaşayırdılar. Onların bir hissəsi Sasanilər imperiyasının hakimiyyəti dövründə şimala köçürülmüşlər.

Beləliklə, artıq e. ə. I minilliyin əvvəllərindən Azərbaycan ərazisində *yerli* etnoslar – mannalar, madaylar, kaslar, kaspilər, atropatenalılar, albanlar məskun idilər.

### *Atropatenada dini dünyagörüşləri*

Mada tayfalarından biri olan maqlar Atropatenanın etnik tərkibində mühüm yer tutduqları kimi Madanın sonralar isə Atropatenanın mənəvi, mədəni, habelə siyasi və iqtisadi həyatında da böyük rol oynamışlar. Maq kahinlər - od ayininin xidmətçiləri, zərdüştilik təliminin təbliğatçıları və qədim ənənələrin, Avesta kitablarının mühafizəçiləri idilər. Zərdüştilik qədim Azərbaycan və İranda ən mühüm dünyagörüşü olaraq Zərdüşt tərəfindən təqribən ikinci minilliklə 2500-ci illər arasında yaradılmışdır. **A**zərbaycan ərazisində inkişaf edib yayılmağa başlamış Zərdüşt dininə Midiya kahinlərinin də dini təlimləri təsir göstərmişdir. Zərdüşt dini Əhəmənilərin dövründən etibarən Azərbaycan, İran və Orta Asiyanın qədim tayfalarının dini idi.

Zərdüşt kahinləri - maqlar Atropatenanın dini həyatında çox mühüm rol oynayırdı. Atropatena sakinlərinin dini dünyagörüşü və adət-ənənələri haqqında müqəddəs kitab zərdüştlərin "Avesta" kitabı hesab olunur. Avesta dini mahiyyət daşımaqla bərabər bir sıra qədim xalqların, o cümlədən qədim Azərbaycan xalqının mədəniyyətini, adət və ənənəsini, tarix və coğrafiyasını özündə əks etdirən böyük bir ensiklopedik kitabdır. Kitab təkcə Zərdüştün dini ehkam və təlimlərinin toplusu deyil, burada, eyni zamanda, ayinlər və adətlərlə bağlı mərasimlərin kecirilməsi qaydaları öz əksini tapmışdır.

Sasanilər dövründə də Atropatena imperiyanın əsas dini mərkəzinə çevrildi. Əhəmənilər hakimiyyəti devrildikdən sonra Yaxın Şərq ölkələrində ellin mədəniyyəti, o cümlədən müxtəlif dini və fəlsəfi görüşlər geniş surətdə yayılmışdı. Bu səbəbə görə də,

parfiyalılar ilk dövrlərdə ellin mədəniyyətinin təsirindən asanlıqla xilas ola bilməmişlər. Bir sözlə, demək olar ki, Zərdüştilik Sasanilərin hakimiyyət başına gəlmələri ilə əlaqədar olaraq qüvvətlənməyə başlamışdı. Burada Şiz şəhərində ən çox sitayiş edilən od məbədi Adurquşnasp (3-13-cü əsrlər) yerləşirdi.Təxti-Süleyman ərazisində arxeoloji qazıntlar aparması nəticəsində Qazaka şəhərinin xarabalıqları və möhtəşəm Azərgüşnasp məbədinin qalıqları aşkarlanmışdır. III-VII əsrlər bir sıra od məbədi fəaliyyət göstərirdi. Burada od məbədlərini iyerarxiyasını görmək mümkün idi. Məbədlərdəki sosial strukturda ilk təbəqəni kahinlər təşkil edirdi.

# V FƏSİL

# QAFQAZ ALBANİYASI DÖVLƏTİ

## *5.1. Albaniya tarixi ilə bağlı mənbəşünaslıq və tarixşünaslıq*

Azərbaycan Respublikasının ərazisində yaranmış ən qədim dövlət qurumu olan Qafqaz Albaniyası e.ə. IV əsrdən etibarən müasir Azərbaycan Respublikası ərazilərini, həmçinin Cənubi Dagıstan və müasir Ermənistan Respublikasının ərazilərini əhatə edən tarixi Azərbaycan torpaqlarında VIII əsrin əvvəlinədək mövcud olmuşdur. Alban müəllifi Moisey Kalankatlının "Albaniya tarixi əsərində yazdığı kimi, Albaniyanın hüdudları eramızın VII – VIII əsrinə kimi dəyişməmişdir, yəni 1000 il boyu - e.ə. IV – e. VIII əsrlər boyu, demək olar ki, sabit qalmışdır. E.ə. IV əsrdə təşəkkül tapan Albaniya dövləti, VIII əsrin əvvəllərində Ərəb xilafəti yürüşləri nəticəsində süquta uğramışdır. Bu qədim Azərbaycan dövləti antik yunan mənbələrində Albaniya, ərəb mənbələrində Aran, erməni mənbələrində Aqvank, elmi ədəbiyyatda isə Qafqaz Albaniyası adlanmaqdadır.

Qafqaz Albaniyası dövləti, onun tarixi, maddi və mənəvi mədəniyyəti Azərbaycan tarixinin mühüm və ayrılmaz bir parçasıdır. Azərbaycanlılar Qafqaz Albaniyasının etnomədəni irsinin varisləridir. Dünyanın ən qədim dövlətlərindən biri olmuş Qafqaz Albaniyası Azərbaycan tarixinin, eyni zamanda Qafqazın və bütövlükdə Yaxın Şərq tarixinin mühüm mərhələsini təşkil edir. Qafqaz Albaniyası mövcud olduğu bütün e.ə. IV- e.VIII əsrlər boyu Azərbaycanın, həmçinin bütövlükdə Qafqazın, iqtisadi, siyasi və mədəni həyatında olduqca əhəmiyyətli rol oynamışdır.

Albaniya tarixinin öyrənilməsində antik və erkən orta əsr yazılı qaynaqları- antik yunan, latın, o cümlədən də erkən orta əsr alban, ərəb, fars, həmçinin rus və Qərbi Avropa (fransız, ingilis, alman, italyan) müəlliflərinin əsərləri, o cümlədən Roma-Bizans və Parfiya kimi imperiyalar arasında bağlanmış müqavilələr qiymətli mənbələrdir. Qafqaz Albaniyası tarixi yazılı qaynaqlarla yanaşı, həmçinin Azərbaycan ərazisində aparılan çoxillik arxeoloji qazıntılardan əldə olunan maddi mədəniyyət nümunələri və tarixi-etnoqrafik tədqiqatlar əsasında da öyrənilməkdədir.

Antik müəlliflərdən Plini, Ptolomey, Strabon və digərləri Albaniya haqda qiymətli məlumatlar vermişlər. Antik müəlliflər Albaniya olkəsi, onun cögrafiyası, şəhərləri və yaşayış məskənləri, burada yaşayan tayfalar, onların məşguliyyəti və s. haqqında məlumat vermişlər. E.ə. II minillikdə Albaniyada yaranan erkən şəhər tipli yaşayış məskənləri barədə Ptolomey məlumat verərək, burada 29 yaşayış məskənini, xüsusilə də Teleba, Helda, Albana və Hetera şəhərlərini qeyd edirdi. Plini bizim eranın əvvəllərində Albaniyanın əsas şəhərinin Kabala olduğunu yazır, digər alban şəhəri Şamaxını isə öz əsərlərində Kemaxeya, Mamaxeya adlandırırdı. Plutarx, Arrian Pompeyin Albaniyaya yürüşləri ilə də bağlı maraqlı məlumatlar vermişlər. Pompeyin zəfərini təsvir edən antik müəlliflərin məlumatlarından aydın olur ki, romalılar Albaniyanı Roma imperiyasının tərkibinə daxil edə bilməmişdilər.

Dövrümüzədək gəlib çatmış yerli alban müəlliflərinin əsərləri - alban mənbələri Kalankatlının "Albaniya tarixi", Mxitar Qoşun "Alban Xronikası", "Xosrov Qanzasarlının həyatı", Kirakos Gəncəlinin "Tarix", "Sünik tarixi", Həsən Cəlal "Alban ölkəsinin qısa tarixi"(1702-1722), Makar Barxudaryans "Alban ölkəsinin tarixi", "Albaniya ölkəsinin qonşuları", "Arsax", həmçinin alban hüquqi sənədləri V əsr -Aquen kilsə Qanunnaməsidir.

Albaniya tarixinə aid mənbələr içərisində erkən orta əsrlərdə Qafqaz Albaniyasında yaşamış alban müəllifi Musa Kalankatlının "Albaniya tarixi" əsəri xüsusi yer tutur və Alban tarixi üzrə ən mühüm mənbədir. Çünki onun müəllifi VII əsrdə yaşayıb və bir çox hadisələrin şahidi olub. Mənbədən məlum olur ki, müəllif Musa Kalankatlı VII əsrin I rübündə tarixi Qarabağ bölgəsində - Albaniyanın Uti vilayətində Kalanakat kəndində anadan olmuşdur. Müəllifin özünə ləqəb götürdüyü Kalankat Qarabağ bölgəsini də əhatə edən Uti vilayətində böyük kənd idi. Mənbələrdə Kalankat kəndininTrtu kimi yazılan "iti axan çayın" -Tərtər çayının yaxınlığında bir dağın ətəyində yerləşdiyi yazılır. Əl-İstəxri, ibn Hövqəl kimi ərəb müəllifləri Kalankat kəndinin Bərdədən Dəbilə (Dvinə)[1] gedən ticarət yolunun 9 fərsaxlığında gur Tərtər çayının sahilində yerləş-

[1] Dəbil Azərbaycan türklərinin ən qədim şəhərlərindən biri olmuşdur. Ərəb əlyazmalarına əsaslanan rus alimləri bu şəhəri «Dvin» adlandırmış və XIX-XX əsrlər elmi ədəbiyyatda bu şəhər Dvin adlandırılırdı. Sovet İmperiyası dövründə Ermənistan Respublikası ərazisinə daxil olduğuna görə elmi ədəbiyyata Dəbil Azərbaycan şəhəri kimi deyil, ermənilərin şəhəri kimi təqdim edilməkdə idi.

diyini qeyd edir və bu yeri Kalankatus (Kəlkətus ) adlandırırlar. XIX əsrdə alban nəsillərinin son nümayəndələrindən olan din xadimi Makar Barxudaryans da Kalankat kəndinin Bərdədən çox da uzaq olmayan bir ərazidə, onun bir neçə fərsaxlığında [1], Tərtər çayının sahilində, dağətəyi hissədə yerləşdiyini təsdiq edir. M.Barxudaryan özünün "Albaniya tarixi" adlı əsərində yazır: "Kalankat kəndinin xarabalıqları Tərtər çayının sol sahilində hazırda da Qarı körpüsü deyilən körpünun qalıqlarının olduğu ərazidə idi". Bu yer hazırda Bərdə şəhərinin cənub-qərbində Şirvanlıya gedən yolun sol tərəfindədir. Hətta müasir Bərdə rayonu ərazisində yaşayan ağsaqqalların söyləməsinə görə, o kənd hazırkı dövrdə rayon mərkəzindən 3 km. cənub-qərbdə olan Kələntərli kəndidir. M.Barxudaryanın öz əsərində göstərdiyi yer təqribən Kələntərli yaşayış yeri ərazisinə uyğun gəlir. Göründuyü kimi, ilk orta əsrlərdən mövcud olmuş Kalankat kəndi qədim Bərdədən çox da uzaqda olmayan ərazidə idi və görkəmli Azərbaycan (alban) tarixçisi Musa Kalankatlı VII əsrin birinci rübündə bu ərazidə anadan olmuşdur.

Kalankatlının "Albaniya tarixi" əsərində Albaniyanın sosial-iqtisadi, siyasi tarixi, tarixi coğrafiyası, həmçinin Albaniyada yaşayan alban tayfaları, onların dini etiqadları və s. haqqında geniş məlumat əldə etmək mümkündür. Bu baxımdan əsər Azərbaycanın mədəniyyət və din tarixinin, etnogenez problemlərinin öyrənilməsində misilsiz mənbədir. Bu mənbə ilkin olaraq alban dilində yazılsa da sonralar qrabar dilinə tərcümə olunub.

Azərbaycanın qədim dövləti olan Albaniya haqqında yerli mənbələr sırasında XIII əsr alban müəllifi Kirakos Gəncəlinin məlumatları da mühüm yer tutur. Kirakos Gəncəlinin əsərində albanların tarixi qədim dövrlərdən monqolların gəlişinədək olan dövr təsvir edilmişdir. Müəllif öz dövründə yaşanmış tarixi hadisələrdən - Albaniya ərazisinin monqollar tərəfindən işğalı, Xaçın knyazı Həsən Cəlalın hakimiyyət dövrü, onun tikdirdiyi Gəncəsər monastırı barədə məlumat vermişdir.

XIX əsrdə alban kilsəsinin son nümayəndəsi olan Makar Barxudaryan Albaniya dövlətinin (e.ə.IV-eVIII əsri) ən böyük əyalətlərindən olan Arsax, Qarabağ tarixinin tədqiqatçısı olub. M.Barxudaryans əsərlərində öz doğma ölkəsini – Albaniya tarixini, onun tarixi coğrafiyasını, etnoqrafiyasını, siyasi tarixini və müstəqil Alban

---

[1] Təxminən 5-8 km-ə bərabər olan qədim uzunluq ölçü vahidi.

kilsəsinin tarixini bir yerə toplamağa çalışır. O, alban katolikoslarının siyahısını tutur, onların fəaliyyətini işıqlandırmağa çalışır, ilk dəfə olaraq Arsax-Xaçın hökmdarlarının X-XII əsr knyaz sülaləsinin və onların ardınca məliklərin şəcərəsini tərtib edir.

Müxtəlif dövrlərə (IX-XIII əsrlərə) aid edilən, Əl-Bəlazuri, Əl-Yaqubi, Əl-İstəxri, İbn-əl-Əsir və s.kimi ərəb müəlliflərinin əsərlərində də Albaniya tarixi ilə bağlı maraqlı məlumatlar verilmişdir.

Azərbaycan tarixşünaslığının banisi Abbasqulu ağa Bakıxanov özünün «Gülüstani-İrəm» əsərində Albaniya kəlməsini rum, yəni latın dilindəki ağlıq (ağ, azad insanlar mənasında) kimi izah etmiş, eyni zamanda Quba rayonu ərazisindəki Alpan kəndinin adını da "Alban" ilə eyni köklü hesab etmişdir. Azərbaycanın müxtəlif rayonlarında Alpout (Alpağut) kimi bir sıra toponimlər alban etnoniminin izlərini daşıyır. Alban etnoniminin kökündəki "alp" sözü ali, qəhrəman kimi, Alpan isə "mərdlər, alicənablar ölkəsi" kimi izah edilməkdədir.

Şimali Azərbaycanın erkən orta əsrlər tarixinin öyrənilməsi uzun müddət -Rusiya imperiyası, sonralar isə Sovet imperiyası dövründə erməni və gürcü tarixçilərinin inhisarında olub. Alban mənbələrinin saxtalaşdırılması, alban dilində qorunub saxlanmaması, orijinallarının məhv edilərək qrabar dilinə cevrilməsi alban tarixinin sovet tarixşünaslığında başlıca olaraq erməni və gürcü alimləri tərəfindən inhisara alınmasına şərait yaratmışdı. Onların irəli sürdüyü konsepsiyada Qafqaz Albaniyasının guya e.ə. II-IV əsrlər boyu Albaniyanın sağ sahili "Böyük Ermənistanın" bir hissəsi, albanların isə etnik-mədəni-dini baxımdan ermənilərə aid edilməsilə Azərbaycanın tarixi əraziləri, sərhədləri haqda məlumatlar saxtalaşdırılıb, Şərqin ən qədim kilsələrindən olan Alban xristian kilsəsinin müstəqilliyi danılıb, alban mədəniyyəti erməni mədəniyyətinin tərkib hissəsi kimi qələmə verilib, alban etnosunun mövcudluğu danılıb. Erməni tarixçiləri qədim dövrlərdə və erkən orta əsrlərdə Alban dövlətinin Kür çayının yalnız şimalında (Kürün sol sahilində) yerləşdiyini, Kür və Araz çayları arasındakı ərazilərin isə ermənilərə məxsus olduğunu iddia edirdilər. Bu ərazilərin yalnız 387-ci ildən sonra Albaniyanın tərkibinə keçdiyini, lakin etnik, siyasi və mədəni cəhətdən ermənilərə məxsus olduğunu söyləyərək Qarabağ da daxil edilməklə Kürdən cənubda olan ərazilərimizin tarixini saxtalaşdırmağa səy göstərirlər. Bütün bunlar ermənilərin Azərbaycanın əraziləri

hesabına böyük ermənistan xəyalını tarixi cəhətdən əsaslandırmağa xidmət etmişdir.

Qafqaz Albaniyasının Kürün sol sahilində yerləşən ərazilərinə isə gürcü tarixçiləri iddia edirlər. Bəzi gürcü alimlərinin qənaətinə görə Kürün sol sahilindəki Albaniya ərazisinin qərb hissəsi, erməni tədqiqatçılarının "səxavətlə pay verdikləri" sol sahil Albaniyasının ərazisi, eləcə də Kürün sol sahilindəki Azərbaycan ərazisinin qərb hissəsi, ayrı-ayrı dövrlərdə Gürcüstanın ərazisi olmuşdur.

Albaniya tarixinin öyrənilməsi ilə bağlı qoyulan məhdudiyyətlərə baxmayaraq Z.Bünyadov, F.Məmmədova, K.Əlliyev, A.Qaraəhmədova, İ.Babayev, Q.Voroşil, Q.Qeybullayev kimi Azərbaycan tarixçiləri bu konsepsiyaya qarşı çıxaraq Qafqaz Albaniyasının qədim Azərbaycan dövləti olması və albanların da Azərbaycan xalqının söykökündə iştirak edən əsas tayfalardan olduğunu tutarlı elmi dəlillərlə sübut etmiş, həmçinin albanların etnik tarixi, alban mənbələrində türkizmlərin aşkar edilməsi, udi-Azərbaycan dilləri arasında oxşarlıqlara həsr olunmuş bir sıra qiymətli əsərlər yazmışlar. Tədqiqatlar təsdiq etmişdir ki, erkən orta əsrlərdə Qafqaz Albaniyası Qafqaz dağlarının cənub ətəkləri, Alazan vadisi, Dağlıq Qarabağ daxil olmaqla Kür-Araz arası torpaqlar və Şərqdə Xəzər dənizi olmaqla böyük ərazini əhatə edirdi. Həmçinin Azərbaycanın albanşünas tarixçilərinin tədqiqatları nəticəsində Ermənistan Respublikasının tərkibində olan Zəngəzur, Göyçə mahalları, eyni zamanda Gürcüstan Respublikası sərhədlərindəki Qabırrı (İori)-Qanıx (Alazan) arası ərazi və Cənubi Dağıstanda Samur-Dərbəndarası bölgələrin də tarixən Albaniyaya aid ərazilər olduğu təsdiq edilmişdir.

Qafqaz Albaniyasının yarandığı Şimali Azərbaycan ərazilərinin ilk arxeoloji tədqiqi 1829-cu ildə Rusiya İmperator Arxeoloji Komissiyası tərəfindən Cənubi Qafqaza göndərilmiş Aleksandr Yanovski tərəfindən aparılmışdır. Tədqiqatların nəticələrini 1846-cı ildə «Qədim Qafqaz Albaniyası haqqında» adlı məqalədə şərh edilmişdir. Qafqaz Albaniyası dövrünun əsaslı arxeoloji tədqiqinə isə XX əsrin ikinci yarısında başlanmışdır. Qafqaz Albaniyası dövrünü səciyyələndirən arxeoloji materiallar əsasən Qəbələ, Mingəçevir Xınıslı, Şamaxı, İsmayıllı və bir sıra digər yerlərdə aparılan şəhər və nekropol qazıntılarının nəticələrini özündə cəmləşdirir,

Qafqaz Albaniyası tarixinin araşdırılmasında Mingəçevir, Yaloylu təpə arxeoloji abidələrinin, bu ərazilərdən aşkar edilmiş nekropol və qəbiristanlıqların xüsusi əhəmiyyəti vardır. Bu ərazidə

qazıntılar 1959-cu ildən Çuxur-Qəbələ kəndində başlanmışdır. Şəhərin qalıqları Qaraçay və Gavurçay arasında geniş təpədə aşkar olunub və iki hissədən ibarətdir. Arxeoloji qazıntılar nəticəsində sahəsi 50 hektar olan, mədəni təbəqəsi e.ə. IV əsr - eramızın II əsrinə qədərki şəhər həyatını özündə əks etdirən qədim Kabala (Qəbələ) şəhəri aşkar edilmişdir. Albaniyada e.ə. II minillikdən yaranmağa başlayan erkən şəhər formalı yaşayış məskənləri adətən iqtisadi və strateji baxımdan əlverişli yerlərdə, əsasən çay, yaxud digər su hövzələrinə yaxın təpələrdə salınırdı. Bu yaşayış məskənləri çox zaman müdafiə qurğuları ilə əhatə olunurdu. Antik müəlllif Ptolomey Albaniyanın 29 belə yaşayış məskəni haqda məlumat vermiş, Teleba, Helda, Albana və Hetera şəhər adalarını xüsusi qeyd etmişdir. Plini bizim eranın əvvəllərində Albaniyanın əsas şəhərinin Kabala olduğunu yazır.

Arxeoloji qazntılar təsdiq edir ki, şəhər təxminən eramızın II əsrində şəhər dağıdılmışdır. Şəhər bütövlükdə müdafiə divarları və qüllələrlə əhatə olunmuşdur. Ətrafı həmçinin dağ keçidləri ilə hər tərəfdən qorunurdu, bunlardan da ən yaxınları Savalan və Alvan idi. Qəbələdə I-V əsrlərdə alban Arşaki hökmdarlarının, V əsrdən etibarən isə Sasanilər tərəfindən bura təyin olunmuş mərzbanların iqamətgahları yerləşmişdi. IV əsrdə xəzərlərin basqınları ilə əlaqədar olaraq iqamətgah Partav-Bərdəyə köçürüldü. Qəbələ VIII-IX əsrlərdə belə ticari əhəmiyyətini itirməmişdi.

Həmçinin Mil düzündəki Qaratəpə, Fizuli rayonundakı Qarakö-pəktəpə, Qazax şəhərindəki Sarıtəpə və s. kimi yaşayaış məskənlə-rində Albaniya dövrünə aid zəngin arxeoloji material aşkar olunub.

Albaniyanın ikinci böyük şəhəri Ptolomeyin öz əsərlərində Kemaxeya, Mamaxeya adlandırdığı Şamaxı idi. Onun xarabalıqları da müasir Şamaxı şəhərindən qərbdə arxeoloji araşdırmalar nəticə-sində aşkar edilmişdir. 50 hektarlıq ərazini əhatə edən bu qədim alban şəhərinin mədəni təbəqəsi 5 m qalınlığındadır. Arxeoloji araş-dırmalar sübut edir ki, e.ə. IV əsrin sonlarında burada erkən tunc dövrü yaşayış məskəninin yerində yeni şəhər formalaşmışdı.

Müasir Beyləqan rayonu ərazisində - Kəbirli kəndi yaxın-lığında daha bir alban şəhəri Beyləqan şəhərinin Örənqala adı ilə tanınan xarabalıqları aşkar edilmişdir. Yazılı mənbələrdə Paytakaran adı ilə məşhur olan bu şəhərin qala divarlarının iç sahəsi 40 hektara yaxındır. Arxeoloji tədqiqatlar Beyləqan şəhərinin ilkin yerinin Örənqaladan 7 km cənub- şərqdə, indiki Təzəkənd ərazisində yerləş-

diyini müəyyən etmişdir. Müəyyən edilmişdir ki, Təzəkənd sahəsindəki şəhər eramızın ərəfəsində meydana gəlmiş, VII əsrə qədər mövcud olmuşdur.

Mənbələrdə "Partav", "Firuzabad", "Bərdə" adları ilə şöhrət tapmış Tərtərçayın sol sahilində yerləşən Bərdə şəhərini, alban tarixçisi Musa Kalankatlının yazdığına görə, Sasani hökmdarı Firuzun dövründə Alban hökmdarı Vaçe inşa etmişdir. Həmdulla Qəzvini şəhərin tikilmə tarixini daha qədimlərə apararaq Makedoniyalı İskəndərin adı ilə bağlayır və Sasani hökmdarı Qubad tərəfindən genişləndirildiyini göstərir. Şəhərin dəqiq yaşını isə Bərdənin xarabalıqlarında aparılan arxeoloji araşdırmalardan söyləyə bilir. Aparılan araşdırmalar, şəhərin xarabalıgından aşkar edilən pul dəfinələri bu ərazidə hələ antik dövrdə iri yaşayış məskəni olmuşdur. Bərdə zərbxanasında müxtəlif hökmdarların adına mis, gümüş və qızıl pullar kəsilmişdir. Bərdənin ən çiçəklənən vaxtı VI-XI əsrlər olmuşdur. Monqol yürüşləri şəhərin inkişafını zəiflədir.

Qafqaz Albaniyasının xristian abidələri- Qəbələnin Böyük Əmili kəndində - Kilsədağ məbədi, Qaxın Ləkit məbədi, Ağdamın Boyəhmədi kəndində - Govurqala məbədi, Laçın rayonunda Ağoğlan monastır kompleksi, Kəlbəcərdə - Xotavəng monastır kompleksi, Ağdərə rayonunda – Müqəddəs Yelisey məbədi, Qandzasar monastırı da maddi mənbə rolunu oynayır.

Arxeoloji qazıntılar nəticəsində aşkar olunmuş ellin dövlətlərində, Romada, həmçinin, Albaniyanın öz yerli zərbxanalarında zərb olunmuş sikkə dəfinələri də Qafqaz Albaniyasının tarixinin oyrənilməsində mühüm mənbədir. Arxeoloji qazıntılar nəticəsində Şamaxıdan e.ə. IV-I əsrlərdə müxtəlif ölkələrdə, o cümlədən də yerli zərbxanalarda zərb olunmuş sikkələr aşkar edilib. Burada e.ə IV əsrdə Albaniyaya xaricdən gətirilmə sikkələr - Makedoniyalı İskəndərin tetradaxma və draxmaları ilə yanaşı selevki və makedoniya draxmalarına bənzəyən 70 əd yerli alban sikkələri də tapılıb. Belə dəfinələrdən biri də Qəbələ şəhəri yaxınlığında aşkar olunmuşdur. Bu dəfinədə də Makedoniyalı İskəndərin draxmaları, Lisimaxanın tetradraxmaları, I Diodotanın və Yevkraditin Yunan-Baktriya tetradraxmaları, Parfiyalı Arşakilərin (e.ə. II əsr) draxmaları və yerli zərbxanalarda Makedoniyalı İskəndərin draxma, tetradraxmalarının bənzəri şəklində zərb olunmuş sikkələr vardı.

Arxeoloji materiallar arasında e.ə. I minilliyin ikinci yarısından Albaniyada geniş yayılmış antik dövr və İran- Əhəməni imperiya-

sının möhürlərinə bənzər metaldan hazırlanan, üzərində müxtəlif məişət və dini ayin səhnələri, heyvan təsvirləri olan tökmə üzük möhürlər də mövcuddur. Albaniya abidələrindən tapılmış bir çox möhürlər sənədlərin, anbarların və digər tikililərin qapılarının möhürlənməsi məqsədilə istifadə olunurdu.

Azərbaycan ərazisində aşkar edilmiş Albaniya dövrünə aid epiqrafik abidələr üç yazı nümunəsindən ibarətdir. Albanlar antik dövrdə yunan, latın və yaxın Şərqdə istifadə edilən başqa yazılarla tanış olmuşlar. Belə yazı nümunələrindən biri qədim yunan dilində olub Şəkidə, digəri latın dilində olub Qobustandan tapılmış, Mingəçevir yaşayış yerindən isə üzərində 62 hərfdən ibarət alban kitabəsi aşkar olunmuşdur. 1902-ci ildə Şəki rayonunun Böyük Dəhnə kəndində üzərində yunan dilində yazı olan daş tapılmışdır. Qobustanda isə Böyükdaş dağının ətəyində, üzərində latın dilində yazı olan kitabə 6 sətirdən ibarət yazı nümunəsi imperator Domisiananın XII legionuna aiddir. Qobustan kitabəsi kiçik hərbi dəstənin Roma nümayəndəliyini müşayiət etdiyini göstərir. .

Azərbaycan ərazisində Mingəçevirdə, Qəbələdə, Yaloylutəpədə, Xınıslıda, Torpaqqalada (Qax rayonu), Qarabulaqkənddə və başqa yerlərdə Albaniya dövrünə aid müxtəlif qəbir abidələri aşkar edilmişdir. Albaniyanın e.ə. IV-I əsrlərinə aid edilən quyu qəbirləri[1] Azərbaycan ərazisində əsasən Şamaxıda, Mingəçevirdə, Qəbələdə və əsasən İsmayıllı rayonu ərazisində gil-təknə qəbirləri[2], Mingəçevirdə, Kür çayının sol sahilində taxta qutu qəbirləri[3] aşkar edilib. Qafqaz Albaniyası ərazisində daş qutu qəbirlər, dövlət formalaşdıqdan sonra ən geniş yayılmış qəbir abidəsi olan katakombalar da aşkar edilmişdir. Daş qutu qəbirləri Albaniyanın müasir Dağıstan ərazisindəki yaşayış yerləri üçün xarakterikdir. Katakombalar[4] isə Mingəçevirdə, Qəbələdə, Torpaqqalada (Qax rayonunda), Qazax rayonu ərazisində, Dağıstanda və digər ərazilərdə aşkar edilmişdir. Mingəçevirdə 200-dən artıq katakomba qəbri öyrənilmişdir. Bu tip qəbirlər antik dövr və ilk orta əsrlərə aid olur. İlk katakombalar eramızın I-III əsrlərinə aid edilir.

---

[1] Quyu qəbirlərinin ən xarakterik cəhəti ölünün baş tərəfində təsərrüfat küpünün və ya iri gil qabın qoyulmasıdır. Quyu qəbirlər e.ə. I minilliyin sonlarına aid edilir.
[2] Əsasən Göyçay, Tüğyançay, Girdimançay hövzələri üçün səciyyəvidir.
[3] Arçan ağacından düzəldilmiş taxta qutu qəbirləri e.ə. IV-I əsrlərə aiddir.
[4] Yeraltı sərdabələr. Katakomba qəbirlərində ölüləri iri küplərdə və ya taxta qutularda dəfn etmişlər. Qəbirlərə məişət qabları, əmək alətləri s. qoyulurmuş.

Albaniyada xristianlığın qəbulundan sonra dəfn adətlərində xristian ənənələri müşahidə edilir. Xristian qəbirləri Qafqaz Albaniyası üçün səciyyəvi olan həm torpaqda, həm də daş qutu formasında düzəldilirdi. Alban xristian qəbirləri formalarından biri də daş sənduqələrdir. Qəbələ, Şəki, Bərdə, Tərtər, Ağdam, Dağlıq Qarabağ ərazilərində rast gəlinən belə bu abidələr ağzı qapalı olub ağ daşdan yonulurdu.

### *5.2. Albaniya dövlətinin meydana gəlməsi, sərhədləri, siyasi-inzibati vahidləri*

Albaniya Şimali Azərbaycanın tarixi torpaqlarında (ə.ə.4-e.8-ci əsrləri) yaranan ən erkən dövlətdir. Mənbələr təsdiq edir ki, I-VII əsrlər boyu Albaniyanın ərazisi şimalda Qafqaz daglarından cənubda Araz çayına qədər, qərbdə İberiyadan şərqə Xəzər dənizinədək uzanırdı. Strabonun verdiyi məlumata görə albanlar İberiya və Xəzər dənizi arasında yaşayırlar. Onların ölkəsi şərqdə dənizlə və Qafqaz dağları ilə, qərbdə isə İberiya ilə sərhədlənir. Strabon Kür çayının Albaniyanın içindən axıb getdiyini yazırdı. Eyni zamanda Alban müəllifi M Kalankatlı Albaniyanın cənub sərhədlərinin eranın I əsrində Araz çayı boyu uzandığını təsdiqləyir və Albaniyanın sərhədlərinin VII-VIII əsrlərədək dəyişməz qaldığı barədə məlumat verir. Yəni Albaniyanın sərhədləri e.ə III əsrdən VIII əsrinədək sərhədlərə malik olmuş, dövlətin sərhədləri1000 il boyu demək olar ki, sabit, dəyişməz qalmışdı.

Qafqaz Albaniyası ərazisi qarlı dağ silsilələri, məhsuldar vadiləri, geniş otlaq əraziləri, Kür və Araz kimi böyük və gur sulu çayları, həmçinin Pirsaat, Samur kimi çoxlu dağ çayları olan zəngin bir ərazi olmuşdur. Qədim müəlliflərin Albaniyanın çayları, xüsusilə də, Kür çayı ilə bağlı qiymətli məlumatları var. Strabon yazır ki, sürətlə axan Kür bir sıra zəngin otlaq ərazilərdən keçib özünə bir sıra çayları da qataraq Xəzərə tökülür.

Albaniya və onun qonşularının çoğrafi yerləşimi, həmçinin yaranmış daxili və xarici siyasi vəziyyət alban sərhədlərinin stabil təhlükəsizliyini təmin etmişdi. Albaniyanın təbii-coğrafi və strateji vəziyyəti (Qafqaz-dərbənd keçidlərinin olması), onun daxili və xarici siyasi durumu alban sərhədlərinin təhlükəsizliyinin təminatçısı kimi çıxış edirdi. Bu Albaniyaya öz dövlətçiliyini və siyasi suverenliyini qorumağa imkan vermişdi.

**Albaniyanın siyasi-inzibati vahidləri.** Albaniya inzibati-ərazi baxımından əyalətlərə (nahanqlara) və vilayətlərə (havarlara) bölünürdü. Bir neçə havar nahanq təşkil edirdi. Dövlətin tərkibinə Uti, Arsax, Paytakaran və s. əyalətləri, Çola, Lpina, Girdman, Kambisena, Şakaşen və digər vilayətlər daxil idi. Albaniya əyalətləri Kürün sol və sag sahil ərazilərində yerləşirdi. Strabonun verdiyi məlumata görə Kür çayı Albaniyanın düz ortasından axırdı. Albaniyanın solsahil ərazisi 11 vilayətdən ibarət idi. Alban mənbələri bunlardan dördü - Qəbələ, Şəki, Kambisena və Əcəri haqqında məlumat verir. Bu vilayətlər Qafqaz Albaniyasının ən böyük və siyasi cəhətdən ən əhəmiyyətli vilayətləri sayılırdı. Bunlardan üçü - Qəbələ, Şəki, Kambisena eyni zamanda dini-inzibati kilsə mərkəzləri – yepiskopluq idilər. Bu yepiskopluqların nümayəndələri –yepiskoplar ölkə üzrə çagırılan bütün dini tədbirlərdə- alban kilsə məclislərində iştirak etmək hüququna malik idilər.

Solsahil Albaniyasına adları çəkilən havarlardan başqa, ölkənin strateji ucqar vilayətlər olan Lpina və Çola da daxil idi. Lpina və Çola Qafqaz Albaniyasında mərkəzi hakimiyyətin zəiflədiyi dövrlərdə (450-451; 551-630) müəyyən muxtariyyətə sahib olan sərhəd bölgələr idilər. Çola və Lpina vilayətlərinin müəyyən mənada muxtariyyətə malik olması, Moisey Kalankatlının əsərində “Albaniya, Lpina və Çola” ifadəsini işlətməsində öz əksini tapmışdır. 488-ci ildən etibarən Alban çarı III Vaçaqanın dövründə hər iki vilayət birdəfəlik Alban dövlətinin tərkibinə daxil edilərək dövlətin siyasi-inzibati vahidlərinə çevrildilər. Lakin 551-630-cu illərdə Lpina və Çola yenə də müəyyən muxtariyyət əldə edə bilmişdi. Bu yerli alban şah sülalərindən Arşakilərin süqut etdiyi, Mehranilərin isə bütün ölkəni hələ tam olaraq nəzarətləri altında birləşdirə bilmədiyi bir dövr idi. Mehranilər sülaləsindən olan Çavanşirin və Varaz Tridatın hakimiyyəti dövründə isə bu ərazilər yenidən Albaniyanın tərkibinə daxil edilmişlər.

Mənbələrdə Çora, Çol, Çor adları ilə məlum olan Çola Dərbənd keçidindən başlayaraq cənuba doğru təxminən Beşbarmaq dağınadək Qafqaz dağlarının şərq qolunun Xəzər dənizinə qədər uzanan dənizsahili zolağını əhatə edirdi. Bu bölgədə əsasən meyvə, xüsusilə də üzüm və dənli bitkilər yetişdirilirdi.

Çol toponimi türkmənşəli çul tayfalarının adı ilə bağlıdır. Burada albanlar, silvlər, leqlər, məskutlar, hunlar, tabasaranlar məskun idilər. Çolada III əsrdən etibarən Sasanilərin köçürmə siyasəti

nəticəsində irandilli tayfalar da məskunlaşmağa başladı. Vilayətin iri şəhərləri Çola və Dərbənd idi. Ərəb mənbələrində "Sul", "Sula keçidi" "Sul qapıları" "sərhəd vilayəti sul" "böyük sul şəhəri", adları ilə bilinən Çola şəhəri çox zaman Dərbəndlə eyniləşdirilir. Kalankatlını adını çəkdiyi Çoqa (Çola) ölkəsi, Dərbənd şəhəri yaxınlığında Dərbənddən cənubda yerləşirdi. Bu şəhərin qalıqları Torpaqqala adlanır.

Çola vilayəti sərhəd bölgəsi olduğu üçün xüsusilə strateji əhəmiyyət daşıyırdı. Böyük Qafqaz dağları ilə Xəzər dənizi arasındakı məşhur "Alban darvazaları" adı ilə bilinən məşhur keçid məhz burada yerləşirdi. Mənbələrdə bu bölgə "Sərhəd qalası Çola", "Çola darvazaları", "Hun darvazaları" adı ilə də bilinir. Böyük Qafqaz dağları ilə Xəzər dənizi arasında yerləşən bu keçiddən ölkəyə şimaldan müxtəlif köçəri tayfalar axın edirdi. Bu tayfalar Albaniya ərazisindən keçərək İrana, Roma və Bizansa da axın edərək, təkcə Albaniyaya deyil, bütün digər ölkələr üçün də təhlükə yaradırdılar. Buna görə də keçidin nəzarət altında saxlanmasında təkcə Albaniya deyil, Parfiya, Roma, Bizans kimi ölkələr də maraqlı idi.

Qafqazda Sasani işğalları dövründə, xüsusilə, V əsrdə Çola vilayətinin hərbi-strateji və siyasi əhəmiyyəti daha da yüksəldi. V əsrin birinci yarısında Sasani şahı II Yezdəgirdin hakimiyyəti dövründə Çolada güclü müdafiə qurğuları ucaldıldı. Bu dövrdən etibarən artıq Dərbənd səddi adı ilə də bilinən Çola Qafqazda Sasanilərin hərbi-siyasi dayaq nöqtəsinə çevrildi. Burada onların döyüş qarnizonları və mərzbanların iqamətgahı yerləşirdi. V əsrin ortalarında, 510-630-cu illərdə ölkədə mərkəzi hakimiyyətin zəiflədiyi dövrdə Sasanilər Albaniyanı öz əyalətlərinə çevirməyə cəhd edərək burada öz dayaqlarını daha da gücləndirmişdilər.

Çola starteji movqeyindən başqa, həm də ideoloji baxımdan da mühüm əhəmiyyət kəsb edən bölgələrdən biri idi. Bura həm də Qafqaz bölgəsində xristianlığın yayıldığı ən qədim bölgələrdən biri olmuşdur. Apostol Faddeyin tələbəsi Yelisey xristianlığı Albaniyada yaymaq missiyasını məhz bu bölgədən başlamışdı. Musa Kalankatlı Çolanın bütün Qafqazda ilk xristianlıq ocaqlarından biri kimi ideoloji cəhətdən mühüm əhəmiyyəti barədə də məlumat verir. "Müqəddəs Yelisey Albaniya ölkəsində xristianlığın təbliğinə ilk məhz Çolada - maskutların arasında başlayır. Beləliklə də, I-II əsrlərdən etibarən Çola Albaniya patriarxlığının mərkəzi olmuşdur. VI əsrədək Alban katolikosluğunun iqamətgahı Çolada yerləşirdi. Mənbələr Çolada IX

əsrin axırlarına qədər Şərq katolikosuna məxsus sarayın yerləşdiyini təsdiq edirlər.

IV-VII əsrlər boyu şimaldan axın edən hun, basil, xəzər tayfalarının davamlı basqınları sonunda 626-630-cu illərdə Çolanın bir sıra Albaniya torpaqları kimi xəzərlər tərəfindən tutulmasılə nəticələndi. Mənbələrdə qeyd edildiyi kimi, Xəzər xaqanı "Albaniya, Lpina və Çolanı" tutdu. 626-630-cu illərin siyasi hadisələrində, bütün Albaniyanın, o cümlədən Çolanın xəzərlər tərəfindən işğal edildiyi dövrdə də Xaqanın oğlu Şat deyirdi ki, onun atası Albaniya, Lpina və Çolanı əbədi hakimiyyət altına almışdır. Beləliklə də, şimal tayfalarının basqınlarından qorunmaq üçün Albaniyanın siyasi-mədəni mərkəzi Kürün sol sahilindən daha təhlükəsiz bir bölgə olan sağ sahilə- Bərdə ərazisinə keçir. Bu səbəbdən IV-VIII əsrlərdən etibarən sağsahil Albaniyanın əhəmiyyəti solsahilə görə xeyli artır. 698-ci ildə isə Çola ərəblərin hücumlarına məruz qalır. Sonunda VIII əsrin 30-cu illərində bu ərazi bütün Albaniya torpaqları kimi xilafətə tabe edildi.

**Lpina.** Lpina vilayəti Çola vilayətinin şimal-qərbində Çola və Şəki arasındakı əraziləri əhatə edirdi. Akstafa çayının müasir Zaqatala bölgəsindəki Andi dağının ətəklərinədək, eyni zamanda Alazan çayının orta və aşağı axarındakı əraziləri əhatə edirdi. Xalxal şəhəri bu vilayətdə yerləşirdi.

Lpina da Çola kimi ölkənin uçqar bölgəsi idi. Bu ərazi demək olar ki, başdan-başa fındıq, qoz ağacları ilə zəngin meşələrlə örtülmüşdü.Yerli əhali barama və ipək istehsalı ilə də məşğul olurdu.

Burada albanlarla yanaşı lpinlər, leqlər yaşayırdı VI-VII əsrlər boyu Lpina şimaldan türkmənşəli tayfaların hücumlarına məruz qalırdı. Kalankatlının verdiyi məlumata görə, Cavanşirin ölümündən sonra Albaniyaya yürüşə hazırlaşan Hun sərkərdəsi Alp İlitver Lpina ərazisində düşərgə salmışdı.

**Kambisena.** Kambisena Albaniyanın erkən orta əsrlərdə ölkənin şimal – qərbində Qafqaz sıra dağlarının ətəklərindən başlayaraq İberiya ilə olan sərhədlərinədək uzanan ən böyük vilayətlərindən biri olmuşdur. Mənbələrin verdiyi məlumata görə İberiyaydan Albaniyaya keçid Kambisena vilyətindəndir. Kambisena ərazisi İberiya sərhədində Alazan-Kür çayları arasındakı geniş əraziləri əhatə edirdi. Şimal-qərbdə Alazan və İori çaylarının orta axarlarından, cənubda Kür və Xram çayının orta axarınadək, şərqdə isə Alazan İori və Kür çaylarının qovşağınadək uzanırdı.

Alban çarı III Vaçaqanının dini siyasəti nəticəsində V əsrdə Kambisenada xristianlığın mövqeyi güclənmişdi. Kambisena siyasi-inzibati mərkəz olmaqla bərabər, həm də yepiskopluq idi. X əsrədək Kambisena Albaniyanın siyasi-inzibati vahidi və yepiskopluq kimi fəaliyyət göstərmişdir. Mihranilərin hakimiyyəti dövründə isə Sasanilərin süqutundan sonra Albaniyaya qayıdan Cavanşir, bütün Albaniya ərazisində olduğu kimi Kambisenanı da fars döyüşçülərindən təmizləmişdi. I-III əsrlərdə Kambisena vilayətində albanlar, lpinlər, skif və sak tayfalarının varisləri, VI əsrdən isə sabir tayfaları məskun olmuşlar.

Bu vilayətin ən ucqar bölgəsində Alazan və İori çayları hövzəsindəki ərazini əhatə edən Hereti mahalı yerləşirdi. Hereti ərazisi müəyyən zamanlarda Kaxetiyannın şərqindəki bölgələri də əhatə etmişdir. Mənbələr bu mahalın şərqdə Qafqaz dağlarınadək, qərbdə Kür çayınadək, şimalda Teleba yaxınlığındakı (indiki Gürcüstan ərazisi), Qulqula çayınadək*( *Ptolomey Telebanın da alban şəhəri olduğunu qeyd edirdi.)* cənubda isə Alazan və İori çaylarınadək uzandığını yazır. Erkən orta əsrlər Hereti mahalının meydana gəlmə və çiçəklənmə dövrüdür. Hereti mahalının adı alban tayfalarından olan hər(er) tayfalarının adı ilə bağlıdır.

**Qəbələ** – (Kabalaka) Yunan mənbələrində Kabalaka adı ilə bilinən Qəbələ vilayəti haqqında ilk dəfə I əsr müəllifi Plini məlumat vermişdir. Bu vilayət də Kürün sol sahilində yerləşib Lpinadan cənubdakı, Əcəridən şimalda olan əraziləri əhatə edirdi və Şəki və Çola arasındakı torpaqları əhatə edirdi. Qəbələdə qat tayfaları, VI əsrdən etibarən sabir, xəzər, bulqar, barsil tayfaları məskun idi.

Qəbələ vilayətində Albaniyanın paytaxtı Qəbələ şəhəri yerləşirdi. Bu barədə ilk dəfə eramızın I əsrində Böyük Plini xəbər verir. Bütün antik və erkən orta əsrlər boyu V əsrədək Qəbələ Albaniyanın mərkəzi şəhəri olmuş, yerli alban Arşakilər sülaləsinin və Alban arxiyepiskoplarının iqamətgahı kimi fəaliyyət göstərmişdir.

İnzibai vahid olmaqla yanaşı Qəbələ, həm də yepiskopluk idi. Qəbələ yepiskopu Alban arxiyepiskopundan sonra II mühüm dini xadim idi. Qəbələ vilayətinin dini-ideoloji baxımdan mühüm əhəmiyyəti olan vilayət olmuşdur. Belə ki, Aquen (488-ci il) və Partav (705-ci il) kilsə məclislərinə aid sənədlərdə Albaniya arxiyepiskopunun imzasından sonra ikinci imza olaraq Qəbələ yepiskopunun imzası durur. VIII-IX əsrlər boyu Qəbələ yepiskopları alban kilsəsinin patriarxları seçilirdilər. Aquen (V əsr) və Partav (VIIəsr)

kilsə məclislərinin sənədlərində Qəbələ yepiskopları olaraq Manas (V əsr) və İoann (VII) adları keçir.

Qəbələ Erkən orta əsrlərdə, həm də toxuculuq mərkəzi idi. Burada dulusçuluq və şüşə istehsalı inkişaf etmişdi. Erkən orta əsrlər dövrünün mühüm ticarət yollarının qovşağında yerləşən Qəbələdən Alban və Savalan keçidi vasitəsilə cənub-şərqə və cənuba, Gürcüstan vasitəsilə qərbə, Atropatena vasitəsilə İrana, Böyük Qafqaz vasitəsilə isə şimala yollar uzanırdı.

510-cu ildə Alban Arşakilər sülaləsinin hakimiyyəti sona çatmasilə Qəbələ vilayəti Sasanilərin təyin etdikləri mərzbanların qərargahına çevrilmişdi. Həmin dövrdə Qəbələ "Vostan-i mərzban" da adlanırdı. VII əsrdə xəzərlər Albaniyanı tamamilə işğal etdiyi dövrdə isə Qəbələ müvəqqəti olaraq Xəzər xaqanlığının tərkibinə qatılsa da inzibati mərkəz olaraq qaldı. Ərəb işğalları zamanı isə ərəblər tərəfindən tutulan Qəbələ öz əvvəlki əhəmiyyətini itirdi.

**Şəki.** Kürün sol sahilində yerləşən vilayətlərdən biri olan Şəki Qafqazın dağətəyi rayonlarında, Qəbələnin şimal-qərbindəki ərazini əhatə edirdi. Qərbdə və cənub-qərbdə Kambisena vilayəti ilə şimal-qərbdə Lpina vilayəti ilə, cənub-şərqdə isə Qəbələ ilə həmsərəd idi. Albaniyanın şimal-qərbini - müasir Şəki-Zaqatala bölgəsini əhatə edirdi.

Vilayətin əsas şəhəri Şəki şəhəri idi. Bu vilayətdə alban və utilərlə yanaşı skif və sak tayfalarının varisləri məskun idi. Siyasi-inzibati mərkəz olan Şəki vilayəti VI-VIII əsrlər boyu yepiskopluk kimi də fəaliyyət göstərir. Şəki yepiskoplarından Ter-Yelizar 682-688-ci ildə və Ter-Mixail 706-743- illərdə Alban katolikosu təyin edilmişdilər.

Antik dövrdə Şəki vilayətində Ay məbədi yerləşirdi. Antik müəlliflərdən Strabon Albaniyada Göyə, Günəşə, xüsusilə də Aya sitayişin geniş yayıldığını və İberiya sərhəddi yaxınlıında Ay məbədinin və müqəddəs vilayətin yerləşdiyini yazırdı. Şəki vilayəti həqiqətən Ay məbədləri ilə zəngin olmuşdur və bu vilayətin antik müəllifinin qeyd etdiyi "müqəddəs vilayət" olduğunu burada yerləşən onlarla qədim məbədlər də təsdiq edir. Bu məbədlərin bir çoxu bu günədək qorunub qalmışdır. Şəki vilayətinin müqəddəs vilayət olması fikrini təsdiq edən faktlardan biri də bu bölgədə əvvəllər dini mərasimlər keçirilən köhnə məbəd qalıqlarının yerində inşa edilən Armatay, Kürmük, Kiş, Qum bazilikası (IV – V əsrlər), Ləkit kilsəsi (V – VI əsrlər kimi qədim inanc yerlərinin çoxluğudur.

Şəki vilayəti həm də Qafqaz bölgəsində ilk xristian icmalarının meydana gəldiyi (I əsr) bölgələrdəndir. Alban müəllifi Kalankatlı qeyd edir ki, Yelisey Kişdə kilsə tikdi. Bu yer kilsələrimizin ilkin mənbəyidir. Alban müəllifinin məlumat verdiyi Kiş məbədi Şəki kəndinin Kiş kəndi ilə ərazisindədir. Müqəddəs Yeliseyin Məhz Şəki ərazisini xristianlığın təbliği üçün və ilk kilsə inşası üçün seçməsi təsadüfi deyildi. Bu bölgə xalqın öncədən də məbədlərin bol olduğu ibadət yeri olmuşdur. Həm də Kiş kəndi coğrafi yerləşiminə görə də əlverişli bölgə idi. Kənd dağların əhatəsində yreləşirdi. Şəki hakimləri düşmən hücumları zamanı məhz Kiş qalasında gizlənirmişlər.

Şəki vilayəti III-VIII əsrlər boyu iri toxuculuq mərkəzi olmuşdur. Burada barama da yetişdirilirdi. VII-VIII əsrlərdə Şəki vilayəti də Albaniyanın digər əraziləri kimi ərəblərin hücumlarına məruz qalır.

**Əcəri.** Kürün sol sahilində yerləşən alban vilayətlərindən biri də Əcəri vilayəti olmuşdur. Mənbələrdə bu vilayət Həcəri və Dəşti-Bəzkan adları ilə də bilinir. Əcəri vilayəti Qəbələ vilayətindən cənubda Qarasu və Girdman çayları arasında  yerləşirdi. Vilayətin cənub sərhədləri Kür çayınadək uzanırdı. Əcəri vilayətinin əhalisinin əsas məşguliyyəti əkinçilik olmuşdur.

**Kürün sağ sahilində yerləşən Alban əyalət və vilayətləri.** Kürün sağ sahilində yerləşən Albaniya torpaqları 4 iri əyalətə (nahanq) bölünmüşdü: Arsax, Uti, Kaspiana (Paytakaran), Sünik. Hər əyalət də, öz növbəsində vilayətlərə (havarlara) bölünmüşdü.

IV-VIII əsrlərdə sağsahil Albaniyasının əhəmiyyəti sol sahilə nisbətən xeyli artır IV-V əsrlərdə şimaldan basil, hun-xəzər tayfalarının basqınları nəticəsində ölkənin mərkəzi bölgəsi olan Qəbələ xəzərlərin əlinə keçir. Buna görə də, həmin dövrdən etibarən Albaniyanın siyasi-mədəni mərkəzi Kürün sol sahilindən sağ sahilinə keçirilir. Albaniyanın paytaxtı da Uti vilayətində olan Bərdəyə keçirilir.

Qafqaz Albaniyasının erkən orta əsrlərdə böyük əyalətlərindən biri də Paytakaran olmuşdur. Yunan qaynaqlarında Kaspiana, ərəb, fars qaynaqlarında isə Balasakan adları ilə də bilinir. Strabonun verdiyi məlumata görə Alban vilayətlərindən olan Kaspiana indi artıq itmiş olan bir tayfanın adı ilə adlanır. Buradakı dəniz də bu tayfanın adı ilə adlanır.

Xəzər dənizinin cənub-şərq sahillərində yerləşərək Mil-Mugan düzünün bir hissəsini , Kür çayının aşagı hissələrini əhatə edirdi.

Şərqdə isə Xəzər (Kaspi) dənizinədək uzanırdı. Müasir Azərbaycanın cənub –şərq hissəsini əhatə edirdi. Paytakaran əyaləti Şirvanın Xəzərsahili boyu Abşeron yarımadasının da daxil olduğu cənub-şərq hissəsini də özündə birləşdirir, cənubda bəzən Atropatenanın şimal-şərq torpaqlarına qədər uzanırdı. E.ə.55-ci ildən etibarən Paytakaran siyasi cəhətdən gah Albaniyaya, gah da Atropatenaya meyil edib və müxtəlif dövrlərdə onların tərkibinə daxil olmuşdur. Paytakaran əyalətinin adı III əsrə aid mənbələrdə-I Şapurun yazılarında çəkilir. 336-338-ci illərdə Paytakaranın hakimi Arşaki sülaləsindən olan məskut çarı Sanatürk idi. Sasanilərə qarşı üsyanları nəticəsində Albaniya III Vaçaqanın (488-510) simasında Alban çar hakimiyyətinin bərpa etdikdən sonra Paytakaran birdəfəlik Albaniyanın tərkibinə qatılmışdır.

Paytakaran 12 vilayəti olan böyük bir əyalət idi. Bu əyalətdə Paytakaran, Beyləqan şəhərləri yerləşirdi. 12 vilayəti olan böyük bir əyalət olmasına baxmayaraq VI-VIII əsrlərdə Paytakaranda çəmi bir yepiskopluq –Balasakan yepiskopluğu var idi. Bu əyalətdə xristianlıq geniş yayılmamışdı. Əhali arasında daha çox qədim inanclar sistemi - bütpərəstlik və tanrışılıq inamları, zərdüştülk daha güclü idi.

Əyalətin mərkəzi eyniadlı şəhər – Paytakaran idi. Paytakaran vilayətində albanlar, kaspilər, aynianlar, hunlar, xəzərlər və s. tayfalar yaşayırdılar. Paytakaran əyaləti məhsuldar torpaqlarla zəngin idi. Yüksəksəviyyəli suvarma sistemləri (Gavurarx kanalı və s.) var idi. Bağçılıq, bostançılıq, üzümçülük, pambıqçılıq, dənli bitki, maldarlıq-atçılıq, dəvəçilk, balıqçılıq kimi sahələr inkişaf etmişdi.

VII əsrdə ərəb yürüşləri zamanı Ərəblər xəlifə Osmanın dövründə (644-656) Balasakanı tutdular. Yerli əhali ərəblərlə sülh müqaviləsi bağlayaraq əvəzində torpaq və can vergisi verməyə boyun oldular. 730-cu ildə xəzərlər ərəblərə qarşı çıxaraq Albaniya ərazisinə hücum edərək Paytakaranı (Balasakanı) da tutmağa cəhd göstərdilər.

**Uti.** Qafqaz Albaniyasının ən böyük əyalətlərindən biri Kür çayının sag sahilində yerləşən Uti əyaləti olmuşdur. Qədim yunan mənbələrində Otena adı ilə də bilinir. Uti əyaləti Araz çayından şərqdə, Arsax ilə Kür çayı arasında yerləşirdi. Əyalət şərqdə Paytakaran əyaləti, cənubda Arsax, şimalda Kür çayı ilə sərhədlənirdi, qərbdə Albaniyanın İberiya sərhəddinədək uzanırdı. Bu vilayətdə Musa Kalankatlının yazdığına görə V əsrdə inşa edilmiş, VI əsrin ikinci yarısından isə Albaniya dövlətinin paytaxtına çevrilmiş Bər-

də (Partav) şəhəri yerləşirdi. Bərdə 551-ci ildən etibarən, həm də Alban katolikosunun iqamətgahına çevrilmişdi. 630-cu ildən etibarən isə Bərdə Mihranilər sülaləsindən olan və Albaniyanın ilk ali knyazları titulunu almış Varaz Qriqor, Cavanşir kimi alban çarlarının iqamətgahı olmuşdur. Albaniyanın antik şəhərləri Ayniana, Xani, Anariaka, Xalxal, Soqarn şəhərləri də Uti vilayətində yerləşirdi.

Uti əyalətində saklar, qarqarlar, savdeylər yaşayırdılar. Alban tarixçisi M.Kalankatlı onların albanların mifik əcdadı sayılan Aranın nəslindən olduğunu yazırdı. Bu, uti, qarqar və sovdeylərin bir nəsildən və Alban İttifaqına daxil olan qədim tayfalardan olduğunu göstərir. I-VI əsrlər boyu Uti əyalətini Arşakilər, VI-VIII əsrlərdə isə Meharnilər sülaləsindən olan alban çarları idarə etmişlər. Uti əyalətində 2 böyük yepiskopluq- Bərdə (Partav) və Girdman yepiskopluğu mövcud olub.

Uti əhalisi maldarlıq və əkinçiliyin bütün növləri ilə dənli bitki istehsalı, bağçılıq, bostançılıq, texniki bitki-kətan, pambıq, zeytun və s. yetişdirirdi.

V əsrdə Uti hunların hücumlarına məruz qalır. 624-628-ci illərdə digər əyalətlər kimi Uti də Bizan-İran müharibələrinə cəlb edilir. 629-630-cu illərdə onlara xəzərlər hücum edir. 642-ci ildə İran-Ərəb toqquşmasından sonra Cavanşir Utidə İran qoşunlarını məğlub etdi və əyaləti onlardan təmizlədi. 705-ci ildə Uti ərəblər tərəfindən işğal edildi və ərəblərin alban torpaqlarında yaratdıqları Arran inzibati vahidinə daxil edildi. Ərəb müəllifləri IX əsrdə Uti əhalisini "arran", "alban" adlandırırdı. Ərəb xilafətində mərkəzi hakimiyyəin zəifləməsilə X əsrdən etibarən Aran ərazisində yenidən dirçələn alban knyazlıqlarının arasında Uti də var idi.

Uti əyaləti, öz növbəsində ayrı-ayrı inzibati vahidlərə vilayətlərə bölünmüşdü ki, onların arasında ən mühüm vilayətlər Şakaşena və Girdman idi.

**Sakasena**. Uti əyalətinə daxil olan Sakasena vilayətinin adı Sak tayfalarının adı ilə baglı olub sakların yerləşdiyi ərazi kimi izah olunur. Sakasena Kürün orta axarında müasir Gəncə bölgəsində yerləşirdi və Zəyəmçay ərazisindən Kürəkçayadək uzanırdı. Sakasenanın adı hələ antik müəllif Ptolomey tərəfindən çəkilmişdir. Buranın əhalisinin Kürün məhsuldar vadilərində oturaqlaşmış saklardan ibarət olduğu ehtimal edilir.

**Girdman.** Qafqaz Albaniyasının Kürün sag sahilində yerləşən mühüm və böyük vilayətlərindən biri olmuşdur. Girdman knyazlığı

haqda Kalankatlı, Favstos Buzand, Yeqişe, Mövses Xorenasi kimi erkən orta əsr müəllifləri məlumat vermişlər. Kürün sağ sahilində Uti əyalətinə daxil olan Girdman vilayəi qədim fars qaynaqlarında Girdiman, gürcü qaynaqlarında isə Qardabani adı ilə də verilmişdir. Bu ərazi Albaniya dövlətinin qərbində xüsusi strateji əhəmiyyət kəsb edirdi.

Bu vilayət Gəncəçay və Zəyəmçay ararasında olan ərazidə yerləşirdi və cənubda Murovdagın ətəklərinədək uzanırdı. Bu vilayətin sərhədləri ilə bağlı müxtəlif fikirlər mövcuddur. Vilayətin Ağsu–Girdman çayları rayonu bölgəsini, həmçinin müasir Qazax rayonu ərazisində və Şəmkirçay hövzəsi ətrafında –müasir Gədəbəy rayonu ərazilərini də əhatə etdiyi qeyd olunur.

Girdman IV əsrdən etibarən Mihranilərin mülkünə çevrilir. IV əsrdən Albaniyanın birinci böyük knyazları olan Mehranilər sülaləsinin irsi mülkü idi. Kürün sağ sahilində yerləşən Girdman vilayəti sonralar Albaniyada Mihranilərin güclənməsi və ərazilərinin genişlənməsi nəticəsində öz hakimiyyətlərini Kürün sol sahilində də - müasir İsmayıllı, Göyçay və Girdmançay-Ağsu hövzəsində də yaydılar. Girdman vilayəti xüsusilə V-VIII əsrlərdə, Mihranilər sülaləsinin hakimiyyəti dövründə Albaniyanın siyasi həyatında mühüm rol oynamağa başladı. Bu ərazi Mehranilərin xüsusi mülkü olduğu üçün vilayət onların hakimiyyəti dövründə həm iqtisadi, həm də siyasi yüksəliş dövrü keçirirdi. Mehranilər bu ərazilərdə Girdman qalasını, Mehrəvan şəhərini və çoxlu məbədlər inşa etdirmişlər.

IV əsrdə Girdman da digər alban vilayətləri kimi xristianlığı rəsmi din olaraq qəbul etmişdi. Eyni zamanda bu vilayətdə Albaniyanın ilk, həm də ən böyük yepiskopluqlarından biri yerləşirdi. Girdman yepiskopları Alban kilsə məclislərində iştirak edirdilər. Bəziləri isə, məsələn, Nerses-Bakur hətta Alban kilsəsinin katolikosu belə seçilmişdi. 488-ci ildə keçirilən Aquen kilsə məclisində qəbul edilmiş Qanunnamədə Girdman hakimi Cəsur Vardanın da möhürü var idi.

Kalankatlının yazdığına görə, Girdman əhalisi Aran nəslindən idi. Musa Kalankatlı Girdman əhalisinin Aranın varisləri olduğunu yazırdı. Lakin V əsdən etibarən burada alban tayfaları ilə yanaşı irandilli əhali də məskən salır.

VII əsrdən Albaniyanın digər vilayətləri kimi Girdman da İran-Bizans müharibələrinə (624-629) cəlb edilmiş, 653-cü ildə ərəb işğalları, 660-664 və 684-cü ildə xəzərlərin hücumlarına məruz

qalmışdır. 705-ci ildə ölkə ərəblərdən tam asılı vəziyyətə düşsələr də Mehranilər hələ bundan sonra 1 əsr hakimiyyətdə qala bildilər. Bu dövrdə Albaniya ərazisi 3 hissəyə - Aran, Muğan, Şirvan əyalətlərinə bölünmüşdü. Girdman knyazlığı Utinin digər vilayətləri kimi Arana daxil idi.

Erkən orta əsrlər dövründə Girdman Albaniyanın siyasi və dini baxımından mühüm vilayətlərindən olmaqla yanaşı, həm sənətkarlıq və ticarət mərkəzi, eyni zamanda şəhər-qala idi.

Girdman dəmir və mis mədənləri ilə zəngin olmuşdur.

**Arsax.** Qafqaz Albaniyasının Kürün sag sahilində yerləşən erkən orta əsr dövrünün ən mühüm əyalətlərindən biri Arsax olmuşdur. ***Arsak*** və ya ***Ərsaq toponimi*** qədim türk tayfası olan sakların adı ilə bağlıdır və “igid sak”, “ər sak”, “sak kişisi” olaraq izah edilməkdədir. Arsax bölgəsinə verilən Qarabağ adı isə XII əsrdən bəri gürcü və fars mənbələrində rast gəlinir. Qarabağ türkmənşəli toponim olub çoxluq, sıxlıq olan ərazi, böyük bagları olan yer kimi izah edilməkdədir.

Arsax əyaləti Qarabağın dağlıq hissəsini və Mil düzünün bir hissəsini əhatə etmişdir. Əyalətin ərazisi qərbdə Həkərə çayı və Qarabağ dagının ətəklərinədək uzanırdı. Cənubda Araz çayına, şimalda isə Murovdağa qədər olan əraziləri əhatə edirdi. Cənub-qərbdə Arsax vilayəti Sünik vilayəti ilə həmsərhəd idi.

Albaniyasının ən mühüm vilayətlərindən biri olmuş bu tarixi vilayət ölkənin siyasi həyatında mühüm rol oynayırdı. İnzibati baxımdan 12 kiçik inzibati vahidə bölünürdü. Arsaxda bir neçə yepiskopluq var idi. Alban patriarxlarının bir çoxu Arsax-Qarabağ ruhanilərindən seçilirdi.

Əyalətin əhalisini qarqarlar, utilər, hunlar, xəzərlər və barsillər təşkil edirdi. Qarabağ əhalisi antik dövrdə və orta əsrlər dövründə həmçinin kəngərli, ustaclı, rumlu, şamlu, qıpcaq, səlcuq, əfşar, qacar kimi türkmənşəli əhalidən ibarət olmuşdur.

Arsax əyalətində əkinçilik, maldarlıq, dulusçuluq, arıçılıq, atçılıq kimi təsərrüfat və sənətkarlıq sahələri inkişaf etmişdi. Xüsusilə atçılıq yüksək səviyyədə idi. Qarabağ çinsindən olan atları məşhur idi. Süni suvarma əkinçiliyi inkişaf etmişdi.

I-VI əsrlərdə alban Arşaki sülaləsinin hakimiyyəti altında olmuş Arsax VI-VIII əsrlərdə Albaniya ali knyazları – Mehranilərin hakimiyyəti altında idi. VII-VIII əsrlərdə də Qafqaz Albaniyası vilayətlərinin böyuk əksəriyyətində alban əhalisi Ərəb xilafətinin təsiri

ilə islamı qəbul etsələr də, Arsaxın dağlıq hissəsində alban əhalisi isə öz alban kimliyini və inancini qorumaqda idi.

Ərəb xilafəti parçalandıqdan sonra IX srdə Varaz Tridatən varisi, alban Mehranilər nəslindən olan Qriqori Hamama tərkibinə Arsaxın da daxil olduğu Alban çarlığınının bir hissəsini yenidən dircəltməyə nail oldu. Hamamanın ölümündən sonra Arsax və Uti əyalətinə onun oğlu sahib oldu. Onun hakimiyyəti XI əsrədək davam etdi.

XII əsrin sonu-XIII əsrin əvvəllərində Arsax ərazisində təşəkkül tapan Xaçın knyazlığı "qədim Albaniyanın bir hissəsi" idi. Arsax – Xaçın knyazlığının hakimi yenə də alban Mehranilərin varisilərindən olan Həsən-Cəlal (1215-1261) oldu. Mənbələrdə Həsən Cəlal “knayazların knayazı”, çar, Albaniyanın çarı, kimi yksək titullarla adlandırılmışıdr.

Həsən Cəlalın hakimiyyət dövrünü Albaniyanın iqtisadi-siyasi və mədəni dirçəliş dövrüdür. Bu dirçəliş ədəbiyyatda, arxitekturada, dini məbədlər tikintisində öz əksini tapmışdır. Öz hakimiyyətinin alban Mehranilər süləsindən gəldiyini göstərməyə çalışan Həsən Cəlalın təkidilə Kalankatlının “Alban tarixi” kitabının davamı yazılmağa başladı və kitaba yeni fəsillər əlavə edildi. Bu fəsillərdə Həsən Cəlalın hakimiyyəti, onun Qanzasar kompleksini tikdirməsi öz əksini tapdı. Bununla da alban tarixi-ədəbi ənənəsi dirçəlmiş oldi. Həsən Cəlal monqol xanları ilə də yaxşı münasibətdə olduğu üçün öz alban xalqı üçün müəyyən güzəştlər aldı. 1216-cı ildən 1288-ci ilədək Həsən Cəlal tərəfindən Qanzasar məbədi tikildi. Qanzasarda bütün son alban katolokos-patriarxları dəfn olunmuşlar. Bunu qəbir abidələri üzərindəki 1828-ci ilədək olan epiqrafika da təsdiq edir.

Həsən Cəlalın siyasi hakimiyyətinin itirilməsi ilə XV əsrdən etibarən bu nəslin nümayəndələri ölkənin ruhani başçılarına çevrilirlər. XV əsrdə Həsən Cəlal nəsli Qaraqoyunlu hökmdarı Cahan şahdan “Məlik” titulu alır. Bu dövrdən etibarən Alban knayazları məlik titulu daşıyırdılar. Beləliklə də, IX–XV əsrlər boyu Xaçın çarlığının hakimləri alban Mihranilər sülaləsinin nümayəndələri olmuşlar. Onlar 1836-cı il - Alban kilsəsinin ləğvinədək Alban Apostol kilsəsinin patriarx-katolikosları olmuşlar. Bundan sonra bu nəsil 5 məlikliyə-müstəqil knyazlığa bölünür. Bunlar Gülüstan, Çiləbörd, Xaçın, Vərəndə, Dizax məlikləri idi. Qarabağ məlikləri rus çarı I Pyotra məktublarında özlərini alban nəsillərindən olduqlarını qeyd edirdilər. Qeyd etmək lazımdır ki, Qarabağ məliklərinin bir hissəsi islami qəbul edərək tədricən müsəlmanlaşırdılar.

**Sünik.** (Sisakan) Alban müəllifi Kalankatlı bu bölgəni Sisakan, Sünik, bəzən də Sünistan adlandırır. ***Sünik*** əyaləti Albaniyanın cənub ucqarında yerləşərək şimalda Artsak əyaləti ilə sərhədlənirdi, Göyçə gölünün cənubunda yerləşmişdir. Moisey Kalankatlı "Alban ölkəsinin tarixi"ndə bu toponimi Sisakan kimi işlətmişdir. Sisakan erkən orta əsrlər Orta əsrlərdə Zəngəzur mahalını əhatə edən Sisakan əyaləti Qafqaz Albaniyası tarixində mühüm rol oynamışdır.

Sünik müəyyən dövrlərdə siyasi cəhətdən Albaniyadan, bəzən də Atropatenadan asılı olmuşdur. Sünik iqtisadi və siyasi cəhətdən güclü bir vilayət idi. 20 minlik süvari qoşununa sahib olmuşdur. Mənbələrdə Sasanilərin Dərbənd keçidinin qorunmasının süniklərə həvalə edildiyi yazılır. Sasani hökmdarı Valarş Sisakan nəslinə Qafqaz darvazalarının qorunmasını həvalə etmişdi. Kalankatlı Albaniyanın hökmdarlarının Sünikdən olduğunu yazırdı. Sünik kilsəsi VII əsrin əvvəllərində mitropolit rütbəsi almağa nail olmuşdu.

Sünik əyaləti 12 vilayəti özündə birləşdirmişdi. Azərbaycanın qədim vilayətlərindən və şəhərlərindən biri olan Naxçıvan Sünik əyalətinin mərkəzi olmuşdur. Erincək və Qoxtan isə Sünikə daxil olan vilayətlər idi. İstər Naxçıvan, istərsə də Ordubad hər zaman Sünik əyalətinin vilayəti olaraq Albaniyanın tərkib hissəsi olmuşdur. Sünikin 11-ci havarı (vilayət) olan Qoxtan müasir Azərbaycan Respublikasının Ordubad rayonunun ərazisini əhatə edirdi.

Naxçıvan VII əsr boyu - İran-Bizans müharibələri dövründə tez-tez Bizans və Sasani basqınlarına məruz qalsa da IX əsrin sonu - X əsrin 30-cu illərində Səlcuqların, daha sonra isə Salari dövlətinin tərkibində mövcudluğunu davam etdirmişdir. X əsrin 80-ci illərindən Naxçıvan ərəb mənşəli Əbu-Dülaf sülaləsinin başçılığı altında müstəqil feodal dövlətinin paytaxtına çevrilir. Qoxtan hakimi olmuş Əbu-Dülaf 982-ci ildə Salarilər dövlətinin süqutu dövründə Dvin, Naxçıvan kimi bir sıra torpaqları tutaraq Naxçıvan feodal dövlətinin əsasını qoymuşdu. Bu dövlət 1064-cü ilədək mövcud olmuşdur. XII əsrdə Naxçıvan Eldəgizlərin, XIII-XIV əsrlərdə isə monqolların hakimiyyəti altında oldu.

654-cü ildə Sünik də digər alban vilayətləri kimi ərəb işğallarına məruz qalsa da, VIII əsr boyu Sünik Albaniyanın müstəqil ucqar vilayəti olaraq qalırdı. Alban knyazı Cavanşir Sünik knyazının qızı ilə evlənərək Sünik nəsli ilə qohum oldu. IX əsrdə Ərəb xilafətinin zəifləməsi ilə bir qədər dirçələn yarımmüstəqil vilayətlər sırasında Sünik knyazlığı da var idi. IX əsrdə ərəblərə qarşı

genişlənən azadlıq mübarizəsində Sünik knyazı Vasak Babəklə bağladığı ittifaq nəticəsində bu vilayəti ərəblərdən qoruya bilir. Kalankatlının verdiyi məlumata görə, Babək Sünik knyazının qızı ilə evlənir. XII əsrin sonlarına yaxın Sünik knyazlığı dağıldı, buradakı hakim sülalə 1166-cı ildən knyaz Qriqorun və Səhl ibn Sumbatın ölümü ilə kəsilmiş oldu. XII əsrdə Sünik səlcuqlar tərəfindən işğal edilir.

Beləliklə, e.ə.III əsrdən eramızın VIII əsrinədək Albaniyaınn ərazisi ciddi dəyişikliyə uğramamış, istər antik, istər erkən orta əsr müəlliflərinin əsərlərində qeyd olunan vilayətlər Albaniyanın tərkib hissələri olmuşlar. Lakin VII əsrin sonu-VIII əsr boyu davam edən ərəb yürüşləri nəticəsində Alban dövləti süquta uğrayır. Ərəblər Albaniyada möhkəmləndikdən sonra ölkəyə böyük xərac təyin edirlər. Ərəb xilafətinin tərkibinə daxil edilən Albaniya Aran, Muğan, Şirvan olaraq 3 vilayətə bölündü. Girdman vilayəti isə digər Uti vialyətləri ilə birgə Aranın tərkibinə daxil edildi.

### *5.3. Qafqaz Albaniyasının siyasi quruluşu, idarəetmə sistemi, dövlət quruluşu, sosial münasibətlər*

Albaniyanın siyasi konsolidasiyası artıq Əhəməni imperiyasının son illərində və Makedoniyalı İskəndərin işğalları dövründə başa çatmış, e. ə. IV əsrin sonlarında Qafqaz Albaniyası vahid mərkəzləşmiş dövlətə çevrilmi°dir. Albaniya siyasi quruluşuna görə alban çarları tərəfindən - eranın 1 əsrinədək yerli Aranilər, I-VI əsrlərdə Arşakilər və onları əvəz etmiş Mehranilər (630-705) sülaləsi tərəfindən idarə edilən mərkəzləşmiş dövlət olmuşdur.

Ölkədə ictimai həyatın bütün sahələrini əhatə edən, təbəqələr arsındakı münasibətləri tənzimləyən yüksək səviyyədə hüquq sistemi və dünyəvi qanunlarla yanaşı Alban kilsəsi tərəfindən tənzimlənən kilsə qanunları var idi. Albaniyada dövlətin bütün atributları mövcud idi. Alban hökmdarları ölkəni faktiki və yuridik cəhətdən idarə edirdilər. Siyasi hakimiyyətin irsi keçmək hüququ mövcud idi. Çar bütün dünyəvi və dini hakimiyyətin başında dururdu, ölkənin bütün hərbi qüvvəsinin baş komandanı idi. Erkən orta əsrlərdə albanların bütün daxili siyasəti xristianlığın alban cəmiyyətinin ideoloji əsasına çevrilməsinə yönəldilmişdi.

Alban dövləti öz pul vahidinə sahib idi. Albaniya suveren dövlət olaraq I-III əsrlərdə özünün İskəndərin draxma və tet-

radeaxmalarına bənzər gümüş pullarını zərb etməkdə idi. Bütün antik dövr boyu ölkənin pul dövriyyəsi yüksək səviyyədə idi.

Albaniya qonşu dövlətlərdən asılı olmayan müstəqil xarici və daxili siyasət yürüdürdü. Böyük ordusu var idi. Hələ e.ə. 1 əsrdə 60 min piyada, 20 min süvari qoşunu var idi. Antik müəlliflər alban ordusu və müdafiə silahları haqqında məlumat vermişlər. Məsələn, albanlarda zirehləri və uzun dördkünc qalxanları olan nizəçilər və oxatanlar olması, başlarına heyvan dərisindən hazırlanmış papaqlar qoyması barədə məlumat vermişlər. Strabon yazırdı ki, albanlar "...həm piyada, həm at belində, həm yüngül silahlanmış (zirehsiz), həm də zirehlənmiş halda vuruşurdular". Strabon alban qalxanları haqqında məlumat verərək onların dördkünc ("qapışəkilli") qalxan olduğunu yazırdı. Strabonun məlumatına görə albanlar Pompeylə döyüşə 60000 piyada qoşun və 22000 süvari ilə getmişlər.

**Alban hökmdar sülalələrinin tarixi**. Mənbələr Alban dövlətinin mövcudluğu boyu bir-birini əvəz edən üç hökmdar sülaləsi tərəfinfən idarə olunması haqqında məlumat verir. Albaniya antik dövrdə- eranın 1 əsrinədək yerli Aranilər, I-VI əsrlərdə Arşakilər və onları əvəz etmiş Mehranilər (630-705) sülalələrinin nümayəndələri tərəfindən idarə olunmuşlar.

**Aranilər.** Moisey Kalankatlı Aranilər sülaləsini Yafəsin nəslinə bağlayaraq sülalənin ilk nümayəndəsinin **Aran (Arran)** adlı hökmdar olduğunu bildirir. İlk hökmdarının adı ilə bu sülalə tarixi ədəbiyyatda Aranilər (Arranilər) adlandırılır. Lakin bu sülalə haqqında məlumatlar çox azdır. Aranın davamçılarının fəaliyyəti haqqında məlumatlar yox səviyyəsindədir. Alban müəllifi Musa Kalankatlı Aran haqda yazır: Aran Araz çayından başlayaraq Hunan qalasına qədər uzanan Albaniya ölkəsinin düzənliklərini və dağlarını miras olaraq almışdır. Yafəs nəslindən və Sisakan (Sünik)soyundan olan Aran albanlara hakim təyin olunur. Onlar öz ölkələrinə Ağvan (Alban) adını ona görə vermişlər ki, Aranın özünü, yumşaq xasiyyətinə görə,"ağu" ("Mehriban") deyə çağırırdılar. Deyilənə görə, həmin Aranın nəslindən olan məşhur və cəsur ərlərin çoxunu çar Vologez özü hakim təyin etmişdir. Uti, Girdiman, sovdey və Qarqar knyazlıqlarda yaşayan xalqlar da həmin Aranın oğullarının nəslindəndir. Kalankatlı yazırdı ki, Uti, Girdman, Arsax, Qarqar vilayətlərinin xalqları Aranın övladlarından törəmişdir.

Aranilər müxtəlif dövrlərdə güclü Parfiya dövlətinin təsiri altına düşsələr də yarımasılı vəziyyətdə ölkəni idarə etmişlər.

Aranilər sülaləsinin hakimiyyəti dövründə Albaniya Roma Parfiya kimi dövlətlərin təcavüzlərinə məruz qalırdı. E.ə. I əsrdə Albaniya ərazisinə Roma imperiyasının ordusu ildə soxulmuşdur.

E.ə. I əsrdə **Oroys** (Aruz ) Albaniyada (yunan-roma mənbələrində Oroys) hökmdar idi. Onun hakimiyyəti dövründə, e.ə. I əsrin birinci yarısında Romanın Şərqdə mövqeyi zəiflədiyi üçün Roma senatı ən güclü sərkərdələri olan Qney Pompeyi Şərqə göndərir. Roma sərkərdəsi Qney (böyük) Pompey (e.ə.106-e.ə.48) bu yürüş zamanı Dilican dərəsindən keçərək Qazax və Ağstafa tərəfə uzanan yeganə rahat ticarət yolu ilə hərəkət etmək fikrində idi. Mənbələrin verdiyi məlumata görə Roma sərkərdəsi Pompey albanların ölkəsinə gəlib çatdı. "ən ucqar və naməlum xalqlara-iberlərə və albanlara rast gəldi. Romalılar Xəzər dənizi sahillərini tutmaq Albaniya ərazisindən keçərək Hindistanla Qara dəniz sahillərini birləşdirən ticarət yolunu ələ keçirmək istəyirdilər. E.ə 66-cı ildə Pompeyin ordusu Kür vadisində qışladı. Plutarx yazırdı ki, albanlar əvvəlcə Pompeyin onların ərazisindən keçməsinə razılıq verməklərinə baxmaraq dekabr ayında romalılar Kron (Saturn) bayramını qeyd edən zaman albanlar 40 mindən az olmayan ordu ilə Kür çayını keçdilər və onlara hücum etdilər. Lakin **a**lbanların gözlənilməz hücumu baş tutmadı, çünki Pompey onların Kür çayını keçməsi barədə məlumat almış və ordunu Metell Keler, Luki Flakk və Pompey rəhbərlikləri altında üç hissəyə bölərək, hazır vəziyyətdə dayanmışdı. Albanlar əvvəl Kelerin və Flakkın dəstələrini hücum ederek onları zərərsizləşdirmək, daha sonra Pompeyə hücum etmək niyyətində idilər. Oroys Metell Kelerin dəstəsinə hücumu öz üzərinə götürmüşdü. Lakin Dion Kassinin verdiyi məlumata görə, Pompey albanların həmin sərkərdələrə hücum etməsi xəbərinin eşidən kimi, onların qarşısına çıxdı. Bu zaman albanlar artıq Kür çayını keçirlər. Döyüşun gedişində Pompey Kelerin köməyinə gəldi. Luki Flakkın vəziyyəti bir qədər çətin oldu. Pompey birbaş Oroysa tərəf hərəkət etdi. Oroys döyüşdə üstünlüyü əldən verərək Kelerin hücumlarına məruz qaldı Oroys kimi digər alban dəstələri də uğursuzluğa düçar oldular. Döyüşü uduzacağını başa düşən Oroys Kür çayını keçdi və döyüş meydanından uzaqlaşdı. Romalılar onları təqib etmədilər, üzbəüz sahilə keçmədilər və hücum dayandırıldı. Beləliklə, E.ə. 66-cı ilin dekabr ayında romalılar ilə döyüş albanların uğursuzluğu ilə başa çatdı, Pompeylə müqavilə bağlandı.

Daha sonra İberiyaya doğru irəliləyən Roma ordusu ikinci dəfə e.ə. 65-ci ildə Alazan çayı sahilində Oroysun qardaşı Kosisin rəhbərlik etdiyi Albaniya ordusu ilə toqquşmuş və böyük itki verərək İberiya ərazisinə keçmişdir. Qney Pompey İberiyaya yuruş zamanı E.ə. 65-ci ilin əvvəlində albanların üsyan qaldırması xəbərini aldı. Plutarx yazır ki, albanların yeni qiyamı barədə məlumat alan Qney Pompey hirs və qəzəb içində geriyə döndü və Alazan çayı sahilində albanlarla üz-üzə gəldi. Kür çayı sahilindəki döyüşdən sonra albanlar ikinci dəfə bu səfər Oroysun qardaşı Kosisin başçılığı ilə Roma ordusuna qarşı Alazan çayı sahilində döyüşə girdilər.

Döyüş meşədə başladı. Albanlar 60 min piyada və 12 min süvaridən ibarət ordu ilə Alazan çayının sahilində döyüşə hazır vəziyyətdə romalıları qarşıladılar. Plutarxın məlumatına görə, alban ordusunun başında alban hökmdarı Oroysun qardaşı Kosis dayanmışdı. Döyüşün gedişində Kosis Pompeyi nişan alaraq nizəsini ona atsa da nizə Roma sərkərdəsinin zirehli geyiminə dəyib yerə düşdü. Pompeyin atdığı cavab nizəsi isə Kosisi ölümcül yaraladı. Oroys döyüşə girməyib dağlara çəkildi. Beləliklə, e.ə. 65-ci ildə Alazan çayı yaxınlığında albanlarla romalılar arasında baş vermiş döyüş də romalıların qələbəsilə sona yetdi. Arrian əsirlərin arasında xeyli yaralı qadınlar da olduğunu yazırdı. Antik müəlliflər onları amazonkalar adlandırırdılar. Plutarx Pompey ilə Kosis arasındakı döyüşdə iştirak edən amazonkalar haqda məlumat verir.

Antik müəllif Flor (II əsr) yazır ki, Pompey albanlar üzərindəki qələbədən sonra Qafqaz dağlarında düşərgə saldı. Belə olduqda Oroys Pompeyə xeyli hədiyyələr göndərərək barışıq təklif etdi. Oroysun barışıq təklifini Pompey qəbul etdi. Lakin Pompey ölkənin içərisinə irəliləyə bilmədi. Belə ki, o Kaspi sahillərinə doğru hərəkət etmək istəsə də geri çəkilməyə məcbur oldu. Plutarx isə yazır ki, "döyüşdən sonra Pompey Hirkan, yaxud Kaspi (Xəzər) dənizinə doğru hərəkət etsə də sürünən zəhərli ilanlar üzündən bu niyyətdən əl çəkdi" .

Ümumiyyətlə, Roma ordusunun Xəzər sahillərinə irəliləməsi haqqında mənbələrdə, demək olar ki, heç bir məlumat yoxdur. Lakin yazılı mənbələr Pompeyin Kaspi (Xəzər) dənizi ətrafında məskun olan digər Qafqaz xalqları ilə sülh müqavələri bağladığını göstərir. Dion Kassinin yazdığına görə, "Pompey albanlar ilə sülh sazişi bağladıqdan sonra elçilər vasitəsilə Kaspi dənizinə qədər olan Qafqazın başqa tayfaları ilə müqavilələr bağladı".

Qeyd etmək lazımdır ki, Qobustanda üstündə latın dilində yazı yazılmış XII legiona aid kitabənin tapılması Roma ordusunun Xəzər sahillərinə də gəlib çıxdığını söyləməyə əsas verir. Lakin bu daha sonrakı dövrdə I əsrdə baş vermişdir. I əsrin sonunda romalılar digər Roma imperatoru Domesianın dövründə Albaniyada olublar. Qobustanda Böyükdaş qayasının üstündə latın yazısı məhz bu dövrə aiddir. Bu yazı İmperator Qermanik Domesianın dövründə Roma nümayəndəliyini müşayiət edən100 nəfərlik kiçik bir dəstə - XII leqion tərəfindən qoyulub. Bu yazının həkk olunduğu tarixin 84-96 –cı illər arasındakı dövrə aid olduğu ehtimal edilir. Belə ki, imperator Domesian Qermanik titulunu 83-cü ildə aldığı məlumdur. Bu dövrlərdə isə Albaniyaya Romanın böyük yürüş etməsi barədə mənbələrdə heç bir məlumat yoxdur. Romalılar yalnız imperator Neronun dövründə eranın 68-ci ilində Albaniyaya hücum edərək Dərbənd keçidini nəzarətə almaq niyyətində olsalar da bu baş tutmamışdı. Bu dövrdə Romada üsyanlar başlamışdı və imperator Neron öldürülmüşdü.

Artıq I əsrdə alban çarları Roma ilə dostluq və diplomatik münasibətləri qurmağı bacarmışdılar. Bu dövrdə Albaniya və Roma arasında sıx əlaqələr mövcud olmuşdur. Roma ilə belə münasibətlər III əsrədək davam etdi. Yəni Albaniya romalıların nominal asılılığında olsa da yerli irsi hakimiyyətini qorumağı bacarmışdı. Albaniya suveren dövlət olaraq I-III əsrlərdə özünün İskəndərin draxma və tetradeaxmalarına bənzər gümüş pullarını zərb etməkdə idi. Bütün antik dövr boyu ölkənin pul dövriyyəsi yüksək səviyyədə idi. Bundan başqa Azərbaycanın müxtəlif regionlarında, xüsusilə Qəbələ və Şəki ərazisində aparılan arxeoloji qazıntılar zamanı tapılan pul dəfinələrindən Roma imperatorlarına məxsus xeyli sikkə əldə edilmişdir.

Göründüyü kimi, e.ə.I-IV əsrlər boyu bütün Qafqaz Romaya tabe edilsə də, Qafqaz xalqlarından yalnız albanlar digərlərinə nisbətən müstəqilliklərini qoruya bilmişdilər. Albaniya bu dövrdə gah Roma, gah da Parfiyaya istiqamətlənmək məcburiyyətində qalsa da müstəqilliyini tam olaraq itirməmişdi. Albaniyanın Romadan asılığı nominal xarakter daşıyırdı. Albaniya öz dövlətçiliyini və siyasi suverenliyini öz qonşularından daha çox qoruya bilmişdi. Bu, Albaniyanın ərazi cəhətdən ucqar nöqtədə olması, əhalisinin müstəqillik əhval-ruhiyyədə olması, onun strateji mövqeyi ilə bağlı idi. Belə ki, ölkənin strateji mövqeyi - dövrün ən qüdrətli imperiyaları olan Roma-Bizans və Parfiyadan uzaqda yerləşməsi, şimalda köçəri

tayfaların axışdığı Qafqaz dağları arasındakı saysız-hesabsız keçidlərin, ticari və hərbi yolların olması və s. Albaniyaya dövlət suverenliyini və siyasi müstəqilliyini qoruyub saxlamağa əlvareşli şərait yaratmışdı.

**Alban dövləti Arşakilər sülaləsinin hakimiyyəti dövründə (I-VI əsrlər**). I əsrin 60-cı illərindən etibarən Albaniyada Arşakilər sülaləsi hakimiyyətə keçməyə müvəffəq oldu. Parfiyanın mərkəzi hökuməti onlardan vassal asılığında olan Albaniyada yerli Aranilər sülaləsini hakimiyyətdən uzaqlaşdıraraq əvəzinə öz adamlarını, Arşakilər sülaləsindən olan nümayəndələrini təyin edirdilər. Beləliklə də, Arşaki sülaləsi nümayəndələrinin bir qolu həmin dövrdə Albaniyada bərqərar oldu. Bununla da eramızıın 63-cü ilindən etibarən Albaniyada Arşakilər sülaləsinin hakimiyyət dövrü başlamışdır.

Arşakilər sülaləsi və hökmdarları barədə alban müəlliflərindən Kalankatlı, Kirakos Gəncəli məlumat vermişlər. Arşaki alban çarları "Aranşah" titulu daşıyırdılar. Arşakilər sülaləsinin ilk nümayəndəsi "igid, cəsur" ləqəbli I Vaçaqan idi. Alban müəllifi Musa Kalankatlı Cəcur Vaçaqandan başlayaraq hakimiyyətdə olan I Vaçe, Urnayr, II Vaçaqan, Mihrəvan, Satoy, Asay, Asvaqen, II Vaçe, III Vaçaqan kimi alban çarlarının adlarını çəkir və onların Arşaki sülaləsindən olmasını qeyd edir. Kalankatlı öz əsərində "Cəsur Vaçaqandan Mömin Vaçaqana qədər Albaniyada 10 hökmdar haqda məlumat vermi°dir.

Alban Arşaki sülaləsinin ilk çarı I Vaçaqan I əsrdə mərkəzləşmiş dövlət yaratmağa nail olaraq bütün alban çarlıqlarını birləşdirdi. I Vaçe haqda isə mənbələrdə məlumat yoxdur.

Mənbələrdə haqqında ən çox bəhs olunan Arşaki Alban hökmdarlarından biri Urnayrdır. Alban çarı Urnayrın dövründə xristianlıq ölkədə dövlət dini elan edilmişdir (313-314). Lakin Alban Arşaki sülaləsinin III hökmdarı Urnayrın məhz hansı illərdə hakimiyyətə gəldiyi və hakimiyyətdə olduğu dövr naməlum qalmışdır. Mənbələrdə Urnayrın adı ilk dəfə 313-cü ildə digər alban əyanları ilə birgə xristianlığı qəbul etməsi ilə bağlı çəkilir. Onun adı ilə bağlı son hadisə isə 371-ci ildə baş vermiş Dzirav döyüşüdür. Bu məlumatlar Urnayrın təxminən 313 – 371-ci illərdə hakimiyyətdə olduğunu söyləməyə əsas verir. Mənbələrdən məlum olur ki, Urnayr Bizans impertoru Konstantinin (337-361), həmçinin Sasani şahı II Şapurun (309-379) müasiri olmuşdur. O, II Şapurun bacısı ilə evli idi.

Kalankatlının verdiyi məlumatdan Urnayrın daxili siyasətinin Albaniyada bütpərəstliyə qarşı mübarizəyə, xristianlığın ölkədə dövlət dini elan edilməsinə (313-314), kilsənin torpaqla təmin edilməsi, kilsə 10\1 vergisinin təyin edilməsinə yönəldiyi aydın olur. Lakin Urnayrın dövründə alban əyanları xristianlığı qəbul etsə də, xristianlıq xalq arasında geniş yayıla bilməmişdi. Yerli əhali arasında bütpərəstlik ənənələri davam etməkdə idi.

Urnayrın dövründə ölkənin paytaxtı və alban katolikosluğunun mərkəzi Qəbələ (Kabalaka) olmuşdur. Urnayrın hakimiyyəti mərhələsində Albaniya II Şapurun vassalı və müttəfiqi idi. Buna görə də İran-Roma müharibələrinə cəlb edilən Urnayr 359-cu ildə Amid döyüşündə II Şapuru müşayət edirdi. 371-ci il Dzirav döyüşündə isə öz hərbi dəstəsilə Şapura köməyə gedən Urnayr bu döyüşdə yaralanmışdı.

Urnayrdan sonra mənbələrdə Albaniya hökmdarı olaraq Yesaugen (Asuagen) haqda məlumat verilir. Onun dövründə alban yazı sistemi təkmilləşir və yeni alban yazısı yaradılır. O, təhsilə xüsusi əhəmiyyət verir. Yesaugenin əmri ilə ölkənin hər bir yerindən alban uşaqları toplanıb dəstə-dəstə məktəbə göndərilirdi. Uşaqlar hətta yeməklə də təmin edilirdi. Bu haqqda məlumat verən Musa Kalankatl yazırdı: "O, vilayət və rayonlarda uşaqlara yazı sənətini öyrətməyi, onları məktəblərə göndərməyi, onların yeməklə təmin olunması üçün vəsait ayırmağı əmr etdi." Yesaugenin dövründə İnçil, Apostolların təlimləri kimi dini kitablar Suriya və yunan dillərindən alban dilinə tərcümə edildi.

II Vaçe Albaniyada 444-cü ildə hakimiyyətə gəlir. O, Yesaugenin oğlu və Sasani şahı II Yezdigerdin baçısı oğlu idi. II Vaçe Sasani şahı Perozun əmri ilə Perozabad (Partav-Bərdə) şəhərini saldırmışdı. II Vaçenin dövründə Partav (Bərdə) paytaxt oldu. Paytaxtın Qəbələdən Partava keçməsi ölkəyə xarici müdaxilənin, xüsusilə °imaldan türkmənşəli tayfaların davamlı yürüşləri ilə bağlı olaraq güclənməsi ilə bağlı idi. V əsrin ortalarında Şimali Qafqazdan köçəri tayfaların axınları güclənmişdi. Albaniyanın mərkəzinin və dini iqamətgahının ölkənin içərilərinə doğru daha təhlükəsiz bölgəyə -Uti vilayətinin Bərdə şəhərinə keçirilməsi daha məqsədəuyğun idi. Beləliklə, Albaniyanın mədəni-siyasi mərkəzi Kürün sol sahilindən Qəbələ, Çola vilayətlərindən Kürün sağ sahilindəki Bərdəyə keçdi.

II Vaçenin hakimiyyəti dövrü 450-451, 457-463-cü illərdə Sasani imperiyasına qarşı azadlıq hərəkatları ilə yadda qalmışdır. II

Vaçe 457-463-cü illərdəki anti-iran hərəkatına - Sasani imperiyasının Albaniyadakı iqtisadi-siyasi ideoloji siyasətə qarşı xalq hərəkatına özü rəhbərlik edirdi.

Albaniyada yerli hökmdarların müstəqil daxili siyasət yürütməsi, bəzən hətta xarici siyasətdə də müstəqil hərəkət edə bilməsi Sasani imperiyasını narahat ediridi. Bir tərəfdən də Bizans imperiyasının başının Atilla ilə müharibəyə və kilsə problemlərinə qarışmasından istifadə etməyə çalışan Sasanilər Albaniyanı tamamilə imperiyanın tərkibinə qatmaq üçün hərəkətə keçdilər. Sasani hökmdarı II Yezdigerd Albaniyanın hərbi gücünü zəiflətmək üçün buradakı bütün döyüşçü qüvvəsini ölkənin şimal-şərq sərhəddinə hunlarla mübarəzəyə yönəltdi. II Yezdigerd Albaniyada vergiləri də xeyli artırdı. Əkilib-əkilməməsindən asılı olmayaraq bütün torpaqlardan vergi alınmağa başlamışdı. Artıq təkcə kəndlilər deyil, Albaniyanın şəhər əhalisi və əvvəllər xüsusi imtiyaza malik olan ruhani təbəqəsi də vergi ödəməyə cəlb edildi. Buna qədər Albaniyada ruhanilər yüksək feodal təbəqəsi olan azatlara bərabər tutulurdular və yalnız torpaq vergisi ödəyirlər.

Eyni zamanda Xəzərin qərb sahilində şimaldan gələn tayfaların qarşısını almaq üçün tikilməkdə olan möhtəşəm müdafiə qurğusu olan Beşbarmaq səddinin də bütün ağırlığı alban əhalisinin üzərinə düşmüşdü. Sasanilər Albaniyada apardığı dini assimilyasiya siyasəti də mərkəzi hakimiyyətin gücləndirilməsinə xidmət edirdi. Qafqazda zərdüştlüyü tətbiq etmək üçün 700 maq göndərilmişdi, Onun 300-ü albanların dinindən döndərilməsi üçün nəzərdə tutulmuşdu. Sasanilərin apardığı belə siyasət müqavimət göstərməkdə dirənən alban xalqının tamamilə ram edilməsi və Bizansdan uzaqlaşdırılmasına yönəldilmişdi.

Beləliklə, II Yezdigerdin Albaniyaya iqtisadi-siyasi təzyiqi, dini-mədəni assimilyasiya siyasəti, ölkədə xristianlığı ləğv etmək cəhdi 450-451-ci illərdən etibarən Qafqaz Albaniyasında Sasanilərə qarşı xalq üsyanlarının genişlənməsinə səbəb oldu. 450-ci ildə başlayan ilk üsyana Alban katolikosu başçılıq edirdi. Alban çarı II Vaçe II Yezdigerdin tərəfindən saraya çağırılaraq burada girov olaraq saxlandığı və zərdüştlüyü qəbul etməyə məcbur edildiyi üçün üsyançılara dəstək verə bilmirdi. Lakin buna baxmayaraq 450-ci ildə üsyançılarla Sasani qoşunları arasında döyüş sasanilərin tam məğlubiyyəti ilə başa çatdı. Albanlar bir il boyu Sasanilərə qarşı müqavimət göstərə bildilər. Hun keçidinədək Sasanilərin tutduğu bütün

alban qala və şəhərləri üsyançılar tərəfindən azad edildi. Buradakı Sasani qarnizonunu məhv edərək qalaya Alban nəsli əyanlarından birini başçı qoydular. II Yezdigerd üsyanı yatırmaq üçün bölgəyə böyük ordu göndərdi və 451-ci ildə Artaz bölgəsində Avaray düzündə (müasir Maku və Xoy arasında) üsyançılar məğlub edildi.

II Yezdigerd 450-451-ci il üsyanından sonra heç bir güzəştə getmədiyi üçün 457-ci ildə Albaniyada yeni üsyan başlandı. Nəticədə Sasani dövlətində müvəqqəti olaraq yaranmış sülh yenidən pozuldu. 459-cu ildə Albaniya hökmdarının tabeçilikdən qəti imtina etməsi ilə üsyan daha da dərinləşdi. Artıq Alban çarı II Vaçe üsyana özü rəhbərlik edirdi.

Çola keçidini tutan Alban üsyançıları Böyük Qafqazın 11 hökmdarı ilə ittifaqa girərək onlarla birgə Sasanilərə qarşı hərbi əməliyyatı uğurla davam etdirdilər. Sasanilərin Vaçe ilə danışıqlara başlamaq cəhdlərinin hamısı boşa çıxdı. Albaniyada 457-ci ildə başlayan üsyan yalnız 463-cü ildə yatırıla bildi.

Üsyanın yatrılmasından sonra Albaniyada çarlıq ləğv edildi. II Vaçe hakimiyyətdən əl çəkdi. Ölkə Sasani imperiyasının canişinləri-mərzbanlar idarə etməyə başladı çevrildi. Albaniyada belə vəziyyət III Vacaqanın hakimiyyətə gəlməsinə qədər davam etdi. Moisey Kalankatlı yazdığı kimi, "Vaçedən Mömin Vaçaqana qədər 30 il ərzində Albaniya hökmdarsız qaldı.

Perozun hakimiyyəti (459-484) dövründə Sasani imperiyasında onsuz da ağır olan siyasi-iqtisadi vəziyyət quraqlıq, müharibələrlə daha da ağırlaşmışdı. Nəticədə Albaniyada etiraz dalğaları daha da gücləndi. Perozun müharibələrdəki müvəffəqiyyətsizliyi, albanlara qarşı sərt siyasəti, Alban əsilzadələrinin irsi imtiyazlarının pozulması, dini təqiblər – bütün bunlar Albaniyada yeni üsyana yol açdı.

483-484-cü illərdə Cənubi Qafqazda Sasanilərə qarşı yenidən üsyanlar başlanmışdı. Perozun müharibədə öldürülməsindən sonra Sasani imperiyasında sabitlik tamamilə pozuldu. Ölkədəki ağır iqtisadi vəziyyət Sasaniləri Mərkəzi Qafqazdakı dini təqib siyasətinə son qoymağa və Qafqaz xalqları ilə sülh bağlamağa məcbur etdi. 484-cü ildə Sasani imperiyasında hakimiyyətə Valarş (484-488) gəlir. Valarş İrandakı ağır iqtisadi vəziyyət və maharibələrin viran qoyduğu təsərrüfat həyatını yenidən dirçəltməyə çalışırdı. Buna görə də albanlarla üsyançıların şərtləri nəzərə alınmaqla razılıq əldə edildi. Nəticəsində 585-ci ildə əldə olunmuş Nvarsaq sülhünə görə Albaniyada müstəqillik və xristianlıq bərpa edilir. Albanlar əhəmiyyətli

güzəştlər əldə etdilər. Ölkədə yenidən çarlıq sistemi-Arşakilər sülaləsinin hakimiyyəti bərpa edildi.

Alban tarixçisinin yazdığına görə *"Albaniya əhalisi yenidən vahid səltənətdə birləşib şah övladlarından ən cəsur, müdrik, ucaboy Vaçaqanı seçdilər. Beləılilklə,* 487-ci ildə II Vaçenin əmisi oğlu, Alban Arşaki sülaləsinin son nümayəndəsi – III Vaçaqan hakimiyyətə gəldi və Albaniyada yerli sülalənin hakimiyyəti bərpa edildi.

Alban çarına ölkənin daxili idarə edilməsində müstəqillik, dini inam azadlığı verildi, alban ali təbəqəsinin imtiyazları, iyerararxiya prinsipləri bərpa edildi. Sasanilər zərdüştlüyü zorla yaymamaq, xristianlar da, öz növbəsində atəşpərəslər arasında xristianlığı təbliğ etməmək barədə razılaşdılar. Albaniyadakı vergilər də azaldıldı.

Mömin Vaçaqanın hakimiyyət illəri Albaniyanın siyasi, dini – mədəni intibah dövrü idi. Onun hakimiyyət illəri Albaniyanın yüksəlişi dövrüdür. Ölkə təsərrüfatı dirçəldilir, ticarət əlaqələri genişlənir, əkinçilik, hevandarlıq və sənətkarlıq durmadan inkişaf edirdi. Albaniyada feodal şəhərləri təşəkkül tapır. Bunlar Bərdə, Dərbənd, Şamaxı, Qəbələ, Beyləqan, Şabran, Xalxal, Şəki kimi qədim və erkən orta əsrlər dövründə mühüm yeri olan şəhərlər idi. İri bazarların mövcud olduğu belə şəhərlərdə sənətkar və tacirlər birlikləri yaranırdı. Ölkə Çin, Hindistan, Misir, Suriya kimi Qədim Şərqin və Avropanın bir çox dövlətləri ilə birbaşa ticarət əlaqələri yaratmağa müvəffəq olmuşdur.

Onun dövründə Albaniya yenidən mərkəzi hakimiyyətdə birləşdi. III Vaçaqan, ilk növbədə dini birlik əldə etməyə can atırdı, xristianlığın ümumdövlət dini olmasına çalışırdı. Bu məqsədlə o, məktəblər açdırdı, dağılmış kilsələri bərpa etdirdi, yeni kilsə və monastrlar tikdirdi, kilsə rütbələrini bərpa etdirdi. Ölkədəki bütün bütpərəst və atəşpərəst sektaları təqib etdirərək ləğv etdi. Dini – siyasi təsirlərinə və assimilyasiya siyasətinə qarşı dura biləcək müstəqil kilsənin böyük siyasi rolu olduğunu nəzərə alan III Vaçaqan Albaniyanın müstəqilliyini və Alban kilsəsinin nüfuzunu möhkəmləndirmək üçün Aquen kilsə məclisini çağırdı.

Aquen kilsə məclisinin çağırılma dövrü V əsrin sonuna (487-488) təsadüf edir. Aquen kilsə məclisinin çağırılması bir tərəfdən Alban kilsəsinin müstəqilliyini təmin etməli idi, digər tərəfdən isə III Vaçaqan Aquen kilsə qanunlarının köməyilə dövlət hakimiyyətini möhkəmləndirməyə, özbaşına feodalları (azatları) ram etməyə, vergi verən təbəqə ilə ali zadəgan təbəqəsi arasındakı münasibətləri

tənzimləməyə, bütün təbəqələrin dini birliyinə nail olmaq niyyətində idi. Bütün bunlar ölkənin siyasi müstəqilliyiini qorumaq və təcavüzkarlara qarşı mübarizə üçün zəruri idi. 488-ci ildə III Vaçaqan Aquanda qurultay çağıraraq yeni qanunlar qəbul etdi. Tarixdə Aquan qanunları kimi tanınan bu islahatlar Albaniyada mərkəzi hakimiyyətin gücləndirilməsinə və xristianlığın mövqelərinin möhkəmlənməsinə yönəldilmişdir. Bu qanunlara əsasən kilsəyə böyük səlahiyyətlər verilmiş və hətta məhkəmə işləri də onun ixtiyarına keçmişdir.

Beləliklə, Arşakilər sülaləsinin nümayəndələri, xüsusilə də son Arşaki hökmdarı III Vaçaqan Albaniyada müstəqil siyasət yürüdərək mərkəzləşmiş feodal dövləti yaratmağa nail olmuşdular. Alban dövləti Arşakilər dövründə qədim alban ənənələrini davam etdirərək süveren dövlət kimi fəaliyyət göstərmişdir. Alban hökmdarları daxili və xarici siyasət sahəsində çox zaman sərbəst qərarlar yürütməyə müvəffəq olmuşlar.

Qeyd etmək lazımdır ki, Albaniyanın dövlətçiliyinin, hökmdar sülalələrinin dövləti idarəetmə sisteminin qorunub qalmasında ölkənin mühüm starteji mövqeyi və əhəmiyyəti, Qafqaz keçidlərinin şimaldan axın edən tayfalardan müdafiəsi, təbii ehtiyatlarının zənginliyi, mühüm ticarət yollarının üzərində yerləşməsi və s. kimi mühüm amillərin təsiri olmuşdur. Qafqaz Albaniyasını mühüm strateji əhəmiyyət daşıyırdı və Sasani imperiyasına gedən yolları həm şimalda xəzərlərdən, həm də qərbdə Bizansdan qoruyurdu. Xəzərlər Arran ərazisinə daha çox basqın edirdilər və buna görə də Sasanilər sərhədləri möhkəmləndirməyə ciddi əhənmiyyət verirdi.

Bizans və Sasani imperiyalarından coğrafi cəhətdən uzaq olması Albaniyaya strateji cəhətdən çox əhəmiyyətli olan Dərbənd keçidini nəzarətdə saxlamağa imkan vermişdi. Bu ona siyasi müstəqilliyini qorumağa imkan vermişdi. Çünki Sasanilər öz imperiya torpaqlarını şimaldan axın edən köçəri tayfalardan qoruyacaq bufer ərazinin olmasında maraqlı idilər. Buna görə də Sasanilər Alban çar sülaləsi olan Arşakilərlə müttəfiq münasibətləri saxlayırdılar və bu ittifaqı nikahlarla daha da gücləndirirdilər. Beləliklə, VI əsrin əvvəllərində Albaniya Sasanilərin vassalıgına çevrilsə də, ali feodal və ruhani təbəqəsinin imtiyazlarını qoruyub saxlaya bilmişdi.

Lakin VI əsrdə İranda vəziyyət sabitləşən kimi Sasanilər Albaniyada çar sülaləsini yenidən ləğv etdilər. 510-cu ildə III Vaçaqanın ölümü ilə Alban Arşaki sülaləsinin hakimiyyəti başa çatdı və qısa bir

müddət ərzində ölkə (510-629) ölkə yenidən Sasani mərzbanlarının hakimiyyəti altına düşdü. I Xosrov Ənuşirəvanın (531-579 apardığı inzibati islahatlar nəticəsində Sasani imperiyası 4 mərzbanlığa (kust) bölündü. Sasanilərin siyasi-inzibati bölgüsü nəticəsində Bütün Qafqaz, o cümlədən Albaniya, Atropatena Adurbadaqan (Azərbaycan) adlanan şimal inzibati bölgüsünə aid edildi. Demək olar ki, bu dövrdən etibarən Albaniya, həm də siyasi və coğrafi anlayış olaraq Azərbaycan adlanmağa başlayır. Beləliklə, VI əsrin sonunda Azərbaycanın həm cənub torpaqları, həm də mənbələrdə "Arran" (Albaniya, Ağvank) adları ilə bilinən Azərbaycanın şimal torpaqları (müasir Azərbaycan Respublikası) Sasani imperiyasının 4 inzibati vahidindən biri olan Şimal canişinliyini təşkil edirdi.

**Alban dövləti Mehranilər sülaləsinin hakimiyyəti dövründə (630-705-ci illər)** VI əsrin sonu-VII əsrdə Albaniyada Girdman vilayətinin hakimləri olmuş Mehranilər nəsli yüksəlişə keçdi. Arşakilərdən sonra Mehranilər süləlləsi VIII əsrin əvvəlinədək bütün ölkəni idarə edirdilər. Mənbələrin məlumatına görə, Mömin Vaçaqanın ölümündən sonra isə Arşakilər sülaləsinin siyasi mövqeyi zəifləməyə başladı və Sasani tayfasının Mehrani nəslindən olan knyazlar İrandan gəlib Albaniyada möhkəmləndilər". VI əsrədək hakimiyyətdə olan Alban Arşakilər sülaləsini Sasani sarayından gələrək Albaniyada möhkəmlənmiş ali knyazlar- Mehranilər (630-705) sülaləsi əvəz etdi.

Mehranilərin Albaniyaya gəlişi siyasi vəziyyətlə şətrlənirdi. Sasani imperiyasının şimal sərhədlərinin qorunması işində Albaniya xüsusi strateji əhəmiyyət daşıyırdı. Buna görə də Sasanilər Albaniyada möhkəmlənməyə can atırdılar. Bizans yürüşlərindən sonra Sasanilər qərb sərhədlərinin qorunmasında Alban knyazlarına güvənlərini itirmişdilər. Buna görə də dini və siyasi baxımdan Sasani sarayına daha yaxın olan Girdmanın yeni hakimləri Mehranilərə daha çox güvənirdilər. Lakin Sasanilərin Mehranilərlə bağlı ümidləri boşa çıxdı. Mehranilər cəmi 2 nəsil fars olaraq qaldılar, ondan sonra xristianlığı qəbul edərək yerli alban əyanları ilə qaynayıb qarışdılar, qohumluq əlaqələri qurdular. Alban mədəniyyətini və yazısını mənimsəyərək albanlaşdılar. Beləliklə, fars əsilli Mehranilər də Arşakilər kimi Albaniyada müstəqil siyasət yeritməyə başladılar.

705-ci ildə isə Albaniya bütövlükdə ərəblərin əsarəti altına düşdüyü zaman isə Mehranilər nominal da olsa, hakimiyyətdə 100 il də qalmağı bacarmışdılar.

**Mehranilər nəsli.** Mehranilər sülaləsinin banisi olan Mehran II Xosrovun qohumu idi. Kalankatlının verdiyi məlumata görə, Mehranilər nəslinin banisi Mihr VI əsrin sonunda İranda saray çevrilişində iştirak edir. Buna görə atası IV Hörmüzün (579-590) qatillərinə divan tutan şah Xosrov Pərvizin (591-628) (II Xosrov) intiqamından canını qurtarmağa çalışan Mehran 300-ə yaxın ailə ilə Albaniyaya qaçmışdı. Mihranın məqsədi burada xəzərlərin torpağına gedib İranın düşmənlərinə qoşulmaq idi.

Belə vəziyyətdən narahat olan Sasani hökmdarı Xosrov Mehranın xəzərlərlə birləşməsinə yol verməк istəməyərək Mihrə yaşamaq üçün yer seçməkdə sərbəst olduğunu bildirən məktub göndərir. Xosrov İranın adlı-sanlıı əyanlarının təzyiqi ilə Mehrana aşağıdakı məzmunda məktub yazmışdı: "Qardaşım, düşmən olub məndən uzaqlaşma. Əgər mənimlə bir yerdə yaşamaq xoşuna gəlmirsə, bu məktub sənə çatana qədər nə qədər yol getmisənsə, o ölkədə (Albaniyada) yaşamaq üçün özün bir o qədər torpaq götür".

Şahın məktubunu Mihr Albaniyanın Uti əyalətinin Girdman vilayətində alır və burada da qalmaq qərarına gəlir. Kalankatlının dediyinə görə, Xosrovun qasidinin Mehrana çatdığı yerdə Girdman torpaqlarında Mihran sonralar Mehravan şəhəri salmışdı. Girdman vilayətində möhkəmlənməyi qərarlaşdıran Mehran tədricən Girdman vilayətindən şimalda yerləşən ərazilərə yürüş edərək bu ərazilərin 12 hakimini – yerli knyazları hiylə ilə yanına çağırıb qılıncdan keçirdi və ölkəyə tam sahib oldu. Mehranın nəvəsi İgid Vardan da eyni siyasəti davam etdirərək Albaniyanın Aranşahılar (Arşakilər) sülaləsindən olan keçmiş hakimlərin son 60 nümayəndəsinə yemək vaxtı "zəhərli çörək " verib məhv etdi və bundan sonra bütün Albaniya qəti olaraq yeni sülalənin-Mehranilərin əlinə keçdi. Beləliklə, Mihr və onun varisləri Girdmanda möhkəmlənirlər. Girdman torpaqları onların nəsli mülkləri (domen) oldu. Beləliklə, Mehranilər tədricən yerli Aranşahı knyazlarını sıxışdıraraq bütün Albaniyaya sahib olmağı bacardılar və 2 əsr boyu Albaniyanın Ali knyazı titulunu daşımaq hüququnu qazandılar.

Kalankatlı Albaniyada hökmdarlıq etmiş Mehranilər nəslinin şəcərəsini aşağıdakı ardıcıllıqla verir: Mihr, Armael, Vard, Cəsur Vardan, Vard Varazman, Varaz Qriqor, Varaz Peroz, Cavanşir, Erud-Xosrov, Varazman.

Mehranilər sülaləsinin Albaniyada hökmranlığı 603-cü ildən başlasa da, onlar yalnız 630-cu ildən etibarən Albaniyada bütün

ölkənin tam hakimi olaraq ölkəni idarə etməyə başlamışlar. Bu Mehrani sülaləsindən olan İgid Vardanın nəvəsi Varaz Qriqorun (528-636) dövrünə təsadüf edir. Girdman knyazı Varaz Qriqor Bizans imperatoru İraklinin Qafqaza yürüşü zamanı xristianlığı qəbul etmişdi. Belə ki, Bizans ələ keçirdiyi ərazilərdə vahid dini birlik təmin etmək məqsədilə öz diofizit təriqətini tətbiq ediridi. Buna görə də Bizans təkcə atəşpərəstləri deyil, monofizit təriqətini də təqib edirdi. Beləliklə, Varaz Qriqor Bizans imperatoru İraklinin tərəfindən Qafqaz Albaniyasının hökmdarı olaraq bərpa edildi. Girdman knyazı Varaz Qriqor Bazınsın vassalığını qəbul etmək şərtilə bütün Albaniyanın hakiminə çevrildi.

Lakin bu dövrdə beynəlxalq aləmdə baş verən dəyişikliklər nəticəsində Albaniya yenidən Sasanilərin təsir dairəsinə düşür. İran şahı II Xosrov öldürüldü və hakimiyyətə II Kavad gəldi. Kavad 628-629-cu illərdə Bizansla sülh bağlayır və II Xosrovun itirdiyi torpaqları geri qaytarmağa nail olur. Beləliklə, Varaz Qriqor Bizansın ona verdiyi hüquq və səlahiyyətlərdən istifadə edə bilmədən Albaniya yenidən Sasanilərin təsir dairəsinə düşür.

Göründüyü kimi, erkən orta əsrlərdə Cənubi Qafqazda siyasi mühit xeyli dərəcədə böyük dövlətlərin qarşılıqlı münasibətlərindən asılı idi. Xüsusilə də Bizans- İran müharibələri bölgədə cərəyan edən proseslərə güclü təsir göstərməkdə təsiri olub. Odur ki, öz hakimiyyətini və suverenliyini qoruyub saxlamaq üçün Varaz Qriqor bir sıra addımlar atmaq məcburiyyətində qalır. Bizansla Sasanilər arasındakı sülh müqaviləsi və Albaniyanın yenidən Sasanilərin təsir dairəsinə dü°məsi ölkədə dini ideologiyaya da təsirsiz ötüşmür. Belə ki, Sasanilər Mərkəzi Qafqazı Bizansdan ayrılmaq məqsədilə, diofizit təriqətinə mənsub olan Bizansın əksinə olaraq monofizit təriqətini imperiya hüdudlarında rəsmi xristian təriqəti olduğunu elan etmişdilər. Belə olduqda 628-ci ildə Bizansın təsirilə diofizitliyi qəbul etməli olmu° Varaz Qriqor Alban katoliosu Vironun məsləhəti 630-cu ildə yenidən monofizitliyə dönür. Varaz Qriqor bu dəfə də Sasanilərin ona veridyi hüquq və səlahiyyətlərdən istifadə edərək, Kalankatlının verdiyi məlumata görə, Alban katolikosu Vironun (536-630) xeyir-duası ilə Albaniyanın ilk Ali knyazı tituluna sahib olmağı bacarır.

**Albaniya Cavanşirin hakimiyyəti dövründə.** Azərbaycan dövlətçiliyi tarixində Cavanşirin müstəsna xidmətləri olmuşdur. Dövrünün bacarıqlı dövlət xadimi və görkəmli sərkərdəsi olan

Cavanşir 616-cı ildə Mehranilər nəslindən olan Varaz Qriqorun (638-642) ailəsində dünyaya gəlmişdir. Cavanşir Varaz Qriqorun 4 oğlundan ikincisi idi. Kalankatlı Cavanşiri atasının ən sevimli oğlu, cəsur və ağıllı, dövlət işlərində atasının ən yaxın köməkçisi kimi təsvir edir. Fiziki cəhətdən çox sağlam və güclü olan Cavanşir hələ gənc ikən yaşıdlarından seçilirdi. O, cəsurluğu ilə tez bir zamanda ad çıxarmışdı. Odur ki, atası onun «görkəmli və gözəl bir şahzadə» olacağına böyük ümid edirdi. Cavanşirin oğullarının ən qabiliyyətlisi olduğunu hiss edən atası onu özünün davamçısı olaraq görürdu. Alban tarixçisi Musa Kalankatlı Cavanşirin «Atasının sevimlisi, silah işlətməkdə mahir, qartal kimi zirək, hər şeydə müvəffəqiyyət qazanan, atasına dünyəvi həyatda öz ağlı ilə kömək etməyə, hökmdarlar yanında olmağa hazır olduğunu» yazırdı.

VII əsrin ortalarında Yaxın Şərqdə güclənməkdə olan ərəblər 632-ci ildə İrana yürüş etdilər. Bu zaman Sasani hökmdarı III Yezdigerd (632-651) idi. Artıq 633-cü ildə ərəb ordusu İraq istiqamətindən sərhədi keçərək sürətlə qasırga kimi ölkənin içərilərinə doğru irəliləməkdə idi. Belə vaxtda Sasani hökmdarı III Yezdəgird ərəblərə qarşı mübarizə üçün vassallarından - ona tabe olan ölkələrdən kömək istəyir. Bu əmri alan Albaniya hökmdarı Varaz Qriqor Xilafət qoşunlarına qarşı vuruşmaq üçün ikinci oğlu, cəsur, görkəmli və qabiliyyətli Cavanşiri Sasani şahının sarayına göndərmişdi. Cavanşir ərəblərə qarşı mübarizədə iştirak edən Alban dövlətinin hərbi dəstələrinə başçılıq edir. Cavanşir öz döyüşçü dəstəsi ilə Sasani paytaxtında keçirilən ümumhərbi keçidə yollanır. Sasani sarayında çox bəyənilən gənc Cavanşir Yezdəgirdə təqdim edilir. Sasani hökmdarı Cavanşiri tərifləyərək ona Albaniya sərkərdəsi rütbəsi verir. Elə ilk döyüşdən Çavanşirin döyüşçü dəstəsi xüsusilə fərqləndilər. Kalankatlı yazırdı ki, döyüşdəki xidmətləri müqabilində İran şahı Cavanşirə çoxlu qiymətli hədiyyələr, o cümlədən kəndlər və balıqla dolu çaylar bağışladı.

637-ci ildə şahın iqamətgahı olan Mədain şəhəri ərəblər tərəfindən mühasirə ediləndə də Cavanşirin rəhbərlik etdiyi alban ordusu böyük şücaət göstərərək, ərəb ordusunu geri oturtdu, ərəbləri Dəclə çayının o biri sahilinə keçməyə məcbur etdi. Altı ay boyu ərəblərə Dəcləni yenidən keçməyə imkan vermədi. M.Kalankatlı Cavanşirin şücaətlərindən bəhs edərək yazır ki, «sərkərdələr və pəhləvanlar arasında həm fiziki, həm də zehni qabiliyyəti ilə böyük hörmət qazanmış Cavanşir ərəblərə qarşı döyüşlərdə igidlik göstərdi.

Sasani şahı Yezdəgirdi xilas edərək mühafizəsini təşkil etdi. Cavanşir artıq həmin vaxt Rüstəm və Xorazad kimi məşhur sərkərdələrdən yüksək səviyyədə dayanırdı. Bu döyüşdə öz hərbi şücaəti ilə seçilən Cavanşirin qəhrəmanlığı III Yezdigerd tərəfindən də yüksək qiymətləndirilir. Sasani şahı III Yezdəgird Cavanşirə çox qiymətli hədiyyələr və rütbə verdi. M.Kalankatlı yazır ki, «şah onu sərkərdəyə layiq olan mükafatlarla mükafatlandırdı, o cümlədən sərkərdə gəranayları[1], iki qızıl mizraq [2] və iki qızılla süslənmiş qalxanla fərqləndirdi. Bu qalxanları bundan sonra Cavanşiri o biri sərkərdələrdən fərqləndirən şan-şöhrət əlaməti kimi həmişə onun önündə aparırdılar. Şah onun belinə mirvari ilə işlənmiş qızıl kəmər və qızıl dəstəkli qılınc bağladı, qollarına bazubənd[3], saldırdı, başına isə qaşdaşlı tac qoydurdu. «

Beləliklə, Cavanşir İran ordusu ilə birlikdə ərəblərə qarşı dalbadal 7 il ağır döyüşlərdə iştirak edərək 11 dəfə ağır yaralandı. Xilafət orduları ilə ağır döyüşlərdən sonra Cavanşir iranlılarla vidalaşıb Atropatenaya gəldi. Burada o, İran sərkərdəsi tərəfindən böyük hörmət və ehtiramla qarşılandı.

Cavanşir Albaniyada da qalib sərkərdə kimi qarşılandı. Kalankatlı yazırdı ki, saçları artıq ağarmış atası oğlunu bağrına basaraq sevincdən ağladı. Bu dövrdən etibarən Varaz Qriqor Albaniyaya rəhbərliyi Cavanşirə həvalə etdi. Albaniyada hakimiyyətə keçəndə Cavanşirin (637-680) cəmi 21 yaşı var idi. Gənc olmasına baxmayaraq o, artıq zəmanəsinin tanınmış sərkərdəsi kimi Albaniyada və ondan çox-çox uzaqlarda tanınırdı.

Cavanşirin hakimiyyətə gəlişi Albaniyada dövlətin idarə olunmasında yeni dövrün başlanğıcı oldu. Ərəblərin qalibiyyətli döyüşləri və İranın qəti məğlubiyyətindən sonra, sasanilərin son günlərinin yaxınlaşdığını anlayan Cavanşir sasanilərlə yolunu ayırmaq niyyətində idi. Sasani imperiyasının zəiflədiyini hiss edən Cavanşir artıq Albaniyanın vassal dövlət siyasəti deyil, daha çox müstəqil dövlət siyasəti yeritməli olduğunu anlayırdı. Albaniyanın hökmdarının belə mövqeyini Sasanilər Cavanşirin üsyanı kimi dəyərləndirdilər və Albaniya üzərinə ordu yeridildi. Belə olduqda Cavanşir

---

[1] Qədim hərbi musiqi aləti. Nəfəslə çalınan uzun boru şəklində olan gur səsli bu qədim musiqi aləti adətən qələbə bayramlarında çalınardı.
[2] Sivriuclu metaldan düzəldilən uzun saplı atıcı, deşici və kəsici qədim döyüş aləti.
[3] Qədimdə döyüşçülərin qollarına geydikləri dəmir qolçaq.

özünün yaxşı silahlanmış dəstəsi ilə iranlıların qarşısına çıxdı. Döyüşdə İran tərəfi böyük itki verdi. Lakin Sasani ordusuna köməyə gələn yeni qüvvələr hesabına İran ordusu albanların təqibini davam etdirdi. Tərəflər arasında növbəti döyüş Albaniyanın dağlıq ərazilərindən birində oldu. Cavanşir bu döyüşdə də qələbə qazandı və düşməni darmadağın etdi. Döyüş meydanlarında ağır itkilər verərək məğlub olan farslar Bərdəyə girərək Cavanşirin anasını və qardaşlarını girov götürdü. İran döyüşçülərinin bu namərd hərəkəti Cavanşiri bərk qəzəbləndirdi. Alban tarixçisi bu barədə belə yazır: « O gün Cavanşir balalarını itirmiş dişi ayı kimi çox qəzəbləndi və hiddətləndi. O, qəmli-qəmli tezliklə Kambeçan (Kambisena) vilayətində və Kürün o biri sahilində yerləşən öz ata-baba mülkünə gəldi. Burada o, farslarla döyüşə hazırlaşdı.

Alban ordusu və İran ordusu arasında növbəti döyüş daha amansız oldu. Düşmən yenə darmadağın edildi. Amma mübarizə hələ bitməmişdi, Cavanşirin anası və qardaşları hələ də əsirlikdə idi. Ona görə də alban hökmdarı qüvvə toplamaq və müttəfiqlik üçün İberiyaya getdi. İberiyada alban sərkərdəsini onun adına və şöhrətinə layiq olan bir dəbdəbə ilə qarşıladılar. M Kalankatuklunun verdiyi məlumata görə, gürcü knyazı onun qələbələri ilə fəxr etdiyini bildirmişdi. Bu görüş zamanı Albaniya və Gürcüstan arasında hərbi saziş imzalandı. İberiya hökmdarı ilə ittifaq bağlayan Cavanşir Girdman və Kambisenanın, daha sonra Uti əyalətini, Sakasenanı farslardan təmizləyərək ölkənin paytaxtı Bərdəyə girir və burada girov tutulan doğmalarını-anası və qardaşlarını da azad edir.

Bundan sonra farslar Atropatenadan yeni hərbi qüvvə ilə Cavanşirə hücum etsələr də, Çavanşir onları Sünik ərazisində məğlubiyyətə uğratdı. Hərbi əməliyyatlarda ağır məğlubiyyətə uğrayan sasanilər Albaniya ilə danışıqlara başlamaq üçün Sünikin böyük knyazı vasitəsilə[1] Cavanşirə məktub göndərərək onunla ittifaq bağlamaq arzusunda olduğunu bildirir. Farslar Sünik knyazının vasitəçiliyi ilə Cavanşiri barışığa razı sala bildilər. Cavanşir sülhə razılıq versə də, bundan sonra ölkəsini müstəqil idarə edəcəyini bildirir. Lakin sasanilər 652-ci ildə növbəti dəfə vədinə xilaf çıxaraq, hiylə yolu ilə Cavanşirin atası Varaz Qriqoru əsir götürməyə nail olurlar və bu yolla Albaniya hökmdarını tabe olmağa məcbur etmək istəyirlər. Cavanşir atasının intiqamını almaq məqsədilə yenidən

[1] Alban hökmdarı Sünik vilayətinin knyazının qızı ilə evlənmişdi.

silaha sarılaraq hərbi əməliyyatlara başlayır. O, qardaşları ilə birlikdə Bərdə yaxınlığındakı meşədə gecələyir və səhər tezdən hücum edərək şəhəri alır. Alban tarixçisinin yazdığına görə, Cavanşir və qardaşları farsları atalarını azad buraxmağa məcbur edənə qədər qırdılar.

Xilafət və Sasani orduları ilə döyüşlərdə əldə etdiyi qələbələr sərkərdə və dövlət xadimi kimi Cavanşirin hörmət və nüfuzunun sürətlə artmasına səbəb oldu. O, Albaniyada, xüsusilə də Girdiman vilayətində böyük sevinc və qürur hissi ilə qarşılandı. Cavanşir Albaniya dövlətini yetərincə qüdrətli bir dövlətə çevirdikdən sonra onu müstəqil etməyə çalışırdı.

Lakin Sasanilərlə müharibədən başı hələ tam ayılmayan Albaniya daha sonra bütün Yaxın və Orta Şərqi lərzəyə salan ərəb Xilafətinin hücumları qarşısında dayanmaq zorunda qaldı. Cavanşir əvvəlcə ərəblərə tabe olmayaraq Kür çayının o biri sahilinə çəkilir. Orada mövqelərini bir qədər möhkəmləndirdikdən sonra ərəblərlə döyüşə girmək istəsə də atası onu bu fikirdən daşındırdı. Vəziyyətin uzun müddət bu cür davam edə bilməyəcəyini anlayan alban hökmdarı yenidən özünə müttəfiq axtarmağa başlayır. Cavanşir ciddi siyasi şərait qarşısında manevr etməyə təşəbbüs göstərdi. Ərəb xilafətinin asılılığına düşməkdənsə könüllü olaraq Bizans asılılığını qəbul etmək üçün Bizans imperatoru II Konstantinə (641-668) müraciət etdi. Ona "Uzaqda olan bir xalqı özünə yeni təbəəliyə qəbul etməyi" təklif etdi.

Bizans Albaniyanın strateji mövqeyi, təbii sərvətləri, mühüm ticarət yollarının qovşağında yerləşməsi baxımından Albaniya ilə yaxınlaşmaqda maraqlı idi. Bundan başqa cənubdan gələn böyük təhlükə (ərəb yürüşləri) öncəsi Bizans üçün imperiyanın şərq sərhədlərini möhkəmləndirmək zəruri idi. Buna görə də Bizans imperatoru çoxdan arzuladığı bu ittifaqa böyük məmnuniyyətlə razılıq verdi. İmperator II Konstantı (641-668) tezliklə qarşılıqlı ittifaq haqqında müqaviləni hazırlatdırdı. Cavanşirə içərisində zərli söykənəcəyi olan gümüş taxt, qızıl saplarla tikilmiş geyimlər və mirvari ilə bəzədilmiş qını olan öz şəxsi qılıncı kimi bir çox qiymətli hədiyyələr göndərdi. Cavanşiri birinci patrik rütbəsinə qaldırdı.[1] Eyni zamanda imperator II Konstantın Cavanşirin istədiyi şəxslərə paylaması üçün albanlardan 1200 nəfərə patrik, konsul, eksprefekt, general və elist rütbələri verilməsi haqda fərmanlar göndərilməsini əmr etdi. Kalankatlının verdiyi məlumata görə, Bizans imperatoru sadalanan

[1] Bu, Bizans imperiyasının özündə belə nadir hallarda verilən çox yüksək rütbə idi.

qiymətli hədiyyələrlə bərabər, « hətta sinəsində gəzdirdiyi İsa xaçının zərrəciyini də çıxarıb Cavanşirə göndərdi» İmperator Cavanşirə göndərdiyi məktubda onu, Girdimanın sahibi və Albaniya knyazı, proton patrik və Şərqin hökmdarı adlandırmışdı.

Bizans imperatorunun məktubu, hədiyyələri və rütbələri alban hökmdarını çox məmnun etdi. Amma onu bütün bunlardan daha çox məmnun edən Xilafət orduları ilə gələcək hərbi toqquşmalarda Bizansın timsalında güclü müttəfiq tapması idi. M.Kalankatuklu Mehranilərin sarayında Cavanşirin fəaliyyəti haqda yazırdı: "O, ədalətli hökmlər çıxarıb xalqının etibarlı haqqını verirdi. O, bütün günü nəşə və keflə yox, öz ölkəsinin qayğısına qalmaqla məşğul oldu. O, Qafqaz dağlarında vəhşi həyat sürənləri də müdrikliyi ilə yola verirdi. Beləliklə, o, öz ölkəsini İberiya sərhədlərindən Dərbəndə və Araz çayına qədər olan torpaqları hakimi-mütləq kimi idarə edirdi".

661-ci ilin yazında alban hökmdarının imperator II Konstantla Vaqarşapatda növbəti görüşü zamanı da Bizans imperatoru Cavanşiri xüsusi hörmətlə qarşılayır. O, imperator kimi təntənə ilə Konstantın sarayına daxil oldu. Konstant Cavanşiri »bütün əyanlarından yuxarıda oturtdu..., Cavanşirin belinə öz babası İraklinin və ulu nənəsi Niketanın çar kəmərini bağladı, çiyninə öz əbasını saldı. Cavanşirin iki gənc oğlunu patrik rütbəsinə layiq gördü. O, Albaniyanın ilk çarlarına məxsus olan bütün kənd və mülklərini Cavanşirə irsən nəsildən-nəslə keçmək şərtilə bağışladı və çar kimi bütün Şərq xalqına hökmran təyin etdi»

Bizans imperatoru ilə olan uğurlu görüşlərindən sonra Cavanşir vətəni Albaniyada böyük coşqu ilə qarşılandı. Albaniya katalikosu Uxtanes[1] bütün kilsə xadimləri ilə birlikdə onu qarşılayaraq uca səslə xeyir-dua verdi. M.Kalankatuklunun yazdığına görə, Cavanşir Albaniyaya dönəndən sonra imperatorun ona hədiyyə etmiş olduğu «İsa xaçı üçün layiq olan yer axtardı və öz doğma vilayətində, Girdiman qalasında onun üçün ibadətgah tikdirdi və İsa peyğəmbər şərəfinə buranı həddən artıq bəzədi»

Bizansla hərbi-siyasi ittifaqda olması, Albaniyanın hökmdarı kimi Cavanşirin nüfuzunu daha da artırmışdı. Hər iki tərəf bu ittifaqa və dostluğa çox öbyük əhəmiyyət verirdi. Uzun illər ərzində dünyaya meydan oxuyan böyük bir imperiyanın və onun imperatorunun bir dövlət olaraq Albaniyaya, onun dövlət başçısı Cavanşirə olan rəğbəti

---

[1] 670-682-ci illərdə Albaniya katalikosu olmuşdur.

Albaniya dövlətinin və onun başçısının nüfuzuna dəlalət edirdi. Beləiklə, ölkədə və Vətəndən uzaqlarda Cavanşirin hörməti və nüfuzu artdıqca Cavanşirin öz təbəələrinə sevgi və qayğısı da artırdı. Bizans imperatoru ilə görüşdən qayıdan Cavanşir xalqının əmin-amanlıqda yaşaması, tikib yaratması üçün əlindən gələni edirdi. Cavanşirin ölkə üçün, xalq üçün etdikləri, onun müasirlərini heyran edən insani keyfiyyətləri barədə söz-söhbətlər ildırım surəti ilə dünyanın hər tərəfinə yayılmaqda idi. M.Kalankatuklunun yazdığına görə, «hətta Hindistan çarı da ondan əmin-amanlıq və dostluq gözləyirdi və Cavanşirə hədiyyə olaraq seçmə atlar, nökər və xadimlər, sürünən heyvanların gönünü göndərdi. Suriyadan, Atrpatakandan, Araratdan, Gürcüstandan və hətta Hindistandan adamlar gəlirdi ki, ona baxıb səsini eşitsinlər. Bütün ölkələrdə onun aglı barəsində söhbətlər gedirdi və onun hər gələnə qarşı məhəbbəti hər bir ölkədə gözəl əfsanəyə çevrilirdi»

Lakin Cavanşirin diplomatik səylərinə baxmayaraq Albaniya ərazilərinin Xilafət ordusu tərəfindən istila olunmasının qarşısını almaq mümkün olmadı. Salman ibn Rəbiənin hərbi dəstələri qısa vaxt ərzində Bərdə, Beyləqan, Uti, Şəki, Qəbələ və Şamaxını ələ keçirərək yerli hakimlərlə sülh sazişi bağladı. Xəlifə Əbu Bəkr (632-634) orduya əmr etmişdi ki, kiçik uşaqları, qocaları, qadınları öldürməyin, meyvə ağaclarını tələf etməyin, yemək üçün lazım olandan başqa qoyun, inək və dəvələri kəsməyin, hücrələrdə dini ayinlə məşğul olan adamları rahat buraxın, sizi qəbul edən hər bir şəhər və xalq ilə müqavilə bağlayın, onlara verdiyiniz vədlərə sadiq olun, qoy onlar biz gələnədək əməl etdikləri qayda və qanunlarla yaşasınlar». Bütün bunlara görə də uzun müddət yadelli zülmündən və istilalardan əziyyət çəkən Albaniya əhalisi ilk vaxtlar ərəbləri bir xilaskar kimi qarşıladı. Xilafət qüvvələri yerli əhalinin müqaviməti olmadan ələ keçirdikləri yerlərdə torpaqları onların torpaq vergisini ödəməsi şərtilə əvvəlki sahiblərinin ixtiyarında saxlayırdılar. Müqavimətlə rastlaşdıqları yerlərdə isə torpaqları yerli əhali və torpaq sahiblərinin cizyə və xərac ödəməsi müqabilində hərbçilər, yaxud da yerli əhali arasında bölüşdürürdülər.

Cavanşir Xilafət ordularının hücumu təhlükəsi qarşısında anlayır ki, Bizansla ittifaq heç bir nəticə verməyəcək, çünki siyasət sahəsində Xilafət Bizansdan güclü çıxmışdı və Bizansın özü torpaqlarını ərəblərdən qorumalı idi. Artıq Xilafət ordusu İran və Suriyada qalibiyyətli yürü°lər apararaq Bizansın Kiçik Asiyadakı tor-

paqlarına yaxınlaşmışdı. Bu zaman Bizans nəinki Albaniyaya kömək edə bilmirdi, hətta imperiyanın paytaxtı yaxınlığındakı vilayətlərini belə öz əlində saxlamaq iqtidarında deyildi. Bizansın zəifləməsi, ərəblərin Qafqaz ölkələrinə qarşı sərt siyasəti, xəzərlərin yürüşü – bütün bunlar Cavanşiri Bizansla müttəfiqliyinə yenidən baxmağa məcbur etdi.

Digər tərəfdən də xəzərlərin qarətçi yürüşləri Albaniyaya davam edirdi. Məsələn, 662-ci ildə xəzərlər yenidən Albaniya ərazilərinə soxulsa da Cavanşir onları məglub edir və xəzərlərin başçısına bu sözləri dedi: «Get və Çola darvazasından geriyə çəkil və bir daha buraya qayıtma»!..» Amma xəzərlər yenə də, cəmi iki ildən sonra yenidən böyük qüvvə ilə Albaniya ərazisinə basqın etdilər. 664-cü ilin dekabrında onların çoxminli atlı qoşunları növbəti dəfə Albaniyaya basqın etdi. Onlar geniş əraziləri çapıb talayaraq Araz sahillərinədək irəliləyib çoxlu qənimət və əsir apardılar. Lakin ölkənin içərilərinə qədər irəliləmiş xəzərlər Cavanşirin yanına elçi göndərərək onunla görüşmək və qardaşlıq münasibətləri qurmaq arzusunda olduğunu bildirdilər. M.Kalankatuklunun yazdığına görə, «bu vaxta qədər heç bir hökmdar Türküstan çarı ilə üzbəüz çıxmağa cəsarət etmirdi, lakin igid və mərd Cavanşir ondan heç qorxmadı. O, cürətlə və mərd ürəklə... bütün əyanları ilə onun yanına getdi. Hun çarı da qayıqla çayın sahilinə gələrək Cavanşirin qabağına çıxdı». Beləliklə, həmin görüşdə alban hökmdarı ilə Xəzər xaqanı dostluq və qardaşlıq sazişi imzaladılar. Cavanşir əsir alınmış əhalinin və mal-mülkünün geri qaytarılması üçün ertəsi günü «On yeddi döyüşçü ilə o, çayın o biri sahilinə keçib hunların düşərgəsinə gəldi və burada çarın qızını aldı, əsarətdən 120 min baş qoyun, 8 min at və öküz qurtardı və 1200 əsir azad etdi» Hökmdarın əmri ilə düşmənin qarət etdiyi mallar öz sahiblərinə qaytarıldı. Albaniya Xəzər xaqanlığının vassallığını qəbul etməli oldu. Lakin yenə də Cavanşir öz diplomatik məharətini işə saldı. Belə ki, o Xəzər xaqanının qızı ilə evlənməklə, xəzərləri də özünə dost və müttəfiq edə bildi.

Xəzərlərlə münasibətləri qaydaya salan Cavanşir ərəblərlə də yaxınlaşmaq siyasətini götürür. Cavanşir xəlifə Müaviyəni Dəməşqdə iki dəfə ziyarət edir. Xəlifə bu görüşlərin hər birində Cavanşiri heç bir canişinə göstərmədiyi böyük hörmətlə qəbul edir. İlk dəfə 667-ci ildə Müaviyə ilə görüşə gedən Cavanşirin məqsədi Xilafətdən bir vassal kimi asılı olmağı qəbul etməklə, Albaniyanı ərəb ordularının qarətindən qorumaq idi. Cavanşir buna nail oldu. Cavanşirin bu

uzaqgörən siyasəti nəticəsində Albaniya uzun sürən müharibə və məhrumiyyətlərdən sonra bir qədər nəfəs almaq imkanı qazandı. Cavanşirin 667-ci ildə Dəməşqə ilk səfərindən sonra alban xalqı xarici hücumlardan, basqın və yürüşlərdən 3 il ərzində qorunmuş oldu.

Cavanşir 670-ci ildə xəlifə Müaviyə ilə ilk görüşündən üç il sonra Ərəb xəlifəsi tərəfindən ikinci dəfə Dəməşqə dəvət edildi. Bu dəfə Cavanşirə Bizans və Ərəb xilafəti arasındakı danışıqlarda vasitəçi rolu oynamaq təklif edilmişdi. Göründüyü kimi, xəlifənin yanında Cavanşirin nüfuzu o qədər güclü idi ki, Müaviyə onun Bizans ilə diplomatik danışıqlarda vasitəçi olmasını istəyirdi. Bizans imperatorunun elçiləri danışıqlar üçün Xilafətin paytaxtına gəlmişdilər və xəlifə yunan elçiliyinin nümyəndələrinə əmr etmişdi ki, Şərq knyazını-Cavanşirin gəlməsini gözləsinlər. Kalankatlı yazırdı ki, xəlifə Cavanşiri elə şan-şöhrətlə qəbul etdi ki, heç bir ölkənin hakiminə belə hörmət göstərilməmişdi.

Diplomatik görüşlər zamanı Cavanşirin danışıqları o qədər yüksək səviyyədə aparır ki, hər iki tərəf danışıqlardan razı qalır. Xəlifə Cavanşirə çoxlu hədiyyələr verərək Sünik knyazlığını onun tabeliyinə verir və ona Atropatenanın da hakimliyini öhdəsinə götürməyi təklif edir. Lakin Cavanşir bundan imtina edir və əvəzində xəlifə tərəfindən ölkəsinə qoyulmuş yüksək vergilərin yüngülləşdirilməsini xahiş edir. Xəlifə bunu razılıqla qarşılayır və Albaniyanın vergilərinin 3/1 həcmdə azaldılmasını əmr edir.

Cavanşir həm Bizans imperiyası, həm də Ərəb xilafətində şahlara layiq hörmətlə qarşılanmışdı. Həm II Konstantin, həm də xəlifə Müaviyənin Cavanşirə göstərdiyi hörmət təkcə Albaniyanın strateji mövqeyi və zəngin təbii ehtiyatları baxımından deyil, həm də Cavanşirin şəxsi keyfiyyətləri ilə bağlı idi. O, VII əsrin görkəmli sərkərdəsi, ağıllı siyasətçisi, incə diplomatı, görkəmli dövlət xadimi idi. Cavanşir Qafqazın tarixinin ən ağır mərhələsində - Bizans-Sasani-Xəzər-Ərəb işğalları dövründə ölkənin müstəqilliyini qoruyub saxlamağı bacarmışdı. Albaniya onun hakimiyyəti dövründə yalnız vergi ödəyirdi. Kalankatlı yazırdı ki, o, dörd işğalçı dövlətin hər birində sayılırdı, hörmət edilirdi və bu hökmdarların heç birindən aşağı deyildi. O, Albaniyanı farsların, bizanslıların, xəzərlərin, ərəblərin qarətindən mühafizə edə bilmişdi. Ərəb xilafəti də, öz növbəsində Cavanşirin nüfuzu ilə hesablaşırdı. Xilafət Albaniyanın strateji movqeyini, həmin sərhədləri Bizans və Xəzər hücumlarına qarşı onun silahlı qüvvələrindən istifadə etmək imkanını nəzərə alıb Albaniyanın

daxili müstəqilliyinə toxunmamışdı. Xilafətdən vassal asılılığında olan Albaniyadan yalnız bac almaqla kifayətlənmişdi.

Alban hökmdarı Cavanşir ölkədə və onun hüdudlarından çox-çox uzaqlarda böyük hörmət və nüfuz sahibi olmuşdu. Cavanşir «Bizansla, xəzərlərlə, ərəblərlə diplomatik münasibətlər qura bilən mahir siyasətçi, bir çox çətin və qeyri-bərabər döyüşlərdə qələbələr qazanan, ölkəsinin ərazi bütövlüyünü və dövlətinin siyasi cəhətdən müstəqilliyini qoruyub-saxlaya bilən, xalqına əmin-amanlıq bəxş etmiş, öz ölkəsində böyük quruculuq işləri görmüş olan görkəmli dövlət xadimi idi. Lakin 680-ci ilin qızmar yay günlərindən birində Xaçqaldırma bayramı[1] ərəfəsində Cavanşir 64 yaşında sui-qəsd nəticəsində öldürüldü. Qatil Varazo adlı birisi olub Cavanşirin saray xidmətçilərindən idi. Cavanşirin qardaşı oğlu knyazın şəxsi gözətçilərindən 50 atlı götürərək qatili təqib etsə də, onu ələ keçirə bilmədi. Bir neçə gün agır yaralı yatan Cavanşir ölümqabagı oğullarını çağıraraq hər birinin xəzinə payını və rütbələrini təyin etdi, hər birinə malikanə ayırdı və vəfat etdi.

Alban hökmdarının xaincəsinə qətlə yetirilməsini Cavanşirin hərbi-siyasi uğurlarını böyük qısqanclıqla qarşılayan qonşu dövlətlərin və ya onun güclü mərkəzi hakimiyyətindən narazı olan yerli feodalların təşkil etməsi ehtimalları var. Lakin hökmdarın qətlə yetirilməsindən sonra Albaniyada ümummilli matəmin olması yerli feodallar arasında hakimiyyət uğrunda mübarizənin olmaması əslində Cavanşirin qatilinin xarici dövlətlərdən hansınınsa sifarişini yerinə yetirməsi ehtimalı gücləndirir. Çünki Albaniya hökmdarının hərbi-siyasi uğurları onlar tərəfindən böyük qısqanclıqla qarşılanmaqda idi.

Cavanşirin öldürülməsindən əsrlər ötsə də, Cavanşir xalqımızın yaddaşında qəhrəmanlıq simvolu olaraq yaşamaqdadır. Görkəmli dövlət xadimi, bacarıqlı diplomat və cəsur sərkərdə olan Cavanşir 33 il ərzində Albaniya dövlətinə başçılıq etmişdir. Onun hərbi, siyasi və diplomatiya sahəsindəki misilsiz xidmətləri olmuşdur. O,cəsur sərkərdə, görkəmli dövlət xadimi, mahir diplomat və ən nəhayət, vətənini və xalqını ürəkdən sevən böyük bir insan olmuşdur. Cavanir Albaniya dövlətini yetərincə qüdrətli bir dövlətə çevirdikdən sonra onu müstəqil etmək niyyətində idi. Cavanşirin hünər və xidmətləri Azərbaycanın dövlət müstəqilliyi uğrunda mübarizə tarixinin ən erkən səhifələrindən biridir. Cavanşirin Albaniya dövlətçiliyinin

[1] Bu, təqribən 680-ci ilin 16 sentyabrına düşür.

qorunması və daha da qüdrətlənməsi sahəsindəki xidmətləri olan, Bizansla, xəzərlərlə və Xilafətlə münasibətləri tənzimləməyi bacaran, mahir diplomat, dağıntılar içərisində olan ölkəni quran və bərpa edən görkəmli dövlət xadimi olmuşdur.

Cavanşir hakimiyyəti dövründə ölkənin nəinki maddi mədəniyyəti, həm də mənəvi mədəniyyətinin yüksək inkişaf səviyyəsinə çatmasına nail olmuşdur. Məhz Cavanşirin hakimiyyəti illərində və bilavasitə onun göstərişi ilə M.Kalankatuklu «Albaniya tarixi» əsəri yazılmışdır. Girdiman qalasında Cavanşirin şəxsi təşəbbüsü ilə zəmanəsinin ən təmtəraqlı məbədlərindən biri ucaldılmışdır. Mehranilərin sarayında yaşayan və M.Kalankatuklunun məlumatına görə, görkəmli filosof, gözəl natiq və ustad şair kimi tanınan Dəvdək Cavanşirin ölümü ilə əlaqədar 140 misralıq qəsidə yazdı. Alban tarixçisi «Böyük hökmdar Cavanşirin ölümünə ağı» adlanan həmin qəsidəni də öz əsərinin ikinci kitabına daxil etmişdir.

Cavanşir öldürüləndən sonra Albaniyanın bütün zadəgan nəsillərinin nümayəndələri ölkənin hər yerindən paytaxt şəhər Bərdəyə toplaşdılar. Saray əyanları Alban katolikosunun hüzurunda Cavanşirin qardaşı Varaz-Perozun oğlu Varaz Tridatı ali knyaz taxtına varis olaraq seçdilər. Varaz Tridat Bizans imperatorundan patrisi titulu aldı. Eyni zamanda Xəlifə I Yezid (680-683) Varaz Tridatı (680-699) "Şərq vilayətlərinin canişini, Alban padşahlığı və Uti əyalətinin hökmdarı " kimi tanıdı. Ölkə ərəblərə xərac verməkdə davam edirdi. Lakin Cavanşirin öldürülməsindən qəzəblənən Xəzər xaqanlığı Cavanşirin ölümünün intiqamını almaq bəhanəsilə Alp-İlitvererin komandanlığı altında Albaniyaya böyük ordu göndərir. Xəzərlər 684-cü ildə Albaniyaya hücum edərək Girdiman ərazilərini, o cümlədən Qəbələni viran etdilər. Xəzərlər Albaniyaya soxularaq Kür sahili boyunca Uti vilayətinə qədər gedərək bu əraziləri qarət etdilər və oradan qayıdandan sonra Lpina vilayətindəki düzənliklərdə düşərgə qurdular. Cavanşirin siyasətini davam etdirən Varaz Tridat xəzərlərə diplomatik yolla təsir etməyə çalışır. Varaz Tiridat onlarla hərbi əməliyyatlara girməkdən çəkinərək danışıqlara üstünlük verdi. O, Albaniyanı xəzərlərin yeni basqınlarından xilas etmək üçün xaqanla danışığa mötəbər bir adam göndərmək qərarına gəlir. Bu məqsədlə yepiskop İsraeli xəzərlərin düşərgəsinə göndərdi. Katolikos xaqanın ürəyini yumşalda bilir və ondan "sülh və pozulmaz dostluq" andını almağa nail olur Aparılan danışıqların nəticəsi olaraq xəzərlərlə Albaniya arasında sülh sazişi bağlandı.

Albaniyada hərc-mərcliyi sakitləşdirən Varaz Tridat onun ərazilərində əvvəlki ali knayz hakimiyyətini bərpa edə bildi. Lakin xaqanla bağlanmış sülh və dostluq sazişi qısamüddətli olur. I Varaz Tridat bir tərəfdən Ərəb xilafətinin Albaniyaya qoyduğu vergilər, digər tərəfdən isə xəzərlərin hər il ölkəyə etdiyi basqınlar nəticəsində ikitərəfli talana məruz qalırdı. Belə olduqda Varaz Tridat yenidən Alban knyazları və katolikosunun iştirakı ilə məşvərət keçirir. Bu dəfə yepiskopun başçılığı ilə Xəzər xaqanlığına göndərilən elçilərin xəzərlərə albanların qəbul etdiyi xristian təriqətini təlqin etmək qərara alınır. Beləliklə, Varaz Tridat xəzərlər arasında xristianlğı yaymaq üçün onların düşərgəsinə alban yepiskopunu göndərir. Bu missiya müvəffəqiyyətlə nəticələnir. Mənbələrdə yazıldığına görə, xəzərlər elçiləri böyük ehtiramla qarşılayır və alban yepiskopunun dini təbliğatı nəticəsində xəzərlərin bir hissəsi xristianlığı qəbul edir. Xəzər xaqanı Alp İlitverin başçılığı ilə xəzərlərin böyük bir hissəsi xristianlığı qəbul edir. Alp İlitverin öz əyanları vasitəsilə I Varaz Tridata göndərdiyi məktubunda deyilir ki, ancaq alban yepiskopu xəzərlərin yanında qalarsa "bizim vəhşi xalqların sizin ölkənizə basqanları kəsiləcəkdir". Lakin nə Alban hökmdarı və nə də alban katolikosu yepiskopun orada qalmasına razılıq vermirlər, yalnız onun Albaniya ilə xaqanlıq arasında vasitəçi rolunu oynamasına razılıq verirlər.

Bu siyasət belə Albaniyanı növbəti xəzər basqınlarından qoruya bilmədi. Albanlarla xəzərlər arasında sülh qısamüddətli oldu. Ərəb xilafətində gedən hakimiyyət çəkişmələri səbəbindən (xilafətdə xəifə Müaviyədən sonra hakimiyyət uğrunda mübarizə gedirdi) ərəblərin şimal ölkələri üzərindəki nəzarətinin zəifləməsindən istifadə edən xəzərlər albanlarla eyni dindən olduqlarını belə unudub 685-ci ildə yenidən Albaniyaya yürüş etdilər, ölkəni dağıdaraq qənimətlər və girovlarla öz torpaqlarına döndülər.

Bu zaman Xilafətdə hakimiyyət uğrunda çəkişmələr gedirdi. Bu çəkişmələrin sonunda 685-ci ildə hakimiyyətə xəlifə Əbd-əl-Malik (685-705) gəlir. Xəlifə Əbd-əl-Malik həmin il Bizans imperatoru II Yustinianla sülh müqaviləsi (685-695; 705-711) imzalayır. Bağlanmış müqaviləyə əsasən Qafqazdan, o cümlədən Albaniyadan gələn vergi Ərəb xilafəti və Bizans arasında bərabər bölünməyə başladı. Qafqaz hər iki qüdrətli rəqibin nüfuz dairəsinə çevrildi.

689-690-cı illərdə II Yustinian Qafqaza növbəti hücum edir. İmperator buradakı bütün knyazları öz hüzuruna çağıraraq bəzilərini

cəzalandırsa da, Albaniya hökmdarı Varaz Tridata yüksək rütbə - “şahdan sonra II işxan” rütbəsi verir. Kalankatlı yazırdı ki, Albaniya bu dövrdə ərəblərə, xəzərlərə, Bizansa vergi ödəməkdə davam edirdi. Beləliklə, Əbd-əl-malik və II Yustian arasında bağlanan saziş nəticəsində Albaniya“ üç ölkəyə: Xəzər xaqanlığına, Ərəb xilafətinə və Bizansa bac ödəyirdi.

I Varaz Tridat xəzərlərlə münasibəti qaydaya saldıqdan sonra Bizansa ödədiyi son dərəcə ağır vergini daha ödəmək istəmədiyi üçün 699-cu ildə Bizansla münasibətləri gərginləşir. Alban hökmdarı iki oğlu ilə birlikdə Konstantinopolda zindana salınır. II Yustunian onları Xilafətlə yaxınlaşmaqda və Bizansla əlaqələri kəsməkdə günahlandıraraq 5 il boyu 704-cü ilədək Konstantinopolda girov saxlayır.

Varaz Tridatın yoxluğunda Albaniyada ölkə üçün ağır nəticələr verən bir sıra hadisələr baş verdi. 688-ci ildə Alban katolikosu Yelizarın ölümündən sonra katolikos taxtı boş qalmışdı. Girdman yepiskopu Bakur-Nerses Alban patriarxı seçilir. Mənbələrin verdiyi məlumata görə, xalkedon dini təliminin ardınca gedən Girdman yepiskopu Bakur-Nerses I Varaz Tridatın xanımı Spramanı yola gətirərək “özünün Alban patriarxlığına dəvət olunmasına“ nail olmuşdu. Alban katolikosu Bakur xalkidon təliminin tərəfdarı, yəni Bazans meyilli din xadimi idi. O, Varaz Tridatın xanımını da bizanspərəst dini siyasətə meyilləndirir. Varaz Triadat və oğlanları Bizansda girov olaraq saxlandığı üçün, görünür, Varaz Tridatın xanımı Sprama Bizansla din birliyi yolu ilə öz ailəsinin oğlanları və ərinin girovdan azad olacağına ümid bəsləyirdi. Lakin qriqoryan kilsəsinin katolikosu İlya buna mane olmaq və rəqib kilsə saydıqları Alban kilsəsinin nüfuzunu zəiflətmək üçün xəlifə Əbd-əl Malikə məktub göndərib Alban katolikosunun bizansmeyilli siyasət apardığını və bu işdə Varaz Tridatın xanımının da ona kömək etdiyini xəbər verir.

Bakur və Spramanın Albaniyanı Bizansla eyni dini təriqətdə birləşdirməyə çağıran fəaliyyətindən xəbər tutan xəlifə Əbd-əl Malik Albaniyaya qoşun göndərir. Xəlifə qriqoryan kilsəsinin katolikosuna Bərdədə yığıncaq keçirməsini əmr edir. Bakur və Sprama cəzalandırılır. Bu yığıncaqda Bakur xəlifə nümayəndəsinin hüzurunda mürtəd elan olunur. Knyaz arvadı Sprama isə zindana salınır. Xəlifə “əgər alban knyazlarından biri diofizit olarsa, onun məhv edilməsini əmr edir. Çünki ərəblər də sasanilər kimi Mərkəzi Qafqaz ölkələrində Qafqaz xalqlarını Bizansdan ayırmaq siyasətini yürüdürdülər. Bu

məqsədlə onlar bu ölkələrin xristian əhalisi arasında Bizansla əks mövqedə olan monofizit təriqətini dəstəkləyirdilər. Çünki Bizansda xristianlığın diofizit qolu-xalkedonluq mövcud idi.

699-704-cü ildə Albaniyada hakimiyyətə xalkedonçuluğun qatı düşməni olan ərəb meyilli Şəruye gətirilir. Lakin o da hakimiyyətdə çox qala bilmədi. Kalankatlı yazırdı ki, 704-cü ildə ərəb cəza dəstələri knyaz Şeruyeni və onun yaxınlarını ərəblər onu Suriyaya - Dəməşqə göndərdilər.

705-ci ildə Yustinian Varaz Tridatı azad edir. Konstantinopoldan Albaniyaya dönən Varaz Tridat ərəblərin tam hakimiyyətini qəbul edir. Bu dövrdən etibarən Albaniya həm faktiki, həm də hüquqi cəhətdən ərəb əsarəti altına düşür. Varaz Tridatdan sonra Albaniyanı ərəb əmirləri idarə etməyə başalyır. Knyaz və katolikos isə ərəb canişinlərinin yanında bir növ məşvərətçi oldular. Onlar artıq müstəqil heç bir qərar qəbul edə bilmirdilər.

**Albaniyada sosial-iqtisadi münasibətlər. Sosial təbəqələr.** Albaniyada hakim siniflər fedallardan və ruhanilərdən ibarət idi. Albaniyada əsilzadələr (azatlar), hərbi adamlar, atlılar, kimi təbəqələr sosial təbəqlər var idi. Albaniya feodallarının əsas torpaq sahəsi °əxsi mülk torpağı idi və feodal mülkləri irsi idi. Mülk torpağı nəslin böyüyünə onun bölünməz tam mülkiyyəti olmaq şərtilə keçirdi. Belə mülk torpaqları kəndli icma torpaqlarını ələ keçirmək və ya uğurlu müharibələr zamanı yeni torpaqlar əldə etməklə arta bilirdi. Yeni torpaqlar müxtəlif hüquqi əsas və normalara görə feodalların ixtiyarına keçirdi.

Albaniyanın ən böyük mülkü hökmdara və ya knyazlar knyazına (ali knyaz) aid idi. Albaniyada feodal iyerarxiyası mövcud idi. Bütün ölkənin sahibi olan Albaniya çarı feodal iyerarxiyasının başında dururdu. Albaniya azatları alban çarının vassalları idi. Azatlar hərbi qulluğa görə alban çarından torpaq mülkiyyəti alırdılar. Azatlar ruhanilər kimi can vergisindən azad idilər. İyerarxiya qaydaları, ölkənin ictimai-siyasi həyatında hər bir azad patronomiyasının mövqeyi "dərəcə fərmanına" görə müəyyənləşdirilirdi. Hər patronomiya iqtisadi qüdrəti və siyasəti vəziyyəti, müharibədə meydana cıxara biləcəyi hərbi qüvvəsinin kəmiyyətinə görə dərəcələnirdi. İlk on patronomiya böyük, qalanları isə kiçik sayılırdı. Hər bir knyaz (azat) öz feodal mülkünün padşahı olub öz sarayı və qoşununa malik olurdu. Qoşun knyaza tabe olan əhalidən toplanırdı.

Knyaz ona verilən mülk üçün yalnız şaha vergi verirdi. Bu vergi isə knyaza tabe olan kəndlilərdən yığılırdı.

Albaniyada “hərbi adam” və “atlı“ adlanan hərbiçi təbəqəsi müharibə zamanı feodalın ordusunda muzdla xidmət edən və padşah qoşununun özəyini təşkil edən təbəqə idi. Əmin-amanılq dövründə bu təbəqə heç bir yerdən maaş almadığı üçün ancaq qənimət və qarətlə dolanırdı. Mənbələrdə Albaniyada “ənşəhrik” və “bəndək” adlanan qul və kənizlərin olduğu da yazılırdı.

Çar və ya böyük knyaz həm də Alban qoşunlarının da Baş komandanı idi. Alban qoşunu hökmdarın vassalları olan azat patronomiyalarının hərbi dəstələrindən formalaşdırılırdı. Belə formalaşdırılmış alban ordusundan başqa hökmdarın özünün daim yanında olan şəxsi hərbi dəstəsi də olurdu.

Çardan sonra ən böyük torpaq sahibi Alban kilsəsi di. Kilsə torpaqları monastr və iri ruhani zadəganların bölünməz və irsi mülkiyyəti idi. Kilsə torpaqları adətən – padşahın, knyazların, feodalların və onların ailə üzvlərinin nəzir və ianələri hesabına, bəzən də ayrı-ayrı varlı kəndlilərin hesabına, kəndli icma torpaqlarının satın alınması və ya tutulması hesabına genişlənirdi. Ruhanilər natural vergilər hesabına yaşayırdılar. V əsrdən etibarən kilsənin onda biri vergisi tətbiq edilirdi. III Vaçaqanın hakimiyyəti dövründə Aquen kilsə məclisində qəbul edilmiş kilsə qaydalarına görə imkanı olan 4 vahid buğda, 6 vahid arpa, 16 kuzə şərab, yoxsullar isə imkanı çatdığı qədər çaxır və yarım kömbə çörək vergi olaraq ödəməli idi. Öz ruhunu şad etmək üçün maldarlıqla məşgul olan kəndlilər əgər qoyun saxlayırdılarsa bir qoyun, 3 qoyunun yunu, bir baş pendir vergi olaraq kilsəyə odəməli idilər. Atı olanlar isə bir dayça, iri mal-qarası olanlar bir buzov olaraq vergi verirdilər. Bundan əlavə hər bir adam öz ölənlərinin ruhuna hörmət üçün hər il imkanı daxilində kilsəyə pay gətirməli idi. Əgər mərhumun sağlığında atı olmuşsa, kilsəyə at verilməlidir, əgər qaramalı olmuşsa kilsəyə ölənin ruhunun xatirinə buzov pay verməli idilər. Əsilzadələr, yəni azatlar və padşah ailəsinin üzvü olanlar öz ruhunu şad etmək xatirinə kilsəyə yəhərli - yüyənli at verməli idilər. Əgər hər kimsə öz sağlığında bunu etməmişdisə, ölləndən sonra onun ailəsi bunu vergi olaraq ödəmək məcburiyyətində idi. Qeyd etmək lazımdır ki, Azərbaycan mərasim və dini ayinlərində at böyük rol oynayırdı. Qafqaz Albaniyasında xristianlığın qəbulundan öncə də xalqın inanclar sisteminə at xüsusi yer tuturdu.

Buna görə də kilsələr məcburi nəzir olaraq at əldə etməyə daha çox can atırdılar.

Sasanilər imperiyanın vassalı olduğu müddətdə isə Albaniyada inzibati, məhkəmə və hərbi hakimiyyət mərzbanların əlində cəmləşmişdi. Sasani mərzbanları ölkədən xərac (torpaq vergisi), gizit(can) vergisi və bac alırdılar. Can vergisini əyanlar və ruhani və hərbiçilər də daxil olmaqla 20-50 yaşarası bütün əhali ödəməli idi **.**

Ərəb xilafətinin asılığında olduğu dövrdə isə kəndlilərin ödəyəcəyi əsas vergilərdən biri "tüstü pulu" vergisi idi. Kəndlilər bu vergini azaltmaq üçün böyük ailələr şəklində yaşayırdılar. Belə olduqda ərəblər "tüstü pulu"nu "can vergisi" ilə əvəz etdilər. Bir tərəfdən də yerli feodallar vergiləri artırırdılar. Belə vəziyyət xalq kütlələrinin iri torpaq sahibkarlarına və ali ruhani silkinə qarşı etiraz dalğalarını gücləndirmişdi.

### *5.4. Albaniya dövlətində xarici işğalçılara qarşı mübarizə*

Azərbaycan ərazisi bütün tarixi dövrlərdə, ö cümlədən Albaniya dövlətinin mövcudluğu müddətində çoxsaylı hərbi toqquşmalar meydanı olub. Qərbdən Roma, Bizans orduları, cənubdan Sasanilər və ərəblər, şimaldan isə köçəri xalqlar zaman-zaman bu yerlərə basqın və yürüşlər edərək qətl və qarətlər törətmişlər. Xüsusilə, Xəzərlərin timsalında Şimaldan olan basqın və yürüşlər daha amansız olmuşdur. Bu şəraitdə Albaniya çox vaxt gah bir, gah da digər güclü qonşudan siyasi və iqtisadi asılılığa düşürdü.

**Sasanilərə qarşı mübarizə.** III-V əsrlərdə Ön Asiyada, o cümlədən Cənubi Qafqazda hökmranlıq uğrunda Roma ilə Sasanilər arasında mübarizə gedirdi. Sasanilər 227-ci ildə Azərbaycanın cənub torpaqlarını - Atropatenanı Sasani dövlətinin tərkibinə daxil etsə də Albaniya bir müddət öz müstəqilliyini qorumağı bacarmışdı. Bu zaman Albaniya hökmdarı I Vaçe Roma ilə ittifaqda idi. Lakin Sasani şahı I Şapur 260-cı ildə Roma imperatoru Valerianı məğlub edərək əsir aldıqdan sonra Albaniya 262-ci ildə Sasanilərdən asılı vəziyyətə düşdü.[1] Lakin Şapurun ölümündən sonra (272-ci ildə)

---

[1] I Şapur (241-272) 262-ci ildə Nəqşi-Rüstəmdəki məbədin divarında bu məlumatı həkk etdirmişdi.

Albaniya yenidən müstəqil xarici siyasət yeritməyə başladı və Roma imperatoru Avrelianla (270-275) yaxınlaşdı.

Albaniya bir müddət öz daxili müstəqilliyini qoruyub-saxlaya bilsə də, Alban hökmdarı Urnayrın dövründən Albaniya yenidən Sasanilərin təsir dairəsinə düşərək II Şapurun vassalı və müttəfiqinə çevrildi. 359-cu ildə Amid döyüşündən sonra Sasanilərin Romanı məğlubiyyətə uğratması ilə II Şapur xristianlara qarşı təqibi gücləndirdi. 387-ci ildə Sasanilər və Roma arasında sülh bağlandı. Sülh müqaviləsinin şərtlərinə görə Albaniya Sasanilərin nüfuz dairəsinə aid edildi.

Lakin İran şahları Albaniyanın mühüm starteji əhəmiyyətini nəzərə alaraq bu ölkənin dövlətçiliyini, onun daxili müstəqilliyini I-VI əsrlər boyu saxlamaq məcburiyyətində idilər. Qafqaz Albaniyası mühüm strateji əhəmiyyət daşıyırdı və Sasani imperiyasına gedən yolları həm şimalda xəzərlərdən, həm də qərbdə Bizansdan qoruyurdu. Albaniyanın strateji mövqedə yerləşməsi, xüsusilə də, Dərbənd şəhərindən Beşbarmaq dağına qədər ərazidə Çola vilayətində "Dəmir qapı və yaxud "Alban qapıları" adlanan keçidin şimal xalqlarının hücumlarına qarşı etibarlı müdafiə səddi kimi qorunmasına ehtiyacı olduğundan, həmçinin Albaniyanın mühüm ticarət yollarının üzərində yerləşməsi Sasani şahlarını Alban hökmdarları ilə müttəfiqlik münasibəti qurmağa məcbur edirdi.

V əsrin ortalarından etibarən isə Albaniyanın müstəqil daxili siyasət yürütməsi, bəzən hətta xarici siyasətdə də müstəqil hərəkət edə bilməsi, mərkəzi hakimiyyəti gücləndirməyə can atan Sasani imperiyasını narahat edirdi. Sasanilər qəti addım atmaq, Albaniyanı öz əyalətlərinə çevirərək müstəqilliyinə birdəfəlik son qoymaq qərarına gəlirlər. Şimali Qafqazdan köçəri tayfaların axınlarının güclənməsi, həm də Bizans imperiyasının başının Atilla ilə müharibəyə və kilsə problemlərinə qarışmasından istifadə edən II Yezdigerd, ilk növbədə Albaniyanın hərbi gücünü zəiflətmək üçün buradakı bütün döyüşçü qüvvəsini ölkənin şimal-şərq sərhəddinə hunlarla mübarəzəyə yönəltdi. Bununla da ölkənin müqavimət gücünü azaltdı. Sasani hökmdarı vergi siyasətində də dəyişiklər etdi. Ölkə əhalisi arasında ümumi siyahıyaalma aparıldı və vergilər xeyli artırıldı. Artıq təkcə kəndlilər deyil, şəhər əhalisi və əvvəllər xüssusi imtiyaza malik olan ruhani təbəqəsi də vergi ödəməyə cəlb edilidi. Buna qədər ruhanilər yüksək feodal təbəqəsi olan azatlara bərabər tutulurdular və yalnız torpaq vergisi ödəyirlər. Əkilib-əkilməməsindən asılı olma-

yaraq bütün torpaqlardan vergi alınmağa başlamışdı. Bundan başqa Kalankatlının da yazdığı kimi, Sasani şahının Qafqaz dağları ilə böyük Şərq dənizi (Xəzər) arasında böyük müdafiə qurğusu üçün apardığı tikinti -Xəzərin qərb sahilində 5 istiqamətdə aparılan möhtəşəm müdafiə qurğusunun bütün ağırlığı alban əhalisinin üzərinə düşmüşdü. Alban müəllifi bu tikintinin ölkəni çox yorduğunu yazırdı. Sasanilər həm də Albaniyanın dini assimilyasiyasına can atırdılar. Burada aparılan dini siyasətin məqsədi mərkəzi hakimiyyətin gücləndirilməsinə xidmət edirdi. Müqavimət göstərməkdə dirənən alban xalqının tamamilə ram edilməsi və Bizansdan uzaqlaşdırılmasına yönəldilmişdi.

Sasani şahlarının ağır vergi və köçürmə siyasəti, atəşpərəstliyin zorla yayılması da əhalinin narazılığını gücləndirirdi. Hakim təbəqələr vergi siyasətindən öz şəxsi sərvətlərini artırmaq üçün istifadə edirdilər. Sasanilərin köçürmə siyasətində isə iki əsas məqsəd var idi: 1. etnik dayaq yaratmaq; 2. torpaqsız İran kəndlilərini torpaqla təmin etmək

V əsrin ortalarından etibarən II Yezdigerdin gördüyü bütün bu tədbirlər – iqtisadi-siyasi təzyiq, dini-mədəni assimilyasiya, xristianlığın ləğv edilməsi cəhdi (Qafqazda zərdüştlüyü tətbiq etmək üçün 700 maq göndərilmişdi, Onun 300-ü albanların dinindən döndərilməsi üçün nəzərdə tutlmuşdu) ölkədə anti-iran hərəkatına təkan verdi. Bu dövrdən etibarən Albaniyada Sasani hakimiyyətinə qarşı etirazlar dalğaları xüsusilə geniş vüsət aldı. Alban hökmdarı II Vaçenin hakimiyyəti dövründə 450-451, 457-463-cü illərdə Sasani imperiyasına qarşı güclü üsyanlar baş verdi.

**450-451-ci illərdə baş verən üsyan.** Albaniyada 450-451-ci illərdə baş verən üsyan çox ağır şərtlər altında gedirdi. Belə ki, Albaniyanın Çola vilayətində və Paytakaran şəhərində Sasanilərin böyük hərbi qüvvəsi yerləşdirilmişdi. Sasanilər bu qüvvələrin köməyilə Qafqazdakı üsyanı yatırmaq niyyətində idilər. Bu üsyana Alban katolikosu başçılıq edirdi. Alban çarı II Vaçe isə üsyançılara dəstək verə bilmirdi. Çünki Sasani hökmdarı II Yezdigerdin tərəfindən saraya çağırılan II Vaçe burada girov olaraq saxlanılmış və zərdüştlüyü qəbul etməyə məcbur edilmişdi.

450-ci ildə Xalxal yaxınlığında, əsasən, xristianlardan ibarət olan üsyançılar Sasaniləri məğlubiyyətə uğratdılar. Qalibiyyətdən ruhlanan alban qoşunları Sasanilərin tutduğu bütün alban qala və şəhərlərini bir-birinin ardınca azad edərək «Hun qapıları"nadək olan

ərazilǝri Sasanilǝrdǝn tǝmizlǝdilǝr. Burada II Yezdigerdin tikdirdiyi qalanı dağıdaraq Sasani qarnizonunu mǝğlub etdilǝr. Qalaya Alban nǝsli ǝyanlarından birini başçı olaraq qoydular vǝ ona Hunlar ölkǝsinǝ vǝ digǝr Şimali Qafqaz torpaqlarına gedǝrǝk Sasanilǝrǝ qarşı müttǝfiq toplamaq hǝvalǝ edildi. Hunlarla ittifaq bağlandı. Bu zaman II Yezdigerd Orta Asiyadan Ktesifona mǝğlub olaraq geri dönmüşdü. O, Qafqazda baş verǝn üsyanı yatırmaq üçün bu bölgǝyǝ böyük ordu göndǝrdi. 451-ci ildǝ Artaz bölgǝsindǝ müasir Maku vǝ Xoy arasındakı ǝrazidǝ Avarayr düzündǝ baş verǝn döyüşdǝ Sasanilǝr üsyançıları mǝğlub etdilǝr.

Lakin üsyanın yatırılmasına baxmayaraq albanlar arasında etiraz dalgaları daha da güclǝnmǝkdǝ idi. Çünki II Yezdigerd 450-451-ci il üsyanından sonra heç bir güzǝştǝ getmǝdi. Nǝticǝdǝ 457-ci ildǝ yeni üsyan başlandı.

**457-463-cü illǝr üsyanı.** Albaniya hökmdarı II Vaçe 457-ci ildǝ dayısı olan Sasani şahı II Yezdǝgerdin vǝfatından sonra zǝrdüştilikdǝn imtina edǝrǝk xristianlığı qǝbul etdi vǝ müstǝqil siyasǝt yeridǝrǝk Sasani tabeliyindǝn çıxdı. II Vaçenin mǝcburi qǝbul etdiyi zǝrdüştlükdǝn imtina etmǝsilǝ üsyan başlanmış oldu. II Vaçe Qafqazın 11 yerli hakimi ilǝ birlikdǝ yeni Sasani şahı Firuzun (Peroz) hakimiyyǝtini tanımadı. II Yezdigerdin ölümündǝn sonra İrandakı hakimiyyǝt çǝkişmǝlǝrindǝn istifadǝ edǝn Alban çarı II Vaçe bu dǝfǝ üsyana özü rǝhbǝrlik etdi. Albaniyada 457-463-cü illǝrdǝki anti-iran hǝrǝkatının genişlǝnmǝsinin sǝbǝbi Sasani imperiyasının Albaniyadakı iqtisadi-siyasi ideoloji siyasǝtinǝ qarşı xalq etirazı idi. 459-cu ildǝ alban üsyançıları Çolanı tutdu vǝ Qafqazın digǝr xalqları ilǝ ittifaq bağlayaraq 2 il boyu Albaniyada Sasanilǝrǝ qarşı qalibiyyǝtli hǝrbi ǝmǝliyyatlar keçirdilǝr. Sasanilǝr dǝfǝlǝrlǝ II Vaçe ilǝ danışıqlara cǝhd göstǝrsǝlǝr dǝ danışıqlar baş tutmadı. 459-cu ildǝ İranda hakimiyyǝtǝ gǝlmiş Firuz (Peroz) (459-484) Hun-Onoqur tayfaları ilǝ albanlara qarşı ittifaq bağladı. Hun-Onoqur tayfaları Dǝryal keçidindǝki Alban darvazalarından Albaniyaya soxuldular vǝ 462-ci ildǝn albanlarla uzun sürǝn döyüşlǝrǝ başladılar. Kalankatklının da yazdığı kimi, bir il boyu alban çarı II Vace ilǝ mübarizǝ aparan onoqurlar albanlara qalib gǝlǝ bilmǝdilǝr. Albaniyada 457-ci ildǝ başlayan üsyan yalnız 463-cü ildǝ yatırıla bildi.

II Vaçe hakimiyyǝtdǝn imtina etdi. Albaniyada çarlıq lǝğv edildi. Ölkǝni Sasani çanişinlǝri-mǝrzbanlar idarǝ etmǝyǝ başladı.

Alban tarixçisi Musa Kalankatlının yazdığı kimi, II Vaçedən sonra Albaniya 30 il hökmdarsız qaldı.

Perozun hakimiyyəti dövründə Sasani imperiyasında onsuz da ağır olan siyasi-iqtisadi vəziyyət quraqlıq, müharibələrlə daha da ağırlaşmışdı. Nəticədə Albaniyada etiraz dalğaları daha da gücləndi. Perozun müharibələrdəki müvəffəqiyyətsizliyi, albanlara qarşı sərt siyasəti, Alban əsilzadələrinin irsi imtiyazlarının pozulması, dini təqiblər – bütün bunlar Albaniyada yeni üsyana yol açdı. Perozun müharibədə öldürülməsindən sonra Sasani imperiyasında sabitlik pozulmuşdu. 484-cü ildə Sasani imperiyasında hakimiyyətə Valarş gəlir. Valarş İrandakı ağır iqtisadi vəziyyət və maharibələrin viran qoyduğu təsərrüfat həyatını yenidən dirçəltməyə çalışırdı. Ölkədəki ağır iqtisadi vəziyyət Sasaniləri Mərkəzi Qafqazdakı dini təqib siyasətinə son qoymağa və Qafqaz xalqları ilə sülh bağlamağa məcbur etdi. Albanlarla üsyançıların şərtləri nəzərə alınmaqla razılıq əldə edildi. Albanlar əhəmiyyətli güzəştlər əldə etdilər. Ölkədə yenidən çarlıq sistemi-Arşakilər sülaləsinin hakimiyyəti bərpa edildi. Alban çarına ölkənin daxili idarə edilməsində müstəqillik, dini inam azadlığı verildi, alban ali təbəqəsinin imtiyazları, iyerararxiya prinsipləri bərpa edildi. Sasanilər zərdüştlüyü zorla yaymamaq, xristianlar da, öz növbəsində atəşpərəslər arasında xristianlığı təbliğ etməmək barədə razılaşdılar. Albaniyadakı vergilər də azaldıldı.

Lakin 510-ci ildə III Vaçaqanın ölümü ilə Alban Arşaki sülaləsinin hakimiyyəti başa çatdı və ölkə yenidən Sasani mərzbanları tərəfindən idarə olunmağa başladı. Belə ki, VI əsrdə İranda vəziyyət sabitləşən kimi Sasanilər Albaniyada çar sülaləsini yenidən ləğv etdilər.

Beləliklə, Alban hökmdarları Albaniyanı, müəyyən fasilələrlə də olsa 510-cu ilə qədər müstəqil idarə etmişlər. Albaniya bu dövrdə müəyyən dərəcədə öz siyasi mütəqilliyni də qorumağı bacarmışdı. Bizans və Sasani imperiyalarından coğrafi cəhətdən uzaq olması Albaniyaya strateji cəhətdən çox əhəmiyyətli olan Dərbənd keçidini nəzarətdə saxlamağa imkan vermişdi. Bu ona siyasi müstəqilliyini qorumağa imkan vermişdi. Çünki Sasanilər öz imperiya torpaqlarını şimaldan axın edən köçəri tayfalardan qoruyacaq bufer ərazinin olmasında maraqlı idilər. Buna görə də Sasanilər Alban çar sülaləsi olan Arşakilərlə müttəfiq münasibətləri saxlayırdılar və bu ittifaqı nikahlarla daha da gücləndirirdilər.

510-cu ildən isə Albaniyada Sasani mərzbanlığı (510-629) dövrü başlandı. VI əsrdə Sasani hökmdarı I Xosrov Ənuşirəvanın (531-579) apardığı inzibati islahatlar nəticəsində Sasani imperiyası 4 mərzbanlığa (kust) bölündü. Bütün Qafqaz, o cümlədən Albaniya, Atropatena ilə birgə Adurbadaqan (Azərbaycan) adlanan şimal inzibati bölgüsünə aid edildi. Tədricən Albaniya həm siyasi və coğrafi anlayış kimi Azərbaycan adlanmağa başlayır.

Beləliklə, VI əsrin sonunda Azərbaycanın həm cənub torpaqları, həm də mənbələrdə Arran, Albaniya adları ilə bilinən şimal torpaqları Sasani imperiyasının 4 inzibati vahidindən biri olan Şimal canişinliyini təşkil edirdi.

Sasanilər imperiyanın tərkibinə daxil olan ölkələrdə olduğu kimi bu dövrdə Albaniyada da mərzbanlardan canişin təyin edirdilər və bütün inzibati, məhkəmə və hərbi hakimiyyət onların əlində olurdu. Sasani mərzbanları ölkədən xərac(torpaq vergisi), gizit(can) vergisi və bac alırdılar. Can vergisini əyanlar və ruhani və hərbi adamlarla bərabər 20-50 yaş arası bütün əhali ödəməli idi.

**Xəzərlərin yürüşləri.** Albaniya Bizans və Sasanilər kimi güclü imperiyaları təzyiqi ilə bərabər, bir tərəfdən də xəzərlərin hücumlarına məruz qalmışdı. Bu işğalçılardan hər biri yerli əhalini və onun torpaqlarını, təbii sərvətləri qarət etməyə çalışırdı. Belə şəraitdə Albaniya çox vaxt gah bu, gah da digər güclü dövlətdən siyasi və iqtisadi asılılığa düşürdü.

Həm İran və Bizans, eyni zamanda Alban çarları Qafqaz keçidlərinə nəzarəti ələ keçirmək üçün şimaldan axın edən köçəri tayfaları öz tərəfinə çəkərək onlardan öz məqsədləri üçün istifadə etməyə çalışırdılar. Alban çarları keçidlərə nəzarət etməklə öz daxili və xarici fəaliyyətində azad hərəkət etmək imkanı qazanırdı. Nəticədə müxtəlif tərəflərlə ittifaqa girən şimal tayfaları tez-tez Albaniyaya soxulur və onun ərazilərindən keçərək yürüşlər edirdilər.

Xəzərlər Sasani şahı II Şapurun (309-379) dövründən- 350-ci ildən etibarən Albaniyaya yürüşlər etsələr də, sasani hökmdarlarından xəzərlərə qarşı ilk ciddi tədbir görən I Qubad (446-531) olmuşdur. Onun dövründə şimaldan axın edən tayfaların qarşısını almaq üçün şimal sərhədlərində güclü bir istehkam qurğusunun inşasına başlanıldı. Mənbələrin də yazdığı kimi, Sasani şahı Qubadın qoşunları "Arran (Albaniya) ölkəsinə daxil oldu və ər-Ras(Araz) adı ilə məşhur olan çayla Şirvan arasında olan torpaqları tutdu. Burada Beyləqan, Bərdə, Qəbələ, Şəki şəhərlərini salıb möhkəmləndirdi.

Qubad Şirvandan Babalan adlanan keçidə qədər çiy kərpicdən hasar çəkməyə başladı. Hasarın tikintisi onun oğlu I Xosrov Ənuşiravan (531-578) dövründə başa çatdırıldı.

Ənuşiravan xəzərlərin 553-də Arrana hücum edib hər yeri yandırmasından sonra, Qafqazda hökmranlığını təmin etmək və imperiyanın əmin-amanlığını təmini, gələcəkdə şimaldan baş verə biləcək hücumları dəf etmək üçün şimala doğru Bab əl Əbvab (Dərbənd) şəhərini saldı. Bu şəhər Çola ilə birlikdə Sasani dövründə İranın, daha sonra isə Ərəb xilafətinini şimal sərhədlərində güclü bir istehkam idi. Kalankatlı da bu barədə yazırdı ki, Dərbənd istehkamlarını və qalasını tikmək üçün İran şahları ölkəmizi taqətdən saldı. Bu tikinti vasitəsilə İran şahları Qafqaz dağları ilə Xəzər dənizi arasındakı keçidləri qapalı saxladı.

I Xosrovun dövründəki Bizans-İran müharibələri zamanı şimal sərhədləri nəzarətsiz qaldığı üçün 552-553-cü illərdə Albaniya yenə də xəzərlərin yürüşlərinə məruz qalmışdı. Kalankatlının verdiyi məlumata görə, Albaniyaya yürüş edən xəzərlər kilsələri yandırır, şəhərləri dağıdırdılar. Türkmənşəli tayfaların davamlı yürüşləri nəticəsində 552-ci ildə Alban patriarxlığının iqamətgahı Çola, eyni zamanda şəhərindən daha təhlükəsiz ərazilərə-ölkənin içərilənə doğru Partava (Bərdə) köçürüldü.

20 illik Bizan-İran müharibəsi dövründə - 571-591-ci illər boyu Albaniya bu dövlətlərin müharibə meydanına çevrilir. 603-629-cu illərdə bu imperiyalar arasında yenidən hərbi əməliyyatların başlaması ilə Albaniya da yenidən müharibəyə cəlb edilir. Bizan-İran müharibələri 603-cü ildə II Xosrovun yürüşü ilə balanmış, 628-ci illədək davam etmişdir. Müharibə İranın xeyrinə davam edirdi. 610-cu ildə Bizans taxtına çıxan İrakli II Xosrovla barışığa cəhd etsə də bu baş tutmadı.

Bizansla Sasani imperiyası arasında gedən mübarizədə təkcə siyasi deyil, iqtisadi məqsəd də güdülürdü. Bu mübarizənin ən qızğın çağında şimaldan xəzərlər və digər köçəri xalqlar Bizansın köməyinə gəldilər. Çünki onlar Albaniyanın zəngin torpaqları hesabına varlanmağa can atırdılar.

İran və Bizan arasında gedən müharibədən istifadə etməyə çalışan Albaniya əhalisi **603-604-cü** illərdə yenidən üsyana qalxsa da üsyan II Xosrov tərəfindən amansızcasına yatırılır. Üsyana qalxan bir çox alban əsilzadələri öldürülür. Yalnız Alban katolikosu Viro II Xosrovun xristian olan xanımı Şirin sayəsində sağ qalır. Şirin bir çox

səylərindən sonra katolikosun həyatını xilas etməyə müvəffəq olur. Lakin Viro 25 il sarayda saxlanır. Çünki Xosrov onu həyatının sonundək öz ölkəsinə dönməməsi və sarayda mühafizə altında yaşaması şərtilə sağ buraxır. Xosrov onu patrarx vəzifəsindən və gəlirlərindən də məhrum etmir. Xosrovun xristianlarla əhatə olunması Viroya mülayim münasibət bəsləməsinə səbəb olmuşdu. Onun xanımının biri Bizans şahzadəsi Mariya, digəri isə alban mənşəli, sonralar Nizaminin "Xosrov və Şirin" əsərinin qəhrəmanı seçilmiş Şirin idi**.** Sarayda qaldığı müddətdə Alban katolikosu Viro II Xosrovdan Mehrani sülaləsindən olan alban knayazlarına "Girdman hakimi və Albaniya knyazı" titulu almağa nail olmuşdu. Bu titul Varaz Qriqorun vaxtında alınmışdı. Və o, Albaniyanın ilk knayzı olmuşdu. Bu hüquq əldə ediləndən sonra Albaniyanın ilk knyazı seçilən Varaz Qriqor 627-də Ktesifonda (Mədaində) Albaniya katolikosu Viro tərəfindən xeyir-dua alma mərasimindən keçdi.

Lakin xristian əhatəsinə baxmayaraq Xosrov Sasanilərin əsas dövlət siyasətinə- Qafqazı Bizansdan ayırmaq siyasətinə sadiq qalmışdı. Bu məqsədlə, o, 612-614-cü illərdə özünün tabeliyində olan bütün xristian təbəqəsini kilsə məclislərində toplayaraq diofizit təriqətinə mənsub olan Bizansın əksinə olaraq monofizit təriqətini imperiya hüdudlarında rəsmi xristian təriqəti olduğunu elan edir.

Sasanilərin müvəffəqiyyətləri 623-dək davam etdi. Həmin il Bizans yenidən sülhə cəhd etsə də bunun baş tutmayacağını görüb böyük ordu ilə hücuma keçdi. Albaniyanın bir sıra vilayətlərini tutaraq viran qoydu. 624-cü ildə isə Bizans Dvini ələ keçirib Atropatenaya girdi. Naxşıvanı da tutdu. II Xosrovun əmri ilə Alban knyazları Bərdəni tərk edərək qalalara çəkildi. Albaniyaya girən Bizans orduları Uti əyalətində yerləşdi. Burada onlar Sasanilərə qarşı xəzərlərlə ittifaq bağladılar.

Bizans hökmdarı İrakli xəzərlərin köməyilə Sasanilərin qüdrətini zəiflətmək niyyətində idi. O, bu məqsədlə 626-cı ildə öz nümayəndələrini xəzərlərin yanına göndərdi və müsbət cavab aldı. 627-ci ildə Bizans-İran müharibəsinin son mərhələsində İrakli Tiflisdə oz yeni müttəfiqi olan xəzərlərlə görüşür. Burada bağlanan ittifaqdan sonra Xəzər orduları Qafqaza soxulur. Bu Xəzərlərin Albaniyaya ilk böyük yürüşü idi. Beləliklə, Bizans imperatoru İraklinin (610-641) Xəzər xaqanı ilə ittifaq bağlaması nəticəsində Sasanilərin əsarətindən qısa müddətə də olsa azad olan Albaniya tezliklə xəzərlərin basqınları ilə üz-üzə qaldı.

Xəzərlər ilk zərbəni Dərbəndə endirirlər və Dərbənd səddi dağıdılır. Əhali ev-eşiyini tərk edərək “keçilməz Arsax dağlarında özünə sığınacaq axtarmağa başladı”, paytaxt Bərdəyə üz tutdu. Xəzərlər isə onları təqib edərək Bərdəyə də yürüş etdilər. Bərdə əyanları Çolanın dağıdılması xəbərindən sonra Arsax əyalətinin dağlıq ərazilərinə çəkildilər.

Qış başlayanda xəzərlərin ordusu Qəbələ rayonunda qışlayaraq Albaniya ərazisində qalmağa davam edirdi. Bir neçə aydan sonra Xəzər xaqanı oğlu Şatın rəhbərliyi ilə Albaniyaya yeni qoşun göndərdi və bütün ölkənin onun tabeliyinə keçməsini tələb etdi. Sasani mərzbanı onun ultimatiumunu rədd etdi. Lakin vəziyyətin mürəkkəb olduğunu anlayan Sasani mərzbanı Sema Viştnası bütün malını və ölkədən oğurladığı bir çox şeyləri özü ilə götürüb İrana qaçır II Xosrovun 628-ci ildə edam edilməsilə yerinə oğlu Şiruyə (II Qubad) taxta çıxdı. 25 illik həbsdən sonra azad edilən və Arrana qayıdan Alban katolikosu Viro ölkəsini dağıntı və fəlakətlərdən xilas etmək üçün 629-cu ilda Xəzər xaqanı ilə danışığa girir. Şadın elçiləri alban katalikosu Vironun yanına gələrək onlara itaət göstərməsini tələb edir. Viro isə müxtəlif bəhanələrlə danışıqları uzatmaqla İran şahına gizli məktub göndərərək kömək istəyir. Lakin İrandan xəbər gəlmir. Viro İran şahına məktub göndərərək xəzərlərə qarşı kömək istədi və Ktesifondan cavab gələnədək Xəzər xaqanı Şat ilə danışıqları uzatmağa çalışdı. Lakin bu zaman Sasani sarayında daxili çəkişmələr getdiyi üçün Vironun çağırışına cavab gəlmədi. Bu dövrdə Sasani taxt-tacı uğrunda mübarizə gedirdi. Şiruyənin (II Qubad) hakimiyyəti qısa sürür, 628-ci ilin fevralında hakimiyyətə gələn Sasani şahı həmin ilin sentyabrında hakimiyyətdən devrilir. 629-cu ilin iyunun 17-də III Ərdəşir hakimiyyətə gəlir, lakin onun da hakimiyyəti qısa sürür və çox keçmədən 630-cu ilin aprelin 27-də edam olunur.

Sasanilərdən kömək gözləyən Vironun taktikasını başa düşən xəzərlər danışıqları kəsib Albaniyaya hücum etdilər. eyni zamanda bütün vilayətlərə, şəhər və kəndlərə hücum edərək qətl və qarətlər törədir. Yerli əhali vahimə içərisində Arrana, ordan da Kiçik Qafqazın dağ silsiləsinə qaçmaq məcburiyyətində qalır. Lakin bu dəfə “Arsax dağlarının keçilməz vilayətləri” belə alban əhalisini xilas edə bilmədi. Halbuki əhali hər zaman yadellilərin hücumları zamanı bu dağlarda gizlənərək mübarizəni davam etdirərdi.

Xəzərlər hücumların qızğın çağında Viroya yenidən xəbər göndərərək ölkəsini təslim etməyi tələb etdilər. Belə olan halda katalikos Viro «bu böyük ölkənin bütün adlı-sanlı adamlarını, çar nəslindən olan bütün zadəganları, vilayət hakimlərini, ruhaniləri, keşişləri çağıraraq onlarla ölkənin gələcək taleyi haqda məsləhətləşmələr aparır. Xəzərlərlə sülh danışıqlarına başlamaq barədə qərar qəbul edilir. Bu məqsədlə böyük miqdarda qızıl, daş-qaş və digər qiymətli hədiyyələr toplanır. Viro toplantıya gələnlərin hər birinə maddi vəziyyətinə uyğun olaraq qızıl-gümüş gətirməyi təklif etdi və xəbərdarlıq etdi ki, heç kəs xəsislik edib sərvətini gizləməsin, çünki Albaniyanın müqəddəratı həll olunur. Viro, Albaniyanın adlı-sanlı əyanlarını məcbur etdi ki, topladıqları hədiyyələrlə birlikdə onunla düşmən düşərgəsinə getsinlər. Viro alban əyanları ilə birgə Şatın Partav yaxınlığındakı düşərgəsinə gəldi. Burada xəzərlər hədiyyələri alıb təkcə katolkos Vironu şahın çadırına apardılar. Şat onu çox böyük hörmətlə qarşılayaraq çadırda özü ilə yanaşı oturdur və «sən mənim atamsan və sənin siman Allaha bənzəyir» - deyir. O, sözünə davam edərək: «Nə üçün sən mənim yanıma gəlməyə yubanırdın? Axı, onda mənim qoşunum sənin ölkəndə bu qədər fəlakət törətməzdi. İndi mən qoşunlarıma əmr edəcəyəm ki, onlar basqınları dayandırsınlar. Beləliklə, Hədiyyələri alan şahzadə qoşunlarını geri çəkməyi razılıq verdi. Lakin o, Virodan rica edir ki, «əhaliyə əmr etsin ki, hamı öz evinə, işinə-gücünə və məşğuliyyətə qayıtsın. Bu gündən Albaniyanı "Xəzər xaqanlığının əbədi mülkü" elan edən şahzadə ölkənin talanını dayandıracağını vəd etdi. Vironun isə Şatdan öz çadırlarında saxladıqları bütün əsirləri - kişi və qadınları, oğlan və qızları azad etməsini xahiş etdi. M.Kalankatuklunun yazdığına görə, Xəzər şahzadəsi də alban katalikosunun bu xahişinə dərhal əməl edib və əsirlər hamısı dəstə-dəstə Vironun yanına gələrək ona dua ediblər. O da, öz növbəsində onları yedizdirərək, geyindirərək öz evlərinə yola saldı. Beləliklə, Viro ölkəni dağıntılardan xilas etmək xatirinə Şatın bütün təkliflərini qəbul etdi. Vironun xahişilə xəzər bütün basqınları dayandırdılar və tutduqları bütün alban əsirlərini buraxdılar. Albaniya mənbələrdə yazıldığı kimi, İran şahı Ərdəşir Qubad oğlunun şahlığının ilk ilində, öz iradəsi ilə şahlıq edərkən yəni 629-cu ilin sentyabrın 30 ilə 630-cu ilin apreli arasındakı dövrdə, xəzərlər tərəfindən işğal edildi.

**Beləliklə, VI-VII əsrlərdə** Albaniya Sasanilərin təsir dairəsində olsa da, ölkəyə faktiki sahib olan xəzərlər idi. Beynəlxalq

vəziyyət-İranda hakimiyyət çəkişmələri, Bizansda dini təriqətlər arasında (xalkedonlarla monofizitlər) mübarizə, həm İran, həm də Bizansın şimal sərhədlərində baş verən hadisələr uçqar Albaniyadan diqqətin yayınmasına səbəb olmuşdu. Belə vəziyyətdən istifadə edən xəzərlər 626- 679-cu illərdə Albaniyaya bir-birinin ardınca sarsıdıçı yürüşlər etdilər. Ölkə xəzərlərin yürüşləri nəticəsində sözün əsil mənasında viran edilmişdi. Albaniya bu dövrdə müqavimət göstərmək gücündə olmadıqları üçün Alban əsilzadələri katolokos Vironun rəhbərliyi ilə Xəzər hakimiyyətini tanımağa məcbur oldu. Xəzərlər ölkənin faktiki hökmranına çevrilərəq Qəbələdə yerləşdilər. Bundan sonra Qəbələ Xəzər-e-Qəbələ adlanmağa başladı. Bütün sol sahil Albaniya xəzərlərin hakimiyyəti altına keçdi. Xəzərlər Qəbələ şəhərini öz inzibati mərkəzlərinə çevirmişdilər. Onlar nəinki Qəbələdə, Qusar və Mingəçevir ərazilərində də məskən saldılar. Qəbələ vilayəti ərazisində Xəzərlərin adı bölgədəki Həzrə kəndinin adında qorunub saxlanmışdır.

Beləliklə, Albaniya İran-Bizan-Xəzər yürüşləri nəticəsində tamamilə zəiflədi. Ölkədə aclıq, epidemiyalar hökm sürürdü. Albaniya əhalisi dağıntılardan bir qədər nəfəs almaq şansı əldə etsə də bu dəfə müharibələrin gətirdiyi digər fəlakət aclıq və epidemiya ölkəni bürüdü. Alban katolikosu Viro da bu epidemiyanın qurbanı oldu. Xalqa hər vasitə ilə kömək etməyə çalışan Viro özü də bu yoluxucu xəstəliyə tutularaq 630-cu ildə öldü. Digər alban müəllifi Mxitar Qoşun yazdığı kimi, xeyirxahlığı ilə parlayan pak insan katalikos Vironun həyatı bu cür sona çatdı.

**Ərəblərin yürüşləri** ərəfəsində Sasanilərdən heç bir kömək ala bilməyən alban əhalisi xəzərlərin sürəkli hücumuna məruz qaldığı üçün xəzərlərə böyük miqdarda bac verməli olurdu. Xəzərlərin bir çox il ərzində ölkəni talan etməsi əhalinin müqavimət gücünü azaltdı və ölkənin ərəblər tərəfindən istila edilməsində öz rolunu oynadı.

Ərəblərin yürüşlərinin başlanğic mərhələsində Albaniyanı Mehranilər nəslinə mənsub hökmdarlar idarə edirdi. Yaranmış əlverişli siyasi vəziyyət nəticəsində - 628-629-cu illərdə Bizans və İran arasında sülh bağlanması, 630-cu ildə xəzərlərin Albaniyanı tərk etməsi və Albaniyanın Sasanilərin təsiri altında qalması nəticəsində Mehranilər bütün Albaniyanı öz hakimiyyətləri altında birləşdirə bilmişdilər. Varaz Qriqorun hakimiyyətə gəlməsi ilə Albaniyada Sasani mərzbanlığı dövrünə son qoyuldu. Sasanilər Mehraniləri bütün Albaniyanın hökmdarı kimi tanıdılar. Beləliklə, Albaniyada

Mehranilər sülaləsinin hakimiyyəti dövrü (629-705) başlandı. Lakin Albaniya tezliklə yenə də xəzərlərin basqınları ilə üz-üzə qaldı.

Mehranilər sülaləsinin Albaniyada hökmranlığı başlanğıcı 603-cü ildən başlasa da, onlar yalnız 630-cu ildən etibarən Albaniyada bütün ölkənin tam hakimi olaraq ölkəni idarə etməyə başlamışlar. Bu Mehrani sülaləsindən olan **Varaz Qriqorun** dövrünə təsadüf edir. Kalankatlının verdiyi məlumata görə, Varaz Qriqor Alban katolikosu Vironun (536-630) xeyir-duası ilə Albaniyanın ilk Ali knyazı tituluna sahib oldu. Varaz Qriqor Bizansın Albaniyanı işğal etdiyi dövrdə 628-ci ildə Bizans xristian təriqəti olan diofizitliyi qəbul etməli olmuşdu. Belə ki, Bizans ələ keçirdiyi ərazilərdə vahid dini birlik təmin etmək məqsədilə öz diofizit təriqətini tətbiq edirdi. Buna görə də Bizans təkcə atəşpərəstləri deyil, monofizit təriqətini də təqib edirdi

Beləliklə, Girdman knyazı Varaz Qriqor Bazınsın vassallığını qəbul etmək şərtilə bütün Albaniyanın hakiminə çevrildi. Lakin 628-629-cu illərdə Sasanilərin Bizansla bagladığı sülh sazişinə görə II Xosrovun itirdiyi torpaqları geri qaytarmağa nail olur. Albaniya yenidən Sasanilərin təsir dairəsinə düşür. Varaz Qriqor Bizansın ona verdiyi hüquq və səlahiyyətləri həyata keçirə bilmədi. Vironun Sasani sarayındakı 25 illik sürgünün sonunda vətənə dönməsindən sonra isə Varaz Qriqor onun məslətilə 630-cu ildə yenidən monofizitliyə dönür. Belə ki, Sasanilər monofizit təriqətini imperiya hüdudlarında rəsmi xristian təriqəti olduğunu elan etmişdilər.

VII əsrin 60-cı illərindən **xəzərlərin** Albaniya ərazilərinə yürüşləri yenidən güclənmişdi. 662-ci ildə xəzərlər Albaniyaya hücum etdilər. Alban hökmdarı Cavanşir Kür çayı yaxınlığında onları məğlubiyyətə uğradıb ölkədən qovdu. 665-ci ildə xəzərlər yenidən Albaniyaya hücum etdilər. Onlar Kürü keçərək Araza qədər olan ərazilərdə qarətlər edərək albanları əsir alırlar. Belə olduqda Cavanşir ölkəni talanlardan xilas etmək üçün xəzər xaqanı ilə görüşüb, sülh bağladı. Sülhə görə, Albaniya hər il xəzərlərə xərac verməli, xəzərlər isə bütün əsirləri və qarət olunmuş mal-qaranı geri qaytarmalı idilər.

Çox keçmədən Cavanşir Xilafət ordularının hücumu təhlükəsi qarşısında anlayır ki, Bizansla ittifaq heç bir nəticə verməyəcək, çünki siyasət sahəsində Xilafət Bizansdan güclü çıxmışdı və Bizansın özü torpaqlarını ərəblərdən qorumalı idi. Artıq Xilafət ordusu İran və Suriyada qalibiyyətli yürüşlər apararaq Bizansın Kiçik Asiyadakı torpaqlarına yaxınlaşmışdı. Bu zaman Bizans nəinki Alba-

niyaya kömək edə bilmirdi, hətta imperiyanın paytaxtı yaxınlığındakı vilayətləri belə öz əlində saxlamaq iqtidarında deyildi.

Beləliklə, Ərəblərin Kiçik Asiyanın bir sıra vilayətlərini işğal etməsi, Bizansın zəifləməsi, ərəblərin Qafqaz ölkələrinə qarşı sərt siyasəti, digər ətrəfdən də xəzərlərin qarətçi yürüşləri Cavanşirin "cənub hakiminə", yəni Ərəb xilafətinə tabe olmaq qərarına səbəb oldu.

Bizansın zəiflədiyini, xəzərlərə və İran feodallarına qarşı mübarizənin çətinliyini görüb, VII əsrin 60-cı illərinin axırlarında 2 dəfə Şam (Dəməşq) şəhərinə xəlifə I Müaviyənin sarayına getdi və onunla sülh bağladı. Sülhün şərtlərinə görə: 1. Xəlifə Albaniyanın daxili müstəqilliyinə toxunmur; 2. Albaniya ərazisindən alınan vergi üçdə birə qədər azaldılırdı. Xəlifənin güzəştə getməsinin səbəbi Albaniyanın əlverişli coğrafi mövqeyə, zəngin sərvətlərə malik olması, həm də Cavanşirin şəxsi nüfuzu idi.

Cavanşir Qafqazın tarixinin ən ağır mərhələsində - Bizans-Sasani-Xəzər-Ərəb işğalları dövründə ölkənin müstəqilliyini qoruyub saxlamağı bacarmışdı. Albaniya onun hakimiyyəti dövründə yalnız vergi ödəyirdi. Kalankatlı yazırdı ki, o, dörd işğalçı dövlətin hər birində sayılırdı, hörmət edilirdi və bu hökmdarların heç birindən aşağı deyildi O, Albaniyanı farsların, bizanslıların, xəzərlərn, ərəblərin qarətindən mühafizə edə bilmişdi. Ərəb xilafəti də, öz növbəsində Cavan°irin nüfuzu ilə hesablaşıb xilafətin şimal sərhədlərində Albaniyanın strateji mövqeyini, həmin sərhədləri Bizans və Xəzər hücumlarından müdafiə etmək üçün onun silahlı qüvvələrindən istifadə etmək imkanını nəzərə alıb Albaniyanın daxili müstəqilliyinə toxunmamışdı. Xilafətdən vassal asılılığında olan Albaniyadan yalnız bac almaqla kifayətlənmişdi.

Cavanşir öldürüləndən sonra Saray əyanları Alban katolikosunun hüzurunda Cavanşirin qardaşı Varaz-Perozun oğlu Varaz Tridatı ali knyaz taxtına varis olaraq seçdilər. Varaz Tridat Bizans imperatorundan patrisi titulu aldı.. Eyni zamanda Xəlifə I Yezid (680-683) də Varaz Tridatı (680-699) "Şərq vilayətlərinin canişini, Alban padşahlığı və Uti əyalətinin hökmdarı" kimi tanıdı. Ölkə ərəblərə xərac verməkdə davam edirdi. Albaniyada hərc-mərcliyi sakitləşdirən Varaz Tridat onun ərazilərində əvvəlki ali knayz hakimiyyətini bərpa edə bildi.

Lakin Varaz Tridat taxta çıxan kimi Xəzər xaqanlığı Cavanşirin ölümünün intiqamını almaq bəhanəsilə Alp-İlitvererin komandanılğı

altında Albaniyaya böyük ordu göndərir. Xəzərlər Albaniyaya soxularaq Kür sahili boyunca Uti vilayətinə qədər gedərək bu əraziləri qarət etdilər və oradan qayıdandan sonra Lpina vilayətindəki düzənliklərdə düşərgə qurdular. Cavanşirin siyasətini davam etdirən Varaz Tridat xəzərlərə diplomatik yolla təsir etməyə çalışır. O, Albaniyanı xəzərlərin yeni basqınlarından xilas etmək üçün xaqanla danışığa mötəbər bir adam göndərmək qərarına gəlir. 681-ci ildə xəzərlərlə danışıqlara Alban katolikosu Yelizar göndərilir. Katolikos Yelizar xaqandan "sülh və pozulmaz dostluq" andını almağa nail olur.

Lakin xaqanla bağlanmış sülh və dostluq sazişi qısamüddətli olur. I Varaz Tridat bir tərəfdən Ərəb xilafətinin Albaniyaya qoyduğu vergilər, digər tərəfdən isə xəzərlərin hər il ölkəyə etdiyi basqınlar nəticəsində ikitərəfli talana məruz qalırdı. Belə olduqda Varaz Tridat yenidən Alban knyazları və katolikosunun iştirakı ilə məşvərət keçirir. Bu dəfə yepiskopun başçılığı ilə Xəzər xaqanlığına göndərilən elçilərin xəzərlərə albanların qəbul etdiyi xristian təriqətini təlqin etmək qərara alınır. Beləliklə, Varaz Tridat xəzərlər arasında xristianlığı yaymaq üçün onların düşərgəsinə alban yepiskopunu göndərir. Bu missiya müvəffəqiyyətlə nəticələnir. Mənbələrdə yazıldığına görə, xəzərlər elçiləri böyük ehtiramla qarşılayır və alban yepiskopunun dini təbliğatı nəticəsində xəzərlərin bir hissəsi xristianlığı qəbul edir. Xəzər xaqanı Alp İlitverin başçılığı ilə xəzərlərin böyük bir hissəsi xristianlığı qəbul edir. Alp İlitverin öz əyanları vasitəsilə I Varaz Tridata göndərdiyi məktubunda deyilir ki, ancaq alban yepiskopu xəzərlərin yanında qalarsa "bizim vəhşi xalqların sizin ölkənizə basqanları kəsiləcəkdir". Lakin nə Alban hökmdarı və nə də alban katolikosu yepiskopun orada qalmasına razılıq vermirlər, yalnız onun Albaniya ilə xaqanlıq arasında vasitəçi rolunu oynamasına razılıq verirlər. Lakin Ərəb xilafətində gedən hakimiyyət çəkişmələri səbəbindən (xilafətdə xəlifə Müaviyədən sonra hakimiyyət uğrunda mübarizə gedirdi) ərəblərin şimal ölkələri üzərindəki nəzarətinin zəifləməsindən istifadə edən xəzərlər albanlarla eyni dindən olduqlarını belə unudub 685-ci ildə yenidən Albaniyaya yürüş etdilər, ölkəni dağıdaraq qənimətlər və girovlarla öz torpaqlarına döndülər.

Bu zaman Xilafətdə hakimiyyət çəkişmələrinin sonunda 685-ci ildə hakimiyyətə xəlifə Əbd-əl-Malik (685-705) gəlir. Xəlifə Əbd-əl-Malik həmin il Bizans imperatoru II Yustinianla sülh müqaviləsi

(685-695; 705-711) imzalayır. Baglanmış müqaviləyə əsasən Qafqazdan, o cümlədən Albaniyadan gələn vergi Ərəb xilafəti və Bizans arasında bərabər bölünməyə başladı. Qafqaz hər iki qüdrətli rəqibin nüfuz dairəsinə çevrildi. Onların hər biri bu bölgəyə istədiyi zaman hücum edir, əhalini qarət edirdilər.

689-690-cı illərdə II Yustinian Qafqaza növbəti hücum edir İmperator buradakı bütün knyazları öz hüzuruna çağıraraq bəzilərini cəzalandırsa da, Albaniya hökmdarı Varaz Tridata yüksək rütbə - "şahdan sonra II işxan" rütbəsi verir. Kalankatlı yazırdı ki, Albaniya bu dövrdə ərəblərə, xəzərlərə, Bizansa vergi ödəməkdə davam edirdi. Beləliklə, Əbd-əl-malik və II Yustian arasında bağlanan saziş nəticəsində Albaniya " üç ölkəyə: Xəzər xaqanlığına, Ərəb xilafətinə və Bizansa bac ödəyirdi.

I Varaz Tridat xəzərlərlə münasibəti qaydaya saldıqdan sonra Bizansa ödədiyi son dərəcə ağır vergini daha ödəmək istəmədiyi üçün iki oğlu ilə birlikdə 699-cu ildən 5 il boyu 704-cü ilədək Konstantinopolda girov saxlanılır. Varaz Tridatın yoxluğunda Albaniyada ölkə üçün ağır nəticələr verən bir sıra hadisələr baş verdi. Nəticədə 705-ci ildən Albaniyanın daxili müstəqilliyi birdəfəlik ləğv edildi. Ölkəni ərəb canişinləri - əmirlər idarə etməyə başladı. Bu dövrdən etibarən Albaniya həm faktiki, həm də hüquqi cəhətdən ərəb əsarəti altına düşür.

### *5.5. Qafqaz Albaniyasının əhalisi, Alban Tayfa İttifaqı*

Albaniya və onun əhalisi haqqında antik və erkən orta əsr müəlliflərindən İosif Flavinin "Yəhudilərin qədim tarixi", Pomponi Melanın "Yerin təsviri", Plutarxın "Müqayisəli tərcümeyi-hallar", Korneli Tasitin "Annallar" və "Tarix", Dion Kassinin "Roma tarixi", Pompey Troqun "Ümumi tarix", Kvint Kursi Rufun "Böyük İskəndərin tarixi", Sekst Yuli Frontinin "Hərbi hiylələr", Musa Kalankatlının "Albaniya tarixi", gürcü salnaməsi "Kartlis Sxovreba" və digərlərinin əsərlərində məlumat verilir.

Qafqaz Albaniyasının aparıcı etnosu olan albanlar müasir azərbaycanlıların bilavasitə əcdadlarından biri olub Azərbaycan xalqının etnogenezində mühüm rol oynamışlar. Azərbaycan bu gün olduğu kimi qədim dövlətimiz Qafqaz Albaniyası dövründə də rəngarəng etnik tərkibə malik olmuşdur. Qafqaz Albaniyası ərazilərində alban-

lar, utilər, lpinlər, kaspilər, çilblər, savdeylər, qarqarlar, leqlər, qardmanlar, qatlar, hərlər kimi bir sıra qədim yerli tayfalar məskun olmuşlar. Erkən orta əsrlərdən bəri bu ərazilərdə saklar, məskutlar, hunlar, bulqarlar, çollar, basillər, sabirlər, kəngərlər, xəzərlər kimi bir sıra tayfalar da məskunlaşmaqda idi.

Albaniyanın şimalında, Çola vilayətində erkən orta əsrlərdə albanlarla yanaşı çilblər (silvlər), leqlər, məskutlar, xəzərlər, hunlar da məskun idilər. Şimal-qərbə dögru uzanan ərazilərdə Lpina vilayətində isə albanlarla yanaşı lpinlər, saklar və digər tayfalar yaşayırdılar. Kambisena vilayətində qatlar, hərlər, hunlar, saklar və digər tayfalara məskun idilər. Paytakaran vilayətində albanlar kaspilər, gellər, hunlar, xəzərlərlə birgə məskun idilər. Uti vilayətinin əhalisini isə albanlarla yanaşı savdeylər, utilər, saklar, qarqarlar, hunlar, xəzərlər və basilllər təşkil edirdilər. Uti əyalətinin Girdman vilayətində də Aran nəslindən olan tayfalardan utilər və qarqarlar yaşayırdılar.

**Alban etnosu.** Yazılı mənbələr və maddi mədəniyyət nümunələri Albaniyada I əsrdən etibarən etnik rəngarəngliyə baxmayaraq Albaniyanın ən böyük, ən qədim tayfalarından ən birincisinin, aparıcı etnosun albanlar olduğunu göstərir. E. ə. I əsrdə baş vermiş hadisələrlə əlaqədar adı çəkilən bu etnosun məskun olduğu ölkə yunan və latın mənbələrində eranın əvvəllərindən başlayaraq — Albaniya adlanır. Tarixi qaynaqlarda Alban sözü həm etnonim, həm də ölkə dövlət mənasında işlənir. Strabonun verdiyi məlumata görə, albanlar öz gözəlliyi və hündür boyu ilə seçilir. Onlar sadə ürəklidirlər və xırdaçı deyillər. Onlarda pul az işlənir, əsasən mübadilə ticarəti ilə məşğuldurlar.

Alban etnosunun adı ilk dəfə e. ə. 331-ci ildə İran ordusu ilə Makedoniyalı İskəndərin ordusu arasında baş vermiş Qavqamel döyüşü ilə əlaqədar olaraq II əsr müəllifi Arrian tərəfindən çəkilir. Arrian İran ordusunda albanların döyüşdüyünü qeyd edirdi. Digər bir mənbədə isə Alban çarının İskəndərə hədiyyə göndərməsindən bəhs olunur. Bu məlumat, artıq e. ə. IV əsrdə alban etnosu və onun dövlət qurumu oldugunu göstərir. Bu tayfa ölkədə aparıcı rola malik idi. Əks halda ölkə onun adı ilə Albaniya adlanmazdı. Ölkədə çarlıq edən sülalə də bu tayfadan idi. Albanlar bu ərazidə yaşayan çoxsaylı bir etnosun adı olmaqla bərabər, həm də Albaniyada yaşayan bir çox tayfaların ümumiləşdirici adı idi. Antik müəlliflərin verdiyi məlumata görə, albanlarda indi bir çar bütün tayfalara başçılıq etsə də əv-

vəllər hər tayfanı öz çarı idarə edirdi. Bu tayfalar 26 dildə danışırdılar.

Antik mənbələrdə Albaniya bütün dövrlər boyu əhalisi sıx olan ərazi kimi təqdim olunur. Albaniya əhalisi mənbələrin verdiyi məlumata görə skif-sak tayfalarının varisləri idilər. Burada albanlarla yanaşı utilər, gellər, leqlər, hərlər, qatlar kimi bir çox tayfalar da yaşayırdılar. Qaynaqlarda Albaniyada yaşayan xalq və tayfalar sırasında amazonkalar, sovdeylər, maqlar, sisaklar, mardlar və amardlar, ariaklar və anariaklar kimi bir sıra tayfaların da adı çəkilməkdədir. Strabonun verdiyi məlumata görə Albaniyada qarqar, hun uti, kaspi, qel, hər, qat kimi bir çox yerli tayfalar Alban Tayfa İttifaqında birləşmişdilər. Strabon yazırdı ki, Alban Tayfa İttifaqı öz dili və başçısı olan 26 tayfanın birliyindən yaranmışdır. Lakin antik müəllif Albaniyada məskunlaşan bu tayfaların yalnız bəzilərinin (uti, leq, gel, hər, qarqar, qat, kaspi və s.) adlarını çəkir. Artıq e.ə. I minillikdə Alban Tayfa İttifaqında birləşən bu tayfaların bir-birilə qaynayıb qarışması nəticəsində Şimali Azərbaycanda vahid alban mədəniyyəti formalaşmışdı.

**Udilər.** Udilər albanlardan sonra Qafqaz Albaniyasının ən böyük tayfalarından biri idilər. Kalankatlı utilərin albanların mifik əcadadı sayılan Arannın nəslindən olduğunu qeyd edir. Udi alban tayfaları Göyçə gölü və Araz çayları arasında, Kür və Tərtər çaylarının aşağı hissələrində, indiki Gəncə, Şəmkir və Tovuz ərazilərində də məskun idilər. Bu tayfalar müasir Şəki, Qəbələ, Oğuz bölgələrinə də yayılmışdılar.

Udilər özlərinin alban tayfalarından olduqlarını heç bir zaman unutmamışlar Hələ XVIII əsrin əvvəlində alban məlikləri I Pyotra ünvanladıqları məktubda özlərini udi tayfasından olan albanlar adlandırırdılar. Hazırda uti alban tayfasının varisləri sayılan udi etnosu Azərbaycanda kompakt halda Qəbələ rayonunun Nic kəndində və Oğuz rayonunda məskundur.

**Leqlər.** Ləzgilərin qədim əcdadları sayılan leqlər qədim Albaniya dövləti ərazisində yaşayan tayfalar olmuşdur və Azərbaycanın qafqazdilli qədim etnoslarındandırlar. İlk dəfə ləq tayfalarının adı I əsr müəllifi Strabonun əsərində çəkilir. O yazır ki, albanların qonşuluğunda ləqlər yaşayır. Qədim mənbələrdə leqlər haqqında məlumat çox azdır. İlk dəfə olaraq IX əsrə aid ərəb mənbəində Samurdan şimalda Ləkz ölkəsi qeyd olunur. Orta əsr mülliflər ləkz tayfalarının Azərbaycanın tarixi vilayəti olan Maskutdan *(indiki Müş-*

*kür)* qərbdə, Samurun yuxarı axarında, yəni ləzgilərin hazırda məskun olduğu ərazidə yaşadıqlarını yazırdılar. Tarixi mənbələr və tədqiqatlar Alban Tafya İttifaqına daxil olan leqlərin yayılma areallarının Albaniyanın şimal vilayətlərinin - Samurun sol sahili bölgəsi, müasir Cənubi Dağıstan əraziləri olduğunu müəyyən etmişdir.

**Kaspilər.** Qafqaz Albaniyasının ən qədim tayfalarından biri də kaspilər idi. Erkən orta əsr yazılı qaynaqları kaspilərin Albaniyanın Kür-Araz çaylarının aşagı qovşagındakı ərazilərdə, Muğan düzü bölgəsində yaşadığını yazır. Kaspi tayfaları cənubda Midiya ərazilərində də yaşayırdılar.

**Qarqarlar.** Qafqaz Albaniyasının qədim tayfalarından biri də qarqarlardır. Erkən orta əsr yazılı qaynaqların məlumatına görə qarqar tayfaları albanların mifik əcdadı olan Aranın nəslindəndir. Qarqar tayfaları Qarabağ bölgəsində Qarqar düzündə Kür çayının cənubunda və Qarqar çayı hövzəsində, həmçinn Qarqar düzündə - indiki Mil düzündə yaşayırdılar. Mövcud mənbələr və toponimik materiallar Albaniya ərazisində qarqarların yayılma arealının Qarabağ, Gədəbəy, həmçinin Albaniyanın şimal-qərb və şimal-şərq bölgələri olduğunu söyləməyə əsas verir. Qarabağ bölgəsində qarqar tayfasının adını əks etdirən Qarqardağ və Qarqarçay, Gədəbəy rayonunda isə Gərgər, Herher, Xarxar toponimləri Qarqar etnoniminin izlərini daşıyır. Albaniyanın şimal – şərq bölgəsində isə orta əsr müəllifi İbn Xordadbeh (IX əsr) Şabran və Dərbənd arasında Karkar adlı şəhərin adını qeyd edir. Albaniyanın şimal – qərbində isə Qəbələ rayonunun ərazisində XIX əsrdə Qarqar etnonimini əks etdirən Xarxar adlı kənd xarabalığı qeyd olunmuşdur. Qarqar etnonimini əks etdirən çoxlu kənd adları Cənubi Azərbaycanda da vardır. Erkən orta əsr yazılı qaynaqları, həmçinin toponimik materiallar qarqar tayfalarının tükmənşəli olduğunu söyləməyə əsas verir. Qarqar, Karkar toponimi Qafqazda, eləcə də Kiçik və Orta Asiyada geniş yayılmışdı. Hələ Homer «İliada»da İdı dağında Qarqar təpəsini və Dardanel boğazı yaxınlığındakı Qarqar şəhərinin adlarını çəkir; Albaniyanın toponimiyasının geniş əks olunduğu X əsr fars qaynağında Qarqar vilayətindən danışılır; Qədim türk mənbələrində Qazaxıstanda Karkar toponimi qeydə alınmışdır. Türkmənistanda iki Qarqar hidronimi, Gürcüstanda Qarqar hidronim və oronimi vardı; nəhayət, Şimali Qafqazda – qədimdə qarqarların yaşadığı yerdə Qarqar çayı,

Karkar təpəsi, Qarqar - meydanı və b. kimi yer adları qeydə alınmışdır.

**Gellər.** Qafqaz Albaniyasında məskun olan tayfalardan biri də gellər idi. Qədim yunan müəllifləri Strabon və Plutarx gellərin Qafqaz Albaniyasında məskunlaşması, onların skiflər, albanlar, leqlərin qonşuluğunda yaşadıqları barədə məlumat verirlər. Yunan müəllifləri ingiloyların qədim əcdadı olan gel tayfaları haqda məlumat verməklə yanaşı, onların yaşadıqları etnik əraziləri, hətta Gelda toponimi barədə də məlumat vermişlər.

Alban Tayfa İttifaqına daxil olan gel tayfasının günümüzə gəlib çatan varisləri olaraq ingiloylar hazırda Azərbaycanın şimal-qərb bölgəsində - Qax, Zaqatala, Balakən rayonlarının ərazisində yaşayırlar. Soykökündə alban mənşəli "gel" tayfalarının adı olan ingiloy etnonimi "yengeloy- yeni gellər" ifadəsindən yaranmışdır. XVII əsrin əvvəllərində islamı qəbul etmiş gellərin adı qarşısına "yeni" kəlməsi əlavə edilməklə "yeni gellər" ingiloylar etnonimi formalaşmışdır. Qədim alban tayfalarından olan gellərin böyük əksəriyyəti XVII əsrədək xristian dini mənsubiyyətlərini saxlasa da, XVII əsrin ikinci yarısından etibarən bu ərazidə yaşayan gellər islam dinini qəbul etmişlər. Məhz bu səbəb üzündən əhali müsəlman gelləri xristian soydaşlarından fərqləndirmək məqsədilə yeni dini, yəni müsəlmanlığı qəbul etmiş gellər anlamında «*yengi geloylar*» *(yeni gellər)* adlandırmağa başlamışdır. Tədricən *qel* və ya *qeloy* etnonimi fonetik dəyişikliyə məruz qalaraq *yengiloy* və daha sonralar *ingiloy* şəklini almışdır.

Ptolemeyin Qafqaz Albaniyasında qeyd etdiyi Gelda toponimi hazırda Şəki-Zaqatala bölgəsinin əhalisi arasında *Qoloda* şəkində bu gün də qorunub saxlanmışdır. Bu gün Azərbaycanın şimal-qərb bölgələrində, həmçinin Qafqaz Albaniyasının tarixi sərhədlərinə daxil olan Cənubi Dağıstanda qədim «gel» etnoniminin izlərinə Suvagil, Güllük Gelmes, Geli, Sarvagel kimi kənd adlarında rast gəlmək olar.

**Saklar.** Albaniya ərazisində məskunlaşan tayfalardan biri də saklar idi. Kalankatlı alban vilayətləri arasında Sakasen vilayətinin adını çəkir. Saklar Kür çayının sol sahilində Şəki, Gəncə ərazilərində yaşayırdılar. Hazırda Azərbaycanın şimal-qərbində yaşayan saxurlar Qafqazın, o cümlədən Azərbaycanın qədim etnoslarından biri olaraq qədim sak tayfaları ilə əlaqələndirilməkdədir. Antik yunan müəllifi Strabon da sakları «zaxori» adlandırırdı. Görünür, Azərbaycanın şimal-qərb bölgəsində «sak» etnonimi ilə bağlı xeyli

yer adı məsələn, Şəki *(Sakaşena, sakların olduğu yer),* Zaqatala *(Sakatela, sak talası),* Qax rayonunda, Kürmük çayının sol sahilindəki Səkan *(Saklar diyarı)* və s. olması təsadüfi deyil. Alban mənşəli etnoslarımızdan olan saxurların etnik tarixi Azərbaycanın qədim dövləti olan Qafqaz Albaniyası ilə, Albaniya ərazisində formalaşmış Alban Tayfa İttifaqı ilə bağlıdır. Saxurları Alban Tayfa İttifaqına daxil olan silv, ciqb alban tayfalarına da aid edirlər.

Qafqaz Albaniyasında tavasparlar, xaçmataklar, maskut, xursan, çul, qatlar, hərlər, quqarlar, qardmanlar da məskun olmuşlar.

**Hər, qat tayfaları.** Azərbaycanın alban mənşəli hər, qat etnoslarının varisləri hazırda Quba bölgəsində Şahdağın ətəklərində dəniz səviyyəsindən 2000 m yüksəklikdə salınmış Xınalıq, Qrız, Hapıt kəndlərində məskundurlar. Qatlar müasir xınalıqların, hərlər isə qrızların, hapıtların əcdadlarıdır. Qat (kət) etnonimi xınalıqlıların etnik özünü adlandırmasında bu günədək qorunub saxlanmışdır. Azərbaycan tarixində özünəməxsus izləri olan xınalıqlar, qrızlar, buduqlar müstəqil etnik qruplar kimi öz kəndlərinin adı ilə tanınsalar da, bu etnosların etnik özünü adlandırmasında qədim hər, qat kimi Qafqaz Albaniyasına məxsus etnonimlər özünü büruzə verir. Xınalıqlar, buduqlar, qrızlar erkən orta əsrlərdə Qafqaz Albaniyasının şimal-qərb sərhədlərində bir-birinin qonşuluğunda, Şəki, Kambisena kimi vilayətlərdə yerləşən Xeni, Hereti, Bed mahallarında məskun olmuşlar. Bunu həm mənbələr, həm də apardığımız tarixi-etnoqrafik araşdırmalar da təsdiq edir. Bu etnoslar VI-VIII əsrlər boyu davam edən istilalardan qorunmaq üçün Tufan dağını aşaraq hazırda yaşadıqları Şahdağ ətəyindəki kəndləri salmışlar. Bu etnoslar arasında dolaşan əfsanələrdə də onların əcdadlarının Tufan dağının o tayındakı Xeni və Hərnə şəhərlərindən gəldikləri söylənir. Əhalinin "Tufan dağının o tayı" adlandırdığı ərazi isə müasir Azərbaycanın Şəki-Zaqatala bölgəsi ilə üst-üstə düşür.

Qafqaz Albaniyası ərazisində məskunlaşan və antik yunan müəllifi Starbonun qeyd etdiyi Alban Tayfa İttifaqına daxil olan bu etnoslar vaxtilə Alazan və İori çayları vadisində yaşasalar da sonralar müxtəlif tarixi hadisələr nəticəsində Azərbaycanın şimal-şərqinə köç etmiş, burada öz etnik mənsubiyyətlərinii, dillərini, həyat tərzini qoruyub-saxlaya bilmişlər. Xınalıq, Qrız və Buduq kimi toponimlər isə əslində eyni adlı etnosun deyil, erkən orta əsrlərə aid mənbələrdə adı çəkilən və Qafqaz Albaniyasının şimal-qərbində yerləşən hər, qat tayfalarının yaşadıqları mahalların tarixi adlarını özündə əks etdirir.

Xınalıqlılar etnos kimi öz kəndlərinin adı ilə tanınsalar da, özlərinə *kəttid (ketlər, tək halda: khət)* deyir, kəndlərini isə *Ketiş* adlandırırlar. Bu toponim xınalıqlıların dilində *ket yeri* və ya *ket yurdu* anlamını verir. Qonşu Buduqlar, qrızlar və hapıtlar da onları *qet-di* yəni "qetlər" çağırırlar. Bu qədim alban tayfalarının varisləri VI-VIII əsrlər boyu davam edən Bizans, Xəzər, Ərəb xilafəti hərbi yürüşləri nəticəsində öz məskənlərini tərk edərək Azərbaycanın şimal-şərqindəki əlçatmaz dağlarda sığınacaq tapmışlar. Erkən orta əsrlərdə Qafqaz Albaniyası Xəzər, Sasani və Bizans ordularının döyüş meydanına çevrildiyi zaman Albaniyanın şimal-qərbində yerləşən Xeni mahalında yaşayan qat tayfaları keçilməz dağlara çəkilərək orada məskən salmışlar. Xınalıqlılar bu gün də əcdadlarının Xeni şəhərindən gəldiyini unutmamışlar. Xınalıqlar arasında dolaşan əfsanələrdən məlum olur ki, Xeni şəhəri Tufan dağının o tayında yerləşir. Əhalinin "Tufan dağının o tayı" adlandırdığı ərazi isə müasir Azərbaycan Respublikasının şimal-qərb bölgəsi, yəni alban müəllifi Musa Kalankatlının da adını çəkdiyi qədim Xeni mahalının yerləşdiyi hissəsidir. Yeri gəlmişkən, əhali Xınalıq kəndini həm də ***Xenilıq*** adlandır. Toponimdəki ***-lıq*** şəkilçisi Azərbaycan türkcəsində mənsubiyyət şəkilçidir və deyilənə görə, *xenililərin məskəni* və ya *Xenidən olanlar* anlamını verən bu adı bölgədə yaşayan Azərbaycan türkləri yaratmışlar. XIX əsr rus müəllifi V.Leqkobıtov xınalıqlıları «əlçatmaz dağlar arasında yaşayan canlı tarix» adlandıraraq, onların "ucaboylu, gözəl üz cizgilərinə malik, sarışın, mavi gözlü" olduqlarını yazırdı. Starbon da albanların eyni cür - hündürboylu və xoş simalı olduqlarını qeyd edirdi.

Xınalıqlılar bu gün də Azərbaycanın şimal-qərb bölgəsi ilə, yəni erkən orta əsrlərdəki tarixi məskənləri ilə əlaqələrini kəsməmişlər. Xınalıqların qışlaq yerlərinə gedən yol məhz bu ərazilərdən keçir. Eyni zamanda xınalıqlıların bu bölgəsində məskun olan saxur, rutul, ingiloy kimi alban mənşəli tayfalarla da ortaq etnomədəni xüsusiyyətləri mövcuddur.

Xınalıqlılar özlərinin Yafəsin nəslindən olduğunu, dillərinin də "Nuh peyğəmbərin dövründən qaldığına" əmindirlər. Albaniya tarixinin müəllifi M.Kalankatlı da albanların nuhun övladlarından Yafəsin nəslindən olması yazır. Bu kənddə Nuh peyğəmbər və Nuhun tufanı bağlı müxtəlif əfsanələr söylənməkdədir. Bu rəvayətlərə söykənərək kənd əhalisi özünü "Yafəsin nəsli" ilə bağlayır. Xalq arasında yayılmış bir rəvayətə görə, Nuhun gəmisi məhz bu

ərazidə yerləşən Tufan dağına dəyərək parçalanmışdı. Bu mədəniyyətlərin qarşılıqlı əlaqələri əsasında Nuhun tufanı və ümumdünya daşqını haqqında rəvayətlər, həmçinin dünya xalqlarının şəcərələrinin yaradılması ilə bağlı Yasəf və İbrahim Peyğəmbərlərin fəaliyyəti, İncil mətnləri kimi qədim ideologiyalara əsaslanan ortaq mədəniyyət formalaşmışdır.

Xınalıqlar, xüsusilə əhatəsində yaşadıqları Tufan dağını, həmçinin, Qəbələ bölgəsindəki Komrad dağını müqəddəsləşdirmişlər. Vaxtilə başında V əsrə aid edilən alban məbədinin yerləşdiyi Kömrad dağının xınalıqlılar arasında xüsusi nüfuzu var. Bura Xınalıq əhalisinin, eyni zamanda udilərin də ən çox getdiyi ziyarətgahlardandır. Saysız hesabsız Xınalıq qəbirlərin qədim tarixinin Qafqaz Albaniyası dövrünədək uzandığı şübhəsizdir. Qədim alban izləri təkcə xınalıqlara məxsus etnonim və toponimlərdə deyil, kənd qəbiristanlıqlarındakı qədim başdaşlarında qalmaqdadır.

**Hərlər.** erkən orta əsrlərdə Qafqaz Albaniyasının şimal-qərb ərazilərində *(indiki Şəki-Zaqatala bölgəsində)* Hereti, mahalında *Hər* tayfaları məskun olmuşlar. Hereti vilayəti V əsrdən etibarən İlkin orta əsrlərdə hərlərin yaşadığı bu ərazi ərəb mənbələrində *Haranta, Hərnəburc* kimi də tanınır. Həmin dövrdə xəzərlərin basqınları, İran - Bizans, Ərəb-Bizans müharibələrində Qafqaz Albaniyası şiddətli döyüşlərin getdiyi müharibə meydanına çevrilmşdi. Mənbələrdə bu müharibələr dövründə Qafqaz Albaniyasının dağılan şəhər və kəndləri ilə bağlı bir çox məlumatlar var. Dağıdılmış bir çox alban vilayətləri sırasında Hərənta (Hereti) mahallarının adı çəkilir. Hazırda Quba rayonunun Qrız, Hapıt, Cek kəndlərində yaşayan qrızlar, həmçinin qrız etnosuna aid edilən hapıt, cek, əlik və yergüclər hər tayfaların varisləridir. Onalr özlərinin bu gün də hər, *hərəd* adlandırırlar. *-ər* şəkilisi qrızlarda cəm şəkilçisidir. Bunu qrızlar arasında onların mənşəyi ilə baglı dolaşan əfsanələr də təsdiq edir. Qrızlar da əcdadlarının qədim Hərna şəhərindən olduğunu söyləyirlər. Xatırladaq ki, qədim mənbələrdə *Hərənta, Hornaburc* kimi qeyd olunan alban şəhər adları hapıtların əfsanəvi *Hərna* şəhərinin adı ilə səsləşir. Maraqlıdır ki, XX əsrin 30-cu illərinə kimi hapıtlar bəzən özlərini *hereti* də adlandırırlarmış.

Erkən orta əsrlərdə Sasani basqınlarından qorunmaq üçün Qafqaz Albaniyasının çətin keçilən dağlıq ərazilərində məskunlaşan alban tayfalarından biri də hazırda Xınalıq və qrızlar qonşuluqda yaşayan buduqlar idi. Alban müəllifi Musa Kalankatlı «Alban tarixi»

əsərində ölkənin şimal – qərbində yerləşən və Xeni, Hereti mahalları ilə qonşuluqda yerləşən Bed mahalının adını çəkir. Hazırda da bu etnoslar bir-birilə qonşuluqda yaşayır və bu ərazilərdə məskunlaşma tarixləri barədə məlumatları üst-üstə düşür. Buduqlular özlərini "Budad" adlandırır. Bu kəlmə iki hissədən, Qafqaz Albaniyasının Bed mahalının adından və buduq dilində mənsubiyyət bildirən *-ad* şəkilçisindən ibarət olub *Bedli* və ya *Budlu* mənasındadır. Göründüyü kimi erkən orta əsrlərdə Albaniyanın döyüş meydanına çevrildiyi bir dövrdə basqınlardan qorunmaq istəyən hər və qat alban tayfaları əlcatmaz dağlara sığınaraq buralarda Hereti Xeni, Bex Haband kimi qədim alban toponimlərini və etnonimlərini yaşatmağa calışmışlar.

Hər, qat tayfalarının varisləri olan bu tayfaların fiziki xüsusiyyətlərinin bütün azərbaycanlılar üçün xarakterik olan kaspi antropoloji tipinə uyğun oduğu müəyyən edilmişdir. Məlumdur ki, "kaspi" antropoloji tipi qədim Azərbaycan xalqının əsasını təşkil edən yerli antropoloji tip olmuşdur. Qafqaz Albaniyasının ən qədim tayfalarından biri olan kaspi tayfaları da Albaniyanın digər yerli tayfaları kimi antropoloji cəhətdən "kaspi" tipinə mənsub olmuşlar.

**Çilblər.** Alban tarixilndə və V- VII əsrlərə aid qədim mənbələrdə Albaniyanın şimal-qərb bölgəsində yaşayan *lpin (lbin), silv* və *çilb* tayfalarının da adları çəkilir. Qafqaz Albaniyasının qədim tayfalarından biri olan lpinlər Böyük Qafqazın cənub ətəklərində, Alazan çayının yuxarı axarında məskun idilər. Alban müəllifi Kalankatlı bu tayfaların adını çəkərək, Dağıstanın dağlıq hissəsində silvlərin (çilblərlə) qonşuluğunda məskunlaşdığını yazır. Qafqaz Albaniyasında erkən orta əsrlərdə məskun olan tayfalardan biri də çilblər olmuşlar. Çilblər Dəvəçi (Şabran) və Quba bölgəsində, Alazan vadisində, Dagıstan ərazisində, Samur çayının cənubundakı ərazilərdə məskunlaşmışdılar. Qafqaz dil qrupuna aid edilirlər. Araşdırmalar Qafqaz Albaniyasındakı çilb tayfalarının Azərbaycanın şimal-qərb bölgəsində məskun olan rutulların əcdadları olduğunu gostərir.

**Savdeylər** Albaniyanın ən qədim yerli tayfalarından biri də savdeylər idi. Bu etnos haqda məlumat verən Kalankatlı savdeylərin albanların mifik əcdadı Aranın nəslindən olduğunu qeyd edir. Bu etnos İori (qanıx) çayı hövzəsində məskunlaşmışdı.

**Qardmanlar** Albaniyada məskun olan yerli tayfalardan biri də qardmanlar idi. Kalankatlı qardmanların albanların mifik əcdadı sayılan Aranın nəslindən olduğunu qeyd edir. Xaçmataklar Samur çayının yuxarı axarında yaşayırdılar.

**Məskutlar** Albaniyada erkən orta əsrlər dövründən Albaniyanın şimal hüdudlarına qədər ərazilərdə məskun idilər M.Kalankatlı maskut tayfalarının Albaniya ərazisində Dərbənd və Kaspi arasındakı ərazilərdə Qafqaz dağlarının ətəklərində Samur cayının cənuba doğru mənsəbinə, Cola ərazilərində yaşadıqlarını yazır.

Albaniya əhalisi yerli alban tayfaları ilə yanaşı tarixin müəyyən mərhələlərində buraya axın edən hun, qıpçaq, xəzər, sabir kimi tayfalardan da ibarət idi.Qafqaz Albaniyasının etnik proseslərində erkən orta əsrlər dövrü həlledici mərhələ olmuşdur. İlk əsrlərdən etibarən Albaniyaya basillər, sabirlər xəzərlər kimi türkmənşəli tayfaların axınları güclənir. Xəzər və basil tayfaları Dərbənddən şimalda, Kür çayı hövzəsində məskunlaşmışdılar. Basillər Böyük Qafqaz dağlarının ətəklərində, Qarqar düzündə də məskun idilər. Qəbələ, Beyləqan, Samur–Şabran arası bölgələrdə də yayılmışdılar. Xəzərlər xüsusilə V-VI əsrlər boyu bölgədə fəal məskunlaşmaqda idilər. Bu dövrdə Albaniya ərazilərini öz nüfuzları altında saxladıqları üçün hətta bir müddət Albaniya mənbələrdə Xəzərlər olkəsi adlanmışdır. Səlcuqoğuzlarından əvvəl Albaniyada xəzərlər geniş mövqeyə malik idilər. IX əsr müəllifi İbn Xordadbeh yazır ki, Arran, Curcan (Gürcüstan) və Sisakan xəzərlərin ölkəsindəndir.

**Hunlar.** Mənbələr Albaniya ərazisində hun tayfalarının "Kaspi qapıları" ərazisində, Dərbənd və onun ətraf bölgələrində yaşadığını yazırdı. Erkən orta əsr qaynaqlarında "Kaspi qapıları" "Hun qapıları", Beşbarmaq səddi isə "hunlara qarşı müdafiə səddi" kimi adlandırılırdı. Erkən orta əsr mənbələr hunların Dərbənd keçidindən şimala doğru, Kür Araz çayları arasındakı ərazilərdə yaşadığını qeyd edirlər. IV-VII əsrlərdən Albaniya ərazilərində məskunlaşmış hunların V əsrdən etibarən Muğan və Şakasena vilayətində (Gəncə bölgəsi) yaşadığını Bizanq qaynaqları yazır. Bizim eranən ilk əsrlərindən Xəzərin sahili boyunca Qafqaz daplarəndan Dərbəndə uzanan ərazilərdə savirlər məskun idilər. Yəni, onlar bu vaxtdan albanların qonşusu idilər. Klavdi Ptolemeyin «savarlar» deyə xatırladığı bu qədim türk tayfaları III-IV əsrlərdən tədricən Albaniyaya Dərbənd və başqa şimal keçidlərindən nüfuz etməyə başladılar. Həmin dövrlərdə onlar artıq hun toplumunda birləşsələr və ümumi «hun» adı altında tanınsalar da, qaynaqlarda savirlər həmişə xatırlanmışlar. VI əsr Bizans tarixçisi Prokopi savirləri «Qafqazda ən güclü xalq» kimi qeyd etmişdi.

Beləliklə, V əsrin sonu, VI əsrin birinci yarısı artıq türkmənşəli qəbilə və tayfa birləşmələrinin Azərbaycanın hər yerində yaşayırdılar və iri şəhərlər salmışdılar. Bu dövrdə savir-hun ittifaqına Qafqazın ən güclü qəbilə birləşməsi olan savirlər, onoqurlar, barsillər, kəngərlər daxil idi. Artıq V əsrin sonlarında hunlar, bulqarlar, xəzərlər, savirlər, onoğurlar və barsillər Cənubi Dağıstan və şimali Azərbaycan ərazilərində yaşayırdı. Azərbaycan ərazisində Mil-Muğan bölgəsində bu tayfaların adını daşıyan Xunan, Ağhun, Akxəzər, Balasaqun kimi şəhərlər yaranmışdı. VI əsr Bizans tarixçisi Prokopinin məlumatına görə, 531-ci ildə İran ordusunda üç min nəfərdəm ibarət hun-savir alayı vardı. Onların gücü ildən-ilə artır, Qubadın savirlərlə uzunmüddətli mübarizəsi bir nəticə vermir, yalnız onun oğlu - Xosrov Ənuşirvan 562-ci ildə böyük bir çətinliklə savirləri məğlub edir. Bizans tarixçisi Menandr (VI əsr) yazır ki, Ənuşirvan savirlərdən 10 minini (çox güman ki, ailəni) Kür-Araz ovalığına köçürmüşdü.

Türkmənşəli tayfaların - savirlərin, xəzərlərin, bolqarların Albaniyada məskənləri bu ölkəyə ilk yürüşlərindən mövcud idi və yeni türk axınları onların sayını daha da artırdı. V əsrin sonlarından etibarən başlayan konsolidasiya prosesi, xəzərlərin Aranda sayca çoxalması ilə bitir. Bu dövrdən Xəzər birliyinə «xəzərlərin başqa... savirlər, barsillər, eləcə də bolqarlar, səməndərlər kimi bir sıra xırda türk tayfaları da daxil idilər. Artıq onların hamısı xəzər adlanırdı.

VI əsrin 70-ci illərindən Şimali Albaniya və Dağıstan əraziləri xəzərlərin hakimiyyəti altına düşür. VII əsr – türkmənşəli etnosların Albaniyaya axınının zirvəsidir. Məhz bu yüzillikdə türkmənşəli tayfalar, xüsusən savir və xəzərlər Albaniyanın, demək olar ki, bütün əyalətlərində yerləşdilər. Artıq VII əsrin 20-ci illərindən Şimali Albaniya türkmənşəli tayfaların- xəzərlərin hakimiyyəti altında idi. Musa Kalankatlı yazır ki, xəzərlərin başçısı "Cebu Xakan" və onun oğlu Buri-Şad 628-629-cu illərdə Şimali Albaniya və Albaniyanı da öz mülkləri sayırdılar. Həmin əsrlərdə savir - xəzər birliyinin dili Şimali Qafqaz və Dağıstanın bütün xalqları üçün ümumtayfa ünsiyyət vasitəsinə çevrilmişdi. VII yüzilliyin sonundakı ərəb müəllifləri də Albaniyanı türk ölkəsi sayırdılar. Xəlifə I Müaviyə Azərbaycanı fəth edən ərəb qoşununun başçısından Azərbaycan haqqında soruşarkən o, «Azərbaycan qədimdən türklərin ölkəsidir və onlarla məskunlaşıb» deyə cavab vermişdi.

Erkən orta əsrlərdən etibarən Albaniyada Sasani şahlarının şimal sərhədlərini qorumaq məqsədilə İrandan köçürülən İrandilli

tayfalar və yəhudilər də məskun idi. IV- VI əsrlərdə Beşbarmaq, Gilgilçay, daha sonra Dərbənd sədlərinin çəkməsilə əlaqədar olaraq Sasani şahları İrandan Xızı, Dəvəçi və Quba, Dərbənd bölgəsinə bu gün tatlar adlandırdığımız iranmənşəli əhalini, farsları və yəhudiləri köçürtmüşlər. Məsudi yazır ki, Ənuşirəvan Əl-Bab və Əbvab adı ilə tanınmış bu şəhəri (Dərbəndi), onun quru, dəniz və dağlarda uzanmış səddini tikdirdiyi zaman, müxtəlif xalqları və onların hökmdarlarını buraya köçürtdü. Tat adını isə bu etnosa qədim türklər vermişlər. Ərəblər Albaniyanı tutduqdan sonra tatların əksəriyyəti islam dinini qəbul etdi, az bir qismi isə (Xaçmazda və Dəvəçi rayonunun Kilvar kəndində yaşayanlar) xristian dinini saxladı.

Beləliklə, Albaniya bir siyasi qurum kimi müxtəlif etnik mənşəli tayfaların hərbi, iqtisadi və mədəni birliyindən yaranmışdı. Bu tayfaların ən qədimləri Qafqaz və türkmənşəli avtoxton etnoslar olmuşlar. Eramızın ilk əsrlərindən başlayaraq Sasani şahlarının göstərişi ilə Albaniyaya bir sıra iranmənşəli tayfalar da köçürülmüşdür. Ərəblərin gəlişinə qədər Albaniya əhalisi bu üç təbəqədən – qafqaz, türk və iran əsilli əhalidən formalaşmışdı.

### Alban etnik birliyinin yaranmasına aşagıdakı amillərin təsiri olmuşdur:

1. Albaniyada e.ə.III əsrdən VIII əsərdək mövcud olmuş ərazi və dövlət birliyi.
2. e.ə. I əsrdən - VIII əsrədək bütün ölkədə Alban etnoniminin və alban etnik kimliyinin qorunması.
3. Etnik mənsubiyyətin əsas komponentlərindən olan din, dil birliyi. Alban dili və alban yazısı haqda Strabon, Kalankatlı, Xorenasi, Zaxariy Ritor kimi müəlliflər, həmçinin ərəb müəllifləri məlumat verir. Alban dini birliyini isə IV əsrdən mövcud olan Alban avtokefal kilsəsi təmsil edirdi. Alban dini birliyi IV-XIX əsrlər boyu davam etmişdir. Birləşdirici qüvvə isə Alban avtokefal kilsəsi idi.

Alban etnosunun, albanların etnomədəni irsinin transformasiyaya uğramasının səbəbləri. VII əsrin ortalarından Albaniya (Aran) ərəblərin işğalına məruz qalması ilə albanlar çox qəribə və faciəli bir tale ilə qarşılaşdı. 704-cü ildə Alban Apostol kilsəsi ilə rəqabətdə olan qriqoryan kilsəsinin fitvası ilə ərəb xəlifəsi Alban kilsəsini onun tabeliyinə keçirtdi. Alban əlifbası və bu əlifba ilə yazılmış əsərlər qriqoryan kilsə başçıları tərəfindən məhv edildi. Qriqoryan kilsəsinə

tabelik, onun yazısından istifadə etmək məcburiyyəti, sayca azlıqda olmaları xristian albanlar arasında qriqoryanlaşma prosesini sürətləndirirdi.

Ərəb işğalı özü ilə ölkəyə islam dinini gətirmişdi. Albaniya ərazisində isə əhalinin əksəriyyəti xristian, bir hissəsi isə bütpərəst və atəşpərəst olaraq qalmaqda idi. Albanların yaşadığı Arsak əyalətində xristian dini xüsusilə qüvvətli idi.

Ərəblərin gəlişi ilə alban əhalisinin böyük hissəsi islama keçdilər. Xristian albanların islamı qəbul edən hissəsi sonralar xalq içərisində xristianlıqdan islama keçən mənasında *dönmə* adlanırdı. Yazısı və dini müstəqilliyi məhv edilmiş xristian albanlar isə bir tərəfdən islam dini, o biri tərəfdən erməni kilsəsinin təzyiqi ilə üz-üzə qalmışdılar. Xristian albanlar müsəlman albanlardan getdikcə daha çox uzaqlaşırdılar. Beləliklə, Alban etnosunun müsəlman hissəsi üçün — alban etnik adı unudulmağa başladı. Belə ki, İslam ənənələrində milli mənsubiyyət deyil, dini mənsubiyyət önə çıxarıldığı üçün albanların müsəlman hissəsində milli mənsubiyyət hissini dini mənsubiyyət üstələyirdi. Artıq əhali arasında alban özünüadlandırması əvəzinə müsəlman özünüadlandırması formalaşırdı. Albanların islamı qəbul etmiş hissəsi digər türk tayfaları içərisində azlıq təşkil etdiyi üçün alban adı həmin tayfalar üçün etnik özünüadlandırmaya çevrilə bilməzdi, çünki həmin tayfaların öz adları vardı. Müsəlman albanlar tədricən digər türkmənşəli tayfalarla qaynayıb qarışdılar. Beləliklə, VIII-IX əsrlərdən sonra Azərbaycan ərazisində alban adını tədricən türk etnik adı əvəz etməyə başladı.

Beləliklə, VIII əsrdək alban, sak, kimmer, kaspi və s. etnoslar əsasında təşəkkül tapmış alban xalqının vahid danışıq dili, milli mədəniyyət yaranmışdı. Bu mərhələ alban etnosunun formalaşma mərhələsi olmuşdur. Alban etnosunun tarix səhnəsindən çıxması isə onun xristian və müsəlmanlara parçalanması ilə bağlıdır. Parçalanma prosesi alban etnik adının islamı qəbul etmiş albanlar içərisində əriyib itməsilə nəticələndi.

Albanların dini mənsubiyyətcə iki hissəyə parçalanması bütünlükdə Alban etnosunun və alban etnik adının tənəzzülünün başlanğıcı oldu. Lakin albanlar islamı qəbul etsələr də vənglərə - xristian monastırlarına və müqəddəs yerlərə ziyarətlərini davam etdirirdilər. Həm də müsəlman albanlar xristian albanları özlərinin dinayrı qardaşları sayır, onları kirvə tuturdular.

Alban mədəniyyəti və etnosu islamın qəbulu ilə transformasiyaya ugrasa da, zəngin və özünəməxsus alban mədəniyyəti Azərbaycanın mənəvi mədəniyyətinin əsasını təşkil edir və Azərbaycan xalqı bu mədəniyyətin daşıyıcılarıdır. Alban tayfa ittifaqında birləşmiş udi, qel, hər, qat, leq alban tayfalarının varisləri olaraq udilər, ingiloylar, ləzgilər, xınalıqlar, qrızlar, buduqlar kimi bir çox etnoslar bu gun də bütövlükdə Azərbaycan etnomədəni mühitində formalaşaraq Azərbaycan xalqının etnososial birliyində yaşamaqdadırlar. Alban Qədim mənbələrdə lbin, silv, ciqb, hər, qat leq adları ilə məlum olan alban tayfalarının varisləri müasir dövrdə də Azərbaycan ərazisində yaşamaqdadırlar və onlar müvafiq olaraq indiki saxurların, rutulların, ləzgilərin, ingiloyların, udilərin, xınalıqların, buduqların, qrızların ulu əcdadlarıdır.

Qafqaz Albaniyasının süqutundan sonra buradakı tayfaların böyük hissəsi tədricən islam dinini qəbul etdikdən sonra Alban mədəniyyəti və etnosu tarixi zaman çərçivəsində müəyyən transformasiyaya uğrasa da azərbaycanlıların etnik ənənələrində bu günədək öz canlılığını qoruya bilmişdir. Alban tayfalarının və alban irsinin davamçıları olaraq Azərbaycan etnosları  tarixi ənənələrə sadiq qalaraq erkən orta əsrlərdə Alban tayfa İttifaqında birləşdikləri kimi hazırda da alban etnomədəni mirasına sahib çıxaraq azərbaycançılıq ideologiyası ətrafinda eyni birliyi nümayiş etdirməkdədirlər.

Albaniyanın dövlətçiliyinin ləğv edildiyi mərhələdə VIII -XIII əsrlər müddətində alban əhalisinin böyük əksəriyyəti islamı qəbul edərək tədricən etnik kimliyini itirdi. İlk vaxtlar Arran əhalisi, xüsusilə Albanıyanın ”kitab əhli” (əhl-əl Kitab) olan xristian əhalisi islamı qəbul etməyə məcbur edilmirdi. Çünki ərəblər əsasən bütpərəstləri təqib edirdilər. Ərəblərin Albaniyada “kitab əhli” ilə mülayim rəftarının bir səbəbi də onların Bizansa qarşı mübarizədə Qafqazın strateji əhəmiyyəti ilə bağlı idi.

Qeyd etmək lazımdır ki, Albaniya əhalisi, xüsislə də zadəganlar islamı könüllü qəbul edirdilər. Belə ki, yeni dini qəbul etmək istəyənlərə ərəblər müəyyən güzəştlər verir, müsəlmanlığı qəbul etmiş alban zadəganlarının torpaq mülkiyyətinə sahiblik hüququnu saxlayır, onları cizyə verməkdən azad edirdilər. Buna görə də, Alban zadəganları öz imtiyazlarını qoruyub saxlamaq üçün tədricən islamı qəbul etməyə başladılar.

Lakin Ərəb işğalları dövründə albanların Kür və Araz çayı hövzəsində yaşayan böyük bir hissəsi müsəlmanlaşsa da, Albaniya

əhalisinin ölkənin şimal-qərb, həmçinin cənub-qərb dağlıq ərazilərində yaşayan hissəsi xristian dininə sadiq qalaraq ərəb qoşunları və hakimiyyəti idarə sisteminin əlinin çatmadığı dağlıq ərazilərə çəkilərək öz inanclarını davam etdirməkdə idilər. Həmin hissə IX əsrdə Ərəb xilafətinin zəifləməsi ilə Albaniya dövlətçilik ənənələrini qismən də olsa yenidən dirçəldərək bu ərazilərdə Sünik, Şəki, Arsax Xaçın kimi knyazlıqların yaradılmasına, alban xristian ənənələrini və etnik kimliyini, inanclarını qorumağa müvəffəq olmuşdular. Ərəb işğallarından sonra Albaniya əhalisinin bir hissəsi islamı qəbul etməklə müsəlmanlaşsa da, digər hissə Alban kilsəsini 1836-cı ilədək yaşadaraq öz xristian ənənələrini davam etdirdilər. Onlar albanların son nəsilləri idilər. Alban etnosu Azərbaycan dövlətlərinin tərkibində mövcudiyyətini davam etdirmişdir. Etnoslararası ünsiyyət dili isə türk dili olmuşdur.

Təəssüflə qeyd etmək lazımdır ki, Alban kilsəsini öz nüfuzlarına tabe etmək üçün əvvəlcə Sasani, sonra Ərəb xilafətinin silahlı qüvvələrinin köməyinə əl atmış erməni qriqoryan katolikosları XIX əsrdə Rusiya imperiyasının köməyilə sonunda Alban kilsəsinin tam olaraq ləğv edilməsinə nail oldular. 1805-1828-ci illər Rus-İran müharibələri nəticəsində Qafqaz ərazisində heç bir zaman mövcud olmayan erməni dövlətinin yaranmasına yol açıldı. Rusiya imperiyası tərəfindən ermənilərin Türkiyə və İrandan Azərbaycan xanlıqlarına kütləvi köçürməsilə ermənilərin bu torpaqlarda tarixi çəhətdən də kök salması, yeni əldə etdikləri torpaqla erməni tarixini bağlamaq yollarının axtarışına və bunun üçün də əsrlərdən bəri formalaşan Alban mədəni irsini tamailə zəbt edilməsi prosesi başlandı. Bu ideyanın həyata keçirilməsində ən böyük maneə Alban Apostol kilsəsi və əsrlərdən bəri bütün çətinliklərə sinə gərərək öz etnik kimliyini, inancını, xristian ənənələrini qorumağı bacarmış alban etnosu idi. Buna görə də albanların etnik kimliyini məhv etmək üçün erməni katolikosunun xahişi əsasında Alban kilsəsi Peterburq Müqəddəs Sinodunun qərarı ilə 1836-da ləğv edildi və Alban Apostol kilsəsi erməni Eçmiədzin kilsəsinə tabe edildi. Alban katolikosluğunun ləğvindən sonra Alban xristian ənənələrini əsrlərdən bəri qoruyub saxlamış son alban nəsillərinə Alban kilsələrinə getmək qadagan edildi. Beləliklə də, əsrlərdən bəri müsəlman əhalinin əhatəsində yüksək səviyyədə qorunub qalmış bütün alban monastır və kilsələri baxımsız qalaraq dağılmağa üz tutdu.

Alban kilsəsinin Rusiya imperiyası tərəfindən erməni-qriqorian kilsəsinin birbaşa tabeçiliyinə verilməsilə son albanların tamamilə məhvinə səbəb oldu. Öz kilsələrindən məhrum olan alban nəsilləri qriqoryan və pravoslav kilsələrinə getməyə məcbur edildilər və imperiya siyahıyalmalarında erməni və gürcü kimi qeydə alınmağa başladılar, bununla da alban tayfalarının son nəsillərinin etnik kimliyi dolaşıq vəziyyətə salınaraq məhv edildi. Rusiya imperiyasının Qafqaza köçürdüyü, imperiyanın bölgədəki sadiq xidmətçisinə çevrilən və burada kök salmağa niyyətli olan ermənilərin vasitəsilə yerli alban mədəniyyəti və tarixi ermənilərin tarixi mirası kimi qələmə verilərək bütövlükdə Azərbaycan tarixinin saxtalaşdırılması prosesi başlandı. Məhz XIX əsrdən etibarən alban ədəbiyyatının qriqoryan kilsə dili olan qrabara çevrilərək saxtalaşdırılmış variantda yenidən nəşr edilməsi prosesi başlamışdır. XIX əsr alban müəllifi Makar Barxudaryans yazırdı. XIX əsr alban müəllifi Makar Barxudaryansın qeydlərindən məlum olur ki, Qanzasar monastrından qiymətli əlyazmaları oğurlanmışdır. Hələ nə qədər alban ədəbiyyatının məhv edilməsi isə sirr olaraq qalır.

# VI FƏSİL

# QAFQAZ ALBANİYASININ İQTİSADİYYATI

## *6.1. Albaniyada təsərrüfat həyatı*

### *6.1.1.Əkinçilk*

Albaniya təbii cəhətdən zəngin ölkə idi. Albaniya geniş məhsuldar torpaqlara malik idi və yerli əhalinin əsas məşğuliyyətləri əkinçik idi. Kürün hər iki sahili, Muğan, Mil ərazilərində əkinçiliklə məşğul olurdular. Albaniyada buğda çəltik, arpa yetişdirilirdi.

Albaniyanın məhsuldar torpaqları antik və erkən orta əsr müəlliflərini heyrətləndirirdi. Strabon yazırdı ki, alban düzənlikləri çaylar və suları vasitəsilə Babil və Misir torpaqlarından yaxşı suvarılır. Buradakı iqlim həmin ölkələrdən daha əlverişlidir. Bol sulu çaylara sahibdirlər. Buna görə də torpaqları hər zaman ot örtüyünə malik olduğu üçün örüş yerləri boldur.

Əlverişli iqlim, məhsuldar torpaqlar, yaylaq-qışlaq əraziləri, faydalı qazıntılarla zəngin ölkə olan Albaniyada bir neçə iqlim qurşağı var idi. Bu iqlim qurşaqlarının hər biri müəyyən təsərrüfat sahəsinin inkişafına şərait yaradırdı. Əkinçilk, xüsusilə də, Kür-Araz ovalığında və Xəzəryanı ərazilərdə əhalinin əsas məşğuliyyət növü idi. Albaniyada məhsuldar torpaqların bolluğu əhalinin əkinçilk, bağçılıq üzümçülüklə məşğul olmasına şərait yaratmışdı.

Məhsuldar torpaqlar ölkənin çoxsaylı çayları vasitəsilə də suvarılırdı. Əsas su mənbəyi Kür və Araz çayları idi. Albaniyanın məhsuldar torpaqları çoxlu sayda çaylar və süni kanallar vasitəsilə suvarılırdı. Bunu Kalankatlı təsdiq edir. O yazır ki, Albaniya çaylar və su anbarları ilə zəngindir. Mənbələrdən məlum olur ki, Kür çayı Albaniyanın əsas su mənbəyi olmuşdur.

Albaniyada əsas əkinçi əhali Kür və Arazın məhsuldar düzlərində, Qafqaz dağətəyi bölgələrdə çəmləşmişdi. Kürün hər iki sahilində əhali əkinçiliklə məşğul olurdu (kn 1.ql. 5.) Strabon albanların ağac xışdan istifadə etdiyini yazırdı. Albaniyada erkən orta əsrlərdə şumlama əkinçiliyinin yüksək səviyyəsini arxeoloji materiallar da təsdiq edir. Arxeoloji materillardan məlum olur ki, erkən orta əsrlərdə albanlar torpağın şumlanması zamanı dəmir gavahınlı ağac xışdan istifadə etmişlər. Mingəçevirdə erkən yaşayış mərkəzlərindən

bir sıra əkinçilk alətləri – dəmir gavahın qalıqları, dəryazlar, daş dəyirmanlar, kirkirələr və s. tapılıb.

Kalankatlı Aran torpağının münbitliyi ilə bağlı yazırdı ki, yüksək Qafqaz dağları arasında yerləşən Albaniya ölkəsi təbii sərvətlərlə doludur. Böyük Kür çayı ölkənin ortasında sakitcə axaraq böyük və kiçik balıq gətirir və öz suyunu Xəzər dənizinə tökür. Onun ətrafındakı çöllərdə bol taxıl və üzüm, pambıq və zeytun ağacı vardır. Dağlarda qızıl, gümüş, mis, oxra çıxarılır, neft, duz, ipəyi var. Vəhşi heyvanlardan şir, bəbir, çöl eşşəyi, quşlardan qartal, şahin və s. rast gəlinir.

Albaniyada süni suvarmaya ehtiyacı olmayan dağətəyi bölgələrdə - Kür-Araz ovalığının dağətəyi və Xəzəryanı ərazilərdə dəmyə əkinçiliyindən istifadə edilsə də, Albaniyanın digər bölgələrindən arx, kəhriz, suvarma kanalları kimi süni suvarma sistemlərindən də geniş istifadə edilirdi. Albaniyanın qədim dünyanın ən böyük suvarma sisteminə malik olan Misir və Babil suvarma sistemindın geri qalmayan mürəkkəb və çoxşaxəli süni suvarma sisteminə (arxlar, kəhrizlər, kanallar və s.) malik olmasını antik müəlliflərin verdiyi məlumatla yanaşı arxeoloji materiallar da təsdiq edir. Arxeoloji qazıntılar zamanı Mil düzündə (Gavurarx), Muğan və Xəzəryanı bölgələrdəki qazıntılar zamanı suvarma sistemi qalıqları aşkar edilmişdir. Mil düzündən aşkar edilmiş Gavurarx qalıqları buna sübutdur. E.ə. VI-V əsrə aid edilən Gavurarx. Albaniyada mövcud olan çoxsaylı suvarma kanallarından biri olmuşdur. Arxeoloji qazıntılardan məlum olur ki, 100 km boyu davam edən bu suvarma sistemi öz başlanğıcını Arazdan götürmüşdür. Albaniyada istifadə edilən süni suvarma növlərindən biri də kəhrizlər olmuşdur. Azərbaycanda hazırda da kəhrizlərdən suvarma məqsədilə istifadə edilməkdədir.

Aranda yaxşı suvarma sistemi olması sayəsində Kür çayı sahilindəki torpaqlar çox keyfiyyətli dənli bitkilər və bağ-bostan məhsulu verirdi. Strabonun verdiyi məlumata görə, torpaq o qədər məhsuldardır ki, bir dəfə toxum səpilmiş torpaq bəzi yerlərdə 2 və ya 3 dəfə məhsul verir. Antik müəllif yazırdı ki, üzüm tənəkləri artıq ikinci ilindən məhsul verməyə başlayır. Tam yetişdikdən sonra isə o qədər məhsul verməyə başlayır ki, salxımların bir hissəsi budaqlarda qalır. Geniş torpaq sahələrində üzüm bağları salınmış, zeytun və tut ağacları əkilmişdi. Tut ağacları isə toxuculuq sənətinin inkişafına şərait yaradırdı.

Dənli bitkilər, texniki bitkilər, bağ-bostan mədəniyyəti sahələri də inkişaf etmişdi. Mülayim iqlim, məhsuldar torpaq, süni suvarma sistemləri və çoxsaylı çayların olması dənli bitki və bağçaçılıq sahəsində bol məhsul götürülməsini təmin edirdi. Kalankatlı yazır ki, Albaniyada Kürün hər iki sahilində çörək bolluğu var idi, buğda, çəltik yetişdirirdilər. Qədim Albaniya ərazisində, xüsusilə də Mingəçevirdə aparılan qazıntılar nəticəsində çəltik qalıqları aşkar edilmişdir. Bu tapıntı 1949-cu ildə Kürün sol sahilində Sudağılan bölgəsində tapılmışdır. Dənli bitkilər xüsusi təsərrüfat quyularında və iri küplərdə saxlanırdı. Mingəçevirdən, həmçinin Naxçıvan, Beyləqan, Xınıslı və digər Albaniya torpaqları ərazisindən dərin buğda, çəltik kimi dənli bitkilərin saxlanması üçün anbar rolunu oynayan quyular aşkar edilib. Qazıntılar zamanı məhsulunu saxlanması üçün istifadə edilən küplər, həmçinin dən üyüdən daşlar və s.-də aşkr edilib.

Kalankatlı Albaniyada bağçılığın da yüksək səviyyədə inkişaf etdiyini yazırdı. Məhsuldar bağlar və bostanlar var. Əkinçilklə məşğul olan Albaniya əhalisi Kürün hər iki sahilində, Mil-Muğan düzü və Naxçıvanda tut, zəfəran, kətan yetişdirirdi. Kalankatlı Kürün hər iki sahili boyu tut ağacları olduğunu yazırdı. Baramaçılıqda geniş istifadə edilən tut ağaclarının Albaniyada sahibi yox idi. Onlardan hər kəs istifadə edə bilərdi. İstəxri yazırdı ki, barama qurdları yiyəsiz olan tut ağaclarında bəslənirdi.

Ölkədə həmçinin inçir, nar, zoğal, şabalıd, qoz, zeytun yetişdirilirdi Bunu ərəb müəllifləri də yazır. Ərəb müəlliflərindən İstəxri ən gözəl qoz, zoğal kimi meyvələrin Bərdədə yetişdirildiyini yazırdı.

Arxeoloji qazıntılar zamanı da çoxlu meyvə tumlarının (üzüm, gilas, gavalı, nar, qoz, qarpız, yemiş) arxeoloji tapıntılar, həm meyvə toxumları, həm də bağ-bostan sahəsində istifadə olunan əmək alətlərinin aşkar edilməsi Albaniyada erkən orta əsrlərdə yüksək səviyyədə inkişaf etmiş bağçılıq və bostançılıq mədəniyyəti olduğunu təsdiq edir. Mənbələrdən məlum olur ki, Uti vilayətində zeytun və sitrus bitkiləri yetişdirilirdi Kalankatlı da Albaniyada çoxsaylı zeytun ağacları olduğunu yazırdı. Kalankatlı Albaniyada həmçinin incir ağaclarının da bol olduğunu yazırdı. Kalankatlı Albaniyada IV-VII əsrlərdə üzümçülük barədə də məlumat vermişdir. Xanlar, Mingəçevir, Beyləqan ərazilərdəki arxeoloji qazıntılar zamanı üzüm tumları aşkar edilmişdir.

Üzüm bağlarının bolluğu və məhsuldarlığı Albaniyada şərabçılığın da yüksək səviyyədə olmasına səbəb olmuşdu. Albanların üzüm suyu hazırlaması mənbələrdə qeyd olunub. Bunu arx tapıntılar da təsdiq edir. Mingəçevirdə arxeoloji qazıntılar nəticəsində şərab süzmək üçün olan xüsusi qablar, üzüm əzmək üçün istifadə olunan saxsı və daş ləyənlər akar edilib.

Kalankatlı Albaniyada şərab hazırlanması və şərabçılığın geniş yayıldığını yazırdı. Strabon Albaniyada şərabçılığı xüsusi qeyd edirdi. Bunu arxeoloj qazıntılar da təsdiq edir. Alazan bölgəsində, Yaloylu təpə, Mil düzündə, mingəçevirdə şərab saxlanması üçün istifadə edilən saxsı qablar tapılıb. Mingəçevirdə erkən orta əsrlərə aid içində şərab qalıntılarına rastlanmış tuluq aşkar ediilmişdir. Arxeoloji qazıntılar nticəsində Alazan, Mil bölgəsindən də xüsusi şərab qabları aşkar edilir. Üzümçülük və şərabçılıq, xüsusilə, Albaniyanın şimal-qərb vilayəti olan Kambisenanın kənd təsərrüfatında mühüm yer tuturdu. Kambisenada kətan da yetişdirilirdi. Burada dənli bitkilər-buğda çəltik, darı da yetişdirilirdi.

Əlverişli iqlim və torpaq burada pambıq yetişdirilməsinə də şərait yaratmışdı. Kalankatlı Kürün sahilləri boyu pambıq yetişdirildiyini yazırdı. Mingəçevir qazıntılarından pambıq çiyidi və pambıqdan əyirilmiş iplər aşkar edilib... Mənbələrin verdiyi məlumata görə Aranda pambıq becərilməsinin qədim tarixi var. Pambıq tarlaları yaxşı suvarılan Şirvan, Mil, Muğan bölgəsində idi. Albaniyanın iqlim şəraiti burada pambıqçılığın da inkişafına şərait yaradırdı. Albaniyanın, xüsusilə də Paytakaran vilayətində pambıq yetişdirilirdi. Bunu Kalankatlının verdiyi məlumat da təsdiq edir. O, yazırdı ki, Kürün hər ikisahilində bol pambıq yetişdirilirdi. Bunu arxeoloji tapıntılar da təsdiq edir. Arxeoloji qazıntılar zamanı, Mingəçevir ərazisindən erkən orta əsrlər təbəqəsindən pambıq çiyidi, həmçinin pambıq sap dolaqları aşkar edilib.

Albaniyada texniki bitki sayılan boyaq otu da yetişdirilirdi. Ərəb müəllifləri Albaniyada həmçinin zəfəran, boyaq bitkisi marenanın da yetişdirilfiyini yazırdılar. Bütün Aran bölgəsində, Dərbənddən Tiflisədək boyaq maddəsi marena becərilirdi. Beləliklə, mövcud mənbələr IV-VII əsrlərdə Albaniyada yüksək inkişaf etmiş təsərrüfat olduğunu göstərir.

### *6.1.2. Maldarlıq*

Albaniyanın iqtisadi həyatında maldarlıq da mühüm yer tuturdu. Yazılı mənbələr və arxeoloji materiallar Albaniyada maldarlığın ən mühüm təsərrüfat sahəsi olduğunu təsdiq edir. Burada iri və xırda buynuzlu mal-qara və bu sahə ilə bağlı gön-dəri emalı, süd və süd məmulatları istehsalı da yüksək səviyyədə idi. Eyni zamanda atçılıq və dəvəçilik sahələri də inkişaf etmiş təsərrüfat sahələrindən idi. Strabonun verdiyi məlumata görə albanlar daha çox maldarlığa meyilli idilər. Maldarlıqla həm yarımköçəri tayfalar, həm də oturaq əhali məşğul olurdu. Ölkədə maldarlıq, atçılıq, qoyunçuluq, dəvəçilik inkişaf edirdi. Əhali balıqçılıqla da məşğul idi. Albaniyanın şimal-qərb vilayəti olan Kambisenada maldarlığın qoyunçuluq və balıqçılıq sahələri inkişaf etmişdi. Antik və erkən orta əsr müəllifləri Albaniyada keçi, qoyun, iri mal-qara, at, dəvə yetişdirildiyini, ölkədə həm ev heyvanları, həm də vəhşi heyvanların yaxşı artdığını yazırdılar. Albanlar və ovu çox sevdikləri üçün xüsusi olaraq ov itləri də bəsləyirdilər. Strabonun məlumatlarından Albaniyada ovçuluğun geniş yayıldığını, burada xüsusi ov itlərinin yetişdirildiyini göstərir. Strabon yazırdı ki, albanların özləri kimi, onların itləri də ov üçün hərisdilər. Erkən orta əsrlərdə maldarlıqda xüsusilə də ovçuluqda it xüsusi rol oynayırdı. Arxeoloqlar erkən orta əsr təbəqələrindən it sümükləri də aşkar edib.

Kalankatlı yazırdı ki, burada iri və xırda buynuzlu mal-qara, at, həmçinin minik atları, xüsusi cinsdən olan ağ atlar yetişdirilirdi. Arxeoloqlar Qusar r. Ənik kəndində at sümüklərinin qalıqlarını aşkar etmişlər. Mingəçevirdə tapılan bıçağın üzərində yüyənli at həkk edilmişdi. Arxeoloji qazıntılardan məlum olur ki, Albaniyada bu dövrdə dəvəçilk də inkişaf etmişdi. Həm toxuculuq sahəsi üçün, həm də minik kimi dəvəşilk inkişaf etmişdi.

Ölkədə eyni zamanda yun və dəri istehsalı da inkişaf edirdi. Yun toxuculuq üçün xammal idi. Mal-qaranın dərisindən xüsusilə toxuculuqda dəvə və qoyun yunundan istifadə edilirdi. Əhali dəri və yundan geniş istifadə edirdi. Mingəçevir qazıntılarından qoyun qırxımı üçün istifadə edilən yun qırxan qayçılar aşkar edilib. Bu, Albaniyada erkən orta əsrlərdə Albaniyada yun istehsalı və emalının yüksək səviyyədə olduğunu göstərir.

Albaniyada ağartı məhsulları istehsalı da yayqın olub. Təsərrüfatda gil, ağac və dəri nehrələrdən istifadə edilirdi. Arxeoloji

qazıntılardan bir sıra süd sağımı üçün istifadə edilən gil qablar, saxsı nehrələr aşkar edilib.

Albaniyanın təsərrüfat həyatında balıqçılığın da mühüm yeri var idi. Yazılı mənbələr Albaniyada balıqçılıq sahəsini də qeyd edib. Yazılı mənbələr və arxeoloji materiallar təsdiq edir ki, IV-VII əsrlərdə Albaniyada balıqçılıq yüksək inkişaf etmişdi. Mingəçevur, Beyləqanda aparılan qazıntılar zamanı erkən orta əsrlərə çoxlu balıq qalıqları, balıqçı torları və s. aşkar edilmişdi. Kalankatlı yazır ki, Xəzər dəniz və Kür çayında çoxlu iri və xırda balıq var. Antik və erkən orta əsr müəllifləri ölkədə müxtəlif növ balıq olduğunu yazırdı. Balıq məhsulları o qədər bol idi ki, başqa ölkələrə də ixrac edilirdi. Ərəb müəllifləri Kür və Araz çaylarında şamay, osetrina, okun kimi balıq növlərinin çox dadlı olduğu üçün Ərdəbil, Rey və İraqa aparıldığını yazırdılar. Albanlar balığı duzlayıb, qurudub dəvələrlə İrana aparırdılar. Yağından müalicəvi məlhəm hazırlayırdılar. Balığın içalatından isə o dövr üçün çox qiymətli olan yapışqan hazırlayırdılar. Bu, albanların yüksək təsərrüfat mədəniyyətinə sahib olduğunu göstərirdi. Kalankatlı albanların iri çaylar olan Kür və Araz boyu balıqçılardan rüsum topladığını yazır.

### *6.1.3.Sənətkarlıq*

Albaniyada sənətkarlığın inkişafı üçün zəngin xammal bazası var idi. Əkinçilik və maldarlığın inkişafı eyni zamanda ölkədə sənətkarlğın inkişafını da şərtləndirirdi. Albaniyada sənətkarlıq və sənətkarlıq istehsalının inkişafını yazılı mənbələr və arxeoloji materiallar da təsdiq edir. Albaniyada dulusçuluq, zərgərlik, toxuculuq, həmçinin ipəktoxuma, xalçaçılıq, şüşə istehsalı, metal emalı (dəmir, gümüş, qızıl), daş, ağac, sümük oyma sənəti, əmək alətləri istehsalı (dəmir oraq, dəmir gavahınlı xış, yun qırxan qayçılar, toxuculuq dəzgahları və s.), silah istehsalı (qılınc, xəncər, ox ucluqları, nizə) və inşaat işi sahələri kimi istehsal sahələri yüksək səviyyədə idi. Albaniyanın sənətkarlıq sahələri qonşu ölkələrlə - Yaxın və Orta Şərq ölkələri ilə eyni səviyyədə idi. Albaniyda toxucu, zərgər, dulusçu, metal emalı, əmək alətləri istehsalı, silah istehsalı və s. ilə məşğul olan sənətkarlar mövcud idi.

**Toxuculuq.** Albaniyada, xüsusilə toxuculuq sahəsi yüksək səviyyədə inkişaf etmişdi. Toxuculuğun inkişafı üçün lazım olan xammal – yun, kətan, ipək, pambıq istehalı mövcud idi. Albaniyada

xırda buynuzlu mal-qaranın bolluğu yun istehsalını - yun sap, parça, xalça və s. istehsalının xammalla təminatına şərait yaradırdı. Toxuculuq üçün gərəkli olan əsas xammal- yun, kətan, ipək, pambıq ölkədə yetişdirilirdi. Kalankatlı yazırdı ki, Kür sahilindəki bol barama müxtəlif rəngarəng ipək parçalar istehsalına şərait yaradırdı.

Albaniyada toxuculuq istehsalını mərkəzi Bərdə və Dərbənd idi. Bərdədən İrana da ipək ixrac olunurdu. Arxeoloqlar Mingəçevir, Beyləqan kimi ərazilərdan toxuculuq dəzgahları, ip əyirən və s. aşkar etmişlər. Əl-İstəxri, Yaqut Həməvi kimi ərəb müəllifləri də Albaniyda ipək, kətan, yun parça istehsal edildiyini qeyd edirdilər. İstəxri Bərdədən çoxlu ipək ixrac edildiyi, barama qurdlarının heç kəsə məxsus olmayan tut ağaclarının yarpağı ilə bəsləndiyini yazırdı.

Əsas boyaq maddəsi marena, müxtəlif ağac və bitkilərin kökü və yarpağı idi. Torpaqqala və Beyləqandakı qazıntılardan boyaq qalıqları aşkar edilib. Beyləqan, Mingəçevir qazıntılarından isə toxucu dəzgahları, ipək, kətan, yun, pambıq parça və sap qalıqları aşkar edilib. Erkən orta əsrlərdə Albaniyaya Orta Asiya və Çindən də parça gətirilirdi. Beləliklə, IV-VII əsrlərdə Albaniyada toxuculuq inkişaf etmiş sənətkarlıq sahələrindən idi.

**Dulusçuluq.** Albaniyada ən geniş yayılmış sənətkarlıq növlərindən biri dulusçuluq idi. Arxeoloji qazıntılar nəticəsində Mingəçevir, Qəbələ, Şamaxı, Torpaqqala (Qax r-nu), İsmayıllı kimi rayonlarda zəngin dulusçuluq məmulatı aşkar edilmişdir. Kalankatlı hətta şahlar üçün bahalı dulus məmulatının hazırlandığını qeyd edirdi. Zərgərlər dulus məmulatlarının bahalı daş qaş və qızıl-gümüşlə qaplayırdılar. Albaniyada dulusçu-sənətkarlar gözəl dulus məmulatı hazırlanırdı. Qablar quş, heyvan, insan başı formasında hazırlanırdı. Belə qablar tunc və gümüşdən də hazırlanırdı III əsrədək dulusçuluq yüksək səviyyədə inkişaf edirdi. Lakin III əsrdə dulus istehsalının texnikasında bir tənəzzül müşahidə olunurdu. Bu, bir tərəfdən müharibələr və köçəri tayfaların basqınlarının güclənməsi, dulusçuların yad ölkələrə sürgün edilməsilə, digər tərəfdən isə Albaniyada bu dövrdə şüşə, ağac və metaldan hazırlanan məişət əşyalarının dulus məmulatlını sıxışdırıb aradan çıxarması ilə izah olunur. III əsrdən etibarən daha çox şüşə, metal, taxta məmulatları istehsalı dulusçuluğun zəifləməsinə səbəb olmuşdu. Dulus məmulatlı tədricən daha çox aşağı təbəqənin məişətində əsas yer tuturdu. Alban dulusçuları şah üçün üstündə müxtəlif qiymətli qablar istehsal edirdilər və zərgərlər bu qabların üstünü qiymətli metallarla bəzə-

yirdilər. Alban dulusçuları əl əməyindən istifadə edir, çox nadir hallarda dulus kürəsindən istifadə edirdilər. Kambisena da dulusçuluq da mühüm yer tuturdu. Arxeoloji qazıntılar nəticəsində Kambisenadan çoxlu dulus kürələri aşkar edilmişdi.

Ölkədə **ağac emalı**, gön-dəri daş işləmə sahələri daha çox inkişaf etməkdə idi. Xüsusilə də şüşə istehsalı geniş vüsət tapmaqda idi. Arxeoloji qazıntılar nəticəsində müxtəlif ölçülü şüşə qrafinlər, bardaqlar, piyalə və şərab badələri, şəkərliklər və ətir flakonları aşkar edilmişdir. Arxeoloqlar Ağdam (Amaras), Qax (Torpaqqla), ərazilərindən şüşəbişirən kürələr aşkar etmişlər. Mingəçevir, Torpaqqala, Xnıslı (Şamaxı) Beyləqandan IV-VIII əsrlərə aid şüşə məmulatı da aşkar edilib Torpaqqalada erkən orta əsrlərə aid ilk şüşə emalatxanasının izləri aşkar edilib. Arxeoloqlar Ağdam və Qax ərazisində Torpaqqala) şüşə əridən sobalar aşkar etmişlər.

Albaniyada **daşişləmə sənəti** də inkişaf etmiş sənətkarlıq sahələrindən idi. Bunu Kalankatlının məlumatları və arxeoloji tapıntılar da təsdiq edir. Dövrümüzədək daş üzərində çoxlu təsvirlər-nəbati, zoomorf, süvari və s. təsvirlər olan bir çox alban abidələri gəlib çatmışdır.

Albaniyada ağacişləmə və sümükişləmə də geniş yayılmışdı. Albaniyada **sümükişləmə** və ağacişləmə sənəti də yüksək səviyyədə idi. Alban ustaları ağac və sümükdən naxışsalma işində də usta sayılırdılar.

**Metallurgiya.** Kalankatlı Albaniyada metallurgiya barədə, dəmir, mis, qızıl, gümüş istehsal edən, onun əridilməsi, emalı ilə məşğul olan sənətkarlar barədə məlumat verib. Yazılı mənbələr və Gədəbəy, Şirvan, Qarabağ, Şəki və s. rayonlardan aşkar edilmiş arxeoloji materiallar təsdiq edir ki, Albaniya qədim metallurgiya mərkəzlərindən biri olmuşdur. Xüsusilə, Kambisenada metallurgiya, metal emalı mühüm yer tuturdu. Metal emalının xüsusi texnikası mövcud idi. Arxeoloqlar bu ərazilərdən metal qəliblər və xəncər, oraq, qayçı, balta kimi istehsal alətləri aşkar etmişlər. Kalankatlı yazırdı ki, Albaniyada dəmir, mis, qızıl, gümüş emal edilirdi. Qızıl, gümüş, dəmir filizi və mis çıxarma üzrə çoxlu sənətkar usta var idi. Həmçinin qabları qızıl, gümüş və qiymətli daş-qaşla bəzəyən zərgərlər var idi. Alban zərgərləri qiymətli metallardan müxtəlif bəzək əşyaları hazırlayırdılar.

**Zərgərlik.** Albaniyada qızıl, gümüş, misdən müxtəlif bəzək əşyaları –sırğa, qolbaq, boyunbağı, üzük, kəmər və s. hazırlayırdılar.

Albaniyanın zərgərlik sahəsində bahalı metallardan, o cümlədən tuncdan piyalə, boşqab, bardaq kimi məişət əşyalarının hazırlanması da xüsusi yer tuturdu. Tunc və gümüşdən quş, heyvan, insan başı formasında Qablar hazırlanırdı. Albaniyanın bu sahədəki sənətkarlığında Ön Asiya, Yunanıstan, və Roma mədəniyyətini təsiri var idi. Alban zərgərləri qolbaq, sırğa üzük kimi şox zərif əşyalar hazırlayırdı.

Strabon albanların cida, ox, yay, kimi silahlardan, iri qalxan və dəbilqələrdən istifadə etdiyini yazırdı. Arxeoloji qazıntılardan da tunc və dəmir ox ucluqları, cida və s qədim silah növlərinin tapılması albanların mükəmməl **silahlar istehsal** etdiyini təsdiq edir.

Alban çarı və əsilzadələrinin öz möhürləri olmuşdur. Kalankatlı yazır ki, bu möhürlər üzük formasında idilər. Aquen kilsə məclisində qəbul edilmiş qanunnamə ilə bağlı mənbədə qeyd edilir ki, çar və onun bütün əyanları bu möhürə öz üzük-möhürlərini qoydular. Arxeoloji tapıntılar bu məlumatı təsdiqləyir. Mingəçevirdəki qazıntılar zamanı çoxlu üzük-möhürlər aşkar eilmişdir.Bu üzüklərin bir hissəsi yerli sənətkarlar tərəfindən hazırlanmışdı.

Beləliklə, yazılı mənbələr və arxeoloji materiallar Albaniyada III-IV əsrlərdə sənətkarlıq və onun müxtəlif sahələrinin yüksək səviyyədə inkişaf etdiyini göstərir.

### *6.2. Qafqaz Albaniyasının şəhərləri*

Feodal münasibətlərin inkişafı şəraitində şəhərlər daha sürətlə artmaqda idi. Erkən orta əsrlər dövrü Albaniyada şəhərlərin inkişafı ilə səciyyələnir. Bir tərəfdən Qəbələ, Naxçıvan, Dərbənd kimi qədim alban şəhərləri yenidən bərpa edilirdi, digər tərəfdən isə Bərdə, Beyləqan kimi yeni şəhərlər salınırdı. Belə ki, feodal əyanları yeni torpaqlar əldə etməyə çan atırdılar. Bu isə şəhərlərin çiçəklənməsinə, köhnə şəhərlərin bərpasına səbəb olurdu. Bir çox Şərq ölkələrində olduğu kimi Azərbaycanda da şəhərlər müxtəlif zəmin üzərində meydana gəlmişdir. Bəzi şəhərlərin yüksəlməsində onların əsas ticarət yolu üzərində yerləşməsi, burada sənətkarlıq və ticarətin inkişafı səbəb olurdu. Digər şəhərlər isə inzibati mərkəz kimi şöhrət tapırdılar. Bir qrup şəhərlər mülkədar torpaqlarında meydana gəlmiş və ya dini zəmin üzərində yüksəlmişdi. Orta əsr şəhərlərindən danışarkən, ilk növbədə onların coğrafi mövqeyinə nəzər salmaq zəruridir. Bir çox şəhərlər hərbi strateji cəhətdən təbii müdafiəsi əlverişli olan

mühüm cografi ərazilərdə salınırdı. Digər qrup şəhərlər isə iqtisadi cəhətən əlverişli, yararlı torpaq və xammal ehtiyatlarına malik olan ticarət yollarının qovşagında yerşəirdi.

Alban şəhərləri erkən orta əsrlərdə Alban Arşaki və ardınca Mehranilər sülaləsinin dayağı olmaqda idi. Çünki Albaniyanın ticarət-sənətkar təbəqəsi davamlı və sabit ticarəti təmin edəcək güclü dövlət və mərkəzi hakimiyyət tərəfdarı idilər. Hakim sülalənin paytaxt və iqamətgahı olan şəhərlər daha sürətlə inkişaf edirdi. Paytaxt şəhərdə hökumətin hərbi qüvvəsi çəmləşirdi. Siyasi və inzibati mərkəzə şevrilən şəhərlər çox zaman iqtisadi imtiyazlara sahib olurdular.

Albaniyada 3 tip şəhərlər inkişaf edirdi:

1. Beynəlxalq ticarət yollarının üstündə yerləşən şəhərlər (Bərdə, Dərbənd, Qəbələ, Çola, Beyləqan);

2. Sənətkarlıq məhsulu istehsal edən şəhərlər. Belə şəhərlər mühüm ticarət yollarından kənarda yerləşdikləri üçün bir növ qapalı idilər. Şəki, Şəmkir, Girdman, Naxçıvan belə şəhərlərdi. Bu şəhərlər, həm də hərbi əhəmiyyətli qalalar idi. Burada silahlı dəstələr də saxlanırdı.

3. Əkinçilk xarakterli şəhərlər. Onlar feodal vilayətlərinin inzibati mərkəzləri sayılsalar da sosial mənada şəhər deyildilər. Gavurqala (Ağdam), Torpaqqala (Qax), belə şəhərlərdən idi.

Albaniya üçün beynəlxalq karvan yollarının üzərində salınan şəhərlər xarakterik idi. Bərdə Dərbənd Qəbələ, Çola, Beyləqan belə şəhərlərdən idi. Bu şəhərlər iri inzibati və ticarət-sənətkarlıq mərkəzləri idilər. Onları mənbələrdə "möhtəşəm" və "məşhur" adlandırırdılar.

Şəhərlərin digər tipi qapalı, ticarət yollarından uzaqda yerləşən ticarət və sənətkarlıq mərkəzləri idi. Şəki, Şəmkir, Girdman, Naxçıvan belə şəhərlərdən idi. Bu şəhərlər, həm də hərbi dəstələrin yerləşdirildiyi müdafiə qalaları idi.

III tip şəhərlər əkinçilk xarakterli şəhərlər idi. Onlar sosial-iqtisadi mənada şəhər sayılmasalar da feodal mülklərinin inzibati mərkəzi idilər. Bunlar Gavurqala (Ağdam), Torpaqqala (Qax), və s. yaşayış məskənləridir. Albaniya üçün beynəlxalq karvan yolarının üzərində salınan şəhərlər xarakterik idi.

**Şəhərlərin sosial strukturu.** Şəhər əhalisi şəhər hakimi, ruhanilər, tacir və sənətkarlardan ibarət idi. Albaniya iqtisadiyyatında şəhərlərin rolunun artması nəticəsində şəhərin sosial strukturunda

dəyişikliklər ba° verdi. Sənətkar təbəqəsi meydana gəldi. Sənətkarlıq əkinçilikdən tamamilə ayrıldı. Kalankatlı şəhərlərin siyasi cəhətdən yerli hakim (qorsakal) tərəfindən idarə edildiyini yazırdı. Şəhər hakimi mürəkkəb siyasi vəziyyətlərdə bütün şəhər əhalisinin iştirakı ilə keçirilən toplantılara xüsusi qərarlar qəbul edirdi.

Mənbələr Qafqaz Albaniyasında 30-dan artıq şəhər və yaşayış yeri barədə məlumat verirlər. Son dövrlərdə Azərbaycan ərazisində aparılan arxeoloji qazıntılar nəticəsində Albaniyada antik dövrdə mövcud olmuş bir sıra şəhər tipli yaşayış məskənləri aşkara çıxarılmışdır. Bunlar Qəbələ (Çuxur-Qəbələ, Çaqqallı, Seyidtala, Uzuntala), İsmayıllı (Mollaishaqlı, Şıxdərə Kəlləsi, Qalagah), Ağsu (Nüydü düzü), Qax (Torpaqqala), Qazax (Sarıtəpə), Şamaxı, Beyləqan (Təzəkənd, Qaratəpə) rayonlarında, Mingəçevir bölgəsində aparılan qazıntılar nəticəsində aşkar olunmuş məskənlərdir.

**Qəbələ.** Qafqaz sıra dağlarının cənub ətəklərində yerləşən Qəbələ qüdrətli Alban dövlətinin baş şəhəri olub Albaniyanın ən böyük vilayətlərindən olan Qəbələ mahalında yerşəlirdi. Qədim Albaniyanın ən sıx məskunlaşmış bölgəsi olan Qəbələ vilayəti Həştərən vadisini əhatə edirdi. Bu vadi Böyük Qafqzazın ətəklərini əhatə edərək Alazan vadisinin davamını təşkil edir. Qərbdə Əyriçay bölgəsindən Şəki vadisinə, şərqdə Lahıca doğru uzanır. Həftəran vadisinin cənub sərhədi isə Köndələndağ boyu uzanır. Qəbələ mahalı Köndələndağ və Qafqazın cənub ətəkləri boyu uzanır. Yerli əhali hazırda da Qəbələ şəhərinin ətraf ərazilərini - Qəbələ və Oğuz rayonlarını Albaniya dövründə olduğu kimi Qəbələ mahalı, bu ərazidə yaşayanları isə qəbələləli adlandırırlar.

Albaniyanın mühüm şəhərlərindən biri olan Qəbələnin adı ilk dəfə I əsrdə Plini tərəfindən çəkilir. O, Yazır ki, Kabalaka Alban şəhərləri içərisində birinci yeri tutur. Eranın V əsrinədək Albaniyanın baş şəhəri olan Qəbələ şəhərinin adını eranın II əsrində yaşamış yunan müəllifi Ptolomey Xabala formasında çəkir. Ərəb-fars mənbələrində isə Qəbələ şəhəri elə Qəbala kimi də adlandırılmışdır. Bu şəhərin adaı sonrakı mənbələrdə Kəvələk, Qabala-Savar və nəhayət Qəbələ şəklində qeyd edilmişdir. Bu da Xəzər tayfalarının Şimali Azərbaycana gəlməsi və burada məskunlaşması ilə əlaqədər olmuşdur.

Siyasi – inzibati və kilsə – inzibati vahid – yepiskopluq olan Qəbələ vilayətində yerləşən Qəbələ şəhəri antik dövrdən erkən orta əsrlərə – V əsrə qədər Albaniyanın mərkəzi olmuşdur. Qəbələ haqda

Aquen kilsə Qanunnaməsində bəhs edilir. Bu qanunnamədə Çar və Bərdə arxiyepiskopundan sonra Qəbələ yepiskopu Manasın adı yazılıb. V əsr Aquen kilsə məclisi və VIII əsr Partav (Bərdə) kilsə məclisi cədvəllərində Qəbələ yepiskoplarından Manas (V əsr) və İohannın (VIII əsr) adları da var. 498-ci ildə çağrılmış Aquen Kilsə məclisinin qərarında Qəbələ yekiskopunun imzası Alban çarının və arxiyepiskopun imzasından sonra gəlmişdir.

E.ə. IV əsrin sonu - III əsrin əvvəllərində meydana gəlib. V əsrədək Albaniyanın paytaxtı, alban çarlarının və arxiyepiskopluğunun iqamətgahı olub. E.ə. III-I əsrlərdən - e.ə. V əsrədək Qəbələ böyük siyasi və ticarət mərkəzi olmuşdur. Arşakilər dövründə, V əsrədək alban çarlarının iqamətgahı və Alban dövlətinin paytaxtı olmuş, Qəbələ 510-cu ildən Sasanilərin təyin etdikləri mərzbanların qərargahına çevrilir və bununla əlaqədar Qəbələ, həm də Vostan-i-mərzban da adlandırılır. Xəzərlərin bu ərazilərdə möhkəmlənərək iqamətgah qurması ilə Qəbələ bir müddət Xəzər də adlanmışdır. Ərəb coğrafiyaşünası və tarixçisi Bəlazuri Qəbələni "Xəzər" kimi göstərmişdir.

Qəbələ şəhəri paytaxt Bərdə şəhərinə köçürüldükdən sonra da ölkənin ən iri siyasi-inzibati, dini-inzibati, ticarət-sənətkarlıq və mədəni mərkəzlərindən biri olaraq qalmışdır. Qədim ticarət yolları Qəbələni digər ölkələrlə birləşdirirdi. Xalqın yaddaşında bu gün də "Bəzirgan yolu" adı ilə bilinən qədim və orta əsrlər boyu mühüm beynəlxalq ticarət yolu Köndələndağın cənub ətəklərindən keçirdi. Albanlar bu ticarət yolu vasitəsilə Qara dəniz, Aralıq dənizi ölkələri ilə, cənubda isə Midiya, İran, Mesopotamiya ilə ticarət əlaqələri qururdular. Lakin V əsrdən etibarən Bərdə şəhərinin salınması və onun Albaniyanın baş şəhərinə çevrilməsilə Qəbələdən keçən "Bəzirgan yolu" nu Kürün sağ sahil ərazisindəki Beyləqən , Bərdə, Gəncə və Şəmkirdən keçən və qərbə uzanan yeni ticarət yolu əvəz edir.

Qəbələ Kürün sol sahili ərazisində coğrafi və strateji cəhətdən əlverişli ərazidə yerləşirdi. Ptolomeyin Albaniya ərazisində adını çəkdiyi şəhərlər içərisində dövrümüzədək nisbətən ən yaxşı qorunub qalmış alban şəhəridir. Qəbələ şəhərinin xarabalıqları (qədim və orta əsr təbəqəsi) hazırda Qəbələ rayonunun şərqində yerləşən Çuxur Qəbələ kəndi ərazisindəki hündür təpənin üzərində indi də qalmaqdadır. Şəhərin qərbindən Qaraçay, şərqindən Çourlu çayı axır. Bu çaylar Qəbələnin cənub hissəsində birləşərək Türyançaya tökülür.

Rəvayətə görə bu çayların birləşən yerində keçmişdə bənd var idi. Şəhər üçün təhlükə yarananda bu bənd vasitəsilə onun 4 tərəfi su ilə əhatə olunurmuş. Müdafiə üçün şəhərin hər tərəfi, həm də bürc divarları ilə də əhatə olunmuşdu. Şəhər ərazisi iki hissəyə ayrılıb, Şimal hissə yerli əhali arasında Səlbir, çənub isə Gavur qalası adlanır.

Qəbələ şəhərinin qədim dövr və ilk orta əsrlər dövrü tarixi qədim Qəbələ şəhəri ərazisində aparılmış arxeolji araşdırmalarla öyrənilmişdir. 1958-ci ildən bəri aparılan arxeoloji tədqiqatlardan məlum olur ki, şəhərin daha qədim hissəsi (e.ə.IV-eranın I əsri) Qaraçay və Qoçalan çay arasında yerləşirdi. I əsrin sonundan XVIII əsrədək qədim Qəbələ şəhəri Qaraçay və Gövurlu (Covurlu?) çayı arasında hündür təpədə yerləşirdi. O, Səlbir adlanan şimal və Qala adlanan cənub hissəyə bölünmüşdü. IX əsrdən əsas yaşayış yeri Səlbir ərazisi, IX əsrdən etibarən isə Qala ərazisi olmuşdur. Araşdırmalar nəticəsində Səlbir hissə Qəbələ şəhərinin ən qədim dövrünü I-IV əsrəri, Qala ərazisi isə V-VIII – IX- əsrləri əhatə edən təbəqələr aşkar edilib. Araşdırmalar təsiq edir ki, qədim Qəbələ ərazisi 1387-ci ildə Teymurilər tərəfindən dağıdılıb. Şəhərin sonrakı bərpa dövrü 1387-ci ildən XIX əsrədək dövrü əhatə edir.

**Dərbənd.** Bu qədim alban şəhəri də Albaniyanın mühüm şəhərlərindən olub, xüsusilə də Sasanilərin hökmranlığı dövründə Qafqazda mühüm dayağı olmaqla bərabər orta əsrlərin ən böyük ticarət və sənətkarlıq, həm də siyasi mərkəzi idi. Mənbələrdə Dərbəndi dənizdə tiklimiş nəhəng istehkam adlandırırdılar. Erkən orta əsrdə Dərbənd Sasanilərin Qafqazda əsas istehkam qalası olmuş və mühüm strateji əhəmiyyət kəsb etmişdir. Mənbələrdə Dərbənd “möhtəşəm şəhər-qala” kimi təsvir edilirdi. İri ticarət-sənətkarlıq və siyasi mərkəzlərdən biri olan Dərbənd qədim dünyanın mühüm ticarət yollarından birinin üzərində salınmışdı.

Hələ e.ə. VI əsrdə "Kaspi qapısı" kimi xatırlanan, sonralar ayrı-ayrı qaynaqlarda "Xəzər qapısı", "Alban qapısı", "Hun keçidi", "Qafqaz qapısı" və nəhayət "Dərbənd qapısı" kimi müxtəlif adlarla yad edilən məşhur keçid məhz Dərbənd ərazisində yerləşirdi. Məhz buna görə də həmin bölgə qədim dövr və orta əsrlərdə böyük hərbi-strateji əhəmiyyəti olmuş, onu əldə saxlamaq bu regionun dövlətlərinin həmişə diqqət mərkəzində dayanmışdı. Öz strateji mövqeyi hesabına qorunub saxlanmışdı. Mühüm hərbi strateji mövqeyə malik şəhər olması Dərbəndin sürətli inkişafına səbəb olmuşdu. Lakin

strateji mövqeyi Dərbəndi, həm də uzun müddət ərəb-xəzər müharibələrinin mərkəzinə çevrirmişdi. Dərbənd Sasani şahlarının strateji məntəqəsi, inzibati mərkəzi, böyük hərbi qarnizonunun toplandığı böyük iqtisadi-ticarət mərkəzinə çevrilməkdə idi. Ərəblərin hakimiyyəti dövründə də xilafətin Qafqazdakı ən iri dayaq məntəqəsinə çevrilmişdi. Dərbənd iki hissədən ibarət idi. Şəhər hakiminin iqamətgahının, qarnizonunun və s. yerləşdiyi Narınqala adlanan əsas hissəsi və şəhərin özü. Şəhər əhalisi nəsli əyanlar və zadəganlar, hərbiçilər, tacir və sənətkarlardan ibarət idi. Sasanilər sərhədi qorumaq üçün Dərbəndə yerləşdirərək onları torpaqla da təmin etmişdilər.

Dərbənd, həm də Şərqi Qafqazın əsas xristian mərkəzi və mühüm siyasi-ideoloji mərkəz idi. Kalankatlı burada VI əsərdək Alban Apostol kilsəsinin katolikosluğunun yerləşdiyini yazırdı.

Albaniyada IV-VII əsrlərdə Naxçıvan, Beyləqan, Şamaxı, Şəki, Şəmkir, Şabran, Amaras Çola, Xalxal, Paytakaran kimi də mühüm şəhərlər mövcud olmuşdur. Onların bir qismi, məsələn, Naxçıvan, Beyləqan, Şamaxı, Şəki, Şəmkir, Şabran, Çola, Xalxal, Paytakaran qədim kənd icmalarının yerində və ya ticarət yollarının qovşağında ticarət və sənətkarlıq şəhərləri ya çar və ya knyaz təsərrüfatının mərkəzi kimi, digər qrup şəhərlər isə, məsələn, Amaras, mülkədar torpaqlarında dini zəmin üzərində yüksəlirdi. Belə şəhərlər dini mərkəz olub məbəd ərazisi və onun təsərrüfatı əsasında yüksəliş kimi meydana gəlirdilər.

**Çola.** Qafqaz Albaniyasının mühüm orta əsr alban şəhərlərindən biri də Çola idi. Çola şəhəri Alban Katolkiosluğunun ilk mərkəzi olmuşdur. V əsrin birinci yarısında Sasani şahı II Yezdəgirdin hakimiyyəti dövründə Çolada güclü müdafiə qurğuları tikilmişdi. Kalankatlı Çolanın strateji əhəmiyyətindən başqa, bütün Qafqazda ilk xristianlıq ocaqlarından biri kimi ideoloji cəhətdən mühüm əhəmiyyəti barədə də məlumat verirdi.

Albaniyada dini zəmin üzərində yüksələn şəhərlər dini mərkəz olub məbəd ərazisi və təsərrüfatına malik olurdu. Bu tip şəhərlər, həm də məbədə məxsus vilayətin inzibati mərkəzi sayılırdı. Məbədlər və ya məbəd kahinləri ən iri sahibkar idilər. Məbəd təsərrüfatı Şərqdə antik dövrdən etibarən iqtisadi həyatın ayrıca bir forması kimi geniş yayılmışdı. Antik müəlliflərdən Stabon qeyd edirdi ki, Albaniyada kahin çardan sonra ikinci nüfuzlu şəxs sayılırdı və məbəd vilayətinin başında dururdu. Kahinlərin bir şox fövqəladə hüquqları var idi. Kahinlik nəsli olurdu və kahinlər hər şeyin sahibi hesab edilirdilər.

Məbədlər həm də yerli əhalinin təhlükədən, təqibdən, aclıqdan sığınacaq yeri idi. Dini mərkəz olan belə məbəd əraziləri və təsərrüfatı da yerli əhali tərəfindən becərilirdi. Qeyd etmək lazımdır ki, məbəd şəhərləri öz quruluşuna görə şəhərlərdən ciddi fərqlənirdi. Bu şəhərlərin qala divarları qismən kiçik olub yalnız məbəd və məbədə baglı binaların ətrafında idi. Məbədin ixtiyarında olan torpaq sahələrində kəndli icmaları yaşayırdı. Məbəd torpaqlarında yaşayıb onu becərən əhali çox vaxt məbəd sakinlərinə verilmiş imtiyazlardan istifadə edirdi. Kiçik məbəd şəhərlərində məbəd torpağının bir hissəsində - qala divarlarından bir qədər aralıda sənətkar emalatxa-naları və digər yardımçı binalar inşa edilirdi. Məbədətrafı torpaq müqəddəs sayılırdı və onun bütün gəlirləri kahinə çatırdı.

**Amaras.** Albaniyada mülkədar torpaqlarında dini zəmin üzərində yüksələn şəhərlərdən biri də Albaniyanın Haband vilayə-tində yerləşən Amaras şəhəri idi. Amaras dini mərkəz olub məbəd ərazisi və təsərrüfatı olan şəhərlərdən sayılırdı. Amarasda ilk yaşayış e.ə. IV-III əsrlərdən başlanmışdır. Bu şəhər 3 tərəfdən dag yamacları ilə əhatə olunmuş bir dərədə salınmışdı. Coxlu bulaqları, əlverişli iqlimi və yararlı torpaq sahəsinə malik idi. Şəhər Amaras çayı vasitəsilə iki issəyə bölünürdü. Amaras dərəsi şərqə doğru uzanaraq Qarabağ düzənliyi ilə birləşir. Bu ərazi orta əsrlərdə özünün mey-vəcilik, bağçılıq təsərrüfatı ilə məşhur idi. Hələ XIII əsrdə Amaras bağlarının şöhrəti ətraf ərazilərə yayılmışdı. XII-XIII əsrlərə aid aşkar olunmuş abidələrdə memarlıq abidələri üzərində memarlıq bəzəyi kimi üzüm, nar, və digər ağacların təsviri buradakı coğrafi şəraitin sənətkarlığa da təsir etdiyini göstərir.

Haband vilayəti Qafqazda xristianlığın dövlət dini kimi qəbul edilməsində yaxından iştirak etmiş Alban katolikosu I Qriqorinin şəxsi malikanələrindən idi. Antik müəlliflərin verdiyi məlumata görə, Amaras daxil olmaqla Haband vilayəti Qriqorinin şəxsi malikənəsi idi. O, burada ilk xristian kilsəsinin əsasını qoymuşdur. Qeyd etmək lazımdır ki, Amaras xristianlıqdan öncə də dini mərkəz olmuşdur. Antik müəlliflər Amarsın kahinlər vətəni olduğunu qeyd edirdilər.

Bu alban şəhəri orta əsr mənbələrində Amaras kimi qeydə alınsa da yerli əhali bu əraziyə Ağoğlan adı vermişdir. Ağoğlan Amaras adına nisbətən daha qədim olub yerli əhalinin astral təsəv-vürləri – Günəşə sitayişlə bağlı olmuşdur. Amarasda aparılmış arxeoloji tədqiqatlar bu ərazidə antik dövrə aid yaşayışın və ona aid qəbiristanlıq olduğunu, burada xristianlıqdan əvvələ aid bir neçə

binanın qalıqları olduğu müəyyən edilmişdır. Hələ e.ə. IV-III əsrlərdən bölgədəki Ziyarət dağı və Müqəddəs dağ yerli əhalinin dini ibadətgah yeri olmuşdur. Hər iki dağın zirvəsində xristianlıqdan öncəyə aid məbəd qalıqları var. E.ə.III-II əsrlərdə Müqəddəs dagda inşa edilmiş böyük məbəd əhalinin əsas sitayiş yerinə çevrilmişdir.

IV əsrin əvvəllərindən başlayaraq Amarasın dini həyatında daha mühüm hadisələr baş verir. Xristian dininin ilk təbliğatçılarından biri olan Qriqori Albaniyanın bir sıra vilayətlərində, xüsusilə də, Amarasın daxil olduğu Haband vilayətində xristianlığın geniş təbliğinə başlayır. Xristianlığın Albniyada dövlət dini kimi formalaşdığı bir vaxtda Amaras onun ilk fəaliyyət məntəqələrindən biri olmuşdur. Bu dövrdən etibarən Amarasda köhnə məbəd təsərrüfatını yeni dinlə -xristian kilsəsi ilə əlaqədar təsərrüfat əvəz edir.

Amaras yepiskopluğuna cənubdan Araz çayına, şimaldan Qarqar çayına, qərbdən Beyləqan, şərqdən isə Kirs dagınadək geniş ərazilər daxil idi. Tarixi məlumatlara görə IV əsrdə Amarasda ilk xristian məbədi tikilmiş və burada Alban yepiskoplarından biri-Maarifçi Qriqorinin nəvəsi olan Qriqoris dəfn edildiyi üçün bu ərazi ziyarətgaha çevrilmişdir. Orta əsrlərdə Amarasla baglı verilən mühüm məlumatlardan biri məhz burada ilk alban yepiskopu Qriqorisin dəfn edilməsi idi. Maarifçi Qriqorinin nəvəsi olan Qriqoris hələ 15 yaşında ikən Albaniyanın yepiskopu təyin edilmişdi. Qriqorisin Albaniyada fəaliyyəti uzun çəkməmişdir. O, burada cəmi 7-8 il yepiskop olmuş, 337-ci ildə isə öldürülmüşdür. Qriqoris IV əsrin 30-cu illərində Amarasda dəfn edilmiş, və həmin vaxtdan etibarən Amaras Albaniyanın xristian əhalisinin əsas ziyarətgahlarından birinə çevrilmişdir. Həmin qəbir indi Amaras kompleksindəki kilsənin altarı altındakı sərdabədə qalmışdır. Bu sərdabəni 1970-ci ildə Azərbaycan arxeoloqları aşkar etmişdir.

Alban çarı III Vaçaqanın dövründə Amaras ziyarətgah kimi ölkənin ruhani dairələrinin başlıca diqqət mərkəzində idi. Ölkədə xristianlığın tam qələbə çalmasında həlledici rol oynamış Vaçaqan Aquen məclisinin qərarı ilə əyalət kilsələrinin, o cümlədən Amaras kilsəsinin və onun yepiskoplarının da hüquqlarını müəyyənləşdirmişdi. Vaçaqan müqəddəs Qriqorinin nəslindən olan Qriqorisin qəbrinin tapılması və ziyarət yerinə çevrilməsi və Amaras məbədinin ümumalban məbədi olması üçün mühüm tədbirlər görmüşdü. Bunun üçün Vaçaqan Amarasa gəlmişdi. Alban hökmdarının kəndə gəlməsi münasibətilə bu ərazini iki yerə bölən çayın üzərindən xüsusi körpü

salınır. Lakin Qriqorisə hörmət əlaməti olaraq çar cayı piyada keçir və müqəddəsin şərəfinə dualar oxuyur. Bu dövrdən etibarən Amaras ölkənin hüdudlarından uzaqda da tanınmağa başlayır. Xristianlığın əsas mərkəzi olan Yerusəlimdə müqəddəs Qriqori adına Amaras monastırı inşa edilir.

Amaras şəhəri iqtisadi cəhətən əlverişli, yararlı torpaq və xammal ehtiyatlarına malik dini mərkəz olmaqla yanaşı, həm də ticarət yollarının qovşağında yerləşirdi. Şəhərin iqtisadi inkişafına təsir göstərən mühüm amillərdən biri onun orta əsrlərin ən mühüm karvan yollarından birinin üzrərində - Bərdə-Ərdəbil yoluna yaxın yerləşməsi idi.

Amaras həm də hərbi-strateji cəhətdən də əlverişli mövqeyə malik olmuşdur. Hər iki tərəfdən dağlarla əhatə olunmuş və bu dağ silsilələrinin qurtaracağının dar bir keçid əmələ gətirməsi şəhər ərazisinin düşmən hücumundan müdafiəsini asanlaşdırırdı. VIII-IX əsrlərdə Amaras əldən-ələ keçməklə döyüş meydanına çevrildiyi dövrlərdə şəhərin belə əlverişli mövqeyindən döyüş zamanı istifadə edilməkdə idi. Azərbaycan əraziləri uğrunda ərəb-xəzər müharibələri zamanı 763-764-cü ilərdə Amarasın daxil olduğu Haband vilayəti Xəzər sərkərdəsi tərəfindən işğal edilmişdi. Alban knyazı Yesayi əbu Musa öz qoşununu ərəb sərkərdəsi Bugaya qarşı mübarizədə şəhərin belə strateji mövqeyindən istifadə etmişdir. Amaras dərəsi Cavanşir, həmçinin Babəkin də ərəblərə qarşı mühüm sığınacaq nöqtələrindən biri olmuşdur. 822-ci ildə Bərdədən hücum edən ərəblər Amarasa da yürüş etmişdilər. Kalankatlının verdiyi məlumata görə 841-ci ildə Babək öz qoşunları ilə Araz çayını keçərək əlverişli hərbi strateji mövqedə olan Amarası özünə hərbi düşərgə etmişdi.

Qafqaz Albaniyasının yepiskopluq mərkəzi olmuş Amaras şəhərinin xarabalıqları son XX əsrin sonlarına kimi eyniadlı çayın sağ sahilində Cütcü kəndi ərazisində qalmaqda idi. Amaras monastır kompleksi IX əsrdə yenidən tikilərək və sonrakı yüzillərdə dəfələrlə təmir və əlavələr edilərək XIX əsrdə son görkəmini almışdır. Amaras monastır kompleksi Qafqaz Albaniyasının-Azərbaycanın xristian memarlığının dəyərli abidələrindən sayılır. Lakin hazırda Amaras monastırı kompleksi Ermənistan Silahlı Qüvvələrinin işğalı altındadır.

**Ayniana.** Albaniyanın qədim şəhərlərindən biri də Albaniyanın mühüm vilayətlərindən biri olan Uti vilayətində yerləşən Ayniana olmuşdur. Starbonun məlumatına görə antik dövrdə Albaniyada

utilər və anariaklar ilə birlikdə aynian tayfaları da yaşayırdılar. Aynianların əvvəllər Arazın cənubunda, daha sonra şimala və tədricən Kür çayı sahilinə köç etməsi ehtimal edilir. Strabon onlarla bağlı yazırdl ki, aynianların bir hissəsi Uti vilayətində məskun idi. Strabon qeyd edi ki, aynianlar Uti vilayətində Ayniana adlı gücləndirilmiş şəhər saldılar. Şəhər keyfiyyətli silah və mis məişət əşyaları hazırlayan sənətkarları ilə məşhur idi. Bu alban şəhəri artıq e.ə.IV- III əsrlərdə mövcud idi.

Yazılı mənbələr antik dövrdə Albaniya ərazisində beynəlxalq dəniz və quru ticarət yollarının Cin və Hindistandan Amudərya yolu ilə Xəzər dənizindən keçərək Kürün yuxarı axarı ilə, daha sonra Qara dənizə çıxan ticarət yolu olduğunu göstərir. Bu yoldakı ən mühüm vasitəci ticarət mərkəzi isə qədim Mingəçevir ərazisi olmuşdur. Bu yolun üzərində Bərdə, Beyləqan (Paytakaran), həmçinin çoxsaylı yaşayış məntəqələri yerləşirdi. Bu yolun üzərində yerləşən şəhərlərdən birinin də Ayniana olduğu ehtimal edilir.

Alban şəhəri Ayniana Ərəb mənbələrindəki orta əsr Yunan şəhəri ilə eynidir. Bu şəhər barədə ərəb müəlliflərindən Küfi (IXəsrin sonu-X əsr əv), İstəxri (X əsr I yar), İbn Haykal (X əsr II yar), Müqəddəsi (X əsr), Yaqut (XIII ər əv) məlumat verib. Ərəb müəlliflərində Yunan şəhəri haqda ilk məlumatı Kufi özünün "Kitab əl Fütux" əsərində VIII əsrin əvvəllərində Beyləqanda Müsafirin başçılığı ilə anti-ərəb üsyanı (748-752) ilə bağlı məlumaat verir. Müəllif bu şəhəri Beyləqan və Bərdə arasında yerləşdirir. İstəxri, İbn Heykal, Müqəddəsi kimi ərəb müəllifləri də yazırdı ki, yunan şəhəri Beyləqanın və Bərdənin 7 fərsəxliyində yerləşir.

Yunan (Ayniana) şəhərinin yerləşdiyi bölgənun müəyyənləşməsində Azərbaycan ərazisində Qalatəpə ərazisindəki arxeoloji tədqiqatlar kömək etmişdir. Qalatəpə yaşayış yeri ərəb müəlliflərinin Yunan (Ayniana) şəhəri haqda məlumatları ilə üst-üstə düşür. Onlar da bu şəhərin Bərdə və Beyləqanın 42-49 km-liyində yerləşdiyini yazırdlar. Qalatəpə Bərdənin 45 km-liyində yerləşir. Örənqala (Beyləqan) isə isə 35 km-liyində yerləşir.

Erkən orta əsrlərdə Albaniyada Qəbələ, Naxçıvan, Dərbənd kimi qədim şəhərlərlə bərabər Bərdə, Beyləqan kimi orta əsr şəhərləri də meydana gəlməkdə idi.

**Bərdə** Albaniyanın baş şəhəri idi və ticarətdə mühüm rol oynayırdı. V-VII əsrlərdə Albaniyanın paytaxtı olmuşdur. Kalankatlı şəhərin V əsrin II yarısında Alban çarı Vaçe tərəfindən tikildiyini

yazır. Sasani hökmdarı Perozun əmri ilə Vaçe Perozabad şəhərini salır. Alban katolikosunun iqamətgahı da V əsrdən etibarən Bərdəyə köçürülmüşdür. Bu dövrdən etibarən Bərdə həm ölkənin paytaxtı, həm də dini mərkəzi olmuşdur. V-VII əsrlərdən Albaniya əyalətinin inzibati mərkəzi kimi Bərdə mühüm strateji məntəqə hesab edilirdi

Bərdədən müxtəlif şəhərlərə ticarət yolları uzanırdı. Bu yollardan biri Bərdədən şimalda-Şamaxıdan Şirvan və Dərbəndə gedir, cənub –şərqdə Beyləqandan Ərdəbilə, oradan isə İrana gedirdi. Digəri isə cənub-qərbə Dvin şəhərinə, oradan isə Suriyaya gedirdi. Ticarət yolarından biri isə şimal-qərbə Gəncədən Tiflisə, oradan da Qara dəniz sahillərinə uzanırdı.

V əsrdə Albaniyanın paytaxtı Bərdə (Partav) idi. İran, Orta Asiya, Cənubi Azərbaycan, Gürcüstan, Şimali Qafqaz, Ərəb ölkələri, Bizans kimi ölkələrdən gələn karvan yollarının kəsişməsində yerləşən Bərdə Yaxın və Orta Şərqin ən irfi ticarət mərkəzini çevrilməkdə idi. Bərdə həm də Albaniyanın iri əyalətlərindən biri olan Uti əyalətinin əsas şəhəri idi. Erkən orta əsrlərdə O, Qafqaz Albaniyasının siyasi, sini və mədəni mərkəzinə çevrilir. Bərdə alban Arçakilərin son nümayəndələrinin və Mehranilərin, V-IX əsrlər boyu Alban katolikosluğunun iqamətgahı olub. Kalankatlı Bərdənin V əsrdə Alban çarı Vaçe tərəfindən salındığını yazır.

Bərdə həm də ticarət və sənətkarlıq mərkəzi idi. Buradan tacirlər öz ölkələrinə ipək qurdu,, barama, əncir, marena aparırdılar. Bərdə İran, Orta Asiya, Cənubi Azərbaycan, ərəb ölkələri, Bizansın Qafqazla karvan yollarının qovşağında yerləşdiyi üçün Yaxın və Orta Şərqin nəhəng ticarət mərkəzi idi. 628-ci ildə Bizans-İran müharibələri zamanı Bərdə xəzərlər tərəfindən dağıdılsa da Ərəb xilafətinin hakimiyyəti zamanı xəlifə Müaviyə dövründə (661-680) Aran (Albaniya) hakimi Əbdül-Əziz ibn Xatim tərəfindən bərpa olundu. Abbasilər dövründə (752) Bərdə alban knyazlarından alınaraq ərəblərin təşkil etdiyi Aran vilayətinin paytaxtına çevrilir və bu dövrdən etibarən tamamilə ərəblərin nəzarəti altına keçir. Ərəb xilafətinin mühüm şəhərlərindən birinə çevrilən Bərdədə zərbxanalar fəaliyyət göstərirdi. Xəlifə Mənsurun dövründə Bərdənin özünün xüsusi "Bərdə" möhürü ilə pul zərb edən sikkəxanaları var idi.

Beləliklə, IX-X əsr ərəb mənbələrində Bərdə Aranın əsas şəhəri, Qafqazın ən iri şəhəri, Abbasilər dövründə özünün ən yüksək çiçəklənmə mərhələsini keçirən şəhər kimi qiymətləndirilirdi. Mənbələrdə onun möhtəşəm bazarlarından, sənətkarlıq məhsulların-

dan, xüsusilə ipəktoxuma məmulatlarından bəhs edilir. X əsrdə əsas tranzit yollarının şimaldan cənuba keçməsi, işğalçı yürüşlərin başlanması və digər iqtisadi səbəblər üzündən Bərdə tənəzzülə uğradı.

### *6.3. Albaniyada ticarət və pul tədavülü*

**Ticarət yolları.** Alban və Savalan keçidləri vasitəsilə cənub-şərq və cənubla, Gürçüstan vasitəsilə qərblə, Atropatena vasitəsilə İranla və Böyük Qafqaz vasitəsilə şimalla ticarət əlaqələri saxlayırdılar. Xüsusilə də Bərdə İran, Orta Asiya, Cənubi Azərbaycan, ərəb ölkələri, Bizansın Qafqazla karvan yollarının qovşağında yerləşdiyi üçün Yaxın və Orta Şərqin nəhəng ticarət mərkəzi idi. Lakin 628-ci ildə Bərdə Bizans-İran müharibələri zamanı Bizansla müttəfiq olan xəzərlər tərəfindən dağıdılır. Şəhər xəlifə Müaviyə dövründə (661-680) bərpa olundu və 752-ci ildən yenidən Aran vilayətinin paytaxtına çevrildi. Ərəb xilafətinin mühüm şəhərlərindən birinə çevrilən Bərdədə zərbxanalar fəaliyyət göstərirdi və "Bərdə" möhürü ilə sikkələr zərb edilirdi.

**Pul**. Antik Azərbaycanda dövlətçilik ənənələrini sübut edən amillərdən biri onun ərazisində mövcud olmuş Albaniya (Qafqaz Albaniyası) və Atropatena dövlətlərində zərb edilən yerli sikkələrin aşkar edilməsidir. E.ə. III əsrdən etibarən Azərbaycanda sikkə zərbinin yaranması üçün əlverişli münbit iqtisadi, siyasi şərait formalaşmışdı. Ellin dövrü adlandırılan bu zamanda Azərbaycan ərazisində daxili və xarici ticarət əlaqələri dünya ticarəti səviyyəsində idi.

Azərbaycanda tapılmış ən qədim pul nümunəsi e.ə. IV əsrin sonlarında Babildə zərb edilmiş 2 ədəd tetradraxmadır. Bu sikkələr 1820-ci ildə Şamaxıda tapılmışdı. Azərbaycan ərazisində tapılan və Azərbaycana məxsus ən qədim sikkə **isə** keçən əsrin sonlarında İçərişəhərin ərazisində Məhəmməd məscidi yaxınlığında aparılan arxeoloji qazıntılar zamanı mütəxəssislər tərəfindən aşkar edilən Əhəməni imperatoru II Haşayar tərəfindən zərb edilmiş misdən hazırlanmış, sikkədir. E.ə. V əsrdə zərb olunan bu sikkə günümüzə kimi nəfis görkəmini saxlamaqdadır. Onu zərb etdirən II Haşayar isə dünyada qəhrəmanlıqlarına və tutduğu ərazilərə görə "hökmdarlar hökmdarı" adını almış Kserksdir. Bu cür bir sikkənin, yeganə nüsxədə olsa da, bizim ölkəmizdə tapılması onu sübut edir ki, əcdadlarımız ən qədim zamanlardan pulun dəyərini başa düşürdülər. Hal-hazırda da bu sikkə numizmatika ekspozisiyasında sərgilənir.

Əhəmənilər imperiyasının dağılması ilə qədim Azərbaycan torpaqlarında yaranan Atropatena və Albaniya suveren dövlət kimi e.ə. III-I əsrlərdə özünün gümüş sikkələrini zərb edirdilər. Artıq e. ə. III əsrin ikinci yarısından beynəlxalq ticarətə qoşulmuş albanlar və atropatenalılar daxili bazarın ehtiyaclarını ödəmək məqsədilə İskəndərin gətirilmə sikkələrinə bənzər pullar zərb etməyə başlamışdılar. Bu sikkələr Makedoniyalı İskəndərin draxma[1] və tetradraxmalarına[2] oxşayırdı. Ümumiyyətlə antik dövrdə Albaniyada pul münasibətləri yüksək səviyyədə idi. Strabon Albaniyada sikkələrdən az istifadə olunduğunu, albanların 100-dən yuxarı saya bilmədiyini, ticarətin əsasən əmtəə mübadiləsi vasitəsilə həyata keçirildiyini yazsa da, Azərbaycan ərazisindən tapılmış bir çox sikkələr Albaniyada pul mübadiləsinin geniş yayıldığını göstərir. Arxeoloji qazıntılardan aşkar edilən numizmatik materiallar e.ə. III əsrin sonlarından Albaniyada pul zərbinin mövcudluğunu təsdiq edir. Bu dövrdə Albaniya ərazisində həm «gətirilmə pullar», həm də daxili bazarı təmin etmək üçün Makedoniyalı İskəndərin pul sisteminə əsaslanan yerli gümüş pullar dövriyyədə olmuşdu. Makedoniyalı İskəndərin adından zərb edilən pullar onun ölümündən sonra da imperiyanın ərazilərində dövriyyədə qalmaqda idi. Amma bu pullar daxili bazarı tam təmin edən Albaniyanın İskəndərin pullarına bənzədilsə də öz pulları idi. Albaniyanın yerli pulları e.ə. II əsrin 80-ci illərinə qədər dövriyyədə olmuşlar.

Ümumiyyətlə Albaniyanın antik dövr pullarını 2 mərhələni əhatə edir.

I mərhələ - ellinizm dövrünü əhatə edərək e.ə. IV əsrin sonlarından - e.ə. I əsrin ortalarına qədərki dövrü, II mərhələ isə - e.ə. I əsrin ortalarından-eramızın III əsrinə qədərki mərhələni əhatə edir. I mərhələyə aid numizmatik materiallar XIX əsrdə Bərdə, Qəbələ, Şamaxı ərazilərindən tapılmışdır.

**Numizmatik materiallar** albanların Ellin dünya və Şərqlə geniş ticarət əlaqələrinin olduğunu təsdiq edir. Belə dəfinələrin böyük hissəsi tarixi Albaniyanın məhz Bərdə- Beyləqan bölgəsində aşkar edilib. Bu tapıntılar sübut edir ki, İpək yolunun qollarından biri də bu bölgədən keçirdi. Bərdə yaxınlığında e.ə.II əsrə aid Makedoniya və Selevki tetradraxmaları, Bərdə, həmçinin Orənqalada

---

[1] Qədim Yunanıstanda e.ə. VI əsrdən işlənən pul vahidi, gümüş sikkə.

[2] Tetradraxma qədim yunan gümüş sikkəsi idi, dörd draxmaya bərabər idi.

(Beyləqan r.) ərazisindən e.ə.Iəsr -e II əsrinə aid Roma sikkələri (Romanın həm respublika, həm də imperiya dövrünə aid) də tapılıib. Bərdədə həmçinn həmin dövrə aid Arşaki sikkələri də aşkar edilmişdir.

Albaniya ərazisindən e.ə. II əsrə aid sikkələr də aşkar edilmişdir. Şamaxının Xınıslı kəndindən Afina, Pont, Selevki və s. ölkələrə aid sikkələr tapılıb. Naxçıvan, Bərdə, Gəncə, Qəbələ, Şamaxı kimi bölgələrdən də antik sikkələr aşkar edilib.

E.ə. I - eramızın I əsrinin ortalarından Albaniyada Roma pullarından istifadə olunmağa başlayır. Bununla da Albaniyanın yerli sikkə zərbi süquta uğrayır. Sonuncu dövr e.ə. I əsrin ortalarından - e. III əsrinə qədər - Sasanilərə qədərki dövr olmuşdur. Ərəb işğalının ilk illərindən etibarən üzərində yer adı, zərbxana adı "Azərbaycan" olan gümüşdən və qızıldan ilk sikkələr (dirhəm və dinar ) zərb edilmişdir. Belə pullar ölkəmizin əksər yerlərindən tapılır.

# VII FƏSİL

# QAFQAZ ALBANİYASININ MƏNƏVİ MƏDƏNİYYƏTİ VƏ ETNO-MƏDƏNİ İRSİ

## *7.1. Qafqaz Albaniyasında din*

### *7.1.1. Albanların ibtidai dini dünyagörüşləri*

Əsrlərdən bəri müxtəlif mədəniyyətlərin qaynayıb-qarışdığı bir ərazi olmuş Azərbaycan müxtəlif dinlərin formalaşdığı, çoxkonfessiyalı bir ölkədir. Burada ayrı-ayrı dövrlərdə bütpərəstlik, zərdüştlik, yəhudilik, xristianlıq, islam kimi dini inanclar bu və ya digər dərəcədə yayıla bilmiş, bir-birinə qarşılıqlı təsir göstərmişdi. Qafqaz Albaniyası dövrü Azərbaycan əhalisinin islamaqədərki inanclarının ən zəngin mərhələsini təşkil edir.

Albanlar çox qədim dövrlərdən Aya, Günəşə, Göy üzünə, eyni zamanda ildırım, göy gurultusu kimi müxtəlif təbiət hadisələrinə və onun təzahürlərinə - daş, su, ağac və s. sitayiş edirdilər. Alban müəllifi Musa Kalakatlı "Albaniya tarixi" əsərində qədim dövrlərdən etibarən Albaniyada ibtidai dinlər, o cümlədən od, ağac, su, torpaq və s. sitayişin geniş yayıldığını qeyd edirdi. Antik müəlliflərin yazdığına görə, albanlar göylərə yaxın olmaq üçün qurbanlarını uca dağlarda kəsirdilər.

Antik müəlliflər Albaniyanı Ay məbədləri ölkəsi kimi dəyərləndirirdi. Alban ilahilərini yunan adları ilə qeyd edən Strabon, xristianlığın qəbuluna qədər albanların Helios (Günəş), Zevs (Yer və Göyün tanrısı), Seleneya (Ay), xüsusilə İberiya yaxınlığında məbədi yerləşən Selenaya sitayiş etdiklərini yazırdı. İlahilərdən onlar Helios, Zevs və Selenaya, xüsusilə də, məbədin İberiya yaxınlığında yerləşdiyi Selenaya sitayiş edirdilər. Aya sitayiş edən albanlar, xüsusilə də yeni doğmuş aya (aypara) xüsusi hörmətlə yanaşırdılar. Arxeoloji və etnoqrafik tədqiqatlar nəticəsində bir çox qəbir abidələrindən, alban maddi mədəniyyət nümunələrində Ay İlahəsi Selenanın izlərini daşıyan üzərində aypara ornamentləri ilə naxışlanmış əşyalar, qəbir abidəılərindən aypara və həyat ağacı təsvirlərinə tez-tez rast gəlinir.

Mənbələrdən məlum olur ki, müxrəlif ibtidai inamlar, bütpərəslik Albaniyanın, xüsusilə şimal-qərbində geniş yayılmışdı. Selena

(Ay) məbədinin İberiya yaxınlığında yerləşdiyi tarixi ərazini, Strabon həm də "müqəddəs bölgə" adlandırır. Bu "müqəddəs bölgə" haqqında məlumat verən antik müəllif böyük və çoxlu əhali yaşayan müqəddəs vilayətin başında duran kahinin Albaniyada çardan sonra ən hörmətli adam olduğunu yazır. Tədqiqatlar Strabonun Ay məbədini yerləşdirdiyi və "müqəddəs" adlandırdığı vilayətin məhz Şəki vilayəti olduğunu göstərir. Albaniyanın şimal-qərb bölgəsində yerləşən və Qafqaz Albaniyasının Qəbələ, Kambisena, Lpina vilayətləri ilə sərhədlənən Şəki vilayətinin qədim dövrlərdən bəri Ay və Günəş məbədləri ilə zəngin olmuşdur. Olmasını yazılı mənbələrlə yanaşı arxeoloji-etnoqrafik tədqiqatlar da təsdiq edir. Hazırda da bu bölgədə Komrad (Qəbələ r), Pəriqala (Zaqatala r.), Kürmük (Qax r.), Kiş (Şəki r.) kimi astral kultlarla bağlı köhnə məbəd qalıqlarının bünövrəsi qorunub qalmışdır. Belə məbədlər üzərində inşa edilmiş erkən xristian məbədlərində kult simvolikasının izləri özünü büruzə verir. Bu qədim alban məbədləri albanların sitayış etdikləri İlahi uçlük-göy, günəş və ay tanrıları şərəfinə inşa edilmiş və sonralar xristianlıq ayinlərinin keçirildiyi ibadətgah rolunu oynamışlar.

Albanların göylərə sitayişi və onun təzahürləri kimi göy gurultusu, ildırım kimi təbiət hadisələri, həmçinin göylərə yaxın olduğu üçün uca ağaclara və daglara sitayişi barədə alban müəllifi Musa Kalankatlı məlumat verir. Müəllif Albaniyada "Göylərin sahibi olan Tenqrı xanın şərəfinə" dualarla müşayiət olunan mərasimlə at qurban edildiyni, atın qanının ağaclara çiləndiyini, başının və dərisinin isə ağaçın budaqlarından asıldığını yazırdı. Etnoqrafik tədqiqatlar göstərir ki, yüksək ağaclara, Günəş və Aya sitayişlə müşayiət olunan Tanrı xan kultu[1] ilə baglı belə qurban ayinlərinin izləri Azərbaycanda bu günədək qorunub saxlanmışdır. Hələ XIX əsrdə Azərbaycanın bir çox bölgələrində müqəddəs ağacların altında kəsilən qurbanın dərisinin ağacdan asılması ənənəsi qalmaqda idi. Bu ənənəyə hazırda Qafqaz Albaniyasının V əsrədək mərkəzi olmuş

---

[1] Qədim Azərbaycan əhalisinin əsas sitayiş obyektlərindən biri də Göylərə sitayiş-Tanrıçılıq olmuşdur. Şərq mifologiyasında səmanın ilahiləşdirilməsini ifadə edən *dingir-tenqri* kəlməsi Azərbaycan xalqının dilində bu günədək *Tanrı* kimi qorunub saxlanmışdır. Azərbaycanlılar arasında *Tanrı günümüzdə də* Göy üzündəki ilahi qüvvə -"Allah" mənasını ifadə edərək "Tanrı haqqı", "Yeri, göyü yaradan ulu Tanrı", "Tanrı sənə yar olsun" kimi alqış və andlarda işlənməkdədir.

Qəbələ bölgəsində “Toyuq piri”, “Komrad” kimi qədim inac yerlərində yerli əhali tərəfdən riayət olunmaqdadır. Bu ziyarətgahlarda kəsilən qurbanlıq heyvanın –qoyun və ya toyugun başı və ayaqları pirdəki hündür ağaclardan asılır.

Musa Kalankatlının “Albaniya tarixi” əsərində Azərbaycan ərazisində sitayiş edilən təbiət qüvvələri arasında ildırım ilahəsi Kuarın adı çəkilir. Kuar allahı(göy gürultusu ildırım) Göylər dünyasının sahibi Tanrı xan kultunun simvollarından biri kimi qəbul edilir. Bu inama görə göyləri yarıb gələn ildırım müqəddəs sayılır.[1] Albaniya əhalisi arasında yayılmış inama görə ildırım insanı və ya heyvanı vurardısa bunu Kuar ilahəsinə gətirilmiş qurban kimi qəbul edirdilər. Hazırda da Azərbaycanın bir çox bölgələrində bu sitayişin izlərinə rast gəlinir. İldirım vurmuş ağaclar müqəddəsləşdirilir. Həttа onun odununu işlətmək günah sayılır.

Qafqaz Albaniyasını özlərinə daha möhkəm bağlarla bağlamaq üçün burada zərdüştlüyü zor yollarla yayan sasanilər V-VI əsrlərdə Albaniyada od məbədləri-çartaklar tikdirirlər. Albaniyada Sasanilərin hakimiyyəti dövründə baş atəşgah Atropatenada Qazakada, Qafqaz Albaniyasında isə Bakı ərazisinin daxil olduğu Paytakaran vilayətində yerləşirdi Qafqaz Albaniyasında Atəşpərəstlik əsasən Albaniyada Xəzər sahili bölgədə -Abşeron yarımadası, xüsusilə də onun cənub sahilində yayılmışdı. Bu ərazidə çoxlu sayda yanar qaz fontanları –“əbədi od” yerləri ilə zəngin olduğu üçün qədim dövrlərdən bəri atəşpərəstliklə bağlı təsəvvürlər daha çox yayılmışdı. Belə əbədi yanar ərazilərdən biri də Bakı olmuşdur. Bakı ərazisi tədricən qala-şəhər kimi böyüyərək müqəddəs odlar mərkəzinə çevrilmişdi. Qədim Bakı Qafqaz Albaniyasının dini mərkəzlərindən biri, kahin maqların məskun olduğu oda sitayiş yeri, kult şəhəri idi. Bunu mənbələr, həmçinin arxeoloji-etnoqrafik tədqiqatlar təsdiq edir. Bu bölgədə yerli əhalinin əsas sitayiş obyekti günəş və od olmuşdur. Erkən orta əsrlər dövrünü işıqlandıran bir çox mənbələrdə atəşpərəstlərin müqəddəs dini yaşayış məntəqələrindən biri olub *Atş-*

[1] Azərbaycan mifologiyasında göyü yarıb gələn şüa ilə bağlı bir çox mifoloji obrazlar mövcuddur. Məsələn, Azərbaycan nağıllarında Günəşin oğlu Tapdıq göydən gələn şüa ilə yerə enmişdir.***(Az.folklor antologiyası, Ic,.) bu mifik təsəvvürün izləri Azərbaycanın Quba bölgəsi əhalisi arasında yayılmış bədnəzərə qarşı olan “baba qolu” daşı ilə bağlı əfsanədə də qorunub saxlanmışdır. Rəvayətə görə “ Baba qolu” daşı göydən yerə göy şüa vasitəsilə və ya ildırım çaxarkən düşmüşdür.

*i(Atəşi)Baquan* adlandırılan Bakı şəhəri haqda məlumat verilir. Mənbələr Xəzər dənizi sahillərində yerləşən Bakı ərazisində gecə-gündüz yanan torpaqların, hətta yanan suyun olması, Xəzərin sahili böyu "əbədi odlar" olduğu yerlərdə atəşpərəstlərin qurbangahları və od məbədləri olduğunu yazır. Xüsusilə qədim hind kitabələrində Xəzər dənizinin qərb sahillərində atəşpərəstlərin çoxlu məbədlərinin olduğu göstərilmişdir. Hindistandan müqəddəs odlar şəhəri - Bakıya ən böyük od məbədində ayinlər icra etmək üçün gələn atəşpərəst zəvvarlar buradakı karvansarayda qalırdılar. Hazırda Bakıdakı Qız qalası yaxınlığındakı karvansaray öz qədim adını - atəşpərəst hindlilərə verilən adla - "Moltanı karvansarayı" adlanır. Atəşpərəstlərin əsas od məbədlərindən birinin məhz Bakıdakı "Qız qalası" olduğu və "Qız qalası"nın mənbələrdə adı çəkilən yeddi məşəlli Baqink baş məbədi olduğu ehtimal edilir. Arxeoloji qazıntılar nəticəsində Qız qalası yaxınlığında bir sıra kiçik od məbədləri qalıqları aşkar edilmişdir. Bakı sakinləri arasında da bu ərazidə (sonralar yerində alban kilsəsi, daha sonra isə cümə məscidi tikilmiş) qədimdə atəşpərəstlərin məbədi olması haqqında rəvayət qalmaqdadır.

Od məbədləri Bakının ətraf bölgələrində, Abşeron yarımadasının digər ərazilərində də mövcud olmuşdur. Bunlar arasında Suraxanı atəşgahı xüsusi yer tutur. Hazırda Suraxanıda təbii qazın yandığı yerdəki Atəşgah qədim atəşpəsətlik məbədinin yerində tiklmişdir. İslamın Azərbaycana gəlişi ilə Abşeron əhalisinin də islamı qəbul etməsilə bu Atəşgah tədricən əhəmiyyətini itirdiyi üçün həmin orta əsrlərdə tədricən yalnız Hindistandan gələn zəvvarların ibadətgahına çevrilmişdir. XVIII əsrdə Suraxanı atəşgahı hindistanlı atəşpərəst tacirləri tərəfindən bərpa edilmişdir.

Azərbaycanın şimal-şərq və cənub bölgələrində, Quba, Şamaxı, Salyan və Lənkəran ərazilərində əbədi od yanan atəşpərəstlik bütləri, qurbangah və məbədləri olan məntəqələr- atəşgahlar olmuşdur. Hazırda Azərbaycanın şimal-şərqində Quba r. Xınalıq kəndinin bir neçə kilometriliyindəki yerli əhali "Atəşgah" adlandırdığı təbii yanar qaz da çox qədim dövrlərdən bəri mövcud olan belə sitayiş yerilərindəndir. Mənbələrin verdiyi məlumata görə Azərbaycana gələn hind atəşpərəsləri təkcə Abşeronda deyil, Xınalıq ərazisindəki bu Atəşgahda da öz od allahlarına sitayiş edirdilər. Bu Atəşgaha indi də xalq arasında müqəddəs oçaq kimi baxılır. Sasanilərin V-VI əsrlərdə Albaniyada tikdirdikləri od məbədləri-çartakların izləri Azərbaycanın Şəki-Zaqatala bölgəsində Armatian dağı ətrafında mövcud olan

Yuxarı Çardaxlar (Zaqatala r.) toponimində qorununb saxlanmışdır. Armataian dağının başında qayalığın içində oyulmuş V-VI əsrlərə aid edilən qədim alban xristian məbədinin də bu dövrdə od məbədinə çevrildiyi və buradakı Armatian toponiminin isə Zərdüşt panteonu – sülh, torpaq, sədaqət ilahəsi Armaiti ilə bağlı olduğu qeyd edilir. Yerli əhali arasında "Pəriqala" adı ilə bilinən bu məbəd hazırda da pir kimi ziyarət edilir.

### *7.2. Albaniyada xristianlığın meydana gəlməsi və yayılması*

Qafqaz Albaniyası ilk xristian icmalarının meydana gəldiyi (I əsr) ərazilərdəndir. Azərbaycanın qədim dövləti olan Qafqaz Albaniyasında xristianlıq rəsmi olaraq IV əsrdən dövlət dininə çevrilsə də bu ərazidə xristianlıq çox daha öncə-hələ (həvvarilər) Apostollar dövründə yayılmağa başlamışdır. Albaniyada xristianlığın yayılması iki mərhələdən-apostollar dövrü və IV əsrdə xristianlığın dövlət dininə çevrilməsindən sonrakı dövr mərhələlərindən keçmişdir. Şərq xristianlığıın yaranmasının ən erkən mərhələsi olan Apostollar (həvvarilər) dövrünü Qafqaz Albaniyasında izləmək mümkündür. Eranın I əsrində meydana gələn xristianlıq elə həmin dövrdən etibarən Albaniyada yayılmağa başlamışdı.

**Albaniyada xristianlığıın yaranmasının erkən mərhələsi Apostollar (həvvarilər) dövrü.** Hələ eramızın ilk əsrlərindən etibarən Yerusəlimdən, Suriyadan ilk xristian missionerləri, həvariləri (apostolları) və həvarilərin şagirdləri Albaniyaya gəlmiş, burada xristianlıq ideyalarını təbliğ etməklə ilk xristian icmalarının əsasını qoymuşlar. Qafqaz Albaniyasında xristianlığın yayılmasının bu ilkin mərhələsi həvari dövrü adlanır və apostollar Müqəddəs Varfolomeyin, Müqəddəs Faddeyinin və Faddeyin şagirdi Müqəddəs Yeliseyin adı ilə bağlıdır. Onların Qafqaz Albaniyasında xristianlığın təbliği ilə bağlı fəaliyyəti haqda alban müəllifləri Kalankatlı, Mxitor Qoş məlumat verir.

Eranın ilk əsrində Azərbaycanda xristianlığı təbliğ edən ilk apostol İsa peyğəmbərin 12 apostolundan biri olan Apostol Varfolomey idi. O dini təbliğatını Ordubad ərazisində aparmışdı. Mənbələrin verdiyi məlumata görə, Apostol Varfolomey xristianlığı təbliğ etdiyi üçün tutularaq güclü atəşpərəstrlik ənənələri olan qədim Bakı ərazisinə gətirilmiş, burada Qız qalasının ətəyində yerləşən Arta

məbədində bütpərəst kahinlər tərəfindən çarmıxa çəkilmişdir. Müqəddəs Varfolomey eramızın 71-ci ilində öldlürülmüşdür. Sonralar onun çarmıxa çəkildiyi yerdə alban məbədi tikilmişdir. Bunu arxeoloji tədqiqatlar təsdiq edir. 1983-1984-cü ildə İçərişəhərdə və Qız qalası ətrafında aparılan arxeoloji qazıntılar nəticəsində məlum olmuşdur ki, Qız qalası yaxınlığında mövcud olmuş iki od məbədinin bünövrədi üzərində qədim alban məbədi tikilmişdi. 1836-cı ildə Rusiya sinodu tərəfindən alban kilsəsinin ləğv edilməsindən sonra isə bu qədim alban məbədinin yerində Pravoslav kilsəsi tikilir. 1936-cü ilədək mövcud olan kilsənin divarındakı xatirə lövhəsində Apostol Varfolomeyin şərəfinə "bu yerdə müqəddəs İsanın 12 şagirdindən biri olan – Müqəddəs Apostol Varfolomey Məsih yolunda (za Xrista) öz qanını tökmüşdür" yazılmışdı. Lakin sovet dövründə bu kilsə də bir çox başqa kilsələr kimi dağıdılmışdır. Hazırda Qız qalasının yanındakı müqəddəs Varfolomeyin öldürüldüyü bu ərazi bütün xristianların sitayiş yeridir və müqəddəs Varfolomeyin öldürüldüyü gün hər il dini ayinlərlə burada yad edilir.

Müqəddəs Varfolomeyin öldürülməsindən sonra Qafqaz Albaniyasında xristianlığı yaymaq Müqəddəs Faddeyə həvalə olunur. Lakin, Albaniyaya gəlirkən yolda öldürülülür. Onun öldürülməsinə şahid olmuş şagirdi müqəddəs Yelisey hadisəni xəbər vermək üçün Yerusəlimə dönür və Yerusəlimin ilk patriarxı Yakovdan xeyir-dua alaraq yenidən Albaniyaya dönərək müəllimi Müqəddəs Faddeyin yarımçıq qalmış işini davam etdirir. Mənbələrin də xəbər verdiyi kimi, İsa peyğəmbərin qardaşı və Qüdsün I patriarxı Yakov Müqəddəs Yeliseyi Şərq ölkələrinə xristianlığı təbliğ etmək üçün göndərdi. O da İrana, oradan da Çolaya, Utiyə vilayətinə gedərək Kişdə dayanmış və burada kilsə inşa etdirmişdir. 70 apostoldan biri olan Yeliseyin Kişdə (Şəki) ilk kilsənin əsasını qoydu. Kiş kilsəsi Şərqin ən qədim kilsələrindən idi.

**Alban məbədi Kiş.** Müqəddəs Yelisey indiki Şəki rayonunun Kiş kəndində xristian icması yaradaraq burada ilk xristian məbədinin əsasını qoyur. Alban xristian məbədləri içərisində Kiş məbədi xususi yer tutur. Kalankatlı yazırdı ki, Yelisey Kişdə qansız qurban (nəzir) verir və kilsəsinin əsasını qoyur. Yeliseyin əsasını qoyduğu Kiş kilsəsi Şərqin ən qədim kilsəsi idi. Alban müəllifi bu kilsəni Şərqin ilk kilsəsi, bütün alban kilsələrinin ilkin mənbəyi, Şərq (Albaniya) kilsələrinin anası adlandırır. Hələ XIX-XX əsrin əvvəllərinin müəllifləri Yeliseyin kilsə yaratdığı olduğu Giş kəndinin Şəkidə yerləşən

Kiş kəndi olduğunu, həmçinin bu kilsənin "apostollar zamanından qalma" olduğunu yazmışlar. Yelisey ilk xristian kilsəsinin əsasını qədim bütpərəst ibadətgahın yerində qoyur. Burada onun "qansız qurban" yəni nəzir verməsi də göstərir ki, bu yer vaxtilə bütpərəst məbəd olmuşdur. Arxeoloji tədqiqatlar da təsdiq edir ki, bu ərazi qədim ibadətgah yeri olub və Kiş məbədi III – V əsrlərdə qədim bünövrə üzərində tikilib. Belə ki, IV əsrə qədər kilsə tikintisi yayğın deyildi. Kiş Qafqaz Albaniyasında xüsusi rəğbət bəslənilən Selena ilahəsinə həsr olunmuş qədim kult tikilisinin bünövrəsi üzərində inşa olunmuş erkən xristianlıq mərhələsinə aid abidədir. Dünyada unikal olan bu qədim alban kilsəsi Azərbaycan xalqının tolerantlığı nəticəsində, eyni zamanda politeizmin mövcudluğu sayəsində müasir dövrədək qorunub saxlanmışdır və hazırda da pir kimi sitayiş edilən inanc yeridir.

Müqəddəs Yelisey Zərqun vadisində-bütpərəstlərin qurbangah yerindən keçərkən öldürülsə də alban müəllifinin də söylədiyi kimi yerli əhali onu hər zaman öz apostolu və himayədarı saymışdır. Apostol Yeliseyin xatirəsinə Ağdərə rayonunda müqəddəs Yelisey monastır kompleksi, Şəki rayonunun Kiş kəndində müqəddəs Yelisey məbədi (Kiş məbədi), Oğuz rayonundakı yerli əhali arasında hazırda daha çox Qala piri, udilər arasında isə Kala Gerges olaraq tanınan Yelisey məbədi kimi bir çox məbədlər tikilmişdir. Hazırda əhali bu qədim məbəd yerlərini müsəlman və ya xristian olmasından asılı olmayaraq pir kimi ziyarət etməkdədir.

**Xristianlığın Albaniyada dövlət dininə çevrilməsi.** Xristianlıq Apostollar dövründə Şərqə, o cümlədən Qafqaz Albaniyasında I əsrdən etibarən yayılmağa başlasa da Sasani sülaləsinin hakimiyyətə gəlməsilə və onların apardığı dini siyasət nəticəsində yalnız IV əsrdə yenidən Albaniyada mövcud olmaq hüququ qazanır. IV əsrin əvvələrində Roma imperatoru Konstantinin hakimiyyətə gəlməsi və xristianlığa etiqad üzərindən qadağanı götürməsindən sonra 313-cü ildə Alban hökmdarı Urnayr xristianlığı dövlət dini elan edir. Alban çarı Urnayrın xristianlığı dövlət dini elan etməsilə Qafqaz Albaniyasında xristianlığın yayılmasının II mərhələsi başlayır. Kalankatlı qeyd edirdi ki, Müqəddəs Yelisey yalnız Albaniyanın şimal hissəsində xristianlığı yaymağa müvəffəq olmuşdu. Albaniya əhalisi ikinçi dəfə və daha mükəmməl Urnayr tərəfindən maariflənirlər.

Beləliklə, IV əsrdən etibarən xristianlıq rəsmi olaraq dövlət dini kimi qəbul edildikdən sonra alban hökmdarları Urnayr, II Vaçe, III

Vaçaqan müxtəlif bütpərəstlik dinlərinin köklərini kəsmək üçün şiddətli mübarizəyə başladılar. Bu dövrdən etibarən ölkədə bütpərəstlər təqib olunurdu, kahinlər, ovsunçular, cadugərlər öldürülür, ölkədən qovulurdu. Beləliklə, ölkədə bütpərəstliyə qarşı qəti mübarizə başlanır, cadugərlər, ovsunçular, kahinlər təqib olunur. IV əsrdən etibarən Albaniyada xristianlıq dövlət dini elan edilsə də, hələ də yerli əhali arasında təbiət qüvvələrinə inam, astral dünyagörüşləri, tanrıçılıq kimi ideologiyalar qalmaqda davam edirdi. M.Kalankatlının qeyd etdiyi kimi, müxtəlif bütlərə sitayiş edildiyi pirlər və sektalar hətta V əsrdə III Vaçaqanın dövründə var idi. Kalankatlı cadugərlər, baxıcıları şər qüvvələr adlandırırdı və killsənin ona qarşı mübarizəsindən danışırdı. Alban müəllifinin də qeyd etdiyi kimi, "yerli əhali arasında qədim ilahilərə sitayiş edənlər" hələ də qalmaqda idi.

Ölkədəki etnik rəngarənglik, politeizmin hökmranlığı yeni ideologiyanın, monoteist dinin-xristianlığın qəbulunu zəruri edirdi. V əsrdə Albaniya əhallsi müxtəlif dillərdə dular edirdilər. Alban çarları xristianlıq vasitəsilə ölkədəki politeizmi vahid konfessiya vasitəsilə ləğv etmək istəyirdilər. Eyni zamanda bu vahid ideologiya Sasanilərin yaymağa çalışdığı zərdüştlüyə və Albaniyada mövcud olan Tanrıçılıq və bütpərəstliyə qarşı dayana bilməli idi. Xüsusilə V əsrdə III Vaçaqanın hakimiyyətə gəlməsindən sonra xristian dininin təbliği daha da güclənir. IV-V əsrlərdə artıq ruhanilik və kilsə iyerarxiyası təşəkkül tapmışdı. Katolikosun göstərişi ilə feodallar öz ərazilərində kilsə üçün xüsusi yerlər ayırırdılar. Bölgədə kilsələr tikilir, dini kitablar siryani, aramı və yunan dillərindən Alban dilinə tərcümə edilirdi. Albaniyada astral kult tikililərinin yerində kilsələr tikilməyə başlayır. Pəriqala (Zaqatala r.), Kürmük (Qax r.), Mahrasa (Gədəbəy), Avey (Qazax r.) Ay kultu ilə bağlı qədim inanc yerlərində tikilmiş alban məbədlərindəndir. Vacaqanın əmri ilə Albaniyada 365 kilsə inşa edilmişdi.

III Vaçaqan (487-510) Albaniyada xristianlığın güclənməsində mühüm rol oynamışdır. Onun Mömin Vaçaqan adlandırılması da bununla əlaqədardır. III Vaçaqan hakimiyyətə gəldikdən sonra o, əhali arasında mövcud olan bütpərəstlik, atəşpərəstlik, sehrbazlıq, cadugərlik, İblisə pərəstiş edən barmaqkəsənlər təriqəti kimi bütün qədim inancları təqib edərək, onların tərəfdarlarını məhv edir. Xristian müqəddəslərinin cəsədlərinin tapılması barədə göstərişlər verir. Əhali arasında xristianlığın yayılması məqsədilə məktəblər açmağa başlayır. Musa Kalankatuklu Çar Mömin Vaçaqanı Roma imperatoru

I Konstantin ilə müqayisə edərək yazırdı ki, Çar Vaçaqanın vasitəsilə bütün ölkə xristianları Allah mərhəmətindən öz paylarını aldılar və Vaçaqanın şöhrəti heç də qərbin sahibi olan imperator I Konstantinin şöhrətindən az deyildi. Bu dövrdə Albaniyada ictimai münasibətləri tənzimləmək üçün alban qanunlarının yaradılması zərurəti meydana gəldi. Alban hökmdarı III Vaçaqan Albaniyanın müstəqilliyini möhkəmləndirməyə can ataraq, yad dini-siyasi təsirlərə qarşı dura biləcək müstəqil alban kilsəsinin dayaqlarını möhkəmləndirmək, onu iqtisadi cəhətdən gücləndirmək niyyətində idi. Bunu isə alban kilsə hüquqi normalarını formalaşdırmaq yolu ilə etmək mümkün idi. III Vaçaqan bu məqsədlə 498-ci ildə Aquen kilsə məclisini çağırdı. Moisey Kalankatlının "Alban tarixi" əsərinin XXVI fəslində "Aqvan hökmdarı Vaçaqanın Aqvan kilsələri məclisində qəbul edilmiş qanunlar" haqqında məlumat verilir.

**Aquen kilsə məclisi.** Alban müəllifinin verdiyi məlumata görə, Alban hökmdarı Vaçaqanın dövründə dindarlar və yepiskoplar, ruhanilər və köməkçilər, azatlar və ramiklər (qara camaat) arasına narazılıq düşdüyü üçün alban hökmdarı III Mömin Vaçaqan 488-ci ildə Aquendə[1] (indiki Ağdam rayonu ərazisində) qayda və ehkamları xristian ənənələri ilə tənzimləmək məqsədilə xristian ruhanilərinin ali kilsə məclisini toplamağı qərara alır. Alban hökmdarının məqsədi kəndlilər, feodallar, din xadimləri kimi bütün sosial təbəqələr arasındakı münasibətləri, xüsusilə də dünyəvi əyanlarla ruhanilər arasındakı münaqişələri, həmçinin nəsli əyanlar olan azatlarla sadə əhali - ramiklər arasında baş verən çəkişmələri dini-hüquqi cəhətdən nizama salmaq idi. İlk hüquqi alban sənədinin qəbul olunduğu Aquen kilsə məclisində Vaçaqan, onunla bərabər Bərdə arxiyepiskopu,, Qəbələ, Uti və digər vilayətlərin Manas, Yunan kimi nüfuzlu yepiskopları, Kalankatuk, Bərdə və digər kəndlərin keşişləri, Arsax vilayətinin əyan və qəbilə başçıları, Kalankatuk qəbiləsinin başçısı Bakur kimi Albaniyanın iri feodalları və yüksək rütbəli din xadimləri, əsilzadələr, həm də “azad adamlar” (kəndlilər), qəbilə ağsaqqalıları da iştirak edirdi.

**Aquen kilsə məclisində qəbul edilmiş qanunlar.** 488-ci ildə keçirilmiş Aquen kilsə məclisində dövlət və kilsə hüququna dair bir

---

[1] Aquen III Vaçaqanın iqamətgah qurduğu Bərdə şəhərinin yaxınlığında yerləşirdi. Onun indiki Ağdam ərazisində xarabalıqları olan Govurqala ərazisi olduğu ehtimal edilir.

sıra normalar qəbul etmi°di. Məclisdə 21 maddədən ibarət xristian-feodal qanunları qəbul edilir. Bu qanunlarda vergi, cəza-məhkəmə, kilsənin idarəedilməsi, ailə münasibətləri, dini qadağalar və məcburiyyətlər öz əksini tapır. Qanunnamə Azərbaycan tarixində xristian dininin prinsiplərini özündə əks etdirən yeganə qanunvericilik sənədidir.

Aquen kilsə məclisində qəbul edilmiş qanunları aşagıdakı qruplara bölmək olar:

1. Vergi ilə bağlı qanunlar
2. Cəza və məhkəmə qanunları
3. Kilsənin idarə edilməsi ilə bağlı qanunlar
4. İbadətlə bağlı qanunlar
5. Ailə ilə bağlı qanunlar

**Kilsə məclisində müəyyən edilmiş vergilər.** Aquen qanunlarında can vergisi, kilsə "onda biri", məhsul vergisi, ruhun rahatlanması üçün alınan vergi kimi kilsə vergiləri müəyyən olunmuşdu. Aquen kilsə məclisinin can vergisinə həsr edilmiş üçüncü qanununda deyilirdi: " Azat və hökmdar nəslindən olan zadəgan öz ruhunun xilası üçün öz əli ilə yəhərli, yüyənli atı və ya verə biləcəyi başa bir şey bağışlamalıdır. Əgər sağlığında bunu etməmişsə, öləndən sonra ailəsi bu vergini ödəməlidir. Qanuna görə can vergisini ancaq nəsli əyanlar ödəməli olsa da, sosial və zümrə fərqindən asılı olmayaraq, hamı üçün zəruri olan bu vergi növü ödəniş xarakterinə görə fərqlənirdi. Əyanlar üçün can vergisinin qədəri sabit müəyyənləşdirildiyi halda, qara camaat, o cümlədən heç bir imtiyazı olmayan zümrələr can vergisini imkanları çatan miqdarda ödəyə bilərdilər.

Kilsə "onda biri" haqqında Aquen məclisinin 18-ci qanununda isə deyilir: "Onda bir ödəyən azatlar onun yarısını baş (kafedral) kilsəyə, yarısını isə özlərinin "azat" kilsəsinə verməlidirlər". Aquen məclisinin qəbul etdiyi dördüncü qanununda deyilirdi: "Xalqdan keşiş üçün hər il 4 ölçü buğda, 6 ölçü və 16 dolça [üzüm] şirəsi pay düşür: Kasıblar isə taxılın yarısını və bacardıqları qədər çaxır versinlər. Əkin yeri və ya üzümlüyü olmayandan isə heç nə almasınlar. Təyin olunmuşdan artıq verənlər öz ruhu qarşısında xeyirxahlıq yapır: "Kim səpində əliaçıqlıq edirsə, biçini də bol olur. Kimin qoyunları var, bir qoyun, üç əlçim və bir kərpic pendir vərsin, kimin atı varsa –bir dayça, kimin malı varsa-bir buzov vərsin. Göründüyü kimi, məcburi kilsə vergisi olan "məhsul" təkcə əkinçilik

məhsullarından deyil, bütün təsərrüfat məhsullarından qəti müəyyən edilmiş miqdarda qəbul olunurdu.

Aquen məclisinin beşinci (hər bir azat, kəndli (şinakan) və ya hər hansı dinə inanan şəxs il boyu bir dəfə dəfn ehsanı verməli, yəni bacardığı kimi ölən yaxınlarını öz zəhmətinin bərhrəsi ilə yad etməlidir. Ölənin ruhu şad olsun deyə-kilsəyə bir atı bağışlasın, mal-qarası var idisə, bir cöngə bağışlasın) və on doqquzuncu qanunları (bazar günləri qoy ağa da, qul da, baş kilsəyə getsinlər və ölənlər üçün yadetmə mərasimi yapsınlar. Yadellilər ruhların sakitliyi üçün kilsəyə pul ödəməlidirlər) Albaniyada vəfat edənlərin qohumları tərəfindən kilsəyə verilən "ruhun rahatlanması üçün" alınan vergi növünün olduğunu təsdiq edir. Alban ənənələrinə görə qoçalara - nəinki valideynlərə, hətta digər yaşlı adamlara xüsusi hörmət bəslənir. Ölünün qayğısına qalmaq , həta onu düşünmək isə günah sayılır. Ölü ilə birlikdə onun bütün mülkiyyəti də basdırlır. III Vaçaqanın dövründə qəbul edilmiş Aquen kilsə məclisi qanunnaməsində qədim inancların izlərini daşıyan ağlaşma mərasimi qadağan edilmişdi. Aquen kilsə məclisində qəbul edilmiş qanunlarına görə xristianlığaqədərki dinlərin qalıqların cadugərlik, falçılıq və s.) təqib olunur və ən agır çəzalar verilirdi. Aquen kilsə qanunlarının iki maddəsi (11, 2) xristianlığa qədərki inamların təqib edilməsinə həsr edilmişdir.

On doqquzuncu qanunda yalnız adı çəkilən bu verginin əsas məğzi məhz beşinci qanunda açılır: Hər bir azat, kəndli (şinakan) və ya hər hansı dinə inanan şəxs il boyu bir dəfə dəfn ehsanı verməli, yəni bacardığı kimi ölən yaxınlarını öz zəhmətinin bərhrəsi ilə yad etməlidir. Ölənin ruhu şad olsun deyə-kilsəyə bir atı bağışlasın, mal-qarası var idisə, bir cöngə bağışlasın. Bu qanundan görünür ki, "ruhun rahatlanması" vergisinin qədəri müəyyən edilmişdi. Məclisdə “azad adamların”, yəni kəndlilərin müqavimətinə baxmayaraq Vaçaqan hər bir azad adam və ya kəndli, həmçinin əsilzadələrin ölənlərini yad etmək üçün 1 il ibadət etməsi və bunun üçün də kilsəyə müvafiq pay verməsi barədə qərar qəbul edilmişdi. Kəndli pəhriz vaxtı ət yedikdə kilsə kəndxuda vasitəsilə onun öküzünü əlindən alıb keşişə vermək huquna malik olurdu.

Bu yığıncaqda yepiskop və keşişlər azad kəndlilərin öz kəndlərində bir neçə kilsə və monastır tikməklə kilsənin gəlirlərini dağınıq hala salmasından şikayət etmişlər. Bununla bağlı Vaçaqan bütün kilsə gəlirlərinin baş kilsəyə verilməsi barədə qanun qəbul

etmişdi. Vaçaqan kilsə onda biri odəyən azad kəndliləri məcbur etdi ki, bu verginin yarısını baş kilsəyə, digər hissəsini isə kənd kilsəsinə versinlər. Əvvəllər bu vergi bütünlüklə kənd kilsəsinə çatırdı. Azad adamların istədikləri adamı kilsəyə keşiş təyin etməsi qadağan olunurdu. Bu qərarla azad kəndlilərin hüquqları xeyli məhdudlaşdırıldı. Onlar tədricən feodal və kilsədən asılı oldular.

Göründüyü kimi, Aquen qanunları kilsənin və ruhanilərin xeyrinə olan verginin miqdarını müəyyənləşdirmiş, bununla da kilsə üçün könüllü verilən payın müntəzəm alınan kilsə vergisinə çevirmişdi.

**Aquen kilsə məclisində sosial münasibətlərin tənzimlənməsi.** Albaniya əhalisi əsasən kəndlilərdən ibarət idi. Onların böyük əksəriyyəti mülki və ruhani knayzların feodal asılılığında idi. Məsələn, mənbələrdən məlum olur ki, hökmdar Vaçenin min ailəlik asılı kəndliləri var idi. Lakin Albaniyada hüquqları məhdud olsa da azad kəndlilər də var idi. Bu kəndlilər açıq şəkildə hüquqlarını müdafiəyə qalxarkən onlara qarşı kəskin mübarizə aparılırdı. Vaçaqanın dövründə çağırılan Aquen məclisi də bu məqsədlə çağırılmışdı. Bu məclisdə azad icmaçılarla feoadllar və kilsə xadimləri arasındakı mübahisələr müəyyən dərəcədə yoluna qoyuldu.

Aquen məclisinin qanunlarından aydın olur ki, dindarlar iki kateqoriyaya bölünürlər: əyanlara - azatlara və kəndlilərə-şinakanlara. Albaniyada üç kateqoriya kəndli vardı: varlılar, kasıblar, torpaqsızlar. Ölkənin əsas istehsalçıları azad kəndlilər, icmaçılar və feodaldan asılı kəndlilər idilər.

Aquen qanunlarının XVII (yepiskop və keşişlər kilsələri monastra çevirmiş azatlardan çara şikayət etdikləri üçün çar yepiskoplara və əyanlara kilsə əmanətlərinin və gəlirlərinin Baş kilsəyə (kafedrala) verilməsini əmr etmişdi. Azatlar öz malikanələrində dini xidmətlər üçün yepiskopun razılığı olmadan keşişi tuta bilməzdilər və ya xidmətdən qova bilməzdilər. Keşişlər zadəganlar və ya xalq istəməzsə belə, yepiskopun icazəsi olmadan çıxıb gedə bilməzdilər. Zadəgan öz ölkəsində görəcəyi dini tədbirləri yepiskopun icazəsi ilə etməli idi. Azatlarla ruhanilər arasında iqtisadi və siyasi zəmində baş verən zümrələrarası mübarizəni özündə əks etdirir. Ruhanilərlə dünyəvi əyanlar arasındakı münasibətləri tənzimləyən ikinci kateqoriyadan olan qanunlar idi. Aquen Qanunnaməsi yepiskoplar, keşişlər və ruhanilər azatlar birlikdə çar qarşısında qəbul edilmiş və

Albaniya hökmdarı və bütün zadəganlar bu fərmana möhür vurmuşdular.

Beləliklə, V əsrin sonundan etibarən ölkə kilsə qanunları ilə tənzim olunmağa başladı. Göründüyü kimi, Aquen kilsə Məclisinin qanunları Albaniyada fedoal münasibətlərin möhkəmlənməsinə, Alban kilsəsinin hüquqlarının artırılmasına və kilsə xadimlərinin nüfuzunu əyanlarla eyniləşdirməyə və onlar arasındakı münasibətləri tənzimləməyə, ölkədə dini birliyin yaradılmasına xidmət edirdi. Tezliklə alban kilsəsi o qədər güclənib müstəqil oldu ki, hökmdar və knyazlar torpaq satarkən və vəsiyyət edərkən artıq torpağın bir hissəsini kilsəyə ayırırdı. Katalikos və ruhanilər anlayırdılar ki, onların və kilsənin nüfuzu və gücü torpaq mülkünün böyüklüyündən asılıdır. Buna görə də öz mülklərini hər vasitə ilə genişləndirməyə çalışırdılar. Alban dövlətinin süqutunadək alban çarlarının hakimiyyəti ölkənin ictimai təbəqələrinin sosial və hüquqi münasibətləri dünyəvi qanunlarla yanaşı alban kilsə qanunu ilə də tənzimlənirdi.

**Alban Apostol kilsəsinin yaranması.** IV əsrdən etibarən Azərbaycanda Alban Apostol kilsəsi mövcud olmuşdur. Alban Apostol kilsəsi Qafqazda ən qədim və bütövlükdə xristian dünyasının ən erkən yaradılmış kilsələrindən biridir. Albaniyanın siyasi suverenliyi burada müstəqil kilsə yaratmağa imkan verdi. Alban kilsəsi albanların birləşdirici təşkilatı idi. Alban kilsəsi hər zaman öz ərazisində mövcud olub və alban etnosuna xidmət edib. Xristianlığın ilk mərhələsində Alban Apostol kilsəsinin başçısı Yerusəlimdə təsdiq edilirdi. IV əsrin sonuna yaxın isə Qafqaz Albaniyasında müstəqil kilsə iyerarxiyası artıq təşəkkül tapmışdı. Bu dövrdə artıq Alban kilsəsi kilsə başçısının təsdiqolunma mərasimini özü keçirirdi. Alban müəllifi Musa Kalankatlının məlumatlarına görə, IV əsrin əvvəllərində Maarifçi Qriqori yepiskop rütbəsinə təsdiq edilmişdi. Musa Kalankatlı yazırdı ki, Müqəddəs Qriqoriyə qədər alban katolikosları Yerusəlimdə təsdiq edilirdilər. Ondan sonra bu mərasimi bizim yepiskoplar özləri keçirirlər. Göründüyü kimi, dini xeyir-dua (bu mərasim təyin edilənin başına əl çəkməklə yerinə yetirildiyi üçün onu əlqoyma da adlandırırlar) mərasimin müstəqil icra edilməsi Alban Apostol kilsəsinin avtokefal, yəni müstəqil olduğunu göstərir. Lakin Maarifçi Qriqori və onun nəvəsi Müqəddəs Qriqorisdən sonra Alban Apostol kilsəsi Yerusəlim kilsəsi ilə münasibətlərini davam etdirirdi.

Beləliklə, 340-cı ildə Alban Apostol kilsəsi artıq avtokefal, yəni müstəqil idi. Ümumiyyətlə, həvvari mənşəli, yəni apostollar dövründən yaranan kilsələr avtokefal sayılırdı. 340-cı ildən müstəqil fəaliyyət göstərən və IV-VIII əsrlər boyu Qafqaz Albaniyasının kilsəsi olmuş Alban kilsəsinin ilk alban katolikosları Yerusəlimdən, xristianlığın dövlət dininə çevrilməsindən sonra isə yerli yepiskoplar tərəfindən təyinat almışlar. Həvari Yelisey, Yerusəlimin birinci patriarxı Yaqub tərəfindən Albaniya patriarxı təyin olunmuşdu.

Alban katalikosluğunun mərkəzi I-II əsrlərdə Çola, II-IV əsrlərdə Qəbələ, IV-XIII əsrlərdə Bərdə, XIII-XIX əsrlərdə Gəncəsər (Qanzasar) olmuşdur. Alban katolikosunun iqamətgahı Çola şəhərində yerləşirdi. 552-ci ildə iqamətgah Bərdəyə köçürülmüşdür. Alban katolikosu Abas (551-595) xəzərlərin basqınları nəticəsində daha Çolada qala bilmədi və öz iqamətgahını Aranın mərkəz şəhəri və paytaxtı olmuş Bərdəyə köçürdü. Kalankatlı yazırdı ki, Xosrovun hakimiyyətinin ikinci ilində Albaniya patriarxlığı taxtı Çola şəhərindən paytaxt Bərdəyə köçurüldü.

Albaniya ərazisi yepiskopluklara bölünmüşdü V-VIII əsrlərdə 12 alban yepiskopluğu fəaliyyət göstərirdi. Kilsəyə qeyri-məhdud hakimiyyəti olan katolikos başçılıq edirdi. O, hətta ali knyaza tabe olmaqdan boyun qaçıra bilərdi. Çox zaman katolikosun adı knyazın adından öncə çəkilirdi. Katalikos ölkədə bütün knyazları itaətə məcbur edən yeganə qüvvə idi. Yepiskoplar ruhani knayzlar olaraq böyük qüvvəyə malik idilər. Yepiskoplardan başqa ruhani təbəqəsinə ilahiyatçı alimlər, keşişlər, dyakon və rahiblər daxil idi. Xristianlığın dövlət dininə çevrilməsilə Qafqaz Albaniyasının ən böyük vilayətlərindən biri olan Arsaxda bir neçə yepiskopluq yaradılmışdı. Ümumiyyətlə, Alban katolikosları çox zaman Arsax ruhaniləri arasından seçilirdi. Arsax ruhaniləri Albaniyanın Aquen (488), Partav (705) kimi böyük kilsə məclislərində iştirak edirdilər. Alban kilsəsi yarandığı ilk dövrdən etibarən müstəqil olmuş və bütün mövcudiyyəti dövründə (IV-1836) müstəqil olaraq qalmışdır.

**Alban kilsəsinin ibadət dili.** Xristianlığın rəsmi qəbulu (314-cü il) yunan təsiri ilə əlaqədar olduğu üçün Albaniyaya Suriya və Fələstindən gəldiyi üçün xristianlığın yaranmasının ilk mərhələsində Albaniyada kilsə dili Suriya və Yunan dili olub. Albanlar xristianlığı qəbul etikdən sonra İncilin bütün mətnini alban dilinə çevirmişdilər. Alban kilsəsinin ibadət dili ilk öncə Suriya,Yunan, daha sonra isə alban dili olub. Lakin Sasanilər yunan dilini kilsə dili olaraq qadağan

etdikləri üçün ölkədə albanların mədəni və etnik kimliyini mühafizə edə biləcək yerli müstəqil alban kilsəsinin yaradılması zəruri idi.

Sasani hökmranlığı zamanı alban kilsəsi öz müstəqilliyini qoruyub saxlaya bilmişdi. XIII əsr müəllifi qeyd edirdi ki, Yunan imperatoru III Leo (717-741) ərəb xəlifəsi Ömərin "Necə müstəqil xristian kilsəsi var" sualına cavab verərkən Alban kilsəsinin də adını çəkib.

V əsrdən etibarən xristian kilsəsində baş verən parçalanmalar Alban kilsəsinə də öz təsirini göstərmişdi. Alban kilsəsi 451-ci ildə Xalkidon kilsə toplantısından[1] sonra monofizitliyə[2] üstünlük vermişdi. V-VI əsrlərdə ölkə əpazisində monofizitlərlə diofizitlər arasında mübarizə güclənir. VI əsrin sonu – VII əsrin əvvəllərində Alban kilsəsi bir sıra siyasi hadisələrin təzyiqi ilə diofizitliyi qəbul edir. Lakin Sasanilərin ölkədə nüfuz dairəsinin genişlənməsi və bölgədə yaranmış sosial-siyasi şərait nəticəsində Alban Apostol kilsəsi Sasani şahlarının bölgədə apardığı konfessional siyasətlə uyğunlaşmaga məcbur qalaraq VII əsrin sonlarından yenidən monofizitliyə meyillənmişlər.

Sasanilərin Albaniyadakı xristianlığa qarşı siyasəti stabil deyildi. Belə ki, xristianlığın ilkin mərhələsində İran şahları Roma imperiyası tərəfindən təqibə məruz qalan xristianları romalılara qarşı mübarizədə özlərinə müttəfiq etmək ümidi ilə himayə edirdi. Lakin xristianlığın Roma imperiyası, Albaniyanın dövlət dininə çevrilməsilə Sasanilərin xristianlara qarşı münasibəti dəyişir. Sasani şahları ölkədə xristianlığı təqib etməyə başlayır. Sasani imperiyasının qonşuluğunda olan ölkənin-Albaniyanın siyasi və dini baxımdan onunla düşmən olan Roma ilə eyni inanca sahib olması sasanilərin hər zaman şimaldan və qərbdən təhlükədə olması demək idi

VII əsrin ortalarından başlayan ərəb yürüşləri nəticəsində ölkənin Ərəb xilafətinin tərkibinə qatılmasından sonra Ərəb xilafəti

---

[1] İsanın mahiyyəti haqqında mübahisələr 431-ci ildə I Efes Kilsə Məclisində başalmışdı. Konstantinopolis yepiskopu Nestorius İsada olan İlahi və insani təbiət bir-birindən ayrı olduğunu, məclisə toplaşmış digər yekiskoplar isə Nestoriusun təlimini rədd edərək, İsada həm İlahi, həm də insani təbiətin eyni anda mövcud olması, yəni monofizit təliminə üstünlük vermişdilər. 451-ci ildə Xalkedon Kilsə Məclisində monofizitlik rədd edilir.

[2] Monofizitlik – V əsrdə yaranmışdır. Yunanca моно - ''bir'', fizio- ''təbiət'' kəlmələri İsanın "tək təbiətini'' - ilahiliyini qəbul edən təriqət. Bizansa qarşı baş qaldıran çeşidli separatçı qrupların və millətlərin ideologiyasına çevrilmişdi.

də ölkədə xristianlara qarşı Sasani siyasətini davam etdirirdi. Onlar da eyni siyasi səbəblərdən monofizitlərə üstünlük verir və diofizitləri təqib edirdilər. Çünki diofizitlərdə Ərəb xilafəti də özü üçün Bizans təhlükəsini görürdü.

VII əsrin sonu-VIII əsrin əvvəllərində Albaniyada bir sıra hadisələr baş verdi ki, Albaniyanın və Alban kilsəsinin gələcək tarixində mənfi rol oynadı. Alban hökmdarı Cavanşirin ölümündən sonra (680) ölkədə siyasi vəziyyət daha da gərginləşir. Albaniya Ərəb xilafəti, Bizansa və Xəzər xaqanlığının müharibə meydanına çevirilir. Nəticədə Albaniya Ərəb xilafəti, Bizansa və Xəzər xaqanlığına vergi vermək məcburiyyətində qalır. Yaranmış vəziyyətdə qurtuluş yolunu Bizansa yaxınlaşmaqda görən Alban Apostol kilsəsi VIII əsrin əvvəllərində yenidən diofiizitliyə qayıtmaq istəmişdi.

704-cü ildə erməni-qriqoryan kilsəsi, Alban Apostol kilsəsində baş verən proseslər haqda xəlifə Əbd-əl-Malikə məktub yazır, alban katolikosu Nerses Bakurun öz ibadətlərində Bizans imperatorunun adını çəkərək albanları bizansmeyilli dini etiqadaqa meyilləndirməklə xilafətə qarşı xəyanətdə günahlandırır, Nerses Bakurun bu hərəkətlərini əsas götürərək erməni katalikosu İlya xəlifədən xahiş edirdi ki, o "günahlarına görə cəzalansın. Alban hökmdarı Varaz Tridatın və oğullarının Konstantinopolda zindana salınması zamanı onun xanımı Sparama və Alban patriarxı Nerses Bakur yunan kilsəsinə meyil göstərirdilər və kilsədə biznsmeyilli təbliğatlar aparırdılar. Erməni katolikosu İlya xəlifə Əbd-əl-Malikə (685-705) xəbərçilik edərək xəlifəyə məktubunda Alban yepiskopu və Varaz Tridatın xanımı Sparamanın kilsə dualarında yunan hökmdarının adını çəkdiyini və ölkəni onlara təslim etmək niyyətində olduqlarını yazmışdı. Həqiqətən də bu dövrdə alban katalikosu Cavanşirin varisi knyaz Varaz Tridatın arvadı Sparam ilə birləşərək xilafətə qarşı “Bizns siyasətini” madafiə edirdi.

Alban deofizit kilsəsinin Bizansdan kömək umub ona arxalanması ərəblərin xoşuna gəlmədi. Çünki xilafət Alban-Bizans ittifaqını özü üçün çox təhükəli hesab edirdi. Buna görə də xristian albanları Bizansdan uzaqlaşdımaq üçün onları Bizansla düşmən olan qriqoryan kilsəsinə tabe etməyə bəhanə axtarırdı. Buna görə də ərəblər erməni katolikosluğunun xahişlərini həvəslə icra edirdilər. Bunula da Qafqazda Bizansın mənafeyini sarsıdır, qriqoryan keşişlərdən yardım görürdülər Bu keşişlər isə Arranda öz mənafelərini yeidirdilər.

Belәllkә, xәlifә mәktubu alan kimi Qriqoryan katalikosu İlyaya çoxlu qoşun vә sәrkәrdә göndәrәrәk qiyama qalxan albanları zorla qriqoryan kilsәsinә tabe etmәyi tapşırdı. Eyni zamanda bu hökmün Bәrdәdә icrasının İlyanın iştirakı ilә olması әmr edilmişdi. Bu hadisәdәn sonra xәlifә Әbd-әl Malik fәrman verәrәk Alban Apostol kilsәsinin fәaliyyәti mәhdudlaşdırılır vә iyerarxik baxımdan ermәni-qriqoryan kilsәsinә tabe edilir. Alban kitabları bidәtçi adlandıralaq Tәrtәr çayına atılır.

Belәliklә, monofizit qriqoryan kilsәsi xalkedonçuluğa [1] meyil edәn Alban katolikosu Nerses Bakuru әrәb xәlifәsinin kömәyilә devirmişdi. Әrәb xilafәti Albaniyada ruhanilәr vә knyazların bir hissәsinin Alban kilsәsinin müstәqilliyini qorumaq cәhdini әks etdirәn xalkedonçuluq hәrәkatını qriqoryan kilsәsinin kömәyilә yatırıldı. Xilafәtin kömәyilә Alban kilsәsinin hüquqları antixalkidon qriqoryan kilsәsi xeyrinә mәhdudlaşdırıldı. Bundan sonra, Albaniyada xalkedonçulara rәğbәt bәslәyәnlәr Kalankatlının da qeyd etdiyi kimi, " qılıncla vә әsarәtdә mәhv edilmәli " idi.

Mәhz bu hadisәdәn sonra ermәni-qriqoryan kilsәsi Cәnubi Qafqazda öz mövqeyini möhkәmlәndirә bilmişdi. Bu proses nәticәsindә, alban-arran dili, elәcә dә alban әdәbiyyatı tәdricәn yoxa çıxdı. Alban Apostol kilsәsini öz nüfuzuna tabe etmәk istәyәn ermәni katolikosları mәqsәdlәrinә çatmaq üçün, Sasanilәr dövründә olduğu kimi, әrәb hökmranlığı dövründә dә Xilafәtin hәrbi qüvvәlәrinin kömәyinә әl atırdılar. Cәnubi Qafqazda özlәrinә arxa axtaran Әmәvilәr ermәnilәr vә albanlar arasındakı tәfriqәçilikdәn bacarıqla istifadә edәrәk, Alban Apostol kilsәsinin ermәni-qriqoryan kilsәsinә tabe olunması üçün şәrait yaratdılar. 705-ci ildә Partav (Bәrdә) kilsә mәclisindәn sonra alban kilsәsinin qriqoryan ermәni kilsәsi tәrәfindәn sıxışdırılmağa başladı. Albanların sürәtlә qriqoryanlaşdırılması prosesi başlandı. Bütün bunlardan sonra kilsә mәclisindә Simeon Albaniya katolikosu seçildi. Mәnbәlәr yazır ki, o, ölkәdә Nersesin hәrcmәrcliyini dayandırdı vә yolunu azmış kilsәyә çoxlu hәqiqi etiqad qәrarı verdi. O, Nersesin bütün bidәçi kitablarını sandıqlara doldurub Trtu (Tәrtәr) çayına atdırdı.

[1] 451-ci ildә Xalkedon şәhәrindә çağırılan kilsә mәclisindә monofizitlik rәdd edilmiş, İsanın hәm İlahi, hәm dә insani tәbiәtә malik olması (diofizit) haqqında qәrar qәbul edilmişdir.

Bundan sonra Albaniya yarımmüstəqil vəziyyətini itirir və tamamilə ərəblərin hakimiyyəti altına düşür. Beləliklə, ərəb işğallarından sonra ərəb xilafətinin qriqoryan kilsəsi ilə birlikdə yürütdüyü siyasət nəticəsində albanların bir hissəsi məcburən qriqoryan dinini, digəri isə islamı qəbul etdi. Qriqoryan ruhaniləri tədricən Alban kilsəsinin təsirini yerli əhali arasında zəiflədirdilər. Lakin Ərəb istilası dövründən başlayaraq qriqoryanlaşdırma prosesi hər zaman albanların kəskin müavimətinə rast gəlmişdir. Albanların bir qismi dağlıq ərazilərə çəkilərək oz inanclarını qorumağa çalışmış, bir qismi isə müsəlmanlığı qəbul etmişdir. Buna görə də Aranın dağlıq vilayətləri olan Sünik, Arsax, Xaçen, Şəki, Girdmanın əhalisinin bir qismi (indiki Gəncə, İsmayıllı, Oğuz, Qəbələ) əsrlər boyu xristian olsalar da onların adət ənənələri bu bölgələrdə yaşayan müsəlman olan azərbaycanlılarla eynidir**.** Ərəb işğallarından sonra Arsax əhalisinin bir hissəsi islamı qəbul etdi və bununla da albanların bir hissəsi müsəlmanlaşdı, digər hissəsi isə öz dininə sadiq qaldı və 1836-cı ilədək öz xristian ənənələrini davam etdirdilər. Onlar albanların son nəsilləri idilər.

705-ci ildə Alban dövlətinin Ərəb xilafəti tərəfindən ləğv edilməsindən sonra İslam dini Azərbaycan ərazisində xristianlıqla bərabər mövcud olan bütpərəstlik, tanrıçılıq, atəşpərəstlik kimi ideologiyaları sürətlə sıradan çıxardı və yerli əhalinin əsas inancına çevrildi. Ərəblərin gəlişilə albanların böyük bir qismi islamı qəbul edərək assimilyasiyaya uğrasa da X-XI əsrlərdə bölgədə şərq xristianlığı nüfuzunu müəyyən dərəcədə qoruyub saxlaya bilmişdi. Bu durum XVIII əsrə kimi beləcə davam etmişdir.

IX əsrdə Ərəb xilafətinin zəifləməsilə Alban çarlığı və Alban Apostol kilsəsi öz fəaliyyətini qismən bərpa etməyə nail olur. Şəki, Sünik məlikliklikləri, Arsax-Xaçın knyazlıqları kimi alban çarlıqları yenidən yüksəlişə keçirlər, VIII-IX əsrlərdə Azərbaycan ərazisində müstəqil dövlətlər yarananda Alban kilsəsi də yenidən avtokefal kilsə statusunu bərpa etmişdir.

IX -XIX əsrlər boyu ölkənin ayrı-ayrı hissələrində Şəki məlikliyi (IX-X), Sünik knyazlığı (IX-XI), Arsax-Xaçın knyazlığı (XII-XV), daha sonra bu ərazidə yaranan Dizaq, Vərəndə, Çiləbörd, Gülüstan, Xaçın kimi Qarabağ məlikliklərində (XV-XIX) alban xristian ənənələri XIX əsrin əvvəllərinədək yaşaya bildi. Movcudluğu dövründə Alban patriarxlığının mərkəzi bu dövrdə Xaçın, daha sonra Qanzasar oldu.

Qriqoryan kilsəsi alban ruhanilərini tarixən müxtəlif imperiyaların köməyilə tədricən sıxışdırmağa başlasalar da, Alban kilsəsi XIX əsrin əvvəllərinə qədər çətinliklərlə də olsa yaşamağı bacarmışdı. Lakin XIX əsrin əvvəllərində Rusiya imperiyasının Qafqazda möhkəmlənməsindən istifadə edən erməni qriqoryan kilsəsi Ərəb xilafəti dövründən Alban kilsəsinin məhvinə yönəldilmiş məqsədlərinə nail ola bildilər. 1836-cı ildə Alban kilsəsinin ləğvinə nail oldular. Alban Apostol kilsəsi1836-cl ilədək mövcud oldu və Rusi imperiyası tərəfindən ləğv edildi. XIX əsrdə Şimali Azərbaycanın Rusiya imperiyasına birləşdirilməsindən sonra alban katolikosluğu imperator I Nikolayın 11 mart 1836 -cı il Fərmanına əsaslanan Rusiya sinodunun 10 aprel 1836-cı il tarixli Əsasnaməsinə görə erməni-qriqoryan kilsəsinin idarəçiliyinə verilməklə fəaliyyəti tam dayandırılır və kilsənin bütün əmlakı Eçmiədzin katolikosluğuna verilir.

Bundan sonra qriqoryan kilsə xadimləri albanların bütün abidələrini dağıdıb Alban mədəniyyətini xatırladacaq hər bir şeyi məhv edib saxtalaşdırmağa başladılar. Onlar Arran (alban) ədəbi abidələrini məhv edərkən əvvəlcə bu abidələri qrabara çevrirdilər. Musa Kalankatlı, Mxitar Qoş, Kirakos Gəncəli kimi alban müəlliflərinin əsərlərini saxtalaşdıraraq tərc edirdilər. Erməni müəlliflərin özləri də etiraf edirlər ki, Kalankatlının əsəri bizə öz əvvəlki şəklində gəlib çatmamışdır və onun üzünü köçürüb yazanlar erməni rahibi olduqlarına görə əsərin üzünü köçürəndə ermını katolikosların göstərişi ilə mətndə qəsdən təhriflərə yol vermişlər.

Mx. Qoşun “Qanunnaməsi”nin və Kirakos Gəncəlinin əsərlərinin taleyi də Kalankatlının əsərinin taleyinə bənzəyir. Mx. Qoşun əsərinin adı “Qanunnamə” olsa onun əsərinə əlyazmasında olmayan “hayos” sözünü əlavə etmişlər. Beləliklə də, “Erməni qanunnaməsi” adını uydurmuşlar. Bunlar qrabara çevrilmiş və adları saxtalaşdırılmış Alban ədəbiyyatı abidələridir. Buna görə də Alban yazısı və Alban dilində mətnlərin heç izi-tozu qalmadan yox olması səbəbini Alban kilsəsinin bütün hüquqlarını zorakılıqla qəsb etmiş qriqoryan katolikosluğunun albanların məhvinə yönəldilmiş siyasətində axtarmaq lazımdır.

## *7.2 Alban tarixi-ədəbi ənənələri*
### *7.2.1 Alban dili və əlifbası*

İstər yazılı mənbələr, istərsə də arxeoloji qazıntı materialları Qafqaz Albaniyasının həm maddi, həm də mənəvi mədəniyyəti haqda bizə məlumat verir. Artıq e.ə.I minillikdə tayfaların yaxınlaşması və birləşməsi nəticəsində Şimali Azərbaycan ərazisindəvahid alban mədəniyyəti formalaşmışdı. Alban dövlətinin yaranması ilə bu proses daha da sürətləndi.

Alban mədəniyyəti yazılı mənbələrdə zəif işıqlandırılsa da arxeoloji qazıntılar Albaniyanın antik dövr mədəniyyəti ilə bağlı geniş məlumat əldə etməyə imkan verir. Yazılı mənbələr hələ e.ə.I minilliyin ortalarında alban tayfalarınn yazı ilə tanış olduğunu söyləməyə əsas verir. Antik dövrdə albanlar Ön Asiya yazısı ilə, daha sonra isə romalıların latın yazısı ilə tanış olmuşlar.

Antik müəlliflər alban hakimlərinin göndərdiyi məktublar, Pompeyin Oroysla yazışmalarından bəhs edirlər. e..ə I əsrdə - 65-ci ildə romalıların danışıqlar vaxtı alban şahı Oroys Pompeyə məktub göndərərək, sülhün bərpa olunmasını xahiş edir, bizim eranın III yüzilliyində isə albanlar I Şapurun Valerian üzərində qələbəsi haqqında məktubunu qəbul etməyib «Roma rəhbərlərinə məktub yazdılar. Görünür, həmin məktublar ya yunan, ya da fars dilində yazılmışdı. Arxeoloji qazıntılar da, öz növbəsində bunu təsdiq edir. 1900-cü ildə Şəkinin Böyük Dəhnə kəndində üzərində yunan yazısı olan daş tapılmışdır. Bu daş yunanların Albaniyada olduğunu göstərir.

Albaniya dövlətinin eramızın ilk əsrlərindən daha sürətli inkişafı bu ölkədə mədəniyyət, incəsənət və ədəbiyyatın da yüksəlişinə şərait yaradırdı. Albanların dövrün Yaxın və Orta Şərq ədəbiyyatı, incəsənəti və mədəniyyəti ilə yaxından tanış olması, öz növbəsində ölkədə elmin, mədəniyyətin, memarlığın və ədəbiyyatın inkişafını da sürətləndirmişdi.

Alban dili. Kalankatlı yazırdı ki, albanlar dili və yazısı olan xalqdır. VI əsr Suriya xronikaзэsэ Zaxariya Ritor «Aran (yəni alban) dili» olduğunu yazırdı. Orta əsr ərəb müəlliflərindən Əl-İstəxri, İbn-Heykəl, Əl-Müqəddəsi Arran (Alban) əhalisinin öz aran (alban) dilində danışdığını qeyd etmişlər. M.Kalankatlının Azərbaycan tarixinin təxminən min illik bir dövrünü əhatə edən "Albaniya tarixi" əsərində Azərbaycan-türk mənşəli sözlərə rast gəlinir. Əsərdə həmin dövrdə məişətdə işlənən *avçi* – ovçu, *çöpçi* - uşaqların boğazından

çöp, çəyirdək çıxaran ara həkimi, *alp* - igid, qəhrəman *el // il* - el, ölkə, *gekyar* - ildırım, *tanqri* - tanrı, *qonaq* - qonaq və s. kimi türkmənşəli kəlmələr; bundan başqa *xaqan* - xan, xatun, s*abğu // yabğu* - xaqan müavimi, *şad* - vali, şahzadə, *teqin* - şahzadə, *tarxan* - feodal, *eltəbər* - müəyyən bir ərazinin başçısı, *turkan* -xidmətçi, rabitəçi, *tidun* - yüksək rütbəli zabit və s.kimi rütbə adları; *əyləntürk, barsil, bulğar, onoğur // hunoğur, hun, xəzər, akxəzir // ağ xəzər, paçkank // peçeneq və* s. kimi etnonimlər, *Alp, Qazan, Qonaq, Qor, Manas* kimi antroponimlər, Hunestan, Türkestan (Xəzər ölkəsi), Çol // Çul kimi türkmənşəli toponimlərə rast gəlinir. Bütün bunlar Albaniyada Azərbaycan-türk dilinin ümumxalq danışıq dili kimi ən geci VII əsrdə mövcudluğunu təsdiq edir.

Alban əlifbası. Kalankatlı yazısı olan xalqlar içərisində albanları xüsusi qeyd etmişdir. Mənbələr göstərir ki, V əsrin əvvəllərində Azərbaycanın şimal hissəsinin (Arran) öz əlifbası olmuşdur. Alban əlifbasının V əsrdən öncə də mövcud olduğunu göstərən tarixi faktlar varddır. IV əsr Roma tarixçiləri Pompey Romaya hücumlarından bəhs edərkən Alban çarı Oroysun Pompeyə məktubla müraciət edərək sülh istədiyini yazmışldı. Yenə həmin dövrə aid mənbədə III əsr İran-Roma müharibələrindən bəhs edərkən yazılırdı ki, İran şahı kömək üçün albanlara müraciət etmişdi. Lakin albanlar bu müraciəti rədd edərək imperator Valerianı əsirlikdən qurtarmağa kömək edəcəklərini bildirmişlər. Bu məktubların yerli alban tayfalarından birinin dilində yazıldığı ehtimal edilir.

Tədqiqatlar nəticəsində 1937-ci ildə alban əlifbası ilə olan ilk əlyazma aşkar edilmişdir, həmçinin alban əlifbasının 52 hərfdən ibarət olması müəyyən olunmuşdur. 1948-ci ildə isə Mingəçevir qazıntıları zamanı S.M.Qaziyev üzərində alban yazısı olan daş aşkar etmişdi. Bu yazılı lövhə V-VII əsrlərə aid edilən Sudağılan adlanan şəhərgahdakı məbədin otaqlarından birində aşkar olunub. Bu ibadətgahın yerləşdiyi ərazidən tapılan saxsı qablar, kirəmit parçaları və gil şamdan üzərində də belə yazılar vardır). Gəncə qazıntıları zamanı da belə yazılı gil parçaları tapılıb.

Mingəçevirdəki qazıntılar zamanı tapılan alban əlifbası parçaları təsdiq edir ki, V-VII əsrlərdə Albaniyanın öz yerli yazısı var idi və bu yazı ölkədə ərəb hökmranlığından çox öncə mövcud olmuşdur. Son illərdə alban yazısının oxunması sahəsində əldə edilən nailiyyətlərdən məlum olur ki, albanlar hətta IV əsrdə öz yerli xristian ədəbiyyatına malik idilər. Tədqiqatlar həmçinin təsdiq etmişdir

ki, artıq IV əsrdə alban yazısı və alban dini ədəbiyyatı mövcud idi. Bu dövrdə alban yazısının köməyilə İncil və digər dini ədəbiyyat suriya və yunan dilindən alban dilinə tərcümə olunurdu. 1975-ci ildə Sinay dagında Müqəddəs Yekaterina Monastırından tapılmış palimpsestlərdən[1] birinin 2003-cü ildə gürcü alimi Zaza Aleksidze tərəfindən alban dilində olduğunu müəyyən edilmişdir. Müqəddəs Yekaterina monastırının alt təbəqəsindən tapılan iki əlyazma (palimpsest) ən qədim alban yazılı mənbəyidir. Palimpsest İncildən Həvari Pavelin Korinflilərə ikinci məktubundakı mətnlərdən ibarət, kilsə mərasimlərdə oxunan dua kitablarının bir hissəsidir və dünyada xristianlığın ən qədim kütləvi qiraət kitablarından sayılır. Müqəddəs Yekaterina Monastırında tapılmış qafqaz albanlarının dilindəki bu qədim yazılı mənbə Alban əlifbasının hələ IV əsrdə mövcud olduğunu göstərir. Məlumdur ki, Alban kilsəsi özünün başlanğıcını Yerusəlimdən (Qüdsdən) gəlmiş İsanın 50 apostolundan biri olan müqəddəs Yeliseydən başlayır. Buna görə də albanlar üçün Qüds Müqəddəs Torpaq olaraq xüsusi əhəmiyyət daşıyırdı. Kalankatlı Yerusəlimdəki monastır və kilsələrin adını və yerləşdiyi əraziləri xüsusi olaraq qeyd edir. Bu palimsestin Albaniyada diafizitliyin təqib edildiyi dövrlərdə alban monofizitləri tərəfindən müqəddəs əmanət kimi gətirildiyi ehtimal edilir.

Ümumiyyətlə, aşkar edilmiş yazı nümunəsi bu gün artıq alban yazısının mövcudluğuna və onun uzun müddət istifadə olunduğuna heç bir şübhə yeri qoymur. Mənbələrdən də məlum olduğu kimi Albanlar Apostollar dövrünə aid dini kitabları, incili tərcümə etmişlər. Bu alban mətni də apostollar dövrünə aid edilir. Alban əlifbası, Mingəçevirdə tapılmış alban yazıları, eləcə də Sinay palimpsestləri alban yazısının V-IX əsrlərdə mövcudluğu haqqında ilkin qaynaqların məlumatlarını bir daha təsdiq etdi.

Albaniyada məktəblər çoxu yerli yazı yaradılanadək, yunan və Suriya dillərindəki ruhani məktəbləri idi. Alban yazısının meydana gəlməsi ilə yeni, ancaq bu dəfə ana dilindəki məktəbədə tələbat yarandı. Onlardan başlıca məqsəd yeni dinin – xristianlığın yayılması və təblig edilməsi üçün ruhanilər və «İncil»i çevirmək üçün tərcüməçilər yetişdirmək idi. Maarif şəbəkəsi V yüzilliyin son çərəyində inkişaf etdi. Xüsusilə III Vaçaqanın dövründə Albaniyada maarif

[1] Daha öncə perqament üzərində yazılmış mətnin silinərək üzərinə yeni mətn yazılan və hər iki mətnin bir-birinə qarışdığı yazı.

inkişaf etdi, müxtəlif ədəbi məktəblər, xüsusən yunanpərəst məktəblər yarandı ruhani xristian və dünyəvi ədəbiyyat inkişaf etdi. V əsrdə Arranda məktəblər var idi. Alban tar-də verilən məlumata görə, Vaçaqan əmr etdi ki, cadugərlərin, sehirbazların, bütpərəst kahinlərin, ağıçıların uşaqlarını yığıb məktəbə göndərsələr və orada onlara dini yinlər öyrətsinlər. Bu məktəblərdə rahiblər maaşla dərs verirdilər, yəni ruhanilər maarifçi rolu oynayırdılar. Alban şahı və maarifçisi III Vaçağan xaçpərəstliyi Albaniyada öz kanon qərarı ilə dövlət dini kimi təsdiqləyərək hər yanda şah xəzinəsi hesabına məktəblər açdı, «Alban tarixi»nin "Vaçağan şahın cadugərlərin bəd uşaqları üçün məktəblər təsis etməsi haqqında adlanan fəsillərindən birind müəllif "Vaçaqanın cadugərlərin, ovsunçuların, bütpərəst kahinlərin, rəmmalların və türkəçarələrin uşaqlarını toplayıb onları məktəbə verməyi, onlara ilahi elmi öyrətməyi və xaçpərəst həyatına vaqif etməyi əmr etdiyini" yazır. Burada valideynləri qədim yerli bütpərəst tapınaqların, bidətçi təlimlərin ardıcılı olan uşaqlar xaçpərəstlik ruhunda tərbiyə olunurdular.

Bu dövrdə Albaniyada şəhər, xüsusən paytaxt məktəbləri ilə yanaşı, kənd yerlərində də xeyli məktəb vardı. Alban müəllifi Musa Kalankatlı bildirir ki, şah III Vaçağan Albaniyanı gəzəndə tez-tez kənd məktəblərinə baş çəkər, əlinlə kitab, lövhə və başqa vəsait olan şagirdləri başına yığıb bərkdən xorla oxumağı onlardan xahiş edərdi. Sonrakı əsrlərdə Albaniyada maarif şəbəkəsi daha da genişləndi. «Alban tarixi»ndə verilən məlumatdan aydın olur ki, ölkənin ziyalılarının elmin müxtəlif sahələrini bilirdilər, yaxşı natiq idilər. Albaniyada musiqi təhsilinə xüsusi diqqət yetirilirdi. Mənbədə qeyd olunur ki, Zəburoxuyan David musiqili mahnılar qoşub, knyaz Cavanşir yayda adətən, öz mülkünün dağlıq vilayətlərini gəzərdi ki, "yay günlərini çoxlu xanəndələrlə şən məclislərdə keçirsin".

Beləliklə, Albaniyada müxtəlif sahələri əhatə edən məktəblər idi. Bu Albaniyada yazı, dil və ədəbiyyatın yüksək inkişaf mərhələsində olduğunu göstərir. Belə ki, biliyin ötürülməsinin əsası məktəbdir.

### *7.2.2. Alban ədəbiyyatı*

IV-VIII əsrdə alban ədəbiyyatı yüksək səviyyədə inkişaf etmişdi. Alban dilində yerli yazı və ədəbiyyatın yaranması ölkədə xristianlığın yayılması ilə bağlı idi. Albaniyada xristianlığın yayıl-

ması və bərqərar olmasında alban yazısı mühüm rol oynamışdır. Xristianlığın ilk mərhələsində Yaxın və Orta Şərqin bütün ölkələrində olduğu kimi Qafqaz Albaniyasında da İncil suriya(aramey), daha sonra isə yunan dillərində təbliğ olunurdu. Albaniyada suriya və yunan dillərində yazıların yayılması barədə alban müəllifi M.Kalankatlı məlumat verir.

Tədricən doğma alban dilində yazı və ədəbiyyat məsələsi tarixi zərurətə çevrilməkdə idi. Albaniya həm sosial-iqtisadi, həm də siyasi cəhətdən öz yazısının yaradılmsı üçün hazır idi. Alban ədəbiyyatı əlverişli tarixi-mədəni şəraitdə formalaşırdı. Bu dövr müstəqil Alban dövlətinin mövcud olduğu (IV-VIII) dövr idi. Bu dövr həm də müstəqil Alban kilsəsinin formalaşma dövrüdür. IV-VIII əsrdə alban ədəbiyyatı yüksək səviyyədə inkişaf etmişdi.

Dini ədəbiyyatın alban dilinə ilk tərcümələri siryani dilindən olmuşdur. Moisey Kalankatlının verdiyi məlumatlara görə Albaniyanın qədim Suriya ilə qədim bagları var idi.

V-VII əsrlər Alban ədəbiyyatında yunan istiqaməti özünü büruzə veriridi. Belə ki, Sasani hakimiyyətinin güclənməsi, sasanilərin güclə zərdüştlüyü yaymağa çalışması Albaniyada Bizans meyilli əhval-ruhiyyənin güclənməsinə və yunan mədəniyyətinə marağın artmasına səbəb olurdu. Bunun Kalankatlının məlumatlarından da sezmək olur. Müəllif yazılarında tez-tez "Afroditanın kahinləri" və s. kimi yunan ifadələri işlədilirdi Kalankatlının məlumatlarından Alban hökmdarı Cavanşirin yunan dilini mükəmməl bildiyi aydın olur.

V-VII əsrlər Alban yazısının çiçəklənməsi dövrü sayılır. VI-VII əsrlərdə yunan, fars, suriya və başqa dillərdən alban dilinə tərcümələr edilirdi.

VI-VII yüzilliklərdə Albaniyada artıq yetərincə zəngin orjinal və tərcümə ədəbiyyatı vardı ki, bu haqda "Albaniya tarixi" əsərində məlumat verilir. Əsərdə müəlif 552-ci ildə alban dilindəki müqəddəs kitablar yandırılması barədə məlumat verir. Burada «müqəddəs kitablar» kitablar nəzərdə tutulurdu. Bundan baıoqa əsərdən 704-cü ildə katolikos Nerses Bakurun kitabxanasından götürülüb yandırılan və Tərtər çayına atılan kitabların arasında da alban dilində (həm tərcümə, həm də orijinal əlyazma kitablar olduğu da məlum olur.

Kalankatlının məlumatlarından aydın olur ki, VII əsrdə ölkədə alban dilinə çevrilmiş İncil istifadə edilirdi. Albaniyada məbəd və digər tikililərdə alban dilində həkk olunmuş yazılar aşkar edilmişdir. 1948-52-ci illərlə Mingəçevirdən tapılan yazı buna sübutdur.

VII əsrdə, məsələn, katolikos Viro, şair Dəvdək, tarixçi Musa Kalankatlı, nəğmə musiqiləri bəstələmiş müəzzin David kimi bir çox görkəmli ədəbiyyat, elm və mədəniyyət xadimləri yaşayıb-yaradırdılar. Ьmumiyyətlə, Bərdədə Cavanşirin sarayı görkəmli alimlərin, filosofların, memarların, rəssamların və şairlərin məskəni idi. Musa Kalankatlının azdığına görə, burada hətta musiqi bəstələyənlər var idi.

Kalankatlı yazırdı ki, "Viro qızıla inci vuran tək öz ağzı ilə rəvayətlər düzüb qoşurdu, xüsusən ona görə ki, fars dilindən tərcümədə usta idi...". Lakin təəssüf ki, Vironun ədəbi irsindən, eləcə də digər alban yazıçılarının yaradıcəlığından heç bir iz qalmamışdır.

Virodan sonra ən görkəmli єair Dəvdək idi. Cavanşirin sui-qəsd nəticəsində öldürülməsinin səhərisi saray şairi Dəvdək Cavanşirin tabutu önündə qəsidə oxuyur. Alban tarixində" "Böyük knyaz Cavanşirin ölümü" münasibətilə şair Dəvtəkin yazdığı elegiya (qəsidə) dövrümüzədək mühafizə olunmuş yeganə alban poemasıdır. Ümumiyyətlə, VII əsrdə yaradılmış zəngin ədəbiyyatdan bizə yalnız "Alban tarixi"nə daxil edilmiş bir neçə hekayə, nağıl və Dəvdəkin qəsidəsi gəlib çatmışdır. Təxminən 140 misradan ibarət olan bu qəsidə - ağının məzmunundan aydın olur ki, onun müəllifi ellin və İran ədəbiyyatı ilə yaxından tanış olan və Ön Asiyanın qədim tarixini mükəmməl bilən bir şairdir. Qəsidə şair etibarı ilə qədim yunan, formaca isə Şərq poeziyasına məxsus akrostixlə[1] yazılmışdır. Bu qəsidənin qədim yunan poeziyası üslubunda yazıldığı onun ilk misralarından aydın görünür. Qəsidədə VII əsr Albaniyanın siyasi və ictimai həyatı, Cavanşirin 35 illik fəaliyyəti, Albaniyaya edilən hücumlar və gözlənilən təhlükələr öz əksini tapmışdır. Dəvdək öz qəsidəsində Cavanşirin ölümünun Aran üçün böyük itki olduğunu, onun ölkəsinin yenə də yadelli işğalçıların tapdağına çevrilə bilməsini ifadə etmişdir.

Alban şairi Dəvdəkin həyatı və ədəbi yaradıcılığı haqqında çox cüzi məlumat var. Onun müasiri olan alban tarixçisi Musa Kalankatlının yazılarından məlum olur ki, Dəvdək dövrünün bütün elmlərinə bələd müdrik bir filosof, gözəl bir natiq və ustad şair idi. «Alban tarixi» Dəvdəki xatırlayan və onun qəsidəsini bu günə qədər mühafizə edib saxlayan yeganə yazılı mənbədir.

---

[1] **Akrostix** yunanca *acrostichis* -akros-kənar; *stichos*-sətir mənasında olub, hər misranın baş hərflərini yuxarıdan aşağıya oxuduqda söz və ya ifadə əmələ gətirən şeir deməkdir. Akrostix qədim yunan poeziyasında yaranmışdır.

VII əsr-VIII əsrin başlanğıcı alban ədabiyyatı və yazısının zirvə dövrü idi. Albanların V-VIII əsrlərdə öz ədəbiyyatı var idi. Alban dili dövlətin və kilsənin dili idi. X əsrədək alban mənbələri alban dilində tərtib olunmaqda idi. Bura alban dini rəvayət ədəbiyyatı (aqioqrafiya), məktublar, kilsə ədəbiyyatı, salnamələr daxildir.

V-VII əsrlər isə Alban yazısının çiçəklənməsi dövrü sayılır. Alban xristian yazısı X-XIII əsrlərdə özünün inkişafının yüksək mərhələsinə çatmışdır. Lakin V əsrdən etibarən Albaniyada zəngin ədəbiyyat olmasına baxmayaraq sonralar bu ədəbiyyat tədricən yox olmuşdur. "Alban tarixin" dən aylın olur ki, alban dövləti, eyni vaxtda alban yazısı üçün VIII yüzillik talesiz bir dövr oldu, knyaz Şero və Varaz Tridatın xanımı Sparame arasında hakimiyyət çarpışması, eləcə də diofizit və monofizitlər arasındakı kəskin mübarizə və ən başlıcası, əməvi xilafətinə qarşı albanların üsyanı geriyə dönüşü olmayan faciələrə yol açdı. Üsyanı xilafətin cəza qoşunları amansızlıqla yatırdılar, üsyanı başlayanlardan biri - xalkedonçu katolikos Nerses Bakur cəzalandırıldı və alban katalikosunun kitabxanasındakı bütün kitablar, əlyazmalar, eyni zamanda alban diofizit kilsələrinin kitab xəzinələri və arxivlərindəki əlyazmalar da məhv edildi. Arran yazılı mənbələri və ədəbiyyatı xəlifə Əbd-əl Malikin dövründən (685-705) məhv edilməyə və sıxışdırılb aradan çıxarılmağa başladı. Divanxanalar ərəb dilini keçdi, alban yazısı əhali içərisində savadlı təbəqənin azlığı və hər zaman Alban kilsəsi ilə rəqabət aparan qriqoryan kilsəsinin təzyiqi üzündən unudulmağa başladı.

XIII əsrdən etibarən Alban kilsəsi monofizit qriqoryan kilsəsi təsirinə düşür. Mənbələrin verdiyi məlumata görə erməni kilsəsi diafizit saydığı alban ədədbiyyatını yandırır. Beləliklə də, Alban ədəbiyyatı tədricən addım-addım öz etnik mənsubiyyətinin dilini itirməyə məruz qalır, Alban yazısı yalnız diofizit mühitdə qoruna bildiyi üçün bu gün Sinayda qorunub qala bilmişdi. Alban yazısı Sinay ərazisinə Alban kilsəsinin monofizitliyə keçməsindən sonra diofizit albanlar tərəfindən müqəddəs əmanət olaraq gətirildiyi ehtimal edilr. Burada gürcü alimi Z. Aleksidze tərəfindən alban mətni ilə iki palimpsest aşkar edilmi.dir. Bu tapıntı Alban əlifbasının varlığını şübhə altına alan bütün nəzəriyyələri heçə çıxartdı.

### *7.3. Albanların etno-mədəni və dini irsinin transformasiya səbəbləri*

Albanların Kür və Araz çayı hövzəsində yaşayan böyük bir hissəsi Ərəb işğalları dövründə müsəlmanlığı qəbul etmişdi. Ərəb istilası ərəfəsində xəzərlərin sasanilərin Bizansın basqınları nəticəsində yoxsul vəziyyətə düşmüş, təsərrüfatları dağılmış Albaniya əhalisi ərəb istilasından sonra dinclik dövrü yaşayırdılar. Çünki ərəblər yalnız təyin etdikləri vergilərini alıb ölkənin daxili işlərinə qarışmır, ilk vaxtlar hətta əhaliyə öz dini əqidələrində və dini ayinlərin icrasında sərbəstlik vermişdilər. Ərəblərin özləri hələ yeni din olan İslamı lazımınca mənimsəmədikləri üçün ilk vaxtlar alban əhalisini islamı qəbul etməyə məcbur etmirdilər. Təbii ki, yeni dini qəbul etmək istəyənlərə də mane olmurdular. Xüsusilə alban xristian əhalisinin "kitab əhli" (əhl-əl Kitab) olmaları məcburi dini siyasət yeridilməməsinə səbəb idi. Çünki ərəblər əsasən bütpərəstləri təqib edirdilər. Ərəblərin Albaniyada " kitab əhli" ilə mülayim rəftarının bir səbəbi, həm də onların Bizansa qarşı mübarizədə Qafqazın strateji əhəmiyyətini yaxşı başa düşməsi ilə bağlı idi.

Arran (alban) əhalisi islamı qəbul etməyə məcbur edilməsə də, xristian əhali, xüsusilə də alban feodalları - zadəganlar öz imtiyazlarını qoruyub saxlamaq üçün tədricən islamı qəbul etməyə başladılar. Çünki ərəblər müsəlmanlığı qəbul etmiş zadəganların torpaq mülkiyyətinə sahiblik hüququnu saxlayır, onları cizyə vergisindən azad edirdilər.

VIII əsrin əvəllərində Ərəb Xilafətinin Alban dövlətçiliyini ləğv etməsindən sonra islam dini xristianlığı tədricən sıxışdırıb aradan çıxarsa da albanların müsəlmanlaşma prosesi uzun sürdü. VIII-IX əsrlərdə Albaniyanın Bizans meyilli siyasəti və Ərəb xilafətinin buna qarşı çıxması, cəza tədbiri olaraq Alban kilsəsinin fəaliyyətini məhdudlaşdırılması, alban ədəbiyyatını və yazısını məhv etməsi kimi hadisələr baş versə də Alban kilsəsi və alban etnosu XIX əsrin əvvəllərinədək etnik kimliyini qorumağı bacarmışdı. Ərəb xilafətinin işğalları mərhələsində albanların bir qismi dağlıq ərazilərə çəkilərək burada müstəqil Alban kilsəsini yaşatmağa çalışmış, qədim alban inanclarını, həmçinin xristian ənənələrini və etnik kimliklərini qorumağa müvəffəq olmuşdular. VIII əsrin əvvəllərində Alban dövlətinin süqutundan sonra da Sünik, Arsax, Xaçın, Şəki məlikliyi (IX-

XIII əsrlər), Qarabağ ərazisindəki beş alban məliklərində (XV -XIX əsrlər) öz movcudluğunu sürdürməkdə idilər.

XI-XIII əsrlər alban ədəbiyyatı və mədəniyyəti tarixində alban intibahi dovrü idi. Məhz bu dövrdə alban tarixşünasligının Mxitar Qoş, Kirakos Gancəli kimi məşhur nümayəndələrini yetişmişdi. Onların əsərlərində alban cəmiyyatinin, onun siyasi, mənəvi hayatı, XI -XIII əsrlərdə Qafqazda cərəyan edən hadisələri, o cümlədən Alban Apostol Kilsəsinin tarixi haqqında məlumatlar qorunub saxlanmışdır.

Albanların tarixi-ədəbi ənənələri sonraki əsrlərdə də davam etmişdi. XVIII əsrdə alban katolikosu Yesayi Həsən Cəlal ”Alban ölkəsinin qısa tarixini ” yazır. XIX əsrdə isə Makar Barxudaryans son albanlara həsr etdiyi əsərlərində Alban kilsələri, alban ənənələri və inancları haqda məlumat verir. Bütün bunlar VIII əsrin əvvəllərində Alban dövlətinin süqutundan sonra da XIX əsrin əvvəllərinədək alban etnomədəni irsinin və alban ənənələrinin davam etdiyini göstərir. IX əsrdən XIX əsrədək mövcud Azərbaycan dövlətlərinin tərkibində musəlman əhali əhatəsində olmasına baxmayaraq Alban Apostol kilsəsi fəaliyyətini davam etdirmiş, IV esrdən 1836-ci ilə qədər avtokefal kilsə olaraq qalmağı bacarmışdı. Alban kilsəsi bu mərhələdə alban etnosunu öz ətrafında birləşdirən və təmsil edən təşkilat kimi fəaliyyət göstərməkdə idi. XIX əsrin əvvəllərinə kimi Alban kilsəsi çox sayda fəaliyyətdə olan alban yepiskopluğuna, yəni dini inzbati-ərazi vahidinə malik idi. Alban patriarxligının mərkəzi Cola, Bərdə, Gədebəy ve nəhayet, 1240-ci ildən 1836-ci ile qədər Xaçın knyazlığı ərazilərində mövcudluğunu davam etdirmişdir.

Lakin 1805-1828-ci illərdə Rusiyanın Qafqazi işgal etməsi və tarixi Azərbaycan ərazilərinə İrandan va Türkiyədən ermənilәri koçurməsi ilə alban etno-mədəni və dini irsinin məhv edilməsi prosesi başlandı. Rusiya imperiyası tərəfindən ermənilərin Azərbaycan xanlıqlarına kütləvi köçürmə siyasətindən sonra ermənilərin bu torpaqlarda tarixi çəhətdən də kök salması üçün, yeni əldə etdikləri torpaqla erməni tarixini bağlamaq yollarının axtarışına başlandı. Erməni-rus ittifaqı bunun üçün Qafqazda əsrlər boyu formalaşan Alban mədəni irsini tamailə mənimsəyərək erməniləşdirmək yolunu seçdi. Bu ideyanın qarşısında IV-XIX əsrlər boyu fəaliyyətini davam etdirən Alban Avtokefal Kilsəsi və əsrlərdən bəri bütün çətinliklərə sinə gərərək öz etnik kimliyini, inancını, xristian ənənələrini qoruması bacarmış alban etnosu dururdu.

XIX əsrdə Qafqazın işğalından sonra Çar Rusiyası ermənilərin Azərbaycan torpaqlarına köçürülməsini və Albaniya ərazisində məskunlaşmasını tarixi cəhətdən əsaslandırmaq üçün Alban Apostol kilsəsini və əsrlərdən bəri yaşatmağı bacarmış albanların etnik

kimliyini məhv etmək siyasətini başlatdı. Bu məqsədlə **Rusiya imperatoru II Nukolayın 1836-cı il 11 mart fərmanı ilə** Alban kilsəsi ləgv edərək erməni qriqorian kilsəsinin idarəçiliyinə verildi. Beləliklə, V-VIII əsrlər boyu formalaşan və çiçəklənən, XI-XIII əsrlərdə yenidən dirçələn və XVIII-XIX əsrlər boyu tarixin bütün çətinliklərinə sinə gərərək mövcudluğunu sürdürməkdə olan zəngin alban etnomədəni irsinin ermənilər tərəfindən mənimsənilməsi prosesi başlandı.

Yerli alban mədəniyyətini və tarixini məhv edərək onu ermənilərin tarixi mirası kimi qələmə vermək üçün Rusiya imperiyasının Qafqaza köçürdüyü, imperiyanın bölgədəki sadiq xidmətçisinə çevrilən və burada kök salmağa niyyətli olan ermənilərin vasitəsilə bütövlükdə Azərbaycan tarixinin saxtalaşdırılması prosesi başlandı. Çar Rusiyasının köməyilə alban etno-mədəni mirasını ələ keçirən ermənilər Qafqazda həm siyasi, həm də mədəni-tarixi cəhətdən özlərini bölgənin yerliləri kimi təqdim etməyə can atırdılar. İmperiyanın dəstəyinə arxalanan ermənilər zəngin alban ədəbi-tarixi ənənələrinin erməni ruhuna uyğunlaşdırmaq məqsədilə qədim alban mənbələrini saxtalaşdırılmış formada erməni dilinə tərcümə edərək orijinallarını məhv etdilər. Onlar hətta mənbələrin adlarında belə dəyişiklik etməkdən çəkinmədilər. Məsələn, Mxitar Qoşun "Qanunnamə" əsərini "Erməni Qanunnaməsi", Kirakos Gəncəlinin "Tarix" əsərini "Erməni tarixi" şəklində dəyişdirilmişdir. Hələ nə qədər alban ədəbiyyatının məhv edilməsi isə sirr olaraq qalır. Bunu XIX əsr alban müəllifi Barxudaryanın qeydlərindən görmək olur. XIX əsr alban müəllifi Qanzasar monastırından qiymətli əlyazmaların oğurlandığını yazırdı.

Ermənilərin Albaniya ərazisində tarixi varlığını əsaslandırmaq üçün isə alban etnomədəni irsi, zəngin alban ədəbi tarixinin saxtalaşdırılması prosesi başlandı. 1836-cı ildən etibarən qədim alban mənbələrinin orijinalının yerinə artıq erməni dilinə tərcümə olunmuş variantları nəşr olunmağa başladı. Alban kilsəsi və alban xalqının isə erməni mənşəli olduğu təlqin edilməyə başladı. Məhz bu səbəbdəndir ki, Albaniya tarixi üzrə ən mühüm mənbə olan Kalankatlının "Albaniya tarixi" əsərinin orijinalı istər Rusiya imperiyası, istərsə də Sovet imperiyası dövründə erməni əlyazmalar fondu olan -Matenadaranda çox böyük ciddi-cəhdlə gizlədilmişdir və xüsusilə də Azərbaycan albanşünaslarının bu qədim mənbədədən istifadəsi hər vasitə ilə əngəllənmişdir.

Zəngin alban ədəbiyyatı və alban dili 1828-1836-cı illərədək, yəni Qafqazın Rusiya tərəfindən işğalınadək mövcudluğunu sürdür-

məyi bacarsa da, XIX əsrdən etibarən alban ədəbiyyatı qədim erməni dilinə çevrilərək redaktə edilmiş vəziyyətdə nəşr edilməyə başlamışdır.

**1836-cı ildə Alban kilsəsinin ləğvindən sonra albanların dini və etnik durumu.** Erməni katolikosluğu hər zaman özünün ilkinliyini və Alban kilsəsindən üstünlüyünü iddia etməyə çalışırdı. Hələ Ərəb xilafəti dövründə Alban kilsəsinin təqib edilməsi və hüququnun məhdudlaşdırılmasında qriqoryan kilsəsi xüsusi rol oynamışdır. Erməni katolikosları Alban kilsəsini öz nüfuzlarına tabe etmək üçün əvvəlləcə Sasanilərin, sonra Ərəb xilafətinin və ən son olaraq Rusiya imperiyasının köməyinə əl atmışlar. Ərəb xilafəti Alban kilsəsini erməni kilsəsinə tabe etməyə çəhd göstərsə də buna tam olaraq müvəffəq olmamışdı. Lakin Qafqazın Rusiya imperiyası tərəfindən işğalından sonra Alban kilsəsi birdəfəlik ləğv edildi. Rusiyanın təcavüzkar siyasəti nəticəsində Alban xalqının etnik kimliyi tamamilə ləğv edildi.

1836-cı ildən sonra Eçmiədzin kilsəsi tərəfinən Alban kilsəsinə getməsi qadagan edilən xristian albanların assimilya olunması cəhdləri həyata keçirilirdi. Alban kilsəsinin ləğv edilməsindən sonra albanlar erməni kilsəsinə getməyə məcbur edildilər və imperiya siyahıya almalarında erməni kimi qeydə alınmağa başladılar. Alban əhali isə onları erməni kilsəsi ilə birləşməyə vadar edən qriqoryan və ya gürcü kilsəsinə yaxınlaşdıracaq pravoslavlığı qəbul etmək məcburiyyətində qaldılar. Rusiya imperiyasının əhalinin ümumi siyahıyaalma sənədlərində xristian albanların etnik mənsubiyyəti də saxtalaşdırılmağa başladı. Qriqoryan məzhəbli alban tayfaları erməni, pravoslav məzhəbli albanlar- isə gürcü kimi qeydə alınmağa başladı. Bununla da son alban nəsillərinin etnik kimliyinin və dini mənsubiyyətinin ağrılı və uzun sürən məhvedilmə prosesi başlandı.

1836-cı ildə Alban katolikosluğunun ləğvindən sonra alban kilsələri baxımsız qalaraq dağılmağa başlayır. Əsrlərdən bəri müsəlman əhalinin əhatəsində yüksək səviyyədə qorunub qalmış bütün alban monastır və kilsələri bu aqibətlə üz-üzə qalırlar. Son alban nəsilləri müqəddəs yerləri və kilsələri dağıdıldıqdan sonra doğma torpaqlarından didərgin düşdülər. Bu, Rusiyanın Azərbaycana qarşı apardığı geosiyasətin nəticəsi idi.

Albanların birbaşa varislərindən olaraq yalnız udilərin bir qismi - Hazırda Qəbələ və Oğuz rayonlarında məskun olan alban udilər qriqoryanlaşma prosesinə qarşı dayana bilmişlər. Alban xristian

kilsələrini dagıdan və ora gedilməsini qadağan edən Eçmiədzin kilsəsi yeni qriqoryan kilsələri inşa edərək xristian albanları oraya getməyə məcbur etsə də udilər özlərinin etnik xüsusiyyətlərini qoruyub saxlamaq və qriqoryanlaşmamaq üçün erməni kilsələrinə getməkdən imtina edərək öz ibadətlərini evdə icra etmişlər. Hazırda da udilərin dini- bayram mərasimlərində alban ənənələri qorunub saxlanmışdır. Məsələn, Hələ V əsrdə Aquen kilsə məclisinin qəbul etdiyi qanunlara görə mərhumun ruhunun sakitləşməsi onun üçün kilsəyə xüsusi pay *patarak* verilməli idi. Bu ayin indi də udilərin yas mərasimində qorunub qalıb və alban dövründə olduğu kimi *patarak* adlanır. Strabon məlumat verdiyi albanların ölünü əşyaları ilə dəfn etməsi ənənəsinin izləri də udilər arasında qorunub qalmışdır. Musa Kalankatlı Qafqaz Albaniyasında "ağaca qurban kəsilərək, qanının yarpaqlarına çilənib, kəlləsinin və dərisinin isə budaqlardan asılması adətinin olduğunu yazırdı. Udu tayfalarının yaşadığı Nic kəndində bu qədim alban ənənəsinin izləri qalmaqdadır. Udilərin meşədə yerləşən Toyuq piri" adlı qədim bir inanc yerində toyuq qurban kəsərək, ayaq və başını ağac budaqlarından asardılar. XIX əsrdə Azərbaycanın bir çox bölgələrində müqəddəs ağacların altında qoyun və ya toyuq qurban kəsilərək, dərisini ağacdan asılması ənənəsi olduğu da məlumdur. Udilərin rəngarəngliyi, zəngin məzmunu ilə seşilən nagıl, folklorunda da qədim alban cəmiyyətinə xas ənənələr qorunub saxlanıb. Beləliliklə, udilər əsrlərdən bəri özünəməxsusluqlarını mədəniyyətlərini, dillərini, dinini, milli şüur və etnik özəlliklərini, etnonimlərini qoruyub saxlamağı bacardılar.

Cənubi Qafqazı zəbt etdikdən sonra Çar Rusiyası qədim alban tayfası gellərin varisləri olan ingiloyları da pravoslavlaşdırmaqla bütövlükdə alban etnomədəni təbəqəsini tamamilə məhv edərək onları gürcüləşdirmək niyyətində idi. Rusiya imperiyasının dəstəyilə gürcü missionerləri bölgədəki qədim alban məbədlərini də "təmir" bəhanəsilə məhv edərək onların "gürcü pravoslav kilsələri" kimi fəaliyyətini təmin etməkdə idi. Bu siyasət nəticəsində XIX əsrin sonlarından etibarən bölgədə pravoslav-xristianlığın təbliğinin güclənməsi üçün Kürmük çayı yaxınlığındakı Kürmük alban məbədi də dağıdılaraq yerində yeni pravoslav kilsəsi tikilmişdi. Kürmük məbədində gürcü pravoslav kilsəsinin fəaliyyət göstərməsi XIX əsrdə Rusiya imperiyasının alban etnosunun və Alban kilsəsinin məhvinə yönəldilmiş dini siyasətinin bariz nümunəsidir. Rusiya sinodunun qərarı ilə 1836-cı ildə alban məbədlərinin fəaliyyətinin dayandırılma-

sından sonra xristian albanların son nəsilləri pravoslav və ya qriqoryan kilsəsinə getməyə məcbur buraxılmış, bununla da dini durumlarına uyğun olaraq ermənləşməyə və gürcüləşməyə məruz qalmışlar. Bu dövrdən etibarən imperiya məmurları Azərbaycanın şimal-qərb bölgəsində alban tayfalarının birbaşa varislərindən olan ingiloylar arasında da pravoslav kilsəsinin nüfuzunu gücləndirməyə, bununla da onların öz etnik mənsubiyyətini unudaraq gürcüləşdirməyə yönəldilmiş siyasət aparmağa başlamışlar.

Zəngin və özünəməxsus alban mədəniyyəti Azərbaycanın mənəvi mədəniyyətinin əsasını təşkil edir. Məhz bu səbəbdəndir ki, müxtəlif mədəniyyətlərin qaynayıb qarışdığı Azərbaycan zəngin mədəni mirasa sahibdir. Albaniya əhalisi arasında hətta xristianlıq, islam kimi klassik ideologiyaların rəsmi qəbulundan sonra da qədim inam və dünyagörüşlərinə inam qalmaqda idi və bu inanclar günümüzədək qorunmuşdur. Xristianlığın yayılması zamanı ilk kilsələr qədim bütpərəst ibadətgahların bünövrəsi üzərində inşa edildiyi üçün əksər xristian məbədlərində qədim kult simvolikası və qədim inancların qalıqları qalmaqda idi.

Qafqaz Albaniyasının varisləri olaraq azərbaycanlılar arasında alban ənənələrinin arxaik elementləri qalmaqdadır. Qədim alban inanclarının izləri -Ay, Günəş və od kultlarının işartıları bu gün də Azərbaycan əhalisi arasında qorunub-saxlanılmışdır. Xalq arasında bu gün də Günəşə, Aya, oda and içərlər, Aya, oda baxanda, lampa yandıranda, təndir yandıranda salavat çevirirlər.

Antik müəlliflər qədim Azərbaycan tayfalarının Günəşə sitayiş etdiyini və Günəşə at qurban kəsdiklərini yazırdılar. Azərbaycanın alban tayfalarından olan hər, qat tayfalarının məskun olduğu Qəbələ, Quba kimi bölgələrində qədim qəbiristanlıqlarda maraqlı bədii tərtibatlı məzar daşlarına bu gün də rast gəlinir. Belə qəbir daşlarında Albaniya həkkaklıq və heykəltəraşlıq nümunələri üçün xarakterik olan müqəddəs dirilik ağacının, tovuz quşunun, buta formalı qabartma təsvirlərində qədim alban bütpərəst inamının izlərini görmək mümkündür. Məlumdur ki, günəş simvolu olan tovuz quşu Qafqaz Albaniyasına aid bir çox incəsənət nümunələrində daşlara həkk olunmuşdur. Tovuz quşu xristian ənənələrində həyat, bütpərəst dünyagörüşlərində isə ölüm simvolu kimi qəbul edilməkdədir. Bu abidələrdəki Qafqaz Albaniyası sənətkarlığında tətbiq edilən bədii oyma üsulu qədim alban bəzək motivlərindən - dolama və buruq

şəkilli xətlərdən istifadə bu daşların Qafqaz Albaniyasına xas ənənələrini əks etdirir.

Hazırda Azərbaycan ərazisində erkən orta əsrlərdə meydana gələn Kiş (Şəki r.), Qum bazilikası, Yeddi kilsə, Kürmük (Qax r.), Armatian (Zaqatala r.), məbədləri, Qəbələdəki Kilsədağ, Mamrux (Zaqatala), Lekit (Qax) kimi bir çox alban xristian məbədləri qorunub qalmışdır. Azərbaycanda müxtəlif dini dünyagörüşləri, xristianlıq və islam ideologiyası ilə qaynayıb qarışmış, xalq arasında sinkretik dini ənənələr formalaşmışdır. Pəriqala (Zaqatala), Yelisey məbədi (Oğuz), Komrad (Qəbələ), Kiş (Şəki), Kürmük (Qax) kimi bir sıra qədim alban məbədləri inancından asılı olmayaraq xalq tərəfindən pir kimi hazırda da ziyarət edilməkdədir.

Armatay dagının zirvəsində yerləşən xalq arasında Pəriqala kimi bilinən Armatay alban məbədini həm müsəlman, həm də xristian əhalinin bu gun də pir kimi qəbul edib ***Ziyarət*** adlandırır. Qax rayonu ərazisindəki qədim bir alban məbədi olan Kürmük məbədi də 1836-cı ildən Çar Rusiyası tərəfindən ləğv edilərək yerində yeni pravoslav kilsə tiksə də əhali qədim ənənlərini unutmamış və buranı qədim alban məbədi olaraq ziyarətə davam etmişlər.

Azərbaycan əhalisinin-istər müsəlman, istərsə də xristianların birgə qədim alban məbədlərini ziyarət etməsi alban tayfalarının varisləri olaraq onların öz qədim və ortaq ənənələrini unutmadıqlarını göstərir. Xristian olmalarına baxmayaraq udilərin və ingiloyların qədim ənənələrinin Azərbaycan türklərinin ənənələri ilə üst-üstə düşməsi isə ümumazərbaycan ənənələrinin qədim köklərindən və bu xalqların vahid mənəvi mədəniyyətin varisləri olmasından xəbər verir. Bu mədəniyyətlərin qarşılıqlı əlaqələri əsasında Nuhun tufanı və ümumdünya daşqını haqqında rəvayətlər, həmçinin dünya xalqlarının şəcərələrinin yaradılması ilə bağlı Yasəf və İbrahim Peyğəmbərlərin fəaliyyəti, İncil mətnləri kimi qədim ideologiyalara əsaslanan ortaq mədəniyyət formalaşmışdır.

Beləliklə, Alban mədəniyyəti və etnosu islamın qəbulu ilə transformasiyaya ugrasa da Azərbaycan xalqı bu mədəniyyətin varisi və daşıyıcılarıdır. Qafqaz Albaniyası dövrü Azərbaycan etno-mədəni irsinin ən zəngin mərhələlərindən birini təşkil edir. Albanların varisləri olaraq azərbaycanlılar 1000 illik Alban dövlətinin zəngin maddi və mənəvi irsinin mirasçılarıdır.

**XƏRİTƏLƏR**

*(*Azərbaycanın tarixi xəritələri. Bakı, 1994*)*



## ÖN ASİYA E.Ə. 1-ci MİNİLLİYİN BİRİNCİ YARISINDA




ŞƏRTİ İŞARƏLƏR

**MANNA** Dövlətlər

*ALBANLAR* Tayfalar

ANDİA Vilayətlər

O Şəhərlər

[İBERLƏR] Daha erkən dövrlərə aid tarixi adlar


MANNA DÖVLƏTİ (E.Ə. 9—7-ci ƏSRLƏR)
(Göyçə g.)
(Araz)
(Kür)
(Qarasu)
(Əhər)
(XƏZƏR DƏNİZİ)
SANGİBUTİ
GİLZAN
Libliuni
PULUADİ
Erugima
(Sarab)
BARİ
Tarmakis
(Təbriz)
SUBİ
UİŞDİŞ
(Urmiya g.)
ZİKERTU
ANDİA
(Səfidrud)
(Qızılüzən)
(Həsənli)
(Miandoab)
MANNA
MESSİ
GİZİLBUNDA
BUŞTU
Sakkız
(QARA DƏNİZ)
(XƏZƏR DƏNİZİ)
(ARALIQ DƏNİZİ)
(Kür)
(Araz)
Aşşur
Manna
Babilistan
Elam
(Dəclə)
(İran körfəzi)
Şəhərlər
Qədim qalalar
MESSİ Vilayətlər
(Təbriz) Müasir adlar

# MADA (MİDİYA) DÖVLƏTİ
## (E.Ə. 7-ci ƏSRİN SON RÜBÜ — E.Ə. 6-cı ƏSRİN ORTALARI)




**ŞƏRTİ İŞARƏLƏR**

– – – – Mada (Midiya)dövlətinin sərhədləri

**AŞŞUR** Dövlətlər

PARSA Vilayət

*KOLXLAR* Tayfalar

[*İBERLƏR*] Daha erkən dövrlərə aid tarixi adlar


ANTİK QAFQAZ ALBANİYASI
Kaspi keçidi
(Dərbənd)
ALBAN DƏNİZİ
KABALAKA
(QƏBƏLƏ)
KAMBİSENA
SAKASENA
ORXİSTENA
ALBANİYA
İBERİYA
Armastika
(Xunan)
Göyçə g.
Artaksata
BASOROPEDA
ATROPATENA
KASPİANA
KASPİ DƏNİZİ
XƏZƏR DƏNİZİ
LUPENLƏR
LEQLƏR
GELLƏR
MASSAGETLƏR
UTİLƏR
QARQARLAR
KASPİLƏR
Samur
Araz
ŞƏRTİ İŞARƏLƏR
Dövlətlərin təqribi sərhədləri
KAMBİSENA Vilayət
LEQLƏR Tayfalarlər
Pompey və Kanidinin yürüşü
Ticarət yolları
Çay ticarət yolu
Paytaxt
Şəhərlər


АЛБАНИЈА
Е.ә.III әсрдә
Хәзәр дәнизи
СИЛВЛәР
ГЕЛЛәР
ЛЕГЛәР
ЛУПЕНЛәР
Каспи гапысы
Чола
КАМБИСЕНА
Хунаракерт
Гәбәлә
ГӘБӘЛӘ
ШАКАШЕНА
ОТЕНА
ОРХИСТЕНА
АРАКСЕНА
КАСПИАНА
Нахчыван
АЛБАНИЈА
ГОГАРЕНА
Шәрти ишарәләр
-Дөвләт сәрһәдләри
-Нүфуз даирәси
ОТЕНА -вилајәт ады




ATROPATENA SASANİLƏR DÖVLƏTİNİN TƏRKİBİNDƏ (3—7-ci ƏSRLƏR)



АЛБАНИЈА
VI–VII əсрлəрдə
ХƏЗƏР ДƏНИЗИ
Дəрбəнд-Чола
ЧОЛА
ЛПИНА
КАМБИСЕНА
Киш
Шəки
ШƏКИ
Гəбəлə
ГƏБƏЛƏ
ГАРДМАН
ШАКАШЕНА
УТИ
Бəрдə
ЕЧЕРИ
АРСАХ
СИСАКАН
Пајтакаран
Агуен
Амарас
Татев
Нахчыван
БАЛАСАКАН
АЛБАНИЈА
Шəрти ишарəлəр
– Дөвлəт сəрһəдлəри
ЕЧЕРИ – əјалəт ады
– Албанија дөвлəтинин пајтахты
– Башга шəһəрлəр


ALBANİYA
5–8-ci ƏSRİN ƏVVƏLİNDƏ
XƏZƏR DƏNİZİ
Dərbənd
Çola
Qanıx
Samur
Xram
Xunan
KAMBİSENA
Kiş
Şəki
LPİNA
ÇOLA
Kür
Qabırrı (Ior)
ŞƏKİ
Qəbələ
GİRDİMAN
Xalxal
SAKASENA
QƏBƏLƏ
Şamaxı
PARTAV
Tərtər
Göyçə g.
UTİ
ARSAX
EƏRİ
Kür
Paytakaran
Araz
Aquen
SİSAKAN-SÜNİK
BALASAKAN
Amaras
Naxçıvan
Tatev
(PAYTAKARAN) KASPİANA
Kür
Araz
ŞƏRTİ İŞARƏLƏR
Paytaxt
UTİ Əyalətlər
Şəhərlər
LPİNA Vilayətlər
Albaniyanın sərhədləri

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi. Bakı, 1996.
2. Azərbaycan tarixi. I c. Bakı,1994.
3. Bünyadov Z., Yusifov Y. – Azərbaycan tarixi Dərslik. Bakı, 2007
4. Azərbaycan tarixi.7 cilddə I cild. Bakı, 2007
5. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı,1989.
6. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, Çıraq, 2007.
7. Azərbaycanda arxeoloji tədqiqatlar. Bakı, 2008
8. Azərbaycanın qədim tarixinə dair yazılı mənbələr. Bakı, 2014. -204 səh.
9. Azərbaycanın tarixi xəritələri. Bakı, 1994
10. Aşurbəyli S. Bakı şəhərinin tarixi. Bakı, 2006
11. Babayev İ. Şəmkir rayonunun Qaracəmirli kəndində Beynəlxalq Azərbaycan-Almaniya-Gürcüstan arxeoloji ekspedisiyasının 2006-2007-ci illərdə qazıntıları haqqında. // 2006-2007-ci illərdə Azərbaycanda arxeoloji və etnoqrafik tədqiqatların yekunları. Bakı, 2007, s. 70-72.
12. Bünyadov Ziya. Azərbaycan VII-IX əsrlərdə. Bakı, 2007. 424 səh.
13. Voroşil Q. Qədim Agvan əlifbası və udin dili haqqında Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri İctimai elmlər seriyası, 1962, N1.s.79-90
14. Voroşil Q. Qafqaz Albaniyası (tarixi-filoloji etüdlər.) Bakı: «Öyrətmən», 1993. 108 səh.
15. Qaşqay S. Manna dövləti. Bakı,1993
16. Qaşqay S. "Qədim Azərbaycan tarixi mixi yazılı mənbələrdə". 2006
17. Qeybullayev Q. – Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı, 1994
18. Göyüşov R. Qarabağın keçmişinə səyahət. Bakı Azərnəşr, 1993. 83 səh.
19. Cəbiyev Q.C. Girdiman tarixi (IV-IX əsrlər). Bakı, 2010, 616 səh.
20. Əfəndiyev R. Nuxa qəzasında olan asarü-ətiqələr haqqında. Bakı, 1925. S.3
21. Göyüşov R. Amaras-Agoglan. Bakı, 1975
22. Pirquliyeva Q.Ə. Numizmatikanın əsasları. Bakı, 2009.

23. Müseyibli N. Gəmiqaya. Bakı, 2004.
24. Mahmudov. Y.M. Azərbaycanlılar (etnik-siyasi tarixə ümumi baxış). Bakı, 2008,64 s.
25. Nəcəfov Ş.N. Zəyəmçay nekropolundakı qəbir abidələri və onların bəzi müqayisəli təhlili // Elmi araşdırmalar.VII buraxılış. Bakı, 2004, s.292-296
26. Nuriyeva İ. Azərbaycan tarixi (ən qədim zamanlardan– XXI əsrin əvvəllərinədək) Ali məktəblər üçün dərslik. Bakı, 2015
27. Piriyev V. Azərbaycanın tarixi - siyasi cografiyası. Bakı, 2006
28. Paşayeva M. Azərbaycanda islamaqədərki inanclar. Dövlət və Din jurnalı № 02 (43) mart-aprel 2016 s.83-93
29. Paşayeva M. Qarqalar "Ortaq türk keçmişindən ortaq türk gələcəyinə dogru". V Uluslararası konfrans materialları. Bakı, 2006
30. Fazili A. Atropatena ( e.ə. IV-VII əsrlər). Bakı, 1993
31. Məmmədova F. Azərbaycanın (Albaniya) siyasi tarixi və tarixi coğrafiyası. Bakı, 1993.
32. Əliyev K. Qafqaz Albaniyası. Bakı, 1999.
33. Əliyev K., Əliyeva F. Azərbaycan antik dövrdə. Bakı, 1997
34. Əliyev İ. Atropatena. Bakı, 1989
35. Əliyev T., Babayev F. Mil-Qarabağ bölgəsində Qafqaz Albaniyasının daha bir şəhəri aşkar olundu // Azərbaycanda arxeoloji tədqiqatlar. 2008. s.78-83
36. Hacıyev Q. Bərdə şəhəri cografi, siyasi, mədəni tarixi. Bakı, 2008
37. http://www.anl.az/down/meqale/az_muellimi/2013/may/309703.htm
38. http://heydar-aliyev-foundation.org/az/content/index/85/

*Rus dilində*

39. Алексидзе З. Что может сказать об истории церкви Кавказской Албании обнаруженный на Синайской горе грузино-албанский полимпсест // The history of Caucasus: The scientific-public Almanac. № 2.P. 15-26
40. Алиев К.Г. Античные источники по истории Азербайджана. Баку: Элм, 1987. -132 с.

41. Алиев К. Кавказская Албания I в. до н. э.- I в. н. э. Баку, 1974,
42. Алиев И.Г. Мидия—древнейшее государство на территории Азербайджана. "Очерки но древней истории Азербайджана". Баку, 1956.
43. Ахундов Д.А. Архитектура древнего и ранне-средневеового Азербайджана, Азербайджанское Государственное издательство Баку, 1986 .С 188;
44. Ахундов Т. Северо-западный Азербайджан в эпоху энеолита и бронзы. Баку, Элм, 2001
45. Ашурбейли С.Б. Очерк истории средневекового Баку. Изд.АН Азерб.ССР, 1964 S.42.
46. Бабаев Иляс Сборник статей по нумизматике. Баку, 2017
47. Бархударянц М. Арцах. Баку, 1895, части 1-II Баку, 1949- НАИИ АНА, инд. № 1622, 2010
48. Вестник Древней Истории. М., 1952 -1970
49. Вопросы истории Кавказской Албании Баку,1962
50. Ворошил Гукасян О некоторых вопросах истории албанской письменности и литературы. - Изв. АН Аз. ССР. Серия литературы, языка, 1968, № 9
51. Буниятов З.М. Из истории Кавказской Албании VII-VIII вв. Сборник «Вопросы истории Кавказской Албании». Баку, 1962 s.68-85
52. Геродот. История в девяти книгах. Л., 1972
53. Гейбуллаев Г. К этногенезу Азербайджанцев. Баку,1994. 552 s
54. Гукасян В. Тюркизмы в «Истории албан» Моисея Утийского. Баку,1971
55. Дьяконов И.М. История Мидии. М. — Л., 1956,
56. Дьяконов И.М. Последные годы Урартского государства по ассиро-вавилонским источникам /“Вестник древней истории”, № 2 (36), 1951
57. Джафаров Ю. Гунны и Азербайджан. Баку, 1985,
58. Мхитар Гош. Албанская хроника./Предисл., пер. и комент. З.М.Буниятова. Баку, 1960.
59. Моисей Каланкатуйский. История агван. СПб., 1861
60. Мамедова Ф. Кавказская Албания и албаны. Баку, 2005
61. Мамедова Ф. Д. Политическая истории и историческая география Кавказской Албании. Баку, 1986.

62. Никоноров А. История христианства в Кавказской Албании. Баку 2005.
63. Латышев В.В. Известия древних писателей греческих и латинских о Скифии и Кавказе. СПб., 1890
64. Легкобытов В. Кубинская провинция. ОРВЗК, ч. IV, СПб, s.108-109
65. История Александра Македонского. М., 1971
66. История Древнего Мира. В 3-хт.2. М., 1989
67. История Азербаиджана по документам и публикациям. Под редакцией академика З. М. Буниятова Баку 1990. - 384 с.
68. Хрестоматия по истории Древнего мира / Под редакции В.Г.Боруховича. Саратов, 1973
69. Страбон. География в 17 книгах. Л., М., 1964. кн.XI, гл.4 .
70. Карахмедова А.А. Грунтовое погребение Кишской церкви. AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun "Qafqazın Arxeologiya və Etnoqrafiyası" Beynəlxalq elmi konfransının materialları. B., 2000 C. 92-94
71. Карахмедова А.А. Христианские памятники Кавказской Албании. Баку, 1985.
72. Керимов В.. Предварительные археологические исследования Кишского комплекса //Azərbaycan Arxeologiyası və etnoqrafiyası jurnalı I buraxılış. B., 2003, s 108 – 110
73. Керимов. В. О периодизации античной и репне-средневековой архитектуры Кишского храма/AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun "Qafqazın Arxeologiyası və Etnoqrafiyası" beynəlxalq elmi konfransının materialları. Bakı, 2000,
74. Ямпольский З.Н. К изучению летописи К. Албании. AMEA-nın xəbərləri. Bakı, 1957, S 237-238
75. Ямпольский З.И. Древняя Албания III—I вв. до н. э. Издательство Академии Наук Азербайджансской ССР Баку, 1962. С.24-25).
76. Полибий. Всеобщая история в сорока книгах. /Пер. с греч. Ф. Г Мищенка, с его предисл.,примеч., указ., картами. М.: Изд-во А. Г. Кузнецова, тт. 1 - 3. 1890. 679 с.; 1895. 805 с.1899.-785с.
77. Латышев В. В. Известия древних писателей греческих и латинских о Скифии и Кавказе // Вестник древней истории. 1947. № 1-4; 1948. № 1-4; 1949. - № 1-4.

78. Геюшев Р.Б. Христианство в Кавказской Албании. Баку, 1984.
79. Величко В.Л. Кавказское Русское дело и междуплеменые вопросы. Баку, 1990. с. 107
80. Справка прокурора Эчмиадзинского Синода А. Френкеля (1907 г) ЦГИА, ф. 821. с. 139 (173) ед. хр. 96.
81. Мещанинов. Пиры Азербайджана—«Известия Государственной Академии истории материальной культуры», т, 1X, вып. 4 1931
82. Меликов Р.С., Алиев Т. Р. Об албанском городе Айниана – Йунан // Проблемы истории, филологии, культуры. Москва.., 2011 4(34) с.309-320
83. Pashayeva M. The history and etnography of Shahdagh peoples. Baku, Khazar University. 2014
84. Religions in the Caucasus. TEAS Press publishing Hause, 20

## MÜNDƏRİCAT

**GİRİŞ........................................................................... *3***

**I FƏSİL. AZƏRBAYCANDA QƏDİM TAYFA İTTİFAQLARI VƏ ERKƏN DÖVLƏT QURUMLA-RININ MEYDANA GƏLMƏSİ (e.ə.III-I minilliklər)..................................................................... *8***
1.1. Azərbaycanda qədim tayfa ittifaqları və erkən dövlət qurumları ilə bağlı mənbələr............................................ ***8***
1.1.1. Yazılı mənbələr...................................................... ***8***
1.1.2. Arxeoloji materiallar.............................................. ***18***
1.2. E.ə. III minillikdə Cənubi Azərbaycan ərazisində qədim tayfa ittifaqları...................................................... ***29***
1.3. E.ə. III-II minilliklərdə qədim Azərbaycan əhalisi..... ***42***
1.4. Şərq dövlətləri ilə iqtisadi siyasi və mədəni əlaqələr.. ***46***

**II FƏSİL. QƏDİM AZƏRBAYCAN e.ə. I MİNİLLİ-YİN ƏVVƏLLƏRİNDƏ. MANNA DÖVLƏTİNİN YARANMASI................................................................ *50***
2.1. Manna dövlətinin yaranmasının iqtisadi-siyasi şərtləri............................................................................ ***50***
2.2. Manna dövlətinin formalaşması, ərazisi, etnik tərkibi................................................................................ ***54***
2.3. Manna dövlətinin Assuriya və Urartu ilə münasibətləri. ***59***
2.4. Mannanın süqutu........................................................ ***62***
2.5. Mannanın təsərrüfat həyatı ........................................ ***68***
2.5.1. Əkinçilk.................................................................. ***69***
2.5.2. Maldarlıq................................................................ ***71***
2.5.3. Sənətkarlıq............................................................. ***74***
2.5.4. Şəhərlər və şəhər həyatı.......................................... ***81***
2.5.5. Memarlıq................................................................ ***81***
2.6. Mənəvi mədəniyyət. Dini dünyagörüşləri.................. ***82***
2.7. Kimmer-skif tayfalarının Ön Asiyaya yayılması. Skif (İskit) padşahlığı................................................................ ***84***

**III FƏSİL. AZƏRBAYCAN TARİXİNDƏ MİDİYA DÖVLƏTİNİN YERİ VƏ ROLU.................................** ***87***
3.1. Dövlətin yaranması, ərazisi, etnik tərkibi.................. ***87***
3.2. İctimai quruluş. Maday hökmdar sülalələri............... ***89***
3.3. Midiya dövlətinin süqutu.......................................... ***93***
3.3.1. Midiya dövləti tənəzzül mərhələsinin başlanması... ***93***
3.3.2. II Kirin qiyamı və Midiyada hakimiyyəti ələ keçirməsi.......................................................................... ***94***
3.4. Midiyada təsərrüfat həyatı, mədəniyyət, dini dünyagörüşləri................................................................. ***95***
3.5. Azərbaycan Əhəmənilər imperiyasının tərkibində..... ***100***
3.5.1. Midiya dövlətinin yerində Əhəməni imperiyasının yaranması..................................................................... ***101***
3.5.2. Azərbaycan torpaqları Əhəmənilər hakimiyyəti altında......................................................................... ***102***
3.5.3. Əhəmənilərə qarşı üsyanlar. Mada maqı Qaumatanın üsyanı.......................................................... ***105***
3.5.4. Əhəmənilərin hakimiyyəti altında olan Azərbaycan tayfaları............................................................................. ***108***
3.6. Makedoniyalı İskəndərin yürüşləri və Əhəməni dövlətinin süqutu............................................................. ***109***
3.6.1. E.ə. VI əsrin son rübü - IV əsrin birinci yarısında Əhəməni imperiyasının tənəzzül mərhələsi...................... ***109***
3.6.2. İskəndərin Şərq yürüşləri və bu yürüşlərin Azərbaycan üçün nəticələri............................................. ***110***

**IV FƏSİL. ATROPATENA DÖVLƏTİ.........................** ***116***
4.1. Azərbaycan ərazisində müstəqil Atropatena dövlətinin təşəkkülü. Dövlətinin ərazisi, siyasi strukturu........... ***116***
4.2. Atropatena ellin dövlətlər əhatəsində.......................... ***123***
4.3. Atropatenanın Roma və Parfiya dövlətləri ilə münasibətləri.................................................................. ***127***
4.3.1. Parfiya və Roma arasında Ön Asiyada hökmranlıq uğrunda mübarizə.......................................................... ***127***
4.3.2. Atropatena Parfiya münasibətləri............................ ***128***
4.3.3. Atropatenanın Roma ilə münasibətləri..................... ***128***
4.4. Atropatenanın maddi və mənavi mədəniyyəti............ ***129***
4.4.1. Təsərrüfat həyatı...................................................... ***129***
4.4.2. Şəhərlər. Ticarət. Pul................................................ ***130***
4.4.3. Atropatenanın etnik tərkibi və dini dünyagörüşləri..... ***132***

**V FƏSİL. QAFQAZ ALBANİYASI DÖVLƏTİ.......... *137***
5.1. Albaniya tarixi ilə bağlı mənbəşünaslıq və tarixşünaslıq.................................................................. ***137***
5.2. Albaniya dövlətinin meydana gəlməsi, sərhədləri, siyasi-inzibati vahidləri..................................................... ***145***
5.3. Qafqaz Albaniyasının siyasi quruluşu, idarəetmə sistemi, dövlət quruluşu, sosial münasibətlər................... ***158***
5.4. Albaniya dövlətində xarici işğalçılara qarşı mübarizə......................................................................... ***186***
5.5. Qafqaz Albaniyasının əhalisi, Alban Tayfa İttifaqı.... ***200***

**VI FƏSİL. QAFQAZ ALBANİYASININ İQTİSADİYYATI........................................................ *216***
6.1. Albaniyada təsərrüfat həyatı....................................... ***216***
6.1.1.Əkinçilk.................................................................. ***216***
6.1.2. Maldarlıq.............................................................. ***220***
6.1.3. Sənətkarlıq............................................................ ***221***
6.2. Qafqaz Albaniyasının şəhərləri................................. ***224***
6.3. Albaniyada ticarət və və pul tədavülü........................ ***235***

**VII FƏSİL. QAFQAZ ALBANİYASININ MƏNƏVİ MƏDƏNİYYƏTİ VƏ ETNO-MƏDƏNİ İRSİ.............. *238***
7.1. Qafqaz Albaniyasında din.......................................... ***238***
7.1.1. Albanların ibtidai dini dünyagörüşləri.................... ***238***
7.1.2. Albaniyada xristianlığın meydana gəlməsi və yayılması........................................................................ ***242***
7.2. Alban tarixi-ədəbi ənənələri...................................... ***257***
7.2.1. Alban dili və əlifbası.............................................. ***257***
7.2.2. Alban ədəbiyyatı.................................................... ***260***
7.3. Albanların etno-mədəni və dini irsinin transformasiya səbəbləri................................................... ***264***

**XƏRİTƏLƏR.............................................................. *271***

**ƏDƏBİYYAT.............................................................. *280***

| | |
|---|---|
| **Nəşriyyatın müdiri** | *Kamil Hüseynov* |
| **Baş redaktor** | *İsmət Səfərov* |
| **Redaktor** | *İsabə Hüseynova* |
| **Korrektor** | *Südabə Manafova* |
| **Kompyuter operatoru** | *Təranə Baxşəliyeva* |
| **Dizayner** | *Vüqar İbrahimov* |

***tarix elmləri doktoru, professor***

**MƏHƏBBƏT TOFİQ QIZI PAŞAYEVA**

**Azərbaycanın qədim dövlətləri**
**(e.ə. III minillik- III əsrin əvvəlləri)**

---

***Dərs vəsaiti***

***Çapa imzalanıb 25.12.2018. Kağız formatı 70x100 1/16.***
***Həcmi 18 ç.v. 23.2 ş.ç.v. Sifariş 257 Sayı 50.***

---

***"İqtisad Universiteti" Nəşriyyatı***
***AZ 1001, Bakı, İstiqlaliyyət küçəsi, 6***